Heydər Əliyev siyasəti:

# TOLERANTLIQ

(çıxışlar, nitqlər, görüşlər, təbriklər)

BAKI – 2015



Yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür.

Heydər ƏLİYEV



Bugünkü Azərbaycanı dini dözümlülük, tolerantlıq mühiti səciyyələndirir. Ölkəmizdə müxtəlif dinlərə etiqad edən bir çox xalqların nümayəndələri yaşayırlar və biz bir ailə kimi yaşayırıq.

İlham ƏLİYEV

AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

Heydər Əliyev siyasəti: **TOLERANTLIQ**
*(çıxışlar, nitqlər, görüşlər, təbriklər)*

**Bakı, "Elm və Təhsil" - 2015. 504 səh.**

Ön söz
**Mübariz QURBANLI**

Buraxılışa məsul:
**Səyyad SALAHLI (Aran)**

**ISBN: 978-9952-8176-0-7**

© DQİDK, 2015



# Mündəricat

Ön söz ........ 13
Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində nitqindən hissə *(10 oktyabr 1993-cü il)* ........ 16
Peyğəmbər Əleyhissəlamın mövludu günü münasibətilə Təzəpir məscidindəki çıxışından *(5 sentyabr 1993-cü il)* ........ 18
İsa peyğəmbərin mövlud bayramı münasibətilə Azərbaycandakı pravoslav icmasına təbrik *(7 yanvar 1994-cü il)* ........ 23
İstanbul Beynəlxalq "Sülh və Səbir" Konfransının iştirakçılarına *(7 fevral 1994-cü il)* ........ 24
İstanbulda "Sülh və Səbir" Beynəlxalq Dini Konfrans nümayəndələri qarşısında çıxış *(10 fevral 1994-cü il)* ........ 25
Orucluq bayramı münasibətilə xalqa təbrik *(12 mart 1994-cü il)* ........ 32
Orucluq bayramı günü müqəddəs yerlərə ziyarət *(14 mart 1994-cü il)* ........ 33
Şüvəlanda Mirmövsüm Ağanın qəbrini ziyarət edərkən jurnalistin "Bu bayram günündə siz ürəyinizdə hansı niyyəti yaşadırsınız?" sualına cavab *(14 mart 1994-cü il)* ........ 33
Ziyarətgaha toplaşanlar qarşısında çıxış *(14 mart 1994-cü il)* ........ 34
Nardaran pirini ziyarət etdikdən sonra ziyarətgaha toplaşanlar qarşısında çıxış *(14 mart 1994-cü il)* ........ 35
Pasxa bayramı münasibətilə Azərbaycanın xristian vətəndaşlarına təbrik *(29 aprel 1994-cü il)* ........ 36
Qurban bayramı münasibətilə xalqa təbrik *(20 may 1994-cü il)* ........ 37
Qurban bayramı münasibətilə Bakı zəhmətkeşləri ilə görüşlər – Bibiheybət ziyarətgahına toplaşanlar qarşısında çıxış *(21 may 1994-cü il)* ........ 38
Təzəpir məscidində Aşura günü mərasimində çıxış *(20 iyun 1994-cü il)* ........ 41
Səudiyyə Ərəbistanına rəsmi səfərə yola düşərkən Binə hava limanında müxbirin sualına cavabı *(9 iyul 1994-cü il)* ........ 43

Mədinə şəhərindəki Peyğəmbər məscidinin Şərəf kitabına yazılmış ürək sözləri *(12 iyul 1994-cü il)* ........ 44
Məscidlə tanışlıqdan sonra jurnalistlərlə görüşdə bəyanat *(12 iyul 1994-cü il)* ........ 48
Səudiyyə Ərəbistanından Vətənə yola düşərkən Mədinə hava limanında çıxış *(13 iyul 1994-cü il)* ........ 49
Səudiyyə Ərəbistanına – müqəddəs Məkkə və Mədinə şəhərlərinə ziyarətdən sonra Bakıda Təzəpir məscidində din xadimləri ilə görüşdə çıxış *(29 iyul 1994-cü il)* ........ 51
Mövlud bayramı münasibətilə Bakıda Təzəpir məscidində təntənəli mərasimdə çıxış *(26 avqust 1994-cü il)* ........ 59
İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Kasablanka Zirvə toplantısında çıxışı *(13 dekabr 1994-cü il)* ........ 67
Milad bayramı münasibətilə Bakıdakı Kamera Musiqisi Salonunda keçirilən mərasimdə Respublikanın pravoslav xristianlarına müraciət *(7 yanvar 1995-ci il)* ........ 73
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(2 mart 1995-ci il)* ........ 77
Ramazan bayramı münasibətilə keçirilən mərasimdə çıxış *(3 mart 1995-ci il)* ........ 78
Pasxa bayramı münasibətilə Respublika Pravoslav xristianlarına təbrik *(24 aprel 1995-ci il)* ........ 84
Yəhudi xalqının müsibəti günü münasibətilə Azərbaycanın yəhudi icmasına müraciət *(26 aprel 1995-ci il)* ........ 85
Zəvvarların Həcc ziyarətindən qayıtması münasibətilə keçirilən mərasimdə nitq *(20 may 1995-ci il)* ........ 86
Aşura günü ilə əlaqədar keçirilən mərasimdə çıxış *(9 iyun 1995-ci il)* ........ 99
Dindarlarla görüşdə çıxış *(18 avqust 1995-ci il)* ........ 101
Azərbaycan yəhudi icmasına *(25 sentyabr 1995-ci il)* ........ 109
Azərbaycanın pravoslav xristianlarına *(5 yanvar 1996-cı il)* ........ 110
Orucluq bayramı münasibətilə xalqa təbrik *(17 fevral 1996-cı il)* ........ 111





Cümə məscidində mömin soydaşlarımızla görüşdə çıxış *(9 mart 1996-cı il)* ........ 112
Ümumdünya İslam Xalq Rəhbərliyi İdarə Heyətinin növbəti toplantısı iştirakçılarına *(24 mart 1996-cı il)* ........ 115
Pasxa bayramı münasibətilə respublikanın pravoslav xristianlarına təbrik *(15 aprel 1996-cı il)* ........ 117
Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(19 aprel 1996-cı il)* ........ 118
Qurban bayramı münasibətilə "Qızılqum" sanatoriyasında müvəqqəti yerləşmiş Şuşa, Xocalı, Laçın, Ağdam qaçqınları ilə görüşdə çıxış *(28 aprel 1996-cı il)* ........ 119
Azərbaycanın yəhudi icmasına *(12 sentyabr 1996-cı il)* ........ 129
Məbəs bayramı – Məhəmmədə (s) peyğəmbərlik verilən gün münasibətilə keçirilən mərasimdə nitq *(9 dekabr 1996-cı il)* ........ 130
Azərbaycanın pravoslav xristianlarına *(5 yanvar 1997-ci il)* ........ 137
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(7 fevral 1997-ci il)* ........ 138
Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(16 aprel 1997-ci il)* ........ 140
Qurban bayramı günü Ierikli fermer Xanış Şahıyevlə görüşdə çıxış *(18 aprel 1997-ci il)* ........ 142
Pasxa bayramı münasibətilə respublikanın pravoslav xristianlarına təbrik *(25 mart 1997-ci il)* ........ 146
Azərbaycan Respublikasının yəhudi icmasına *(3 may 1997-ci il)* ........ 147
İslam dininin banisi Həzrət Məhəmmədin (s) müqəddəs Mövlud günündə Bakının Şıx kəndində Bibiheybət məscidinin bərpasına başlanması mərasimində çıxış *(23 iyul 1997-ci il)* ........ 148
ABŞ-dakı Yəhudi Təşkilatları Prezidentlərinin Konfransı Təşkilatı adından Azərbaycan Respublikası Prezidentinin şərəfinə rəsmi qəbulda çıxış *(28 iyul 1997-ci il)* ........ 157
Roma Papası II İohann Pavel ilə görüşdə söhbətdən *(26 sentyabr 1997-ci il)* ........ 164

Azərbaycanın yəhudi icmasına *(30 sentyabr 1997-ci il)* ....167
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(29 yanvar 1998-ci il)* ....168
Ramazan bayramı münasibətilə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə ilə görüşdə çıxış *(30 yanvar 1998-ci il)* ....169
Həcc ziyarətinə gedən zəvvarların bir qrupu ilə görüşdə çıxış *(28 mart 1998-ci il)* ....172
İki müqəddəs şəhərin xadimi Səudiyyə Ərəbistanının kralı Fəhd Bin Əbdüləziz Əl-Səuda *(30 mart 1998-ci il)* ....174
Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(6 aprel 1998-ci il)* ....176
Qurban bayramı münasibətilə Mirmövsüm Ağanın ziyarətgahında keçirilən görüşdə nitq *(8 aprel 1998-ci il)* ....177
Azərbaycanın pravoslav xristianlarına *(18 aprel 1998-ci il)* .... 193
Yəhudi xalqının müsibəti günü münasibətilə Azərbaycanın yəhudi icmasına müraciət *(22 aprel 1998-ci il)* ....194
Bibiheybət məscid-ziyarətgah kompleksinin açılışı mərasimində nitq *(12 iyul 1998-ci il)* ....195
"Şöhrət" ordenlərinin təqdim edilməsi mərasimi *(21 avqust 1998-ci il)* ....204
Azərbaycanın yəhudi icmasına *(19 sentyabr 1998-ci il)* ....206
"Müasirlik və dini-mənəvi dəyərlər" mövzusunda Beynəlxalq Konfransa *(29 sentyabr 1998-ci il)* ....207
Bakıda keçirilən Beynəlxalq Konfransda və Qafqaz Müsəlmanları Qurultayında nitq *(30 sentyabr 1998-ci il)* ....209
Mingəçevirdə məscid kompleksinin açılışı mərasimində nitq *(8 oktyabr 1998-ci il)* ....226
Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə andiçmə mərasimində nitq *(18 oktyabr 1998-ci il)* ....231
"İslam sivilizasiyasi Qafqazda" mövzusunda Beynəlxalq Simpoziumunun açılışı mərasimində nitq *(9 dekabr 1998-ci il)* .... 232
"İslam sivilizasiyasi Qafqazda" mövzusunda Beynəlxalq Simpoziumun iştirakçılarının böyük bir qrupu ilə görüşdə çıxış *(11 dekabr 1998-ci il)* ....247





Azərbaycanın Rus İcması Qurultayının nümayəndələrinə *(17 dekabr 1998-ci il)* ....254
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(17 yanvar 1999-cu il)* ....256
Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə ilə görüşdəki söhbətdən *(23 yanvar 1999-cu il)* ....258
Rus Pravoslav Kilsəsi Bakı-Xəzəryanı Yeparxiyasının başçısı yepiskop Aleksandr ilə görüşdə söhbət *(15 fevral 1999-cu il)* ....262
Həcc ziyarətinə gedən bir qrup zəvvarlarla görüşdəki söhbətdən *(20 mart 1999-cu il)* ....270
Bakının Bibiheybət ziyarətgahında Qurban bayramı mərasimində çıxış *(28 mart 1999-cu il)* ....278
Pasxa bayramı münasibətilə Azərbaycanın Pravoslav xristianlarına təbrik *(10 aprel 1999-cu il)* ....286
Yəhudi xalqının müsibəti günü münasibətilə Azərbaycanın yəhudi icmasına müraciət *(12 aprel 1999-cu il)* ....287
Yəhudi xalqının soyqırım tarixini əks etdirən "Holokost" xatirə muzeyində çıxış *(22 aprel 1999-cu il)* ....289
Bakının Suraxanı rayonunda "Heydər məscidi"nin açılışı mərasimində söhbət *(10 iyul 1999-cu il)* ....293
ABŞ-ın yəhudi təşkilatlarının nümayəndə heyəti ilə görüşdəki söhbət *(14 iyul 1999-cu il)* ....296
Şeyxülislam Allahşükür Paşazadəyə *(26 avqust 1999-cu il)* ....300
Azərbaycanın yəhudi icmasına *(9 sentyabr 1999-cu il)* ....302
"İslam memarlığı minilliklər ayrıcında" Beynəlxalq Seminarının iştirakçılarına *(21 sentyabr 1999-cu il)* ....303
Naxçıvan şəhərinin Sarvanlar məhəlləsində İran İslam Respublikasının "Bonyadə Mostezəfin" Fondu tərəfindən tikilmiş "Həzrəti Zəhra (s.ə)" məscidinin təntənəli açılışı mərasimində nitq *(10 oktyabr 1999-cu il)* ....305
Naxçıvanda "Kazım Qarabəkir Paşa məscidi"nin açılışı mərasimində nitq *(13 oktyabr 1999-cu il)* ....319

Azərbaycandakı dini konfessiyaların başçıları ilə görüşdə söhbət *(16 noyabr 1999-cu il)* ....327
Azərbaycan xristianlarına *(6 yanvar 2000-ci il)* ....344
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(7 yanvar 2000-ci il)* ....346
Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(14 mart 2000-ci il)* ....348
Azərbaycanın pravoslav xristianlarına *(29 aprel 2000-ci il)* ....349
Azərbaycanın yəhudi icmasına *(1 may 2000-ci il)* ....351
Vatikan dövlətinin başçısı Papa II İohann Pavel Həzrətlərinə *(18 may 2000-ci il)* ....353
Ərəb ölkələri nümayəndələri ilə görüşdə söhbət *(7 iyul 2000-ci il)* ....354
Ümumrusiya "Rifah" ictimai-siyasi hərəkatının nümayəndə heyəti ilə görüşdə söhbət *(21 iyul 2000-ci il)* ....362
Azərbaycanın yəhudi icmasına *(3 oktyabr 2000-ci il)* ....379
Vatikan dövlətinin başçısı Papa II İohann Pavel Həzrətlərinə *(5 oktyabr 2000-ci il)* ....380
Mirmövsüm Ağanın ziyarətgahında nitq *(19 dekabr 2000-ci il)* ....381
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(26 dekabr 2000-ci il)* ....389
Ramazan bayramı münasibətilə müsəlman ölkələrinin Bakıdakı diplomatları ilə görüşdə söhbət *(26 dekabr 2000-ci il)* ....390
Azərbaycanın Xristian icmasına *(6 yanvar 2001-ci il)* ....397
Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(2 mart 2001-ci il)* ....398
Azərbaycanın pravoslav xristianlarına *(14 aprel 2001-ci il)* ....399
"Qafqazın dağ yəhudiləri" Beynəlxalq Elmi Simpoziumuna *(22 aprel 2001-ci il)* ....400
Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi və onu müşayiət edən şəxslərlə görüşdə söhbət *(28 may 2001-ci il)* ....402
Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Fərman *(21 iyun 2001-ci il)* ....422
Milli-mənəvi dəyərlər və ənənələr *(14 avqust 2001-ci il)* ....424





Azərbaycan yəhudi icmasına *(15 sentyabr 2001-ci il)* ....430
Vatikan dövlətinin başçısı Papa II İohann Pavel Həzrətlərinə *(16 oktyabr 2001-ci il)* ....431
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(15 dekabr 2001-ci il)* ....432
Müqəddəs Ramazan bayramı münasibətilə müsəlman dövlətlərinin – İran, Türkiyə, Səudiyyə Ərəbistanı, Pakistan, Liviya, Misir, İraq və Özbəkistanın Bakıdakı fövqəladə və səlahiyyətli səfirləri ilə görüşdə söhbət *(17 dekabr 2001-ci il)* ....434
"İslam və müasir dövrün aktual problemləri" Beynəlxalq Elmi Konfransına *(19 dekabr 2001-ci il)* ....438
Azərbaycanın pravoslav icmasına *(5 yanvar 2002-ci il)* ....440
Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(21 fevral 2002-ci il)* .... 441
Azərbaycanın yəhudi icmasına *(8 aprel 2002-ci il)* ....443
Vatikan dövlətinin Azərbaycanda apostol nunsisi Klaudio Qucerottinin etimadnaməsinin təqdim olunması mərasimi *(12 aprel 2002-ci il)* ....445
Roma Papası II İohann Pavel Həzrətlərinə *(18 may 2002-ci il)* ....448
Heydər Əliyevin dəvəti ilə Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavelin Azərbaycana rəsmi səfəri *(22 may 2002-ci il)* ....449
Vatikan dövlətinin başçısı, Roma Papasi II İohann Pavelin rəsmi qarşılanma mərasimində nitq *(22 may 2002-ci il)* ....450
Roma Papası II İohann Pavel ilə təkbətək görüş *(22 may 2002-ci il)* ....452
Roma Papası II İohann Pavelin Azərbaycanın din, elm və incəsənət xadimləri ilə görüşündə nitq *(22 may 2002-ci il)* ....454
Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavelin Azərbaycana rəsmi səfəri başa çatdıqdan sonra təntənəli yolasalma mərasimi *(23 may 2002-ci il)* ....459
"Qafqazda sülh naminə əməkdaşlıq" mövzusunda Beynəlxalq Konfransa *(17 iyul 2002-ci il)* ....463
Türkiyənin Dini İşlər İdarəsinin rəisi Mehmet Nuri Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən söhbətindən *(22 iyul 2002-ci il)* ....465

Azərbaycanın yəhudi icmasına *(5 sentyabr 2002-ci il)*......469
"Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizmə və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda Beynəlxalq Konfransda nitq *(10 oktyabr 2002-ci il)*......470
Vatikan dövlətinin başçısı Papa II İohann Pavel Həzrətlərinə *(12 oktyabr 2002-ci il)*......479
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(4 dekabr 2002-ci il)*......480
Ramazan bayramı münasibətilə müsəlman ölkələrinin ölkəmizdəki səfirləri ilə görüş *(4 dekabr 2002-ci il)*......481
Azərbaycanın pravoslav icmasına *(4 yanvar 2003-cü il)*......485
Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik *(10 fevral 2003-cü il)*......487
Bakıda Rus Pravoslav Kilsəsinin yenidən tikilmiş Baş Kafedral kilsəsinin açılış mərasimində nitq *(24 mart 2003-cü il)*......488
Rum Patriarxı I Varfolomey və onu müşayiət edən nümayəndə heyəti ilə görüş *(17 aprel 2003-cü il)*......493
Azərbaycanın pravoslav xristianlarına *(26 aprel 2003-cü il)*......497
Qafqaz Müsəlmanlarının XI Qurultayına *(29 iyul 2003-cü il)*......499
Azərbaycanın yəhudi icmasına *(26 sentyabr 2003-cü il)*......501
Vatikan dövlətinin başçısı Papa II İohann Pavel Həzrətlərinə *(21 oktyabr 2003-cü il)*......502





# ÖN SÖZ

Müasir Azərbaycanda mükəmməl dövlət-din münasibətləri sisteminin formalaşması və tətbiqi müstəqil dövlətimizin memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Bu sahədə Ulu Öndərimizin zəngin irsinin öyrənilməsi və təbliği təkcə tarix və müasir dövr baxımından deyil, həm də gələcəkdə proseslərin istiqamətini düzgün müəyyənləşdirmək və yönləndirmək nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir. Belə ki, XXI əsrin ilk illərindən dünyada baş verən proseslər, xüsusilə dini zəmində terrorun, radikallığın və ekstremizmin güclənməsi yeni yaranmış müstəqil dövlətlərin din sahəsində ardıcıl, effektiv və daha həssas siyasət həyata keçirmələrini zərurətə çevirib.

Hazırkı dünyamızda beynəlxalq münasibətlər sistemindəki mövcud vəziyyət, o cümlədən Yaxın Şərqdə cərəyan edən qanlı hadisələr bir daha sübut edir ki, dinə yalnız inanc, mənəviyyat və hüquq məsələsi kimi deyil, həm də dövlətin və cəmiyyətin təhlükəsizliyi və sabitliyi prizmasından yanaşmaq lazımdır. Bu mənada Heydər Əliyevin dövlət-din münasibətləri, milli-mənəvi, o cümlədən dini dəyərlərin qorunması və təbliği, eləcə də tarixi-dini abidələrin bərpası, tolerantlığın və dinlərarası dialoqun təşviq edilməsi sahəsində zəngin irsinin öyrənilməsi və düzgün təbliği Azərbaycanla yanaşı, digər ölkələr üçün də faydalı ola bilər.

Bununla yanaşı, dünyəvi dövlətdə dinin yeri, eləcə də qloballaşma prosesinin getdikcə dərinləşdiyi hazırkı dövrdə milli adət-ənənələrin yaşadılması və mənəvi irsin mühafizəsi çağdaş dünyanın ən aktual məsələlərindən biri hesab olunmaqdadır. Zaman keçdikcə sürətlənən qloballaşma prosesi sanki xalqların milli xüsusiyyətlərini və özünəməxsusluğunu əridərək ümumi dəyərlərə sahib vahid dünya cəmiyyəti formalaşdırır. Təbii ki,

bu, təkcə xalqların deyil, milli dövlətlərin də gələcəyi ilə bağlı ciddi suallar doğurur. Azərbaycan xalqı üçün bu sualların cavabları Heydər Əliyevin zəngin elmi-nəzəri və əməli irsində axtarılmalıdır.

Bu gün Azərbaycanın sürətli inkişafını, uğurlu xarici və daxili siyasətini, o cümlədən dövlət-din münasibətlərinin effektiv tənzimlənməsini şərtləndirən başlıca iki amil mövcuddur. Birincisi, Heydər Əliyevin əsasını qoyduğu sağlam bünövrə, ikincisi, həmin sağlam bünövrə üzərində Ümummilli Liderimizin layiqli siyasi varisi Prezident İlham Əliyevin qurduğu uğurlu strategiya. Buna görə də, Azərbaycanın bütün sahələrdə həyata keçirdiyi siyasətin mahiyyətini, istiqamətini və perspektivlərini tam və dəqiq öyrənmək üçün respublikanın son 20 illik tarixinə bütöv nəzər yetirmək olduqca zəruri və vacibdir. Bu baxımdan dövlət-din münasibətləri, milli-mənəvi dəyərlərin qorunması və təbliği, eləcə də tolerantlıq və dinlərarası dialoq sahəsində Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti, fərman və sərəncamları, çıxış və nitqləri, görüş və qəbulları barədə məlumatların tarixi-xronoloji ardıcıllıqla toplanmasına ciddi ehtiyac var idi. Əslində bu materialların, demək olar ki, hamısı dövrü mətbuatda və müxtəlif nəşrlərdə dərc olunub, lakin onların bir mənbədə işıq üzü görməsi ilk dəfədir.

Oxucuların ixtiyarına verilən kitabda Ümummilli Liderimiz Heydər Əliyevin 1993-2003-cü illərdə dövlət-din münasibətləri, milli-mənəvi dəyərlərin qorunması, tolerantlıq və multikulturalizm ideyalarını özündə əks etdirən dəyərli çıxışları, nitqləri, görüşləri, təbrikləri və s. təqdim olunur.

Ulu Öndərin həyata keçirdiyi siyasətdə tolerantlıq hər zaman diqqət mərkəzində olub. Həyat göstərir ki, tolerantlıq Azərbaycan xalqı üçün hüquqi bir mexanizm deyil, o, eyni zamanda mənəvi borcdur. Məhz bu siyasət Ulu Öndərin xalqların yaxınlaşması, dini dözümlülük ənənələrinin qorunub saxlanılmasına çox böyük töhvə vermişdir.





Bütün konfessiyalara eyni səviyyədə münasibət, onların ibadətgahlarını fərq qoymadan ziyarət etmək, müxtəlif dinlərin və xalqların nümayəndələri ilə görüşlər Heydər Əliyevin tolerantlığa verdiyi önəmi bir daha göstərir. Azərbaycanda bütün dini mərasimlər zamanı müxtəlif konfessiyaların nümayəndələrini bir arada görmək ənənəsi də Heydər Əliyevin zamanında qoyulmuşdur.

Heydər Əliyev cəmiyyətimizdəki tolerantlıq və humanizm mühitinə görə xalqımızın yaddaşına borclu olduğumuzu deyirdi. O, Azərbaycan xalqına xas olan insanpərvərlik və tolerantlıq kimi yüksək mənəvi keyfiyyətləri əsas gətirərək ölkəmizdə milli-irqi ayrı-seçkilik, dini dözümsüzlük zəminində humanizmə zidd halların baş verməsini imkansız sayırdı.

Ümid edirik ki, topluda yer alan tarixi-xronoloji materiallar Heydər Əliyev irsinin və uğurlu strategiyasının öyrənilməsinə xidmət etməklə yanaşı, həm də Azərbaycanın bütün dünyaya nümayiş etdirdiyi dünyəvilik, tolerantlıq və mültikulturalizm ideyalarının əyani vəsaitinə çevriləcəkdir. Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitabla yaxından tanış olan hər kəs Azərbaycan xalqının xarakterik xüsusiyyətlərindən və cəmiyyətimizdə yüz illiklər ərzində formalaşmış və bu gün də davam etdirilən ənənələrindən qaynaqlanan qarşılıqlı hörmət və birgəyaşayış mədəniyyətinin məhz Ümummilli Liderimiz Heydər Əliyev və Prezidentimiz cənab İlham Əliyev tərəfindən necə qorunmasının və davamlı şəkildə təbliğ edilməsinin bariz nümunəsi ilə yaxından tanış olacaqdır.

**Mübariz QURBANLI**

*Azərbaycan Respublikası*
*Dini Qurumlarla İş üzrə*
*Dövlət Komitəsinin sədri*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİNİN ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQİNDƏN HİSSƏ

*10 oktyabr 1993-cü il*



...Demokratik sivilizasiyalı cəmiyyətdə insan hüquqlarının qorunması dövlətin əsas vəzifələrindən biridir. Əmin ola bilərsiniz ki, bu yüksək vəzifədə mən həmin sahəni daim diqqət mərkəzində saxlayacağam və insan hüquqlarının qorunması üçün bütün təminatları yaradacağam. Bir sözlə, cəmiyyətimizdə insanın tam azad olması üçün şərait yaradılacaqdır. Bu baxımdan həyatımızın indiki mərhələsində vicdan azadlığı məsələsi də mühüm yer tutur. Xalqımız öz dininə qayıtdı. İslam dini dünyada öz tarixi yerini tutmuşdur. Xalqımızın mənəviyyatına, elminə, qüdrətinə,





zəkasına İslam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimi, mədəniyyətimiz bir çox hallarda İslam dini vasitəsilə nəsildən-nəsilə keçib, indi böyük milli sərvətimiz kimi bugünkü nəsillərə çatmışdır. Azərbaycanda İslam dininə insanların sərbəst etiqad etməsi üçün bütün şərait yaradılmış və bundan sonra da yaradılacaqdır. Güman edirik ki, bizim dinimiz respublikanın bu ağır dövründə vətəndaş həmrəyliyinin, vətəndaş birliyinin yaranması üçün çox böyük fəaliyyət göstərəcəkdir.

Azərbaycan çoxmillətli respublikadır. Bu, respublikanın səciyyəvi cəhətidir. Bunun böyük tarixi var və bu tarixlə, respublikanın bu ictimai-siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai-siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır.

Bu gün bizim İslam dininin, Qafqaz müsəlmanlarının rəhbəri, xristian dininin, yəhudi dininin nümayəndələri məni bu vəzifəyə gəlmək münasibətilə təbrik etdilər. Mən onlara öz minnətdarlığımı bildirirəm və əmin etmək istəyirəm ki, Azərbaycanda bütün millətlərin, bütün dinlərin bərabər hüquqla yaşaması üçün bütün şərait yaradılacaqdır...

# PEYĞƏMBƏR ƏLEYHİSSƏLAMIN MÖVLUDU GÜNÜ MÜNASİBƏTİLƏ TƏZƏPİR MƏSCİDİNDƏKİ ÇIXIŞINDAN

*5 sentyabr 1993-cü il*

Hörmətli Şeyxülislam!
Hörmətli müsəlman qardaşlarımız!
Hörmətli qonaqlar!

Bu gün İslam aləminin böyük bir bayramıdır. Həzrət Peyğəmbər əleyhissəlamın mövludu günüdür. Bəşəriyyət tarixində Məhəmməd peyğəmbərin dünyaya gəlməsi və onun sonrakı fəaliyyəti, bəşəriyyətin böyük bir hisssəsinin dininin – İslam dininin yaranmasının bünövrəsini qoymuşdur. Ulu peyğəmbər Məhəmməd əleyhissəlamın yaydığı İslam dini və onun bütün müsəlman aləminə qoyduğu yadigar – Qurani-Kərim əsrlər boyudur ki, müsəlman dininə məxsus insanların həyatında çox böyük rol oynayır. Onların həyatı, yaşayışı, bu günə və gələcəyə, bu dünyada, o dünyada xoşbəxt olması üçün zəmin yaratdı. Ona görə də bütün İslam aləmi bu günü müqəddəs bir gün kimi qeyd edir. Və heç də təsadüfi deyil ki, Azərbaycanda Azərbaycan müsəlmanları, Azərbaycan xalqı bu gün bayram edir, bizim bu müqəddəs dinimizin banisinə daimi hörmət və ehtiramını və Qurani-Kərimin qoyduğu yolla bundan sonra da gedəcəklərini bildirir.

Mən sizi, Allah evinə – Təzəpir məscidinə toplaşmış müsəlman qardaşlarımızı, sizin şəxsinizdə istər bütün Azərbaycan müsəlmanlarını, istərsə də bütün dünya müsəlmanlarını bu müqəddəs gün münasibətilə təbrik edirəm, sizin hamınıza, bütün İslam aləminə və bütün bəşəriyyətdə olan xeyirxah insanlara səadət, xoşbəxtlik və fəaliyyətinizdə uğurlar diləyirəm!

Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu İslam dini özünün mütərəqqi olduğunu və eyni zamanda İslam dininə itaət edən adamların hamısının özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara





daimi xoşbəxtlik bəxş edir. Bizim dinimiz müsəlmanları həyatlarında rast gəldiyi çətinliklərdən xilas etməyə, düşmənlərə qarşı mübarizədə qalib gəlməyə və özlərini, öz ölkələrini, öz dinini, öz məmləkətini qoruyub saxlamağa həmişə yardım etmişdir. Heç şübhə yoxdur ki, İslam dini indiyənə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün İslam dininə itaət edən adamların hamısını xoşbəxtliyə, səadətə gətirib çıxaracaqdır.

Azərbaycan xalqı uzun müddət öz dinindən məhrum olmuşdur. Bu əlbəttə bizim üçün acınacaqlı haldır. Ancaq bu nə sizdən, nə də məndən asılı idi. Ola bilər ki, bu, Allahın işidir. Və bu da bir imtahandır ki, görsünlər insan öz dinindən məhrum olandan sonra nə bəlalara düşür və öz dininə qayıdandan sonra nə qədər xoşbəxtlik əldə edir.

İndi Azərbaycanda bizim dinimiz – İslam dini hər yerdə bərpa olunubdur, onun azad inkişaf etməsi üçün hər bir insanın öz daxili aləminə uyğun olaraq dinə öz münasibətini bildirməsi üçün və Qurani-Kərimin ehkamlarından, Ulu peyğəmbərimizin qoyduğu yoldan səmərəli istifadə etmək üçün artıq imkanlar yaranıb. Və bu son dövrdə Azərbaycanda din azadlığı əldə edildikdən sonra qısa bir müddətdə hətta bu dini unutmuş adamlar belə bu dinin – İslam dininin, öz millətinin dininin həyat üçün nə qədər əhəmiyyətli olduğunu dərk etdilər.

Biz bir dövlət kimi İslam dininin son dövrdə geniş və çox sürətlə inkişaf etməsini bəyənirik və bundan sonra da Azərbaycan Respublikasında, müstəqil Azərbaycanda hər bir insanın sərbəst olaraq öz dini adət-ənənələrinə xidmət və onlardan istifadə etməsinə bütün imkanları yaradacağıq. Nəinki imkanlar yaradacağıq, biz İslam dininin inkişafı üçün dövlət tərəfindən lazımi tədbirlərin hamısını görəcəyik. Çünki biz yaxşı bilirik ki, İslam Azərbaycan xalqının, bütün İslam aləminə mənsub olan insanların, məxluqun ən yüksək mənəviyyat mənbəyidir.

Bəli, Peyğəmbərimiz Məhəmməd əleyhissəlamdan bizə yadigar qalan və bizə bəxş edilən bu din əsrlər böyu müsəlmanları yaşadıb, onların həyatında böyük xariqələr yaratmağa kömək

edib və güman edirik ki, bundan sonra da kömək edəcək. Bildiyiniz kimi, respublikamız son illərdə ağır vəziyyətdədir. Beş ildən artıqdır ki, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal etmək üçün bizimlə müharibəyə başlamışlar. Hərbi təcavüz işğalçılıq siyasətidir. İslam dini bizi heç vaxt işğalçılığa, qəsbkarlığa sövq etməmişdir. Biz sülhsevər millətik. Bizim dinimiz də insanlara dostluq, qardaşlıq, sülh, barışıq yolu göstərmişdir. Biz həmişə bu yolla getmişik. Və müharibənin səbəbkarları nə Azərbaycan xalqıdır, nə İslam dinidir. Bu bizə qarşı olan qəsbkar işğalçılıq müharibəsidir. Biz torpaqlarımızı müdafiə edirik. Biz müstəqil Azərbaycan ərazisini müdafiə edirik, biz Azərbaycan vətəndaşlarının hüquqlarını müdafiə edirik. Təəssüf ki, bu işdə çətinliklərimiz çoxdur. Sizə məlum olan bəzi səbəblərdən son illərdə Azərbaycan torpaqlarının bir qismi erməni silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. O qüvvələr ki, onu bəzi başqa dövlətlər də dəstəkləyir, ona himayədarlıq edir. Ancaq bunların hamısı müvəqqəti bir şeydir. Bizim Azərbaycan xalqının qüdrəti, cəsarəti və öz mənliyini qorumaq əzmi mənə ümid verir deyim ki, biz bu bəladan çıxacağıq, işğal olunmuş torpaqların hamısını geri qaytaracağıq, müstəqil Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq. Azərbaycan bir müstəqil, suveren dövlət kimi dünyada bundan sonra da tarixi və bugünkü nailiyyətlərini nümayiş etdirməyə imkan tapacaq və bütün dünyada, hər yerdə, kürreyi-ərzin hər bir nöqtəsində bir daha bildirməyə çalışacaq ki, azərbaycanlılar, müsəlmanlar, bütün Azərbaycan vətəndaşları bir müstəqil dövlət içində yaşayırlar və özlərinin tarixini, dinini, ənənələrini və bugünkü həyatını qorumağa qadirdilər. Heç şübhə etmirik ki, bizim bu ədalətli mübarizəmizdə, torpaqlarımızın müdafiəsində Allah bizə həmişə yardımçı olacaqdır. Ulu peyğəmbərimiz Məhəmməd əleyhissəlamın qoyduğu yol, Qurani-Kərimin göstərişləri bizi qələbəyə aparacaq, xalqımızı birləşdirəcək və biz düşmənləri məğlub edəcəyik.

Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dilindən, dinindən, irqindən, siyasi mənsubuiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir. Hər bir şəxs hürrdür, azaddır, öz amallarını, öz fikirlərini həyata keçirə bilər. Ona görə də bizim Qurani-Kərim bunu göstərir və biz bu yolla gedirik ki, İslam dini başqa dinlərə həmişə hüsn-rəğbətlə yanaşıb, heç vaxt başqa dinlərin ehkamlarına qarşı olmayıb və dinlərə mənsub adamlarla dostluq və qardaşlıq əlaqələri yaratmağa çalışıbdır. Bu bizim tariximizin çox səhifələrində qeyd olunubdur. Və Azərbaycan Respublikasının bugünkü həyatı da bunu tam sübut edir. Mən bu gün buraya gələrkən xristian dininin, yəhudi dininin nümayəndələri ilə də qarşılaşdım. Bizim bugünkü bayramı təbrik etməyə gəliblər. Bu çox əlamətdar haldır, eyni zamanda Azərbaycanda din azadlığının, insan azadlığının parlaq təzahürüdür.

Biz bu yolla gedəcəyik. Biz öz İslam dinimizi qoruyub saxlayaraq, bizim dinimizə, əxlaqımıza, mənəviyyatımıza təcavüzlərin qarşısını alaraq heç bir başqa millətə, heç bir başqa dinə təcavüz etməyəcəyik. Hər bir millətə mənsub olan insana, hər dinə hörmətlə yanaşmışıq və yanaşacağıq. Bu, Allahın əmridir, bu bizim Ulu peyğəmbərimiz Məhəmməd əleyhissəlamın bizə tövsiyəsidir. Ona görə də Azərbaycan xalqının bu ağır dövrdə birləşməsi İslam dininin böyük mənəvi dəyərlərinə söykənir və ümidvaram ki, bizim dindarlarımız, bizim din aləmində fəaliyyət göstərən şəxslərimiz Azərbaycanın bütün vətəndaşları İslamın buyurduğu yolla gedərək Vətəni qorumaq əzmi, qəhrəmanlıq əzmi, vətənpərvərlik əzmi tərbiyə etməlidirlər. Bizim dindarlarımız, məscidlərimiz, bizim din xadimlərimiz gərək Azərbaycan ordusunun möhkəmlənməsinə, müdafiə qüdrətinin artmasına kömək etsinlər. Biz çox məmnun olarıq ki, döyüş bölgələrində bizim gəncləri daha da cəsarətli etmək üçün, daha da möhkəmlətmək üçün bizim din xadimləri də öz səylərini göstərəydilər. Mən tam əminəm ki, bizim dinimiz, din xadimlərimiz Azərbaycan Respublikasının bu ağır günündə xalqımızın, Vətəni qoruyan bütün adamların daha sıx birləşməsində, ordumuzun möhkəmlənmə-

sində, işğal olunmuş torpaqların geri qaytarılmasında bundan sonra daha fəal iştirak edəcəklər, öz səylərini göstərəcəklər və beləliklə də bir daha İslam dininin nə qədər böyük qüdrətə malik olduğunu bütün dünyaya sübut edəcəklər. Eyni zamanda, bu gün burada, Allah evinin bu müqəddəs minbərinin yanında mən sizə və bütün Azərbaycan xalqına müraciət edirəm, sizi cəsarətə, mətanətə dəvət edirəm, sizi birliyə dəvət edirəm!

Mən bu gün buradan bütün Azərbaycan vətəndaşlarına müraciət edirəm. Azərbaycan onun ərasizində yaşayan bütün xalqların doğma Vətənidir. Dinindən, dilindən, irqindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycanın dövlətçiliyini, Azərbaycanın müstəqilliyini qorumalıdır. Güman edirəm ki, Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları olan, Azərbaycan Respublikasının bütün nemətlərinin bərabər hüquqla istifadə edən başqa dinlərə mənsub olan bizim qardaşlarımız, vətəndaşlarımız da bu yolda bizimlə bir olacaqdır, biz hamımız birləşib bir yumruq kimi həm Azərbaycanın müstəqilliyini qoruyacağıq, həm də Azərbaycanın ərazi büyövlüyünü təmin edəcəyik. Mən buna əminəm və bilin ki, müvəqqəti məğlubiyyətlər bizim iradəmizi sındırmayıb və sındırmayacaqdır!

Bilin ki, Azərbaycan xalqının içində olan hər bir azərbaycanlının ruhunda olan o qüdrət hələ tam nümayiş etdirilməyib. Onlar hamısı qalxacaq, özünü biruzə verəcək və Azərbaycan xalqı qalib gələcək, öz torpaqlarının, öz həyatının, öz taleyinin sahibi olacaqdır!

Mən bir daha sizi, bütün Azərbaycan vətəndaşlarını, bütün dünya müsəlman qardaşlarımızı bu müqəddəs gün münasibətilə - Ulu peyğəmbərimiz Məhəmməd əleyhissəlamın mövludu münasibətilə səmimi qəlbdən təbrik edirəm, sizin hamınıza cansağlığı, səadət, bütün həyatınızda və işlərinizdə uğurlar diləyirəm. Allah bizə yar olsun! Allah yolunda hamımız bir olaq!





## İSA PEYĞƏMBƏRİN MÖVLUD BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANDAKI PRAVOSLAV İCMASINA TƏBRİK

Əziz pravoslav həmvətənlər!

Sizi İsa peyğəmbərin Mövlud bayramı münasibətilə təbrik edirəm!

Dünyanın bütün pravoslav xristianları üçün bu işıqlı gündə sizlərə cansağlığı, səadət diləyirəm. Arzu edirəm ki, sizin bütün nəcib niyyətləriniz yerinə yetsin, bütün diləkləriniz başa gəlsin. İnanıram ki, Azərbaycandakı pravoslav icmasının firavanlığı vətənimizin tərəqqisi və çiçəklənməsi, bütün vətəndaşlarımızın xoşbəxt gələcəyi üçün etibarlı zəmin olacaqdır.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*7 yanvar 1994-cü il*

## İSTANBUL BEYNƏLXALQ "SÜLH VƏ SƏBİR" KONFRANSININ İŞTİRAKÇILARINA

Möhtərəm konfrans iştirakçıları!

Ayrı-ayrı bölgələrdə millətlərarası münaqişələrin gücləndiyi, xalqların qarşı-qarşıya qoyulduğu narahat zəmanəmizdə bütün sülhsevər qüvvələrin, xüsusilə də din xadimlərinin bir araya gəlməsi, dünyada barışıq və əmin-amanlıq üçün səy göstərməsi təqdirəlayiq hadisədir. Adamları humanizmə, şəfqətə, nəcibliyə, yüksək mənəvi dəyərlərə səsləyən dinlərin bəşər tarixində rolu əvəzsizdir. Silahların danışdığı, Uca Tanrının günahsız bəndələrinin acı məhrumiyyətlərə düçar olduğu bir vaxtda insanlara dözümlülük, mərhəmət və qarşılıqlı hörmət duyğuları təlqin edən Müqəddəs Allah kəlamlarına dünyamızın böyük ehtiyacı var. Bəşəriyyət üçün sülhə, barışığa nail olmağın yolu Tanrı nuruna tapınmaqdan, mənəvi, ruhani kamillikdən keçib gedir.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, toplantınız xalqlar arasında sülhün, dinc və mehriban qonşuluq münasibətlərinin bərqərar olmasında öz təsirli sözünü deyəcəkdir.

Konfrans iştirakçılarını səmimi-qəlbdən salamlayır və qarşıya qoyduğunuz xeyirxah məqsədlərin gerçəkləşməsi naminə hamınıza uğurlar diləyirəm.

Hörmətlə,

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 7 fevral 1994-cü il*





## İSTANBULDA "SÜLH VƏ SƏBİR" BEYNƏLXALQ DİNİ KONFRANS NÜMAYƏNDƏLƏRİ QARŞISINDA ÇIXIŞ

*10 fevral 1994-cü il*



Bu gün sizinlə görüşməyimdən çox məmnunam. Hamınıza səmimi salamlarımı yetirir, hörmət və ehtiramımı bildirirəm.

Bildiyiniz kimi, Türkiyə Prezidenti hörmətli Süleyman Dəmirəlin dəvəti ilə mən burada rəsmi səfərdəyəm. İki gün ərzində Ankarada bizim çox səmərəli, əhəmiyyətli görüşlərimiz, danışıqlarımız oldu. Türkiyə ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığı təmin etmək üçün müqavilələr, o cümlədən dostluq və əməkdaşlıq haqqında müqavilə imzalandı. Dünən axşam İstanbula gəldim və burada sizinlə görüşmək imkanı olduğunu mənə bildirdilər. Belə bir görüşün mümkünlüyündən çox məmnun oldum və bir daha bildirirəm ki, sizinlə görüşə böyük məmnuniyyətlə gəlmişəm.

Hələ Bakıda ikən sizin konfrans haqqında mənə məlumatlar gəldi. Bu konfransın işinə çox böyük əhəmiyyət verərək və indiki dövrdə onun bütün insanlar üçün faydalı olduğunu nəzərə alaraq, sizin konfransa xüsusi məktub göndərdim. Məmnunam ki, məktubum sizə çatmış və onunla tanış olmusunuz. Fikrimcə, konfransın başlıca əhəmiyyəti ondan ibarətdir ki, siz vicdana çağırış, sülh və barışıq məsələlərini diqqət mərkəzinə çəkmisiniz. İndi bu, dünya üçün, bütün xalqlar üçün çox vacib, mühüm məsələdir. Təəssüf ki, son illərdə, iyirminci əsrin son mərhələsində dünyanın müxtəlif regionlarında sülh pozulmuş, insanlar arasında, dövlətlər arasında, ayrı-ayrı qruplar arasında toqquşmalar, vuruşmalar, müharibə gedir və bunların hamısı insanların rahat yaşamasına mane olur. Əsrimizin sonunda dünyada gedən ictimai-siyasi prosesləri təbii hesab edərək, heç vəchlə razılaşmaq olmaz ki, bu proseslər müharibə yolu ilə, toqquşmalar yolu ilə, qan tökmək yolu ilə getsin.

Yer üzərində yaşayan insanlara Allahın ən böyük tövsiyəsi ondan ibarətdir ki, onlar bir-biri ilə xoş məramda, sülh şəraitində, bir-birinə qarşılıqlı hörmət, qarşılıqlı ehtiram şəraitində yaşasınlar. Ona görə də din xadimlərinin vicdana çağırış, səbir, sülhün təmin olunması ilə bağlı təşəbbüsləri həm Allahın göstərdiyi yolla getmək deməkdir, həm də yer üzərində insanların sülh şəraitində yaşamalarına böyük köməkdir. Müharibənin, ayrı-ayrı dövlətlərin bir-biri ilə vuruşmasının, müxtəlif siyasi-ictimai qrupların bir-biri ilə savaşmasının əsas səbəbləri, şübhəsiz ki, siyasi xarakter, etnik xarakter daşıyır, birinin digərinin torpağını zorla əlindən almaq məqsədi daşıyır. Bunlar, şübhəsiz ki, dini xarakter daşıya bilməz.

İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir. Biz indi də bunun şahidiyik. Sizin bu konfransınız, müxtəlif dinləri təmsil edən xadimlərin toplaşaraq bir məsələni, bütün dünya xalqlarını narahat





edən məsələni – vicdana çağırış, sülh və səbir məsələlərini müzakirə etməsi buna canlı sübutdur. Mən sizin bu təşəbbüsünüzü və belə fədakar fəaliyyətinizi alqışlayır, ürəkdən bəyənirəm. Sizə göndərdiyim məktubda da bununla bağlı öz fikirlərimi bildirmişəm və çox məmnunam ki, indi üzbəüz, şəxsən görüşüb bu sözləri sizə çatdırmaq mənə nəsib olmuşdur. Sizin bir yerə toplaşmağınız, həmrəyliyiniz, bir-birinizlə mehriban əlaqələriniz onu göstərir ki, insanlar dini, irqi mənsubiyyətdən asılı olmayaraq birlikdə yaşaya bilərlər, bir-biri ilə mehriban, dost ola bilərlər və öz həyatlarını qura bilərlər.

Bizim Azərbaycan Respublikası üçün sizin fəaliyyətiniz xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan çoxmillətli dövlətdir. Respublikamızda bir çox millətlər əsrlər boyu birlikdə yaşayırlar. Bildiyiniz kimi Azərbaycanda İslam dini ilə yanaşı, Xristianlıq və iudaizm dinləri də var və onlar bir-biri ilə çox mehriban şəraitdə fəaliyyət göstərirlər. Biz bunu bəyan etmişik. Azərbaycanın Prezidenti kimi, mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik.

Böyük təəssüf hissilə qeyd edə bilərəm ki, bizim regionda, yəni Zaqafqaziyada – Azərbaycanda, Ermənistanda və Gürcüstanda etnik səbəblərə görə, etnik zəmin əsasında çox böyük gərginlik, toqquşmalar var, hətta müharibə gedir, qan tökülür. Bütün bunlar bizi həddindən artıq narahat edir. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti və Prezidenti kimi, şəxsən mən, çalışırıq və bundan sonra da çalışacağıq ki, regionumuzda etnik prinsiplər əsasında olan münaqişələrə son qoyulsun.

Bizi – Azərbaycan Respublikasını çox ağır vəziyyətə salan, şübhəsiz ki, erməni silahlı qüvvələrinin Azərbaycan Respubli-

kasına qarşı hərbi təcavüzüdür. Siz bilməlisiniz ki, Azərbaycan ilə Ermənistan arasında altı il bundan öncə, "Qarabağ problemi" əsasında meydana gəlmiş münaqişə indi artıq böyük müharibəyə çevrilmişdir. Güman edirəm, bizim xalqlarımız – həm Azərbaycan xalqı, həm də erməni xalqı belə bir münaqişəni istəmir. Təəssüf ki, ayrı-ayrı ekstremist, millətçi, avantürist qruplar, şəxsi məqsədlərinə nail olmağa çalışan qruplar xalqlarımızı bu münaqişəyə cəlb etmişlər və dediyim kimi, həmin münaqişə böyük bir müharibə şəklini almışdır.

Müharibənin də nəticəsi bu gün ondan ibarətdir ki, erməni silahlı qüvvələri Azərbaycana qarşı təcavüz edərək ərazimizin 20 faizini işğal etmişdir. Azərbaycanın işğal olunmuş ərazisindən bir milyondan artıq vətəndaşımız ev-eşiklərini, el-obalarını itirərək qaçqın düşmüşdür və onlar indi çox ağır şəraitdə yaşayırlar. Biz müharibə istəmirik, ona son qoymağa çalışırıq, Ermənistanla Azərbaycan arasında sülh yaratmaq istəyirik. Çünki erməni xalqı ilə Azərbaycan xalqı əsrlər boyu qonşu olmuşdur və gələcəkdə də yan-yana yaşayacaqlar. Başqa yol yoxdur. Ona görə də bu müharibənin gələcəyi yoxdur, onun nəticəsi ancaq sülh olmalıdır. Sülh isə bir şərtlə ola bilər: iki dövlətin, iki respublikanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilsin, yəni Azərbaycanın ərazi bütövlüyü təmin edilsin, erməni işğalçıları Azərbaycan ərazisindən çıxsınlar və azərbaycanlılar öz torpaqlarında yaşaya bilsinlər. Ermənistanın ərazi bütövlüyünə də heç kim qəsd etmək istəmir, onun da sərhədlərinin toxunulmazlığı təmin olunsun. Bu, sadə formula, sadə prinsipdir. Ancaq bunu həyata keçirmək üçün böyük maneələr var və bunlardan biri də odur ki, bayaq dediyim kimi, altı ilə yaxındır müharibə gedir.

Biz Ermənistana torpaq iddiası etmirik. Ancaq öz torpaqlarımızı da, şübhəsiz ki, Ermənistana verə bilmərik.

Bizim sülh təşəbbüslərimiz təəssüf ki, bir nəticə verməmişdir. Beynəlxalq təşkilatların – Birləşmiş Millətlər Təşkilatının, ATƏM-in bu məsələ üzrə yaradılmış xüsusi Minsk qrupunun





fəaliyyəti də bir nəticə verməmişdir. Hətta din xadimləri də – Şeyxülislam Hacı Allahşükür Paşazadə və erməni kilsəsinin rəhbəri də bir neçə dəfə görüşmüşlər. Təəssüf ki, bu görüşlərin də nəticəsi olmamışdır. Ancaq biz yenə də sülhsevər siyasəti davam etdiririk, bu məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq. Eyni zamanda, bildirmək istəyirəm ki, Azərbaycan gücsüz də deyildir. Əgər bizim sülhsevər təşəbbüslərimiz nəticə verməsə, biz məcburuq öz torpaqlarımızı güclə azad edək, erməni işğalçılarını torpaqlarımızdan çıxaraq. Şübhəsiz ki, biz sülh yoluna üstünlük veririk və bu yolla gedəcəyik. Ancaq kimsə müharibəni davam etdirmək istəyirsə, biz bunu da edəcəyik. Başqa yolumuz yoxdur. Sizin diqqətinizə bir məsələni də çatdırmaq istəyirəm. Bu münaqişə yalnız ərazi xarakteri daşıyır, yəni erməni silahlı qüvvələri Azərbaycan ərazisinin bir hissəsini tutmuşdur, biz onları oradan çıxarmaq istəyirik. Ermənistanın güclü təbliğatı nəticəsində dünyanın bəzi dairələrində belə bir fikir yaranmışdır ki, guya Azərbaycan dövləti, Azərbaycan hökuməti Dağlıq Qarabağda yaşayan erməniləri qırmaq, o ərazidən qovmaq istəyir. Bunların hamısı yalandır. Belə iddiaların heç bir əsası yoxdur. Mən bir həqiqəti sizin qarşınızda məsuliyyətlə bəyan edirəm: Azərbaycan hökumətinin, Azərbaycan xalqının respublikada yaşayan ermənilərə qarşı heç bir zorakılıq niyyəti, yaxud onları zorla buradan çıxarmaq məqsədi yoxdur. Onlar öz yerlərində rahat yaşaya bilərlər və Azərbaycan dövləti, şəxsən bir Prezident kimi mən, onların tamamilə təhlükəsiz, sərbəst yaşamasına, öz milli ənənələrindən, mədəniyyətlərindən, dinindən, dilindən azad surətdə istifadə etməklə həyatlarını qurmasına təminat veririk.

Əvvəllər də belə olmuşdur. Dağlıq Qarabağda münaqişə başlayanadək əhalinin 70 faizi ermənilər, 30 faizi azərbaycanlılar idi. Ancaq bu münaqişə nəticəsində, sonra isə başlanmış bu böyük müharibə nəticəsində orada yaşayan 50 min nəfər azərbaycanlı öz ölkəsində, öz dövlətində qaçqın düşmüşdür və Dağlıq Qarabağa qayıtmaq imkanları yoxdur. Ona görə də, əgər biz in-

san hüquqlarının qorunmasından danışırıqsa, şübhəsiz ki, ermənilərin də, azərbaycanlıların da hüquqları qorunmalıdır. Çünki o ərazidə həm ermənilər, həm də azərbaycanlılar yaşamışlar. Orada ermənilərin və azərbaycanlıların yan-yana, dostcasına, mehriban yaşamaları üçün şərait yaratmağa imkanımız var. Belə şərait illər boyu olmuşdur və bundan sonra da olacaqdır.

Son vaxtlar Ermənistan-Azərbaycan münaqişəsi, müharibəsi ilə əlaqədar ayrı-ayrı mətbuat orqanlarında təhlükəli şayiələr də yayılmışdır. Bu da ondan ibarətdir ki, bəzi adamlar qəsdən belə fikir yaymağa çalışırlar ki, guya bu müharibə xristian-müsəlman müharibəsinə çevrilə bilər. Bunlar əsassızdır, əvvəlcədən düşünülmüş, fitnəkar xarakter daşıyan təbliğatdır. Mən belə fikirlərə etirazımızı bildirir və onları rədd edirəm. Sizi əmin etmək istəyirəm ki, bizim fəaliyyətimiz ancaq Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar tərəfindən tanınmış və qəbul olunmuş ərazi bütövlüyünü təmin etməyə, sərhədlərimizin toxunulmazlığını təmin etməyə yönəldilmişdir.

Azərbaycanda tarixən çox millətlər yaşamışdır. Burada azərbaycanlılarla yanaşı ruslar, ermənilər, yəhudilər, gürcülər, ukraynalılar və başqaları da yaşamış və gələcəkdə də yaşayacaqlar. Azərbaycan Respublikasının çoxmillətli dövlət olmasını ölkəmiz üçün böyük üstünlük hesab edirik.

Bu fikirlərimi sizə çatdırarkən istədim ki, Azərbaycanın bugünkü vəziyyəti haqqında daha geniş məlumatınız olsun. Eyni zamanda, sizin müştərək fəaliyyətinizə müəyyən qədər kömək etmək istəyirəm. Bir daha qeyd edirəm ki, siz çox xeyirxah, dəyərli iş görürsünüz. Bu fəaliyyətinizdə sizə böyük uğurlar arzulayıram. Sizin hamınızı Azərbaycana dəvət edirəm. Çox şad olaram ki, hamınızla Azərbaycanda görüşüm. Əgər birlikdə gələ bilməsəniz, hər birinizi ayrılıqla qəbul etməyə hazıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizinlə əməkdaşlığımız davam edəcəkdir. İnsanlar üçün, bəşəriyyət üçün, dünya üçün bu xeyirxah fəaliyyətinizdə sizə müvəffəqiyyətlər diləyirəm.





Türkiyə Cümhuriyyətinin sizdən ötrü belə bir şərait yaratmasından görünür ki, bizim üçün dost və qardaş olan ölkə, doğrudan da, bütün millətlərin sülh yolu ilə birlikdə getməsinə çalışır. Güman edirəm ki, Türkiyə Cümhuriyyətinin dini işlər naziri də bu təşəbbüsünə görə böyük hörmətə layiqdir.

Mən sizinlə görüşməyimdən məmnun olduğumu bir daha bildirirəm. Diqqətinizə görə təşəkkür edirəm.

## ORUCLUQ BAYRAMI MÜNASİBƏTİLƏ XALQA TƏBRİK

Rəhmli, mərhəmətli Allahın adı ilə!

Müqəddəs kitabımız Qurani-Kərimin nazil edildiyi mübarək Ramazan ayını ləyaqətlə başa vurmuş bütün müsəlman qardaş və bacılarımızı Orucluq bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Respublikamızın müsəlmanları Ramazan ayı günlərində Allaha, Vətənə və xalqa sədaqət, sıx həmrəylik və möhkəm iradə nümayiş etdirmiş, imanlarının saflığını təkcə sözlə deyil, həm də əməllə sübut etmişlər. İndi bu bayram günündə hər bir müsəlmanın öz müqəddəs borcunu şərəflə yerinə yetirməkdən doğan rahatlıq, sevinc və fərəh hisslərini bildirməyə tam haqqı vardır.

Mən əminəm ki, bu müqəddəs Orucluq günlərindəki ibadətlərdə edilən dua və niyyətlərin böyük əksəriyyəti müstəqil Azərbaycanımızın çiçəklənməsi, torpaqlarımızda əmin-amanlığın bərqərar olması, xalqımızın xoşbəxt və firavan yaşaması arzuları ilə bağlı olmuşdur. Allahın köməyi ilə, xalqımın hümməti ilə həmin arzuların həyata keçəcəyinə tam inanıram.

Bu əziz bayram günündə müqəddəs şəhid ruhlarının narahat-narahat dolaşdığı Azərbaycanın hər bir övladına – dözümlü və mətanətli xalqıma cansağlığı, Orucluq bayramından doğan xoş əhval-ruhiyyə, əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*12 mart 1994-cü il*





## ORUCLUQ BAYRAMI GÜNÜ MÜQƏDDƏS YERLƏRƏ ZİYARƏT

*14 mart 1994-cü il*

İndi hər bir azərbaycanlının qəlbində bir niyyət var və bu amalla da müqəddəslərimizə üz tuturuq. Torpaqlarımızı erməni qəsbkarlarından azad etmək, ərazi bütövlüyümüzü və sərhədlərimizin toxunulmazlığını təmin etmək, respublikamızın tam müstəqilliyinə nail olmaq hamımızın ən ülvi istəyidir. Bu niyyətlə də müqəddəs Orucluq bayramında inanc yerlərimizi ziyarət edirik. Haqq işimizdə Allah köməyimiz olsun!

## ŞÜVƏLANDA MİRMÖVSÜM AĞANIN QƏBRİNİ ZİYARƏT EDƏRKƏN JURNALİSTİN "BU BAYRAM GÜNÜNDƏ SİZ ÜRƏYİNİZDƏ HANSI NİYYƏTİ YAŞADIRSINIZ" SUALINA CAVAB:

**Heydər Əliyev:** Bir vaxtlar niyyətim o olub ki, Azərbaycan Respublikası müstəqil dövlət olsun, xalqımız azadlığa çıxsın, istiqlal əldə edilsin. Allaha şükürlər olsun ki, biz artıq bu günlərə gəlib çıxmışıq. Respublikamız müstəqil dövlətdir, dünya tərəfindən tanınır. Xalqımız azaddır, özü öz taleyinin sahibidir, bundan sonra da azad olacaqdır. Mənə elə gəlir ki, bütün bunlar Vətənini, xalqını sevən hər bir vətənpərvər azərbaycanlının niyyəti olub. Uzun illər dövlət işləri ilə və siyasi fəaliyyətlə məşğul olduğum üçün bu fikirlər bəlkə də mənə daha doğma, daha əziz olub. Niyyətimizə çatmışıq.

## ZİYARƏTGAHA TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ

Əziz həmvətənlər, bu gün müsəlmanlar üçün xoşbəxt bir gündür, bayram günüdür. Ramazan ayı başa çatıb. Müsəlmanlar Allahın, Məhəmməd peyğəmbərin yolu ilə gedərək oruc tutublar. Bu bir ay müddətində dini ənənələrə görə hər bir müsəlman mənəviyyatca daha da paklaşır, təmizlənir, eyni zamanda, öz torpağına, öz Vətəninə, öz xalqına, dininə daha da sədaqətlə xidmət edir, saf niyyətlə yaşayaraq ibadət edir, oruc saxlayır. Bir ay başa çatıb. İndi bunu bayram edirik. Bu bayram hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir şəxsin qəlbində olan bayramdır. Güman edirəm ki, bu bayram gələcək günlərdə xalqımıza xoşbəxtlik gətirəcəkdir. Hər halda, niyyətimiz həmişə saf olub. Biz xalqımızı həmişə saflığa, paklığa dəvət etmişik, ona görə Allah da bizə yar olacaq. Həzrət Məhəmməd peyğəmbərin qoyduğu yol həmişə bizim üçün işıqlı olacaq və biz bütün bu qaranlıqlardan, çətinliklərdən çıxacağıq.

Burada çox arzular eşitdim ki, müharibə qurtarsın, əmin-amanlıq olsun. Bizim ən böyük arzumuz bundan ibarətdir. Müharibəni biz başlamamışıq. Torpağımıza yağılar tərəfindən təcavüz olub. Bu müharibə torpaqlarımız azad olunanadək gedəcək. Çünki hər bir insan üçün torpaq, Vətən ülvidir, hər bir şeydən ucadır, üstündür. Yaşayırıq ona görə ki, torpağımıza, dinimizə, milli ənənələrimizə sadiq olaq. Bu yolda hamımız bir olmalıyıq, hamımız da bir olacağıq. Şəhidlər vermişik, Allahın əmri ilə onların hamısı cənnətdədir. O şəhidlərin hamısı xalqımızın qəlbindədir. Onları heç vaxt unutmayacağıq. Bugünkü arzumuz müharibəni qurtarmaq, xalqımızı əmin-amanlığa çıxarmaq, xoşbəxt gələcəyə aparmaqdır. Əmin ola bilərsiniz ki, bir Prezident kimi mən bu yolla gedirəm və bu yolla gedəcəyəm. Bu müqəddəs bayramı sizinlə bir yerdə keçirməyimdən çox məmnunam. Bu müqəddəs amallar bizim hamımızı xoşbəxt gələcəyə aparacaqdır. *(Yerdən səslər: "Allah-Taala sizi bizə çox görməsin. Bu müqəddəs gün sizi hifz eyləsin").*





## NARDARAN PİRİNİ ZİYARƏT ETDİKDƏN SONRA ZİYARƏTGAHA TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ

**Heydər Əliyev:** Bir Prezident kimi arzu edirəm ki, xalqımız daim firavan, azad yaşasın. Lakin təəssüf edirəm ki, azadlığa keçid dövründə respublikamızda cürbəcür əcaib hallar da meydana çıxır. Bəziləri azadlığı hərc-mərclik kimi basa düşür. Bu isə çox vaxt qanunların pozulmasına, cinayətkarlığın artmasına, insanların əxlaqının pozulmasına, gənclərin pis yola düşməsinə gətirib çıxarır ki, bu da bizi ciddi narahat edir. Bunlar hamısı qanunlara, milli-dini ənənələrə zidd olan hallardır. Ona görə də hərə öz məsuliyyətini dərk etməlidir. Xalqımız milli azadlığa çıxıb, dövlətimiz artıq müstəqildir, heç kəsdən asılı deyil. Deməli, biz öz evimizi necə istəsək, elə də quracağıq. "Ev" deyəndə, mən Azərbaycanı nəzərdə tuturam. Yaxşı çalışsaq, bu evi isıqlı quracağıq. Əgər biganə qalsaq, bəzi hallarda pozğunluğa yol versək bu binanı yaxşı tikə bilməyəcəyik. Gəlin hamımız əl-ələ verərək müstəqil Azərbaycanın, böyük Azərbaycan xalqının binasını, möhtəşəm binanı birlikdə gözəl tikək.

Əziz gənclər, biz müstəqil dövlət kimi torpaqlarımızın hər bir qarışına sahib olmalı, işğal olunmuş ərazilərimizi geri qaytarmalıyıq. Hər bir gənc, hər bir vətəndaş bu yolda fədakarlıq göstərməlidir. Mən sizi – gəncləri bu yola dəvət edirəm. Sizi Azərbaycanın müstəqilliyini qorumağa, torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə hazır olmağa çağırıram. Arzu edirəm ki, gələn Ramazan bayramını qələbədən sonra qeyd edək *("Amin, inşallah").*

## PASXA BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN XRİSTİAN VƏTƏNDAŞLARINA TƏBRİK

Hörmətli həmvətənlərim!

Sizi xristianlığın ən müqəddəs və əziz bayramı – Pasxa münasibətilə səmimi qəlbdən təbrik edir, bu bayram günlərində sizə xoş əhval-ruhiyyə, əmin-amanlıq və səadət arzulayıram.

Azərbaycan torpağı əsrlər boyu müxtəlif etiqadlara tapınan insanlar üçün doğma vətən olmuşdur. Onlar da həmişə bu vətənin qeyrətini çəkmiş, onun uğrunda canlarını belə əsirgəməmişlər. İndiki ağır və məşəqqətli günlərimizdə də xristian həmvətənlərimiz Azərbaycanın digər övladları ilə birlikdə çətinliklərə sinə gərir, müqəddəs torpaqlarımızı rəşadətlə qoruyurlar.

Pasxa şadlıq və mərhəmət, haqq və ədalət bayramıdır.

İnanıram ki, bu Pasxa günlərində Ulu Tanrıdan ən ümdə diləkləriniz yurdumuzda sülhün və əmin-amanlığın bərqərar olmasıdır. Qoy bütün arzu və niyyətləriniz Tanrının köməyi və xalqımızın iradəsi ilə həyata keçsin!

**Heydər Əliyev,**
Azərbaycan Pespublikasının Prezidenti
*29 aprel 1994-cü il*





## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ XALQA TƏBRİK

Rəhmli, mərhəmətli Allahın adı ilə!

Allah-Təalanın dinimizi tamamlayıb mükəmməl etdiyi, İslamı bir din kimi bizim üçün bəyənib seçdiyi bu əziz gündə bütün müsəlman bacı və qardaşlarımızı ürəkdən təbrik edir, onlara cansağlığı və xoşbəxt həyat arzulayıram.

Hamımız üçün müqəddəs olan Qurban bayramı günlərində ən ümdə arzu və diləklərimiz doğma Azərbaycanın ərazi bütövlüyünə qarşı edilən sui-qəsdlərin dəf olunması, ölkəmizdə sülhün, əmin-amanlığın bərqərar olması, xalqın sosial-iqtisadi sıxıntılar məngənəsindən xilas olaraq asudə və firavan həyata qovuşmasıdır. Mən əminəm ki, bu arzular Allahın mərhəməti və köməyi, xalqımızın qeyrəti və zəhməti sayəsində yaxın gələcəkdə həyata keçəcəkdir. Azərbaycan xalqının böyük qəhrəmanlıq salnaməsi, əzmkarlıq və müdrikliklə zəngin ulu tarixi bu inam üçün möhkəm zəmindir.

Mübarək Qurban bayramı adətən insanlar arasında umu-küsülərin, kin-küdurətin aradan qaldırılması, yaxınların yad olunması, cəmiyyətdə mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün ən gözəl münasibət olmuşdur. Qoy bu ilki mübarək Qurban bayramı da müstəqil Azərbaycanımızın tərəqqisi naminə milli həmrəyliyin daha da möhkəmləndirilməsi işinə xidmət etsin!

**Heydər Əliyev,**
Azərbaycan Pespublikasının Prezidenti
*20 may 1994-cü il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ BAKI ZƏHMƏTKEŞLƏRİ İLƏ GÖRÜŞLƏR BİBİHEYBƏT ZİYARƏTGAHINA TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ

*21 may 1994-cü il*







Əziz qardaşlar, bacılar, hörmətli həmvətənlər. Bu gün burada – Azərbaycan xalqının, müsəlman aləminin müqəddəs yerində, Bibiheybət pirində sizi bütün müsəlmanların əziz bayramı olan Qurban bayramı münasibətilə təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm. Bu bayramı Azərbaycan xalqı ağır vəziyyətdə keçirir. Xalqımız təcavüzkarlar tərəfindən müharibəyə cəlb olunmuşdur. Qəhrəman oğullarımız torpaqlarımızı qorumaq uğrunda şəhid olurlar. Biz doğma torpaqlarımızı müdafiə edəcək, Azərbaycanın ərazi bütövlüyünü təmin edəcək, milli, dini ənənələrimizin hamısını bərpa edəcəyik. Xalqımız bundan sonra ulu babalarının yolu ilə, Həzrət Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedəcək və xoşbəxt gələcəyə çatacaqdır.

Azərbaycan xalqı bu çətinliklərin hamısına dözür və güman edirəm ki, bundan sonra da dözəcəkdir. İndi biz burada 700 il öncə yaranmış müqəddəs ocağın önündəyik. Xalqımız bu yeri unutmayıb, çünki bu yer müqəddəsdir. Azərbaycan xalqı öz tarixinə, milli ənənələrinə, ulu babalarının qoyduğu yola sadiq qalıb. Tam əmin ola bilərsiniz ki, bundan sonrakı yolumuz daha uğurlu, işıqlı, qələbəli olacaqdır.

Burada Bibiheybət məscidinin, müqəddəs yerin bərpa olunması haqqında təkliflər irəli sürülür. Bunlar çox düzgün və doğru təkliflərdir. Mən bunları qəbul edirəm və sizi əmin edirəm ki, bu təkliflərin həyata keçirilməsi üçün lazımi tədbirlər görüləcəkdir.

700 il bundan qabaqkı tarixi abidənin, müqəddəs ocağın dağıdılması bu gün bizim qarşımıza onun bərpası məsələsini qoyur. Lakin bərpa üçün vaxt lazımdır. Ancaq əmin ola bilərsiniz ki, bütün imkanlardan istifadə ediləcək, nəinki bu müqəddəs yeri, həm də Azərbaycan xalqının tarixini, milli, dini ənənələrini əks etdirən bütün abidələr, ocaqlar, müqəddəs yerlər bərpa olunacaqdır.

Bunu biz sizinlə birgə edəcəyik. Bizim görə bilmədiyimiz işləri gələcək nəsillər, davamçılarımız yerinə yetirəcəklər. Buna heç şübhəniz olmasın. Əmin olun ki, biz birləşib müstəqilliyimizi,

torpaqlarımızı qoruyacaq, həm də xalqımızın yaratdığı tarixi abidələri, ənənələri yaşadacağıq. Sizi bu bayram münasibətilə bir daha təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik, səadət arzulayıram. Sağ olun!





## TƏZƏPİR MƏSCİDİNDƏ AŞURA GÜNÜ MƏRASİMİNDƏ ÇIXIŞ

*20 iyun 1994-cü il*



Əziz bacılar və qardaşlar, əziz müsəlmanlar!

Müsəlman aləmində faciəli, müqəddəs bir günün əziz xatirəsi qeyd olunur. Bu gün Həzrət Məhəmməd peyğəmbərin nəvəsi Həzrət imam Hüseynin qətlə yetirildiyi gündür. Biz ulu babalarımızın Vətən, torpaq, haqq, ədalət yolunda şəhid olduğu günü yad edirik. Bu münasibətlə mən bütün Azərbaycan müsəlmanlarına dərin hüznlə başsağlığı verirəm.

Bütün müsəlmanlar, o cümlədən biz azərbaycanlılar həmin faciəli günü hər il yada salmaqla Vətənə, torpağa, dinimizə, məsləkimizə sədaqətimizi bir daha nümayiş etdiririk. Biz bundan sonra da Qurani-Şərifin, Həzrət Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedəcək və haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrət imam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq.

İndi Vətənimiz faciəli bir dövr keçirir. Yağı düşmən torpaqlarımıza hücum edir. Azərbaycanın cəsarətli oğulları Vətənimizi müdafiə edir və bu yolda Həzrət imam Hüseyn kimi şəhid olurlar. Biz Vətən, torpaq, din yolunda canından keçmiş bütün şəhidlərin şücaəti qarşısında Kərbəla müsibətilə əlaqədar keçirilən bu mərasimdə bir daha baş əyir, onların xatirəsini qəlbimizdə daim yaşatmağa söz veririk.

Allah dünyasını dəyişmişlərin hamısına rəhmət eləsin. Biz qətlə yetirilmiş imam Hüseynin və onun silahdaşlarının xatirəsi önündə baş əyirik. Əmin olduğumu bildirirəm ki, xalqımız öz milli ənənələrinə, adətlərinə, dininə, məsləkinə həmişə sadiq qalacaqdır. Allah bu ağır günlərdə xalqımıza səbir versin. Allah doğma Azərbaycanımızı xoşbəxt etsin!





## SƏUDİYYƏ ƏRƏBİSTANINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA MÜXBİRİN SUALINA CAVABI

*9 iyul 1994-cü il*

Dünya dövlətləri birliyində Səudiyyə Ərəbistanının özünə layiq yeri var. O, ərəb dünyasının inkişaf etmiş zəngin bir ölkəsidir. Eyni zamanda, bu dövlət dünya müsəlmanlarının müqəddəs yerlərinin mühafizidir. Ona görə də bu ölkə ilə Azərbaycan arasında əlaqələr yaradılmalıdır. İndiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında, demək olar, heç bir əlaqə olmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə müəyyən cəhdlər olsa da, bunlar bir nəticə verməmişdir. Ancaq bu ölkə dünya birliyində böyük nüfuza malik olduğuna görə, dini birliyimizi, tarixi ənənələrimizin oxşarlığını nəzərə alaraq, mən Səudiyyə Ərəbistanı məlikinin rəsmi dəvətini qəbul etmişəm və indi səfərə gedirəm. Güman edirəm ki, bu səfər yaxşı nəticələr verəcəkdir. Ən böyük nəticə kimi onu gözləyirəm ki, bizim müntəzəm əməkdaşlığımız üçün imkanlar yaranacaqdır. Səudiyyə Ərəbistanında bizim səfirliyimiz fəaliyyət göstərir. Bu günlərdə Səudiyyə Ərəbistanının səfiri də Azərbaycana gələrək öz etimadnaməsini təqdim edəcəkdir. Ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələri, turist mübadiləsi, mənəvi əlaqələr genişlənəcəkdir.

Hər il müsəlmanlar Səudiyyə Ərəbistanına ziyarətə gedirlər. Onların arasında Azərbaycandan gələnlər də olur. Ola bilər, bu barədə də danışıqlarımız olsun ki, Azərbaycandan ziyarətə gedənlərə orada necə kömək göstərə bilərlər.

Mən bu səfərə böyük məmnuniyyətlə gedirəm. Səudiyyə Ərəbistanı məni həm bir ölkə kimi maraqlandırır, həm də müsəlmanların müqəddəs yeri kimi oraya ziyarət edəcəyimi çox böyük həyəcanla gözləyirəm.

# MƏDİNƏ ŞƏHƏRİNDƏKİ PEYĞƏMBƏR MƏSCİDİNİN ŞƏRƏF KİTABINA YAZILMIŞ ÜRƏK SÖZLƏRİ

Bismillahir-rəhmanir-rəhim!

Müqəddəs Mədinə şəhərini, İslamın müqəddəs abidələrini, Həzrət Məhəmməd peyğəmbərin məqbərəsini, məscidini ziyarət etdiyim üçün bir müsəlman kimi özümü xoşbəxt hesab edirəm.

Allaha şükür olsun ki, uzun illər qəlbimdə yaşayan arzuma, niyyətimə nail oldum. Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha İslam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi, elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim.

İslamın dünyada yayılması üçün, İslam abidələrinin bütün ziyarət edənlərdən ötrü paklıq şəraitində olması üçün Həzrət Məhəmməd peyğəmbərin məqbərəsinin ətrafında yaradılmış məscid kompleksləri məni heyran etdi. Xüsusən son illərdə görülən işlər, yaradılmış möhtəşəm, əzəmətli məscid binaları böyük heyrət və ehtiram hissi doğurur. İki müqəddəs şəhərin xadimi cənab Fəhd ibn Əbdül Əziz əl-Səudun gördüyü işlər əvəzsizdir, böyük minnətdarlıq hissi doğurur. Bu müqəddəs şəhəri yaşadanlara, əsrlərdən-əsrlərə abadlaşdıranlara, xüsusən əziz dostum, qardaşım, İki müqəddəs şəhərin xadiminə hörmət və ehtiramımı bildirirəm.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*12 iyul 1994-cü il*



















## MƏSCİDLƏ TANIŞLIQDAN SONRA JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ BƏYANAT

*12 iyul 1994-cü il*

Müqəddəs İslam abidələrini ziyarət edərkən dinimizin elmi, fəlsəfi dərinliyini hiss edirsən və bu dini yaradanlara, əsrlər boyu belə abidələr yaradıb bugünkü nəsillərə çatdıranlara səcdə edirsən. Çox əzəmətlidir, hər bir müsəlmanda, o cümlədən məndə də böyük iftixar hissi oyadır. Deməli, bizim mənsub olduğumuz din qüdrətlidir, böyükdür, dünyada öz yerini tutub. Burada yaradılmış abidələr İslam dininin bütün digər vəsaitləri, yəni müqəddəs kitabımız Qurani-Şərif, Həzrət Məhəmməd peyğəmbərin qoyduğu yol ilə bərabər dinimizi yaşadacaqdır. Bu müqəddəs yerləri – Məkkəni, Mədinəni, Kəbəni və Həzrət Məhəmməd peyğəmbərin məqbərəsini ziyarət edərkən indiki nəslin və peyğəmbərin qoyduğu yolla gedən şəxslərin fəaliyyətinə yüksək qiymət verirəm.

Bu gün məscidə tanışlıqdan sonra İki müqəddəs şəhərin xadiminin, Səudiyyə Ərəbistanının bugünkü rəhbərinin, bizim əziz dostumuz və qardaşımızın nə qədər böyük xidmətləri olduğunu bir daha görürəm, hiss edirəm və bir müsəlman kimi bunlara görə qəlbimdən gələn təşəkkürümü və minnətdarlığımı bildirirəm.





## SƏUDİYYƏ ƏRƏBİSTANINDAN VƏTƏNƏ YOLA DÜŞƏRKƏN MƏDİNƏ HAVA LİMANINDA ÇIXIŞ

*13 iyul 1994-cü il*



Mən beşinci gündür, Səudiyyə Ərəbistanındayam. Buraya İki müqəddəs şəhərin xadimi, Səudiyyə Ərəbistanının məliki Fəhd ibn Əbdül Əziz əl-Səud cənablarının dəvəti ilə gəlmişəm. Bir neçə dəqiqədən sonra ölkənizi tərk edəcəyəm. Mən bu səfəri, bu ziyarəti çox uğurlu hesab edirəm və burada keçirdiyim bütün günlərdən çox razıyam. Səfər günlərində mən iki müqəddəs şəhərin xadiminin qayğı və diqqətini hər dəqiqə hiss etmişəm. Bunun nəticəsində bir müsəlman kimi mənə İslam aləminin ən müqəddəs yerlərini ziyarət etmək imkanı yaradılıbdır. Buna görə özümü xoşbəxt hesab edirəm.

Eyni zamanda, son illərdə həm Ciddədə, həm də Məkkədə və Mədinədə iki müqəddəs şəhərin xadiminin bu müqəddəs yerləri abadlaşdırmaq, genişləndirmək və dünya müsəlmanlarının ibadətinə şərait yaratmaq üçün nə qədər işlər gördüyünün şahidi oldum. Burada tikilmiş, yaradılmış məscidlər, məbədlər, ziyarət yerləri məni heyran etdi və bir müsəlman kimi məndə böyük hörmət və ehtiram hissi doğurdu. Dost və qardaş ölkəni tərk edərkən İki müqəddəs şəhərin xadimi, Səudiyyə Ərəbistanının məliki, mənim dostum və qardaşım Fəhd ibn Əbdül Əziz əl-Səud cənablarına xüsusi təşəkkürümü və minnətdarlığımı bildirirəm. İslam aləmi üçün gördüyü işlərə görə ona təşəkkür edirəm. Bu fürsətdən istifadə edib Səudiyyə Ərəbistanının xalqına, bütün əhalisinə sevgi və məhəbbətimi bildirirəm. Onları bir daha ürəkdən salamlayıram və bu qardaş xalqa səadət və xoşbəxtlik arzulayıram. Cənab əmir, Mədinədə olduğum vaxt mənə göstərdiyiniz diqqətə görə şəxsən Sizə təşəkkür edirəm.





## SƏUDİYYƏ ƏRƏBİSTANINA – MÜQƏDDƏS MƏKKƏ VƏ MƏDİNƏ ŞƏHƏRLƏRİNƏ ZİYARƏTDƏN SONRA BAKIDA TƏZƏPİR MƏSCİDİNDƏ DİN XADİMLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*29 iyul 1994-cü il*

Hörmətli qardaşlar, hörmətli həmvətənlər!

Sizin hamınızı və sizin simanızda İslam dininə etiqad edənləri, bütün azərbaycanlıları, müsəlmanları səmimi qəlbdən salamlayır, hər birinizə, müstəqil Azərbaycanımıza bu ağır dövrdə dözüm, dəyanət arzulayıram. Sizin hamınıza həyatda səadət və xoşbəxtlik diləyirəm.

Mətbuat, televiziya və digər informasiya orqanları vasitəsilə sizə məlumdur ki, mən Səudiyyə Ərəbistanının məliki, İki müqəddəs şəhərin xadimi Fəhd ibn Əbdül Əziz əl-Səud cənablarının dəvəti ilə bu ölkədə rəsmi səfərdə olmuşam və həmin ölkədəki müqəddəs yerləri ziyarət etmişəm, respublikamız üçün çox əhəmiyyətli olan danışıqlar aparmışam. Müsəlman aləmində, ərəb dünyasında, ümumən dünyada görkəmli yer tutan Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında əlaqələr yaranması üçün lazımi işlər görmüşəm.

Azərbaycan Respublikası öz müstəqilliyinin ilk addımlarını atır. Respublikamız öz müstəqilliyini tam möhkəmləndirmək və gələcəkdə də öz müstəqilliyinin sahibi olmaq üçün dünya dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa çalışır. Bilirsiniz ki, Azərbaycanın Prezidenti kimi bu, mənim xarici siyasətimin əsas istiqamətidir. Bu baxımdan Səudiyyə Ərəbistanı məlikinin, İki müqəddəs şəhərin xadiminin məni bu ölkəyə rəsmi səfərə dəvət etməsini məmnuniyyətlə qəbul etdim və həmin səfəri, ziyarəti həyata keçirdim.



Bu səfərim başqa ölkələrə səfərlərimdən xeyli fərqlənir. Fərq ondan ibarətdir ki, Səudiyyə Ərəbistanı dünya birliyində özünəlayiq nüfuzlu yer tutur, bu ölkənin İslam aləmində görkəmli yeri var, dünya siyasətinə təsiri böyükdür. Azərbaycanın belə bir dövlətlə əməkdaşlıq etməsi, həm siyasi, iqtisadi sahələrdə, həm də elm, mədəniyyət sahəsində əlaqələr qurması respublikamızın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsində böyük əhəmiyyətə malikdir.

Bu səfəri fərqləndirən digər cəhət ondan ibarətdir ki, həmin ölkədə müsəlmanların müqəddəs ziyarətgahları yerləşir: Məkkə, Kəbə, Mədinə, Həzrət Məhəmməd peyğəmbərin qəbri və məscidi hər bir müsəlman üçün olduqca əziz və müqəddəsdir. Bu müqəddəs yerlərdə Azərbaycanın bu günü və gələcəyi haqqında arzuları bəyan etmək, indiki ağır dövrdə Allahdan xalqımıza rəhm və kömək diləmək mənim üçün böyük şərəf idi.





Səfər çox səmərəli olmuş və onun ən böyük nəticəsi budur ki, Azərbaycan dövləti ilə Səudiyyə Ərəbistanı kimi nüfuzlu bir ölkə arasında, habelə Səudiyyə Ərəbistanının məliki ilə Azərbaycan Prezidenti arasında çox yaxşı əlaqələr yaranmışdır. Biz çalışacağıq ki, bu əlaqələri genişləndirək, inkişaf etdirək. Əminəm ki, bu əlaqələr gələcəkdə Azərbaycan Respublikası iqtisadiyyatının, mədəniyyətinin inkişafı üçün çox səmərəli, əhəmiyyətli olacaqdır.

Səfərin əhəmiyyəti bir də ondan ibarətdir ki, mən və məni müşayiət edən şəxslər müsəlmanların müqəddəs yerlərini ziyarət etdik. Mən Məkkədə, Kəbənin önündə müsahibə verərkən demişdim və bunu bir daha təkrar edirəm ki, müqəddəs yerləri ziyarət etmək, özümü o yerlərlə bağlamaq mənim illərlə, on illərlə ürəyimdə gəzdirdiyim ən böyük arzum idi. Ona görə də bu ziyarət mənim üçün çox böyük əhəmiyyət kəsb edir.

Biz Məkkədə müsəlmanların ən müqəddəs yerlərini ziyarət edə bildik. Məkkə şəhəri özü müqəddəs bir yerdir. Bilirsiniz ki, Məkkənin girəcəyinə hələ 50 kilometr qalmış möhkəm yoxlanış məntəqələri var və qeyri-müsəlman şəxs bu şəhərə daxil ola bilməz.

Kəbəni görmək, müqəddəs Qara daşı öpmək, ona toxunmaq, onu ziyarət etmək, Kəbənin içərisinə daxil olmaq, orada namaz qılmaq, dua etmək mənə nəsib oldu.

Müqəddəs adət-ənənələrə görə biz Kəbənin ətrafına dolandıq, iki dağ arasında olan məsafəni qət etdik. Biz ziyarətin əsrlərdən-əsrlərə keçən bütün qaydalarına riayət etdik. Əlbəttə, bu, məcburi deyil. Lakin bu, şəxsən mənim illərlə qəlbimdə yaşatdığım arzular idi. Bu arzular həm o yerləri görməkdən, həm də adət-ənənələrə uyğun olaraq ibadət etməkdən ibarət idi. Çox xoşbəxtəm ki, bunların hamısı mənə nəsib oldu. Mən orada namaz qıldım, dua etdim, qəlbimdə olan arzularımı bəyan etdim.

Bildiyiniz kimi, Mədinə şəhərində də olmaq, oranı ziyarət etmək hər bir müsəlman üçün müqəddəs bir işdir. Mən Mədinədə Həzrət Məhəmməd peyğəmbərin qəbrini ziyarət etdim. Peyğəmbərin namaz qıldığı məbədin qarşısında namaz qıldım, onun

qəbri üzərində o dövrdə tikilmiş məsciddə oldum, orada ibadət etdim, Peyğəmbərin namaz qıldığı minbərin pilləsində oturub, Quranı öpüb gözümə, alnıma basdım. Mədinədəki bütün ziyarət yerlərini ziyarət etdim.

Orada müxbirlər hansı hisslər keçirdiyimi, ürəyimdə hansı arzular olduğunu məndən tez-tez soruşurdular. O zaman da demişdim, sizin qarşınızda da deyirəm ki, mən orada indiyə qədərki həyatımda ən yüksək mənəvi hisslər keçirdim, qəlbim sevindi, ruhum şadlandı. Çünki mən anadan müsəlman kimi doğulmuşam, müsəlman kimi yaşamışam. Nəhayət, müsəlman üçün müqəddəs olan bu yerləri ziyarət etmək mənim ən böyük arzum idi. İndi bu arzuma, bu niyyətimə çatmışam. Orada dua edərkən Allahdan bir arzum olmuşdur ki, Azərbaycanın müstəqilliyini daimi etsin, respublikamızı bugünkü bəlalardan xilas etsin. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün bizə yardımını əsirgəməsin, Azərbaycanın sərhədlərinin toxunulmazlığını daim təmin etməkdə həmişə bizə köməkçi olsun, Azərbaycanın müharibə vəziyyətindən çıxması, müharibəyə son qoyulması üçün həyata keçirdiyimiz tədbirlərin müvəffəqiyyətlə başa çatmasına kömək etsin.

Bilirsiniz ki, indi respublikamız ağır vəziyyətdədir, insanlarımızın həyat şəraiti çətindir, ağırdır. Ancaq Azərbaycanın iqtisadi, elmi, mədəni, mənəvi potensialı çox böyükdür. Azərbaycan bu müharibədən, Ermənistan silahlı qüvvələrinin təcavüzündən xilas ola bilsə, öz ərazilərinin tam sahibi ola bilsə, sərhədlərinin tam hakimi ola bilsə, xalqımızın yaşayış tərzi qısa müddətdə xeyli dəyişəcəkdir. Əminəm ki, Azərbaycan xalqı öz müstəqil dövlətində, ölkəsində maddi və mənəvi mənbələrindən bəhrələnərək firavan və xoşbəxt yaşayacaqdır. Mən həmin məqsədlərə çatmaq üçün bu müqəddəs yerlərdə dua etdim, öz arzularımı bildirdim.

O müqəddəs yerlərdə arzularımdan biri də bu oldu ki, vətən, torpaq yolunda, Azərbaycanın müstəqilliyi yolunda şəhid olanlara Allah bir daha rəhmət eləsin (*Yerdən səslər: Amin*). Bir arzum da bu oldu ki, şəhidlərin ailələrinə, qohum-əqrəbasına Allah səbir versin, onlara bundan sonra da edəcəyimiz köməyin daha çox olmasına şərait yaratsın. (*Yerdən səslər: Amin*). Mənim Allahdan arzum, diləyim bu oldu ki, vətən yolunda yaralanmış, xəsarət almış, əlil olmuş adamların sağalmasına kömək etsin, onların gələcəkdə sağlam yaşamasının təmin olunmasına yardım etsin (*Yerdən səslər: Amin*). Mən o müqəddəs yerlərdə Allah-Təaladan arzu etdim ki, Azərbaycan xalqını hifz etsin, xalqımızın bundan sonra heç vaxt heç bir bəlaya düçar olmasına yol verməsin (*Yerdən səslər: Amin*). Azərbaycan xalqı öz ölkəsində, öz müstəqil dövlətində daim şən və firavan yaşaya bilsin (*Yerdən səslər: Amin*). Güman edirəm ki, əməlisaleh olduğumuza görə bizim bu dualarımız, arzularımız qəbul olunacaq (*Yerdən səslər: İnşallah*) və güman edirəm ki, biz hamımız birlikdə Azərbaycanın bu ağır vəziyyətdən çıxmasına çalışacağıq (*Yerdən səslər: İnşallah*).

Mən müqəddəs yerləri ziyarətdən bir neçə gün bundan qabaq qayıtmışam. İş yerimdən kənara ilk addımım buraya – Təzəpir məscidinə olub. Ziyarətdə də biz Allahın birinci evində, müsəlmanların evi Kəbədə, Məkkədə, Mədinədə olmuşuq. Respublikamızda da mən ilk addımı Allah evinə, məscidə atmışam, sizin qarşınızda çıxış edirəm. Bir sizin qarşınızda yox, bütün Azərbaycan xalqı qarşısında öz fikirlərimi deyirəm.

Belə bir şəraitdə, dövrdə bu duyğularla, hisslərlə yaşamalıyıq. Bu ağır vəziyyətdən çıxmaq üçün xalqımıza dözüm, dəyanət lazımdır. Mən bunu Allahdan arzu etmişəm. İndi üzümü sizə, xalqa tutub müraciət edirəm: Xalqımız dözümlü, dəyanətli, cəsarətli olsun ki, biz düşmənin təcavüzünün qarşısını ala bilək.

Bizim siyasətimiz sülhsevər siyasətdir. Müharibəyə son qoymaq istəyirik, müharibəni sülhlə qurtarmaq istəyirik. Ancaq sülh ədalətli olmalıdır. Ədalət də ondan ibarətdir ki, Azərbaycanın işğal olunmuş bütün ərazisi Ermənistan təcavüzkarlarından azad edilməli, Azərbaycan xalqı bütün ərazisinin hakimi olmalıdır, Azərbaycan Respublikasının sərhədləri toxunulmaz olmalıdır. Biz bu şərtlər əsasında sülh danışıqları aparırıq, məsələnin sülh yolu ilə başa çatdırılmasına çalışırıq. Güman edirəm ki, biz buna nail olacağıq (*Yerdən səslər: Amin*).

Biz müstəqil dövlətik. Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir. Bizim güclü ordumuz olmalıdır. Güclü ordu ona görə lazımdır ki, biz sülh danışıqlarını cəsarətlə apara bilək. Qüdrətli ordumuz olmalıdır ki, biz ərazimizin təhlükəsizliyini daim qoruya bilək, öz torpaqlarımızı, ölkəmizi müdafiə edək. Bizim qüdrətli, möhkəm ordumuz olmalıdır, ona görə ki, müstəqil Azərbaycan dövləti daim qüdrətli olsun. O müqəddəs yerlərdə mənim Allahdan arzum bu olub ki, müstəqil Azərbaycan dövlətinin qüdrətini daha da artırsın (*Yerdən səslər: Amin*). Biz bu işə bütün səylərimizi qoymuşuq və qoyacağıq. Ancaq bizə ilahinin gücü lazımdır. Güman edirəm ki, bizdə bu güc olacaqdır. Allah ordumuzu gücləndirsin, onun qüdrətini artırsın *(Yerdən səslər: Amin).*

Bu gün bu müqəddəs Allah evindən ordumuza, əsgərlərimizə, zabitlərimizə müraciət edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, onlar Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün keşiyində daim cəsarətlə duracaq və müstəqil dövlətimizin qüdrətini daha da gücləndirəcək, artıracaqlar *(Yerdən səslər: Amin).*

Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən – bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır.

Ölkəmiz demokratiya yolu ilə gedir. Mən bunu Səudiyyə Ərəbistanında da bəyan etmişəm. Ölkəmiz bütün dünya üçün açıqdır. Bizim dövlətimiz, ölkəmiz öz milli, mənəvi, dini dayaqlar üzərində qurulub və bundan sonra da yaşayacaqdır. Amma bunların hamısını təmin etmək üçün gərək hər bir vətəndaşımız öz vətəndaşlıq borcunu yerinə yetirsin, öz vətəndaşlıq məsuliyyətini dərk etsin. Əgər hər bir vətəndaş, hər bir azərbaycanlı dərk edə bilsə ki, müstəqil Azərbaycanın yaşaması, qalib gəlməsi və gələcəyə uğurla getməsi onun kiçik fəaliyyətindən də asılıdır, o bunu edəcəkdir. Sizin də, bizim də borcumuz ondan ibarətdir ki, hər bir vətəndaşı – gəncləri də, yaşlı adamları da, sizin kimi müdrik ağsaqqalları da, dindarları da – hamını agah edək ki, bu ağır dövrümüzdə hər bir vətəndaşın, hər bir azərbaycanlının mövqeyindən, fəaliyyətindən, cəmiyyətə göstərdiyi xidmətdən dövlətimizin, cəmiyyətimizin müqəddəratı, bu günü və gələcəyi asılıdır.





Son illər respublikamızda cürbəcür qarışıqlıqlar olur. Bunlara son qoymaq lazımdır. Ayrı-ayrı qüvvələrdən biri ordan hakimiyyətə gəlmək istəyir, biri burdan müxalifətdə durur. Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxalifətdə durmasın. Ayrı-ayrı adamlar, qruplar öz şəxsi, bəzən də çirkin niyyətlərinə, məqsədlərinə nail olmaq üçün Vətənimizi də, torpağımızı da, mənəviyyatımızı da qurban verməyə çalışırlar və qurban verməyə hazırdırlar. Bələləri bizim içərimizdə yaşamamalıdır. Biz belələrini ifşa etməliyik.

Respublikamızda son illər gedən proseslər cürbəcür ziddiyyətlər yaradır. Bəzi adamlarda bir-birinə qarşı kin-küdurət, ədavət, qisasçılıq hissləri yaranıb. Bunların hamısını kənara qoymaq lazımdır. Allah da belə buyurub, Qurani-Kərim də bunu bizdən tələb edir. Dinimizin əsasını qoyan və mənim bu günlərdə məbədini ziyarət etdiyim Həzrət Məhəmməd peyğəmbər də bizə bu yolu göstərir. Ona görə də mən həm sizə, bütün dindarlara, həm də bütün azərbaycanlılara müraciət edirəm. O müqəddəs yerləri ziyarət edəndən sonra bir daha mənəvi cəhətdən özümü hüquqlu hesab edərək xalqa müraciət edirəm ki, xalq birləşsin. Cəmiyyətimizdə, xalqımızın içində olan, ölkəmizin bu gününə, gələcəyinə zərər vuran adamlar kənara çəkilsinlər, onlara yol verilməsin.

Biz nə qədər bir olsaq, bir-birimizin əllərindən nə qədər möhkəm tutsaq, bir-birimizə nə qədər yaxın olsaq, müstəqil Azərbaycanın yaşamasına o qədər çox nail olacaq, xalqımız onun başına gələn bugünkü bəlalardan xilas olacaq, torpaqlarımız Ermənistanın işğalından azad olacaq, Azərbaycanda əsrlərdən-əsrlərə keçmiş milli, mənəvi dəyərlərimiz möhkəmlənəcək, daha dərin kök salacaq, inkişaf edəcək və Azərbaycan xalqı dünya xalqları içərisində ləyaqətli səviyyəyə qalxacaqdır.

İnsan hər bir səfərdən, ziyarətdən qayıdarkən bir töhfə gətirir. Oradan gələn ən böyük töhfə mənə verilmiş Qurani-Kərimdir. Xoşbəxtəm ki, orada mənə Qurani-Kərimin çox nüsxələrini bağışladılar. Mən bunları gətirmişəm və Şeyxülislama təqdim edirəm ki, Azərbaycanın məscidlərinə paylasın. Gətirdiyim bu Quranı və çox gözəl səslə oxunan Quran ayəsi yazılmış kasetləri şəxsən Təzəpir məscidinə hədiyyə edirəm. Yəni müqəddəs yerdə mənə verilmiş bu hədiyyələri gətirib buraya çatdırmağı özümə borc bilirəm. Mən oradan, müqəddəs Kəbənin müqəddəs "Zəm-zəm" suyundan da bir qədər gətirmişəm, onu da Təzəpir məscidinə verirəm. Güman edirəm ki, bu gün Təzəpir məscidinə toplaşanlar mənim Kəbədən, Məkkədən gətirdiyim "Zəm-zəm" suyundan istifadə edəcəklər.

Səfərimizin bir cəhəti də ondan ibarətdir ki, Səudiyyə Ərəbistanının məliki, İki müqəddəs şəhərin xadimi Fəhd ibn Əbdül Əziz əl-Səud cənabları mənim üçün və məni müşayiət edən şəxslər üçün şərait yaratdı ki, bütün yerlərdə televiziya, foto çəkilişi aparılsın. Son günlər siz o əzəmətli, möhtəşəm məscidləri, məbədləri, gözəl sarayları televiziyada gördünüz. Gördünüz ki, Səudiyyə Ərəbistanında müsəlman dinini qoruyan müqəddəs adamlar, o cümlədən Səudiyyə Ərəbistanının indiki məliki, İki müqəddəs şəhərin xadimi Fəhd ibn Əbdül Əziz əl-Səud son illərdə Kəbənin ətrafında, Həzrət Məhəmməd peyğəmbərin qəbrinin ətrafında olan məscidləri nə qədər genişləndirib, tikinti işləri aparıb, gözəlləşdiriblər, ziyarətə, Həccə gedənlər, müsəlmanlar üçün nə qədər gözəl şərait yaradıblar. Siz bunların hamısını televiziyada gördünüz və mən belə hesab edirəm ki, bu da səfərimizin Azərbaycan müsəlmanları üçün nəticələrindən biridir.

Mən bir daha sizi salamlayıram. Hamınıza səadət, xoşbəxtlik arzulayıram. Bu gün buraya gəldiyimə, sizinlə görüşdüyümə görə özümü çox məmnun hiss edirəm. Çox sağ olun. Təşəkkür edirəm.





## MÖVLUD BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDA TƏZƏPİR MƏSCİDİNDƏ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ

*26 avqust 1994-cü il*



Əziz həmvətənlər, möhtərəm dünya və Azərbaycan müsəlmanları! Bu gün bizim üçün müqəddəs gün – Məhəmməd peyğəmbərin mövlud günüdür. Bu münasibətlə sizi və bütün müsəlmanları təbrik edir, Qurani-Şərifin tövsiyələrinin həyata keçirilməsində hamınıza uğurlar arzulayıram.

İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir. Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir. Biz bu yolla gedirik və bundan sonra da gedəcəyik.

Son illər dinimizə qayıtmağımız, müstəqil Azərbaycan Respublikasında İslam dininin öz yerini tutması tarixi hadisədir. Əsrlər boyu xalqımız bu dinə bağlı olaraq, ondan bəhrələnərək yaşayıb-yaratmışdır. Dinimizin yasaq edildiyi son 70 il ərzində də hər bir etiqadlı adam onu öz qəlbində yaşatmışdır. İndi isə müstəqil Azərbaycan Respublikası, İslama etiqad edən azərbaycanlılar müsəlman aləminin və ümmətinin tərkib hissəsidir. Bu da əsrlər boyu yaşamış və bizim üçün böyük dayaq olan milli, dini, mənəvi ənənələrimizin bərpa və inkişafının, möhkəmlənməsinin təzahürüdür. Güman edirəm ki, biz azərbaycanlılar – bu, sonradan gələcək bütün nəsillərə də tövsiyə olunur – heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq.

Azərbaycan müstəqil dövlətdir. Azərbaycan xalqı öz milli azadlığına, müstəqilliyinə nail olmuşdur. Bu, milli, mədəni, dini ənənələrimizin bərpasına şərait yaratmışdır. Biz bu şəraitin möhkəmlənməsi üçün bundan sonra da çalışacağıq və əmin ola bilərsiniz ki, Prezident kimi mən bu yolda əlimdən gələni əsirgəməyəcəyəm.

İslam dini həmişə insanları saflığa, təmizliyə, ülvi mənəviyyata dəvət etmişdir. Qurani-Kərim insanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edir. Müstəqil Azərbaycan Respublikasının bu ağır, çox çətin, keşməkeşli dövründə bütün bunların bizdən ötrü böyük əhəmiyyəti var. Ölkəmiz altı ildir ki, müharibə şəraitindədir. Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycan ərazisinin iyirmi faizi işğal edilmişdir, bir milyondan artıq vətəndaşımız qaçqın vəziyyətində yaşayır. Xalqımız bu müharibədə qəhrəmanlıq nümunələri göstərmişdir. Cəsur oğullarımız öz torpağına, Vətəninə, milli ənənələrinə, dininə, inamına sadiq qalaraq Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini qorumaq naminə fədakarlıqla vuruşmuş və canlarından keçmiş, şikəst olmuşlar. Biz bu gün də torpaqlarımızın müdafiəsində, Vətənimizin keşiyində durmuşuq.

Bu altı ildə Azərbaycanın daxilində çox çətin, ağır, mürəkkəb proseslər getmiş, qarmaqarışıqlıq olmuşdur. Azərbaycan





müstəqil olduğuna, keçmiş sosial-iqtisadi, siyasi sistemdən yeni sistemə keçdiyinə görə bu dövrdə çox böyük çətinliklərlə üzləşmişdir. Əl-ələ verərək bu çətinliklərdən çıxmaq əvəzinə, bəzi qüvvələr, qruplar Azərbaycanın belə ağır dövründə yalnız öz mənafelərini güdmüşdür. Buna görə və eyni zamanda, Ermənistan silahlı qüvvələrinin ayrı-ayrı mənbələrdən aldıqları yardımlar nəticəsində Azərbaycan öz torpaqlarının müdafiəsində bəzi məğlubiyyətlərə uğramışdır.

Məhz bu dövrdə hər bir azərbaycanlı, hər bir müsəlman ilk növbədə İslam dininin tövsiyələrindən istifadə edərək öz mənəviyyatını yüksəltməlidir. Mənəviyyatımız nə qədər yüksək olarsa, biz insanlarda, hər bir azərbaycanlıda, müsəlmanda Vətənə, öz amallarına sədaqət, mənəvi saflıq əhval-ruhiyyəsi tərbiyə edə bilsək, Azərbaycan bu ağır böhran dövründən, çətinliklərdən tezliklə və müvəffəqiyyətlə çıxacaqdır. Sizi əmin edirəm ki, Azərbaycan dövləti, Prezident kimi şəxsən mən bu istiqamətdə, bu yollarla Azərbaycan xalqının çətin vəziyyətdən çıxması üçün lazımi tədbirlər görürük və bundan sonra da görəcəyik.

Bu gün biz Məhəmməd peyğəmbərin mövludu gününü bayram kimi qeyd edərkən, eyni zamanda, dərdlərimizi açıq-aşkar deməliyik və Azərbaycanın tam bütövlüyünü və müstəqilliyini təmin etmək üçün hər bir kəsi fəaliyyət göstərməyə çağırmalıyıq.

Bildiyiniz kimi, son vaxtlar apardığımız siyasi danışıqlar nəticəsində üç ay yarımdır ki, cəbhədə atəş dayandırılmışdır. Ermənistanla Azərbaycan arasında gedən altı illik müharibə ərzində, demək olar, ilk dəfədir ki, belə uzunmüddətli atəşkəs rejimi yaranmışdır və davam edir. Mən bunu böyük nailiyyət sayıram. Çünki Azərbaycanı ağır bəladan qurtarmaqdan ötrü bütün imkanlardan istifadə etməliyik. Şübhəsiz ki, əsas vəzifəmiz ordunu gücləndirməkdən, adamlarda vətənpərvərlik ruhunu daha da yüksəltməkdən, hər bir vətəndaşın, hər bir azərbaycanlının öz Vətənini müdafiə etməyi ən müqəddəs vəzifə saymasına nail olmaqdan, torpaqlarımızı azad etmək əzmindən ibarət olmalıdır.

Hər bir müharibə sülhlə qurtarır. Ona görə də biz ordumuzu möhkəmlətməklə yanaşı, sülh danışıqları aparılması üçün də fəaliyyət göstəririk. Bu, asan məsələ deyil. Biz beynəlxalq təşkilatların, dünyanın böyük, nüfuzlu dövlətlərinin imkanlarından ardıcıl surətdə istifadə edirik. Bu gün sizə deyə bilərəm ki, sülhməramlı danışıqlar, atəşkəs haqqında sazişlər dünya ictimaiyyəti tərəfindən müsbət qarşılanır. Biz beynəlxalq təşkilatlarla, dünyanın böyük dövlətləri olan Rusiya, Amerika Birləşmiş Ştatları ilə və Avropa ölkələri, qonşu Türkiyə və İranla, başqa dövlətlərlə danışıqlar aparırıq. Onlar da indi sülh danışıqları aparılmasını zəruri sayır və özləri də bu istiqamətdə çalışırlar. Biz bu xəttimizi davam etdirəcəyik.

Atəşin dayandırılması hələ müharibənin qurtarması demək deyildir. Biz, sadəcə olaraq, hər bir vasitədən istifadə edirik və atəşkəs də belə vasitələrdən biridir. İki gün əvvəl mən ATƏM-in Minsk qrupunun sədri cənab Yan Eliassonu qəbul etmişəm. Danışıqlarımızdan sonra o, Ermənistana getmiş və bu gün təzədən Bakıya qayıtmışdır. Biz hər gün danışıqlar aparırıq. Bunların bəziləri haqqında məlumat mətbuat vasitəsilə xalqa çatdırılır. Siz də, bütün Azərbaycan xalqı da bilin və əmin olun ki, biz gecəli-gündüzlü bu işlərlə məşğuluq və ölkəmizi bu ağır bəladan qurtarmaq istəyirik.

Müharibə xalqımıza hədsiz müsibətlər gətirmişdir. Bu müqəddəs gündə Allahın evində – Təzəpir məscidində bir daha deyirəm ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi, xalqımızın milli azadlığı uğrunda şəhid olanların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır. Allah onlara rəhmət eləsin! Şəhid ailələri hər birimizin qayğısını hiss etməlidir. Şəhid ailələrinə qayğı göstərmək üçün dövlət əlindən gələni edir və edəcəkdir. Eyni zamanda, hər bir vətəndaş, imkanlı adam, hər bir təşkilat və cəmiyyət şəhid ailələrinin vəziyyəti ilə daim maraqlanmalıdır.

Bu müharibə dövründə Vətənin müdafiəçilərinin bir qismi döyüşlərdə aldığı yaralardan şikəst, əlil olmuşdur. Onlar cəmiyyətimizdə ən hörmətli adamlardır. Bu adamlara qayğı göstərmək, onların problemlərini həll etmək hamının borcudur. Dövlət də bu sahədə lazımi tədbirlər görür. Güman edirəm ki, ictimai təşkilatlar, dini qurumlar, məscidlər də bu adamlardan qayğı və köməyini əsirgəməyəcəkdir.

Azərbaycanın müstəqilliyini qorumaq üçün ordumuz möhkəmləndirilməlidir. Ona görə yox ki, biz müharibə aparmaq istəyirik. Biz bu fikirdə deyilik, məsələnin sülh yolu ilə həllini istəyirik. Bu da müəyyən şərtlərlə bağlıdır. Yəni, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından çəkilməli, respublikamızın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin edilməli, Azərbaycan dövləti öz ərazisinin hər bir nöqtəsində hakim olmalıdır. Biz bu şərtlərlə sülh danışıqları aparır, müharibəyə son qoymağa çalışırıq.

Bununla yanaşı, silahlı qüvvələrimizin daha da möhkəmləndirilməsini unutmamalıyıq. Ona görə ki, cəbhə bölgəsində torpaqlarımızı etibarlı müdafiə edə bilək. Həm də ona görə ki, hər bir müstəqil dövlətin güclü ordusu olmalıdır. Müstəqil Azərbaycanın belə bir güclü ordusunun yaranmasında dinimizin qoyduğu yol insanların torpağa, öz xalqına, mənəviyyatına sədaqətli olmasına kömək etməlidir. Dindarlardan, ruhanilərdən, dini təşkilatlardan, məscidlərdən rica edirəm ki, ordumuzun möhkəmləndirilməsi, burada yüksək mənəviyyatlı əsgər və zabitlərin xidmət etməsi üçün əlinizdən gələni əsirgəməyin. Çünki mənəviyyatımızın əsasını milli ənənələrimiz, İslam dini təşkil edir. Ona görə də siz, gənclərə nə qədər saflıq, təmizlik, Vətənə sədaqət kimi keyfiyyətlər aşılasanız, onları bu ruhda tərbiyə etməyə çalışsanız, ordumuz bir o qədər möhkəm, qüdrətli, Azərbaycanın müstəqilliyini həmişə müdafiə etməyə qadir olacaqdır.

Bilməlisiniz ki, Azərbaycan öz müstəqilliyini heç vaxt əldən verməyəcək. Azərbaycanın hər bir vətəndaşı, hər bir müsəlman çalışmalıdır ki, bu müstəqillik, ölkəmizin beynəlxalq mövqeyi, daxili ictimai-siyasi vəziyyəti möhkəmlənsin. Bu yolda sizin də böyük rolunuz, xidmətləriniz ola bilər.

Ağır müharibə şəraitində Azərbaycan iqtisadi böhran keçirir. Bir çox obyektiv, bəzən də subyektiv səbəblərə görə istehsal müəssisələrinin bir çoxu dayanmışdır. Ona görə də respublikada yaşayış çətindir, bəzi ərzaq məhsulları çatışmır, işsizlər var. Ancaq sizi əmin etmək istəyirəm ki, bunlar hamısı müvəqqəti çətinlikdir, onları aradan qaldıracağıq. Azərbaycan xalqı belə çətinliklərlə çox üz-üzə gəlmişdir, lakin milli qürurunu, mənliyini, mənəviyyatını, ən nəhayət, ümidini heç vaxt itirməmişdir, daim ümidlə yaşayaraq gələcəyə baxmış və çətinlikləri aradan qaldırmışdır.

Bu, bizim tarixi keçmişimizdir. İndi də biz ağır mərhələdəyik. Belə bir vaxtda hər kəs əlindən gələni etməlidir ki, bu ağır vəziyyətdən çıxaq. Prezident kimi mən də, dövlətimiz, hökumətimiz də çalışırıq ki, ölkəni bu vəziyyətdən qurtaraq və əmin ola bilərsiniz ki, qurtaracağıq. Dözümlü xalqımız bu ağır dövrdə daha da dözümlü, dəyanətli, mətanətli olmalıdır. Siz din xadimləri də bu vəziyyəti adamlara izah etməlisiniz.

Ölkəmizi ağır vəziyyətdən çıxarmaq üçün, möhtərəm Şeyxülislam Hacı Allahşükür Paşazadənin də bu gün burada dediyi kimi, bizə birlik, vəhdət lazımdır. Vəhdət Azərbaycan xalqına, bütün müsəlmanlara böyük bəlalardan xilas olmaqda həmişə kömək etmişdir. Vətəndaş birliyi, milli birlik yaradılmasında din xadimlərinin də böyük rolu var. Ona görə də mən sizə müraciət edirəm. Bu ağır dövrdə xalqı dövlətin ətrafında, tutduğumuz yol, amal ətrafında birləşdirmək üçün əlinizdən gələni əsirgəməyin.

Şübhəsiz ki, tarixən hər bir cəmiyyətdə mənfi ünsürlər olmuşdur və bu gün bizim cəmiyyətimizdə də var. Əgər belə olmasaydı, Qurani-Kərimdə də insanları bəd əməldən, xatalı yoldan çəkinməyə çağıran ayələr yazılmazdı. İnsanların həmişə düz yolla, təmiz mənəviyyat yolu ilə getməsinə çalışmaq lazımdır. Cinayətə, cürbəcür təxribata əl atan adamların həm qarşısını almaq, həm





də onları tərbiyə etmək lazımdır. Bunu bizdən Allah-Təala tələb edir, bizə bu dərsi Həzrət Peyğəmbər vermişdir. Bütün bunlar Allahın Məhəmməd peyğəmbərə nazil etdiyi müqəddəs kitabımızda yazılmışdır.

Ona görə də hamınız bir olun. Aranı qarışdırmaq istəyən, respublikanın bu ağır vəziyyətində çirkin məqsədlərini həyata keçirmək istəyən qrupların, şəxslərin qarşısı alınmalıdır. Əminəm ki, din xadimlərimiz, Allaha inanan, İslama sadiq olan adamlar məhz bu yolla gedəcəklər. Mən sizə inanıram, güvənirəm və arxalanıram. Bilməlisiniz ki, Prezident kimi mən müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi üçün bundan sonra da əlimdən gələni edəcək, dövlətçiliyimizi, müstəqilliyimizi qorumaq üçün bütün tədbirləri görəcəyəm. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə xəyanət etmək istəyən hər bir şəxs Allah-Təalanın əmri ilə lazımi cəzasını alacaqdır. Bu müqəddəs vəzifələri yerinə yetirməkdə mən sizə, bütün Azərbaycan xalqına, respublikamızdakı müsəlmanlara güvənirəm və əminəm ki, qarşımızda duran vəzifələri layiqincə yerinə yetirəcəyik.

İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir. Azərbaycanda da müsəlmanlarla yanaşı, başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Çalışmalıyıq ki, dini, milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eynihüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-Təalanın buyuruğu, bizim yolumuzdur.

Bu gün müqəddəs Təzəpir məscidində sizinlə bir yerdə olmağımdan, qarşınızda çıxış edərək ürəyimdəki sözləri sizə və sizin şəxsinizdə bütün müsəlman aləminə, Azərbaycanın bütün vətəndaşlarına çatdırmaq imkanı əldə etdiyimdən məmnun qaldığımı bildirirəm. Bu müqəddəs gündə hamınıza xoşbəxtlik və cansağlığı arzulayıram. Bir daha demək istəyirəm ki, yaman günün ömrü az olar. Azərbaycan bu ağır vəziyyətdən çıxacaq, hamımız əl-ələ verərək

müstəqil Azərbaycanın gözəl gələcəyinə doğru birlikdə gedəcək, qarşımıza çıxan bütün maneələri vəhdətimiz, birliyimiz, qardaşlığımız və dostluğumuzla aradan qaldıracağıq.

Müqəddəs bayram münasibətilə sizi bir daha təbrik edir, hər birinizə, bütün xalqımıza, Azərbaycan müsəlmanlarına cansağlığı, xoşbəxtlik arzulayıram. Sizi əmin edirəm ki, mən həmişə sizinləyəm, xalqlayam və inanıram ki, xalq da seçdiyi prezidentlə birdir. Sağ olun!





## İSLAM KONFRANSI TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ KASABLANKA ZİRVƏ TOPLANTISINDA ÇIXIŞI

*13 dekabr 1994-cü il*



Hörmətli cənab sədr!

Hörmətli dövlət başçıları və nümayəndə heyətlərinin rəhbərləri!

İslam Konfransı Təşkilatının üzvü olan dövlətlərin başçılarının görüşünün çox gözəl təşkil edildiyinə görə mən hər şeydən əvvəl, Mərakeş məliki əlahəzrət II Həsənə ürəkdən təşəkkür edirəm.

Azərbaycan xalqı adından sizi – bu mötəbər məclisin iştirakçılarını böyük məmnuniyyətlə salamlayıram.

Sizə və xalqlarınıza səadət və firavanlıq arzulayıram, hörmət və ehtiramımı bildirirəm.

Biz haqlı olaraq fəxr edə bilərik ki, İslam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli töhfəsini vermişdir və neçə əsrdir ki, onun mənəvi inkişafına və təkmilləşdirilməsinə kömək edir. Bu gün dünyada mürəkkəb, ziddiyyətli proseslər getməkdədir: viranedici qlobal müharibənin qarşısının alınması, dünyanın təhlükəsizliyinin yeni təməlinin qoyulması kimi müsbət meyillər regional münaqişələrin artması ilə, yırtıcı millətçiliklə və dövrün başqa bəlaları ilə qarşılaşır. Bizim ölkələrimiz bu proseslərin qaynağındadırlar və biz beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə, sülh və tərəqqi qüvvələrinin qələbəsinə layiqli yardım etməliyik, öz səylərimizi göstərməliyik. Bunun naminə biz müsəlman ölkələrinin inkişafına mane olan əngəlləri aradan qaldırmalı, bir-birimizə yardım əli uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməliyik.

Biz fəxr edə bilərik ki, İslam Konfransı Təşkilatı da məhz bu nəcib məqsədlərə xidmət edir. Asiyanın, Afrikanın və Avropanın 52 dövlətini birləşdirən bu təşkilat bir milyard nəfərdən çox əhaliyə, böyük mənəvi, siyasi, iqtisadi, elmi və mədəni potensiala malikdir.

Ölkələrimiz arasında həmrəylik, hərtərəfli əməkdaşlıq, sülhü və təhlükəsizliyi qoruyub saxlamaq üçün ədalətə əsaslanan zəruri tədbirlər görülməsi İslam Konfransı Təşkilatının əsas prinsipləridir və onun nizamnaməsində öz ifadəsini tapmışdır.

Ötən 25 il ərzində bizim təşkilatımız dünya siyasətinin mühüm amilinə çevrilmişdir, müasir dünyanın qlobal və regional problemlərinin həllinə sanballı təsir göstərir. Amma etiraf etmək lazımdır ki, biz İslam dünyasının və öz təşkilatımızın nəhəng potensialından hələ heç də tam, istənilən səviyyədə istifadə edə





bilməmişik. Biz nəinki təkcə öz xalqlarımızın, həm də bütün dünyanın tərəqqisi işində daha sanballı, daha təsirli rol oynaya bilərik və oynamalıyıq.

Hörmətli cənablar!

Bildiyiniz kimi, çoxəsrlik tarixi, zəngin mənəvi və maddi irsi olan Azərbaycan xalqı hələ miladın yeddinci əsrindən İslam dünyasının bir hissəsini təşkil edir. Avropa ilə Asiya arasında, Qafqaz ilə Yaxın Şərq arasında mühüm coğrafi-siyasi məkanda yerləşən Azərbaycan həmişə bir çox dövlətlərin diqqət mərkəzində olmuş, müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynamışdır.

XIX əsrin əvvəllərində Azərbaycan uzunmüddətli dövlətlərarası müharibələr nəticəsində öz dövlətçiliyindən məhrum olmuş, sonra isə keçmiş Sovet İttifaqının bir hissəsinə çevrilmişdir. Bu illər ərzində bizim müsəlman məsləkimiz ciddi sınaqlardan keçmiş, Azərbaycan xalqı öz dini hisslərini açıq ifadə edə bilməmişdir. Amma bu hissləri biz içimizdə yaşatmışıq, qoynumuzda saxlamışıq, hətta ən ağır dövrlərdə öz dinimizə etiqad bəsləmişik.

Sovet İttifaqı dağıldıqdan sonra, 1991-ci ildə istiqlaliyyət əldə etməklə biz yenidən öz kökümüzə qayıtmış, din azadlığımıza nail olmuşuq. Elə həmin il Azərbaycan İslam Konfransı Təşkilatına daxil olmuşdur, onun tədbirlərinin fəal iştirakçısıdır və onun bütün strukturları ilə əməkdaşlıq edir.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra mən müsəlmanlıq borcuma əməl edərək, Məkkə və Mədinə şəhərlərinə gedib müqəddəs ziyarətgahlara səcdə qılmışam, ümrə mərasimini yerinə yetirmişəm.

Azərbaycan Respublikasının Prezidenti kimi mən öz qardaşlarımla – müsəlman dövlətlərinin başçıları ilə şəxsi münasibətlər yaratmağa, aramızda həmrəyliyi möhkəmlətməyə böyük əhəmiyyət verirəm. Əminəm ki, Mərakeşdəki Zirvə görüşü Azərbaycanın bütün İslam dünyası ilə əməkdaşlığının genişlənməsinə və dərinləşməsinə kömək edəcəkdir.

Hörmətli cənablar!

Sizə məlum olduğu kimi, Azərbaycan xalqı qonşu Ermənistan Respublikasının təcavüzünə məruz qalmış, bunun nəticəsində Azərbaycan ərazisinin 20 faizindən çoxu işğal edilmişdir. Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasında işğal etdikləri Dağlıq Qarabağ regionunda və ona bitişik yeddi digər rayonda ən qədim mədəniyyət abidələri məhv edilmiş, bütün məscidlər dağıdılmış, müsəlman məzarları təhqir olunmuş, Qurani-Kərimin nüsxələri yandırılmışdır. Ən qədim müsəlman sivilizasiyasının bütün izləri yer üzündən silinir.

Mənim həmvətənlərimin 20 min nəfərindən çoxu öldürülmüş, təqribən 100 min nəfəri yaralanmış və şikəst olmuş, bir milyondan artıq azərbaycanlı öz doğma yurdundan qovulmuş, onların evləri viran edilmiş və yandırılmışdır. Bu adamlar, o cümlədən uşaqlar, qadınlar və qocalar erməni təcavüzkarlarının törətdikləri soyqırımının bütün dəhşətlərini görmüş, qohum-əqrəbalarını itirmişlər. İndi isə sərt qış şəraitində çadır şəhərciklərində dözülməz vəziyyətdə yaşayırlar, soyuqdan donurlar, yoluxucu xəstəliklərə tutulurlar, ərzaq, dərman, pal-paltar sarıdan korluq çəkirlər.

Öz qətnaməsində Ermənistan Respublikasının müstəqil Azərbaycana qarşı təcavüzünü pisləmiş İslam Konfransı Təşkilatının fəaliyyətini biz yüksək qiymətləndiririk. O bu münaqişənin aradan qaldırılması işində iştirak edən beynəlxalq təşkilatlara müvafiq müraciətlər göndərmişdir. Hesab edirəm ki, belə tədbirləri davam etdirmək lazımdır və biz çox ümidvarıq ki, İslam Konfransı Təşkilatının hər bir üzvü bu tədbirləri dəstəkləyəcəkdir.

Görüşümüzə Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamə layihəsi təqdim edilmişdir. Mən hamınızı bu layihəni bəyənməyə dəvət edirəm.

Son vaxtlar Ermənistan ilə Azərbaycan arasında atəşkəs əldə olunmuşdur. Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin Budapeştdəki Zirvə görüşü çoxmillətli sülhü mühafizə qüvvələrinin təşkil olunub münaqişə zonasına göndərilməsi





haqqında mühüm qərar qəbul etmişdir. Bu, Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Müşavirənin iştirakçısı olan dövlətlərin səyləri və bizim onlarla konstruktiv əməkdaşlığımız sayəsində mümkün olmuşdur.

Münaqişənin tamamilə aradan qaldırılması üçün ermənilərin bütün silahlı birləşmələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmasını, qaçqınların doğma yurdlarına qaytarılmasını, Azərbaycanın bütün ərazisi üzərində onun suveren hüquqlarının bərpa edilməsini nəzərdə tutan siyasi saziş bağlanmalıdır. Lakin Ermənistan Respublikası işğal olunmuş ərazilərin azad edilməsinə dair Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirməkdən boyun qaçırır.

Hazırda sülhə nail olmaq üçün beynəlxalq həmrəyliyin, təcavüzkara beynəlxalq səviyyədə təzyiq göstərilməsinin çox böyük əhəmiyyəti var. İslam Konfransı Təşkilatı kimi nüfuzlu təşkilat və onun hər bir üzvü tərəfindən təzyiq göstərilməsi də son dərəcə vacibdir. Ona görə də, hörmətli görüş iştirakçıları, mən sizə üz tutub xahiş edirəm ki, siyasi iradənizi qətiyyətlə bildirəsiniz və Azərbaycan dövlətinin ərazi bütövlüyü uğrunda bizim ədalətli mübarizəmizə tərəfdar çıxasınız.

Bu mötəbər kürsüdən mən öz qardaşlarıma – Türkiyənin, İranın, Pakistanın, Səudiyyə Ərəbistanının və bir çox başqa ölkələrin, İslam xeyriyyəçiliyi təşkilatının rəhbərlərinə təşəkkür edirəm. Onlar xalqımızın müsibətinə öz münasibətlərini dərhal bildirərək qaçqınları ən zəruri əşyalarla təmin etmişlər və bu gün də bizə yardım göstərməkdədirlər.

Mən bizi dar ayaqda tək qoymayanların hamısına minnətdaram. Amma indi ölkəmizin sakinlərinin hər yeddi nəfərindən biri qaçqındır. Humanitar vəziyyət son dərəcə ağırdır, bizim yardıma çox böyük ehtiyacımız var və mən kömək üçün sizə müraciət edirəm.

Altıillik müharibə nəticəsində Azərbaycan Respublikası ağır iqtisadi və sosial böhran keçirməkdədir. Müharibənin xalqımıza və ölkəmizin iqtisadiyyatına vurduğu yaralara, böyük maddi

zərərə baxmayaraq, biz sülhə və sabitliyə nail olmaq naminə əlimizdən gələni edirik.

Bu il sentyabrın 20-də biz Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlədilməsi üçün dünyanın bir sıra iri şirkətləri ilə müqavilə imzalamışıq. Bu, Azərbaycanın xarici investisiyalar, iqtisadi əməkdaşlıq və dünya iqtisadiyyatına inteqrasiya üçün açıq olduğunu nümayiş etdirir. Müharibə ilə əlaqədar yaranmış ağır şəraitə baxmayaraq, biz islahatlar aparmaq, bazar münasibətlərinə əsaslanan iqtisadiyyat yaratmaq yolu ilə əzmlə irəliləyirik, xalqımızın güzəranını yaxşılaşdırmağa çalışırıq.

Zati-aliləri!

Öz çıxışımda mən xalqımın ağrı-acılarından və iztirablarından danışdım. Bununla yanaşı, Bosniya və Herseqovinada, Kəşmirdə, Fələstində, dünyanın bütün qaynar nöqtələrində milliyyətindən və dinindən asılı olmayaraq başqa xalqların da dərdi və iztirabları məni narahat edir. Bosniya və Herseqovinada son vaxtlar yaranmış vəziyyət xüsusi təşviş və ürək ağrısı doğurur. Orada qırğın və dağıntılar dəhşətli miqyas almışdır. Ona görə də biz qanlı qırğının dərhal dayandırılması üçün və bu münaqişənin ədalətlə aradan qaldırılmasına nail olmaq üçün bütün imkanlarımızdan istifadə etməliyik, var qüvvəmizi sərf etməliyik.

Nitqimi bitirərək, mən aramızdakı həmrəyliyə, İslam Konfransı Təşkilatının prinsiplərinə və məqsədlərinə sadiq olduğumu bildirirəm, sülh, sabitlik və tərəqqi naminə hamını öz səylərini birləşdirməyə çağırıram. Mən sizin hamınıza və xalqlarınıza səadət və əmin-amanlıq arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.





## MİLAD BAYRAMI MÜNASİBƏTİLƏ BAKIDAKI KAMERA MUSİQİSİ SALONUNDA KEÇİRİLƏN MƏRASİMDƏ RESPUBLİKANIN PRAVOSLAV XRİSTİANLARINA MÜRACİƏT

*7 yanvar 1995-ci il*



Hörmətli xanımlar və cənablar, bacılar və qardaşlar, Azərbaycan vətəndaşları! Sizi müqəddəs gün – İsa Məsihin Milad günü münasibətilə ürəkdən təbrik edir, sizə və sizin şəxsinizdə Azərbaycanın bütün xristian vətəndaşlarına xoşbəxtlik, firavanlıq, sevinc, sülh və mərhəmət arzulayıram.

Bu müqəddəs gün hamımızı sülhə, əmin-amanlığa, başqa dinlərə münasibətdə dözümlü olmağa çağırır. Bu gün həm xristian pravoslavlar, həm də Azərbaycanda hamı üçün eyni dərəcədə müqəddəs və xoş gündür. Bu gün Azərbaycanda hamıya əziz-

dir. Bu anda biz tarixi köklərimizə müraciət edirik. İslam dini, Məhəmməd peyğəmbərə, İsa peyğəmbərə ehtiramla yanaşmışdır. Məlum olduğu kimi, İslamın müqəddəs kitabı Qurani-Kərimin surələrindən biri xristianlığa, İsa Məsihaya həsr edilmişdir. Başqa sözlə, bizim tarixi köklərimiz dərinlərə gedib çıxır, dostluğumuz və qardaşlığımız hələ dinlərimizin meydana gəldiyi vaxtdan başlayır. Biz də buna sadiq olmalıyıq.

Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər. Xristian dininə sitayiş edən vətəndaşlara da bizdə həmişə ehtiram göstərilmiş və onlar digər vətəndaşlarla bərabər hüquqlardan istifadə etmişlər. Azərbaycanda xristian pravoslav icmasının iki yüz illik tarixi var. Müxtəlif dinlərə mənsub olan xalqlarımız iki əsr ərzində vahid dostluq ailəsinə qovuşmuşlar, onların kədəri də, sevinci də bir olmuşdur. Azərbaycanda beynəlmiləlçilik hissi, bir-birinə qarşı dözümlü olmaq, Azərbaycan xalqının başqa xalqlara, xristianlara hörməti həmişə nümunəvi xarakter daşımışdır.

Biz də, siz də yaxın keçmişi xatırlayır və iki əsrlik tariximizi – birgə ömür, dostluq tariximizi, xoş həyat, sülh və əmin-amanlıq uğrunda mübarizə tariximizi yaxşı bilirik. İndi, Azərbaycan müstəqil dövlət olduğu bir vaxtda dilindən, dərisinin rəngindən, dinindən, siyasi əqidəsindən asılı olmayaraq bütün vətəndaşların hüquq bərabərliyi Azərbaycan dövləti üçün, bir Prezident kimi məndən ötrü birinci dərəcəli əhəmiyyətə malikdir. Mən dəfələrlə demişəm və bu müqəddəs gündə bir daha deyirəm: Azərbaycanın bütün vətəndaşları qəti əmin ola bilərlər ki, onların hüquqları eyni dərəcədə qorunacaq, onlar müdafiə ediləcəklər.

Azərbaycan Prezidenti kimi mən dilindən və dinindən asılı olmayaraq hər bir adamın, hər bir vətəndaşın hüquqlarının təminatçısıyam.

Bugünkü bayram bizi həqiqətən sülhə səsləyir. Leonid atanın haqlı olaraq dediyi kimi, qoy sülh hər birimizin ürəyində, qəlbində olsun. Bəli, indi bu, çox lazımdır, çünki biz tariximizin çox mürəkkəb, ağır dövrünü yaşayırıq. Biz bu mərhələni birlikdə





keçməliyik. Bundan ötrü isə hər birimizdə sülh hissi, başqasına hörmətlə yanaşmaq hissi gərək həmişəkindən daha çox olsun.

Bilirsiniz ki, Azərbaycan altı ildən artıqdır Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Biz böyük itkilər vermişik. Azərbaycan ərazisinin iyirmi faizindən çoxu erməni qəsbkarları tərəfindən işğal edilmişdir. İyirmi mindən artıq vətəndaşımız həlak olmuş, yüz mindən çoxu yaralanmış, xəsarət almışdır. Onların bir qismi həmişəlik əlil, şikəst olmuşdur. Bir milyondan artıq sakinimiz doğma yurdunu tərk etməyə məcbur olmuşdur və qaçqın kimi Azərbaycanın başqa regionlarında yaşayır. Onların bir çoxu bu ağır qış dövründə çadırlarda yaşayır, böyük məşəqqət çəkir.

Təbii ki, bütün bunlar Azərbaycanda keçid dövrü ilə əlaqədar onsuz da mürəkkəb olan vəziyyəti daha da çətinləşdirir. Belə bir şəraitdə xeyirxahlıq, sülh, bir-birinə hörmətlə yanaşmaq, qardaşlıq, dostluq hissləri çox böyük əhəmiyyət kəsb edir. Ona görə ki, biz tariximizin bu ağır mərhələsindən daha uğurla, nisbətən az ağrı-acı ilə çıxa bilək, davam gətirə bilək, hamımız birləşərək Azərbaycanın ərazi bütövlüyünü, müstəqil dövlətimizin suverenliyini təmin edə bilək. Biz buna nail olmalıyıq.

Bilirsiniz ki, doqquz aya yaxındır döyüşlər getmir, atəşkəsə nail olmuşuq. Biz atəşkəs rejiminə sadiqik, gələcəkdə də buna çalışacağıq. Lakin bizə uzunmüddətli möhkəm sülh lazımdır, sülh haqqında böyük siyasi saziş imzalanmalıdır. Biz buna çalışırıq. Lakin buna nail olmaq üçün çox iş görülməlidir. Biz bu işi görürük. Bu mürəkkəb dövrdən hamımızın birlikdə çıxmağımız üçün daha sıx birləşməli, bir-birimizə daha çox hörmət etməliyik, sülh və dostluq hisslərinə əsaslanmalıyıq.

Bu müqəddəs, işıqlı gündə, bu xoş bayram günündə sizi sülhə, həmrəyliyə, dini dözümlülüyə, dostluğa və qardaşlığa çağırıram. Azərbaycan çoxmillətli dövlətdir və belə dövlət olaraq qalacaqdır. Biz hər şeyi edəcəyik ki, hər hansı millətdən olan Azərbaycan vətəndaşları özlərini nəinki bərabərhüquqlu hiss etsinlər, həm də özlərinin bu günü, sabahı üçün həqiqətən arxayın olsunlar. Əmin ola bilərsiniz, bir Prezident kimi mən elə vəziy-

yət yaranmasına çalışacağam ki, Azərbaycanın hər bir vətəndaşı, o cümlədən ruslar – pravoslavlar, slavyanlar Azərbaycanda malik olduqları hüquqların hamısını mütləq saxlasınlar. Daim əmin olsunlar ki, özləri, uşaqları və nəvələri bu gün də, gələcəkdə də Azərbaycanda normal şəraitdə yaşayacaqlar, rifahdan və bütün hüquqlardan bəhrələnəcək, özlərini müstəqil Azərbaycan Respublikasının tamhüquqlu vətəndaşları hiss edəcəklər.

Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimiz, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Çalışacağıq ki, bu sərvətimiz əbədi olsun.

Sizə cansağlığı, firavanlıq, xoşbəxtlik, sülh və əmin-amanlıq arzulayıram. Müqəddəs gün – Milad bayramı münasibətilə sizi bir daha təbrik edirəm.





## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Əziz bacı və qardaşlar! Müqəddəs kitabımız Qurani-Kərimin insanlar üçün nazil edildiyi mübarək Ramazan ayının başa çatması və İslam dünyasının ən əziz bayramlarından olan Ramazan bayramının başlanması münasibətilə sizi ürəkdən təbrik edirəm.

Xalqımız Ramazan bayramını mürəkkəb bir şəraitdə, lakin gələcəyə inamla qeyd edir. Bu, öz azadlığına qovuşaraq müstəqil inkişaf yoluna qədəm qoymuş xalqın gələcəyə inamıdır.

Azərbaycanın müstəqilliyinə qarşı çıxan qüvvələr xalqımızın azadlıq əzmini imtahana çəkir. Lakin bütün bunlar əbəs cəhdlərdir. Əminəm ki, torpaqlarımızda sülh və əmin-amanlıq bərqərar olacaqdır. Xalqımızın düşmüş olduğu ağır vəziyyətdən çıxması üçün mübarək Ramazan ayında edilmiş niyyət və diləklər Allah-Təalanın köməyi ilə, xalqın iradəsi və əzmi ilə tezliklə gerçəkləşəcəkdir.

Əziz Ramazan bayramı münasibətilə hamınıza cansağlığı, xoşbəxtlik, Vətənin azadlığı və tərəqqisi yolunda böyük uğurlar arzulayıram.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*2 mart 1995-ci il*

# RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ

*"Gülüstan" sarayı, 3 mart 1995-ci il*



Hörmətli bacılar, qardaşlar, gənclər, əziz balalarımız,
Azərbaycanın əziz övladları!

Biz bu gün Ramazan bayramını qeyd edirik. Ramazan bayramı dünya müsəlmanlarının, o cümlədən azərbaycanlıların ən müqəddəs, ən böyük bayramıdır. Azərbaycan xalqı bu bayramı dərd-qəm içərisində qeyd edir. Burada deyildiyi kimi, respublikamız altı ildən artıqdır ki, Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmışdır. Azərbaycan böyük itkilər vermişdir, respublikamızın qəhrəman vətəndaşları torpaqlarımızı müdafiə edərək, vətəni qoruyaraq şəhid olmuşlar, həlak olmuşlar. Ərazimizin bir qismi işğal edilmiş,





əhalimizin bir milyondan çoxu yerindən-yurdundan didərgin düşmüşdür, qaçqın, köçkün vəziyyətində yaşayır, ağır şəraitdədir.

Ümumiyyətlə, xalqımız, respublikamız ağır şərait içərisindədir. Biz bayramı belə bir dövrdə qeyd edirik. Eyni zamanda, Azərbaycan xalqı Ramazan bayramını öz müstəqil dövlətinin bayrağı altında keçirir. Xalqımız üç ildən çoxdur ki, milli azadlığa çıxıb, Azərbaycan öz müstəqilliyini əldə edib, müstəqil bir dövlətdir. Müstəqillik, milli azadlıq yolu asan, hamar olmayıb, çox əzab-əziyyətli olub. Həmin yol bundan sonra da çətin olacaqdır. Ancaq itkilərimizlə bərabər, əldə etdiyimiz dövlət müstəqilliyi, suverenliyi, milli azadlıq bizi sevindirir, hamımızda qürur hissi yaradır və bu bayramı böyük nikbinliklə qeyd etməyə imkan verir.

Xalqımız əsrlər boyu yaşamaq, yaratmaq üçün mübarizə aparıb, milli azadlıq uğrunda vuruşub, qurbanlar verib, öz torpağında milli ənənələri, tarixi kökləri əsasında, öz dini, mənəviyyatı əsasında müstəqil dövlət qurmaq arzusunda olub. İndi xalqımız bunlara nail olub. Dediyim kimi, bu yolda itkilər də olub, bu da təbiidir. Biz bundan sonra da şübhəsiz ki, çətin yolla gedəcəyik, böyük maneələrlə rastlaşacağıq. Ancaq ən əhəmiyyətlisi ondan ibarətdir ki, əsrlər boyu həsrətində olduğumuz müstəqil Azərbaycan dövləti mövcuddur. Biz əsrlər boyu həsrətində olduğumuz milli azadlığa gəlib çıxmışıq.

İndi hər şey bizim əlimizdədir, yəni Azərbaycan xalqının, vətəndaşlarının əlindədir. Hər şey bizim hamımızdan asılıdır. Biz bu nailiyyətləri lazımi qədər qiymətləndirə bilsək, onu əlimizdə saxlayıb əbədiləşdirəcəyik. Bu bayram günü mən bir daha tam əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan xalqında belə inam var. Azərbaycan xalqında artıq belə möhkəm mənəviyyat mövcuddur, xalqımız bu tarixi nailiyyətləri bundan sonra heç vaxt əlindən verməyəcəkdir.

Bunun üçün şübhəsiz ki, biz çox iş görməliyik, xalqımızın mənəvi birliyini təmin etməliyik. Gücümüzün hamısını bir yerə toplamalıyıq. Biz vətəndaş həmrəyliyini, milli həmrəyliyi, xalqın bütün təbəqələrinin həmrəyliyini bir məqsəd üçün – Azərbay-

canın müstəqilliyini qoruyub saxlamaq, respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün təmin etməliyik. Bu gün sizə bəyan edirəm ki, Azərbaycanın dövləti, hakim dairələri, o cümlədən Prezident kimi mən bunu qarşıma məqsəd qoymuşam, bu məqsədə nail olmaq üçün əlimdən gələni etmişəm və bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm.

Qeyd etdiyim kimi, biz bu bayramı çətin şəraitdə, ancaq böyük nikbinlik əhval-ruhiyyəsi ilə keçiririk. Bu nikbinlik də Azərbaycanın hər bir vətəndaşının qəlbində olan vətənpərvərlik hissindən, Vətəninə, torpağına, xalqına, tariximizə bağlılıq hissindən doğur. Ona görə də mən inanıram ki, biz bu birliyi əldə edə biləcək, onu möhkəmləndirəcək və nailiyyətlərimizi birlikdə qoruyub saxlayacağıq.

Azərbaycan xalqının yaxşı yaşaması üçün ölkəmizin böyük imkanları – təbii sərvətləri, iqtisadi potensialı, gözəl ərazisi, iqlimi, ənənələri və çox zəngin tarixi, mədəniyyəti var. Bunlar hamısı bizim milli sərvətlərimizdir. Bunlar əsas verir bu gün bir daha deyək ki, Azərbaycanın çox gözəl, xoşbəxt, işıqlı gələcəyi var. Bu gələcəyə biz hamımız birlikdə, hamımız əl-ələ verərək getməliyik. Əgər bu məqsədə nail olmaq üçün hamı öz sahəsində namusla, qeyrətlə çalışsa, biz bu gələcəyə çatacağıq. Güman edirəm ki, biz buna nail olacağıq.

Bu gün Azərbaycanın hər yerində Ramazan bayramı qeyd olunur. Hər bir müsəlman azərbaycanlı bu bayramı kimi evində, kimi qonşusu ilə, qohum-əqrəbası ilə qeyd edir. Eyni zamanda, şəhərlərdə, rayonlarda, qəsəbələrdə, kəndlərdə yerli icra hakimiyyəti orqanları, ictimai və xeyriyyəçi təşkilatlar, cəmiyyətlər bu bayramın geniş miqyasda keçirilməsi üçün fəaliyyət göstərirlər. Ehsanlar verilir, şəhidlərin ruhuna dua oxunur. Beləliklə, bizim milli, dini ənənələrimiz bayram günündə də, matəm günündə də bərpa olunur, cəmiyyətdə, qəlbimizdə öz yerini tutur və güman edirəm ki, bu, ən müsbət hallardan biridir.

Bununla əlaqədar olaraq biz bu gün "Gülüstan" sarayına toplaşmışıq. Bu saray çox böyük mərasimlər görüb. Azərbaycan





dövlətinin bu sarayda böyük görüşləri, mərasimləri, ziyafətləri olub. Ancaq burada, artıq deyildiyi kimi, bu mərasimlərdə, görüşlərdə, adətən respublikamızın rəhbər vəzifəli şəxsləri, hörmətli adamlar, tanınmış ziyalılar iştirak edirlər. "Gülüstan" sarayı şübhəsiz ki, xalqın üzünə açıqdır. Adi adamlar da gəlib burada bayramlarını, şənliklərini, toylarını qeyd edirlər. Bu da təbiidir.

Ancaq bu gün burada əvvəlkilərin hamısından fərqli olan bir məclis toplaşıb. Əsas fərq ondan ibarətdir ki, müqəddəs bayramımız – Ramazan bayramı Azərbaycanın ən möhtəşəm sarayı olan "Gülüstan"da qeyd olunur. Digər fərq ondan ibarətdir ki, bu gün buraya toplaşanlar əvvəlki mərasimlərin iştirakçıları deyillər. Çoxları bəlkə də bu qapıdan ilk dəfə giriblər, buraya addımlarını atıblar, bu masaların arxasında oturublar, bu bayramı burada qeyd edirlər. Bu dəvət olunanlar şəhid ailələridir. Xocalı faciəsinin dəhşətlərini görənlərdir. Xocalıda həlak olanların balalarıdır, uşaqlarıdır, qohum-əqrəbalarıdır. Vətən yolunda şəhid olanların ailə üzvləridir. Vətən yolunda vuruşub xəsarət alanlardır – sadə insanlardır. Ola bilər ki, əksəriyyəti özləri üçün bu gün belə süfrə düzəltməyə imkanı olmayan adamlardır. Ancaq eyni zamanda, bu salona toplaşanlar Azərbaycan xalqının, respublikanın dəyərli, hörmətli insanlarıdır. Onlar vətənpərvər, təmiz qəlbə malik, əzab-əziyyət içərisində olduqlarına görə hörmətli, dəyərli insanlardır. Mənim yanımda oturan balaca Murad Xocalıda valideynlərini itirib, Samirə Xocalıda itkilər verib. Başqaları da belədir. Burada oturanların əksəriyyəti əhalimizin bu təbəqəsindən olanlardır. Güman edirəm, toplaşanların mənəvi haqqı var ki, bu gün Ramazan bayramını məhz burada keçirsinlər, bir yerdə qeyd etsinlər, bir-birilə görüşsünlər, ünsiyyətdə olsunlar, həyat nə qədər çətin keçsə də, heç olmasa bu çətin həyatın bir neçə saatının xoş anlarını yaşasınlar. Amma eyni zamanda, hesab edirəm ki, biz heç vaxt bədbinliyə qapılmamalıyıq. Həyat həmişə inkişafdadır. Ona görə də nə qədər ağır itkilərimiz, nə qədər çətinliklərimiz olsa da biz həmişə nikbin



olmalıyıq, başımızı həmişə dik tutmalı, irəliyə həmişə inamla baxmalıyıq, ümidlə yaşamalıyıq.

Şübhəsiz, ən böyük arzumuz, ən böyük ümidimiz, ən böyük istəyimiz müharibəyə son qoyulmasıdır, torpaqlarımızın azad edilməsidir, əsirlikdə olan vətəndaşlarımızın geri qayıtmasıdır. Ən böyük arzumuz Azərbaycanın ərazi bütövlüyünün, respublikamızın sərhədlərinin toxunulmazlığının, ölkəmizin suverenliyinin təmin olunmasıdır. Güman edirəm ki, o günlər də uzaqda deyil. Biz o günlərə gəlib çatacağıq. Çatacağıq ona görə ki, xalqımızda olan mərdlik, cəsarət, qəhrəmanlıq, tariximizdə xalqımızın göstərdiyi qəhrəmanlıq nümunələri bizim bu ağır vəziyyətdən çıxmağımıza şübhəsiz ki, kömək edəcəkdir. Tam imkanımız vardır ki, bu ağır vəziyyətdən çıxaq və bütün məqsədlərimizə çatdıq.

Doqquz aydan artıqdır ki, müharibədə atəş dayandırılıbdır. Şübhəsiz ki, bu, böyük hadisədir. Altı il davam edən müharibədə ilk dəfədir ki, belə uzunmüddətli atəşkəs əldə olunub. Ancaq bu atəşkəs müharibəyə sülh yolu ilə son qoymaq, Azərbaycanın işğal olunmuş bütün ərazilərini azad etmək üçün, sadəcə bir va-





sitədir. Bilirsiniz ki, bu sahədə biz çox istiqamətdə iş görürük, tədbirlər həyata keçiririk, diplomatik addımlar atırıq, danışıqlar aparırıq və danışıqları bundan sonra da davam etdirəcəyik. Güman edirəm ki, görülən işlər öz nəticəsini verəcəkdir. Şübhə etmirəm ki, biz istədiyimizə nail olacağıq. Bu gün bayramı qeyd edərkən biz şəhidləri də xatırlayırıq. Dünyasını dəyişən bütün qohum-əqrəbamızı, dostlarımızı, tanışlarımızı, vətəndaşlarımızı da xatırlayırıq. Hamımız şəhidlərin ruhu qarşısında baş əyirik, onlara rəhmət diləyirik, xalqımıza səbir diləyirik.

Eyni zamanda, bir daha bəyan edirik ki, Azərbaycan xalqı bundan sonra istədiyi kimi, müstəqil yaşamağa, müstəqil dövləti qurub inkişaf etdirməyə qadirdir və xalqımız buna nail olacaqdır. Bu yolda Azərbaycan dövləti bütün tədbirləri görür və bundan sonra da görəcəkdir. Buna tam əmin ola bilərsiniz. Əmin ola bilərsiniz ki, Azərbaycan dövləti hər bir vətəndaşın hüquqlarının keşiyində durub, onun hüquqlarının toxunulmazlığını təmin edir və edəcəkdir. Azərbaycanın Prezidenti kimi mən verdiyim anda həmişə sadiq qalacağam, hər bir Azərbaycan vətəndaşının hüquqlarının qorunmasına çalışacağam və bunun üçün bütün imkanlarımdan istifadə edəcəyəm.

Gərək hər bir vətəndaş da dövlətinə, torpağına sədaqətli olsun, sədaqətlə yaşasın, xidmət etsin və çalışsın ki, xalqla dövlətin vəhdəti möhkəmlənsin, respublikamız bu ağır vəziyyətdən çıxsın. Mən buna inanıram və əminəm ki, belə də olacaqdır.

Sizi Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm. Hər birinizə cansağlığı, xoşbəxtlik arzu edirəm, işlərinizdə, fəaliyyətinizdə uğurlar diləyirəm. Sağ olun, bayramınız mübarək olsun!

## PASXA BAYRAMI MÜNASİBƏTİLƏ RESPUBLİKA PRAVOSLAV XRİSTİANLARINA TƏBRİK

Əziz xristian həmvətənlərim!

Sizi müqəddəs bayramınız – Pasxa münasibətilə ürəkdən təbrik edir və bu əziz gündə ulu Tanrıdan hamınıza cansağlığı, xoşbəxtlik və böyük uğurlar diləyirəm.

Azərbaycan milliyyətindən və dinindən asılı olmayaraq müxtəlif xalqların nümayəndələrinin doğma vətənidir. Onlar həmişə mehriban qardaşlıq, qarşılıqlı anlaşma və sıx əməkdaşlıq şəraitində yaşamış, vətənin sevincini də, kədərini də birgə bölüşmüşlər. Öz tarixi ənənələrinə sadiq qalan müstəqil, demokratik Azərbaycan dövlətində bu gün də dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmadan bütün vətəndaşların vicdan azadlığı, dini etiqad sərbəstliyi təmin edilmişdir.

Əziz bayramınızı bir daha səmimi qəlbdən təbrik edirəm. Qoy bu müqəddəs Pasxa bayramı günlərində edilən bütün xoş diləklər və xeyir-dualar yerinə yetsin, xalqımız xoşbəxt və firavan həyata qovuşsun!

Hörmətlə,

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*24 aprel 1995-ci il*





## YƏHUDİ XALQININ MÜSİBƏTİ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN YƏHUDİ İCMASINA MÜRACİƏT

Hər il dünya ictimaiyyəti, bütün mütərəqqi bəşəriyyət yəhudi xalqının müsibəti gününü – bütöv bir xalqa qarşı həyata keçirilmiş soyqırımı siyasətinin günahsız qurbanlarının xatirəsini ürək ağrısı ilə yad edir.

İkinci Dünya müharibəsi zamanı faşistlər altı milyon mülki əhalini, o cümlədən qocaları, qadınları, uşaqları yəhudi xalqına mənsub olduğu üçün ağlasığmaz qəddarlıqla məhv etmişlər. Allah o günahsız qurbanlara rəhmət eləsin.

Bu gün faşizmə, irqçiliyə, hər cür soyqırımı aktına qarşı dünyanın bütün mütərəqqi qüvvələri səfərbər olmalıdır. Çünki dünyada faşizm hələ də yaşamaqdadır. 1988-ci ildən başlayaraq erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı yeritdiyi soyqırımı siyasəti, günahsız əhalimizin kütləvi qırğınları, zəbt olunmuş torpaqlarımızda misli görünməyən talanlar, vəhşiliklər, nəhayət, bütün dünyanı sarsıdan Xocalı faciəsi xalqımızın qəlbində sağalmaz yara kimi göynəməkdədir.

Bu hüznlü gündə Azərbaycan xalqı adından kədərinizə ürəkdən şərik olduğumuzu bildirirəm. Bu dərd xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır və sizinlə bir yerdə deyirik: belə faciələr bir daha təkrar olunmamalıdır.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*26 aprel 1995-ci il*

# ZƏVVARLARIN HƏCC ZİYARƏTİNDƏN QAYITMASI MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ

*Səttarxan adına maşınqayırma zavodu*
*20 may 1995-ci il*

Hörmətli bacılar və qardaşlar!

Hörmətli həmvətənlərimiz!

Mən bu gün burada, Səttarxan adına maşınqayırma zavodunda sizinlə görüşməyimdən çox məmnunam. Hamınızı səmimi qəlbdən salamlayır, sizə xoşbəxtlik və səadət arzu edirəm.

Bizim bu gün buraya toplaşmağımızın əsas səbəblərindən biri Azərbaycandan Məkkəyə və Mədinəyə getmiş, İslam aləminin müqəddəs yerlərini ziyarət etmiş, Həcc ziyarətindən qayıtmış vətəndaşlarımızla görüşməkdir. Müstəqil Azərbaycan dövlətinin həyatında çox əlamətdar haldır ki, xalqımız dininə öz münasibətini sərbəst ifadə edir və uzun illərin həsrətindən sonra ölkəmizin istənilən vətəndaşı tamamilə sərbəst olaraq İslam aləminin müqəddəs yerlərini ziyarət edə bilər. Son illərdə Azərbaycandan həmin yerləri çoxlu adam ziyarət etmişdir. Bu, bizim müstəqilliyimizin və mənəviyyatımızın dirçəlməsi rəmzidir. Bu il də beş yüz nəfər Azərbaycan vətəndaşı Məkkəyə və Mədinəyə getmiş, Kəbəni, İslamın müqəddəs yerlərini ziyarət etmiş, müsəlmanlıq borclarını vermiş və öz arzularına çatmışdır. Həmin şəxslərin böyük bir qrupu indi buradadır. Əziz hacılar, aziz həmvətənlərimiz, sizi bu mübarək işinizə və çox gözəl ziyarətinizə, müqəddəs yerləri ziyarət edib mənəviyyatca daha da saflaşdığınıza və yüksəldiyinizə görə təbrik edirəm, hamınıza cansağlığı və xoşbəxtlik arzu edirəm.

İslam bu dinə itaət edənləri həmişə mənəvi saflığa, ədalətə, düzlüyə, bütün müsbət keyfiyyətləri özündə toplamağa dəvət edir. Müqəddəs kitabımız Qurani-Kərimin ayələri, surələri və





bütün yazılarının hamısı İslam aləminin nə qədər böyük mənəvi potensiala malik olduğunu göstərir. Əsrlərdən-əsrlərə keçən adət-ənənələr İslam dininin insanlar üçün əhəmiyyətli və zəruri olduğunu sübut edir. Hesab edirəm ki, müqəddəs Quranımızdan və İslam dininin tələblərindən hər bir şəxs, hər bir müsəlman bəhrələnəcək, cəmiyyətdə layiqli yer tutacaq, Vətəninə, xalqına, insanlara gərəkli xidmət edəcək və şübhəsiz ki, arzularının hamısına çatacaqdır.

Buna görə də İslam dünyasının müqəddəs yerlərini ziyarət edib Azərbaycana qayıdan soydaşlarımızla bu gün görüşərkən fürsətdən istifadə edərək bütün vətəndaşlarımıza, Azərbaycandakı bütün müsəlmanlara bir daha müraciət edirəm ki, bu əxlaqi normalara, adət-ənənələrə hər kəs riayət və hörmət etsin, ona sadiq olsun. Ən çətin dövrlərdə bu, həmin adamları hifz edəcək, onları qoruyacaq, hər bir insana xoşbəxtlik bəxş edəcəkdir. Ancaq bunlara həqiqətən sidq ürəkdən riayət etmək lazımdır. Güman edirəm ki, biz ilbəil öz mənəvi dəyərlərimizə, adət-ənənələrimizə qayıdaraq, hər yerdə milli, dini ənənələrimizi bərqərar edərək ölkəmizdə, cəmiyyətimizdə buna nail ola biləcəyik. Əminəm ki, din xadimləri də, möminlər də, o cümlədən Həcc ziyarəti edən şəxslər də bu məsələlərdə fəal iştirakçı olacaq, xalqımızın mənəvi cəhətdən saflaşmasına, yüksəlməsinə, mətinləşməsinə öz səylərini göstərəcəklər.

Bu, bizim üçün çox lazımdır. Çünki bilirsiniz ki, Azərbaycan artıq yeddi ildir Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Bunun nəticəsində Azərbaycana böyük fəlakətlər üz vermiş, çoxlu itkilərimiz olmuşdur. Şəhid olanlarımız vardır. Ərazimizin, torpaqlarımızın təxminən 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Elimizin-obamızın o gözəl yerlərindən vətəndaşlarımız didərgin düşmüş, dağlarımızın qoynunda, bulaqlarımızın başında əsrlər boyu yaşamış soydaşlarımız qaçqın və köçkünə çevrilib, ağır şəraitdə yaşayırlar.

İqtisadiyyatımızda, sosial həyatımızda çətinliklərimiz var. Bunlar həm müharibə, həm də bir sistemdən başqa sistemə ke-

çidlə əlaqədardır. Yəni cəmiyyətimiz, ölkəmiz, xalqımız öz tarixinin çətin mərhələsini yaşayır. Belə bir dövrdə hər kəs gərək çalışsın ki, cəmiyyətə, ölkəyə mümkün qədər çox fayda versin. Öz qonşusunu da, həmkarını da, dostunu və qardaşını da bu işə cəlb etsin. Dinə xidmət edən, Həcc ziyarəti etmiş adamlar, İslama həqiqətən sadiq olan insanlar bu baxımdan nümunəvi olaraq cəmiyyətimizdə mənəvi saflığı təmin etməlidirlər.

Hesab edirəm ki, indi cəmiyyətimizdə belə müsbət hallar əksəriyyət təşkil edir. Mənfi hallar az olsa da, ancaq vardır.

Bu mənfi hallar cəmiyyətimizin ümumi mühitinə, əhval-ruhiyyəsinə bəzən çox zərər vurur. Bunların qarşısını almaq lazımdır. Güman edirəm ki, din xadimlərimiz bu sahədə indən sonra da öz fəaliyyətlərini artıracaqlar.

Din xadimlərimiz, Həccə getmiş adamlarımız gərək xalqımızı, xüsusən gənclərimizi Vətənə sədaqət, vətənpərvərlik ruhunda tərbiyə etsinlər, onları Vətəni qorumaq üçün hazırlasınlar. İndi buna çox böyük ehtiyac vardır. Çünki iqtisadi-sosial çətinliklər insanları bəzən yolundan çıxardır, çaşbaş qoyur, mənfi təsirlər altına salır. Buna görə də mənəviyyatca saf insanlar, dinə xidmət edən adamlar İslam dininin hər bir şəxs üçün, hər bir fərd üçün nə qədər gözəl töhfə verdiyini anlatmalı, onları mənəvi saflığa dəvət etməli və buna nail olmalıdırlar. Bu, indi bizə çox lazımdır.

Təəssüf olsun ki, İslamın təbliğində, dinin təbliğində bəzən əyintilərə yol verilir. Mən bu gün burada, din xadimlərinin, Həccə getmiş adamların qarşısında bu sözləri deməyi zəruri hesab edirəm. Dinimizdən bəzən sui-istifadə, öz məqsədləri üçün istifadə etmək istəyənlər də var. İslam dinindən bəzən ölkəmizdə sabitliyi pozmaq, aranı qarışdırmaq, insanları bir-biri ilə vuruşdurmaq, onları qarşı-qarşıya qoymaq üçün istifadə etmək istəyənlər də vardır. Bəzən içərimizə təxribat salmaq istəyənlər də var. İslam dini Azərbaycan Respublikasının dinidir. Respublikamızda yaşayan əhalinin əksəriyyəti İslam dininə etiqad edir. Ancaq bu din birdir və onu parçalamaq olmaz. Ayrı-ayrı adamlar dindən





istifadə etməyə çalışmamalıdır. Din vasitəsilə bizim ölkəyə haradansa kənardan kiminsə təsir etməsinə yol vermək olmaz.

Dindən ancaq xeyirxahlıq, insanları ağır vəziyyətdən çıxarmaq, onları mənəvi saflığa yönəltmək üçün istifadə etmək lazımdır. Başqa məqsədlər üçün yox. Təəssüf ki, belə hallar var. Əgər belə hallar olmasaydı, mən bunu deməzdim. Buna görə də güman edirəm ki, hamımız çalışmalıyıq cəmiyyətimizdə hər kəs öz yerini tutsun, öz işi ilə məşğul olsun və onlar da çalışsınlar ki, birlik, bərabərlik, milli həmrəylik və vətəndaş həmrəyliyi yaransın. Güman edirəm ki, biz buna nail olacağıq.

Son illərdə, respublikamızın ağır dövründə Ermənistanın təcavüzü ilə yanaşı, ölkəmizi daxildən parçalamaq, Azərbaycanı dağıtmaq cəhdləri də olubdur. Bunları siz bilirsiniz. Allaha şükür olsun ki, Allahın köməyi ilə biz bunların qarşısını almışıq. İndən sonra da bunu etməyə qadirik. Bu gün mən sizə deməliyəm ki, son illərdə xalqımız bir neçə fəlakətdən, bir neçə xətadan xilas olubdur. 1993-cü ilin iyun ayını yada salın. Artıq həmin vaxtdan iki il keçir. 1994-cü ilin oktyabrını xatırlayın. Burada dövlət çevrilişinə cəhd etdilər. Bunun qarşısı alındı. Xalq ayağa qalxdı, öz qüdrətini göstərdi. Xalqımız göstərdi ki, cəmiyyətimizdə bu cinayətkarlara yer ola bilməz. Cinayətkarların bir qismi cəmiyyətdən təcrid olunub. Onlar ədalət məhkəməsi qarşısında duracaqlar. İndi istintaq gedir. Bəziləri qaçıb gizləniblər. Bəziləri də öz günahlarını gəlib etiraf etdiklərinə görə bağışlandılar. Lakin bəziləri bunlardan özləri üçün ibrət dərsi götürmədi, ötən ilin oktyabrında başlanan hərəkəti davam etdirməyə və bu ilin martında Azərbaycanda böyük bir faciə törətməyə çalışdılar. Təəssüflər olsun ki, bir çox qüvvələr birləşib, Azərbaycan gənclərinin bir qismini – onların arasında cinayətkarlar da var, bəziləri də yollarını azmış adamlardır – pis istiqamətə yönəltdilər, dövlət çevrilişinə cəhd göstərməyə sövq etdilər.

Bunun da qarşısı alındı. Cinayətkarlar cəzalandı, onların bəziləri məhv oldu, bir qismi həbs edildi, yenə də başqa bir qis-

mi isə öz səhvlərini başa düşdü, müraciət etdi, bağışlandı, indi azad-asudə yaşayırlar.

Bu barədə də istintaq gedir. İstintaq orqanlarımız çox ciddi işlər aparırlar. Güman edirəm ki, həmin bu cinayətkarlar – həm oktyabr ayında, həm də mart ayında cinayət etmiş adamlar Azərbaycanın ədalət məhkəməsi qarşısında duracaqlar. Bu lazımdır, bu zəruridir. Çünki xalqımızı artıq bu bəlalardan xilas etməliyik. Artıq bəsdir! Azərbaycan yeddi ildir ki, Ermənistanın təcavüzü nəticəsində şəhidlər, itkilər verir. Respublikamızın torpaqlarının bir qismi itirilibdir. İndi biz onların geri qaytarılmasına çalışırıq. Axı daxilimizdə bu hərəkətləri edən adamlar nə məqsədə xidmət edirlər? Ona görə oktyabr ayında da, mart ayında da Azərbaycan vətəndaşları birinci olaraq öz dövlətini, öz müstəqilliyini qorumaq əzmini bildirdilər. Digər tərəfdən isə müstəqil Azərbaycan dövləti öz qüdrətini, öz dövlətçiliyini qorumağa qadir olduğunu göstərdi və bu dövlətin yaşamağa haqqı olduğunu bir daha dünyaya nümayiş etdirdi.

Biz müstəqil Azərbaycan dövlətini qururuq. Biz dövlətimizi çox mürəkkəb, çətin proseslər içərisində, ancaq əzmlə, inamla, böyük ümidlə qururuq. Biz bunu edəcəyik. Müstəqil Azərbaycan dövləti yaşayacaqdır. Müstəqil Azərbaycan dövləti erməni təcavüzündən xilas ediləcəkdir. Müstəqil Azərbaycan dövləti bütün torpaqlarının sahibi olacaqdır və xalqımız bu ağır bəlalardan çıxacaqdır. Mən buna inanıram. Mən buna əminəm. Siz də arxayın olun ki, mən bir Prezident kimi həyatımı məhz buna həsr etmişəm, bütün imkanlarımı bundan sonra da bu işə sərf edəcəyəm. Bu işdə mənəviyyat bizim üçün ən böyük silahdır. Mənəviyyata malik olan insanlar, İslam dininin saflığını özündə cəmləşdirən adamlar bizim silahdaşlarımızdır və bizimlə bir yerdədirlər. Hamı çalışmalıdır ki, bütün bu imkanlarımızdan istifadə edək.

Bu gün mən əmin olduğumu bildirmək istəyirəm ki, din xadimlərimiz Azərbaycanın müstəqilliyinə, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasına, cəmiyyətimizdə mədəni əhval-ruhiyyə yaratmağa, hüquqi dövlət qurulmasına, ölkəmizdə vətəndaş həmrəyliyinin, milli həmrəyliyin və birliyin bərqərar olunmasına xidmət edəcəklər, din xadimlərimiz cəmiyyətimizi mənfi hallardan təmizləmək üçün bizim mübarizəmizin ön sıralarında gedəcək, bizimlə birlikdə olacaqlar və bu işdə öz nüfuzlarını, imkanlarını əsirgəməyəcəklər.





Bu gün biz Səttarxan adına maşınqayırma zavodundayıq. Mən bu zavodda dəfələrlə olmuşam. 60-cı illərdə, hələ respublikaya rəhbərlik etmədiyim dövrdə də mən bu müəssisəyə gəlmişdim. Azərbaycana rəhbərlik etməyə başladığım dövrdə – bu yaxınlarda 26 il olacaqdır – 1969-cu ildə də burada olmuşam. Mən bu zavodun keçmişini bilirəm. Bu müəssisənin çox gözəl tarixi var. Ötən il biz bu zavodun 100 illik yubileyini qeyd etdik. Bu müəssisənin gözəl ənənələri var. Onlar nəsillərdən-nəsillərə keçibdir. Bu zavod Azərbaycan xalqı üçün, ölkəmizin müstəqilliyi üçün çox işlər görübdür. Ancaq 70-ci illərdə bu zavodun görkəminin tamamilə dəyişdiyini də qeyd etməliyik. Siz görürsünüz ki, bizim toplaşdığımız bu yer çox gözəl bir sexdir. O vaxtlar bu sex yox idi. Burada, eləcə də digər sexlər 70-ci illərdə qurulub, 1981-ci ildə istifadəyə verilmişdir. Bu zavodun görkəminin dəyişdirilməsinə böyük əmək və vəsait sərf etmişik. Çox böyük əzab-əziyyətlərə qatlaşdıq ki, müəssisə yeni texnologiya və avadanlıqla təchiz olunsun, müasir tələblərə cavab verən cihazlar, qurğular istehsal edilsin. Biz bunlara nail olduq. Bu nəhəng müəssisənin yenidən qurulması prosesi mənim gözümün qarşısında baş vermişdir. Bütün bunlar mənim həyatımdan keçən proseslərdir.

Ona görə də mən bu gün buraya gəlməyimə çox sevindim.

Əminəm ki, bu zavod və onun kollektivi müstəqil Azərbaycan üçün hələ çox işlər görəcək, böyük xidmət göstərəcəkdir.

Bu zavodun keçmişinə hamımız böyük hörmətlə yanaşırıq. Mən bu müəssisənin ənənələrinə və bu gününə böyük hörmət edirəm.

Bu müəssisənin ən gözəl xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, məhz bu zavodun fəhlələri, mühəndisləri, burada çalışan insanlar Ermənistanın Azərbaycana qarşı təcavüzü baş-

layarkən öz sözünü dedilər, xalqımız ilk dəfə səsini buradan qaldırdı. Bu zavodun kollektivi ayağa qalxdı və Azərbaycanın o dövrdəki hakimiyyət dairələrini sınağa çəkdi ki, respublikamızı, torpaqlarımızı qorumaq lazımdır. Qarabağı müdafiə etməliyik. Bu səslər ilk dəfə bu kollektivdən eşidildi. Bunu bizim cəmiyyətimiz bilir. Bu, bizim tariximizə həkk olunubdur.

O illərdə ölkəmizdən kənarda yaşamağıma baxmayaraq, bunu mən də bilirəm. Bunu hamı bilir. Zavodun bu ənənəsi də böyük hörmətə layiqdir. Milli azadlıq hərəkatına addımlar bu zavoddan atılıbdır. Bu zavodda respublikamızın müstəqilliyi üçün çıxışlar olubdur. İnsanlar meydanlara buradan çıxıblar. Hakimiyyət orqanlarına ittihamlar buradan verilibdir. Bunlar da Azərbaycan tarixinin çox gözəl səhifələridir.

Ona görə də Həcc ziyarətindən qayıtmış vətəndaşlarımızın bu zavoda gəlməsi bu müəssisənin keçmişinə, xidmətlərinə, buranın kollektivinə olan hörmətdir. Mən də bu hörmət naminə bu gün buraya gəlmişəm. Buna görə də mən bir daha zavodun kollektivinə öz hörmət və ehtiramımı, daxilimdən gələn ən gözəl duyğularımı çatdırıram. Əmin ola bilərsiniz ki, mən həmişə sizinləyəm və bu kollektivlə birlikdə Azərbaycanın həyatının çətin mərhələsini yaşayıb keçəcəyik.

Səttarxan adına zavod Azərbaycanın maşınqayırma sənayesinin bayraqdarıdır. Respublikamızda maşınqayırma sənayesi bu müəssisədən başlanıbdır. Müəssisə bu gün də öz mövqeyini əldən verməyibdir. Azərbaycanda neft sənayesi üçün maşın və avadanlıq istehsalı geniş inkişaf etmişdir. Səttarxan adına zavoddan başqa, digər zavodlarımız da neft maşınqayırması ilə məşğuldur. Həmin zavodlar da 70-80-ci illərdə təkmilləşdirilib və yenidən qurulubdur. Bizim gördüyümüz tədbirlər nəticəsində bu müəssisələr müasir səviyyəyə gəlib çıxıbdır. Ancaq indi sənayemiz, eləcə də neft maşınqayırması çətin dövr keçirir. Bunun səbəbləri məlumdur. Biz müstəqillik əldə etmişik. Əgər biz bunları tərəziyə qoyub çəksək və baxsaq ki, hansı bizim üçün əhəmiyyətlidir, – dövlət müstəqilliyimizi əldə etmək, yaxud da müstəqil olmayaydıq və zavod və ya sənaye yenə də başqa yerlərlə bağlı olaydı və işləyəydi, – hesab edirəm ki, müstəqillik bizim üçün daha əhəmiyyətlidir. Çünki biz müstəqillik qazanmaq üçün çoxlu qurbanlar vermişik. Bu olmalı idi, çünki müstəqillik Azərbaycan xalqı üçün əsrlərdən-əsrlərə keçmiş arzu və istəkdir. Biz buna nail olmuşuq.





Bu dövrdə biz şübhəsiz ki, yeni bir ictimai-siyasi cəmiyyət yaradırıq, yeni dövlət qururuq. İqtisadiyyatımız yeni formalarla yaşayır, yeni iqtisadi münasibətlər bərqərar olur. Bu yolu biz keçməliyik. Şübhəsiz ki, bu sahədə müəyyən çətinliklərlə rastlaşırıq. Bunlar təbiidir. Çünki ziddiyyət təşkil edən bir sistemdən digərinə keçid asan olmur. Ona görə də bu yoldakı çətinliklərin təbii olduğunu nəzərə alaraq onlara dözməliyik. Ancaq bu, o demək deyildir ki, biz oturub gözləməliyik ki, nə vaxtsa yaxşı işləyəcəyik. Mən o mənada dözmək deyirəm ki, bu həm də döyüşmək, həm də vuruşmaq, həm də çalışmaq deməkdir.

Mən may ayının əvvəlində Nazirlər Kabinetində çıxış edərkən ölkəmizin sənayesi barədə öz fikirlərimi söylədim. Göstəriş verdim ki, hər bir fabrik, zavod və digər müəssisə indiki şəraitə uyğun olaraq hansı yolla istehsalı qaldıra bilərsə, bu barədə öz təkliflərini hazırlasın və təqdim etsin, biz onların həyata keçirilməsinə kömək edək. Bu dövrdə sizin zavodun da imkanları böyükdür, ona görə də bunlardan istifadə edilməlidir. Bu, imkanlardan nə qədər səmərəli istifadə olunarsa, keçid mərhələsi bizim üçün o qədər qısa olar. Mən bilirəm ki, indi zavod tam gücü ilə işləmir, kollektivin iqtisadi vəziyyəti də keçmişdəki kimi deyildir.

İqtisadi sahədə çətinliklərimiz var. Bu, təkcə sizin zavodda deyil, digər müəssisələrdə də belədir. Bunların hamısını mən bilirəm. Bu problemlər sənayemizdə və bütün iqtisadiyyatımızda mövcuddur. Eyni zamanda, bu zavod kimi nəhəng potensiala malik bir müəssisə əvvəlki kimi olmasa da, müəyyən bir səviyyədə, indikindən yüksək səviyyədə işləyə bilər və işləməlidir. Bunu zavodun rəhbərliyi, mütəxəssisləri, mühəndisləri və bütün kollektivi birləşib birlikdə etməlidirlər. Biz bu prosesi keçməliyik. Hesab edirəm ki, siz bu işlərlə daha ciddi məşğul olmalısınız. Qarşılaşdığımız çətinliklərə dözməli

və hər birimiz çalışmalıyıq ki, insanlarımızın həyatını müəyyən qədər yüngülləşdirək. Sizin indiyədək göstərdiyiniz xidmətləri mən yüksək qiymətləndirirəm. Ancaq zavodun qarşısında duran vəzifə indi bütün imkanların, burada olan zəngin potensialın hesabına mövcud vəziyyətdən çıxmaq və müəssisəni işlətməkdir. Bu həm kollektivin həyat şəraitinin yüksəlməsinə kömək edər, həm də bütövlükdə respublikamızın iqtisadiyyatının dirçəldilməsinə öz müsbət təsirini göstərər.

İndiki şəraitdə əhalimizin sosial vəziyyətinin ağır olduğu məlumdur. Bir dövlət başçısı kimi mən bunu bilirəm. Ən ağır vəziyyətdə olanlar bizim qaçqınlarımızdır. Onların bir hissəsi hələ də çadırlarda yaşayır. Bu yaxınlarda Şuşa və Laçının Ermənistan tərəfindən işğalının üç ili tamam oldu. Üç ildir ki, insanlar həmin rayonlardan didərgin düşüblər, orada-burada birtəhər yerləşiblər. Dağlıq Qarabağın özündən azərbaycanlılar dörd il bundan qabaq, Ermənistanda yaşamış azərbaycanlılar 1988-ci ildə, yeddi il bundan qabaq qovulublar, öz doğma yurdlarından didərgin salınıblar. Sonrakı illərdə, 1992-93-cü illərdə də qaçqınlarımız olubdur. Bu vətəndaşlarımız da indi ağır şəraitdə yaşayırlar. Onların bəziləri öz qohum-əqrəbalarının yanında, bəziləri ayrı-ayrı məktəblərdə, sanatoriya binalarında, müxtəlif tikililərdə yerləşiblər. Ancaq böyük bir qismi çadırlarda yaşayır.

Buna görə də bizim hamımız həmin insanlara qayğı göstərməliyik. Şübhəsiz ki, mən bunun zavod fəhləsinin qaçqınlarımıza qayğı göstərməsi üçün demirəm. Mən bu gün bu fürsətdən istifadə edib üzümü bütün ictimaiyyətə, dövlət orqanlarına, cəmiyyətimizə tutaraq deyirəm ki, bizim ağır dövrümüzdə ən çox qayğıya ehtiyacı olanlar şəhid ailələridir, müharibə əlilləridir, qaçqın düşmüş adamlardır. Onlara xüsusi diqqət olmalıdır.

Biz dövlət tərəfindən lazımi tədbirləri görürük. Beynəlxalq təşkilatların humanitar yardımları ölkəmizə gəlir və qaçqınlarımızın vəziyyətini müəyyən səviyyədə saxlamağa kömək edir.

Lakin bizim ayırdığımız vəsaitlər, humanitar yardımlar, xeyriyyəçilər və müxtəlif təşkilatlar tərəfindən edilən köməklər bəzən





qaçqınlara çatdırılmır. Ayrı-ayrı vəzifəli adamların öz vəzifələrindən sui-istifadə etdiklərinə, səhlənkarlıqlarına, bu məsələlərə laqeyd olduqlarına, görə yardımlar qaçqınlara çatdırılmır. Bu, dözülməz haldır. İndi həyatımızda ən dözülməz və ən mənfi hallardan biri məhz budur.

Ona görə də mən bu gün fürsətdən istifadə edərək bir tərəfdən dövlət orqanlarından, hakimiyyət orqanlarından tələb edirəm ki, qaçqınlar yaşayan yerlərə xüsusi fikir verilsin, xüsusən çadırlarda yaşayan insanlara, şəhid ailələrinə, əlillərə daha çox qayğı göstərilsin.

Çadır şəhərciklərinə daim getmək lazımdır. Həmin çadırların hamısı kənd rayonlarımızda yerləşibdir. Mən bu gün buradan, Səttarxan adına zavoddan üzümü həmin rayonların icra hakimiyyəti başçılarına tutaraq deyirəm: qaçqınların vəziyyəti üçün onlar şəxsi məsuliyyət daşıyırlar. Bütün yerli hakimiyyət orqanlarına deyirəm ki, onlar qaçqınların vəziyyəti ilə əlaqədar şəxsi məsuliyyət daşıyırlar. Tələb edirəm ki, onlar bu işlə hər gün məşğul olsunlar. Mən əmr verməyə məcbur olacağam ki, yerli hakimiyyət orqanları başçılarının hamısı gedib çadırlarda qaçqınlarla bir yerdə yaşasınlar. Həmin adamlar onda dərk edəcəklər ki, qaçqınların vəziyyəti necədir. Qoy onlar müharibənin sonunadək öz evlərini şəhid ailələrinə, qaçqınlara versinlər, özləri isə köçsünlər çadırlara və müharibə qurtarana qədər, qaçqınlar öz evlərinə qayıdana kimi orada yaşasınlar. Onda onlar anlayacaqlar ki, çadırda yaşayanların vəziyyəti necədir.

Eyni zamanda, mən bu gün respublika təşkilatlarından tələb edirəm. Qaçqınların işi ilə məşğul olan dövlət komitəsi var, Nazirlər Kabinetində mən xüsusi olaraq baş nazirin müavinini təyin etmişəm, orada İzzət Rüstəmov bu işlə məşğul olur. Nazirliklərin rəhbərlərindən tələb edirəm ki, bu məsələlərə ciddi yanaşsınlar, təcili tədbirlər görsünlər. Bu günlərdə mən qaçqınların yerləşdiyi şəhərciklərə, yerlərə komissiyalar göndərəcəyəm. Onlar gedib yerlərdə vəziyyəti öyrənməlidirlər.

Bu gün demək istəyirəm ki, qaçqın və əlil, şəhid ailəsi üçün ayrılmış yardımı mənimsəmək ən böyük cinayətdir. Xalq sözü var, bunu yeyən bilməlidir ki, o, ilan sümüyü kimi onun boğazında qalacaqdır. Bundan böyük xəyanət, bundan böyük cinayət ola bilməz!

Güman edirəm ki, siz də mənim fikirlərimlə həmrəysiniz, yəqin din xadimləri də düşərgələrdə olacaqlar, qaçqınlarla görüşəcəklər, çadırlarda yaşayanların vəziyyətini öyrənəcəklər və hamımız həmin adamların həyat şəraitinin yaxşılaşması üçün əlavə tədbirlər görəcəyik.

İndi həyatımız çox rəngarəngdir. Bir tərəfdən biz müstəqil dövlətdə yaşayırıq. Bir neçə gündən sonra 28 May İstiqlal gününü bayram kimi qeyd edəcəyik. Üç il yarımdan artıqdır ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır. Digər tərəfdən, görürsünüz ki, bu dövr nə qədər problemlər, nə qədər çətinliklər yaradıb, nə qədər ağır bir yolla gedirik. Ancaq bilin və inanın ki, bu ağırlığı siz də çəkirsiniz, mən də çəkirəm. Bəlkə mən sizdən də çox çəkirəm. Çünki mənim üzərimə düşən ağırlıq bütün ölkənin, bütün xalqın çətinliyi və dərdidir.

Xalqımın, Azərbaycanın, doğma Vətənimin, torpağımızın dərdini çəkmək, onun qayğısına qalmaq mənim üçün ən şərəfli vəzifədir. Ona görə də mən bu yolu sizinlə bir yerdə keçirəm və bir yerdə də gedəcəyik. Bu yolda kim bizə mane olacaqsa, onların qarşısı indiyədək alındığı kimi, bundan sonra da alınacaqdır. Biz düz yolla, haqq yolu ilə, Allah yolu ilə, Quran yolu ilə, demokratiya yolu ilə, həqiqət yolu ilə, müstəqillik yolu ilə gedirik. Biz istəyirik ki, Azərbaycanda haqq-ədalət olsun, Azərbaycan müstəqil yaşaya bilsin, xalqımız milli azadlığını həmişə qoruyub saxlaya bilsin. Biz istəyirik ki, respublikamızda insan hüquqları qorunsun, demokratiya tamamilə bərqərar olsun, hər kəs öz sözünü deyə bilsin, hər kəs öz hüququnu müdafiə etməyi bacarsın, heç kəsin hüququ tapdanmasın və heç kəs heç kəsi istismar etməsin. Biz bu yolla gedirik və bu yolla da gedəcəyik. İnanın ki, tutduğumuz bu yol bizi Azərbaycanın çox gözəl gələcəyinə aparıb çıxaracaqdır.





Biz sizinlə bu gələcəyə çatacağıq və gələcək nəsillərimiz bizim etdiyimiz işlərin bəhrəsini görəcəklər.

Bir daha sizinlə görüşməyimdən məmnun olduğumu bildirirəm, hacıları təbrik edirəm. Səttarxan adına zavodun kollektivinə uğurlar arzulayıram. Sizin hamınıza, bütün Azərbaycan xalqına həyatımızın bu ağır dövründə dözüm, eyni zamanda, fədakarlıq, xoşbəxtlik və səadət arzu edirəm. Sağ olun!







## AŞURA GÜNÜ İLƏ ƏLAQƏDAR KEÇİRİLƏN MƏRASİMDƏ ÇIXIŞ

*Təzəpir məscidi, 9 iyun 1995-ci il*

Hörmətli bacılar, qardaşlar!

Azərbaycanın əziz övladları!

Bu gün müsəlmanlar üçün matəm, Aşura günüdür. Bu gün biz dinimizə, adət-ənənələrimizə sadiq olaraq Təzəpir məscidinə toplaşmışıq və haqq-ədalət yolunda şəhid olan Həzrət Hüseynin xatirəsini yad edirik. Bu münasibətlə mən sizə, bütün Azərbaycan müsəlmanlarına başsağlığı verirəm və hamınıza səbir diləyirəm. Allahdan onu diləyirəm ki, hər bir azərbaycanlıya, hər bir müsəlmana səbir versin.

Bu gün biz haqq yolunda şəhidliyin müqəddəs olduğunu qeyd edirik. Xalqımız əsrlər boyu özünün yaşaması, torpağının qorunması, haqq, ədalət üçün şəhidlər vermişdir. Son illərdə də Azərbaycan xalqı şəhidlər verir. Vətən, torpaq yolunda şəhid olan hər bir Azərbaycan vətəndaşı, müsəlman əbədiyyətə qovuşur, necə ki, bizim müqəddəs imamlarımız əbədiyyətə qovuşublar. Ona görə də biz bu tarixi günü qeyd edərkən, eyni zamanda, şəhidlərin müqəddəsliyini qeyd edirik və onlara dua oxuyuruq.

Son illər xalqımız Ermənistanın təcavüzü ilə əlaqədar olaraq çox şəhidlər verib. Azərbaycanın qəhrəman övladları – oğlanları, qızları həyatlarını qurban veriblər, şəhid olublar. Biz bu gün onların ruhunu yad edirik. Onlar bizim bu günümüzün, gələcək nəsillərimizin həyatı üçün, Vətənimizin, torpaqlarımızın qorunması üçün şəhid olublar. Biz bu gün onların ruhuna dua oxuyuruq. Mən bu gün bütün şəhid ailələrinə Allahdan səbir diləyirəm, Allahdan bütün şəhidlərə rəhmət diləyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü, torpaqlarımızın bütövlüyü uğrunda mübarizəmiz müvəffəqiyyətlə sona çatacaq, şəhidlərimizin,

verdiyimiz qurbanların xatirəsi qəlbimizdə əbədi yaşayacaq, ölkəmizin ərazi bütövlüyü təmin olunacaq, işğal olunmuş torpaqlarımız azad ediləcək, həmin torpaqlardan qaçqın düşmüş bacı və qardaşlarımız öz obasına, evinə, yerinə-yurduna qayıdacaqlar.

Bu gün, bu müqəddəs gündə siz də, biz də, Allahdan bunu diləyirik. Bu gün şəhidlərin xatirəsini yad edərək Allaha dua edirik ki, xalqımıza daha da səbir, güc, qüdrət versin ki, torpaqlarımızın azad olunmasına, müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsinə nail olaq, ölkəmiz azad bir dövlət kimi yaşasın.

İndi dinimiz azaddır. Hər bir azərbaycanlı, hər bir müsəlman öz dininə itaət etməkdə sərbəstdir. Bu Məhərrəmlik ayında, xüsusən son günlərdə dinimizə itaət, etiqad, məscidlərdə, o cümlədən bu gün Təzəpir məscidində keçirilən mərasim onu göstərir ki, müstəqil dövlətimizdə din azaddır və hər kəs öz vicdanının hökmünü, istəyini ifadə edə bilər. Xalqımızın belə azad, sərbəst şəraitdə yaşaması bizim üçün böyük əsasdır.

Bu gün burada, sizin qarşınızda bir daha deyirəm ki, biz Azərbaycanın müstəqilliyi yolunda bundan sonra da çalışacağıq və var qüvvəmizi əsirgəməyəcəyik. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün bütün qüvvələrimizi cəmləyib müstəqil Azərbaycanı yaşadacaq, onun ərazi bütövlüyünü təmin edəcəyik. Müstəqil Azərbaycan Respublikası şəhidlərin, verdiyimiz qurbanların həyatının, yəni onların xatirəsinin əbədi olması üçün yaşamalıdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunmalıdır. Biz bunların hamısını edəcəyik. Bunlara nail olmaq, bunları əldə etmək üçün biz Allaha dua edərək, bu gün öz müsəlmanlıq borcumuzu yerinə yetirərək, eyni zamanda, birləşməli, əl-ələ verməliyik, xalqımızın birliyini, həmrəyliyini təmin etməliyik.

Allahdan bir daha rəhm diləyirəm. Allah şəhidlərə rəhmət eləsin. Mən Azərbaycanda xalqımızın, hər bir müsəlmanın dinə sərbəst etiqad etməsi imkanlarından məmnun olduğumu bildirmək istəyirəm.

Allah rəhmət eləsin!





## DİNDARLARLA GÖRÜŞDƏ ÇIXIŞ

*Təzəpir məscidi, 18 avqust 1995-ci il*

Əziz və hörmətli həmvətənlər, bacılar və qardaşlar!

Sizi, bütün Azərbaycan xalqını, bütün Azərbaycan müsəlmanlarını bu bayram – Həzrət Məhəmməd peyğəmbərin Mövlud günü münasibətilə təbrik edirəm! Bütün Azərbaycan müsəlmanlarına səadət, xoşbəxtlik, firavanlıq arzulayıram!

Həzrət Məhəmməd peyğəmbərin Mövlud günü bizim böyük bayramımızdır. Çünki biz müsəlmanlar həyatımızın başlanğıcını Allah tərəfindən göndərilmiş Məhəmməd peyğəmbərin və onun yaratdığı Qurani-Şərifin əsasında görürük. Xalqımızın, müsəlmanların Allahın göstərişi ilə Məhəmməd peyğəmbərin, Qurani-Şərifin qoyduğu yolla getdiyi illər, əsrlər biz müsəlmanları daim yaşadıb, çətinliklərdən çıxarıb, xoşbəxt günlərə gətirib, bizə xoşbəxtlik, səadət bəxş edibdir. Ona görə də bu bayram bizim üçün ən böyük bayramdır. Bu, səadət, xoşbəxtlik, mənəviyyat bayramıdır. Biz bu bayramı böyük iftixar hissi ilə qeyd edirik. Ona görə ki, bizim müqəddəs Qurani-Şərif kimi kitabımız var. Ona görə ki, biz müsəlmanlar Allahın qoyduğu yol ilə, Həzrət Məhəmməd peyğəmbərin qoyduğu yol ilə gedərək nailiyyətlərdən nailiyyətlərə çatmışıq.

Bu günlər biz bir daha Qurani-Şərifə, Məhəmməd peyğəmbərin qoyduğu yola sədaqətimizi, hörmətimizi, ehtiramımızı bildiririk. Bir daha dua edirik ki, bütün gələcək nəsillər də bu yolla getsinlər. Həyatımızda rastlaşdığımız çətinliklərdən çıxmaq üçün Allah-Təala, müqəddəs İslam dinimiz bizə dayaq olsun, kömək olsun!

Müstəqil Azərbaycan Respublikası öz tarixinin mürəkkəb bir dövrünü yaşayır. Bu dövrün çox müsbət, xoşbəxt cəhətləri var. Eyni zamanda, ağır, çətin, kədərləndirici cəhətləri var.

Xoşbəxtliyimiz ondan ibarətdir ki, Azərbaycan xalqı uzun əsrlər boyu istədiyi, arzu etdiyi, həsrəti ilə yaşadığı milli azadlığını, dövlət müstəqilliyini nəhayət əldə edib. Azərbaycan xalqı indi özü öz taleyinin sahibidir və müstəqil dövlət qurub, yaradıb yaşaya bilir. Bu, xalqımızın tarixlər boyu yaşadığı bütün dövrlərdə ən yüksək səviyyəyə çatdığımız bir dövrdür, bizim üçün ən böyük xoşbəxtlikdir. Xalqımız sərbəstdir, azaddır, dövlət müstəqilliyini əldə edib və biz müstəqil dövlət kimi, dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu bir dövlət kimi yaşayırıq.

Xoşbəxtliyimiz ondan ibarətdir ki, uzun illərin məhrumiyyətindən sonra biz dinimizə sahib olmuşuq, İslam dininə sahib olmuşuq. İslam dini bütün qadağanlardan, bütün məhrumiyyətlərdən qurtarıb, Azərbaycan müsəlmanlarının hər biri üçün onun ürəyinin istədiyi kimi mənəviyyatını yaradan, mənəviyyatını quran bir mənbə olubdur. Bu, böyük nailiyyətdir, böyük xoşbəxtlikdir. İndi artıq məscidlərimizin də qapısı açıqdır. Günü-gündən yeni-yeni Allah evləri, məscidlər də açılır. Xalqımız öz dininə qayıdır, dinini qiymətləndirir, İslam dininin xalqımız üçün nə qədər əhəmiyyətli olduğunu dərk edir. Bu, böyük nailiyyətdir.

Ona görə də mən bu gün Allaha itaət edərək, İslam dinimizə itaət edərək Həzrət Məhəmməd peyğəmbərin Mövlud günü məhz buraya, Allah evinə, məscidə gəlmişəm. Sizin hüzurunuza gəlmişəm ki, bu xoşbəxtliyimizi, bu nailiyyətimizi, bu bayramımızı sizinlə birlikdə qeyd edək.

Eyni zamanda, yaşadığımız tarixi dövrün böyük çətinlikləri, ağırlıqları var, bizi kədərləndirən cəhətləri var. Bu da bizim həyatımızın gerçəkliyidir. Bu dövrü biz yaşamalıyıq, çətinliklərin, ağırlıqların öhdəsindən gəlməliyik, bu kədərlərdən xilas olmalıyıq. Bu kədərlər də ondan ibarətdir ki, xalqımıza, millətimizə, dinimizə düşmən olan qüvvələr tərəfindən, Ermənistan tərəfindən yeddi il öncə ölkəmizə, Azərbaycana hərbi təcavüz baş veribdir. Yeddi ildir ki, bu hərbi təcavüz davam edir.





Təəssüflər olsun ki, xalqımızın ağır dövründə ona lazımi rəhbərlik olmadığına görə biz torpaqlarımızın bir qisminin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinə imkan vermişik. Azərbaycanın ərazi bütövlüyü pozulub, torpaqlarımızın iyirmi faizi erməni silahlı qüvvələri tərəfindən işğal edilibdir. O torpaqlarda əsrlər boyu yaşamış, yaratmış, özünə yurd-yuva qurmuş, el-obasını qorumuş, saxlamış azərbaycanlılar, müsəlmanlar zorla öz yerlərindən qovulublar, didərgin salınıblar, qaçqın vəziyyətinə düşüblər. Azərbaycana qarşı yeddi il davam edən hərbi təcavüz nəticəsində övladlarımız şəhid olub, qanlar tökülübdür. Müsəlmanlığımıza, azərbaycanlılığımıza böyük zərbələr vurulubdur. Bu, həyatımızın kədərli cəhətidir, çətin, ağır cəhətidir.

Ancaq biz gələcəyə inanırıq. İnanırıq ona görə ki, biz ədalətli bir xalqıq, sülhsevər bir millətik, müsəlman dünyasının bir hissəsiyik. Biz inanırıq ki, bu bəlalardan çıxacağıq və torpaqlarımız azad olacaq, işğalçılar qovulacaq, ərazi bütövlüyümüz təmin ediləcəkdir. Ancaq bu o qədər də asan deyil. Buna nail olmaq üçün çox işlər görmək lazımdır və biz bunu görürük. Məhz buna nail olmaq üçün biz keçən ilin mayında atəşkəs haqqında saziş əldə etdik. Artıq on beş aydır ki, atəş kəsilibdir. Biz bu atəşkəs rejimini saxlaya bilirik, ona riayət edirik. On beş aydır ki, övladlarımız həlak olmur, güllə atılmır, müharibə getmir, qan tökülmür, şəhidlər gəlmir. Bilirsiniz ki, əvvəlki illərdə biz hər gün şəhid qəbul edirdik. Siz də, biz də – hamımız bir yerdə matəm mərasimlərində olurduq, şəhidləri dəfn edirdik, ağlayırdıq, göz yaşı tökürdük. Hələ indi də göz yaşımız qurumamışdır. Çünki şəhidlərin xatirəsini heç vaxt unuda bilmərik. Onların qəhrəmanlığı, şəhidliyi onları əbədiyyətə qovuşdurmuşdur. Onların xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Ancaq fərq ondan ibarətdir ki, indi artıq müharibə yoxdur, yeni şəhidlər gəlmir, yeni matəm mərasimləri qurulmur. Şübhəsiz ki, bu, bizim son nailiyyətimiz deyil. Bu, sadəcə olaraq, vasitədir, şəraitdir ki, biz bu imkanlardan istifadə edərək bütün siyasətimizi fəallaşdırıb, dünyanın bütün imkanlarından, sülh-

sevər dairələrindən istifadə edib müharibəyə son qoyaq, ərazi bütövlüyümüzü təmin edək, işğal olunmuş torpaqlarımızı azad edək, müsəlmanlarımız, azərbaycanlılar, vətəndaşlarımız öz yerinə-yurduna qayıtsın. Güman edirəm ki, biz buna nail olacağıq. Mən buna əminəm.

Ancaq bizim dərdimiz, çətinliyimiz, kədərimiz təkcə bu deyil. Əgər belə olsaydı, dərd yarı idi. Dərdimiz bir də ondan ibarətdir ki, bütün bu dövrdə, Ermənistanın Azərbaycana təcavüzünün davam etdiyi yeddi il ərzində xalqımız daxili çaxnaşmalar içində yaşayır, daxili qarşıdurma şəraitində yaşayır, daxili ədavət, dedi-qodu içərisində yaşayır. Bəzi qüvvələr, bəzi adamlar müsəlmanlığını da itirib, vicdanını da itirib, namusunu, şərəfini də itirib, xalqımızın bu ağır dövründən öz şəxsi məqsədlərinə nail olmaq üçün istifadə etməyə cəhd göstərirlər. Ona görə də cürbəcür təxribatlara əl atırlar, xalqımızı parçalamaq, dağıtmaq istəyirlər. Ağır vəziyyətdə yaşayan xalqımızı daha da ağır vəziyyətə salmaq istəyirlər.

Bu tariximiz sizin gözünüzün qabağındadır. Mən bu gün bunların hamısına bir daha təfsilatı ilə qayıtmaq fikrində deyiləm. Ancaq onu bildirmək istəyirəm ki, bizim dərdimizin üstünə dərd gəlir. Adətən ölkə, xalq, millət xarici düşmənin basqınına məruz qalanda daha da sıx olur, daha da birləşir, əl-ələ verir, bütün kin-küdurəti unudur ki, ümumi düşmənin qarşısına bir yerdə çıxsınlar. Ancaq təəssüf ki, bizim içərimizdəki düşmən qüvvələr Azərbaycan xalqına bəlkə də xarici düşmənlərdən daha çox zərbə vurublar. Onlar xalqımızı parçalayıblar, cürbəcür qruplara, tayfalara bölüblər və ölkəmizi, müstəqil Azərbaycanı parçalamağa cəhd ediblər. Bunların nəticəsində də biz məğlubiyyətlərə uğramışıq, bunların nəticəsində də Ermənistan silahlı qüvvələri torpaqlarımızı işğal edibdir.

Gəlin açıq danışaq, Azərbaycan xalqı qəhrəman xalqdır, cəsur xalqdır. Azərbaycan xalqı aciz xalq deyil ki, erməni işğalçıları gəlib bizim torpaqlarımızı zəbt edə bilsinlər. Mən heç də razı ola bilmərəm belə hesab edək ki, xalqımız zəif olubdur, onlar





isə güclü. Yox! Biz özümüzü içimizdən yemişik, içəridən parçalamışıq. Bununla da daxili düşmənlərimiz erməni işğalçılarına kömək edib, yardım edib və xalqımıza onlardan da çox düşmənçilik ediblər.

Allaha şükürlər olsun ki, son iki ildir sizin gözünüzün qabağında apardığımız siyasət və tədbirlər nəticəsində biz daxilimizdə olan təxribatçı qüvvələri bir-bir ifşa edirik, sıradan çıxarırıq və cəmiyyətimiz, ölkəmiz bələlərindən təmizlənir. Ancaq biz bu təmizliyi nə qədər aparırıq, xarici düşmənlərimiz, ayrı-ayrı ölkələrdə Azərbaycanın müstəqilliyinin əleyhinə olan adamlar satqınlıqdan, xəyanətkarlıqdan o qədər istifadə edərək ölkəmizi yenə də diz üstə çökdürməyə çalışırlar. Onlar müstəqilliyimizi boğmağa, əldən almağa çalışırlar, bizi yenə də müstəmləkə, qul etmək istəyirlər.

Yox! Mən bu gün sizə deyirəm və bu Allah evində and içirəm ki, biz bundan sonra heç vaxt müstəqilliyimizi əldən verməyəcəyik! Hər bir azərbaycanlı bunu anlamalı, bilməlidir. Biz bir daha müstəmləkə ola bilmərik, bir daha qul ola bilmərik. Biz azad olmuşuq, Azərbaycan xalqı azad yaşamalıdır. Ancaq ölkəmizin daxilində olan ayrı-ayrı xəyanətkarlar, satqınlar öz şəxsi mənafelərini xalqın mənafeyindən, milli mənafeyimizdən, ənənələrimizdən üstün tutaraq yenə də müstəqilliyimizi dağıtmaq istəyirlər. Biz buna yol verməyəcəyik! Son iki ildə gedən proseslər gözünüzün qabağındadır, görürsünüz ki, biz bunun qarşısını alırıq və bundan sonra da alacağıq.

Bu dövrdə Azərbaycanı neçə dəfə dağıtmaq istədilər. 1993-cü ilin iyun ayında Azərbaycan artıq parçalanmışdı, siz bunun şahidisiniz, Azərbaycanı dağıtmışdılar, vətəndaş müharibəsi başlamışdı. Təsəvvür edin, bir tərəfdən erməni silahlı qüvvələri hücum edirdi, ikinci tərəfdən Azərbaycanda vətəndaş müharibəsi başlamışdı. Azərbaycan belə bir şəraitdə yaşaya bilərdimi? Biz xalqımızı xilas etdik. Keçən ilin oktyabrında yeni bir çevriliş etmək istədilər, onun qarşısını aldıq. Təşkilatçıların bəzisi həbs olundu, bəzisi qaçdı. Amma yenə də əl çəkmədilər. Qaçıb biri bir ölkədə,

o birisi başqa ölkədə, çoxu Moskvada toplaşdılar. Yenidən güc toplayıb bu ilin martında Azərbaycanda bir daha dövlət çevrilişi etmək istədilər, Azərbaycan Prezidentini məhv etməyə, terror etməyə çalışdılar. Onun da qarşısını aldıq.

Bilirsiniz ki, qaçmış, gizlənmiş həmin düşmənləri biz son vaxtlar həbs etmişik, üzə çıxarmışıq. Respublikamıza qəsd edən, Azərbaycanın müstəqilliyini dağıtmaq istəyən adamların hamısının artıq iç üzü açılıbdır və hamısı ədalət məhkəməsi qarşısında duracaqdır. Onların hamısı tapılıbdır. Bir qismi hələ ələ keçməyib, onlar da ələ keçəcəklər. Amma o qaçıb gizlənənlər ələ keçiblər, ifşa olunublar və xalqın ədalət məhkəməsi qarşısında cavab verəcəklər.

Mart ayındakı çevriliş cəhdinin qarşısını alandan, onları dağıdandan sonra cəmi bir ay keçməmiş, həmin qüvvələr yeni bir çevriliş hazırlamağa başladılar. Bir həftə bundan qabaq biz bir qrup yüksək rütbəli zabiti – generalları, zabitləri həbs etmişik. Onlar Azərbaycanda yenidən çevrilişə cəhd göstərmək yolu tutublar. Onlar – general Vahid Musayev, general Rafiq Ağayev, general Şahin Musayev, bir sıra polkovniklər və başqaları artıq ifşa olunublar.

Bu əməlləri edənlər kimlərdir? Özlərinin cürbəcür şəxsi məqsədləri üçün həmin bu daxildə olub, müxalifətdə duran qüvvələr, Azərbaycandan qaçıb orda-burda gizlənənlər – Mütəllibovdur, Rəhim Qazıyevdir, Surət Hüseynovdur, onların əlaltılarıdır. Ancaq onlar da gedib ayrı-ayrı ölkələrdə satılırlar, qul olurlar, xalqını sataraq, necə deyərlər, onlara xidmət edirlər, xalqı ağır vəziyyətə salmaq istəyirlər.

Eşitdiniz ki, Sabunçu rayonundakı körpünü dağıtmaq istəyirdilər. Bilirsiniz, fürsətdən istifadə edib demək istəyirəm ki, mən keçən dövrdə Azərbaycanda rəhbər işləyərkən bizim bütün inşaatçıları bir il yarım səfərbər etdim ki, o körpünü tikək. Sabunçu rayonundakı körpünü nə üçün tikdik? Yaşlı adamların yadında olar, hava limanına gedən yolu həmişə oradan keçən elektrik qatarı kəsirdi. Yadınızdadırmı? Şübhəsiz ki, bu da yolun təhlükəsizliyinə mane olurdu. Yol hərəkətini nizama salmaq üçün biz oraya böyük vəsait qoyduq. O körpünü tikdirən də, yaradan da mənəm. Onun əsasını qoyan da, axıra çatdıran da mənəm. Mən bunu xalqım üçün, Bakı üçün, Bakının vətəndaşları üçün etmişəm. Körpünün uzunluğu 600 metrdir. İndi gətirib onun altına o qədər partlayıcı maddələr qoyublar ki, körpünü də, ətrafda olan binaları da dağıtsınlar, insanları da məhv etsinlər. Nə var, nə var ki, Heydər Əliyevi məhv eləyəcəklər.





Görürsünüz, xəyanətin bundan da artıq dərəcəsini təsəvvür etmək mümkün deyil. Görürsünüz, xəyanətin sərhədi nə qədər böyükdür. Bunun da qarşısı alındı. Yenə də deyirəm, təxribatçı, çevriliş etmək istəyən terrorçu yeni bir qrupun da qarşısı alındı, alınır və alınacaq. Siz onu bilin, xalqımız, bütün vətəndaşlarımız da bilsin: biz haqq və ədalət yolu ilə gedirik. Biz xalqımızı bu bəlalardan qurtarmaq istəyirik. Mən bir Prezident kimi bütün səyimi, qüvvələrimi buna sərf edirəm və həyatımın son dəqiqələrinə qədər sərf edəcəyəm. Heç bir terrorçu, heç bir təxribatçı, heç bir cinayətkar, heç bir xəyanətkar bizi bu yoldan çəkindirə bilməyəcəkdir!

Axı mən də insanam, həyatım var, yaşayıram, canlı adamam. Bəzən düşünürəm ki, əcəba, bu mənim həyatımda bir belə nədir? Məni öldürmək istəyən də olub, mənə qarşı terror etmək istəyən də, batırmaq istəyən də olub. Mənim həyatım, tərcümeyi-halım sizə məlumdur. 1987-ci ildə Moskvada böyük çaxnaşmalardan, mən istefaya gedəndən sonra başıma nə bəlalar gəldi. Orada məni əzmək, həbs etmək istədilər, boğmaq istədilər, boğa bilmədilər. Gəldim buraya, burada boğmaq istədilər, boğa bilmədilər. Getdim ucqar bir yerdə, Naxçıvanda üç il yaşadım, orada boğmaq istədilər, boğa bilmədilər. Xalqın iradəsi ilə iki ildir buraya gəlmişəm. Mən buraya özüm gəlməmişəm, xalqın iradəsinə görə gəlmişəm. Əcəba, nə cür olur ki, bir belə xəyanətkar, bir belə terrorçu, bir belə qəsd edənlər öz istəklərinə nail ola bilmirlər? Allah qoruyur (*Yerdən səslər: Əziz Prezident, sizi Allah qoruyur, bundan sonra da qoruyacaqdır. Heydər Əliyev, xalq sizin arxanızdadır.*

*Sizə qəsd etmək istəyənlərə ar olsun! Xəyanətkarlara, satqınlara ar olsun).*

Mənim əzizlərim, ona görə də mən arxayınam. Arxayınam ki, əməli salehliyimə, xalqıma sədaqətimə, mənəviyyatıma görə Allah-Taala məni qoruyub, qoruyur və axıra qədər qoruyacaqdır! Mən də sizə, xalqıma, Azərbaycan müsəlmanlarına xidmət etməyi özümə ən böyük, şərəfli vəzifə hesab edirəm. Mənim həyatımın mənası budur. Həyatımın başqa mənası yoxdur. Mən belə yaşamışam, belə yaşayıram, belə yaşayacağam!

Mən dedim ki, tarix boyu azərbaycanlıların, müsəlmanların həyatına İslam dini həmişə dayaq olubdur, bu gün də, gələcəkdə də dayaqdır. Bu gün, Həzrət Məhəmməd peyğəmbərin Mövlud günü sizi təbrik edərək əmin olduğumu bildirmək istəyirəm ki, biz həmişə bu dayağa istinad edəcəyik. Ancaq respublikamızın bu dövründə hamı çalışmalıdır ki, xalqımız birləşsin, xalqımız daha da bərabər, sıx olsun. Biz azərbaycanlılar, biz Azərbaycan müsəlmanları dərk etməliyik ki, həyatımızın ən mürəkkəb və həlledici bir mərhələsini yaşayırıq. Ona görə də həm xarici düşmənlərin qarşısını almaq üçün, ölkəmizin müstəqilliyini əlindən almaq istəyən qüvvələrin qarşısını almaq üçün, həm də onların kölələrini, qullarını, Azərbaycanın içərisində satqınlıq edib onlara xidmət edənləri ifşa etmək üçün hamımız birləşməliyik, hamımız əl-ələ verməliyik.

Məhəmməd peyğəmbərin bu Mövlud günü mən Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını birliyə, vəhdətə dəvət edirəm və sizin hamınıza səadət, xoşbəxtlik arzu edirəm!





## AZƏRBAYCAN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Respublikamızın bütün yəhudi vətəndaşlarını Roş-Ha-Şana yəhudi təqvimi ilə təzə il münasibətilə ürəkdən təbrik edirəm. Bu qədim bayram dünya yəhudiləri üçün təkcə yeni ilin başlanğıcı deyil, həm də insanların etiraf və tövbə, paklaşma və yeniləşmə çağıdır.

Bu bayram münasibətilə yəhudi qardaş və bacılarımıza cansağlığı, xoşbəxtlik, səadət diləyir, ölkəmizdə milli həmrəyliyin daha da möhkəmləndirilməsi, doğma evimiz – suveren Azərbaycanın çiçəklənməsi naminə hamılıqla səyləri artırmağı arzulayıram.

Allah eləsin – təzə il əmin-amanlıq, şad xəbərlər, gerçəkləşən xoş arzular ili olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*25 sentyabr 1995-ci il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

Hörmətli həmvətənlər!

Sizi – respublikanın bütün pravoslav xristianlarını Milad bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan tarixən ayrı-ayrı dinlərin qarşılıqlı hörmət şəraitində dinc yanaşı yaşamasına nümunə olan bir ölkə kimi tanınmışdır. Hazırda demokratiya və tərəqqi yolu ilə irəliləyən respublikamızda bütün konfessiyaların inkişafı üçün bərabər imkanlar yaradılmış, vətəndaş həmrəyliyi daha da möhkəmlənmişdir. Dini etiqadından, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşları hüquqi, demokratik cəmiyyət quruculuğunda və Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində yaxından iştirak edirlər. Bu ümummilli işdə Azərbaycanın pravoslav xristianları da öz səylərini əsirgəmirlər.

Əziz qardaş və bacılar, bayram günündə sizə möhkəm cansağlığı arzulayır, hər birinizə xoşbəxtlik və doğma Azərbaycanımızın çiçəklənməsi naminə uğurlar diləyirəm.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*5 yanvar 1996-cı il*





## ORUCLUQ BAYRAMI MÜNASİBƏTİLƏ XALQA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Əziz müsəlman bacı və qardaşlarım!

Sizi İslamın ən böyük bayramlarından biri olan Orucluq bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil edildiyi mübarək Ramazan ayı günlərindən respublikamızın müsəlmanları Allaha iman, Vətənə və xalqa sədaqətlərini bir daha nümayiş etdirmişlər. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi, demokratik cəmiyyət quruculuğu işində onların əzmkarlığı daha da artmışdır. Ramazan ayının sınağından ləyaqətlə çıxmış hər bir müsəlmanın indi bayram etməyə, öz müqəddəs borcunu yerinə yetirməkdən doğan rahatlıq, sevinc və fərəh hisslərini bildirməyə tam haqqı vardır. Xalqımız öz tarixinin ən şərəfli, həm də mürəkkəb dövrlərindən birini yaşayır. Müstəqil Azərbaycanımızın çiçəklənməsi, respublikanın suverenliyinin qorunub möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi, öz torpaqlarından didərgin düşmüş bacı və qardaşlarımızın ev-eşiklərinə qaytarılması xalqın ən böyük arzularıdır. Mən əminəm ki, bu mübarək Ramazan günlərindəki ibadətlərdə edilmiş dua və niyyətlərin böyük əksəriyyəti də bu arzularla bağlı olmuşdur. Böyük Allahın köməyi və xalqın iradəsi ilə həmin arzuların həyata keçəcəyinə tam inanıram.

Bu əziz Orucluq bayramında doğma Azərbaycanımızın çiçəklənməsi naminə xalqıma möhkəm iradə və sıx həmrəylik, hər birinizə cansağlığı, xoş əhval-ruhiyyə və uğurlar arzulayıram.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*17 fevral 1996-cı il*

# CÜMƏ MƏSCİDİNDƏ MÖMİN SOYDAŞLARIMIZLA GÖRÜŞDƏ ÇIXIŞ

*Tbilisi şəhəri, 9 mart 1996-cı il*



Əziz bacılar və qardaşlar!

Əziz dostlar!

Azərbaycan Respublikasının Prezidenti kimi mən Gürcüstan Prezidenti Eduard Şevardnadzenin dəvəti ilə buraya rəsmi səfərə gəlmişəm. Biz iki gündür ki, gürcü xalqının qonaqpərvərliyi ilə əhatə olunmuşuq və burada gürcü xalqı ilə Azərbaycan xalqı arasında və respublikalarımız arasında olan dostluq əlaqələrinin möhkəmlənməsi və inkişaf etməsi üçün lazımi tədbirlər görürük.





Mən buraya Azərbaycanın böyük şəxsiyyətləri Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh və Fətəli xan Xoyskinin qəbirlərini ziyarət edəndən sonra, Azərbaycanın böyük şəxsiyyəti, Azərbaycanın ilk demokratik respublikasının Baş naziri Fətəli xan Xoyskinin qəbri üzərindəki abidənin açılması mərasimindən sonra gəlmişəm.

Bura Azərbaycan müsəlmanlarının məscididir. Bu, Allah evidir, müqəddəs evdir. Məscidə gəlmək, Allaha itaət etmək, Allahın əmrlərini yerinə yetirmək hər bir insanın, müsəlmanın borcudur. Mən çox məmnunam ki, Gürcüstan torpağında, Tbilisi şəhərində azərbaycanlıların belə bir ibadət yeri var, özlərinin məscidi var. Bu məsciddə hər bir azərbaycanlı, hər bir müsəlman gəlib Allaha ibadət edir, dua edir, öz müsəlmanlıq borcunu yerinə yetirir. Bu, böyük nemətdir. Eyni zamanda, bu, gürcü xalqının Azərbaycan xalqına və bütün xalqlara nə qədər xoş münasibəti olduğunu göstərir. Bu, gürcü xalqının başqa dinlərə çox dəyərli münasibətini göstərir. Mən bunu çox qiymətləndirirəm.

Siz, Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın vətəndaşlarısınız. Gürcüstanın həyatının bütün sahələrində öz fəaliyyətinizi göstərirsiniz və bundan sonra da göstərəcəksiniz. Məmnuniyyətlə qeyd edə bilərəm ki, mənim dostum, hörmətli Eduard Şevardnadze Gürcüstana başçılıq edəndən sonra Gürcüstanda yaşayan azərbaycanlıların vəziyyəti yaxşılaşıb, Gürcüstanda yaşayan azərbaycanlılar, doğrudan da, bütün hüquqlarına malik olublar və bu hüquqlardan istifadə etmək imkanı qazanıblar. Sizin bu hüquqlarınızdan biri də vicdan, din azadlığınızdır. Bizim Azərbaycanda da və Gürcüstanda da indi bütün insan azadlıqları bərqərar olubdur və o cümlədən din, vicdan azadlığı tamamilə bərqərar olubdur.

Siz burada – Gürcüstan torpağında azərbaycanlı, müsəlman kimi öz dininizi indiyədək qoruyub saxlamısınız, bu günlərdə isə dininizi yaşatmaq, inkişaf etdirmək üçün daha da geniş imkanlar əldə etmisiniz. Bu, indi Gürcüstanda hökm sürən demokratiyanın, azadlığın parlaq nümayişidir. Buna görə mən gürcü

xalqına, Gürcüstan dövlətinə və Prezidentinə Azərbaycan xalqı adından öz təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Bir daha deyirəm, siz Gürcüstanın vətəndaşlarısınız Gürcüstanın bütün qanun-qaydaları həyatınızın qanun və qaydalarıdır. Sizin də borcunuz Gürcüstanda hörmətli Eduard Şevardnadzenin rəhbərliyi altında görülən bütün tədbirlərdə fəal iştirak etməkdir. Gürcüstanın dövlətçiliyinin, müstəqilliyinin möhkəmləndirilməsinə çalışmaq və Gürcüstanda bu ağır vəziyyətdən çıxmaqdan ötrü aparılan tədbirlərdə iştirak etmək, ona dəstək vermək sizin vətəndaşlıq borcunuzdur.

Mən çox məmnunam ki, siz burada azad, sərbəst yaşayırsınız, öz hüquq və azadlıqlarınızdan istifadə edə bilirsiniz. Ancaq, eyni zamanda, əmin olduğumu bildirmək istəyirəm ki, Gürcüstanda yaşayan azərbaycanlılar bundan sonra da bütün hüquqlarından istifadə edə biləcək, Gürcüstanın bərabər hüquqlu vətəndaşları kimi yaşayıb-yaradacaq və Gürcüstan Respublikasının, dövlətinin möhkəmləndirilməsi üçün öz səylərini əsirgəməyəcəklər.

Gürcü xalqı ilə Azərbaycan xalqı arasında olan dostluq, qardaşlıq əlaqələri çoxəsrlik tarixə malikdir. Onlar sarsılmazdır və biz də bu günlərdə bundan sonra da bu dostluq əlaqələrinin möhkəmlənməsi üçün çalışmışıq, çalışacağıq.

Mən sizin hər birinizə bütün işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Gürcüstanda yaşayan hər bir azərbaycanlını bağrıma basıram, öpürəm, hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram. Gürcüstan Respublikasına, Gürcüstan dövlətinə qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsini arzulayıram. Sağ olun.

Buraya gəlişim münasibətilə mən Qurani-Kərimi Azərbaycan dilində öz adımdan sizə təqdim edirəm ki, onu öz dilimizdə oxuya biləsiniz. Sizin məscidə mənim hədiyyəm olan xalçanı qəbul edin və yadigar kimi saxlayın. Sağ olun.





## ÜMUMDÜNYA İSLAM XALQ RƏHBƏRLİYİ İDARƏ HEYƏTİNİN NÖVBƏTİ TOPLANTISI İŞTİRAKÇILARINA

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Hörmətli toplantı iştirakçıları!

Sizi – nüfuzlu Beynəlxalq İslam Təşkilatının nümayəndələrini bütün Azərbaycan xalqı adından səmimi qəlbdən salamlayıram.

Dünyanın tanınmış din xadimlərinin müstəqil Azərbaycanın paytaxtı Bakıda keçirilən bu ilk böyük toplantısı İslam aləminin ayrılmaz bir hissəsi olan ölkəmizin həyatında əlamətdar hadisədir. Məlumdur ki, qonşu Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan səkkiz ildir ki, ağır müharibə şəraitində yaşayır.

Bu müharibədə Azərbaycan 20 mindən artıq şəhid vermiş, yüz minə qədər azərbaycanlı yaralanmış, torpaqlarımızın 20 faizdən çoxu işğal olunmuş, milyondan artıq vətəndaşımız yurd-yuvasından didərgin düşmüşdür. İşğal olunmuş torpaqlar viran olmuş, evlər, məktəblər, sosial və inzibati binalar, təsərrüfat obyektləri, məscidlər və məbədlər dağıdılmış, müsəlman qəbiristanlıqları təhqirə məruz qalmış, Qurani-Kərim nüsxələri yandırılmış, qədim İslam mədəniyyəti abidələri yerlə yeksan edilmişdir. Təbii ki, xalqımızın belə ağır gündə müsəlman qardaşlarının, bütün xeyirxah insanların yardımına və mənəvi dəstəyinə böyük ehtiyacı vardır. Buna görə də toplantınızı Azərbaycanda keçirdiyiniz üçün sizə öz minnətdarlığımı bildirirəm. Ümidvaram ki, respublikamızda olduğunuz günlər ərzində hər şeyi öz gözlərinizlə görüb real vəziyyətlə tanış ola biləcəksiniz və xalqımızın haqq işinin beynəlxalq miqyasda müdafiə olunması yolunda əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizin bu toplantınız xalqımızın gözəl bayramlarından biri olan Novruz bayramı günlərində keçirilir. Mən şadam ki, sosial-iqti-

sadi vəziyyətin ağırlığına baxmayaraq müstəqil Azərbaycanın gələcəyinə böyük inam və nikbinliklə baxan xalqımızın bu Bahar bayramı şənliklərindəki sevincinə siz də şərik olacaqsınız.

Azərbaycan xalqı bütün çətinliklərə və əngəllərə baxmayaraq öz dini dəyərlərini qoruyub saxlamış, yüksək İslam ideallarına sədaqətini daim nümayiş etdirmişdir. O, ürəklərimizi bir-birinə birləşdirərək bizə qardaşlıq nemətini bəxş etmiş yenilməz qüvvət və hikmət sahibi Allahın bu fəzilətini həmişə əziz tutmuş və bütün müsəlmanların qardaşlığı naminə əlindən gələni etmişdir. Əminəm ki, sizin bu toplantınız da müsəlman xalqlarının qardaşlığı və həmrəyliyi işinə öz layiqli payını verəcəkdir.

Əziz toplantı iştirakçıları!

Sizi və sizin şəxsinizdə bütün müsəlman qardaşlarımızı bir daha salamlayır, Allah-Təaladan sizə cansağlığı, xoşbəxtlik və nəcib işlərinizdə böyük uğurlar diləyirəm.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
24 mart 1996-cı il





## PASXA BAYRAMI MÜNASİBƏTİLƏ RESPUBLİKANIN PRAVOSLAV XRİSTİANLARINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi müqəddəs dini bayram – Pasxa münasibətilə ürəkdən təbrik edir, hamınıza xoşbəxtlik, şəxsi həyatınızda nailiyyətlər arzulayıram.

Tarixən Azərbaycanda dünya dinləri dinc yanaşı və qarşılıqlı hörmət şəraitində fəaliyyət göstərmişlər. Azərbaycan dövləti bu gün də öz ənənələrinə sadiqdir. Vicdan azadlığı, dini etiqad sərbəstliyi cəmiyyətimizin mənəvi sərvətlərindəndir. Müstəqil, demokratik respublikamızda bütün konfessiyalar cəmiyyətdə əxlaqi dəyərlərin, əmin-amanlığın, dostluğun və vətəndaş həmrəyliyinin bərqərar olması, insanların ilahi kəlama tapınması üçün öz nəcib vəzifələrini həyata keçirirlər. Bu işdə Rus Pravoslav Kilsəsinin də layiqli xidməti vardır.

Qoy bu bayram Azərbaycanda yaşayan bütün xalqları bir-birinə daha da yaxınlaşdırsın, hər birinizin evinə sevinc, şadlıq və bərəkət gətirsin.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*15 aprel 1996-cı il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Əziz bacılar və qardaşlar!

Allah-Təalanın İslamı bir din kimi tamamlayıb insanlar üçün seçdiyi bu əziz Qurban bayramı günündə hamınızı ürəkdən təbrik edir, sizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Böyük Xaliqin bəxş etdiyi nemətlərə görə bu minnətdarlıq günündə etdiyiniz dua və niyyətlərin çoxu doğma Azərbaycanımızın suverenliyinin, ərazi bütövlüyünün qorunmasına, xalqımızın əmin-amanlıq içində, xoşbəxt və firavan həyata qovuşmasına yönəlmişdir. Əminəm ki, sizin bütün arzu və diləkləriniz Allahın köməyi və xalqımızın iradəsi ilə həyata keçəcəkdir.

Bütün müsəlmanların həmrəylik və qardaşlıq bayramı olan mübarək Qurban bayramı günündə hamınızı xalqımızın haqq işinin təntənəsi, müstəqil respublikamızın çiçəklənməsi naminə daha sıx birlik və əzmkarlıq nümayiş etdirməyə çağırıram.

Bu müqəddəs bayram günlərində ölkəmizin hər tərəfində sülh və əmin-amanlığın, hər bir evdə xoş əhval-ruhiyyənin bərqərar olmasını Allahdan diləyirəm!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*19 aprel 1996-cı il*





## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ "QIZILQUM" SANATORİYASINDA MÜVƏQQƏTİ YERLƏŞMİŞ ŞUŞA, XOCALI, LAÇIN, AĞDAM QAÇQINLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*28 aprel 1996-cı il*




Əziz bacılar və qardaşlar, əziz həmvətənlər!

Müsəlman dünyasının bir hissəsi kimi, bu gün Azərbaycan xalqı bizim üçün müqəddəs olan Qurban bayramını qeyd edir. Azərbaycanda Qurban bayramının bu qədər geniş və bu qədər təmtəraqlı qeyd olunması onu göstərir ki, xalqımız artıq öz doğma köklərinə, ənənələrinə qayıdır və bunlara sadiqdir.

Bu bayram qədim bayramdır. Bizim əcdadlarımız, ulu babalarımız onu müqəddəs bayram kimi həmişə qeyd ediblər. Təəssüflər olsun ki, XX əsrin çox hissəsində, 70 ildən artıq bir müddətdə belə bayramlar, yəni millətimizə, xalqımıza, dinimizə aid olan bayramlar o vaxt tərkibində yaşadığımız dövlət və ictimai-siya-




si sistem tərəfindən qadağan olunmuşdu, yaxud da buna imkan verilmirdi. Ona görə də biz həmin bayramları bu qədər əziz, hörmətlə qeyd edə bilmirdik.

Amma onu da bildirmək lazımdır ki, biz bu bayramı heç vaxt unutmamışdıq. Xalqımız onu həmişə qeyd etmişdir. Hərə öz qəlbində, evində-ocağında qeyd etmişdir. İndi isə o, kütləvi xalq bayramı, milli bayram, dini bayramımız kimi böyük bayram gününə çevrilibdir. Bu bayram münasibətilə sizi – bu salona toplaşan bacı və qardaşlarımı, sizin simanızda Azərbaycanın bütün vətəndaşlarını ürəkdən təbrik edir, sizə cansağlığı, səadət, gələcək işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Bu gün ölkəmizin hər bir guşəsində bu bayram qeyd olunur. Minlərlə qurban kəsilir, insanlar bir-birini təbrik edir, bir-birinə qonaq gedir. Bu gün bu salonda – Pirşağı qəsəbəsindəki "Qızılqum" sanatoriyasının binasında da yerindən-yurdundan didərgin düşmüş və burada məskunlaşmış bacı-qardaşlarımız bayram mərasiminə toplaşmışlar. Şübhəsiz ki, mən də bu gün ya öz evimdə bayram edə bilərdim, yaxud Azərbaycanın hər hansı





bir guşəsinə gedə bilərdim və güman edirəm ki, hər yerdə vətəndaşlarımızla birlikdə bayramı çox gözəl qeyd edə bilərdik.

Ancaq mən bu gün buraya, sizin yanınıza gəlmişəm, bu bayramı sizinlə birlikdə qeyd etmək istəyirəm. Ona görə ki, siz Azərbaycanın bütün başqa vətəndaşlarından fərqli olaraq daha ağır, çətin günlər keçirmisiniz və bu gün də belə günlər içərisindəsiniz. On-on beş gündən sonra Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin dörd ili tamam olacaqdır. Eyni zamanda, may ayında Laçının işğalının dörd ili tamam olacaqdır. Fevral ayında biz Xocalı soyqırımının dördüncü ilini qeyd etdik. Kəlbəcərin işğalının ildönümü ilə əlaqədar mart ayında mən kəlbəcərlilərin nümayəndələri ilə görüşdüm, söhbət etdim. Bunlar bizim tariximizin acı, dəhşətli səhifələridir, faciəli, qara səhifələridir. Ancaq siz, biz bu səhifələri yaşamışıq və bunları heç vaxt unutmayacağıq. Ona görə unutmayacağıq ki, xalqımıza, onun köksünə böyük zərbələr vurulubdur, millətimiz yaralanıbdır. Şuşanın, Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması Azərbaycan millətini yaraladı, başqa ərazilərimizin də işğal edilməsinə geniş yol açdı. Bunlar hamısı bizim faciəmizdir.

Burada çıxış edən şuşalı qardaşım dedi ki, biz aciz deyilik, bəsdir dözdük, torpaqlarımızı azad etməliyik. Mən də bu fikirlə razıyam. Biz torpaqlarımızın işğal altında qalmasına heç vaxt razı ola bilməyəcəyik. Ölsək də, ola bilər hamımız məhv olsaq da, torpaqlarımızın Ermənistan silahlı qüvvələrinin işğalı altında qalmasına dözə bilməyəcəyik. Dözməyəcəyik və şübhəsiz ki, torpaqlarımızı azad edəcəyik. Buna heç bir şübhəniz olmasın.

Ancaq məlumdur ki, Şuşa qalasını əsrlər boyu qoruyanlar dörd il bundan öncə də qoruya bilərdilər. Şuşa qalasını qorumaq o, işğal olunandan sonra, dörd ildən sonra geriyə almaqdan, azad etməkdən çox-çox asan idi. Ancaq təəssüf ki, satqınlar, xainlər, Azərbaycanın daxilindən olan düşmənlər bizi belə bir faciəli vəziyyətə gətirib çıxardılar. Mən heç vaxt razılaşa bilmərəm ki, Azərbaycan xalqı kimi qəhrəman bir xalq Şuşa qalasını, Laçın dağlarını qoruya, saxlaya bilməyəydi. Yox, bu,

qətiyyən mümkün deyildir. Əgər satqınlıq, xəyanət olmasaydı, daxildən Azərbaycana düşmən olan adamlar öz şəxsi mənafelərinə çatmaq üçün cürbəcür hoqqabazlıqla, hakimiyyət uğrunda mübarizə ilə məşğul olmasaydılar, Şuşa qalası da Azərbaycanın məğrur qalası kimi yaşayacaqdı, Laçın dağları da və indi biz, sadəcə olaraq, başqa ərazilərimizdən erməni silahlı qüvvələrinin çıxarılması ilə məşğul olacaqdıq. Bu satqınlıq, xəyanətlər xalqımızın qəlbinə böyük yaralar vurubdur, o yaralar sağalmayıb, sarınmayıbdır, o yaralar sızıldayır. Ancaq biz sızıldamırıq. Nə qədər ağır, çətin olsa da, nəyin bahasına olsa da, biz torpaqlarımızı geriyə qaytaracağıq, yəni işğaldan azad edəcəyik, onların sahibi olacağıq. Müstəqil dövlət kimi Azərbaycan öz ərazisinin hüdudları çərçivəsindəki bütün torpaqlarının sahibi olmalıdır. Bunu haqq- ədalət, beynəlxalq hüquq normaları, dünya demokratiyası, dünya ədaləti tələb edir. Biz buna nail olacağıq.

Eyni zamanda, bilirsiniz ki, buna nail olmaq üçün çox çətinliklər də var. Dörd il bundan öncə Şuşa qalası, Şuşa rayonu və Laçın Ermənistan silahlı qüvvələrinə təslim edildikdən sonra Azərbaycanın başına çox böyük bəlalar gəldi. Azərbaycanın ərazisinin başqa hissələri də işğal olundu. İndi ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Beş ildir ki, siz yerinizdən didərgin düşmüsünüz, qaçqın vəziyyətində, ağır, çətin vəziyyətdə yaşayırsınız. Amma sizinlə bərabər Azərbaycanın bir milyon vətəndaşı Ermənistanın təcavüzü nəticəsində, torpaqlarımızın işğal olunması nəticəsində yerindən-yurdundan zorla çıxarılıb, didərgin düşüb və respublikamızın başqa bölgələrində sizin kimi qaçqın vəziyyətində yaşayır. Bu, Azərbaycan Respublikasının həyatında böyük gərginlik, çətinlik yaradır. Tarixdə heç vaxt biz belə ağır vəziyyətə düşməmişik ki, torpaqlarımızın 20 faizi işğal olunsun, bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan qaçqın düşsün.

Bilirsiniz ki, iki il öncə – 1994-cü ilin mayında biz döyüşləri dayandırdıq, Ermənistanla atəşkəs haqqında saziş bağladıq. İki ilə yaxındır ki, xalqımız atəşkəs şəraitində yaşayır. Bu atəşkəs zəruri idi. Bilirsiniz ki, iki il bundan öncə, həmin bu günlərdə, aprel ayında Ağdam-Tərtər bölgəsində qanlı döyüşlər gedirdi. Erməni işğalçıları öz havadarlarının gücünə arxalanaraq, onların köməyindən istifadə edərək Azərbaycanın başqa ərazilərini də işğal etmək, bizi diz çökdürmək istəyirdilər. Biz onların qarşısını aldıq. Qırx gün gedən döyüşlər Azərbaycan xalqının, Azərbaycan əsgərinin, oğullarının nəyə qadir olduğunu bildirdi. Ermənistan silahlı qüvvələrinə də göstərdi ki, daha onlar irəliləyə bilməzlər. Biz onları dayandırdıq. Qırx günlük döyüşlərdən sonra başa düşdülər ki, belə vəziyyətdə müharibə aparmaq mümkün deyil. Onlar atəşkəs haqqında saziş imzalamağa təşəbbüs göstərdilər və biz də buna razı olduq. Beləliklə, atəş dayandırıldı.

Atəşkəs müddətində biz Ermənistanla Azərbaycan arasındakı hərbi münaqişəni sülh yolu ilə aradan qaldırmaq istəyirik. Biz sülhsevər xalqıq, sülh istəyirik. Bunu dünyaya da bildirmək istəyirik və bildiririk. Ona görə də sülh danışıqları aparırıq, bunu bilirsiniz. Mən dəfələrlə çıxışlarımda bunu demişəm, fikirlərim televiziya, radio vasitəsilə sizə çatır. Bu iki il müddətində biz saysız-hesabsız tədbirlər görmüşük, danışıqlar aparmışıq. Beynəlxalq təşkilatların, böyük dövlətlərin vasitəsilə danışıqlar aparmışıq və aparırıq. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı çərçivəsində Minsk qrupu var o bu işlə məşğul olur – həmin səviyyədə də danışıqlar aparırıq. Amerika Birləşmiş Ştatlarının, Rusiyanın, Türkiyənin və başqa dövlətlərin vasitəçiliyi ilə danışıqlar aparırıq. İki il müddətində dünyanın ən böyük dövlətlərinin prezidentləri, hökumət başçıları ilə dəfələrlə görüşmüşəm, həmin ölkələrdə, beynəlxalq təşkilatlarda danışıqlar aparmışam. Mən bütün beynəlxalq təşkilatlarda olmuşam, dünyanın elə bir beynəlxalq təşkilatı yoxdur ki, bu iki il müddətində orada olmayım, Azərbaycanın əsas problemini, tələblərini deməyim. Dünyanın elə bir böyük dövləti yoxdur ki, mən onun başçısı ilə görüşməmiş olam. Amerika, Rusiya prezidentləri, Çin Dövlət Şurasının sədri, İngiltərənin Baş naziri, Fransa, Almaniya, Türkiyə, İran prezidentləri ilə görüşmüşəm. Bu siyahını uzatmaq da olar.

Bu görüşlərin, danışıqların hamısı bir məqsəd daşıyır: Azərbaycanın haqq-ədalət işini dünyaya sübut etmək, ölkəmizə qarşı olmuş hərbi təcavüzü dünya ictimaiyyətinə anlatmaq, sübut etmək və beynəlxalq ictimaiyyətin, dünyanın böyük dövlətlərinin, beynəlxalq təşkilatların köməyi ilə, onların vasitəsilə məsələni sülh yolu ilə həll etmək. Hətta Ermənistanla birbaşa danışıqlara getmişik. Bu danışıqları aparırıq ki, məsələni sülh yolu ilə həll edək. Yəni bizim vicdanımız təmizdir, pakdır. Baxmayaraq ki, nə qədər qurbanlar, şəhidlər vermişik, işğal edilmiş torpaqlarımız viran olunubdur, əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə qurulub yaradılmış tarixi abidələrimiz, maddi nemətlərimiz dağıdılıbdır, millətimizə nə qədər mənəvi zərbələr vurulubdur, – biz məsələni yenə də sülh yolu ilə həll etmək istəyirik. Biz bölgəmizdə, Qafqazda sülh istəyirik, dünyada sülh istəyir və bu yolla məqsədimizə nail olmaq istəyirik.

Bir həftə idi ki, mən Avropada – Lüksemburqda, Belçikada, Norveçdə böyük səfərdə idim. Lüksemburqda Avropa Birliyi kimi böyük, mötəbər bir təşkilatın toplantısında olmuşam. Avropa Birliyi ilə Azərbaycan arasında çox tarixi əhəmiyyət kəsb edən sənəd – ölkəmizin bu təşkilatla əməkdaşlıq və tərəfdaşlıq etməsi haqqında saziş imzalanıbdır. Bu, tarixi hadisədir. Yəni biz Avropa Birliyi kimi yüksək iqtisadiyyata, mənəviyyata, demokratiyaya malik olan təşkilatla əməkdaşlığa getmişik. Eyni zamanda, bu, Azərbaycanın müstəqil dövlət kimi, demokratik, hüquqi dövlət kimi tanınması deməkdir. Həmin saziş imzalanarkən Avropa Birliyinin yüksək vəzifəli şəxsləri və Avropanın digər ölkələrində olduğum zaman dövlət, hökumət başçıları Azərbaycanda böyük dəyişikliklərin mövcud olduğunu, demokratik islahatların, iqtisadi islahatların həyata keçirildiyini məmnuniyyətlə qeyd etdilər. Demək, Azərbaycan dünya birliyinin ən yüksək pillələrinə addımlayır. Bu, bizim böyük nailiyyətimizdir.

Bununla yanaşı, mən Lüksemburqda da, Brüsseldə də Avropa Birliyinin nümayəndələri ilə fərdi danışıqlar da aparmışam. Həmin saziş imzalanarkən Avropa Birliyinin yüksək kürsüsündə





söylədiyim nitqdə Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüzü, respublikamızın belə ağır vəziyyətdə olduğunu, eyni zamanda, Azərbaycanın bu münaqişəni sülh yolu ilə aradan qaldırmaq istədiyini dünyaya bir daha bildirmişəm. Avropa dövlətlərinin nümayəndələri ilə fərdi danışıqlarda da bu məsələlərin həll olunmasının yollarını araşdırmış, təkliflər vermişəm.

Brüsseldə olarkən NATO kimi böyük beynəlxalq təşkilatların Baş Qərargahına gedərək onun baş katibi ilə görüşüb NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmağımız haqqında prezentasiya sənədini təqdim etmiş, ətraflı danışıqlar aparmışam.

Azərbaycana maddi yardım, maliyyə yardımı göstərilməsi, respublikamızın inkişafı üçün cürbəcür proqramların ölkəmizdə tətbiq olunması barədə Avropa Birliyi komissiyasının sədri ilə, başqa rəsmi şəxslərlə geniş danışıqlar aparmışam. Nəhayət, Norveçə rəsmi dövlət səfəri edərkən bu ölkənin baş naziri, kralı, parlamentin sədri ilə və digər şəxslərlə danışıqlarımız olubdur. Bütün bu danışıqların hamısında Azərbaycan ilə bu təşkilatlar, dövlətlər arasında münasibətləri inkişaf etdirmək problemləri ilə yanaşı, ən ön cərgədə, planda Azərbaycanın ağır problemini – Ermənistanın təcavüzündən xilas olmaq problemini irəli sürmüşəm və bu barədə təkliflərimi vermişəm. Bunların hamısı ona görədir ki, biz başımıza gəlmiş bəlanı sülh yolu ilə aradan qaldırmaq istəyirik.

Eyni zamanda, mənim bir həftəlik səfərimdə Azərbaycan Respublikasının müstəqil dövlət kimi tanınması üçün çox böyük işlər görülübdür. Bu görüşlərin hamısı Azərbaycanın müstəqilliyinin dünyaya bir daha nümayiş etdirilməsidir. Mən bu görüşlərdə bir daha bildirmişəm ki, dövlət müstəqilliyi, milli azadlıq bizim ən böyük nailiyyətimizdir. Biz bunu tarixi nailiyyət hesab edirik, qoruyub saxlayırıq və bundan sonra da qoruyub saxlayacağıq. Dövlət müstəqilliyimizi heç vaxt əldən verməyəcəyik, heç vaxt başqa bir dövlətin tərkibinə, yaxud tabeliyinə düşməyəcəyik. Biz müstəqilik və müstəqil də yaşayacağıq.

Yenə deyirəm, bütün bu tədbirlərin hamısı münaqişəyə sülh yolu ilə son qoyulmasına yönəldilibdir. Yaxın günlərdə ölkəmizə yeni nümayəndələr gələcəklər. Biz danışıqları davam etdirəcəyik. Ümidvaram ki, bu danışıqlarımız nəticə verəcək, sülh addımlarımız dünya ictimaiyyəti tərəfindən, nəhayət, dərk ediləcək və məsələnin sülh yolu ilə həllinə nail olacağıq.

Eyni zamanda, burada səslənən çağırışları və çıxışları da dəstəkləyirəm. Əgər bizim səylərimiz nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü bu yolla təmin edə bilməsək, işğal olunmuş torpaqlarımızı azad edə bilməsək, nəyin bahasına olur olsun, məqsədimizə çatmalıyıq. Şuşanı da, Laçını da, Xocalını da, Ağdamı, Kəlbəcəri, Füzulini, Cəbrayılı, Zəngilanı, Qubadlını da, bir sözlə, bütün torpaqlarımızı azad etməliyik.

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində gedən müharibədə igid oğullarımız şəhid olublar, Vətən yolunda canlarını qurban veriblər. Sizin ailə üzvləriniz, qohum-əqrəbalarınız şəhid olublar. Çoxunuzun qohumları şikəst olub, ağır xəsarət alıbdır. Bunlar hamısı xalqımızın qəhrəmanlıq nümunələridir, qəhrəmanlıq salnaməsidir. Xalqımız bu döyüşlərdə qəhrəmanlıq göstərib. Əgər şəhidlər vermişiksə, oğullarımız həlak olublarsa, deməli, xalqımız qəhrəman xalqdır, cəsurluğunu nümayiş etdiribdir. Güman edirəm ki, bütün bu keçmişi təhlil edəndən sonra xalqımızda qəhrəmanlıq, vətənpərvərlik əhval-ruhiyyəsi daha da yüksəlibdir və ondan da yüksəklərə qalxacaqdır.

Təəssüf ki, bunlarla yanaşı, aramızda satqınlar, xainlər də olubdur. Allah onlara lənət eləsin! Xalqımız onların xəyanətini, satqınlığını daim lənətləyəcək, onlar Azərbaycanda heç vaxt hörmət qazana bilməyəcəklər. Bu gün də olmasa sabah, sabah da olmasa gələcək nəsillər onların cəzalarını verəcəkdir.

Bu gün mən Vətən yolunda, torpaqlarımızın müdafiəsi yolunda şəhid olanların hamısının xatirəsini böyük hörmət və ehtiramla yad edirəm. Bu Qurban bayramı günündə şəhidlərin ruhu qarşısında baş əyirəm. Allah onlara rəhmət eləsin!

Bütün bunlardan bir nəticə çıxır: xalqımız öz gücünü toplamalı,





keçmişdən nəticə çıxarmalıdır. Xalqımız bilməlidir ki, biz özümüz özümüzü qorumalıyıq, qüdrətimizi, qəhrəmanlığımızı göstərməliyik. Bizə heç kəsin torpağı lazım deyil, heç kəsin torpağına göz dikmirik, baxmayaraq ki, keçmiş dövrlərdə torpaqlarımızın başqa hissələri də əlimizdən gedibdir. Ancaq indi beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlərimiz çərçivəsində olan torpaqlarımızı göz bəbəyi kimi qoruyacağıq. Başqalarının torpağına göz dikmirik, öz torpaqlarımızı da qoruyuruq və qoruyacağıq. Öz torpaqlarımızın sahibi olmalıyıq! Ona görə də gücümüzü toplamalıyıq, qəhrəmanlığımızı nümayiş etdirməliyik. Sülh zamanı unutmamalıyıq ki, elə bir gün gələr, biz yenə də torpağımızı döyüşlərlə azad etmək zərurətinə gəlib çatarıq. Bunu unutmaq lazım deyil. Əksinə, gərək hamı buna hazır olsun, siz də hazır olun, biz də hazır olaq.

Sülh istəməklə yanaşı, biz, eyni zamanda, dövlətimizin hərbi qüdrətini möhkəmləndirməliyik. Azərbaycanın hər bir vətəndaşı işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxmağa hazır olmalıdır. Əgər bizim sülh təşəbbüslərimiz nəticə verməsə, əminəm ki, birləşib torpaqlarımızı azad edəcəyik və Şuşada da, Laçında da, işğal olunmuş başqa torpaqlarımızda da belə bayram məclisi quracağıq, Qurban bayramını o yerlərdə qeyd edəcəyik.

Bilirəm ki, siz çox böyük əzab-əziyyətlərə dözürsünüz. Sizin vəziyyətinizi heç olmasa müəyyən qədər yüngülləşdirmək üçün əlimizdən gələni edirik. Burada sizlərə kömək edən, əl tutan ayrı-ayrı təşkilatlara, dövlət orqanlarına təşəkkürünüzü bildirdiniz. Bu, məlumdur, ancaq heç kəs minnət qoymasın. Hamı sizə borcludur. Ona görə də hamının borcu yerindən-yurdundan didərgin düşmüş vətəndaşlara – bacı və qardaşlarımıza qayğı göstərməkdir. Biz azərbaycanlılar belə yaşamışıq: nəyimiz var, həmişə bir-birimizlə bölüşmüşük. Bu gün də kimin imkanı varsa, gərək imkansıza kömək eləsin. Hər bir təşkilat – həm dövlət təşkilatı, həm ictimai və başqa təşkilatlar yerindən-yurdundan didərgin düşənlərə kömək etməlidir. Bu gün təkcə sizə yox, ümumiyyət-

lə, didərgin düşmüş bütün vətəndaşlarımıza göstərilən köməyə görə məmnuniyyətlə razılığımı bildirir, eyni zamanda, hesab edirəm ki, hələ bundan artıq iş görmək lazımdır. Bu sahədə hələ hər şeydən razı deyiləm, nöqsanlar, çatışmazlıqlar da var. Bəzi adamlar öz vəzifəsini layiqincə yerinə yetirə bilmir, bəziləri vəzifəsindən sui-istifadə edir. Bunlar da bizə məlumdur. Bu gün siz bunları bəlkə də demirsiniz. Amma bilin ki, biz bundan xəbərdarıq. Ona görə də bu gün hamını sədaqətlə işləməyə dəvət edirəm. Hamı öz borcunu, vəzifəsini şərəflə yerinə yetirsin. Sizə göstərilən qayğı təbiidir, bundan sonra da olmalıdır və biz çalışacağıq ki, onu daha da artıraq.

Türkiyədən olan qardaşlarımız Azərbaycanın Qurban bayramı mərasimlərində iştirak ediblər, qurbanlar kəsiblər. Burada da çıxış edib öz sözlərini dedilər. Mən bilirəm, onlar başqa yerlərdə də xeyirxah işlərini görüblər. Ona görə də Türkiyə Cümhuriyyətindən, başqa müsəlman ölkələrindən Azərbaycana gəlib Qurban bayramında iştirak edənlərin, qurban kəsənlərin və bayramı bizimlə bölüşdürənlərin hamısına təşəkkür edirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, əlaqələrimiz bundan sonra da genişlənəcək, inkişaf edəcək və gələn Qurban bayramlarını da birlikdə keçirəcəyik.

Sizi bir daha ürəkdən təbrik edir, cansağlığı, xoşbəxtlik arzulayır, hamınıza hörmət və ehtiramımı bildirirəm. Hamınızı qucaqlayır, bağrıma basıram. Sizə uğurlar olsun. Qurban bayramınız mübarək olsun!





## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Sizi yəhudilərin qədim dövrlərdən yeni həyatın başlanğıcı, mənəvi paklaşma və tövbə günü kimi bayram etdikləri Roş-Ha-Şana – Təzə İl münasibətilə ürəkdən təbrik edir, bu əziz gündə hamınıza cansağlığı, sevinc diləyirəm.

Müstəqil Azərbaycanda yaşayan bütün xalqların milli-mədəni özgürlüyünün, adət-ənənələrinin qorunub saxlanılması, dil və mədəniyyətlərinin inkişafı üçün hüquqi demokratik prinsiplər bərqərar edilmişdir. Azərbaycanın yəhudi əhalisi respublikamızın ictimai-siyasi və mədəni həyatında yaxından iştirak edir və əminəm ki, bundan sonra da demokratik dövlət quruculuğunda səylərini əsirgəməyəcəkdir.

Qoy Roş-Ha-Şana bolluq, xeyir-bərəkət, sülh və xoş müjdələr gətirsin.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*12 sentyabr 1996-cı il*

# MƏBƏS BAYRAMI – MƏHƏMMƏD SALAVATULLAHA PEYĞƏMBƏRLİK VERİLƏN GÜN MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ NİTQ

*Təzəpir məscidi, 9 dekabr 1996-cı il*



Hörmətli həmvətənlər!

Əziz müsəlmanlar!

Bu gün mən bizim üçün müqəddəs olan bu bayram günü burada – Allahın evində, Təzəpir məscidində sizinlə birlikdə olmağımdan həddindən ziyadə şadam.

Bu gün Məhəmməd əleyhissəlamın peyğəmbərliyə yetişdiyi gündür. Onun Allah-Təala ilə bilavasitə danışdığı gündür, mehrab günüdür. Bu gün bütün müsəlmanların böyük bayramıdır.

Mən sizi bu bayram münasibətilə təbrik edirəm və Allah-Təaladan xalqımıza, millətimizə, bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq arzulayıram. Biz müsəlmanlar Allah-Təalanın buyurduğu, peyğəmbər Məhəmməd əleyhissəlamın bizə göstərdiyi yolla, müqəddəs kitabımız Qurani-Şərifin verdiyi tövsiyələr yolu ilə əsrlər boyu getmişik, bu gün də bu yolla gedirik. Bu yol sülh yoludur, bu yol mehribanlıq, dostluq, əmin-amanlıq yoludur. Bu yol insanlara səadət gətirən yoldur. Mən fəxr edirəm ki, Azərbaycan müsəlmanları öz müqəddəs dininə itaət etmək, dini ayinlərə, qanun-qaydalara riayət etmək üçün indi geniş imkanlar əldə ediblər.

Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir. Müsəlmanlar öz müqəddəs dininə sadiq olaraq əzab-əziyyətlər çəkmiş, ancaq böyük xoşbəxtliklərə də çıxmış və öz dininin, məsləyinin hər bir insan nə qədər böyük bir nemət olduğunu daim hiss etmişlər və bundan bəhrələnmişlər.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilibdir, hər bir azərbaycanlı müsəlmanın həyat tərzinin əsas qanunu olubdur. Bu, bizim üçün böyük bir tarixi hadisədir və biz bunu yüksək qiymətləndirməliyik, xalqımızı, millətimizi, gənc nəsli, bütün cəmiyyətimizi İslamın bu yüksək mənəvi dəyərləri əsasında yaşatmalı, tərbiyə etməliyik, həyatımızı bu mənəvi dəyərlər əsasında qurmalıyıq. Mən məmnunam ki, müstəqil Azərbaycan Respublikasında, ölkəmizdə dinimiz – İslam dini xalqımızı sıx birləşdirir, həmrəy edir, dövlətimizin möhkəmlənməsinə, yüksəlməsinə çalışır və düşdüyü bu ağır bəlalardan, əzab-əziyyətdən qurtarmaqda xalqımıza kömək edir.

Biz bir daha dərk etməliyik ki, bunlar hamısı xalqımızın İslamın mənəvi dəyərlərinə olan hörmət və ehtiramı, sədaqəti ilə bağlıdır. Xalqımız əsrlər boyu çox böyük sınaqlarla üzləşərək, şərəfli yol keçibdir. Ancaq tarix boyu qurbanlar da veribdir. Verdiyimiz o qurbanlar da bizim dinimizə, məsləyimizə, mənəviyyatımıza olan sadiqliyimizin təzahürüdür, nümunəsidir.

Son illər Azərbaycan xalqının başına bəlkə indiyə qədər görünməmiş misilsiz bir bəla gəlmişdir. O da Ermənistanın Azərbaycana səkkiz il bundan öncə başladığı hərbi təcavüzdür. Bu təcavüz nəticəsində, məhz bizim içimizdə olan ayrı-ayrı qüvvələrin məsləyimizə, mənəviyyatımıza və milli dəyərlərimizə, ruhumuza xəyanət etdiklərinə görə biz itkilər vermişik, böyük çətinliklərlə qarşılaşmışıq, torpaqlarımızın bir qismi işğal olunubdur, qəsbkar Ermənistan silahlı qüvvələrinin tapdağı altındadır. İşğal olunmuş torpaqlarda Azərbaycan xalqının varidatı viran olub, dağılıb, bizə böyük zərbələr dəyibdir. İşğal edilmiş torpaqlarımızda milli abidələrimiz, İslam abidələri, müqəddəs məbədlərimiz, qəbirlərimiz, ocaqlarımız dağıdılıbdır, viran olunubdur.

Bunlar xalqımıza vurulan böyük mənəvi zərbələrdir. Şəhidlər vermişik, Azərbaycanın qəhrəman övladları Vətənimizin, torpağımızın müdafiəsi yolunda özlərini qurban veriblər. Onlar əbədiyyətə qovuşublar. Onlar milli-mənəvi dəyərlərimizə sadiq qalaraq, həyatlarını qurban verərək özlərinə behiştdə daimi yer tapıblar.

Bunlar hamısı bizim itkilərimizdir. Eyni zamanda, xalqımızın öz milli dəyərlərinə, dininə, mənəviyyatına sədaqətinin nümunəsidir. Bildiyiniz kimi, iki il yarımdan çoxdur ki, biz atəşi dayandırmışıq. Artıq qan tökülmür, övladlarımız tələf olmur. Sülh şəraiti yaratmışıq. Bunu da məhz ona görə yaratmışıq ki, məsələlərin sülh yolu ilə həll edilməsinə nail olaq.

Bu da bizim milli, dini dəyərlərimizin üzərində qurulmuş siyasətdir. İslam həmişə insanları sülhə, barışığa dəvət edibdir. Biz dinimizin bütün qanunlarına sadiqik. Amma eyni zamanda, İslam dini heç vaxt başqa dinlərə düşmənçilik göstərməmiş və göstərmir. Ona görə də biz bu milli, mənəvi dəyərlərimizə əsaslanaraq məsələlərin sülh yolu ilə həll edilməsinə çalışırıq.

Bildiyiniz kimi, atəşkəs əldə olunandan indiyədək ardıcıl surətdə, mütəmadi olaraq biz bu işlərlə daim məşğuluq. Ümidvaram ki, bu sülhsevər yolumuz öz müsbət nəticəsini verəcək və biz işğal olunmuş torpaqlarımızı azad edə biləcəyik, müstəqil





Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa edə biləcəyik, öz ərazimizin, torpaqlarımızın tam sahibi olacağıq. İndi ağır vəziyyətdə yaşayan, həyatını çadırlarda keçirən çoxlu bacı-qardaşlarımız öz yerlərinə-yurdlarına qayıdacaqlar.

Mən bu gün, bu müqəddəs gündə torpaqlarımızın, Vətənimizin müdafiəsi uğrunda canlarını qurban vermiş şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Onların valideynlərinə, qohum-əqrəbalarına Allahdan səbir diləyirəm.

Mən yerindən-yurdundan didərgin düşmüş, ağır şəraitdə yaşayan, bir neçə ildir ki, həyatını çadırlarda keçirən vətəndaşlarımıza bu gün, bu müqəddəs gündə səbir, dözümlülük diləyirəm. Bu müqəddəs bayram günü dəyanətə, dözümlüyə görə onlara təşəkkürümü, hörmət və ehtiramımı bildirirəm. Bilməlidirlər ki, onlar Azərbaycan dövlətinin, Prezidentin daim qayğısı altındadırlar. Bilirlər və bilməlidirlər ki, bütün Azərbaycan xalqı, vətəndaşlarımız onların bu dərdlərinə şərikdirlər və onlarla həmişə bərabərdirlər, həmrəydirlər, onların bu vəziyyətdən çıxmasını Allah-Təaladan arzu edirlər və buna dua edirlər.

Bütün bu məsələlərin həll edilməsi üçün son illər gördüyümüz işlərin demək olar ki, zirvəsi dekabr ayının 2-3-də Portuqaliyanın Lissabon şəhərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin dövlət başçılarının Zirvə görüşü idi. İki ildən bir Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının görüşü keçirilir. Belə bir görüş iki il bundan əvvəl Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilmişdir. Biz orada Azərbaycanın mövqelərinin təmin olunması üçün dəyərli işlər görmüşdük və yaxşı nəticələr əldə etmişdik.

Bundan sonra iki il müddətində atəşkəsin saxlanması və sülhün əldə edilməsi üçün aparılan geniş miqyaslı danışıqlar məhz iki il bundan öncə Macarıstanda, Budapeştdə qəbul edilmiş bu qərarın əsasında olmuşdur.

İndi isə biz bundan sonra da sülh danışıqlarını müvəffəqiyyətlə həyata keçirmək, bu danışıqların əsas prinsiplərini təsdiq etmək məqsədi ilə Lissabonda çox gərgin mübarizə apardıq və

hesab edirəm ki, yaxşı, müsbət nəticə əldə etdik. Bu nəticə də ondan ibarətdir ki, biz Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında ilk dəfə olaraq Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən və Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına əsas yaradan bir sənədin qəbul edilməsinə nail olduq. Əgər televiziyanı, radionu izləmisinizsə, bilirsiniz ki, bu danışıqlar nə qədər gərgin, çətin, dramatik vəziyyətdə keçmişdir. Ancaq yəqin siz televiziya verilişlərindən onu da görüb hiss edə bilmisiniz ki, Azərbaycan nümayəndə heyəti, Azərbaycan Prezidenti xalqımızın milli mənliyini, onun müstəqil bir millət, ölkəmizin müstəqil bir dövlət olduğunu orada bütün dünyaya nümayiş etdirə bildi.

Orada biz öz tələblərimizi irəli sürdük. Lissabon Zirvə görüşünün son sənədinin qəbul olunması məsələsində çox gərgin və təhlükəli bir vəziyyət yarandı. Biz məsələni belə qoyduq: bizim tələblərimiz qəbul olunmalıdır, əgər belə olmasa, Azərbaycan dövlətinin nümayəndə heyəti bu təşkilatın qanuna görə olan öz hüququndan istifadə edərək zirvə görüşünün yekun sənədinin qəbul olunmasının qarşısını alacaqdır.

Şübhəsiz ki, bu, çox mürəkkəb bir vəziyyət yaratdı. 55 dövlətin başçılarının iki ildə bir dəfə bir araya gəlməsi, məsələləri müzakirə etməsi və son nəhayətdə heç bir qərar qəbul etməməsi, şübhəsiz ki, hər bir ölkə, dövlət üçün beynəlxalq aləmdə çox ağır bir nəticə ola bilərdi. Ancaq biz milli mənafeyimizin təmin olunmasını əsas şərt kimi qoyaraq həmin o hüququmuzdan çox cəsarətlə, deyə bilərəm, böyük risklə istifadə etdik. Məhz bunun nəticəsində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Lissabon Zirvə görüşü bizim istədiyimiz bəyannaməni, bəyanatı qəbul etdi. Bu bəyannamə, bəyanat ondan ibarətdir ki, Zirvə görüşündə təmsil olunan bütün dövlətlər, – Ermənistan istisna edilməklə, – hamısı təsdiq etdi ki, Azərbaycanın ərazi bütövlüyü dəyişilməzdir, toxunulmazdır və o, təmin olunmalıdır. Məsələnin sülh yolu ilə həll olunması üçün Dağlıq Qarabağa yalnız və yalnız Azərbaycan Respublikasının tərkibində yüksək muxtariyyət statusu verilə bilər.





Bu bəyannamə, bəyanat, sənəd çox tarixi bir sənəddir. Demək, ATƏT-ə, yəni Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin hamısı, ən böyük ölkələrdən başlamış – Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, Fransa, Almaniya, Türkiyə və başqaları, lap kiçik dövlətlərə qədər, hamısı yekdil oldular ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, Azərbaycanın işğal edilmiş torpaqları azad olunmalıdır. Bu məsələnin sülh yolu ilə həll edilməsi ancaq bu prinsiplər əsasında ola bilər. Biz buna nail ola bildik.

Hesab edirəm ki, apardığımız sülhsevər siyasətdə bu sənədin qəbul olunması indi bizim üçün böyük bir mərhələ, imkanlar açır. Biz çalışacağıq ki, bu imkanlardan səmərəli istifadə edib, Azərbaycan Respublikasını, nəhayət, bu bəladan qurtaraq, işğal olunmuş torpaqlarımızı azad edək və Azərbaycan torpaqlarının hamısının üzərində öz hakimiyyətimizi bərpa edək.

Bir-iki gün bundan əvvəl ictimaiyyət nümayəndələri ilə görüşümdə mən bu barədə çox geniş məlumat vermişəm. O məlumat, mənim o çıxışım qəzetlərdə dərc olunubdur. Güman edirəm ki, siz mənim dediyim o sözlərlə, həmin o yazılarla ətraflı tanış olmusunuz. İnanıram ki, hərəniz sahənizdə bu siyasətimizin, tədbirlərimizin aparılmasında bizə dayaq, kömək, bizimlə həmrəy olacaqsınız.

Respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün xalqımız daha da sıx birləşməlidir, həmrəy olmalıdır, millətimiz bir olmalıdır. Millətimizin içində cürbəcür, bəlkə də nadürüst, nalayiq qüvvələr hələ ki var. Ancaq mən bu gün məmnuniyyət hissi ilə qeyd edirəm ki, xalqımızın tam əksəriyyəti, millətimizin, respublikamızın vətəndaşlarının tam əksər hissəsi Azərbaycanın bu doğru, düzgün yolunu, dövlətçilik, müstəqillik prinsiplərimizə, yüksək milli-mənəvi, dini amallarımıza uyğun olan bu yolu bəyənir, dəstəkləyir və bu yolda hamımızın bir yerdə getməsi üçün əlindən gələni edir.

Ona görə də mən bu gün məlumatları verərək bir daha sizi, bütün Azərbaycan xalqını, müsəlmanları, vətəndaşlarımızı bir-

liyə, həmrəyliyə dəvət edirəm. Azərbaycan dövlətinin müstəqilliyinin yaşaması və möhkəmlənməsi naminə, respublikamızın ərazi bütövlüyünün bərpa olunması naminə, işğal edilmiş torpaqlarımızdan Ermənistan silahlı qüvvələrinin çıxarılması və bu torpaqların azad olunması naminə hamınızı birliyə, həmrəyliyə dəvət edirəm.

Mən əminəm ki, siz, xalqımızın hamısı mənim bu səsimə səs verəcək, siz bu ağır günləri, illəri birlikdə keçib gedəcəyik və Azərbaycanın xoşbəxt gələcək günlərini görəcəyik. Bu bayram münasibətilə mən sizi bir daha təbrik edirəm. Bizim Lissabonda əldə etdiyimiz bu nailiyyətlər xoşbəxt bir günlərə təsadüf edir – Məhəmməd peyğəmbərin peyğəmbərliyə yetişməsi gününə, onun Allah-Təala ilə bilavasitə danışması, Merac gününə təsadüf edir. Bunun özü də böyük bir xoşbəxtlikdir. Bu da onu göstərir ki, bizim amalımız safdır, pakdır, ülvidir. Bu amallar bizi uğurlara, xoşbəxt günlərə gətirəcəkdir.

Sizin hamınıza, bütün Azərbaycan müsəlmanlarına cansağlığı, xoşbəxtlik, rifah arzu edirəm. Müstəqil Azərbaycan Respublikasına günü-gündən möhkəmlənmək, yüksəlmək arzu edirəm. Sağ olun.





## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

Hörmətli həmvətənlərim!

Müqəddəs Milad bayramı – İsa peyğəmbərin mübarək mövludu münasibətilə sizi – Azərbaycanın bütün pravoslav xristianlarını ürəkdən təbrik edir, bu əziz gündə hamınıza xoş ovqat və səadət arzulayıram.

Milad bayramı Uca yaradana tapınan, qəlbində İlahi kəlamın nurunu gəzdirən insanların bayramıdır. Dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir şəxs məhz belə yüksək mənəvi-etik dəyərlərin sayəsində vətən qarşısında övladlıq borcunu dərk edir və yaşadığı ölkənin layiqli vətəndaşı olur. Qeyd etmək xoşdur ki, Azərbaycanda yaşayan pravoslav xristianlar da ölkədə gedən demokratik yeniləşmə və dövlət quruculuğu prosesində əsl vətəndaş məsuliyyəti ilə yaxından iştirak edir, müstəqil respublikamızın parlaq gələcəyi naminə əllərindən gələni əsirgəmirlər.

Qoy bu bayram ailələrinizə sevinc, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq və əmin-amanlıq gətirsin.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 5 yanvar 1997-ci il*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlərim!

Sizi – Azərbaycanın bütün müsəlman əhalisini İslam dünyasının müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil olunduğu mübarək Ramazan ayı xeyirxah niyyətlər, mənəvi zənginlik, fiziki-ruhi kamillik və əxlaqi saflıq ayıdır. Bu bayram xeyrin şər, mənəvi ucalığın nəfs üzərində təntənəsinin bayramıdır.

Azərbaycan xalqı həmişə Tanrıya tapınan, qəlbində daim iman və inam gəzdirən xalqdır. Öz tarixi köklərinə, milli-dini keçmişinə sadiq olan xalqımızın mərd oğul və qızlarının yüksək vətəndaşlıq qeyrəti, Vətənə, torpağa bağlılığı, milli müstəqilliyimiz uğrunda sarsılmaz mübarizə əzmi də məhz belə ülvi mənəvi dəyərlərdən qaynaqlanır.

Bu gün suveren, demokratik Azərbaycan dövlətində dini etiqad və vicdan azadlığı bərqərar edilmişdir. Mütərəqqi İslami dəyərlərə qayıdış, milli-dini ənənələrin dirçəldilməsi cəmiyyətimizin əxlaqi-mənəvi yüksəlişində, xalqımızın bütövlüyü və birliyində misilsiz rol oynayan amillərdəndir.

Əziz müsəlman qardaş və bacılarım!

Orucluq Allah üçündür və müqəddəs dinimiz qarşısında mənəvi borcdur. Siz mübarək Ramazan günlərini böyük məmnunluq və fərəh hissləri ilə başa vurursunuz. İnanıram ki, Allah və din yolunda cəfakeşliyiniz və Azərbaycanın əmin-amanlığı, tərəqqisi, torpaqlarımızın düşmən tapdağından azad edilməsi, dövlət müstəqilliyimizin əbədi olması naminə etdiyiniz dualar





sayəsində Böyük Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir.

Bu əziz bayram günündə hamınıza firavanlıq, ailələrinizə xoşbəxtlik, evlərinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu qəbul etsin!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 7 fevral 1997-ci il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Əziz bacılar və qardaşlar!

Ulu Tanrının İslamı bir din kimi tamamlayıb insanlar üçün hidayət yolu seçdiyi bu əziz Qurban bayramı günündə hamınızı səmimi-qəlbdən təbrik edirəm.

Bütün müsəlmanların həmrəylik və qardaşlıq rəmzi olan mübarək Qurban bayramının ölkəmizdə rəsmi qeyd olunması həm müstəqilliyimizin dönməzliyini, həm də Azərbaycan xalqının öz milli, dini ənənələrinə sadiq olduğunu dünyaya nümayiş etdirir.

İnanıram ki, bu müqəddəs bayram günlərində böyük xalqın bəxş etdiyi nemətlərə görə minnətdarlığınızı bildirməklə yanaşı Azərbaycanın suverenliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpa edilməsi, xalqımızın xoşbəxt həyata qovuşmasını diləyirsiniz. Əminəm ki, arzu və diləkləriniz Allahın köməyi və xalqımızın qeyrəti ilə həyata keçəcəkdir. Xalqımızın haqq işi qalib gələcəkdir. Şəhid balalarımızın ruhlarının şad olacağı gün – Vətən torpağının mənfur düşmən tapdağından tamamilə azad ediləcəyi və taleyinə qaçqınlıq, köçkünlük düşmüş həmvətənlərimizin öz doğma yerlərinə qayıdacaqları gün uzaqda deyildir. Azərbaycan-Ermənistan münaqişəsinin dinc yolla həlli uğrunda apardığımız ardıcıl siyasət və tutduğumuz qətiyyətli mövqe, gənc ordumuzun günü-gündən artan döyüş qüdrəti bu inam üçün möhkəm zəmindir.

Qurban bayramı insanlar arasında mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün ən gözəl vasitədir. Qoy bu ilki Qurban bayramı da bütün azərbaycanlıların, o cümlədən xaricdə yaşayan soydaşlarımızın bir-birinə qayğı və diqqətinin artırılması, cəmiyyətdə milli həmrəyliyin daha da möhkəmləndirilməsi işinə öz töhfəsini versin!





Əziz bayram münasibətilə Allah-Təaladan hər birinizə cansağlığı və xoşbəxtlik arzulayır, xalqımıza müstəqil Azərbaycanın tərəqqisi naminə daha böyük əzmkarlıq və hünər diləyirəm!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 16 aprel 1997-ci il*

# QURBAN BAYRAMI GÜNÜ LERİKLİ FERMER XANIŞ ŞAHIYEVLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*18 aprel 1997-ci il*



**Heydər Əliyev:** Səni və Lerik camaatını Qurban bayramı münasibətilə təbrik edirəm. Qurban bayramı xalqımızın, millətimizin milli, dini bayramıdır, əziz bayramımızdır. Bu gün bütün xalqımız bayram edir. Bir zəhmət adamı, əsl Azərbaycan vətəndaşı kimi bu bayramı həm öz evində qeyd etmisən, həm də qurban kəsib gətirmisən ki, onu səninlə birlikdə paylayaq, camaatın bu bayramı yaxşı keçirməsinə kömək edək. Çox sağ ol, təşəkkür edirəm.

Səninlə artıq birinci dəfə deyil ki, görüşürük. Sən mənim dostumsan, mən də sənin dostunam. Mən həmişə dostluğa sədaqətli olmuşam. Həmişə arzu etmişəm ki, mənimlə dostluq edən adamlar sədaqətli olsunlar. Düzdür, həyatımda sədaqətsizliyə də rast gəlmişəm. Ancaq bu böyük, uzunmüddətli həyatımda mən xalqın sədaqətini həmişə hiss etmişəm və ona yüksək qiymət vermişəm. Bu ağır dövrlərdə məni yaşadan, bütün bu çətinliklərin öhdəsindən gəlməyimə imkan verən xalqın sədaqəti, xalqın zəhmətimə verdiyi qiymət olubdur. Mənim ən böyük dayağım xalqdır. Xalqın da ən görkəmli nümayəndələrindən biri sənsən.





Lerik Azərbaycanın dağ, ucqar rayonudur. İndi sən dedin ki, Lerikdə 64 min əhali yaşayır. Orada gözəl insanlar, zəhmətkeş adamlar, qəhrəman insanlar yaşayır. Bu qəhrəmanlardan biri də sənsən və doğrudan da nümunəsən. Həm əməkdə, həm həyatda, həm də Vətənə sədaqətində qəhrəmansan. Oğlun şəhid olubdur, övladların ölkəmizə sədaqətlə xidmət edirlər. Məni sevindirən odur ki, indi sən bildirdin, iki oğlunu orduya xidmətə göndərmisən.

Gördüyün işlər, zəhmətin, qazandığın hörmət ailənlə birlikdə sənin xalqa, millətimizə göstərdiyin böyük xidməti sübut edir. Ona görə də mən sənə təşəkkür edirəm. Xahiş edirəm, mənim salamımı, bayram təbriklərimi bütün Lerik camaatına çatdırasınız. Mən leriklilərlə əbədi dostam. Bu dostluq çox böyük sınaqlardan keçibdir. Bu dostluğun ən gözəl nümunəsi isə mənim səninlə dostluğumdur. Bu gün sən gözəl sözlər danışdın. Bilirsiniz, mən keçən dəfə də demişəm, – alimlərimiz, yazıçılarımız, şairlərimiz, mədəniyyət xadimlərimiz hesab edirlər ki, dəyərli sözləri onlar deyə bilərlər. Ancaq xalqımızın çoxəsrlik tarixində dəyərli, müdrik sözləri müdrik insanlar deyiblər. Müdriklik təkcə o insanların elmi biliyi, təhsili ilə bağlı deyildir. Müdriklik insanın fitri istedadıdır, müdriklik həm də insanın həyatı dərk etməsi, gedən proseslərə düzgün qiymət verə bilməsi və ondan özü üçün lazımi faydalar götürməsidir.

Sən dağda yaşayan, təsərrüfatla, heyvandarlıqla məşğul olan bir şəxssən. Azərbaycanın xarici siyasəti haqqında nə gözəl, ağıllı, dəyərli sözlər deyirsən. Lissabon Zirvə görüşündə dünyanın 54 dövlətinin başçılarının toplandığı mötəbər beynəlxalq tədbirdə Azərbaycan Respublikasının siyasətinin əldə etdiyi nailiyyəti, qələbəni tamamilə doğru, düzgün qiymətləndirirsən, bu qələbəyə sən qurban kəsmisən.

**Xanış Şahıyev:** Cənab Prezident, bayaq da dedim, mən Sizin keçirdiyiniz bütün tədbirlərə, səfərlərinizə televiziya vasitəsilə çox böyük maraqla tamaşa edirəm. Bu gün mən buraya 155-dən çox qurban kəsib gətirmişəm. Mənim üçün Sizinlə dostluq etməkdən böyük xoşbəxtlik yoxdur. Siz mənim gözəl prezidentimsiniz.

Bu, gözəl arvadımdır, bu da mənim nəvəmdir. Kişi gərək kişinin ayağı altında ölsün, namərdin yox. Mən Allahdan həmişə

arzu edirəm ki, Sizin kimi kişinin ayağı altında ölüm. Bu, mənim üçün bəsdir. Elə bil ki, gedib Kərbəlanı ziyarət edirəm. Lissabonda dünyanın bütün ölkələrinin başçıları Sizin sözünüzü eşitdi. Siz bu qələbəni əldə etdiniz. Qoy xalq da bilsin ki, əgər Siz hər hansı bir işdə mənə kömək etsəniz, mən dostluğu pozaram. Bu mənə bəsdir ki, mən Heydər Əliyev kimi böyük bir şəxsiyyətlə dostluq edirəm. Mən tamahkar adam deyiləm. Adam var ki, vəzifə dostudur, adam var, ehtiyac dostudur. Amma mən ürək dostuyam, bir gün də məktəbə getməmişəm.

**Heydər Əliyev:** Sən vəzifəli adam deyilsən. Amma nə qədər böyük məktəblər qurtarandan da çox ağıllı sözlər danışırsan.

**Xanış Şahıyev:** Mən uşaq deyiləm ki, Prezidentin dostuyam.

**Heydər Əliyev:** Prezidentin dostu olmaqla yanaşı, sənin əməllərin, həyatın var.

**Xanış Şahıyev:** Mən boş-boş danışan adamları sülhə, Prezidentin ətrafında birləşməyə çağırıram. Cənab Prezident, rayonumuzda işlər çox yaxşı gedir. Əkin də yaxşı gedir. İndi yaylaqdan Lerikə yeni su kəməri çəkilir. Bu su yayda gəlib Lerikə çatacaqdır. Yaxşı işə Siz də, biz də qiymət veririk.

**Heydər Əliyev:** Müdriklik insanın kökündə, əməllərindədir. Mən də səni öz dostum, müdrik bir adam kimi qəbul edirəm. Müdrik, ağıllı adamsan. Sənin bu təşəbbüsün Azərbaycanda bütün zəhmət adamları, saf, pak insanlar üçün böyük nümunədir. Çox sağ ol. Təşəkkür edirəm. Sən bu qədər qoyun kəsib gətirirsən. Lerikdə camaat yaxşı yaşayır, yoxsa yox?

**Xanış Şahıyev:** Mən Prezidentə yalan danışa bilmərəm, çətinlik var. Amma Allahın köməyi ilə ötən il payız Lerikdə çox yaxşı keçdi. Camaat necə lazımdır, elə də əkib. Allahın köməyi ilə gələn il leriklilər taxıl satacaqlar.

**Heydər Əliyev:** Mən Lerikdə gedən islahat haqqında soruşmaq istəyirəm.

**Xanış Şahıyev:** Mənə elə gəlir ki, heç bir rayonda Lerikdəki kimi islahat getmir. Lerikdə mal-qara, qoyun nəzarət altında camaata verildi. Rayonda islahatlar çox yaxşı gedir.





**Heydər Əliyev:** Biz islahatların gedişi vəziyyəti haqqında müşavirə keçirdik. Sən ona qulaq asdın?

**Xanış Şahıyev:** Sizin tədbiriniz olanda mən işimi-gücümü atıb həmin gün televizorun qarşısında oturub bunlara qulaq asıram.

**Heydər Əliyev:** Sən müşavirədə gedən müzakirələri bəyəndinmi? Demək istəyirəm ki, islahatlarla əlaqədar görülən işlər doğru-düzgün işlərdimi?

**Xanış Şahıyev:** Bəli, bunlar çox düzgün işlərdir. Xalq bütün bunları çox yaxşı qarşılayır. Fəhlə onsuz da fəhlədir, qoy o boş-boş danışanlar da işə qoşulsunlar.

**Heydər Əliyev:** Biz istəyirik ki, camaatın malı, mülkü olsun, adamlar sahibkar olsunlar, hərə öz mülkünün sahibi olsun.

**Xanış Şahıyev:** Bunlar mənim ata-babamdan qalma malımdır. Əgər təsərrüfatım yaxşı olmasaydı, bunları bura gətirə bilməzdim. Gərək camaat da çalışsın, işləsin, öz xüsusi malına, əkininə yaxşı baxsın.

**Heydər Əliyev:** Lerikdə torpaq camaata paylanıbdırmı? Camaat bundan razıdırmı?

**Xanış Şahıyev:** Bəli, paylanıb, camaat da bundan çox razıdır. Ağsaqqal olduğuma görə məni islahat komissiyasının sədri təyin ediblər. Hər iş razılıqla görülür, hamı bu təşəbbüsü bəyənir.

**Heydər Əliyev:** Çox sağ ol. Mən sənə təşəkkür edirəm, səni təbrik edirəm. Çox yaxşı ki, bu dəfə xanımını da gətirmisən. De görüm, bu sənə neçə övlad bəxş edibdir?

**Xanış Şahıyev:** 17 uşaq anasıdır. Onların 16-sı oğlandır. Bu uşaqlardan ikisi şəhid olubdur.

Hörmətli Prezident!

Mənim ailə üzvlərim ilə mehribanlıqla görüşdüyünüzə görə Sizə bir daha öz dərin minnətdarlığımı bildirirəm.

**Heydər Əliyev:** Mən sənin ailənlə görüşümdən, xüsusən 17 uşaq anası olan, Qəhrəman ana Səmərqənd xanımla görüşdən çox məmnun oldum. Mən sənin nəvəni bağrıma basıram və deyirəm: sağ ol, oğlum, sən böyüyüb baban kimi olacaqsan, işləyəcəksən və xalqımıza baban kimi xidmət göstərəcəksən.

## PASXA BAYRAMI MÜNASİBƏTİLƏ RESPUBLİKANIN PRAVOSLAV XRİSTİANLARINA TƏBRİK

*25 aprel 1997-ci il*

Əziz həmvətənlər!

Müqəddəs Pasxa bayramı münasibətilə sizi – respublikamızın bütün pravoslav xristianlarını ürəkdən təbrik edir, ən səmimi arzularımı yetirirəm.

İnsanların mənən yeniləşməsində və saflaşmasında, cəmiyyətdə əxlaqi dəyərlərin, dostluq və humanizm prinsiplərinin olmasında dinin mühüm rolu vardır. Bu xeyirxah niyyətlərin gerçəkləşməsi, müstəqil demokratik Azərbaycanda əmin-amanlığın və vətəndaş həmrəyliyinin qorunub saxlanması işində başqa konfessiyalarla yanaşı, ölkəmizdə fəaliyyət göstərən Rus Pravoslav Kilsəsi də yaxından iştirak edir. Əminəm ki, dilindən, dini və etnik mənsubiyyətindən asılı olmayaraq respublikamızın bütün vətəndaşları doğma Vətənimiz Azərbaycana müqəddəs övladlıq borcunu bundan sonra da ləyaqətlə yerinə yetirəcək, ölkəmizin daha da çiçəklənməsi və tərəqqisi, dövlət müstəqilliyimizin əbədi olması naminə var qüvvə ilə çalışacaqlar.

Bu əziz bayram günündə uca Tanrıdan hamınıza xoş ovqat, ailə sevinci və firavan həyat arzulayıram.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 25 mart 1997-ci il*





## AZƏRBAYCAN RESPUBLİKASININ YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Hər il mütərəqqi bəşəriyyət Yəhudi Xalqının Müsibəti Gününü – İkinci Dünya müharibəsi zamanı soyqırımı siyasətinə məruz qalmış günahsız qurbanların xatirəsini dərin hüznlə yad edir. Həmin dəhşətli müharibədə yəhudi millətinə mənsub altı milyon mülki əhali alman faşizmi tərəfindən xüsusi amansızlıqla qətlə yetirilmişdir.

Belə milli faciələr Azərbaycan xalqının həyatından da yan keçməmişdir. Beş il əvvəl xalqımızın tarixinə qanlı səhifə kimi daxil olmuş Xocalı soyqırımı ağlasığmaz erməni vəhşiliklərinin miqyasına görə Kiyevdəki Babiy Yarda, Varşava və Krakov gettolarında faşistlərin törətdikləri kütləvi insan qırğınları ilə bir sırada durur.

Yəhudilərin milli hüzn günündə Azərbaycan xalqı adından böyük kədərinizə şərik olduğumu bildirir, soyqırım siyasətinin bütün günahsız qurbanlarına Allahdan rəhmət diləyirəm.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 3 may 1997-ci il*

# İSLAM DİNİNİN BANİSİ HƏZRƏT MƏHƏMMƏD ƏLEYHİSSƏLAMIN MÜQƏDDƏS MÖVLUD GÜNÜNDƏ BAKININ ŞIX KƏNDİNDƏ BİBİHEYBƏT MƏSCİDİNİN BƏRPASINA BAŞLANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*23 iyul 1997-ci il*

Hörmətli Şeyxülislam!

Hörmətli müsəlmanlar, bacılar, qardaşlar!

Mən sizi Həzrət Peyğəmbər əleyhissəlamın Mövlud günü münasibətilə təbrik edir, sizə, bütün Azərbaycan xalqına, bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq, səadət arzulayıram.

Bu gün bizim üçün, müsəlmanlar üçün çox əziz gündür, əsrlər boyu müsəlmanların itaət etdiyi İslam dininin banisi Həzrət Məhəmməd peyğəmbərin Mövlud günüdür. Bu, bizim böyük bayramımızdır. Həzrət Məhəmməd peyğəmbərə nazil olan Qurani-Şərif, Qurani-Kərim neçə əsrlərdir ki, dünya müsəlmanlarının həyat yolunu müəyyən edib, onları yaşadıb, onların bəşəriyyətdə özünəməxsus yer tutmalarını təmin edibdir.

Bu gün biz bu əlamətdar bayrama toplaşarkən tariximizi yad etməli və tariximizə minnətdar olmalıyıq. İslam dini yaranandan indiyə qədər Kürreyi-ərzin insanlarının çox bir hissəsini düz yola, ədalətə, saflığa, paklığa, yüksək mənəviyyata yönəltmiş və onların belə yaşamasını təmin etmiş müqəddəs bir dindir. İslam dini bəşər tarixində misilsiz xidmətlər göstərmiş, insanların, müsəlmanların yüksək mənəvi-əxlaqi dəyərlərə nail olmasını təmin etmiş və bu dinə itaət edən insanları dünyanın bütün əzab-əziyyətlərindən, kəşməkəşlərindən keçirib onların yaşayışını təmin etmiş, onları yaşatmışdır.

Biz bu gün müqəddəs bir yerdə toplaşmışıq. Məhz bu müqəddəs yerdə Həzrət Məhəmməd əleyhissəlamın Mövlud gününü







qeyd etmək həm bu günə bizim hörmət-ehtiramımızın təzahürüdür, həm də İslam dininin yaratdığı abidələrə, mənəvi dəyərlərə hörmət-ehtiramımızın, etiqadımızın, sabitliyimizin təzahürüdür. Biz fəxr edə bilərik ki, İslam dini kimi yüksək mənəvi-əxlaqi dəyərlərə mənsub olan dinimiz var, müsəlmanları yaşamaq, yaratmaq, mübarizə aparmaq, öz həyatını qurmaq, azadlığını təmin etmək, torpağını qorumaq yolları ilə məhz İslam dini aparıbdır, onun qanunları, tövsiyələri, Qurani-Şərifin ayələri, surələri, kəlamları aparıbdır.

Ona görə də bu gün Azərbaycan müsəlmanlarının uzun müddət məhrumiyyətlərdən, çətinliklərdən sonra öz İslam dinindən istədiyi kimi istifadə etmək imkanı əldə etməsi tarixi bir hadisədir. Eyni zamanda, biz bu gün tariximizdə olan iki faciəvi hadisəni də yad edirik. Birincisi, Həzrət imam Museyi-Kazimin qızı Hökumə xanımın qətlə yetirilməsi, ikincisi isə onun xatirəsinə müsəlmanlar tərəfindən qurulub yaradılmış Bibiheybət məscidinin yetmiş il bundan öncə partladılmasıdır.

Görürsünüz, tarix nə cür qəribə hadisələr meydana çıxarır. Bu da onu göstərir ki, bizim İslam dinimiz və onun aparıcıları, onu qoruyub saxlayanlar heç də asan yol keçməyiblər. Dinimizi, mənəviyyatımızı, mənəvi-dini adət-ənənələrimizi qoruyub saxlamaq üçün müsəlmanlar əsrlər boyu nə qədər qurbanlar, şəhidlər veriblər. Ancaq bunların heç birisi bizi Həzrət Məhəmməd peyğəmbərin qoyduğu yolla getməkdən çəkindirə bilməyibdir. Doğrudur, tarixin bəzi mərhələlərində məhrumiyyətlər də, faciələr də, əzab-əziyyətlər də olubdur. Ancaq görün, bizim müqəddəs İslam dininin gücü nədən ibarətdir ki, heç bir şey, heç bir qüvvə, güc onu məğlub edə bilməyibdir.

Əgər vaxtilə allahsız hökmdar burada Hökumə xanımı qətlə yetiribsə, İslama sadiq olan insanlar bu yeri müqəddəs ibadətgaha çeviriblər. Neçə əsr müsəlmanlar buraya, bu müqəddəs yerə ziyarətə gəlib ibadət ediblər, buradan mənəvi qida alıblar, öz həyatlarını qurmaq üçün, yaşamaq üçün güc alıblar və İslam dininə sadiq olduqlarını göstəriblər.

Görürsünüz, bəzən faciə ondan sonra, o faciədən sonra meydana çıxan böyük bir abidə doğurur, böyük bir müqəddəs ocaq, ibadətgah, ziyarətgah doğurur.

Bu məscidi, müqəddəs yeri, bu ibadətgahı yetmiş il bundan öncə dağıdanlar böyük cinayət ediblər. Ancaq hamımız bilirik – əgər məscid də dağılmışdısa, dini də qadağan etməyə çalışmışdılarsa və etmişdilərsə, insanlar öz məsləyindən, əqidəsindən, dinindən, əxlaqından dönməmişlər. Burada məscid olmamışdır, amma Bibiheybət ibadətgahı, müqəddəs ocaq yaşamışdır. İnsanlar buraya cürbəcür arzularla gəlib – kimi düşdüyü bəladan xilas olmaq üçün ziyarət edib, nəzir verib və təskinlik alıbdır. Allahdan kömək alıbdır. Kimi başına gələn faciəni aradan qaldırmaq üçün buraya gəlibdir. Kimi həyatını xoşbəxt görmək üçün buradan xeyir-dua almaq və əxlaqi dəyərləri mənimsəmək üçün gəlibdir. Buraya gələnlərin hamısı məhz bu yerə inandıqlarına görə gəliblər. Görürsünüz, neçə vaxtdır – 70





il öncə dağılmış bu məscid heç də dağılmayıbdır. Bina dağıdılıb, amma müqəddəs yer dağıdıla bilməyibdir. Keçmiş əsrlərdə də belə olub, bu gün də belədir, gələcəkdə də belə olacaq – heç bir qüvvə İslamın mənəvi dəyərlərini dağıda, poza bilməz. Müvəqqəti çətinliklər, məhrumiyyətlər çoxəsrlik tarixdə kiçik bir dövrdür.

Bax, bunlara görə də bu gün, bu müqəddəs gündə, Məhəmməd peyğəmbərin Mövlud günündə məhz buraya toplaşmağımız, bu müqəddəs yerdə bu bayramı qeyd etməyimiz bütün bu fikirlərdən irəli gələn ən gözəl təşəbbüsdür. Ona görə mən çox məmnunam ki, biz bu gün burada toplaşmışıq. Siz də, mən də, hamımız buraya bir amalla, bir fikirlə gəlmişik. Burada dinimizə, müqəddəs ocağımıza və Məhəmməd peyğəmbərin Mövlud gününə öz hörmət-ehtiramımızı bildiririk.

Son illər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, qorunub saxlanmasında, Azərbaycanın başına gələn bəlaların aradan götürülməsində, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün apardığımız işlərdə, bütün başqa işlərdə bizim milli-mənəvi dəyərlərimiz – Azərbaycan xalqının milli-mənəvi dəyərləri, Azərbaycan xalqının mənsub olduğu İslam dininin mənəvi dəyərləri bizim üçün həmişə dayaq, ilham mənbəyi olmuş, bizə həmişə güc vermişdir.

Bildiyiniz kimi, son illər Azərbaycanın həyatı çox mürəkkəb bir dövrdür. Azərbaycan Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıb, ərazimizin bir qismi işğal olunub, işğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaşımız didərgin, qaçqın düşübdür, ağır vəziyyətdə yaşayır. Azərbaycanın başına başqa bəlalar da gəlmişdir. 1990-cı ilin Qanlı Yanvar faciəsi, sovet imperiyasının Azərbaycan xalqına qarşı ən dəhşətli hərbi təcavüzü və tökülən qanlar, xalqımızın verdiyi qurbanlar, şəhidlər Azərbaycan xalqının qəlbinə vurulan böyük bir yara olmuşdur.

Bunlarla yanaşı, Azərbaycanın xarici və daxili düşmənləri Azərbaycanın müstəqil dövlət kimi yaşamasının qarşısını al-



mağa çalışmışlar, maneçiliklər törətmişlər və indi də törədirlər. Ancaq biz bunların hamısının öhdəsindən gəlmişik və gələcəyik, hamısının qarşısını almışıq və alacağıq. Azərbaycanın müstəqil yaşaması, Azərbaycanın milli azadlığı, xalqımızın öz taleyinin sahibi olması, özünün milli-mənəvi, dini dəyərlərinə sahib olması tarixi bir hadisədir. Bu, çoxəsrlik tariximizdə bizim əlimizdə böyük bir fürsətdir, böyük bir tarixi mərhələdir. Biz bunu qiymətləndirməli, bu tarixi nailiyyətimizi qoruyub saxlamalıyıq.

Ancaq təəssüflər olsun ki, bunun əksinə olan qüvvələr də var. Daxilimizdə də var, eyni zamanda, Azərbaycanın müstəqil dövlət kimi yaşamasını istəməyən xarici qüvvələr də var. Çünki Azərbaycan çox mühüm coğrafi-siyasi mövqeyə malik olan dövlətdir, ölkədir, torpaqdır. Azərbaycan zəngin təbii sərvətlərə malik olan ölkədir. Azərbaycan xalqının çoxəsrlik, şanlı tarixi var. Azərbaycanın əsrlərdən-əsrlərə yaranmış, dünya miqyasında özünəməxsus yer tutmuş zəngin mədəniyyəti, elmi var. Bunlar







Azərbaycana düşmən olan xarici qüvvələrin gözünə ox kimi batır. Bizə keçmiş illərdə, əsrlərdə düşmən olan qüvvələr yenə də öz niyyətlərindən əl çəkmirlər.

Ona görə də Azərbaycanın milli azadlığının, dövlət müstəqilliyinin qorunub saxlanması mürəkkəb məsələdir, çətin bir vəzifədir. Heç kəs düşünməsin ki, bunlar asanlıqla hasil olan nailiyyətlərdir. Bu, asan deyildir. Çünki yenə də deyirəm, təəssüflər olsun ki, ölkəmizə mənfi münasibət göstərən qüvvələr az deyildir. Təəssüflər olsun ki, xalqımızın, millətimizin içərisində də öz şəxsi mənafeləri naminə millətin, xalqın ümumi mənafeyini qurban verən və qurban verməyə hazır olan qüvvələr də var. Ancaq bilin, əmin olun, biz bu çətin vəzifələri yerinə yetiririk, bütün bu çətinliklərin öhdəsindən gəlirik və bundan sonra da gələcəyik.

Bütün bu nailiyyətlərin əldə olunmasında xalqın həmrəyliyi, ümummilli birliyi, xalqın müstəqillik, azadlıq amallarına sadiqliyi və Azərbaycan dövlətinin, onun Prezidentinin apardığı

siyasətə dəstək verməsi bizim bütün nailiyyətlərimizin əsasını təşkil edir. Bu baxımdan Azərbaycanın müsəlmanlarının, yəni din xadimlərinin, din ocaqlarının da bu dövrdə, çətin mərhələdə Azərbaycan dövləti ilə əməkdaşlıq etməsi, onun daxili və xarici siyasətini, apardığı tədbirləri öz vasitələri ilə təbliğ etməsi və bunlara dəstək verməsi bizim üçün böyük dayaqdır.

Mən Azərbaycanın ümummilli, ümumxalq birliyi deyərkən bütün qüvvələrin hamısını nəzərdə tuturam. Bu gün demək istəyirəm ki, bu qüvvələr – ümumi birliyi, həmrəyliyi yaradan qüvvələr Azərbaycanda tam əksəriyyəti təşkil edir. Buna zidd olan, yaxud təxribatçılıqla, terrorçuluqla, cürbəcür düşmənçilik meyilləri ilə yaşayan, yaxud o cinayətləri etmək istəyən qüvvələr azdır, çox azdır. Amma onlar cinayətkardırlar və gündən-günə ifşa edilirlər, məhv olunurlar. Məhz xalqın nifrəti onları bizim cəmiyyətdən tamamilə vurub çıxarır və təcrid edir.

Ona görə də bu gün, bu müqəddəs gündə, bayram günündə, bu müqəddəs yerdə mən sizi və bütün Azərbaycan xalqını əmin edirəm ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması yolunda biz gecə-gündüz çalışırıq və çalışacağıq. Əminəm ki, işğal edilmiş torpaqlarımız azad olacaq, Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək, didərgin düşmüş vətəndaşlarımız öz yerinə-yurduna dönəcəklər və Azərbaycanın suverenliyi tamamilə təmin olunacaqdır. Mən sizi əmin edir və inanıram ki, Azərbaycanın dövlət müstəqilliyi, milli azadlıq prinsipləri gündən-günə möhkəmlənəcək və güclənəcəkdir. Dövlət müstəqilliyimizi sarsıtmaq istəyən heç bir qüvvə bundan sonra da bizim qarşımızı ala bilməyəcəkdir.

Mən əminəm ki, tutduğumuz yolla, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə bundan sonra da sürətlə, əzmlə, cəsarətlə gedəcəyik və Azərbaycanda tam hüquqi, demokratik, insanların bütün azadlıqlarını təmin edən dövlət, cəmiyyət yaratmağa nail ola biləcəyik. Azərbaycanın iqtisadiyyatında aparılan islahatlar artıq öz nəticələrini verir və bundan sonra daha çox verəcəkdir. Bu islahatlar, iqtisadiyyat









sahəsində apardığımız cəsarətli, ağıllı siyasət və tədbirlər Azərbaycanın sosial-iqtisadi vəziyyətini yaxın zamanlarda, qısa bir müddətdə müsbət istiqamətdə dəyişdirəcək, insanların rifah halı gündən-günə yaxşılaşacaqdır. Mən əminəm ki, Azərbaycan müstəqil, azad, demokratik, hüquqi, dünyəvi dövlət kimi Dünya Birliyində özünə layiq yerini gündən-günə möhkəmləndirəcək və Azərbaycanın dünya miqyasında hörməti, nüfuzu, adı gündən-günə yüksələcəkdir. Mən buna əminəm.

Dövlət başçısı kimi, mənim üçün başlıca amillərdən biri, əsası da odur ki, indi xalqımız, cəmiyyətimiz birləşib, cəmiyyətdə, xalqda, millətdə həmrəylik hissi yüksəlib və xalqımız, millətimiz, cəmiyyətimiz apardığımız siyasətin hamısını dəstəkləyir.

Eyni zamanda, bu gün biz burada, vaxtilə milli adət-ənənələrimizə, mənəvi dəyərlərimizə edilmiş cinayət nəticəsində dağıdılmış məscidin yerində həmin müqəddəs binanın bərpasının əsasını qoyuruq. Mən 1994-cü ildə Qurban bayramı günü buraya həm bu müqəddəs yerə hörmət-ehtiramımı bildirmək, həm də bu işlərə təkan vermək üçün gəlmişdim. Artıq bu işlər gedir və əminəm ki, bundan sonra da gedəcəkdir. Hörmətli axund dedi ki, bu işlərin görülməsində çətinliklərlə rastlaşırlar, ancaq özləri bu çətinliklərin öhdəsindən gəlirlər. Bu, çox gözəldir. Ancaq mən bu gün elan edirəm ki, bu məscidin tikilməsini və tezliklə başa çatmasını bir prezident kimi öz şəxsi himayəm altına götürürəm. Ona görə də şeyxdən rica edirəm ki, işlərinizi gücləndirəsiniz və mənim tərəfimdən sizə nə kimi yardımlar edilməlidirsə, tezliklə mənə bildirin ki, bu gün verdiyim bəyanatı sizinlə birlikdə tezliklə həyata keçirim və qısa bir zamandan sonra bu məscidin tikilib başa çatdırılmasına nail olaq, yenidən buraya toplaşaq və onun açılış mərasimində birlikdə iştirak edək.

Sizin hamınızı bir daha təbrik edirəm. Həzrət Məhəmməd peyğəmbərin Mövlud günü münasibətilə təbrik edirəm. Sizin hamınıza, bütün Azərbaycan müsəlmanlarına, bütün Azərbaycan xalqına sülh, əmin-amanlıq, səadət arzulayıram.

Allah bütün işlərinizdə sizə yar olsun! Sağ olun.





## ABŞ-dakı YƏHUDİ TƏŞKİLATLARI PREZİDENTLƏRİNİN KONFRANSI TƏŞKİLATI ADINDAN AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA ÇIXIŞ

*Nyu-York, "Qrand hyyatt" oteli, 28 iyul 1997-ci il*



Hörmətli xanımlar və cənablar!

Mən sizi səmimi qəlbdən salamlayıram. Bu, çox əhəmiyyətli görüş üçün sizə təşəkkür edirəm.

Sizə məlumdur ki, mən Amerika Birləşmiş Ştatlarına Prezident cənab Bill Klintonun dəvəti ilə rəsmi səfərə gəlmişəm. Bu səfər zamanı mənim çox əhəmiyyətli görüşlərim olacaqdır. Birinci növbədə, cənab Bill Klintonla, Amerika hökumətinin digər rəhbər vəzifəli şəxsləri ilə Konqresdə və başqa yerlərdə çox əhəmiyyətli görüşlər keçirəcəyəm.

Bu gün bütün günü mən Birləşmiş Millətlər Təşkilatında olmuşam. Mən orada BMT Təhlükəsizlik Şurasının üzvü olan dövlətlərin daimi nümayəndələri ilə görüşmüşəm. Birləşmiş Mil-

lətlər Təşkilatının Baş katibi Kofi Annan ilə görüşüb söhbətlər aparmışam. Kütləvi informasiya orqanlarının nümayəndələri ilə görüşmüşəm.

Qarşıda çox maraqlı görüşlərim vardır. Ancaq bütün bu görüşlər içərisində bu gün, bu axşam Nyu-Yorkda sizinlə, Amerika Birləşmiş Ştatlarında yaşayan Yəhudi İcmalarının Prezidentləri Konfransı Təşkilatının nümayəndələri ilə görüşmək mənim üçün çox xoşdur və əhəmiyyətlidir.

Siz mənə böyük diqqət göstərmisiniz və bu gün buraya toplaşmısınız. Belə anladım ki, sizin bəziləriniz Nyu-Yorkda yaşamırsınız, Amerika Birləşmiş Ştatlarının ayrı-ayrı şəhərlərində yaşayırsınız və zəhmət çəkib buraya gəlmisiniz. Bu mənim üçün çox böyük diqqət və hörmətdir. Buna, bu görüşə, ziyafətə görə sizə təşəkkür edirəm. Sizin hamınızı, ayrılıqda hər birinizi Azərbaycana dəvət edirəm.

Burada deyildiyi kimi, Azərbaycan kiçik bir ölkədir, onun əhalisi Nyu-Yorkun əhalisinə bərabərdir. Ancaq Azərbaycan müstəqil ölkədir. Azərbaycan xalqı böyük və zəngin tarixə və çox qədim mədəniyyətə, ənənələrə malik bir xalqdır, ölkədir.

Ölkəmizdə azərbaycanlılarla yanaşı, bir çox digər millətlərin nümayəndələri də yaşayırlar. Azərbaycan həmişə çoxmillətli bir ölkə olubdur, bu gün də çoxmillətli bir ölkədir. Biz bunu ölkəmizin üstünlüyü hesab edirik. Biz Azərbaycanı heç vaxt təkmillətli bir dövlətə çevirmək fikrində olmamışıq. Ona görə də Azərbaycanda yaşayan insanlar milliyyətindən asılı olmayaraq həmişə bərabərhüquqlu olmuşlar. Azərbaycanda bu gün də bütün başqa millətlərə məxsus olan, yaşayan insanlar da respublikamızın vətəndaşlarıdır və ölkəmizdə eyni hüquqlara malikdirlər.

Azərbaycanda yəhudilər də çox qədim dövrdən indiyədək yaşamışlar və yaşayırlar. Onlar Azərbaycanın vətəndaşlarıdır və Azərbaycan onlar üçün doğma vətəndir. Yəhudilər respublikamızın ictimai-siyasi, iqtisadi həyatında daim iştirak etmişlər və bu gün sizə bildirmək istəyirəm ki, xalqımızın, Azərbaycanın milli mədəniyyətinin, iqtisadiyyatının, səhiyyəsinin inkişafında





yəhudi millətinə mənsub Azərbaycan vətəndaşlarının xidməti çox olmuşdur. XIX əsrin ikinci yarısında, XX əsrin əvvəlindən indiyədək Azərbaycanın elmində, mədəniyyətində, iqtisadiyyatında, ali təhsilində xidmət göstərən insanların fəaliyyətini biz xüsusi qeyd edirik. Onlar Azərbaycan xalqının həyatında çox böyük faydalar vermişlər. Onlar bizim üçün həmişə əzizdirlər.

Yəhudi millətindən olan böyük alimlər, mədəniyyət, musiqi xadimləri, həkimlər, səhiyyə sahəsində çalışan böyük insanlar Azərbaycanda çox olmuşlar, onlar həmişə xalqımızın hörmət və ehtiramını qazanmışlar.

Son illər sərhədlər açılandan, insanlara sərbəstlik veriləndən sonra yəhudi millətindən olan Azərbaycan vətəndaşlarının bir qismi başqa ölkələrə, o cümlədən İsrailə, Amerika Birləşmiş Ştatlarına və digər yerlərə getmişlər. Ancaq biz bilirik ki, onlar Azərbaycanı heç vaxt unutmamışlar, vaxtaşırı respublikamıza gəlirlər, xalqımızın ənənələrini o ölkələrdə yayırlar, təbliğ edirlər. Hiss edirik ki, onlar çox zaman Azərbaycan üçün darıxırlar.

Mən bilirəm ki, İsraildə respublikamızdan getmiş Azərbaycan vətəndaşları – yəhudilər böyük bir Azərbaycan icması təşkil ediblər. Hətta orada Bakı adını daşıyan küçələr, restoranlar və Bakının, Azərbaycanın adını daşıyan çox gözəl müəssisələr vardır.

Bildirmək istəyirəm ki, Azərbaycanın çox böyük, maraqlı sərvətləri vardır. Onlardan biri də dadlı yeməkləridir. Azərbaycandan getmiş yəhudilər bu yeməkləri başqa ölkələrdə, xüsusən İsraildə çox geniş təbliğ edirlər. İş belə getsə, bir müddətdən sonra israillilərin əksəriyyəti Azərbaycan xörəkləri yeməyə başlayacaqdır.

Azərbaycanda yaşayan yəhudilərdən bir nəfər nümayəndə heyətimin tərkibində mənimlə buraya gəlibdir. Ancaq o, indi Amerikanın vətəndaşıdır, Kaliforniyada yaşayır. O, Azərbaycanda doğulub, təhsil alıb, orada yaşayıbdır. Azərbaycanda mədəniyyət sahəsində xidmətlər göstərib, bizim dilimizi təmiz, ədəbiyyatımızı yaxşı bilir. O bu yaxınlarda Bakıya gəlmişdi, mənimlə görüşdü. Mən onu nümayəndə heyətinin tərkibində buraya, Amerika Birləşmiş Ştatlarına gətirmişəm. Onun adı Aleksandr Qriçdir, burada oturubdur.

Azərbaycan ilə İsrail arasında əlaqələr dostluq əlaqələridir. Biz bu əlaqələri gündən-günə inkişaf etdiririk. Mən bu son illərdə, qısa müddətdə İsrailin keçmiş baş naziri mərhum İshak Rabinlə, keçmiş baş naziri Şimon Pereslə görüşlər keçirmişəm, danışıqlar aparmışam. Keçən ilin dekabr ayında mən Lissabonda olarkən İsrailin indiki baş naziri cənab Netanyahu ilə görüşmüşəm. Biz onunla məktublaşırıq. Mən ona məktub göndərmişdim. Mən buraya gəlməmişdən bir neçə gün əvvəl o mənə məktub göndəribdir. Bu ölkənin həm Prezidenti, həm də Baş naziri məni İsrailə dəvət ediblər. Mən bu dəvəti məmnuniyyətlə qəbul etmişəm və yaxın vaxtlarda həyata keçirəcəyəm.

Hesab edirəm ki, İsrailin Azərbaycandakı səfirliyi çox yaxşı fəaliyyət göstərir. Onların Azərbaycanda işləmələri üçün hər cür şərait yaradılıbdır. Mən İsrailin respublikamızdakı səfiri ilə dəfələrlə görüşmüşəm, lazım olan vaxtlarda onu qəbul edirəm. Azərbaycanın İsraildə səfirliyinin açılması haqqında qərar qəbul olunacaqdır. Yaxın vaxtlarda Azərbaycanın İsraildə səfiri təyin ediləcəkdir.

Amerika Birləşmiş Ştatlarında Yəhudi Təşkilatları Prezidentləri Konfransı Təşkilatını mən çox əhəmiyyətli bir təşkilat kimi yüksək qiymətləndirirəm. Bilirəm ki, bu konfrans, icmalar Amerikada böyük nüfuza malikdir. Onlar çox gərəkli işlər görürlər, böyük imkanlara malikdirlər. Hesab edirəm ki, Azərbaycan ilə Amerikadakı Yəhudi İcmaları Prezidentləri Konfransı Təşkilatı arasında əlaqələr yaranır. Mən bu əlaqələrin bundan sonra da davam etməsinin tərəfdarıyam. Güman edirəm ki, biz yaxşı əməkdaşlıq edə bilərik.

Biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizi gündən-günə inkişaf etdirmək istəyirik. Amerika Birləşmiş Ştatlarını Azərbaycana dost bir ölkə kimi qəbul edirik. Mənim buraya rəsmi səfərim zamanı bu əlaqələrin inkişaf etdirilməsi üçün danışıqlar aparılacaq və hökumətlərarası bəzi sənədlər imzalanacaqdır. Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı əməkdaşlıqda Amerikanın neft şirkətlərinin respublikamızda müştərək iş görməsi xüsusi yer tutur. Bu şirkətlər – "AMOKO", "Pennzoyl", "Eksson", "Yunokal", "Makdermott" şirkətləri Azərbaycanda mövcud olan müqavilələrdə iştirak edirlər. "Şevron" və "Mobil" şirkətlərinin də Azərbaycanda müştərək iş görməsi üçün bu günlərdə müqavilələr imzalanması nəzərdə tutulur. Ancaq Azərbaycanda bu şirkətlərlə yanaşı, bir çox digər şirkətlər də fəaliyyət göstərirlər.

Amerikanın bu şirkətlərinin hamısı Azərbaycanın Xəzər dənizində olan neft yataqlarının müştərək işlənməsində iştirak edir.

İndiyədək imzaladığımız müqavilələrə görə Azərbaycana qoyulacaq 30 milyard dollarlıq sərmayədən 8 milyard dolları Amerika Birləşmiş Ştatları şirkətlərinin üzərinə düşür. Bu, işin başlanğıcıdır. İmzalanması nəzərdə tutulan müqavilələr bu işləri genişləndirəcək və ölkəmizə qoyulan sərmayələrin miqdarını xeyli artıracaqdır.

Bizim imzaladığımız müqavilələrin müddəti təxminən 30 ildir. Hesab edirəm ki, bu 30 il birinci mərhələdir, biz 30 ildən də sonra bir neçə onilliklər ərzində əməkdaşlıq edəcəyik. Beləliklə, Amerika Birləşmiş Ştatları Azərbaycanda çox böyük iqtisadi maraqlar əldə edir. Biz bu iqtisadi marağı təmin etməyə çalışırıq.

Bir faktı da qeyd etmək istəyirəm. Azərbaycanda dünya standartına uyğun olan bir otel var. Biz keçmiş oteli bu otelin sahibi olan "Hyatt Recency" şirkətinə vermişik. Bu şirkət həmin oteli Azərbaycanda işlədir. Beləliklə, bu şirkət də Azərbaycana gəlibdir. Bu faktı ona görə xatırlatdım ki, mən buraya gələndə dedilər ki, bu, "Hyatt Regency" şirkətinin otelidir. Mən sizə demək istəyirəm ki, Bakıda, Azərbaycanda da belə bir otel var. Respublikamıza gəlsəniz, onu görəcəksiniz.

Azərbaycanın qarşısında bir çox böyük problemlər vardır. Bu problemlərdən biri də Ermənistan-Azərbaycan münaqişəsidir. Bildiyiniz kimi, Ermənistan silahlı qüvvələri Azərbaycana hərbi təcavüz edibdir. Ermənistan Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ vilayətini öz əlinə keçirib, onu Ermənistana birləşdirmək niyyəti güdərək bu hərbi təcavüzü edibdir. Həmin münaqişə 1988-ci ildə başlanıbdır. Bu hərbi təcavüzün nəticəsində çox qan

tökülüb, çoxlu insan tələf olubdur. Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş torpaqlardan bir milyondan çox Azərbaycan vətəndaşı didərgin düşübdür. Onlar öz yerlərindən-yurdlarından qovulublar, indi əksəriyyəti çadırlarda ağır vəziyyətdə yaşayır.

Biz bu münaqişəyə son qoymaq istəyirik. Atəşin dayandırılması haqqında üç il bundan əvvəl saziş imzalanıbdır. Üç ildir ki, sülh, yəni atəşkəs var. Biz daimi sülh əldə etmək üçün danışıqlar aparırıq. Mən ümid edirəm ki, biz məsələnin sülh yolu ilə həllinə nail olacağıq.

Münaqişənin sülh yolu ilə həll edilməsi ilə ATƏT-in Minsk qrupu məşğul olur. Minsk qrupunun həmsədrləri indi üç böyük ölkədir – ABŞ, Rusiya və Fransadır. Təəssüflər olsun ki, bu münaqişə haqqında dünyada, o cümlədən Amerika Birləşmiş Ştatlarında doğru-düzgün məlumat azdır. Amerika Birləşmiş Ştatlarında olan çoxsaylı erməni diasporu bu məsələni ictimaiyyətə tamamilə təhrif edilmiş şəkildə çatdırır. Ona görə də mən bu günlər burada bu münaqişə barədə geniş danışıqlar aparacağam. Mən xüsusən Konqresdə bu barədə geniş danışıqlar aparmaq fikrindəyəm. Çünki erməni diasporunun təklifi və təşəbbüsü ilə 1992-ci ildə ABŞ Konqresi Azərbaycana qarşı ədalətsiz bir qanun qəbul edibdir. Amerika Birləşmiş Ştatlarından Azərbaycana yardım göstərilməsinə embarqo qoyulubdur. Bizim qonşularımız – Ermənistan, Gürcüstan, Orta Asiya ölkələri və keçmiş SSRİ-yə mənsub olan başqa ölkələr hər il Amerikadan külli miqdarda maliyyə və maddi yardım alırlar. Ancaq biz bu yardımdan məhrumuq.

Qəribə bir paradoks yaranıbdır: biz Azərbaycanda Amerika Birləşmiş Ştatlarının iqtisadi marağını geniş təşkil edirik, amma Amerika Birləşmiş Ştatları hökumətinin Azərbaycana yardım göstərməyə ixtiyarı yoxdur.

Bu ədalətsizlik aradan götürülməlidir. Mən məmnuniyyətlə bildirirəm ki, Nyu-Yorkdan Konqresdə nümayəndə olan konqresmen cənab Kinq 907-ci maddənin ləğv olunması üçün bu





günlərdə bir qərar layihəsi təqdim edibdir. Mən cənab Kinqi görmək, ona təşəkkür etmək istəyirəm. Mən onunla tanış olmaq istəyirəm. Amerika Birləşmiş Ştatlarında belə ədalətli insanlar çoxdur. Bizim belə dostlarımız artdıqca Amerika Birləşmiş Ştatlarında Azərbaycana qarşı ədalətsizlik edən erməni diasporunun da qarşısını ala bilərik.

Bizim Amerikada lobbimiz yoxdur. Amma ermənilərin çox güclü lobbisi vardır. Mən Amerika Birləşmiş Ştatlarının dövlət adamları ilə danışarkən onlar bəzən deyirlər ki, burada ermənilərin güclü lobbisi var, onlar səsvermədə iştirak edirlər, ona görə də biz onlarla hesablaşmalıyıq. Mən isə deyirəm ki, bizim günahımız nədir ki, burada lobbimiz yoxdur? Amma bizim burada lobbimiz olacaqdır. Bizim lobbimiz dostlarımız olacaq, o cümlədən Amerika Birləşmiş Ştatlarındakı yəhudi icmaları, sizlər bizim lobbimiz olacaqsınız. Mən buna çox ümid bəsləyirəm. Güman edirəm ki, siz mənim bu fikirlərimlə razı olarsınız.

Mən sizin vaxtınızı çox aldım. Ancaq siz məni düzgün başa düşün. Birincisi, mən çox sevinirəm və sizə daha çox məlumat vermək istəyirəm. İkincisi də dərdim çoxdur. İnsan öz dərdini kiməsə deməlidir. İnsanlar, adətən, öz dərdlərini inandıqları adamlara, öz dostlarına deyirlər. Mən sizi Amerika Birləşmiş Ştatlarında Azərbaycanın və şəxsən özümün dostlarım hesab edirəm. Ona görə də sizə öz dərdimi açıqca deyirəm. Amma ümidvaram ki, biz bu dərdlərdən xilas olacağıq.

Azərbaycan xalqı sülhsevər xalqdır. Azərbaycanın bölgəmizdə, Qafqazda çox mühüm yeri və əhəmiyyəti vardır. Bunu bilmək və onunla hesablaşmaq, ondan istifadə etmək lazımdır. Güman edirəm ki, Azərbaycan bir sülhsevər dövlət, xalq kimi bütün regionumuzda sülhün bərqərar edilməsi üçün çox işlər görəcəkdir. Ümid edirəm ki, bu işlərdə siz bizə yardım göstərəcəksiniz.

Mən sizə, bütün dünyada yaşayan yəhudilərə sülh, əmin-amanlıq, səadət arzulayıram. Amerika Birləşmiş Ştatlarının bütün vətəndaşlarına səadət, əmin-amanlıq arzulayıram. Badələri bizim dostluğumuzun şərəfinə qaldırmağı təklif edirəm. Sağ olun.

## ROMA PAPASI II İOHANN PAVEL İLƏ GÖRÜŞDƏ SÖHBƏTDƏN

*Vatikan, "Palasio Kastel Qondolfo"*
*26 sentyabr 1997-ci il*



**II İohann Pavel:** Hörmətli cənab Prezident Əliyev, Sizi səmimiyyətlə salamlayıram və dəvətimi qəbul edib mənimlə görüşə gəldiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

Cənab Prezident bizə məlumdur ki, Siz görkəmli dövlət xadimisiniz və müstəqil Azərbaycan Respublikası məhz Sizin rəhbərliyiniz sayəsində son illər Dünya Birliyində layiqli yer tutmuşdur və bildirirəm ki, ölkənizdə hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri biz diqqətlə izləyirik və onları dəstəkləyirik.

**Heydər Əliyev:** Möhtərəm Zati-müqəddəsləri Papa II İohann Pavel, Vatikana dəvətə, qonaqpərvərliyə və xoş sözlərə görə Sizə minnətdarlığımı bidirirəm və vurğulayıram ki, İtaliya Prezidenti cənab Skalfaro, Baş nazir cənab Prodi ilə və ölkənin digər yüksək





vəzifəli şəxslərilə çox səmərəli danışıqlarımız olmuşdur və bir sıra hər iki ölkə üçün qarşılıqlı faydalı sənədlər imzalanmışdır.

Bildirirəm ki, yeni müstəqillik qazanmış, bazar münasibətləri yolunu seçmiş, hüquqi demokratik dövlət quran Azərbaycanın ilk demokratik konstitusiyası ilə vətəndaşlara geniş hüquqlar verilmiş, ölkəmizdə söz və vicdan azadlığı təmin olunmuşdur.

Vurğulayıram ki, ölkəmizdə müxtəlif dini konfessiyalar sərbəst fəaliyyət göstərir, Azərbaycanda insan hüquqları möhkəm qorunur, demokratik cəmiyyət quruculuğu prosesi böyük uğurla həyata keçirilir, siyasi plüralizmə, mətbuat azadlığına geniş yer verilir.

Bir daha nəzərə çatdırıram ki, Azərbaycanda dövlət quruculuğu, islahatların həyata keçirilməsi sahəsində böyük nailiyyətlər əldə edilmiş, Dünya Birliyi ilə əlaqələrin möhkəmləndirilməsi üçün böyük işlər görülmüşdür. Ölkəmiz nə lazımdırsa edir ki, Azərbaycanın müstəqilliyi əbədi və sarsılmaz olsun.

Ermənistan 1988-ci ildən bəri Azərbaycana qarşı əsl təcavüz yoluna qədəm qoymuşdur. İldən-ilə genişlənən, öz amansızlığı və qəddarlığı ilə fərqlənən bu təcavüz nəticəsində Ermənistan silahlı qüvvələri ölkəmizin torpaqlarının 20 faizini işğal etmiş, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan didərgin düşmüş, çadırlarda ağır vəziyyətdə yaşayır. Azərbaycanın işğal altında olan ərazilərində xalqımızın maddi mədəniyyət abidələri, dini ocaqları, məktəb, xəstəxana binaları, bütün varidatı vəhşicəsinə dağıdılmış, viran edilmişdir.

Bütün bu ağır zərbələrə baxmayaraq Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə üstünlük vermişdir. Müharibədə üç il bundan əvvəl atəşkəs əldə edilmiş, bu münaqişənin sülh yolu ilə aradan qaldırılması sahəsində ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda Böyük Sülh müqaviləsinin hazırlanması prosesində fəal iştirak etmişdir.

ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında Lissabonda keçirilmiş görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün əsas prinsiplər qəbul edildi. Biz münaqişənin 53 dövlət tərəfindən təsdiq

olunan bu prinsiplər əsasında həllinə tərəfdarıq.

Lakin təcavüzün müvəqqəti nəticələrindən bəhrələnməyə çalışan Ermənistan Lissabon prinsiplərinə məhəl qoymaq istəmir və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı özünə birləşdirmək və yaxud orada ikinci bir erməni dövləti yaratmaq niyyətindədir. Bütün bunlar beynəlxalq hüquq normalarına tamamilə ziddir, ona görə də buna yol verə bilmərik.

Respublikamız Azərbaycanın tərkibində Dağlıq Qarabağa ən yüksək özünüidarəetmə hüququ verməyə hazırdır. Bildirirəm ki, ATƏT-in Minsk qrupuna həmsədrlik edən üç böyük dövlətin – ABŞ-ın, Rusiyanın və Fransanın irəli sürdükləri yeni təkliflərdə də Azərbaycanın ərazi bütövlüyü saxlanılmaqla Lissabon prinsipləri əsasında münaqişənin iki mərhələdə həll olunmasına dair təklif bir daha bizim beynəlxalq hüquq normalarına əsaslanan mövqeyimizin tamamilə haqlı olduğundan xəbər verir.

**II İohann Pavel:** Vatikan dövlətinin və bütün dünya katoliklərinin başçısı kimi mən də Ermənistan-Azərbaycan münaqişəsinin Lissabon Zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında həllinə tərəfdar olduğumu bildirirəm və hamını da bu işə yardım göstərməyə çağırıram. Vurğulayıram ki, yeni müstəqillik qazanmış ölkələrin ərazi bütövlüyünün qorunması çox vacibdir, separatçılığa qarşı birgə mübarizə aparılmalıdır...

Hörmətli cənab Prezident, Sizinlə görüşümdən çox məmnun qaldığımı vurğulayıram.

**Heydər Əliyev:** Cənab Zati-müqəddəsləri, səmimi və mehriban görüş üçün Sizə təşəkkürümü bildirir və Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm. Əminəm ki, Zati-müqəddəslərinin ölkəmizə səfəri Azərbaycan xalqı üçün əlamətdar bir hadisəyə çevrilər, dövlətlərimizin əməkdaşlığının daha da möhkəmləndirilməsində mühüm rol oynaya bilər.

**II İohann Pavel:** Hörmətli Prezident, mən bu dəvəti minnətdarlıqla qəbul edirəm.





## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Sizi dünya yəhudilərinin tövbə və mənəvi saflıq günü olan Roş-Ha-Şana – Təzə il münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram.

Azərbaycan ölkəmizdə yaşayan bütün xalqların doğma vətənidir. Hüquq və azadlıqlarının, etnik özünəməxsusluğunun qorunması, dil və mədəniyyətlərinin inkişaf etdirilməsi üçün tam təminat və hər cür şərait yaradılmış digər xalqlar kimi, yəhudi icması da Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunda, erməni qəsbkarlarına qarşı ədalətli mübarizədə, elm-mədəniyyət sahəsində fəal iştirak edir. İnanıram ki, siz dövlət müstəqilliyimizin möhkəmləndirilməsində, azad vətəndaş cəmiyyəti quruculuğunda, Dünya Birliyi ilə qarşılıqlı əlaqələrimizin genişləndirilməsində bundan sonra da imkanlarınızdan tam istifadə edəcəksiniz.

Qoy Roş-Ha-Şana hər birinizin ocağına ruzi, xeyir-bərəkət gətirsin, evlərinizdən sevinc əskik olmasın.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 30 sentyabr 1997-ci il*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Əziz bacı və qardaşlar!

Sizi dünya müsəlmanlarının ən böyük bayramlarından olan Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Öz tarixinə, milli və dini ənənələrinə həmişə sadiq qalmış Azərbaycan xalqı bu əziz bayramını müstəqil dövlətində azad və sərbəst şəkildə qeyd edir. Müqəddəs kitabımız Qurani-Kərimin insanlar üçün nazil edildiyi mübarək Ramazan ayının sınaq günlərində öz borcunu ləyaqətlə yerinə yetirmiş müsəlmanlarımız bu gün bayram edir, bir-birlərinə sevgi və ehtiram hisslərini bildirir, həyatdan getmiş yaxınlarının, şəhidlərimizin ruhlarına dualar oxuyurlar. Bu bayram günlərində cəmiyyətdə Allaha inam, vətənə, torpağa, xalqa bağlılıq hissindən doğan bir nikbinlik əhval-ruhiyyəsi vardır.

Bu günlərdə hamımızı eyni arzu və diləklər birləşdirir. Qoy böyük qurbanlar bahasına əldə etdiyimiz azadlıq və müstəqillik dönməz olsun, doğma Azərbaycanın suverenliyi və ərazi bütövlüyü tam təmin olunsun, qaçqın və köçkün vəziyyətinə düşmüş soydaşlarımız yurdlarına qayıdıb Allahın öz bəndələrinə bəxş etdiyi nemətlərindən faydalansınlar, ölkəmizdə həmişə əmin-amanlıq və sabitlik hökm sürsün, xalqımız layiq olduğu xoşbəxt və firavan həyata qovuşsun!

Hər birinizi bu müqəddəs amallar naminə sıx birlik və əzmkarlıq göstərməyə çağırır və əmin olduğumu bildirirəm ki, Ulu Tanrının köməyi ilə, xalqımızın əməyi və qeyrəti sayəsində arzularımızın gerçəkləşəcəyi gün uzaqda deyildir.

Ramazan bayramı münasibətilə sizə cansağlığı, xoşbəxtlik arzu edirəm, Vətənin azadlığı və tərəqqisi naminə işlərinizdə böyük uğurlar diləyirəm.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti





## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident sarayı, 30 yanvar 1998-ci il*

Hörmətli Şeyx həzrətləri!

Əvvəla, Ramazan bayramı münasibətilə sizi bir daha təbrik edirəm. Azərbaycan xalqına, respublikamızda yaşayan müsəlmanların hamısına Ramazan bayramı münasibətilə öz təbrik məktubumu elan etmişəm. Bütün azərbaycanlılara, respublikamızın vətəndaşlarına bu bayram günü bir daha səadət, sülh, əmin-amanlıq arzulayıram. Əminəm ki, indi Azərbaycanda yaranmış sağlam ictimai-siyasi vəziyyət və bizim apardığımız tədbirlər xalqımızın rifahını günü-gündən yaxşılaşdıracaq, biz sülhü, əmin-amanlığı, sabitliyi bundan sonra da qoruyub saxlaya biləcəyik.

Ramazan bayramı xalqımızın ən böyük, müqəddəs bayramlarından biridir. Camaatımız çox sevinir ki, bu bayram artıq xalqımıza qayıdıbdır. Bunu indi hər bir insan, eyni zamanda, bütün ölkə, dövlət bayram edir. Sizi bir daha təbrik edirəm.

Verdiyim sərəncamla, qəbul etdiyim qərarlarla, həyata keçirilən tədbirlərlə əlaqədar sizin fikriniz, rəyiniz də mənim üçün çox qiymətlidir. Bildiyiniz kimi, mən həmişə Azərbaycanda xalqımızın mənəviyyatının qorunması üçün çalışmışam, mənəviyyatımıza zidd olan hər bir hala qarşı mübarizə aparmışam. Bütün həyatımla, gördüyüm işlərlə, respublikanın, dövlətin başçısı kimi atdığım bütün addımlarımla, tədbirlərimlə ölkəmizdə mənəviyyatın daha da möhkəmlənməsi, milli-mənəvi dəyərlərimizin yaşaması, milli adət-ənənələrimizə sadiq olmağımızı təmin etməyə çalışmışam. Ötən dövrlərdə bu sahədə mənim gördüyüm işləri respublikamızın bütün vətəndaşları da, siz də bilirsiniz.

Mənim son qərarım təsadüfi bir qərar deyildir. Mən son illər, son zamanlar respublikamızda baş vermiş müsbət dəyişikliklərlə əlaqədar bəzi mənfi hadisələrin, meyillərin də meydana çıxdığını müşahidə edirdim. Bu, məni narahat edirdi. Məsələn, spirtli içkilərdən istifadə olunmasının yayılması, onların istehsalının artırılması, yaxud da narkotik maddələrdən istifadə edilməsinin yayılması məni çox narahat edirdi. Bunlardan sonra son vaxtlar respublikamızda kazinoların, qumarxanaların açılması, qanuni, qanunsuz, gizli, qeyri-leqal şəkildə ayrı-ayrı gecə klublarının açılması – bunlar hamısı xalqımızın mənəviyyatına zidd olan, onun mənəviyyatını, xüsusən gənclərimizin, gənc qız-qadınlarımızın tərbiyəsini pozan hallardır. Bunlar məni çox narahat edirdi.

Mən hakimiyyət, təhsil orqanlarına, gənclər təşkilatına, ictimai təşkilatlara və hüquq-mühafizə orqanlarına dəfələrlə göstəriş vermişdim ki, bunların qarşısı alınmalıdır, belə hallara qarşı mübarizəni gücləndirmək lazımdır. İndiyə qədər aparılan tədbirlərin istənilən nəticəni verməyəcəyini hiss edəndən sonra mən bu məsələni respublika Təhlükəsizlik Şurasının müzakirəsinə çıxarıb müzakirə etməyə məcbur oldum. Bu məsələ Təhlükəsizlik Şurasında bir neçə saat müzakirə edildi. Mən öz fikirlərimi, narahatçılığımı, mövqeyimi tamamilə açıq-aydın bildirdim. Mən bunların nəticəsində artıq elan olunmuş sərəncamı qəbul etdim.

Çox məmnunam ki, mənim gördüyüm bu tədbirlər, atdığım bu addımlar ictimaiyyət, xalqımız tərəfindən bəyənilir və hörmətlə, rəğbətlə qarşılanır. Şübhəsiz ki, bizim din xadimlərimizin, dindarların, ağsaqqalların bu məsələyə münasibəti mənim üçün çox qiymətlidir. Bunları mənə çatdırdınız, sizin mənə təqdim etdiyiniz məktubda da bunlar öz əksini tapıbdır.

Mən çox təşəkkür edirəm. Məmnunam ki, bizim bu barədə fikirlərimizin hamısı – yəni tarixi, dini, mənəvi ənənələrimiz, ulu babalarımızdan bizə qalmış nemətlər, dəyərlər barədə, həm də dünya ilə bugünkü münasibətlərimizə və ictimaiyyətdə gedən proseslərə aid olan anlayışımız üst-üstə düşür və eyni istiqamətdədir.





Şübhəsiz ki, biz Azərbaycanda dünyəvi dövlət qururuq. Biz ölkəmizi, vətəndaşlarımızı cürbəcür fanatizm əhval-ruhiyyəsinə qapılmağa heç vaxt dəvət etmirik və buna imkan da verməyəcəyik. Bizdə dinə, mənəvi dəyərlərimizə, eyni zamanda, ümumi, bəşəri dəyərlərə hörmət var. Biz ümumbəşəri dəyərləri, yəni tarixin sınaqlarından keçmiş və yüksək mədəniyyəti, mənəviyyatı əks etdirən ümumbəşəri dəyərləri öz xalqımıza aşılamalıyıq, xalqımızı həmin ümumbəşəri dəyərlər əsasında da tərbiyələndirməliyik. Ancaq öz milli-mənəvi dəyərlərimizdən də ayrılmamalıyıq. Biz bu prosesdə əxlaqsızlığın inkişaf etməsinə, yayılmasına, mənəviyyatsızlığın yayılmasına yol verə bilmərik.

Qumarxanalar, gecə klubları, kazinolar, cürbəcür spirtli içkilərə insanların çox aludə olması şübhəsiz ki, bizim mənəviyyatımıza ziddir. Ona görə də hesab edirəm ki, mənim qəbul etdiyim bu qərar, verdiyim sərəncam, bu tədbirlər həyata keçirilməlidir və bunun üçün də uzunmüddətli iş görmək lazımdır.

Bunu bəyəndiyinizə və bu işlərdə mənə dəstək verdiyinizə görə təşəkkür edirəm. Ancaq mən istərdim ki, siz mənim bu tədbirlərimin əməli surətdə həyata keçirilməsində də fəal iştirak edəsiniz, beləliklə, biz mənəviyyatımıza zidd olan halları aradan qaldıraq. Ancaq təkcə bunun aradan qaldırılmasından söhbət getmir. Biz gərək mənəviyyatımızın keşiyində daim duraq. Çünki ola bilər, bunu bir müddət aradan qaldıraq, ancaq diqqət yetirməsək, qısa bir vaxtdan sonra onlar yenə də bizim cəmiyyətimizə soxulacaqlar. Bu, təbii bir şeydir. Ona görə də bu, bizim üçün daimi, yəni kampaniya xarakterli deyil, daimi işlərdir. Biz bu işlərimizi daim aparmalıyıq.

Mən əminəm ki, bu barədə siz öz sahənizdə, cəmiyyətdə, insanlar arasında tutduğumuz bu dəst-xəttin və apardığımız tədbirlərin həyata keçirilməsində fəal iştirakçı olacaqsınız.

## HƏCC ZİYARƏTİNƏ GEDƏN ZƏVVARLARIN BİR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident sarayı, 28 mart 1998-ci il*

Mən elə bilirəm ki, hər birinizin deməyə sözünüz vardır. Bu təbiidir. Ancaq siz mənə inanın, bu gün mən bir neçə görüş keçirmişəm. Sizinlə bu görüşdən sonra isə Fransadan gəlmiş böyük bir nümayəndə heyətini qəbul etməliyəm. Onlar indi məni gözləyirlər. Mən sizinlə bir neçə saat söhbət etmək arzusundayam. Güman edirəm ki, biz vaxt tapıb bunu edəcəyik. Ancaq siz indi yol üstündəsiniz, mənimsə sizdən sonra daha bir görüşüm vardır.

Xoşbəxt adamlarsınız ki, Məkkə və Mədinəni ziyarət etmək sizə nəsib olubdur. Bu, hər bir müsəlmanın həyatdakı arzusudur. Bilirsiniz ki, keçmiş zamanlarda bizim ulu babalarımız nə qədər çətinliklərin öhdəsindən gələrək, piyada, o vaxtkı nəqliyyat vasitələrindən istifadə edərək, neçə aylar vaxt sərf edərək gedib Məkkəni, Mədinəni ziyarət edirdilər. Hər bir müsəlman bu ziyarəti edəndən sonra onda böyük bir dəyişiklik əmələ gəlir. Sizə belə bir xoşbəxtlik qismət, nəsib olubdur. Mən bundan ötrü çox şadam.

Bizdə hər il həcc ziyarətinə gedənlər var. Hərə öz imkanından istifadə edir. Ancaq siz, Azərbaycanın böyük bir qrup vətəndaşları iki müqəddəs şəhərin xadimi, Səudiyyə Ərəbistanının kralı Fəhd ibn Əbdüləziz əl-Səudun Azərbaycana göstərdiyi qayğının nəticəsində, onun hesabına bu ziyarəti edəcəksiniz. Mən Səudiyyə Ərəbistanı kralının nümayəndəsinə öz təşəkkürümü bildirdim, bir daha sizinlə birlikdə ona təşəkkür edirəm. Ümid edirəm ki, bu, ənənəyə çevriləcəkdir, gələn illərdə də bizim ölkəmizə, Azərbaycana bu qayğı göstəriləcəkdir. Siz bu imkandan birinci istifadə edirsiniz. Yolunuz uğurlu olsun!





Mən də vaxtilə çox illər Məkkəni, Mədinəni ziyarət etmək arzusunda olmuşam. Əziz dostum, qardaşım kral Fəhd ibn Əbdüləziz əl-Səudun dəvəti ilə mən 1994-cü ildə Səudiyyə Ərəbistanında rəsmi səfərdə olmuşam. O zaman mənə bütün bu müqəddəs yerləri ziyarət etmək imkanı verilibdir. Şeyxülislam həzrətləri burada qeyd etdi. Səudiyyə Ərəbistanında Kəbənin də qapısını mənim üzümə açdılar. Mənimlə olan adamlar da böyük bir xoşbəxtlik hissi keçirdilər ki, biz Kəbəyə də daxil ola bildik.

Bu mənim həyatımda çox böyük bir hadisə olmuşdur. Mən bunu heç vaxt unutmayacağam. Şübhəsiz ki, imkan olanda mən bunu təkrar da etmək istərdim. Ancaq uzun illər həsrətində olduğum Məkkəni, Mədinəni ziyarət etmək mənim üçün böyük bir səadət olmuşdur. Mən bunu heç vaxt unutmaram. İndi bu, sizə də nəsib, qismət olubdur.

Güman edirəm ki, sizin həcciniz qəbul olunacaqdır, sağ-salamat gedib gələcəksiniz, bu ziyarəti edəndən sonra ölkəmizə, Vətənimizə, dövlətimizə daha da çox xidmət edəcəksiniz. Çünki bu ziyarət insanları çox şeylərə dəvət edir. İnsanlar bu ziyarətdən sonra çox şeyləri daha da doğru-düzgün dərk edirlər. Güman edirəm, siz özünüz bunu hiss edəcəksiniz.

Mən sizə yaxşı yol arzulayıram. Sağ-salamat gedib gələsiniz. Siz həmişə belə gözəl işlərlə məşğul olasınız. Sağ olun. Yaxşı yol!

# İKİ MÜQƏDDƏS ŞƏHƏRİN XADİMİ SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI FƏHD BİN ƏBDÜLƏZİZ ƏL-SƏUDA

Mərhəmətli, rəhmli Allahın adı ilə!

İki müqəddəs şəhərin möhtərəm xadimi!

Zati-alinizə – əziz dostuma və qardaşıma səmimi salamlarımı və xoş arzularımı yetirməkdən çox məmnunam.

1994-cü ilin iyul ayında qardaş ölkənizdə olarkən Sizinlə keçirdiyim görüşü və səmərəli danışıqları daim xatırlayıram. Həmin səfər günlərində şəxsən mənə və məni müşayiət edən nümayəndə heyətinə göstərilən böyük qonaqpərvərlik, diqqət və qayğı zati-alinizin və qardaş Səudiyyə Ərəbistanı xalqının Azərbaycan xalqına hörmət və məhəbbətinin gözəl təzahürü idi. Bunu xalqımız da məhz belə qəbul etdi.

Azərbaycan vətəndaşlarından 250 nəfərə bu il Zül-hiccə ayında Zati-alinizin qonağı kimi Səudiyyə Ərəbistanına getmək və həcc ziyarəti ibadətlərini etmək imkanı vermək haqqındakı qərarınız ölkəmizdə böyük razılıq və sevinc hissi ilə qarşılandı. Erməni təcavüzü nəticəsində respublikamızın ərazisinin 20 faizi işğal olunduğu və bir milyondan artıq vətəndaşının qaçqın və köçkün vəziyyətinə düşərək çadırlarda ağır şəraitdə yaşadığı bir dövrdə qəbul etdiyiniz bu qərar İslam dinimizin humanist prinsipləri ilə səsləşən nəcib bir addımdır. Bu işi qısa müddətdə həyata keçirmək üçün Səudiyyə Ərəbistanı krallığının İslam Məsələləri və Vəqflər nazirinin müavini cənab Tofiq Sudeyrinin başçılığı ilə Azərbaycana nümayəndə heyəti göndərməyiniz Zati-alinizin həmin məsələyə verdiyi əhəmiyyətə dəlalət edir. Mən buna görə şəxsən öz adımdan, Azərbaycan müsəlmanları adından Zati-alinizə dərin minnətdarlıq bildirməyi özümə borc hesab edirəm. Ümidvaram ki, indiki həcc mövsümündə atdığınız bu addım gələcək illərdə ənənəyə çevriləcək və iki qardaş müsəl-





man xalqı arasındakı əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edərək qarşıdan gələn mübarək Qurban bayramı münasibətilə Zati-alinizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, işlərinizdə böyük uğurlar və qardaş Səudiyyə Ərəbistanı xalqına xoşbəxtlik və tərəqqi arzulayıram.

Sizə salamlar, Allahın mərhəməti və xeyir-bərəkəti olsun!

Dərin hörmətlə,

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 30 mart 1998-ci il;*
*1 zül- hiccə 1418-ci il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz bacılar və qardaşlar!

Sizi bütün dünya müsəlmanlarının müqəddəs Qurban bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Bu bayram günündə hamımız ulu Tanrıdan doğma vətənimizin ərazi bütövlüyünün bərpa edilməsini, ölkəmizdə sülhün, əmin-amanlığın bərqərar olmasını, xalqımızın xoşbəxt və firavan həyata qovuşmasını diləyirik. Xalqımızın vətənpərvərliyi, qurub-yaratmaq əzmi, öz milli, dini dəyərlərinə, tarixinə, mədəniyyətinə bağlılığı niyyətlərimizin çin olacağına möhkəm inam yaradır.

Böyük Xaliqin bəxş etdiyi bu minnətdarlıq bayramında Məkkə ziyarətində olan zəvvarlarımızın, bütün Azərbaycan müsəlmanlarının duaları xalqımızın haqq işinin qalib gəlməsinə, Ermənistan-Azərbaycan münaqişəsinin və Dağlıq Qarabağ probleminin dinc yolla həll olunmasına yönəlmişdir.

Bu əziz gündə şəhidlərimizin xatirəsini yad edərək əmin olduğumu bildirirəm ki, onların ruhlarının şad olacağı, torpaqlarımızın erməni qəsbkarlarının tapdağından azad ediləcəyi, qaçqın və köçkün həmvətənlərimizin öz doğma yurdlarına qayıdacağı an uzaqda deyildir. Müsəlmanların qardaşlıq rəmzi olan mübarək Qurban bayramında arzu edirəm ki, bütün dünya azərbaycanlılarının qarşılıqlı qayğı və məhəbbəti artsın, onların Azərbaycanla əlaqələri güclənsin, soydaşlarımız arasında həmrəylik hissləri möhkəmlənsin.

Allah-Təalanın İslamı bir din kimi tamamlayıb insanlar üçün hidayət yolu seçdiyi bu əziz gündə sizin hamınıza can sağlığı, səadət və əmin-amanlıq arzulayıram.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 6 aprel 1998-ci il*





## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ MİRMÖVSÜM AĞANIN ZİYARƏTGAHINDA KEÇİRİLƏN GÖRÜŞDƏ NİTQ

*8 aprel 1998-ci il*

Hörmətli dostlar, hörmətli qardaşlar, ağsaqqallar, bacılar!

Mən sizin hamınızı bizim əziz və müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, hər birinizə səadət, xoşbəxtlik, uzun ömür arzu edirəm və bütün xalqımıza, Azərbaycan millətinə, vətəndaşlarına sülh və əmin-amanlıq arzulayıram.

Biz, bizim nəsil xoşbəxtik ki, nəhayət, bu günlərə gəlib çıxmışıq və öz milli-dini adət-ənənələrimizi – əziz əcdadlarımızdan, ulu babalarımızdan bizə gəlib çatan ənənələrimizi, bayramlarımızı ürəyimiz istədiyi kimi qeyd edirik. Bu, böyük xoşbəxtlikdir.

Xalqımızın çoxminillik tarixi var və çox əsrlərdir ki, İslam dininə itaət edirik. İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli mənəvi dəyərləri, dinimizin adət-ənənələri və dini dəyərləri – hamısı birlikdə bizim milli sərvətimizdir. Biz fəxr edə bilərik ki, xalqımız çox dəyanətli xalqdır və zaman-zaman, əsrlər boyu cürbəcür məhrumiyyətlərə məruz qalaraq bütün bu adət-ənənələri unutmayıbdır. Nə vaxt ki, rəsmi dairələr bunu qadağan edib, yaxud da buna mənfi münasibət göstərib, insanlar bunu qəlbində, öz ailəsində, evində yaşadıblar. Hətta bizim bəzi fədakar insanlar bu adət-ənənələrimizi yaşatdıqlarına görə çox əziyyətlər çəkiblər, bəzən də məhrumiyyətlərə, cəzalara məhkum olublar.

Bu onu göstərir ki, bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır. Biz, bizim nəsil, hamımız birlikdə – indi yaşayan insanlar xoşbəxtdirlər ki, bu günə gəlib çatmışıq, bizim müstəqil ölkəmiz, müstəqil dövlətimiz var, öz taleyimizin sahibiyik, dini, mənəvi, milli adət-ənənələrimizi bərpa etmişik və daha da geniş təbliğ edirik.

Qurban bayramı bizim əziz bayramımızdır. Ancaq xatırlayın, iyirmi, otuz, qırx il bundan öncə Qurban bayramını bəziləri öz evində edirdi. Kimin imkanı vardı – bir qoyun kəsirdi, kimin də imkanı yox idi - toyuqdan, xoruzdan kəsirdi və Qurban bayramı edirdi. Amma görün indi nə günə çatmışıq – mən bu gün şəhərdən, bizim məkanımızdan, mənim iş yerimdən buraya gələnə qədər yolboyu neçə dənə qurban kəsildi! Bilirsiniz, sayı-hesabı yoxdur. Bu, mənim gördüyümdür. Amma bütün ölkəmizin ərazisində, hər evdə, hər qəsəbədə, hər kənddə, şəhərdə, hər yaşayış yerində minlərlə, on minlərlə qurban kəsilir. Bu, bir tərəfdən onu göstərir ki, qurban kəsməyə bizim imkanımız var. İkinci tərəfdən də, ən əsası budur ki, biz azadıq, müstəqilik, sərbəstik, istədiyimiz kimi yaşayırıq. Yəni istədiyimiz kimi hərə özbaşına yaşamırıq, əcdadlarımızdan bizə qalmış qanun-qaydalara, adət-ənənələrə riayət edirik və onları həyata keçiririk. Bu da bizim xoşbəxtliyimizdir.

Qurban bayramı sadəcə şənlənmək, yaxud da qurban kəsmək, bir-birini təbrik etmək günü deyildir. Bu gün insan yenidən bütün həyatını düşünür, yenidən mənəviyyata qayıdır, mənəvi dəyərlərin qiymətini yenidən dərk edir və insan daha da saflaşır, paklaşır. Ona görə də bu gün bayramı bu şəkildə qeyd etmək, məsələn, mən baxıram, üç il, dörd il bundan öncə biz Azərbaycanda bu bayramı nə cür qeyd edirdik, bu gün nə cür qeyd edirik, – nə qədər fərq var. Amma dedim ki, on il, iyirmi il bundan öncə biz bunu heç rəsmi bayram kimi qeyd edə bilmirdik. Kimi bunu evində edirdi, kimi də çoxdan unutmuşdu. Bu da həqiqətdir. Amma indi ölkəmizdə hər yerdə bayram əhval-ruhiyyəsi var və insanlar bu bayramdan istifadə edərək öz mənəvi dəyərlərini bir daha qiymətləndirirlər.

Mən çox sevinirəm, məmnunam ki, bu gün – Qurban bayramı günü Mirmövsüm ağanın qəbrini bir daha ziyarət etdim. Bu, bizim xalqımızın inam yeridir, çox zəngin bir ziyarətgahdır. İnsanlar buna etiqad edir, inanırlar. Mirmövsüm ağa hələ sağ olan vaxtı ona inanırdılar. İnsanlar inanırdılar və burada hələ böyük







bir məqbərə olmadığı zaman bu qəbirə, bu müqəddəs yerə nəzirlər gətirir, gəlib buranı ziyarət edirdilər. İndi insanlar daha da çox inanır və gəlib bu müqəddəs yeri ziyarət edirlər, indi artıq burada böyük bir məqbərə kompleksi yaranıbdır. Bunun özü də son illərin məhsuludur, bizə verdiyi sərvətdir.

Mən 1994-cü ildə buraya gəlmişdim. 1994-cü ildə bütün bunlar yox idi. Mirmövsüm ağanın xatirəsinə layiq olan həmin o gözəl məqbərə də yox idi, o şəkildə deyildi. Amma bu müddətdə bunlar hamısı yaranıbdır. Bunu yaradanlar sizlərsiniz və Mirmövsüm ağanın xatirəsinə sadiq qalıb, onun ruhunu daha da şad etmək istəyən insanlardır. Bununla siz öz xalqınıza, dininizə, millətinizə xidmət edirsiniz. Amma eyni zamanda, biz fəxr edə bilərik ki, belə bir ziyarətgahımız var. İnsanlar buna inanır, bu inamla da yaşayır və buraya ziyarətə gəlirlər.

Bilirsiniz, mən həyatımda ilk dəfə bir hadisəni sizə danışacağam. Bunu indiyə qədər heç kəsə danışmamışam və rəhmətlik

anamdan savayı heç kəs bunu bilmir. 1943-cü ildə mənim iyirmi yaşım vardı. Bizim ailədə çətinliklər vardı. Mən də, anam da bir nəzir dedik. Mən onda Bakıda yaşamırdım, Naxçıvanda yaşayırdım. Gəldim Bakıya, getdim İçərişəhərdə Mirmövsüm ağanın evinə, onu ziyarət etdim və nəzirimi də verdim. İndi biz onun qəbri üstünə gəlirik, amma mən sağlığında gedib onu ziyarət etmişəm – 1943-cü ildə, 55 il bundan qabaq ziyarət etmişəm. Bacısı da orada idi, evi indi də gözümün qabağındadır.

Getdim ora, əvvəl məni buraxmırdılar, o yan – bu yan, çox yoxladılar, sorğu-sual elədilər. Gördülər ki, cavan bir oğlanam, inandılar və mənə bu imkanı verdilər. İndi olan-olub, keçən-keçib – o vaxt mən bunu gizlin etmişəm, başa düşürsünüz? Mən onda o sistemdə, o dövlətdə işləyirdim. Onda din qadağan idi, bütün bu şeylər qadağan idi, bu işlərin lap kəskin vaxtı idi. Amma mənim qəlbim və rəhmətlik anamın məsləhətləri məni gətirib oraya çıxardı. 55 il keçib, mən bunu həyatımda birinci dəfədir ki, danışıram. Oraya gedəndə arxama, o yana-bu yana baxırdım ki, məni burada görürlər, ya görmürlər? Mən onda dövlət işində işləyirdim. Oradan çıxandan sonra da o yana – bu yana baxmışam. Yəni sizə düzünü deyim, mən oraya xəlvət getmişəm. Çıxandan sonra da hələ beş-on gün fikirləşirdim ki, görəsən, məni gördülərmi, oraya-buraya çağıracaqlarmı, qısnayacaqlarmı, mənə bir şey edəcəklərmi? Beş-on gün keçəndən sonra gördüm ki, bir şey yoxdur, başa düşdüm ki, mənim oraya getməyimi heç kəs bilmir – bu, qalıb bir özümün qəlbimdə, bir də anamın qəlbində.

Mən bunu heç vaxt unutmamışam, ancaq o vaxtlar gizlədirdim, deyə bilməzdim. Ondan sonra da ehtiyac olmayıbdır ki, mən bunu deyim. Durduğum yerdə deyim ki, mən bunu etmişəm, nə əhəmiyyəti var? Amma indi, 55 il sonra bu ziyarətgaha gələndə mən bunu xatırlayıram. Oranı nə cür axtardığım bugünkü kimi gözümün qabağındadır. Heç oranı tapa da bilmirdim, çünki kimdən, nə təhər soruşacaqsan? Oradan-buradan araşdırdım, birtəhər gəldim çatdım. Əvvəl o evə gələndə dedim ki, bəlkə bura deyil, məni aldadacaqlar.





Birtəhər araşdırdım, biləndən sonra ki, hər şey düzdür, ziyarət etdim.

İndi mən onun qəbrini ziyarət edirəm. Hesab edirəm ki, millətimiz üçün, millətimizi, xalqımızı düzlüyə, saflığa, xeyirxahlığa, əməli salehliyə dəvət etmək üçün belə ziyarətgahlar çox əhəmiyyətlidir. Xüsusən, Mirmövsüm ağanın qəbri, bu ziyarətgah. Əminəm ki, bu ziyarətgah sizin kimi insanların səyi nəticəsində daha da genişlənəcək, inkişaf edəcək və xalqımız bu ziyarətgahdan bəhrələnərək mənəvi cəhətdən daha da sağlam, saf olacaqdır.

Bizim bütün milli və dini adət-ənənələrimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən, insanları bu əhval-ruhiyyədə tərbiyə etməkdən ibarətdir. Bu, bir bugünkü problem deyil, min il bundan öncə də olan problemdir. Elə Məhəmməd peyğəmbərin zamanında da bu problem vardı. Təsadüfi deyil ki, o, millətimiz üçün, müsəlmanlar üçün necə yaşamaq və necə davranmaq qanun-qaydalarının hamısını Qurani-Kərimdə yazıbdır. Niyə yazıbdır? Əgər problemlər, bu məsələlər olmasaydı Quranda bütün ayələri yazmazdı. Onu bir kitab kimi yazmayıbdır, orada hər bir kəlmənin, hər bir ayənin, surənin mənası var və məqsədi var. Bəli, o, hər bir kəlməni məqsədlə yazıbdır.

Görürsünüz, nə qədər vaxt keçib, amma yenə də insanları mənəvi cəhətdən saflığa dəvət etmək, mənəvi saflığı təmin etmək, xalqın içində bədxahlığı, pis yola gedənləri, cinayət edənləri, Vətəninə sədaqətli olmayanları aşkar etmək, bunları cəmiyyətdən kənarlaşdırmaq, yaxud tərbiyələndirmək – bu, bizim qarşımızda olan problemdir. Ona görə də hesab edirəm, bu ziyarətgah həmin problemlərin həll edilməsində öz rolunu oynayacaqdır.

Ümumiyyətlə, bilin, biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qururuq. Bu, müstəqil Azərbaycanın gələcək yolunun ana xəttidir, indiki ifadə ilə desək, strateji yolumuzdur. Çünki bu, xalqımızın gələcəyi üçün ən düzgün və xalqımızı səadətə aparan ən ağıllı yoldur. Biz bu yolu seçmişik və bu yolla gedirik. Ancaq bununla bərabər, biz demokratik, dünyəvi, sivilizasiyalı dövlət quraraq, bütün bəşəri dəyərlərdən istifadə edərək,

ümumbəşəri dəyərlərin xalqımız üçün və milli mentalitetimiz, mənəviyyatımız üçün uyğun cəhətlərini götürüb tətbiq edərək heç vaxt dinimizdən, dini adət-ənənələrimizdən ayrıla bilmərik və imtina da edə bilmərik.

Ona görə burada ziddiyyət yoxdur. Əksinə, çox qarşılıqlı münasibətlər var. Bu baxımdan, Azərbaycanın Prezidenti kimi mən Azərbaycanda dinin inkişafını təmin etmək üçün nə lazımdır edirəm və bundan sonra da edəcəyəm. Dinimizin bizə tövsiyə etdiyi və qoyduğu bütün adət-ənənələrdən səmərəli surətdə, həyatımızı daha da inkişaf etdirmək üçün istifadə etməliyik.

Buna görə də indi ocaqların yaranması, onların daha da abadlaşdırılması işini, lazımi tədbirlərin görülməsini əhəmiyyətli hesab edirik. Çoxunu xalq özü, xeyriyyəçi insanlar edir, amma dövlət də bir tərəfdən buna dəstək verir, digər tərəfdən də imkanı dairəsində nə lazımdır edir. Məsələn, Bibiheybət məscidinin bərpası bizim üçün tarixi əhəmiyyəti olan bir hadisədir. Çünki Bibiheybət ziyarətgahının Azərbaycanın və bütün İslamın tarixində hansı yer tutduğunu siz yaxşı bilirsiniz.

Şübhəsiz ki, vaxtilə təkcə xalqımıza qarşı yox, bütün İslam dünyasına qarşı böyük bir cinayət edilib – o məscid partladılıb, dağıdılıb və o ziyarətgah pozulubdur. Amma buna baxmayaraq, insanlar Bibiheybət ziyarətgahını heç vaxt unutmayıblar. Doğrudur, qadağan olduğuna görə oraya əvvəlki kimi ziyarətlər olmayıb, ancaq o, müqəddəs bir yer kimi yaşayıb və yaşayacaqdır. İndi isə bizim vəzifəmiz Bibiheybət məscidini bərpa etmək, daha da inkişaf etdirmək və oranı – əsrlərdən bəri yaşamış ziyarətgahı yenidən əvvəlki, bəlkə ondan da yuxarı səviyyəyə qaldırmaqdır ki, təkcə Azərbaycan xalqı, müsəlmanları üçün yox, həqiqətən bütün dünya müsəlmanları üçün ziyarətgah olsun.

Ona görə də məscidin bərpası üçün mənim dövlət tərəfindən vəsait ayırmağım təsadüfi bir şey deyildir. Mən lazım olan vəsaiti ayırmışam, açıq deyirəm, əgər lazım gəlsə, bundan sonra da ayıracağam ki, Bibiheybət məscidi bərpa olunsun. Mənə söz veriblər ki, iyun ayında hazır olacaqdır. Şübhəsiz, sonra onu lap yüksək səviyyəyə qaldırmaq üçün əlavə nə işlər görmək lazımdırsa, bunu edəcəyik. Mən elan etmişəm, bu, mənim şəxsi himayəm altındadır. Mən də bunu həm Azərbaycanın Prezidenti, həm də bir müsəlman, vətəndaş kimi özümün vəzifəm hesab edirəm və yerinə yetirəcəyəm.





Şüvəlan, Mərdəkan Azərbaycanın gözəl guşələrindən biridir. Burada çox gözəl insanlar yaşayır. Bu insanların ən böyük xüsusiyyətlərindən biri də odur ki, onlar bizim milli, dini ənənələrimizi həmişə yaşadıblar. Bu, bu yerlərin xüsusiyyətidir. Bəzi yerlərdə bəlkə bu xüsusiyyət belə deyil, amma Şüvəlan, Mərdəkan bu barədə çox fərqlənir. Ümumiyyətlə, bura Azərbaycanda təbiətin gözəl, mənzərəli yeridir, çox fədakar insanları var. Ona görə də təkcə burada yaşayanlar yox, bizim hamımız, o cümlədən mən də bu yerləri sevirik. Ümumiyyətlə, indi Əzizbəyov rayonu deyilən ərazini əhatə eləyən bütün bu yerlər – ya qəsəbədir, yaşayış yeridir, ya kənddir, fərqi yoxdur, adını nə cür deyəcəksən, – Azərbaycanın həqiqətən gözəl yerləridir. Məsələn, indi mənə "Əli ayağı"nın medalını təqdim etdilər, çox məmnunam. Oraya ziyarətimi çox məmnuniyyətlə xatırlayıram. Təəssüf edirəm ki, bunu gedib orada ala bilməmişəm, burada təqdim etdiniz. Amma sizə söz verirəm ki, oranı bir daha ziyarət edəcəyəm, mütləq gələcəyəm. Nardaran pirinə də mütləq gedəcəyəm. Bütün bu yerlər bizim üçün – müsəlmanlar, azərbaycanlılar üçün çox əziz yerlərdir. Bundan sonra bizim də vəzifəmiz ondan ibarətdir ki, bu yerləri mühafizə edək, saxlayaq, abadlaşdıraq, inkişaf etdirək ki, insanlar bu yerlərdən daha da səmərəli istifadə edə bilsinlər.

Burada hörmətli dostlarım respublikamızın həyatına aid olan bəzi məsələlər haqqında da öz fikirlərini dedilər. Çox sağ olun, mənim fəaliyyətim, gördüyüm işlər haqqında dediyiniz müsbət sözlərə görə sizə təşəkkür edirəm. Mən çox məmnunam və bir daha sizə bildirmək istəyirəm ki, həyatımın mənası və məqsədi xalqa xidmət etməkdir. Bilirsiniz, Allah hər adama bir qismət verir. Biri görürsən istedadlı olur, yazıçılıqla məşğul olur, biri bəstəkarlıq edir, biri başqa sənəti seçir, biri alimlik edir. Allah mənə

də bu işi qismət eləyib, yəni xalqın qayğısına qalmaq. Bilirsiniz, məsələn, dövlət işi, yaxud da siyasət – bunlar hamısı birlikdə elə bir şeydir ki, əgər həqiqətən insan özünü belə bir peşəyə, işə həsr edirsə. bunlar bir peşə kimi insanın özünü yaşatmaq məqsədi daşımır. Deməк, əgər sən böyük dövlət işinə, böyük siyasətə girişirsənsə, bundan öz şəxsi məqsədin üçün istifadə edəcəksənsə, bu, nəticəsiz olacaqdır. Amma bu addımı xalqa xidmət etmək, xalqın qeydinə qalmaq, xalqa qayğı göstərmək üçün, Vətəninin problemlərini həll etmək üçün atırsansa, onda şübhəsiz ki, müvəffəq ola bilərsən.

Allah mənim də həyatımı belə gətirib, tale belə gətirib ki, gənc vaxtlarımdan bu işlərlə məşğul olmuşam. Bu da mənim həyatımın həm mənasıdır, həm də məqsədidir. Görünür, mənim başqa bir sənətim ola bilməyəcək, həyatımın sonuna qədər bununla məşğul olacağam. Xüsusən, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bu, daha da çox lazımdır. Azərbaycan üçün dövlət müstəqilliyini əldə etmək, – o şəraitdə ki, bunu əldə etdik, – elə bir çətin şey deyildi. Çünki Sovetlər İttifaqı dağıldı və o dağılanda respublikalar istəsə də, istəməsə də müstəqil olmalı idi. Bəzi respublikalar istəmirdilər müstəqil olsunlar, amma məcbur oldular. Bəziləri deyirdi "Yox, biz Moskvasız yaşaya bilmərik", amma müstəqil olmağa məcbur oldular. Bir var ki, məsələn, hansısa bir xalq hansısa istibdaddan, müstəmləkəçidən xilas olmaq üçün döyüşür, mübarizə aparır, qan tökür və xilas olur, – belə hallar tarixdə çoxdur. Bir də var ki, tarixin prosesləri, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində bu xoşbəxtlik bizə nəsib olubdur.

Bu, böyük nemətdir, – biz bunu qiymətləndirməliyik, – şübhəsiz ki, tarixi hadisədir. Əgər son bir neçə əsrlik tariximizi təhlil etsək, bu, yeganə haldır. 1918-ci ildə də istiqlal bəyannaməsi verildi, biz müstəqillik elan etdik və Xalq Cümhuriyyəti yarandı, 23 ay fəaliyyət göstərdi. Bu da nədən oldu? O vaxtlar, Birinci Dünya müharibəsindən sonra, ümumiyyətlə, dünyada və xüsusən Avropada və Rusiyada vəziyyət çox qarmaqarışıq oldu. Bunların nəticəsində 1917-ci ilin fevral inqilabında Rusiyada 300 il hakimiyyətdə olan Romanovlar sülaləsi, Romanovlar evi dağıldı. Bundan sonra, 1917-ci ilin Oktyabr inqilabında isə bolşeviklər hakimiyyəti ələ keçirdilər, yeni bir ideologiya əsasında yeni quruluş yaradılmağa başlandı. Bu zaman Rusiyada vəziyyət o qədər qarmaqarışıq idi ki, onun ayrı-ayrı regionlarında proseslər daha əvvəlki kimi çar istibdadı tərəfindən idarə oluna bilmirdi.





Bu fürsətdən istifadə edib Zaqafqaziyada Azərbaycan, Gürcüstan, Ermənistan əvvəl istədilər bir Zaqafqaziya dövləti yaratsınlar, çox mübahisə apardılar. Azərbaycan nümayəndələri də tərəfdar idilər ki, müstəqil Zaqafqaziya dövləti yaratsınlar. Ancaq sonra bir yola gələ bilmədilər və Gürcüstan öz müstəqilliyini bəyan etdi. Ondan sonra Ermənistan və Azərbaycan da öz müstəqilliyini bəyan etdilər. Yəni biz o vaxt da öz müstəqilliyimizi keçmiş Rusiyanın, çar Rusiyasının ərazisində gedən ictimai-siyasi proseslər və cürbəcür hərbi münaqişələr nəticəsində əldə etməyə imkan tapdıq. Xalq Cümhuriyyətini yaradan insanlar o vaxt bu fürsətdən istifadə etdilər və onların bu fəaliyyəti çox yüksək qiymətə malikdir. Ona görə də, siz bilirsiniz ki, mən fərman vermişəm və bu il may ayının axırına qədər tədbirlər gedir, ilk Azərbaycan Demokratik Respublikasının – Xalq Cümhuriyyətinin 80 illik yubileyini qeyd edəcəyik. Bu, bizim üçün tarixi hadisədir. Mən yenə də deyirəm, 1920-ci ildə müstəqillik əldən getdi və 1991-ci ilin sonunda Sovetlər İttifaqı dağılarkən biz yenidən müstəqillik əldə etdik.

Bəli, müstəqillik bizim üçün böyük nemətdir, bizə Allah-Təala tərəfindən bəxş edilmiş böyük sərvətdir, biz bunu qorumalı, saxlamalıyıq. Ancaq bunu qoruyub saxlamaq asan deyil, çox çətindir, çox mürəkkəbdir. Bizim üçün xüsusən ona görə çətindir ki, əgər keçmiş Sovetlər İttifaqına daxil olmuş başqa respublikalar müstəqillik alandan sonra onların içərisində böyük bir hadisə yoxdursa, bizdə hələ müstəqilliyi almamış, 1988-ci ildə Ermənistan Azərbaycana hücum edərək Dağlıq Qarabağı əlimizdən almaq istəyib və müharibə gedibdir. Bunun nəticəsində torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İş-

ğal olunmuş torpaqlardan bir milyon soydaşımız didərgin düşüb, qaçqın vəziyyətində yaşayır. Ona görə də başqa respublikalardan fərqli olaraq, müstəqilliyi qoruyub saxlamaq bizim üçün çox çətindir. Amma nə qədər çətin olur olsun, biz bunu saxlamalıyıq və bu tarixi şansı heç vaxt əlimizdən verməyəcəyik və verməməliyik. Ona görə də həyata keçirdiyimiz bütün başqa tədbirlərlə bərabər, şübhəsiz ki, xalqımızın, cəmiyyətimizin birliyi çox vacibdir. Məsələn, Ermənistan-Azərbaycan hərbi münaqişəsində Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinin səbəbi bir onda deyil ki, o vaxt Azərbaycanın gücü Ermənistandan az olubdur. Yox. Doğrudur, Ermənistana kömək edənlər çox olub, o cümlədən Rusiya da Ermənistana çox kömək edib, başqa ölkələr də kömək ediblər. Azərbaycana kömək edənlər az olub, yaxud da heç olmayıbdır. Ancaq bununla yanaşı, Azərbaycanın daxilində didişmə, çəkişmə və cürbəcür qüvvələrin – hakimiyyət nə olduğunu anlamayan, amma hakimiyyət iddiasında olan qüvvələrin hakimiyyət mübarizəsi, vuruşması ölkəmizin daxilində sabitliyi pozub və Ermənistan silahlı qüvvələri bundan istifadə edərək çox asanlıqla bizim torpaqların bir qismini işğal ediblər.

Bunu bilmək, dərk etmək lazımdır. Ona görə də son illər bizim gərgin əməyimizin nəticəsində Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik həyatımızın ən əhəmiyyətli cəhəti və əldə etdiyimiz ən böyük nailiyyətdir.

Əgər son illərin nailiyyətlərindən desək, biri odur ki, biz atəşi dayandırdıq. Bir aydan sonra dörd il tamam olacaqdır ki, Ermənistanla Azərbaycan arasında atəş dayanıb və biz danışıqlar aparırıq ki, münaqişəni sülh yolu ilə həll edək. Bu müddətdə biz Azərbaycanın daxilində ictimai-siyasi vəziyyəti sabitləşdirə bilmişik, buna nail olmuşuq. Bu, çox böyük nailiyyətdir.

İndi ictimai-siyasi sabitliyi qoruyub saxlamaq müstəqilliyi qorumaq, müstəqilliyi daimi etmək üçün əsas amildir. Bilməlisiniz və arxayın olun ki, bu sabitliyi necə ki yaratmışıq, yaratdığımız kimi də qoruyacağıq. Heç kəsə heç vaxt imkan verməyəcəyik ki,





böyük çətinliklərlə, zəhmətlə, böyük əməklə əldə etdiyimiz bu sabitliyi pozsun. Heç kəsə yol verməyəcəyik, bunu hamı bilsin.

Ancaq iş onda deyil ki, təkcə sabitlik olsun. Bizə lazımdır ki, cəmiyyətimizdə birlik, qarşılıqlı anlaşma olsun. Biz demokratik cəmiyyət yaradır, demokratik dövlət qururuq. Əgər belə deyiriksə, demək, belə bir qərar qəbul etmişik. Bu nə deməkdir? O deməkdir ki, burada cürbəcür fikirli adamlar, cürbəcür partiyalar, cəmiyyətlər ola bilər və onların fikri bir-biri ilə üst-üstə düşməz. Bu, demokratiya deməkdir. Bizim bütün hakimiyyət, dövlət orqanları da demokratik prinsiplər əsasında yaranmalıdır. Biz bunu təmin etmişik, edəcəyik. Məsələn, 1995-ci ildə Konstitusiyanı qəbul etmişik. Bunun özü Azərbaycanda demokratiyanın böyük bir nailiyyətidir. 1995-ci ilin noyabrında ilk dəfə demokratik prinsiplər, çoxpartiyalı sistem əsasında parlament seçmişik. Orada cürbəcür partiyalar var, müxalifət də, hakimiyyətə bağlı olan qüvvələr də var. Bu özü demokratiyanın yaranması deməkdir. Biz demokratiyanı yaradırıq və bundan sonra da yaradacağıq.

Ancaq demokratiyanı təhrif etmək olmaz. Siz ki, indi bəzi adamlar haqqında fikirlər deyirsiniz, onlar demokratiyanı təhrif etmək cəhdi göstərənlərdir. Demokratiyanı təhrif etmək olmaz, sağlam demokratiya olmalıdır, demokratiya həqiqi demokratik prinsiplər əsasında qurulan bir sistem olmalıdır.

Bu baxımdan ayrı-ayrı qüvvələr – siz burada prezident seçkilərini xatırlatdınız, – prezident seçkilərində iştirak etmək istəyirlər və prezident olmaq arzusuna düşürlər. Bu təbiidir, buna təəccüblənmək lazım deyildir. Çünki biz demokratiyanı inkişaf etdirmək üçün hətta özümüz bundan ötrü geniş şərait yaratmalıyıq. Geniş şərait yaratmalıyıq ki, bizim cəmiyyətdə olan potensial, yəni siyasət işi ilə məşğul olmaq potensialı daha da aşkar olunsun və üzə çıxsın, onlar Azərbaycanın siyasi həyatında sağlam fikirlərlə iştirak edə bilsinlər. Buna özümüz şərait yaratmalıyıq və bilin ki, bir prezident kimi, mən buna şərait yaradıram və bundan sonra da yaradacağam.

Əlbəttə ki, bu gün Azərbaycanda Heydər Əliyev Prezidentdir, müəyyən bir vaxtdan sonra başqa bir adam prezident olacaqdır. Bu dünyada heç kəs əbədi, daimi deyil, heç kəs bu dünyanı tutub axıra qədər qalmayacaqdır. Bu, təbii bir şeydir. Ancaq mənim arzum nədir və başa düşürəm, sizin də arzunuz nədir – qeyri-sağlam qüvvələrin Azərbaycanda hakimiyyəti ələ keçirməsinə yol verilməsin. Məsələn, məni çox istəyən dostum dedi ki, Sizə alternativ yoxdur. Mən isə hesab edirəm ki, gərək mənə bir çox alternativ olsun, - mən belə istəyirəm – alternativ olsun. Amma nədir alternativ? O demək deyil ki, kimsə yerindən qalxıb deyir "mən alternativəm". Həqiqi alternativ, layiqli alternativ olsun. Əgər alternativ olmasa, demək, cəmiyyətimizdə, dövlətçiliyimizdə boşluq əmələ gələ bilər. Bu boşluğa imkan vermək olmaz. Alternativ olmalıdır.

Mən hətta bizim incəsənət xadimləri ilə – müğənnilərlə, bəstəkarlarla və yazıçılarla danışanda həmişə deyirəm ki, siz gərək çalışasınız işinizin davamçıları olsun. İncəsənət xadimləri bu barədə bir az qısqanc olurlar, bəziləri hesab edir ki, qoy onlardan savayı heç kəs olmasın, elə onlar qalsınlar. Amma mən isə bir azərbaycanlı kimi, həmişə fikirləşirdim ki, məsələn, bizim böyük müğənnimiz Bülbüldən sonra kim olacaq, Bülbülsüz necə yaşayacağıq? Yəni bundan sonra Bülbül kimiləri, bəlkə Bülbüldən daha yüksəyə qalxan olmalıdır. Məsələn, Rəşid Benbudovdan sonra bir neçə Rəşid Benbudovlar dünyaya gəlməlidir. Gəlir və gələcəkdir. Heç kəs də başqa cür düşünməsin. Bizim Azərbaycan xalqı o qədər istedadlı xalqdır ki, bunu əsrlər boyu nümayiş etdiribdir. Əgər belə olmasaydı bizim bu qədər böyük-böyük şairlərimiz olardımı? Bizim X əsrdə də böyük şairimiz var, XII əsrdə də, XV əsrdə də, XVI əsrdə də, XVIII, XIX, XX əsrlərdə də nə qədər böyük şairlərimiz var. Bu, xalqın istedadını göstərir. Eləcə də bəstəkarlarımız, müğənnilərimiz.

Beləcə də siyasətçilərimiz olmalıdır ki, birinin yerini o birisi tuta bilsin, yer boş qalmasın, demokratik, hüquqi dövlət ki qururuq – o, daimi olsun, yaşasın, bizim müstəqilliyimizi yaşada





bilsinlər. Ona görə bu baxımdan mən çox istəyirəm ki, Azərbaycanda prezident olmaq üçün bir yox, bir çox layiqli adamlar olsun və onların arasında sağlam rəqabət getsin. Xalq da kimə daha çox etibar edərsə, kim xalqa daha çox sədaqət göstərə bilərsə və xalq onu daha çox tanıya bilərsə, gələcəkdə ona səs versinlər. Bu barədə mənim siyasətim bundan ibarətdir və fikrim də belədir.

Yenə deyirəm, Azərbaycanın bu dövləti hər bir insan üçün əzizdir. Ancaq razılaşın ki, mənim üçün daha çox əzizdir. Çünki bu dövlətin yaranmasında mən nə qədər zəhmət çəkmişəm. Bu dövlətin yaranması Azərbaycanın elə təkcə müstəqilliyi ilə başlamayıbdır. Dövlətin yaranması çoxdan, XX əsrin əvvəlindən başlayıbdır. Mən 1969-cu ildə Azərbaycanda rəhbər seçiləndən ta indiyə qədər, demək olar, otuz ilə yaxın bir zamandır ki, bu dövlətin dərdini çəkirəm, xalqın həyatı ilə yaşayıram. Hətta o illərdə ki, məni həyatdan təcrid etmişdilər. Moskvada ev dustağı etmişdilər, heç bir yerə buraxmırdılar, yaxud da oradan gəldim buraya, Bakıda qoymadılar yaşayım, getdim üç il Naxçıvanda yaşadım – o illərdə də Azərbaycan xalqının dərdi ilə yaşamışam, Azərbaycan xalqının aqibəti məni narahat eləyibdir.

Bəli, mən xeyli bir müddət respublikaya rəhbərlik etmişəm. Moskvada böyük bir dövlətin başçılarından biri olaraq yenə də respublikaya qayğı göstərmişəm. İndi gəlmişəm, beş ildir ki, müstəqil Azərbaycana rəhbərlik edirəm. Belə olan halda mənə Azərbaycanın bu günü və gələcəyi hər bir vətəndaş üçün olduğundan qat-qat qiymətlidir və qat-qat vacibdir. Ona görə mən düşünürəm, Azərbaycanın gələcəyi haqqında düşünürəm. Mən də istəyirəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdə olsun. Amma bunun üçün indi siyasət aləminə çıxan, siyasətlə məşğul olmaq istəyən adamlar və hakimiyyət iddiasında olan adamlar gərək – Azərbaycanda bir söz var, – papağını qoysun qabağına və dərindən fikirləşsin: sən bu suya girə bilərsən, ya girə bilməzsən? Əgər girə bilməyəcəksənsə, girmə, girib boğulacaqsan.

Amma təəssüf ki, – bu da dövrün xəstəliyidir, - bizdə bir çox adamlar var, heç fikirləşmir ki, bu suyun dərinliyi nədir, üzə bilə-

cək, ya bilməyəcək. Elə hesab edir ki, "keçərəm, üzərəm". Belələri var. Hesab edirəm, xırda-xırda bunlar da sahmana düşəcəkdir. Bilirsiniz, keçid dövrü ki deyirik, bunun bir çox xəstəlikləri var. Bir xəstəlik ayrı-ayrı siyasətbazların meydana çıxması və siyasət aləmində yeri olmayan adamların gəlib böyük bir siyasi vəzifə tutmasıdır. Bir xəstəlik iqtisadiyyatımızda olan xəstəliklərdir. İndi bazar iqtisadiyyatına keçir, özəlləşdirmə aparırıq, insanların psixologiyasında dəyişiklik olmalıdır. Bu da bir xəstəlik dövrüdür. Bunlar hamısı təbiidir. Bu da keçəcəkdir.

Bilirsiniz, respublikaya həqiqətən rəhbərlik etmək üçün təkcə istək, iddia azdır. Gərək biləsən, – sənin biliyin, bacarığın, elmin, savadın buna çatır, yoxsa yox? İkincisi, bunun üçün sənin iradən, xarakterin varmı? Üçüncüsü, sənin təcrübən, idarəçilik təcrübən varmı? Bilirsiniz, Azərbaycanın bu keçid dövründə idarəçilik təcrübəsi olmayan adam Azərbaycana rəhbərlik edə bilməz. Nəinki rəhbərlik edə bilməz, rəhbər vəzifədə ola bilməz. Bunu bütün başqa respublikaların təcrübəsi də göstərir, Avropadakı ölkələrin təcrübəsi də göstərir, keçmiş Sovet İttifaqında olan ölkələrin təcrübəsi də göstərir. Bunları düşünmək lazımdır. Əgər bunlar doğrudan da varsa, sən qabağa gəl. Amma bunlar yoxdursa, bir sənin ambisiyan var, bir də istəyirsən necə olur olsun hakimiyyətə gələsən. Nədən ötrü hakimiyyətə gəlmək istədiyini özün də bilmirsən. Amma bir az dərindən baxsan, məlum olur nədən ötrü gəlirsən – hakimiyyətin verdiyi imkanlardan öz şəxsi məqsədin üçün istifadə etməkdən ötrü. Başqa bir şey yoxdur. Belələri, əlbəttə ki, gəlib alternativ ola bilməzlər. Alternativ olacaqlar, amma həqiqətən ola bilməzlər.

Bizim sizinlə vəzifəmiz ondan ibarətdir ki, cəmiyyətimizdə dəyərli insanları tapıb üzə çıxaraq və inkişaf etdirək. Ən əsas xüsusiyyətlərdən biri də ondan ibarətdir ki, bu işə girmək istəyən adamlar gərək mənəvi cəhətdən sağlam olsunlar. Mənəvi cəhətdən sağlam olmayan adam böyük dövlət işi ilə məşğul ola bilməz. Mən bunu keçən illərdə də görmüşəm. Bilirsiniz ki, mənim





həyatım çoxillikdir, təcrübəm də çoxdur. Çoxlarını görmüşəm, vaxtilə çoxlarını sınamışam. Mənəvi cəhətdən möhkəm olmayan, saf, təmiz olmayan adam böyük dövlət işində işləyə bilməz.

Ona görə də mən hesab edirəm ki, qarşıdan gələn oktyabr ayında Azərbaycanda prezident seçkilərinin demokratik, ədalətli, sərbəst keçirilməsi üçün bütün şərait yaradılacaqdır. Arzusunda olan adamlar gəlib bu seçkidə iştirak edə bilərlər və bu işə yararlı olub-olmamasından asılı olmayaraq, əvvəlcədən, nə təhər deyərlər, heç kəsə damğa vurulmayacaq ki, sən yararlısan, yaxud yararsız. Seçki qanununun şərtlərinə uyğun olaraq kim daxil ola bilirsə, gəlib bu seçkidə iştirak edəcəkdir. Xalq da öz sözünü deyəcəkdir. Bizim Azərbaycanda yaxşı bir söz var: xalqın gözü tərəzidir. Hesab edirəm ki, oktyabr ayında bu tərəzi çox dəqiq işləyəcəkdir.

Mən sizə çox təşəkkür edirəm ki, gördüyüm işləri qiymətləndirirsiniz və mənə dəstək verirsiniz. Bilirsiniz, böyük siyasətlə məşğul olan, xüsusən dövlət başında olan bir adam daim xalqın dəstəyini hiss etməli və xalqın rəyi ilə hesablaşmalıdır. Biliyimə, bacarığıma, təcrübəmə, səriştəmə görə mən nə qədər böyük imkanlara malik insan olsam da, daim cəmiyyətin, xalqın rəyi ilə hesablaşmışam, hesablaşıram və həmişə hesablaşacağam. Xalqın dəstəyi də mənə həmişə çox ruh verir.

Mən bu gün şəhərdən buraya gələrkən bir çox yerlərdə qurban kəsildi. Rayonların vətəndaşları, sakinləri bayram münasibətilə yola çıxmışdılar, məni salamlayırdılar. Bunların hamısında məni ən çox sevindirən səmimilikdir. Bilirsiniz, süni şeylər tez görünür və süni işlərə girişmək lazım deyildir. Mən süni şeylər istəmirəm. Amma xalqın səmimi münasibəti mənim üçün çox əhəmiyyətlidir. Xalqın, cəmiyyətin tam əksəriyyətinin mənə olan səmimi, xoş münasibətini daim hiss edirəm. Bu, mənə daha da güc-qüvvət verir və gecə-gündüz çalışmaq üçün məni ruhlandırır.

Bilirsiniz ki, mənim həyatım gecə-gündüz işləməkdir, başqa bir şey yoxdur. İşləyirəm nə üçün – xalqımızı daha da yaxşı gün-

lərə çıxarmaq üçün. Əmin olun ki, xalqımız daha da yaxşı günlərə çıxacaqdır. Bizim apardığımız iqtisadi siyasət, dünyanın böyük neft şirkətləri ilə imzaladığımız müqavilələr və ümumiyyətlə, dünya iqtisadiyyatı ilə sıx inteqrasiya olmağımız, insanlara sərbəstlik verilməsi, sahibkarlığın, şəxsi mülkiyyətin yaranması respublikanın iqtisadi həyatını tamamilə dəyişdirir. Bunu özünüz görürsünüz. Ona görə də mən tam ümidvaram ki, bir neçə il keçəcək, Azərbaycanın iqtisadi, sosial vəziyyəti çox yaxşılaşacaqdır. Mənim də məqsədim ondan ibarətdir ki, birinci, buna nail olum, bunu təmin edim, ikinci də o günləri özümüz görək. Güman edirəm ki, sizinlə birlikdə biz o günləri görəcəyik.

Mən Qurban bayramı münasibətilə sizi bir daha təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik, bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun, salamat qalın.





## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

Əziz həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram.

Vicdan və dini etiqad azadlığının bərqərar edildiyi müstəqil Azərbaycan Respublikasında tarixən olduğu kimi, bu gün də dünya dinləri qarşılıqlı hörmət və etimad prinsipləri əsasında fəaliyyət göstərir. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları kimi, respublikamızın pravoslav xristianları da müstəqil, demokratik dövlət quruculuğu prosesində yaxından iştirak edirlər. Azərbaycanda fəaliyyət göstərən Rus Pravoslav Kilsəsi insanların dini-əxlaqi dəyərlərə tapınması və mənən saflaşması yolunda layiqli xidmətlər göstərir.

Qoy müqəddəs Pasxa bayramı ailələrinizə sevinc, süfrələrinizə xeyir-bərəkət gətirsin.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 18 aprel 1998-ci il*

## YƏHUDİ XALQININ MÜSİBƏTİ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN YƏHUDİ İCMASINA MÜRACİƏT

Hər il yəhudi xalqının müsibəti günü dərin hüznlə yad edilir.

Yəhudi xalqı İkinci Dünya müharibəsi zamanı amansız ayrı-seçkiliyə və soyqırımı siyasətinə məruz qalmışdır. Altı milyon günahsız insan yalnız etnik mənsubiyyətinə - yəhudi olduğuna görə faşizmin qanlı irticasının qurbanına çevrilmişdir.

Azərbaycan xalqı tarixən bəşəri humanizmə və insanpərvər təbiəti etibarilə hər cür ayrı-seçkiliyə qarşı olmuş, başqa xalqların müsibətinə seyrçi və etinasız münasibət bəsləməmişdir. Bunu respublikamızda yaşayan bütün xalqlar, o cümlədən yüzillər boyu müxtəlif səbəblərdən ölkəmizə pənah gətirərək məskunlaşmış yəhudi əhalisi də yaxşı bilir.

Yəhudi xalqının müsibəti günündə bütün günahsız qurbanların əziz xatirəsini yad edərək xatırlatmaq istəyirəm ki, belə milli faciələr Azərbaycan xalqının taleyindən də yan keçməmişdir. Son iki əsrdə xalqımıza qarşı ardıcıl soyqırımı və etnik təmizləmə siyasəti yeridilmiş, amansız kütləvi qırğınlar törədilərək azərbaycanlılar indi Ermənistan adlandırılan tarixi dədə-baba torpaqlarımızdan deportasiya edilmişdir. 1988-ci ildən başlayaraq Qarabağda erməni vəhşəti və vandalizmi bu günümüzün acı gerçəkliyidir. Belə oxşar tarixi tale xalqlarımızı dərd ortağına çevirmiş və bir-birinə daha da yaxınlaşdırmışdır.

Bu hüznlü gündə kədərinizə ürəkdən şərik olduğumu bildirir, dünyanın bütün sülhsevər qüvvələrini və mütərəqqi bəşəriyyəti indi də davam edən faşizmə, irqçiliyə, hər cür soyqırımı aktına qarşı qəti mübarizəyə çağırıram.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 22 aprel 1998-ci il*





## BİBİHEYBƏT MƏSCİD-ZİYARƏTGAH KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*12 iyul 1998-ci il*



Əziz bacılar, qardaşlar, həmvətənlər!

Əziz azərbaycanlılar, müsəlmanlar!

Mən sizi bu bayram – böyük peyğəmbər Həzrət Məhəmməd əleyhissəlamın mövlud günü münasibətilə təbrik edirəm, sizin hamınıza cansağlığı, Azərbaycan xalqına, müsəlmanlarına, bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq və səadət arzulayıram.

Bu gün – bizim üçün əziz olan bu bayram günü Azərbaycan Respublikasının, məmləkətinin, xalqının həyatında tarixi hadisə baş verir. Biz bu gün XIII əsrdə – 700 il bundan əvvəl müqəddəsliyə çevrilmiş bu yerdə toplaşmışıq. Bu müqəddəs yer Həzrət




İmam Museyi-Kazimin qızı, Həzrət İmam Rzanın bacısı Həzrət Hökumənin torpağa verildiyi, onun məzarı olan yerdir. Bu yer o vaxtdan indiyə qədər müsəlmanlar üçün müqəddəs yerə çevrilmişdir. Müsəlmanlar bu yeri əsrlər boyu ziyarət etmiş, burada özlərinə ümid, pənah axtarmışlar, dinimizə, Allaha, peyğəmbərə dua etmişlər, özlərini yaşatmışlar, İslam dininə sadiq olduqlarını nümayiş etdirmişlər.

Biz fəxr edirik ki, İslam aləmində İslamı təmsil edən müqəddəs yerlərdən Azərbaycanda da vardır. Bu müqəddəs yerlərdən ən əzizi bu gün bizim toplaşdığımız yer – Həzrət Hökumənin qəbri, bu qəbrin üzərində vaxtilə ucaldılmış məscidin olduğu yerdir. Allaha, İslama sadiq olan insanlar 700 il bundan öncə bu yerdə böyük məscid qurub-yaradıblar və bura Allah evi, İslam məbədi kimi daha da geniş vüsət alıbdır, ziyarətgah olubdur. Müsəlmanlar, azərbaycanlılar 700 il həmin məsciddə, bu müqəddəs yerdə Allaha dua ediblər, mənəvi arzularını yerinə yetiriblər, öz dininə, əxlaqına, mənəviyyatına sadiq olduqlarını nümayiş etdiriblər. İslam dini insanlarda ən yüksək keyfiyyətləri tərbiyə etməyə, formalaşdırmağa çalışıbdır.







İslam dininin dəyərləri ən yüksək mahiyyətə malik olan mənəvi dəyərlərdir. Bu dəyərləri yaşatmaq, insanları bu uca, ülvi, yüksək mənəvi dəyərlər səviyyəsində tərbiyə etmək Allahın buyruğudur, Məhəmməd peyğəmbərin qoyduğu yoldur. Mən böyük iftixar hissi ilə deyirəm ki, Azərbaycan xalqı bütün çətinliklərdən, bəlalardan, məhrumiyyətlərdən, zillətlərdən keçərək öz dininə, mənəvi dəyərlərinə daim sadiq olmuşdur və heç bir hakimiyyət, hökmdar bunların məhv edilməsinə nail ola bilməmişdir.

Burada, bu müqəddəs yerdə vaxtilə ucaldılmış məscid 60 il bundan öncə vəhşicəsinə partladılmışdır, dağıdılmışdır. Bizim mənəviyyatımıza, mənəvi dəyərlərimizə, İslam dininə böyük zərbə vurulmuşdur. Xalqımız, millətimiz bu zərbəni almış, yaralanmış, əzilmiş, ancaq məhv, məğlub olmamış, bu zərbələrə, yaralara, əziyyətlərə dözməyə məcbur olmuşdur. Lakin bütün bunlara dözərək, bu müqəddəs yerə olan sevgisini, məhəbbətini, inamını qəlbində yaşatmış və bu müqəddəs yerdən heç vaxt ayrılmamışdır.

Təsadüfi deyildir ki, bu məscid dağılandan sonra da və burada Həzrət Hökumənin qəbri bərbad olunandan sonra da insanlar bu yeri özləri üçün daim nicat, ümid yeri etmişlər. Bu yer bir ziyarətgah kimi öz mənasını heç vaxt itirməmişdir. İnsanlar buraya daim ziyarətə gəlmişlər, burada öz arzularını yerinə yetirmişlər, yaşamaq, yaratmaq üçün bu müqəddəs yerdən dayaq, mənəvi güc, dəstək almışlar.

Bunlar hamısı Azərbaycan xalqının tarixidir. Bizim böyük və qədim tariximizin şanlı, şöhrətli, uğurlu səhifələri ilə yanaşı, faciəvi səhifələri də vardır. Bunlar hamısı bizimdir. Biz uğurlarımızla, qələbələrimizlə, xalqımızın tarix boyu nailiyyətləri ilə fəxr etmişik. Bunlar xalqımızı yaşadıb, irəliyə aparıb, inkişaf etdirib. Ancaq biz tariximizin əziyyətli, əzablı, faciəvi səhifələrinə, mərhələlərinə isə dözmüşük. Bizim qeyrətli, namuslu ata-babalarımız, əcdadlarımız bütün bunlara dözüblər, ancaq sınmayıblar,





sarsılmayıblar, iradələrini itirməyiblər, ümidlə yaşayıblar. Bizim mənəvi, İslami dəyərlərimiz nəsillərdən-nəsillərə keçib, yaşayıb, gəlib bu günlərə çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir.

Biz bu müqəddəs yerdə abadlıq işləri aparılmasına və vaxtilə dağıdılmış məscidin bərpa edilməsinə bir neçə il bundan öncə başlamışıq. Xalqımız bu məscidin bərpa edilməsini daim istəyibdir. Xüsusən sovet hakimiyyəti dağılandan, Azərbaycanda dövlət müstəqilliyi əldə edildikdən, dinimizə – İslam dininə azadlıq veriləndən sonra insanlarda bu istək, arzu daha da artmışdır. Bu gün bizim üçün böyük tarixi hadisə, böyük xoşbəxtlikdir ki, bu arzularımızı artıq yerinə yetirə bilmişik. Burada, bu müqəddəs yerdə gözəl, bu müqəddəs yerə, İslamiyyətə, millətimizə, xalqımıza layiq bir məscid tikib yarada bilmişik. Bu, tarixi hadisədir. Bu bayram günü biz buraya bu məscidin yenidən doğulması, dünyaya gəlməsi münasibətilə toplaşmışıq. Bu, Azərbaycan müsəlmanları, güman edirəm, bütün İslam aləmi üçün ikiqat bayramdır. Məhəmməd peyğəmbərin mövlud günü Həzrət Hökumənin, Həzrət imamlarımızın övladlarının, qohumlarının qəbirləri üzərində əzəmətli bir məscidin açılması ikinci bir bayramdır.

Əziz bacılar və qardaşlar, mən bu tarixi hadisə münasibətilə sizi, bütün Azərbaycan xalqını, İslam aləmini təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu məscid bundan sonra daha da genişlənəcək, böyüyəcək və xalqımıza, İslamiyyətə əbədi, sonsuz olaraq öz xidmətini göstərəcəkdir.

Mən bu məscidə, binaya baxarkən həddindən artıq sevinirəm. Azərbaycanda böyük memarlıq abidələri vardır. Bu abidələri xalqına, millətinə əsrlər boyu xidmət edən insanlar yaradıblar. Azərbaycanda – Bakıda və respublikamızın başqa şəhərlərində, yaşayış məntəqələrində son onilliklərdə böyük və gözəl memarlıq abidələri yaradılmışdır. Bu məscid öz xüsusi mənası və məqsədi ilə bərabər, xalqımızın böyük, dəyərli və gözəl memarlıq abidəsidir. Beləliklə, bu məscid Azərbaycanın mədəniyyət,

memarlıq tarixini zənginləşdirən bir abidədir. Bunun mənası həqiqətən çox yüksəkdir. O, həm ibadətgahdır, həm müqəddəs yerdir, həm ziyarətgah, həm də gözəl memarlıq abidəsidir. Ümid edirəm ki, gələcək nəsillər bizim bu tarixi, xeyirxah işimizi layiqincə qiymətləndirəcək, bu məscidi, ziyarətgahı əbədi yaşadacaq və bu müqəddəs yerin başına keçmişdə gəlmiş bəlalara bir daha yol verməyəcəklər.

Mən, eyni zamanda, bu məscidin tikilməsini Azərbaycan xalqının, müsəlmanlarının və İslam dininə hörmət edən, sadiq olan insanların ümumxalq işi kimi qiymətləndirirəm. Məhz ümumxalq işi nəticəsində biz bu gün bu gözəl ibadətgahın, abidənin önünə toplaşmışıq. Ona görə də bu işdə az da, çox da zəhmət göstərənlərin hər biri hörmətə layiqdir.

Mən hamıya təşəkkür edirəm. Xüsusən Bakı Şəhər İcra Hakimiyyəti və icra hakimiyyətinin başçısı burada çox işlər görübdür. Mən onların gördüyü işləri xüsusi qiymətləndirirəm, onlara təşəkkür edirəm. Burada çalışan və bu müqəddəs yerə daim bağlı olan, həqiqətən vətənpərvərlik, öz millətinə sədaqət nümayiş etdirən Hacı Hikmətin xidmətlərini xüsusi qiymətləndirirəm. Mən hər dəfə buraya gələndə Hacı Hikməti nəinki görmüşəm, onun bu yerə nə qədər bağlı olduğunun, xidmət göstərdiyinin şahidi olmuşam. Ona görə də hörmətli Hacı Hikmətə və burada onunla bərabər fəaliyyət göstərən din xadimlərinin hamısına hörmətimi, ehtiramımı və təşəkkürümü bildirirəm.

Görülən bu işlər Azərbaycanda İslam dininin bugünkü vəziyyətini nümayiş etdirir. Bugünkü vəziyyət də odur ki, ölkəmizdə, cəmiyyətimizdə İslam dini özünəməxsus yer tutubdur, mənəvi dəyərlərimizin daşıyıcısı və mənəvi qida mənbəyi kimi xalqımıza xidmət edibdir. Hesab edirəm ki, bu, xalqımızın son illərdə ən gözəl nailiyyətlərindən biridir.

Bizim doğma İslam dinimizin Azərbaycanda öz yerini tapmasında, insanların öz dini etiqadlarını yerinə yetirməsində, dinimizin özünəməxsus yer tutmasında Qafqaz Müsəlmanları İdarəsi və bu idarənin başçısı, Şeyxülislam Hacı Allahşükür Paşazadənin xüsusi xidmətləri vardır. Azərbaycanın Prezidenti kimi, mən bu fürsətdən istifadə edərək, respublikamızda İslam dininin bütün tələblərinin yerinə yetirilməsi və insanlara vicdan azadlığının verilməsi sahəsində əldə etdiyi nailiyyətlərə, Azərbaycanda xalqın, millətin birliyinin, həmrəyliyinin möhkəmləndirilməsində, inkişaf etməsində göstərdiyi fəaliyyətə görə Qafqaz Müsəlmanları İdarəsinə və onun rəhbəri hörmətli Hacı Allahşükür Paşazadəyə hörmət və ehtiramımı bildirirəm, ona və onun ətrafında olan bütün din xadimlərinin hamısına təşəkkür edirəm. Əziz qardaşlar, gələcək işlərinizdə sizə uğurlar arzulayıram.

Bu müqəddəs yeri, ziyarətgahı abadlaşdıran, bu məscidin inşasında iştirak edən hər bir kəs öz millətinə, xalqına, dininə böyük xidmət göstərmişdir. Ona görə mən memarlara, inşaatçılara, fəhlələrə, hətta burada kərpic üstünə bir kərpic qoyan hər bir kəsə təşəkkür edirəm, minnətdarlığımı bildirirəm.

Bu gün gördüyümüz məscid, bu böyük abidə bizi sevindirir. Ancaq hesab edirəm ki, bu, işin birinci mərhələsidir. Bu tikinti layihə üzrə tamamilə başa çatmalıdır. Bu gün bəyan edirəm ki, bu məscid kompleksinin layihə üzrə tam sona çatmasını mən öz himayəmə götürürəm və onun həyata keçirilməsi üçün bütün imkanları yaradacağam, lazım olan yardımları edəcəyəm.

Bu müqəddəs yerin ətrafı da ona layiq olmalıdır. Ona görə mən hesab edirəm ki, bu məscidin ətrafında adablıq işləri aparılmalıdır. Ola bilər, bu abadlıq işləri ətrafdakı bəzi binaların yerinin dəyişdirilməsi ilə əlaqədar olsun. Hesab edirəm ki, biz bu müqəddəs yeri gərək hər cəhətdən layiqli edək. Çünki artıq bu məscid tikiləndən, onun içərisində Həzrət Hökumənin və imam övladlarının qəbirlərinin yeri xüsusi müəyyən ediləndən sonra bu müqəddəs yer təkcə Azərbaycan müsəlmanları üçün yox, bütün dünya müsəlmanları üçün böyük bir ziyarətgaha çevriləcəkdir. Buraya ziyarətə gələnlərin sayı ilbəil artacaqdır.

Ona görə də, hesab edirəm ki, bu məscidin ətrafında böyük bir kompleks yaradılmalıdır. Din xadimlərimiz əgər mənim bu fikirlərimlə razılaşsalar, belə bir layihənin mənə təqdim olunmasını arzu edərdim. Mən belə bir layihənin həyata keçiriləcəyinə söz verirəm.

Biz İslam aləminin bir hissəsiyik. İslam dünyasında İslam tarixinə məxsus olan müqəddəs yerlər, ziyarətgahlar vardır. Biz fəxr etməliyik ki, bu müqəddəs yerlərdən, ziyarətgahlardan Azərbaycanda da vardır. Onların ən hörmətlisi və ən qiymətlisi bu gün bizim toplaşdığımız yerdir. Ona görə də İslam aləminin müqəddəs ziyarətgahı kimi bu yer dünyada tanınmalıdır, təbliğ olunmalıdır ki, İslam tarixi bu yerin bu gününün və keçmişinin izahı ilə daha da dolğunlaşsın. Bir də ona görə ki, İslam tarixinin hər bir müqəddəs yeri ümumi tarix kitablarında öz yerini tapsın. Bu işi də görmək lazımdır. Hesab edirəm ki, bunların hamısını etmək üçün mənim irəliyə sürdüyüm təkliflər çox lazımdır. Siz bununla razısınızmı? (*Yerdən səslər: Bəli, razıyıq*).

Əziz bacılar, qardaşlar, dostlar!

Bizim həyatımızda xoşbəxt günlər o qədər də çox deyildir. Həyatımız ağırdır, çətindir. Ancaq bu gün Allaha şükür etməliyik ki, biz xoşbəxt dəqiqələr yaşayırıq, bayram günündə bir yerə toplaşmışıq, öz peyğəmbərimizin mövlud gününü bir yerdə bayram edirik və bunu gözəl bir hadisə ilə bərabər qeyd edirik. Bu, böyük xoşbəxtlikdir.

Mən bu xoşbəxt gün, bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sizə, bütün Azərbaycan xalqına, doğma millətimizə öz sevgimi, məhəbbətimi bildirirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı bizim milli-mənəvi ənənələrimizin yaşaması üçün ən əsas zəmanətdir. Əmin ola bilərsiniz ki, Azərbaycanın dövlət müstəqilliyi indi etibarlı əllərdədir. Əmin ola bilərsiniz ki, Azərbaycan xalqının milli azadlığının, dövlət müstəqilliyinin gündən-günə möhkəmlənməsi üçün mən və bütün Azərbaycan dövləti əlimizdən gələni edirik və bundan sonra da edəcəyik. Beləliklə, biz xalqımızı yaşadacağıq, millətimizi bir millət kimi yaşadacağıq, Azərbaycan xalqının dünya xalqları içərisindəki layiqli yerini möhkəmləndirəcəyik. Dünya xalqlarını həm ölkəmizdə, həm də dünyada Azərbaycanın milli, mənəvi, dini dəyərlərinə hörmət etməyə çağıracağıq və buna nail olacağıq. Bunların hamısı üçün bizim xalqımızda milli birlik, həmrəylik lazımdır. Bu, bu gün vardır və əminəm ki, bu birlik, həmrəylik günü-gündən artacaqdır.





Mən sizi əmin edirəm ki, Azərbaycanın milli azadlığı, dövlət müstəqilliyi günü-gündən möhkəmlənəcək, sarsılmaz, əbədi, sonsuz olacaqdır.

Mən sizin hamınıza cansağlığı arzu edirəm, hər birinizə ailə xoşbəxtliyi arzulayıram. Xalqımıza, millətimizə xoşbəxt gələcək, sülh, əmin-amanlıq arzu edirəm. Sağ olun.



# "ŞÖHRƏT" ORDENLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*Prezident iqamətgahı, 21 avqust 1998-ci il*



Hörmətli xanımlar və cənablar!

Müstəqil Azərbaycan dövlətinin dövlətçilik atributlarından biri dövlətin mükafatlarıdır – ordenlər, medallar və başqa mükafatlardır.

Bildiyiniz kimi, Azərbaycan dövlətinin ordenləri, medalları təsis olunub və ötən illərdə Azərbaycanın görkəmli şəxsləri bu ordenlərlə, medallarla təltif ediliblər. Təltif olunanların əksəriyyəti Azərbaycanın mədəniyyət, elm xadimləri – ədəbiyyatda, incəsənətdə, elmdə xalq qarşısında xidmət göstərmiş, fərqlənmiş şəxslərdir.

Bu gün siz təltif olunanlara ordenlərin təqdim edilməsi mərasiminə dəvət olunmusunuz. Mən də bu şərəfli vəzifəni, yəni





ordenləri sizə təqdim etmək kimi şərəfli vəzifəni həyata keçirməyimdən çox məmnunam.

**Heydər Əliyev:** Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadəni orden alması münasibətilə təbrik edirəm. Şeyx həzrətləri, siz Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmiş və bunlara görə də bu yüksək mükafata layiq olmusunuz. Bu ordeni məmnuniyyətlə təqdim edir, sizə cansağlığı arzulayıram.

**Allahşükür Paşazadə:** Möhtərəm Prezident! Mən hesab edirəm ki, bu təltif bütün Qafqaz müsəlmanlarına, mənəviyyatımıza verilən qiymətdir. Müstəqil Azərbaycan dövlətinin rəhbərinin mənəviyyatımıza verdiyi qiymətdir. Ona görə də mən Allah-Təaladan Sizə cansağlığı, uzun ömür, başda Siz olmaqla bütün xalqımıza xoşbəxtlik arzu edirəm. Çox sağ olun.

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Sizi – respublikamızın bütün yəhudi vətəndaşlarını Yeni il bayramınız – Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı və səadət arzulayıram.

Əsrlərdən bəri ölkəmizdə məskunlaşıb yaşayan yəhudilər heç zaman Azərbaycanda təqiblərə və ayrıseçkiliyə məruz qalmamış, öz milli-mədəni özgürlüyünü qoruyub saxlayaraq respublikamızın ictimai-siyasi və elmi-mədəni həyatında yaxından iştirak etmişlər. Yəhudi həmvətənlərimiz bu gün də müstəqil dövlət quruculuğu prosesində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirir, Azərbaycanın tərəqqisi və inkişafı üçün əllərindən gələni əsirgəmirlər.

Roş-Ha-Şana yenilik, tövbə, mənəvi saflıq bayramıdır. Qoy bu bayram hamınızın həyatına xoş ovqat, ailələrinizə xoşbəxtlik və sevinc gətirsin.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 19 sentyabr 1998-ci il*





## "MÜASİRLİK VƏ DİNİ-MƏNƏVİ DƏYƏRLƏR" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSA

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Hörmətli konfrans iştirakçıları!

Sizi – paytaxtımız Bakı şəhərində təşkil olunmuş Beynəlxalq Konfransın iştirakçılarını müstəqil Azərbaycan torpağında səmimi qəlbdən salamlayıram.

Bu konfrans dövrümüzün ən aktual məsələlərinin – dini-mənəvi dəyərlərlə müasirliyin əlaqəsi, üzvi bağlılığı, müasir tərəqqi prosesində onların rolu problemlərinin müzakirəsinə həsr olunmuşdur. Dini dəyərlər hər bir cəmiyyətin siyasi, iqtisadi, sosial və mədəni inkişafı üçün möhkəm zəmin yaradan mənəvi keyfiyyətlər formalaşdırır. XXI əsrin astanasında dini fəaliyyət sahələrində gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək üçün fikir mübadiləsi aparmaq xüsusi əhəmiyyətə malikdir.

Yaşadığımız dövrün mürəkkəb və ziddiyyətli xarakteri dini-mənəvi dəyərlər məsələsinə münasibətdə dəqiq, aydın və perspektivli bir mövqeyin işlənib hazırlanmasını aktuallaşdırır. Bu mövqe xalqlarımızın əsrlər boyu yaratmış olduğu zəngin mədəni və dini-mənəvi irsdən bəhrələnməklə yanaşı, zamanın ruhu və tələbləri ilə səsləşən prinsipləri özündə əks etdirməlidir. Əminəm ki, konfransınız bütün dünyada, o cümlədən ümumqafqaz evimizdə sülhün və əmin-amanlığın bərqərar edilməsi yolunda mühüm bir addım olacaqdır.

Müsəlman alimləri və din xadimlərinin dinimizin mühüm aktual problemlərini müzakirə etməsi sırf elmi-dini əhəmiyyəti ilə yanaşı, müsəlman dövlətləri və xalqları arasında qardaşlıq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə, İslam həmrəyliyinin daha da möhkəmlənməsinə xidmət edir. Dünyanın bir çox yerlərində İslam dininin əsaslarına, müsəlman ölkələrinə qarşı

qərəzli həmlələrin aparıldığı müasir dövrdə bu, xüsusilə böyük əhəmiyyət kəsb edir. Belə görüşlər həmçinin müştərək tarixi, mədəni, mənəvi ənənələrə malik olan, oxşar tale və inkişaf yolu keçmiş ölkələrimizin qarşısına çıxan problemlərin həllində bir-birimizin təcrübəsindən səmərəli istifadə etmək imkanlarını genişləndirir.

Biz bu yüksək Forumun respublikamızın paytaxtı Bakı şəhərində keçirilməsini Azərbaycanın, Qafqaz Müsəlmanları İdarəsinin artmaqda olan beynəlxalq nüfuzuna verilən yüksək qiymətin ifadəsi kimi qəbul edirik. Konfransda müzakirə olunan məsələlər siyasi müstəqillik əldə etdikdən sonra keçid dövrünün bir çox çətinlikləri, o cümlədən milli və dini dəyərlərin bərpası problemləri ilə də üzləşmiş respublikamız üçün olduqca aktualdır. Bu görüş müsəlman qardaşlarımızın Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində öz doğma yurdlarından didərgin düşmüş bir milyondan artıq qaçqın və məcburi köçkün Azərbaycan vətəndaşının problemləri ilə həmrəyliyinin də parlaq təzahürü sayıla bilər. Ümidvaram ki, konfrans bütün İslam aləminin həmrəylik, dostluq və qardaşlığının daha da möhkəmləndirilməsi işinə öz layiqli töhfəsini verəcəkdir.

İnsan mənəviyyatının saflaşması, dinimizin dini-mənəvi dəyərlərinin bərqərar olması işinə yönəldilmiş nəcib fəaliyyətinizdə uca Allahdan sizə böyük nailiyyətlər, konfransın işində uğurlar arzulayıram.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 29 sentyabr 1998-ci il*





## BAKIDA KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA VƏ QAFQAZ MÜSƏLMANLARI QURULTAYINDA NİTQ

*30 sentyabr 1998-ci il*




Möhtərəm Şeyxülislam həzrətləri! Hörmətli konfrans, qurultay iştirakçıları, hörmətli qonaqlar, əziz qardaşlar!

Sizi – "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusunda beynəlxalq konfransın iştirakçılarını, Qafqaz müsəlmanları X qurultayının nümayəndələrini səmimi qəlbdən salamlayıram. Beynəlxalq konfransın və qurultayın işinə uğurlar arzulayıram!

Mən çox məmnunam ki, bu iki böyük beynəlxalq tədbir məhz Azərbaycanda, onun paytaxtı Bakı şəhərində keçirilir. Dünya müsəlmanlarının "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusuna həsr etdikləri beynəlxalq konfrans çox böyük əhəmiyyətə malikdir. Qafqaz müsəlmanları özlərinin X qurultayını keçirirlər. Beynəlxalq konfrans və qurultay adı daşıyan bu iki yüksək

səviyyəli tədbirin məhz Azərbaycanda, Bakı şəhərində keçirilməsi müstəqil Azərbaycana, onun bugünkü imkanlarına və Azərbaycanın dövlətçiliyinə göstərilən diqqət və ehtiram əlamətidir. Buna görə mən bütün din xadimlərinə, İslam aləminin mötəbər insanlarına, Qafqaz müsəlmanlarına təşəkkürümü bildirirəm və sizi əmin edirəm ki, həm konfransın, həm də qurultayın müvəffəqiyyətlə keçməsi üçün Azərbaycanın hökuməti, hakimiyyət orqanları əlindən gələni edəcəklər.

Əmin ola bilərsiniz ki, Azərbaycanın ciddi problemlərlə və çətinliklərlə rastlaşmasına baxmayaraq, siz bu günlər böyük qonaqpərvərlik, mehribanlıq, dostluq münasibətləri görəcəksiniz. Bu, Azərbaycan xalqının mənəvi xüsusiyyətlərindən, mənəvi dəyərlərindən biridir. Bizim xalqımız həmişə dostluğu, qardaşlığı, mehribanlığı möhkəmləndirməyə cəhd göstərmiş, insanların dini mənsubiyyətindən asılı olmayaraq onların arasında sülh və əmin-amanlıq, mehribanlıq əlaqələrinin olmasına çalışmışdır.

Ümid edirəm ki, siz bu günlər Azərbaycan xalqının bu mənəvi dəyərlərinin şahidi olacaqsınız. Beynəlxalq Konfrans həqiqətən tək İslam aləmimiz üçün yox, bütün müasir dünya üçün də vacib bir məsələnin müzakirəsinə həsr edilibdir. XX əsrin sonunda bəşəriyyət böyük təhlükələrlə, böyük münaqişələrlə, çətinliklərlə rastlaşıbdır. Dünyada gedən ictimai-siyasi proseslər, dünyanın əksər ölkələrində demokratiyanın inkişafı, dünyanın əksər ölkələrində insanlara bütün azadlıqların verilməsi və insan haqlarının qorunması sahəsində görülən işlər və xüsusən 1948-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş İnsan Hüquqları Haqqında Ümumi Bəyannamənin 50 illiyi tamam olan bir ildə müsbət cəhətlərlə yanaşı, dünyada gedən proseslər içərisində mənfi cəhətlər, mənfi meyillər də mövcuddur.

Bunların çoxu da insanın mənəviyyatı ilə bağlıdır. Ona görə də müasir dünyada dini-mənəvi dəyərlərdən səmərəli istifadə olunması hər bir ölkə üçün, hər bir xalq üçün, hər bir din üçün çox əhəmiyyətlidir.





Məlumdur ki, bütün dinlər dünyada yüksək mənəviyyatı təbliğ edirlər. O da məlumdur ki, bəşər tarixində insanlar öz şüurunu, adət-ənənələrini və cəmiyyətlərdə yaranan qanun-qaydaları əsasən dini dəyərlərdən, dinin insanlara bəxş etdiyi keyfiyyətlərdən götürüblər.

Bu gün biz keçmiş tariximizə baxaraq böyük məmnuniyyətlə qeyd etməliyik ki, din çoxminillik bəşər tarixində həmişə müstəsna, böyük rol oynamışdır və insanlara həmişə səadət, sülh və əmin-amanlıq gətirmişdir. İslam dini yüksək mənəvi dəyərlərə malik olan bir dindir. İslam dininin bəşər mədəniyyətinə, bəşər sivilizasiyasına verdiyi töhfələr və xüsusən mənəvi dəyərlər əvəzsizdir, misilsizdir. Biz müsəlmanlar fəxr edirik ki, mənsub olduğumuz İslam dini dünyanın böyük bir hissəsini əhatə edir və bəşər tarixi boyu insanların mənəvi cəhətdən yüksəlməsinə və dünyada inkişafa, sülhün, əmin-amanlığın yaranmasına həmişə xidmət etmişdir. Ona görə də mən inanıram ki, bu gün burada işə başlayan beynəlxalq konfrans İslam dininin mənəvi dəyərlərindən müasir həyatda səmərəli istifadə olunması üçün müvafiq tövsiyələr irəli sürəcək və beləliklə, biz ölkəmizin və buraya toplaşan nümayəndələrin ölkələrinin həyatında olan çətinliklərin, problemlərin həll edilməsinə nail ola biləcəyik.

Bu konfransın xüsusən keçmişdə Sovetlər İttifaqına mənsub olan, indi müstəqil dövlət kimi yaşayan ölkələr, dövlətlər üçün çox böyük əhəmiyyəti vardır. Çünki məlumdur ki, biz 70 il kommunist ideologiyası altında tərbiyələnərək dinimizdən və dinin bizə bəxş etdiyi mənəvi dəyərlərdən məhrum olmuşduq.

Kommunist ideologiyasının bəşəriyyətə vurduğu zərbələrdən ən böyüyü 70 il müddətində dinə qarşı aparılmış təbliğat və xüsusən dinin qadağan olunması və dinin təhrif edilməsi olmuşdur. Ancaq, eyni zamanda, bu tarix onu da göstərir ki, din və o cümlədən bizim mənsub olduğumuz İslam dini o qədər qüdrətə malikdir ki, o qədər gücə malikdir ki, heç bir ideologiya, heç bir hakimiyyət, heç bir hökmdar onunla bacara bilməz və 70 illik tarix də göstərdi ki, bunu bacara bilmədi.

Doğrudur, kilsələri, məscidləri partlatdılar, dağıtdılar, dinin əleyhinə müntəzəm təbliğatlar apardılar. O dövrdə doğulmuş, həyata atılmış insanlar bəzən dinin nə olduğunu da bilmədilər və onlara təsir gücü xüsusən artıq oldu. Amma bunlara baxmayaraq insanlar, o cümlədən müsəlmanlar dini öz qəlbində yaşatdılar. Hər bir ailədə, hər bir evdə, hər bir ocaqda din yaşadı və dinin insanlara bəxş etdiyi adət və ənənələr, qanun və qaydalar yaşadı və onlar o hakimiyyət dövründə tətbiq edilən qanunlardan və yeni yaranan adət-ənənələrdən hətta güclü oldu. Çünki din və xüsusən bizim İslam dini çoxəsrlik tarixi boyu özündə elə gözəl xüsusiyyətlər formalaşdırmışdır ki, bizim üçün müqəddəs olan Qurani-Kərim, Həzrət Məhəmməd peyğəmbərin müsəlmanlara göstərdiyi yol və verdiyi tövsiyələr insanların daxili mənəviyyatına o qədər uyğun olmuşdur, insanlar üçün o qədər faydalı olmuşdur və insanların həyatında o qədər müsbət rol oynamışdır, insanları o qədər səadətə çatdırmışdır ki, bu adət-ənənələr, bu dini qanun-qaydalar nəsildən-nəslə yaşamış və heç bir məhdudiyyət bunun qarşısını ala bilməmişdir.

Təsəvvür edin, o dövrdə Azərbaycanda məscidlər məhv oldu, Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman ölkəmizdə cəmi 18 məscid var idi. Azərbaycanın dövlət müstəqilliyinin hələ 7 yaşı tamam olmayıbdır. Yəni tarixi nöqteyi-nəzərdən biz dövlət müstəqilliyi, milli azadlıq şəraitində kiçik bir zaman yaşamışıq. Ancaq Azərbaycan xalqı öz milli azadlığını qazanandan sonra, özünün dövlət müstəqilliyini elan edəndən sonra, öz dövlətini, öz quruluşunu özü istədiyi kimi qurandan sonra qısa bir zamanda indi Azərbaycanda 1000-dən artıq məscid var. Deməli, insanların hamısının qəlbində məscid intizarı, məscid arzusu, – məscid Allah evidir, məscid dini məbəddir, dini mərkəzdir – o qədər yaşayıbdır ki, qısa bir zamanda heç bir hökumətin, dövlətin köməyi, vəsaiti olmadan məscidlər tikilib yaradılıbdır. Bu, mənim dediklərimə əyani sübutdur. Mən bu il böyük sevinc hissi ilə Bakıda müqəddəs yer adlanan Bibiheybət məscidinin yerində yeni bir məscidin yaradılmasına nail oldum və onun açılışında iştirak etdim.





Təsəvvür edin, o yer müqəddəs yerdir. Orada VII əsrdən Həzrət Hökumənin qəbri olmuşdur. İmam Museyi-Kazımın qızı, imam Rzanın bacısı Həzrət Hökumənin qəbri üzərində vaxtilə insanlar məscid qurmuşdular və ora ziyarətgaha çevrilmişdi. Ancaq o müqəddəs yer, o insanların, tək Azərbaycandan yox, dünyanın bir çox yerlərindən də gələn müsəlmanların ziyarət etdiyi müqəddəs yer 1933-cü ildə partladılmışdır, dağıdılmışdır. Məscidi partladıblar, dağıdıblar, yerlə yeksan ediblər, amma insanlar ayağını o yerdən çəkməyiblər. Həmişə Bibiheybət piri – bizdə ona pir deyirlər – müsəlmanların ziyarət yeri olubdur, müsəlmanlar gedib orada o yerə öz ehtiramını bildiriblər, nəzirlərini veriblər və o yeri yaşadıblar.

Biz dövlət müstəqilliyini əldə edəndən sonra, 1994-cü ildə mən piri ziyarət edən kimi orada yeni, ondan da gözəl bir məscidin tikilməsi haqqında qərar verdim və məscid bu ilin may ayında açıldı. Ancaq tikilmiş o məscid daha da genişlənəcək və böyük bir ibadət, ziyarət yerinə çevriləcəkdir. Bu, mənim Azərbaycan Prezidentinin etdiyi işdir. Amma qalan bütün məscidləri insanların özləri tikiblər, dövlətin heç vəsaiti ayrılmadan. Bu onu göstərir ki, bizim İslam dininə insanlar nə qədər bağlıdır, buna nə qədər itaət edirlər və İslam dini nə qədər güclüdür.

Buna görə də hesab edirəm ki, konfransın mövzusu – "Müasirlik və dini-mənəvi dəyərlər" – bir-biri ilə bağlanmalıdır. Dini-mənəvi dəyərlərdən biz müasir həyatımızın daha da genişlənməsi və inkişaf etməsi üçün istifadə etməliyik. Dini mənəvi dəyərlər bizi geriyə çəkməməlidir, irəli aparmalıdır və mütləq belə olmalıdır. Çünki İslam dininin mənəvi dəyərləri insanları həmişə inkişafa aparmışdır, insanlara həmişə qarşıdakı uzaq və işıqlı yolu göstərmişdir və insanları daha da irəli getməyə, daha da savadlanmağa, mədəniyyətə daha da qovuşmağa, müasir həyatın bütün vasitələrindən öz həyatını, öz millətinin həyatını, xalqının həyatını daha da yaxşılaşdırmaq üçün, maddi və mənəvi vəziyyətini yaxşılaşdırmaq üçün daha da səmərəli istifadə etməyə yönəldilmişdir. Mən güman edirəm ki, siz məsələləri məhz bu istiqamətdə müza-

kirə edəcəksiniz. Əminəm ki, beynəlxalq konfrans İslam aləmində tarixi bir hadisəyə çevriləcəkdir və biz dövlət olaraq, dövlət işləri ilə məşğul olan insanlar Azərbaycanda, tək Azərbaycanda yox, bütün ölkələrdə sizin konfransın verdiyi tövsiyələrdən istifadə edərək cəmiyyətimizdə mənəviyyatı daha da yüksəltməyə nail ola biləcəyik.

Azərbaycan müstəqil dövlət olaraq demokratiya yolu ilə gedir. Biz öz müstəqilliyimizi əldə edəndən sonra Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurmaq yolunu tutmuşuq və bu yolla da gedirik. Hesab edirəm ki, Azərbaycan xalqı üçün, Azərbaycan dövləti üçün bu, yeganə və ən düzgün, ən doğru yoldur. Demokratik, hüquqi dövlət insanlara bütün azadlıqları verir və bunlar Azərbaycanın 1995-ci ildə qəbul etdiyi ilk demokratik Konstitusiyasında öz əksini tapıbdır. Dövlətimiz, Azərbaycan Konstitusiyası insanlara bütün azadlıqları verərək, o cümlədən vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab edir. Konstitusiya din azadlığını, vicdan azadlığını elan etmişdir, biz isə dövlət kimi bunun təmin olunmasının qarantıyıq, bunu öz üzərimizə götürmüşük. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik. Din ilə dövlət arasında sıx əməkdaşlıq var və hesab edirik ki, Azərbaycanda İslam dini özünün gözəl mənəvi dəyərlərini Azərbaycan vətəndaşlarına aşılayaraq, Azərbaycan vətəndaşlarını İslam dininin bu gözəl mənəvi dəyərləri əsasında tərbiyələndirərək Azərbaycan cəmiyyətini mənəviyyatca daha da yüksəldəcək və insanlar bu demokratiyanı, bütün azadlıqları doğru-düzgün başa düşəcək, onlardan səmərəli istifadə edəcəklər.

Bu, çox lazımdır, çünki ayrı-ayrı insanlar, yaxud qruplar, dəstələr demokratiyanın insanlara verdiyi bütün bu azadlıqları bəzən özbaşınalıq, qanuna itaətsizlik, qanunu pozmaq, hərc-mərclik, hətta tərbiyəsizlik kimi anlayırlar, yaxud da ki, bu cür anlamaq istəyirlər. Demokratiya yüksək mədəniyyət deməkdir. Demokratiya yüksək mənəviyyat deməkdir. Bu yüksək mənəviyyatı, yük-





sək mədəniyyəti hər bir Azərbaycan vətəndaşında yaratmaq üçün, gənc nəsli bu əsaslarda tərbiyələndirmək üçün və böyütmək üçün İslam dininin mənəvi dəyərləri çox gərəklidir.

Bu münasibətlə Qafqaz müsəlmanlarının X qurultayının keçirilməsini də mən çox əhəmiyyətli hesab edirəm. Qafqaz həqiqətən bir-biri ilə bağlı olan dövlətlərin, ölkələrin, xalqların ümumi evidir. "Ümumqafqaz evi" şüarı çox gözəl şüardır, mən bunu dəstəkləyirəm. Cəsarətlə deyə bilərəm ki, dünyanın bəlkə heç bir guşəsində, heç bir regionunda Qafqaz kimi çoxmillətli, çoxdinli və rəngarəng bir region, bir bölgə tapmaq mümkün deyildir. Bizim Qafqaz ərazi cəhətdən kiçik bir yerdir. Bizim o qədər böyük ərazimiz yoxdur. Ancaq eyni zamanda, Qafqaz gözəl təbiətə, çox yüksək məğrur dağlara, gözəl çaylara, bulaqlara, gözəl meşələrə, dünyada təbiətin yaratdığı ən böyük gözəlliklərə malik olan yerdir. Qafqazın xüsusiyyəti bir də ondan ibarətdir ki, burada əsrlər boyu müxtəlif millətlərə, müxtəlif dillərə mənsub olan insanlar bir ailədə yaşamışlar.

Doğrudur, keçmişdə də münaqişələr olmuş, davalar olmuşdur, ancaq keçmiş tariximizin əsas hissəsi sülh və əmin-amanlıq şəraitində keçmişdir. Ona görə də Qafqazı parçalamaq, Qafqaz xalqlarının içərisində təfriqə yaratmaq, iğtişaş yaratmaq cəhdləri bizim hamımızı narahat edir və məlumdur ki, bu, "Ümumqafqaz evi" üçün zərərlidir və bundan heç bir xalq xeyir götürməyəcəkdir.

Eyni zamanda, o da məlumdur ki, Qafqazda olan xalqların, millətlərin, insanların əksəriyyəti İslam dininə mənsubdur və İslam dini Qafqazda böyük mənəvi gücə malikdir, İslam dini Qafqazda böyük hörmətə malikdir. Qafqazın adət-ənənələrindən biri ondan ibarətdir ki, Qafqazda həmişə ağsaqqala hörmət olubdur. Bu, bizim İslam dininin xüsusiyyətlərindən biridir. Cəmiyyətdə seçilən adama, cəmiyyətdə mötəbər din xadiminə, özündə yüksən mənəvi dəyərləri cəm edən insana, müdrik insana, dünyagörmüş insana, ağsaqqal insana həmişə hörmət olub, ehtiram olub və onun da sözünə həmişə baxıblar. Xüsusən gənc-

lər, cəmiyyətin başqa hissəsi. Bu, gözəl adət-ənənədir. Başqa yerlərdən, başqa diyarlardan, Şimaldan, Qərbdən Qafqaza gələn qonaqlar bəzən bizim bu xüsusiyyətimizə təəccüb edirlər, bəzən də heyran qalırlar. Xatirimdədir, 70-ci illərdə mən Azərbaycanda rəhbər olan zaman Azərbaycana cürbəcür qonaqlar gəlirdilər. Onlar ayrı-ayrı məntəqələrə, kəndlərə, şəhərlərə gedirdilər, görürdülər ki, məsələn, bir meydanda gənclər, insanlar oturublar. Bu qonaq ora daxil olan kimi hamı ayağa qalxır. Sonra gəlib bunu mənə çox təəccüblə danışırdılar ki, bu nə gözəl adətdir! Nə gözəl ənənədir, siz buna nə cür nail olmusunuz? Mən isə deyirdim ki, biz buna nail olmamışıq. Bu, bizim xalqımızın nəsildən-nəslə keçən xüsusiyyətidir. Bu, bizim xalqımızın mənəvi dəyərləridir. Sizinlə açıq danışıram, – o vaxt deyə bilmirdim ki, bu, İslam dininin mənəvi dəyərləridir. Çünki biz hamımız o vaxtlar İslam dinini qadağan edən adamlar idik. Amma bu gün deyirəm ki, bu, həqiqətən İslam dininin bəşəriyyətə və İslam aləminə bəxş etdiyi çox yüksək mənəvi dəyərlərdir.

Siz bunları bilirsiniz. Bəlkə mən bu sözlərimlə sizi heç də təəccübləndirmirəm. Çünki bu, bizim üçün adi bir şeydir. Ancaq bunu bilməyənlər, bizim dini ənənələrimizi bilməyənlər üçün bu, qeyri-adidir. Mən belə faktları çox saya bilərəm və deyə bilərəm. Ancaq indi buna ehtiyac yoxdur. Bir faktla göstərmək istəyirəm ki, bəli, İslam dininin mənəvi dəyərləri içərisində mötəbər adama hörmət, din xadiminə hörmət, ağsaqqala hörmət həmişə cəmiyyəti tərbiyələndirib, cəmiyyətdə sabitlik yaradıbdır, cəmiyyəti düzgün istiqamətdə irəli aparıbdır. Mən bunu ona görə xüsusi qeyd edirəm ki, hətta bizim Azərbaycanda da İslam dininin inkişafı ilə yanaşı, bizim konstitusiyamızın, qanunlarımızın verdiyi azadlıqları, demokratiyanı təhrif edən insanlar öz doğma atasını belə bəzən təhqir edirlər, hesab edirlər ki, insan azaddır, insan istədiyini edə bilər, ona görə də ağsaqqalı da təhqir edə bilər, öz doğma atasını da təhqir edə bilər, başqasını da təhqir edə bilər. Bizim içimizdə bunlar da var.





Məhz buna görə də mən hesab edirəm ki, müasir dünyada, xüsusən bizim Qafqazda dini-mənəvi dəyərlərdən geniş istifadə olunması Qafqazda, hər bir ölkədə inkişafı təmin edəcək, ictimai-siyasi sabitliyin yaranmasına kömək edəcək, sülhün, əmin-amanlığın yaranmasına kömək edəcəkdir. Bizim hamımızın, Qafqazda yaşayan insanların ən ali məqsədi Qafqazda sülhün, əmin-amanlığın təmin olunmasıdır. Təəssüflər olsun ki, XX əsrin son onilliyində Qafqaz, deyə bilərəm ki, dünyanın bütün başqa bölgələrindən fərqli olaraq bu münaqişələr içərisində çapalayır, boğulur. Birinci münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana torpaq iddiası, Dağlıq Qarabağı ədalətsiz olaraq əlinə keçirib özünə birləşdirmək cəhdi ilə başladı və sonra bu, Ermənistanla Azərbaycan arasında müharibəyə çevrildi.

On ildir ki, bu münaqişə, sonra müharibə davam edir. Biz böyük itkilər verdik. Azərbaycan xalqı şəhidlər verdi. Müxtəlif səbəblərdən, o cümlədən o vaxt sovet hökuməti rəhbərliyinin Ermənistana xüsusi köməyi və qayğısı nəticəsində və başqa dövlətlərin – mən bu gün açıq deyə bilərəm ki, dini fərqi nəzərə alaraq, – Ermənistana daha çox kömək etməsi nəticəsində və Azərbaycanın özünün içərisində buraxılmış müxtəlif səhvlərin nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı, Azərbaycan vətəndaşı, müsəlman zorla çıxarılıbdır, yerindən-yurdundan didərgin düşübdür. Onlar çadırlarda yaşayırlar, ağır vəziyyətdə yaşayırlar.

İşğal olunmuş torpaqlarda yaranmış hər bir şey dağıdılıbdır, viran olubdur – məktəb də, xəstəxana da, mədəniyyət evi də, fabrik də, zavod da. Eyni zamanda, İslam dininin müqəddəs yerləri də, məscidlər də dağıdılıbdır, qəbiristanlar da dağıdılıbdır. Böyük bir ölkənin – Azərbaycanın, müsəlman bölgəsinin bütün mənəvi-dini dəyərləri dağıdılıbdır, viran edilibdir. Bu, şübhəsiz ki, vəhşilikdir, barbarlıqdır. Belə vəhşilik dünyanın bəlkə də heç bir yerində olmayıbdır. Ancaq bu həqiqətdir.

Bütün bunlara baxmayaraq, Azərbaycan öz mənəvi köklərinə sadiq olaraq, mənəvi dəyərlərinə sadiq olaraq yenə də Qafqazda sülhün yaranmasına çalışır və məhz buna görə də dörd il bundan öncə, 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəs sazişi imzalanıbdır. Dörd ildən artıqdır ki, atəş yoxdur, qan tökülmür, ancaq sülh də yoxdur və işğal olunmuş torpaqlar işğal altında qalır və oradan zorla çıxarılmış insanlar da 5-6 ildir ki, çadırlarda yaşayırlar.

Buna baxmayaraq, biz məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq, danışıqlar aparırıq və bu gün bəyan edirəm ki, Ermənistan – Azərbaycan müharibəsinin, münaqişəsinin sülh yolu ilə həll olunması üçün Azərbaycan bundan sonra da öz səylərini qoyacaqdır. İnanıram ki, vəziyyət belə davam edə bilməz, sülh yaranmalıdır. Ancaq onun əsas şərti bundan ibarətdir ki, işğal olunmuş torpaqlar erməni silahlı qüvvələrindən azad olmalıdır, oradan zorla çıxarılmış azərbaycanlılar, müsəlmanlar öz yerlərinə, yurdlarına qaytarılmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağ kimi kiçik bir vilayətə, bir quruma özünüidarəetmə hüququ verilə bilər və Dağlıq Qarabağda ermənilər də, azərbaycanlılar da təhlükəsiz yaşaya bilərlər. Biz məsələnin bu şərtlərlə həll edilməsinə çalışırıq.

Ancaq eyni zamanda, Abxaziya münaqişəsi də bizi narahat edir. Gürcüstanla Azərbaycan arasında sıx dostluq, qardaşlıq əlaqələri var. Bu gün mən burada xüsusi qeyd etmək istəyirəm ki, bəzən dini mənsubiyyətlərə görə ölkələr, xalqlar arasında savaşlar, davalar, müharibələr başlayır, eyni zamanda, insanlar sülhsevər olarkən, xalqlar, millətlər sülhsevər olduğu halda dini fərq heç vaxt müharibəyə, münaqişəyə gətirib çıxarmır. Gürcüstanla Azərbaycan arasında bizim dini mənsubiyyətimizin fərqli olmasına baxmayaraq, heç vaxt münaqişə olmayıbdır. Gürcüstan-Azərbaycan dostluğu dünya xalqlarına nümunə kimi göstərilə bilər. Gürcüstanda yarım milyon azərbaycanlı müsəlman yaşayır, onlar orada Gürcüstanın bərabərhüquqlu vətəndaşlarıdır.





Azərbaycanda isə gürcülər də yaşayırlar. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır, Azərbaycanın bütün imkanlarından istədikləri kimi istifadə edə bilirlər. Ona görə də ürəyimiz ağrıyır ki, nə üçün Abxaziya münaqişəsi indiyə qədər davam edir. Şübhəsiz ki, biz öz münaqişəmizə son qoyulması kimi, Abxaziya münaqişəsinin də ləğv olunmasını istəyirik.

Çeçenistanın son illər başına gələn bəlalar, keçirdiyi həyat bizim hamımızı, bütün müsəlmanları, o cümlədən biz azərbaycanlıları incidib, narahat edibdir. Ona görə də inanırıq ki, çeçen xalqı bundan sonra sülh, əmin-amanlıq şəraitində yaşayacaqdır və çeçen xalqına qarşı keçmişdə olan təcavüz və vəhşiliklər bundan sonra təkrar edilməyəcəkdir. Biz inanırıq ki, Çeçenistanın içində də bütün insanlar, o cümlədən müsəlmanlar həmrəy olacaqlar, birlik əldə edəcəklər, Çeçenistanın xalq tərəfindən seçilmiş prezidentinin ətrafında birləşəcəklər və Çeçenistanda sabitliyin, sülhün yaranması Qafqazda sülhün, əmin-amanlığın yaranmasına çox kömək edəcəkdir.

Dağıstanda indi gedən proseslər də şübhəsiz, bizi narahat edir, çünki Azərbaycan Dağıstanla çox sıx əlaqədədir. Azərbaycanda yaşayan insanların bir qismi Dağıstan xalqlarına mənsubdur. Dağıstanda azərbaycanlılar da yaşayır. Bizim aramızda olan sərhəd tamamilə formal xarakter daşıyır, sərhəd yoxdur.

Biz əsrlər boyu bir yerdə yaşamışıq, bir-birimizlə bir yerdə olmuşuq və Allaha şükürlər olsun ki, dinimiz də birdir. İslam dini bizi həmişə birləşdiribdir, bizi həmişə bir-birimizə daha da yaxınlaşdırıbdır. Ona görə də burada heç bir ayrı-seçkilik ola bilməz – nə Azərbaycanda, nə də Dağıstanda. Azərbaycanda bizim siyasətimiz məhz bundan ibarətdir. Ona görə də Dağıstanda ictimai-siyasi vəziyyətin sabitliyi, daxili vəziyyətin sabitliyi, sülh, əmin-amanlıq olması Qafqazda sülh, əmin-amanlıq olmasının əsasını təşkil edir. Azərbaycanla Dağıstan arasındakı münasibətlər ümumqafqaz münasibətlərinə çox böyük təsir göstərir.

Biz arzu edirik ki, Dağıstanda gedən cürbəcür mənfi proseslərə son qoyulsun. Biz hamımız Dağıstan müftisinə qarşı edilən

təcavüz, terror aktından sarsıldıq. Mən onu şəxsən tanıyırdım və o, Azərbaycana rəsmi səfərə gəlmişdi, mən onunla çox maraqlı söhbətlər aparmışdım. Onun xahişi ilə biz hər il Dağıstandan həcc ziyarətinə gedən insanlara Azərbaycan ərazisində gözəl şərait yaradırıq. Hər il oradan 13-14 min Dağıstan vətəndaşı, müsəlmanlar Azərbaycanın imkanlarından istifadə edərək, Azərbaycan ərazisindən həcc ziyarətinə, Məkkəyə, Mədinəyə, Kəbəyə gedib öz müqəddəs borclarını yerinə yetirirlər. Bunların hamısını Dağıstanın müftisinin, bizim unudulmaz dostumuzun xahişi ilə və onunla əməkdaşlığımız nəticəsində edirdik. Buna görə də ona terror edilməsini pisləyirik. Bilirsiniz, din xadiminə terror etməkdən də böyük cinayət yoxdur. Hər bir cinayət bağışlanılmazdır. Amma din xadiminə, böyük bir ölkədə İslam dininin başçısına terror etmək, onu həlak etmək, onu qətlə yetirmək ən böyük cinayətdir. Biz ümid edirik ki, Dağıstanın, Rusiyanın hakimiyyət orqanları bu cinayətkarları axtarıb tapacaqlar və lazımi ölçü götürəcəklər.

Biz istəyirik ki, Şimali Qafqazda olan bütün respublikaların, ölkələrin hamısı sülh, əmin-amanlıq əldə etsinlər. Bu münasibətlə Rusiya müsəlmanları ilə Azərbaycan arasındakı əlaqələrə də mən xüsusi əhəmiyyət verirəm. Burada bizim dostumuz Ramazan Abdulatipov bəyan etdi ki, Rusiyada 20 milyon müsəlman yaşayır. Bunu bilmək lazımdır və Rusiyanın hakim dairələri bununla hesablaşmalı və öz siyasətində bunu nəzərə almalıdırlar.

Keçmişdə sovet hakimiyyətinin, kommunist ideologiyasının vurduğu zərbələrdən biri də bu idi ki, bu din tamamilə qadağan edildiyinə görə harada insanların hansı dinə mənsub olduğu bilinmirdi. Məsələn, müttəfiq respublikalarda, tutaq ki, Azərbaycanda, yaxud Orta Asiyada bilinirdi ki, burada əhalinin əksəriyyəti müsəlmanlardır. Amma Rusiyada nə qədər muxtar respublikalar vardı, vilayətlər vardı. Elə Şimali Qafqazın özündə hamısı İslam dininə etiqad bəsləyirlər, müsəlman dininə mənsubdurlar. Amma sovet hakimiyyəti onlarla hesablaşmırdı. Bu da keçmiş hakimiyyətin, keçmiş ideologiyanın tarix qarşısında ən böyük günahlarından biridir.





Güman edirəm ki, Rusiyanın hakim dairələri keçmiş Sovetlər İttifaqında buraxılmış səhvlərdən nəticə çıxaracaq və onlara yol verməyəcəklər. Mən bunu xüsusi qeyd edirəm, çünki Rusiya həmişə bəyan edir ki, o, keçmiş Sovetlər İttifaqının beynəlxalq aləmdə varisidir. Biz də bununla hesablaşırıq. Əgər bugünkü Rusiya keçmiş Sovetlər İttifaqının varisidirsə, Sovetlər İttifaqında, xüsusən milli münasibətlər sahəsində, Rusiya ərazisində yaşayan ayrı-ayrı millətlərə mənsub olan insanlara qarşı buraxılan səhvlər artıq bu gün və gələcəkdə buraxılmamalıdır.

"Qafqaz evi"ni yaratmaq üçün, Qafqazı sülhün bərqərar olduğu Qafqaz etmək üçün 1996-cı ildə mən Gürcüstanda rəsmi səfərdə olarkən Prezident Eduard Şevardnadze ilə mən, iki prezident – Gürcüstan və Azərbaycan Prezidentləri bəyanat verdik, "Qafqazda sülh" bəyanatı verdik ki, başqa ölkələr də, başqa dövlətlər də bu bəyanata qoşulsunlar və hamımız birlikdə sülhü təmin edək. Mən bu gün də bu bəyanatın vacib olduğunu bəyan edirəm, bu gün sizin irəli sürdüyünüz "Ümumqafqaz evi" təklifini də müsbət qiymətləndirirəm və hesab edirəm ki, bu iki təşəbbüsü bir-biri ilə birləşdirərək Qafqazda sülhün, əmin- amanlığın yaranmasına nail ola bilərik və nail olmalıyıq.

Xalqlarımız, Qafqazda yaşayan xalqlar və Qafqaz müsəlmanları böyük tarixə malikdirlər. Qafqaz elə bir yerdir ki, ayrıca bir kənd də özünün müstəqil dili ilə, müstəqil adət-ənənələri ilə və qədim tarixi ilə seçilir. Bunları sovet hakimiyyəti vaxtı hesaba almırdılar, saymırdılar, hamını bir hesab edirdilər. Hətta belə bir ideya vardı ki, sovet xalqı adamların yeni tarixi birliyidir. Bunu xatırlayırsınızmı? Yəqin ki, bunu dostum Abdulatipov da xatırlayır. Bilirsinizmi, ortaya əcaib bir ideya atılmışdı: sovet xalqı adamların yeni tarixi birliyidir. Şübhəsiz ki, belə bir ideya tarixin sınağından keçə bilmədi, dağıldı. Amma xalqlara, o cümlədən Qafqaz xalqlarına çox ziyan gətirdi, bizim xalqlarımızın bəzi adət-ənənələrinin ləğv olunmasına, yaxud unudulmasına gətirib çıxardı.

Ona görə də biz bu keçmiş tarixi düzgün qiymətləndirməliyik və buraxılan səhvləri aradan qaldırmalıyıq. Bunun üçün də Qafqaz müsəlmanlarının hamısının bir yerdə olması, sıx əməkdaşlıq etməsi və Ümumqafqaz məsələlərinin həll olunmasında öz səylərini göstərməsi hər bir xalq üçün əhəmiyyətlidir, bizim üçün, Azərbaycan üçün əhəmiyyətlidir, mən Azərbaycanın Prezidenti kimi bəyan edirəm ki, Azərbaycan dövləti üçün əhəmiyyətlidir.

Bu baxımdan Qafqaz Müsəlmanlarının X Qurultayını tarixi hadisə hesab edirəm. IX qurultay beş il bundan öncə keçirilibdir. Amma güman edirəm ki, o qurultay bu səviyyədə keçməyibdir. Elədirmi? Bu beş il müddətində bütün Qafqaz müsəlmanları böyük bir yol keçiblər. Bu yolun çox əzab-əziyyətli cəhətləri var, bu yol bizə böyük itkilər verib, amma bu yol hər bir Qafqaz müsəlmanını daha da irəli aparıbdır və əsas odur ki, biz öz hüquqlarımızı əldə etmişik, öz müstəqilliyimizi əldə etmişik, milli azadlığımızı əldə etmişik və öz dini adət-ənənələrimizdən istifadə edə bilərik. Beş il bundan öncə bunlar hələ indiki səviyyədə deyildi.

Ona görə də Qafqaz müsəlmanlarının X qurultayı tarixi bir hadisədir. Mən çox məmnunam ki, siz keçmiş ənənələrə sadiq olaraq bu qurultayı da Azərbaycanda, Bakıda keçirirsiniz. Siz əmin ola bilərsiniz ki, mən Azərbaycanın Prezidenti kimi Qafqaz Müsəlmanları İdarəsinə və ümumiyyətlə, Qafqaz müsəlmanlarının bütün işlərinə bundan sonra da hər türlü dəstək verməyə hazıram, hər türlü yardım etməyə hazıram.

Hesab edirəm ki, bir faktı da qiymətləndirmək lazımdır. Qafqaz Müsəlmanları İdarəsi hələ Sovetlər İttifaqı vaxtında yaranıbdır. O vaxtlar bir tərəfdən din qadağan olunmuşdu, amma digər tərəfdən, xüsusən İkinci Dünya müharibəsi qurtarandan sonra, 1945-1946-cı illərdən sonra guya dini azadlıqlar verildi və Rusiyanın patriarxına imkanlar verildi ki, o özünü göstərsin. Eləcə də Gürcüstanın patriarxına da, başqalarına da, o cümlədən Orta Asiya, Qafqaz müsəlmanlarına da imkanlar verildi. Qafqaz Müsəlmanları İdarəsi hələ o vaxtlar yaranmışdı, amma o, simvolik bir şey





idi. İndi isə Qafqaz Xalqları Ali Dini Şurası çox böyük, güclü və səlahiyyətli bir təşkilatdır və özünün X qurultayını keçirir.

Mən əminəm ki, siz bu qurultayda Qafqaz müsəlmanlarının gələcək fəaliyyəti haqqında lazımi müzakirə aparacaqsınız və müəyyən qərarlar qəbul edəcəksiniz. Bu qurultay Qafqaz müsəlmanlarının daha sıx birləşməsi üçün, bir-birinə dayaq olması üçün, bir-birinə dəstək olması üçün böyük bir mərhələ olacaqdır. Çox məmnunam ki, Qafqaz Xalqlarının Ali Dini Şurasına rəhbərlik edən əlahəzrət Şeyxülislam Hacı Allahşükür Paşazadə də ötən illərdə öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetiribdir və beləliklə, sizin hörmət-izzətinizi qazanıbdır. Siz Şeyxülislam Hacı Allahşükür Paşazadəni tanıyırsınız, onu ali bir dini xadim kimi qəbul edirsiniz, ona hörmət edirsiniz və indi onun rəhbərliyi ilə bu qurultay toplaşıbdır.

İçkeriyanın Prezidenti tərəfindən Şeyxülislam Hacı Allahşükür Paşazadəyə İçkeriya Cümhuriyyətinin ali mükafatının – ordeninin verilməsini də mən əlamətdar hadisə hesab edirəm. Bu münasibətlə sizin adınızdan və öz adımdan, Azərbaycan dövləti adından Şeyxülislam həzrətlərini təbrik edirəm. Bilməlisiniz ki, Şeyxülislam həzrətləri öz xidmətlərinə görə hələ 1994-cü ildə Azərbaycanın ali mükafatı – "Şöhrət" ordeni ilə də təltif olunubdur. İndi yeni bir cümhuriyyətin, ölkənin ali mükafatını alması münasibətilə mən onu təbrik edirəm, ona cansağlığı arzu edirəm və gələcək işlərində uğurlar arzulayıram.

Siz bu gün burada öz nitqlərinizdə, qonaqlarımız öz çıxışlarında Azərbaycanda qarşıdan gələn – oktyabrın 11-dəki prezident seçkiləri haqqında arzularınızı, istəklərinizi bildirdiniz. Bunlara görə sizə təşəkkür edirəm. Mən beş il bundan öncə demokratik prinsiplər əsasında Azərbaycanın Prezidenti seçilmişəm və məmnunam ki, mənim bu beş il müddətində etdiyim işləri həm Azərbaycan vətəndaşları görür və qiymətləndirir, həm də mən bu gün hiss etdim ki, müsəlman aləminin din xadimləri də və bizim dost, qonşu ölkələrin yüksək səviyyəli nümayəndələri də bunu qiymətləndirirlər və seçkilərdə mənə uğur arzulayırlar.

Buna görə mən sizə təşəkkür edirəm. Ümidvaram ki, Azərbaycanın seçiciləri həm keçmişdə Azərbaycan xalqı qarşısında göstərdiyim böyük xidmətlərə görə, həm də ötən beş ildə Azərbaycan xalqı qarşısında göstərdiyim böyük xidmətlərə görə mənim işimi qiymətləndirəcəklər və oktyabr ayının 11-də mənə səs verəcəklər.

Əziz dostlar, əziz qonaqlar, sizə söz verirəm ki, mən bundan sonra da həm Azərbaycan xalqının etimadını doğruldacağam, həm də sizin etimadınızı doğruldacağam. Mənim həyat yolum böyükdür.

Bilirsiniz ki, yaşım da çoxdur və bəzən olur ki, məsələn, Dağıstanda ali din xadiminə terror edildiyi kimi, mənə qarşı da belə cəhdlər göstərilir. Mən həmişə bütün o terrorçulara və cinayət yolu ilə məni məhv etmək istəyənlərə bir söz deyirəm. Deyirəm ki, bütün ömrümdə heç vaxt həyatımdan qorxmamışam, həmişə, hər yerdə cəsarətlə hərəkət etmişəm və heç vaxt düşünməmişəm ki, mənə nə olacaqdır.

1993-cü ilin iyun ayında mən Bakıya dəvət olunanda Azərbaycanda qardaş qırğını, vətəndaş müharibəsi gedirdi, Azərbaycan parçalanırdı. Mən isə – heç bir silahlı dəstəsi, ordusu olmayan bir adam – tək öz canımla odun içinə atıldım. Nə üçün atıldım? Çünki inanırdım ki, mənim arxamda xalq var və xalq məni dəstəkləyəcəkdir. Bir də ona görə ki, inanırdım ki, Allah məni indiyə qədər saxladığı kimi, bundan sonra da saxlayacaqdır.

Mən həmişə xalqa xidmət etmişəm. Mən əməlisaleh adam olmuşam. Bu gün də bu yolla gedirəm. Ona görə də öz xalqımın yolunda həyatımın son dəqiqəsinə qədər xidmət edəcəyəm və heç vaxt, heç şey məni qorxutmayıb, çəkindirməyibdir. Əgər hansı bir namərd gülləsi məni məhv edə bilərsə, mən də Azərbaycan xalqının yolunda həlak olmuş şəhidlərin biri olacağam. Ancaq əminəm ki, böyük cənabi Allah məni indiyə qədər hifz etdiyi kimi, qoruduğu kimi, bundan sonra da hifz edəcək, qoruyacaqdır və mən Azərbaycan xalqı üçün öz xidmətlərimi bundan sonra da göstərəcəyəm.





Əziz dostlar, qardaşlar, mən bu gün sizinlə burada keçirdiyim saatları, dəqiqələri özüm üçün çox qiymətli hesab edirəm. Sizdən mən çox yeni şeylər öyrəndim və əmin ola bilərsiniz ki, bundan sonra da mən öz əqidəmə, İslam dininin mənəvi dəyərlərinə sadiq olacağam və Azərbaycanda mənəviyyatın, mənəvi dəyərlərin, İslam dininin yüksək dəyərlərinin inkişaf etməsini təmin edəcəyəm.

Sizə və sizin işlərinizə bir daha uğurlar arzulayıram. Çox sağ olun.

## MİNGƏÇEVİRDƏ MƏSCİD KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*8 oktyabr 1998-ci il*



Əziz bacılar, qardaşlar!

Əziz dostlar, əziz mingəçevirlilər, əziz qarabağlılar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Mən bu gün Mingəçevirə gəlmişəm ki, Mingəçevir sakinləri ilə, sizinlə görüşüm, siz də məni görəsiniz, mən də sizi görüm.







Sizi çoxdandı görməmişdim. Ona görə də sizin üçün darıxmışdım. Mingəçevirin tikilməsində, qurulmasında, inkişaf etməsində mən vaxtilə çox zəhmət çəkmişəm. İndi mən buraya gəlib bu hündür binaları, gözəl küçələri, gözəl meydanları, gözəl yaşıllıqları görəndə sevinirəm. Çünki 30 il bundan öncə mən Azərbaycana rəhbərliyə başlayarkən biz Azərbaycanın hər yerində quruculuq işləri aparırdıq. Ancaq Mingəçevir gənc şəhər olduğuna görə, energetiklər şəhəri olduğuna görə, buraya xüsusi fikir verirdik.

Mən çox şadam ki, bizim gördüyümüz işlər yaşayır, inkişaf edir və insanlar burada yaranmış bütün imkanlardan istifadə edir, yaşayırlar. Mingəçevir indi artıq tək mingəçevirlilər üçün yox, eyni zamanda, Qarabağdan, işğal olunmuş torpaqlardan didərgin düşmüş insanların bir qismi üçün də yaşayış yeri olub-

dur. Mən çox məmnunam ki, siz, mingəçevirlilər bizim soydaşlarımızı, bacı və qardaşlarımızı, evini, yurdunu itirmiş insanları qoynunuza almısınız, onlara mehribanlıq göstərirsiniz, onlar da sizinlə birlikdə yaşayırlar.

Mən sizə bəyan edirəm ki, bunların hamısı müvəqqətidir. Şübhəsiz ki, Qarabağ azad ediləcəkdir. Şübhəsiz ki, işğal olunmuş bütün torpaqlarımız azad ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və yerindən-yurdundan zorla çıxarılmış insanlar öz yerlərinə-yurdlarına qayıdacaqlar.

Biz keçmişdə sovet hakimiyyəti dövründə yaşamışıq, sovet quruluşunda yaşamışıq, kommunist ideologiyası altında yaşamışıq. Ona görə də bizim mənəvi mənbəyimiz, mənəvi dəyərimiz olan dinimizi əlimizdən almışdılar, din qadağan olunmuşdu, bütün dini etiqadlar qadağan edilmişdi, yasaq olunmuşdu.

Ancaq 70 il belə bir şəraitdə yaşayan Azərbaycan xalqı öz doğma İslam dinindən heç vaxt ayrı düşməmişdir. Bizim dinimiz – İslam dinimiz qəlbimizdə yaşamışdır, insanlar onu yaşatmışlar və Azərbaycan kommunist ideologiyasından, sovet hakimiyyətindən xilas olandan sonra qısa bir zamanda insanlar öz qəlblərində yaşatdıqları bu hissiyyatları, dinə olan münasibəti dərhal bir fəvvarə, fontan kimi aşkar etdilər və din yenidən bizim cəmiyyətimizdə öz yerini tutdu. İslam dini indi Azərbaycanda bütün insanlar tərəfindən hər kəsin öz istədiyi kimi, vicdan azadlığından istifadə edərək yayılır və istifadə edilir. Dindarlar, Azərbaycanın xeyirxah insanları Azərbaycanın müxtəlif bölgələrində məscidlər tikirlər, insanların, vətəndaşların öz dini etiqadlarını həyata keçirməsi üçün, öz arzularını yerinə yetirməsi üçün məscidlərdə onlara lazımi şərait yaradırlar.

Mingəçevir keçmişdə şəhər olmayıbdır. Bu şəhər 50 il bundan öncə yaranıbdır. Bizim elə yerlər var ki, orada əsrlər boyu məscidlər olub, onlar dağıdılıb, yenidən tikilib. Amma burada heç bir şey olmayıbdır. Burada yaradılanların hamısı yenidir. Bəli, bu şəhərin əsası 50 il bundan öncə qoyulubdur və məscid də burada yenidir. Mən məmnunam ki, burada xeyirxah insanlar məscid də tikiblər, İslam Universitetinin filialını da yaradıblar, dərs də verirlər. Mən burada gördüm ki, gənc qızlar nə qədər gözəl danışırlar – həm dini nöqteyi-nəzərdən, həm də bugünkü mədəniyyətimizə uyğun olaraq. Onlar məni həm Azərbaycan dilində, həm də başqa dillərdə salamladılar. Bu onu göstərir ki, xalqımız təhsillənir, inkişaf edir.





Din həmişə bizim mənəvi dəyərlərimizin qoruyucusu olubdur, mənəvi dəyərlərimizi yaşadan olubdur. Mənəvi dəyərlərimizin əksəriyyəti keçmişdə İslam dininin dəyərləri əsasında, büqəddəs kitabımız Qurani-Şərifin ayələri əsasında, surələri əsasında yaranıbdır. Ona görə də dinimizə yenidən qayıtmaq, yenidən müqəddəs kitabımızın, Həzrət Məhəmməd peyğəmbərin qoyduğu yolla getmək və Qurani-Şərifin tələblərinə riayət etmək, şübhəsiz, insanları həmişə saflığa, təmizliyə, saf mənəviyyata aparır, düz yola, doğru yola aparır. Ona görə də mən burada böyük bir məscid kompleksinin tikilməsini – məscid binasının, təhsil yerinin, İslam Universitetinin filialının yaranmasını çox əlamətdar hadisə hesab edirəm və bu işin təşəbbüskarlarına, bunu yaradanlara təşəkkürümü bildirirəm. Şübhəsiz ki, indi bu cür məscidlər, dini müəssisələr insanların yardımı, insanların vəsaiti əsasında tikilir. Bu da onu göstərir ki, insanlar öz mənəvi köklərinə, keçmişinə, dininə necə sadiqdirlər. Ona görə heç kəs burada sorğu-sual etməməlidir – bu, haradan tikilib, pul haradan gəlib, haraya gedib. Əsas o deyildir. Əsas odur ki, yeni-yeni binalar tikilibdir. Əsas odur ki, Allah evi tikilibdir. Əsas odur ki, məscid tikilibdir. Əsas odur ki, burada təhsil almaq üçün bina tikilibdir. Ona görə mən bunu bəyənirəm, alqışlayıram və bu işi görənlərə təşəkkür edirəm.

Mən çox təşəkkür edirəm ki, əziz dostlar, siz – bu məscidi, kompleksi yaradanlar buranı mənim adımla bağlamısınız, hətta bura mənim adımı verirsiniz. Mən bunu özüm üçün şərəf hesab edirəm. Azərbaycan xalqını əsrlər boyu yaşadan, onu böyük bəlalardan, fəlakətlərdən qurtaran Azərbaycanın əsrlər boyu yaratdığı mənəvi dəyərlər olmuşdur. Bu mənəvi dəyərlərin də ya-

ranmasının əsasını, təməlini İslam dini təşkil edir. Bu işdə İslam dininin xüsusi rolu vardır. Odur ki, mən yeni yaranmış belə bir məscidin və kompleksin mənim adımla bağlanmasına çox məmnunam, buna görə təşəkkür edirəm.

Sizi əmin edirəm ki, mən həmişə yüksək mənəviyyat uğrunda mübarizə aparmışam, mənim həyatım saf mənəviyyat əsasında qurulubdur, mənim bütün əməllərim saf mənəviyyat əsasında qurulubdur, mənim gördüyüm işlər də saf, təmiz mənəviyyat əsasında qurulubdur. Mən Azərbaycan xalqının yüksək mənəviyyatını xalqımızın böyük sərvəti hesab edirəm. Ona görə də mən indiyə qədər buna sadiq olduğum kimi, bundan sonra da sadiq olacağam.

Sizə təşəkkür edirəm. Sizə cansağlığı arzu edirəm. Bizim xalqımızı əsrlər boyu yaşadan o böyük Allahdır. Hər birimizi yaşadan, o cümlədən məni də həyatımda böyük fəlakətlərdən xilas edən böyük Allahdır. Böyük Allahın adı ilə sizə cansağlığı, səadət, yeni-yeni uğurlar arzulayıram.





## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ SEÇİLMƏSİ MÜNASİBƏTİLƏ ANDİÇMƏ MƏRASİMİNDƏ NİTQ

*Respublika sarayı, 18 oktyabr 1998-ci il*




Andiçmə mərasimində Heydər Əliyev əlini Azərbaycan Respublikası Konstitusiyasının üzərinə qoyaraq dedi:

– Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcəyimə, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağıma, xalqa ləyaqətlə xidmət edəcəyimə and içirəm!

Sonra Prezident müqəddəs Qurani-Şərifə əl basaraq dedi:

– Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə sadiq olacağıma, onları ümumbəşəri dəyərlərlə zənginləşdirəcəyimə və inkişaf etdirəcəyimə and içirəm!

# "İSLAM SİVİLİZASİYASI QAFQAZDA" MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUNUN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*Azərbaycan Milli Elmlər Akademiyası*
*Rəyasət Heyətinin binası,*
*9 dekabr 1998-ci il*




Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, simpozium iştirakçıları!

Sizi – Azərbaycanda, Bakıda keçirilən "İslam sivilizasiyası Qafqazda" mövzusuna həsr olunmuş Beynəlxalq Simpoziumun





iştirakçılarını ürəkdən salamlayıram və sizə bu mötəbər işinizdə uğurlar arzulayıram.

Azərbaycanda İslam sivilizasiyasına, İslam mədəniyyətinin Qafqazda yerinə və əhəmiyyətinə həsr olunmuş ilk Beynəlxalq Simpozium keçirilir. Bu, Azərbaycan üçün, bütün Qafqaz üçün əlamətdar, tarixi əhəmiyyət kəsb edən bir hadisədir.

İslam Konfransı Təşkilatının nəzdində İstanbulda fəaliyyət göstərən İslam Araşdırma və Tədqiqat Mərkəzi və dünyanın başqa ölkələrində bu sahədə tədqiqat aparan elmi mərkəzlər İslamın tarixi, bəşər sivilizasiyasına verdiyi töhfələr və İslamın bəşər tarixində oynadığı rol haqqında çox dəyərli işlər görürlər. Mən keçən il İstanbulda olarkən mənə İslam Konfransı Təşkilatının İslam Araşdırma və Tədqiqat Mərkəzində olmaq və onun işi ilə tanışlıq nəsib oldu. Bizim simpoziumda iştirak edən hörmətli cənab Ekmələddin İhsanoğlu ilə birlikdə, az müddət olsa da, mən orada çox şeylər müşahidə etdim, öyrəndim. Biz Azərbaycanda da elmi simpozium keçirilməsi haqqında fikir mübadiləsi apardıq. Məmnuniyyətlə qeyd edirəm ki, belə bir simpoziumun keçirilməsi ilə əlaqədar mənim qəbul etdiyim qərar artıq həyata keçirilibdir, beynəlxalq simpozium bu gün öz işinə başlayıbdır. Ümidvaram ki, simpozium çox dəyərli işlər görəcək və Qafqazda İslam sivilizasiyasının rolunu və bu sahədə gələcək elmi-tədqiqat işlərinin proqramlarını müəyyən edə biləcəkdir.

Bu, təkcə Azərbaycan üçün yox, bütün Qafqaz xalqları, bütün İslam aləmi üçün çox əhəmiyyətli işdir. Azərbaycan dövləti və mən – Azərbaycan Prezidenti bu işi çox dəyərli hesab edirik və gələcəkdə də bu işə himayədarlıq etməyi mən öz üzərimə götürürəm.

Qafqaz dünyanın nadir xarakter daşıyan bir bölgəsidir. Qafqaz öz təbiətinə, coğrafi quruluşuna görə və Qafqazda qədim zamanlardan məskunlaşmış, min illər boyu yaşamış insanların xüsusiyyətinə, onların xarakterinə görə çox nadir bir bölgədir. Eyni zamanda, hesab edirəm ki, Qafqaz dünya xalqları üçün dünyanın çox maraqlı bir hissəsidir.

Biz qafqazlılar özümüzün qafqazlı olmağımızla fəxr edirik. Bu nə deməkdir? Qafqazın təkcə məğrur dağları, onun gur çayları, gözəl bulaqları, meşələri, gül-çiçəkləri demək deyildir. Qafqazlı olmaqla fəxr etmək Qafqaz xalqlarının tarixi kökləri ilə, Qafqaz xalqlarının bəşər mədəniyyətinə verdikləri töhfələrlə bağlıdır.

Bu baxımdan Qafqazda İslamın yayılması və inkişaf etməsi Qafqaz xalqlarının tarixinin böyük bir hissəsini təşkil edir, eyni zamanda, İslam sivilizasiyasının Qafqaz xalqlarına bəxş etdiyi dəyərli töhfələrin olmasını əks etdirir. Qafqaz xalqlarının, demək olar ki, əksəriyyəti İslam dininə itaət edir. İslamın Qafqazda yayılması tarixini siz alimlər yaxşı bilirsiniz. Mən sadəcə, bir nöqtəni vurğulamaq istəyirəm ki, Azərbaycan bu sahədə mühüm yer tutur.

Məlumdur ki, Qafqazda İslamın yayılması və inkişaf etməsi Azərbaycandan başlayır. İslam Qafqaz xalqlarına səadət, xoşbəxtlik gətiribdir, inkişaf, İslami dəyərlər gətiribdir. Bu dəyərlər – müqəddəs kitabımız Qurani-Kərimdən gələn İslami dəyərlər Qafqaz xalqlarının milli-mənəvi dəyərlərinin əsasını təşkil edibdir. Məlumdur ki, Qafqazda yaşayan xalqlar İslam dinini qəbul edənə qədər də böyük mədəniyyətə, tarixə və özlərinə məxsus adət-ənənələrə malik olmuşlar. İslamın dini-mənəvi dəyərləri Qafqaz xalqlarının qədimdən yaranmış və inkişaf etmiş mənəvi dəyərləri ilə birlikdə xalqların yüksək milli-mənəvi dəyərlərini təşkil ediblər.

Mən bu sözləri Azərbaycan xalqının tarixi əsasında söyləyirəm. Güman edirəm ki, bu fikirlər Qafqazda yaşayan, İslam dininə itaət edən başqa xalqlara da aiddir. Buna görə də mən Azərbaycanın Qafqazda İslam dəyərlərinin, İslam dininin, İslam sivilizasiyasının yayılması və inkişaf etməsində xüsusi rol oynamasının haqlı olduğunu bildirirəm. Əgər Qafqazın başqa xalqları və xüsusən Şimali Qafqaz və ondan şimalda olub İslam dininə itaət edən xalqlar İslam sivilizasiyasına qatılıblarsa, İslam dinini qəbul ediblərsə, onların yolu da məhz Azərbaycandan keçir.

Bildiyiniz kimi, Qafqaz coğrafi nöqteyi-nəzərdən Xəzər dənizi ilə Qara dəniz arasında – əgər Yer kürəsi miqyasında təsəvvür etsək – kiçik bir cığırdır. İslamın, Quranın mərkəzindən – Ərəbistandan yayılan İslam dini, İslam mədəniyyəti cürbəcür yollarla indi artıq İslama mənsub olan əraziləri əhatə edibdir. Qafqazın şimalında və ondan da şimalda olan xalqların o vaxtdan İslam dininə, mədəniyyətinə mənsub olduğunu nəzərə alsaq, bunda Qafqazın ən cənubunda yerləşən Azərbaycanın xüsusi rolu şübhəsizdir.





Azərbaycanda İslam dini VII əsrdən yayılıb və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir. Bizim çoxəsrlik İslam dövrü tariximiz zəngindir. Bu gün iftixar hissi ilə deyirik ki, Azərbaycanın İslam mədəniyyəti, İslam dini ilə bağlı olan dahi insanları – Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və bir çox digər böyük şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr vermiş və İslam mədəniyyətini zənginləşdirmişlər. Biz bunlarla fəxr edirik.

Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz İslam dininə, İslam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik.

Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda İslam dini ilə yanaşı xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlu olmalıdırlar. Dini nöqteyi-nəzərdən ədavət, münaqişə,

müharibə yolverilməzdir. Hər halda, XX əsrin sonunda və qarşıdan gələn XXI əsrdə dünyada belə hallara son qoyulmalıdır.

Bu baxımdan biz çox ürək ağrısı ilə deyirik ki, on il bundan öncə Ermənistanın Azərbaycana torpaq iddiası əsasında başladığı hərbi təcavüz böyük müharibəyə, hərbi münaqişəyə çevrilibdir. Bunun nəticəsində, indi Ermənistan adlanan ərazidən İslam dininə mənsub olan azərbaycanlılar zorla sürgün ediliblər, çıxarılıblar, yerlərindən-yurdlarından, ata-baba evlərindən, öz milli-dini, müqəddəs ocaqlarından, məscidlərindən, qəbiristanlıqlarından, tarixi abidələrindən məhrum olublar. Bu, tarixi cinayətdir və tarixi ədalətsizlikdir! Dünya Birliyi buna biganə qalmamalıdır və güman edirəm ki, biganə qalmayacaqdır.

İslam dini Qafqazın, demək olar, əksər hissəsini əhatə edib və bu gün də əhatə edir və İslam mədəniyyəti hər yerdə öz izlərini buraxıbdır. Kimlərsə bu izləri dağıtmaq, pozmaq istəsə də, bəşəriyyət buna yol verməməlidir və verməyəcəkdir. Hesab edirəm ki, bu məsələlər Bakıda keçirilən və indi işinə başlayan Beynəlxalq Simpoziumda öz əksini tapmalıdır.

Dünyada və xüsusən Avropada, Amerika Birləşmiş Ştatlarında İslam sivilizasiyasına böyük maraq var. Bu problemlərlə məşğul olan elmi mərkəzlər keçmişdə də olub, indi də var. Şübhəsiz ki, İslamın tarixi kökləri, İslam mədəniyyətinin bəşər tarixinə verdiyi töhfələr araşdırılıb, tədqiq olunub, böyük elmi əsərlər yaradılıbdır. İslam ölkələrində belə mərkəzlər var.

Ancaq bu gün mən bu fürsətdən istifadə edərək, elm xadimlərinin qarşısında öz fikrimi bildirmək istəyirəm. Hesab edirəm ki, indiyə qədər görülən işlər yetərli deyildir. Məsələn, əgər keçmiş çar Rusiyası imperiyası ərazisində, sonra Sovetlər İttifaqı ərazisində İslam mədəniyyəti haqqında araşdırmalara nəzər salsaq, çox dəyərli əsərlərlə yanaşı, eyni zamanda, subyektiv fikirlər də hökm sürür. Məndə belə təəssürat var ki, Avropa ölkələrində, o cümlədən Rusiyada keçmişdə də, indi də bəzi tədqiqatçılar İslam mədəniyyətinə, İslam dininə subyektiv hissiyyatlar nöqteyi-nəzərindən baxırlar.





Sovetlər İttifaqının mövcud olduğu 70 il ərzində onun ərazisində din yasaq, qadağan edilmiş, ateizm təbliğatı aparılmışdır. Dinə qarşı çox kəskin mübarizə aparılmış, allahsızlıq, dini inkar etmək o illərdə kommunist ideologiyasının əsasını təşkil etmişdir. Biz bu dövrü yaşamışıq və indi Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra tarixi nöqteyi-nəzərdən qısa bir zamanda dinin, o cümlədən İslam dininin nə qədər dərin kökləri olduğunu daha da çox dərk edə bilmişik. Xüsusən sovet hakimiyyəti dövründə dünyaya gəlmiş, yaşamış nəsillər bəlkə də o vaxtkı güclü təbliğatın nəticəsində dinin, bizim üçün isə ələlxüsus İslam dininin bu qədər zəngin mənəvi dəyərlərə, bu qədər dərin köklərə malik olduğunu anlaya bildirdilər. Biz özümüz də bunu anlaya bilmirdik. Mən bunu etiraf edirəm.

Ancaq qısa bir zamanda məlum oldu ki, əgər Azərbaycanda kommunist ideologiyası 70 il yox, 170 il də hökm sürmüş olsaydı, insanları İslam dinindən ayırmaq mümkün olmayacaqdı. Bu, artıq faktdır. Eyni zamanda, bu, İslam dininin nə qədər böyük gücə malik olduğunu sübut edir. Ancaq o illər – kommunist ideologiyasında, ümumiyyətlə, dinə qarşı təbliğat aparıldığı zaman İslam dininin əleyhinə xüsusi təbliğat aparılırdı.

Bilirsiniz ki, o vaxtlar mən böyük dövlət işləri ilə məşğul idim. Bəzən düşünürdüm – din dindir, nə üçün bir dinə müəyyən qədər loyal münasibət bəslənilir, o birisi dinə isə həddindən artıq düşmən münasibəti göstərilir? Bu həqiqətdir.

Mərkəzdə Kommunist Partiyası Mərkəzi Komitəsinin ateizm təbliğatında İslam dininə qarşı təbliğat xüsusi bir istiqamət təşkil edirdi və bu, xüsusi nəzarət altında idi. Sovet hakimiyyəti dövründə belə təsəvvür yaranırdı ki, sovet quruluşuna təhlükə törədən yalnız İslam dinidir, xristian dini, yaxud da sovetlər ölkəsində olan başqa dinlər bu quruluşa o qədər təhlükə yaratmır. Bu, o dövrdə mənim gözümlə gördüyüm və bir çox ideoloji sənədlərdə oxuduğum həqiqətlərdir ki, sizə çatdırıram. Kommunist ideologiyasında dinlərə münasibətdəki bu ayrı-seçkilik, dinləri

bir-birindən fərqləndirmək xətti göstərirdi ki, demək, belə çıxır, din var – yaxşı dindir, din də var – çox pisdir, bu pis din də guya İslam dinidir. Bu da o vaxt Sovetlər İttifaqında tədqiqatçılar tərəfindən olan subyektivlik meyillərini artırırdı.

Hansı dinə mənsubluğundan asılı olmayaraq, gərək tədqiqatçının özü obyektiv olsun. İslam dininə mənsub olan tədqiqatçı da gərək İslam dini haqqında obyektiv tədqiqatlar aparsın, subyektivliyə yol verməsin. Başqa dinlərə mənsub olan tədqiqatçılar da həm öz dini haqqında, həm də İslam dini haqqında tədqiqatlar apararkən gərək obyektiv olsunlar, heç bir tərəfə əyilməsinlər, heç bir subyektivliyə yol verməsinlər.

Bunları müşahidə etmiş bir insan kimi və bunları şəxsən hiss etmiş və bilmiş bir insan kimi, mənim o sözləri deməyə əsasım var. Hesab edirəm ki, indiki dövrdə təkcə Azərbaycan yox, keçmişdə Sovetlər İttifaqına mənsub olan, İslam dininə itaət edən başqa ölkələr də, o cümlədən Şimali Qafqazda olan – Rusiya Federasiyasının tərkibindəki respublikalar, yaxud Mərkəzi Asiyada olan ölkələr, müstəqil dövlətlər, yaxud da Volqa çayı hövzəsində, ətrafında yerləşən, İslam dininə mənsub olan böyük respublikalar – Rusiya Federasiyasının tərkibindəki respublikalar indi öz tarixi keçmişi haqqında, o cümlədən İslam mədəniyyəti, İslam sivilizasiyası, İslam tarixi haqqında daha doğru-düzgün, elmi cəhətdən əsaslandırılmış əsərlər yarada bilərlər.

Bu baxımdan Rusiyanın paytaxtında olan araşdırma mərkəzləri, İslam sivilizasiyası ilə əlaqədar tədqiqatlar aparan elmi mərkəzlər, Avropada, Amerika Birləşmiş Ştatlarındakı elmi tədqiqat mərkəzləri də həmişə müstəqil olmuş ölkələrlə, tutaq ki, ərəb ölkələri, başqa İslam ölkələri ilə əməkdaşlıqla yanaşı, keçmişdə Sovetlər İttifaqının tərkibində olub yeni müstəqillik əldə etmiş ölkələrin alimləri, elmi mərkəzləri ilə də gərək sıx əməkdaşlıq etsinlər.

Bu gün Moskvanın İslamşünaslıq Mərkəzinin nümayəndəsi cənab Medvedkonun çıxışı bizim hamımızın ürəyindən oldu.








Çox səmimi çıxış etdi və hiss olundu ki, İslam tədqiqatları ilə məşğul olan bir alim kimi, eyni zamanda, İslam mədəniyyətinə dərin hörmət bəsləyən insandır. Belə alimlərlə əməkdaşlıq həmişə onlar üçün də və İslam ölkələrinin alimləri üçün də çox faydalı və uğurlu olar.

Fransadan gəlmiş nümayəndə danışmağa başlayarkən, mən hesab etdim ki, o, türkcə, yəni Anadolu türkcəsi ilə danışır. Ancaq sonrakı kəlmələrindən hiss etdim ki, o, azərbaycanca danışır. Yəni İslamşünas, türkoloq olmaqla yanaşı, eyni zamanda, nitqindən görürəm ki, bu gün özünü azərbaycanşünas kimi də təqdim etdi.

Bunlar hamısı sevindirici hallardır. Hesab edirəm ki, İslam sivilizasiyası haqqında gələcək elmi tədqiqat işlərində belə əməkdaşlıq üstünlük təşkil edəcəkdir. Beləliklə, ümumiyyətlə, İslam mədəniyyətinin dünyadakı rolu, o cümlədən xüsusən İslam sivilizasiyasının Qafqazdakı rolu dəqiq, düzgün, elmi nöqteyi-nəzərdən əsaslandırılaraq elmi kitablarda, əsərlərdə öz əksini tapacaqdır.

Biz Azərbaycanda öz milli-mənəvə dəyərlərimizə söykənərək, eyni zamanda, xalqımızın elminin, mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk.

Bu, Azərbaycan üçün yeni bir hadisə deyildir. Məmnuniyyət hissi ilə demək olar ki, Azərbaycan hələ XVIII-XIX əsrlərdə və XX əsrin əvvəlindən elə bu istiqamətdə inkişaf edirdi. Bu baxımdan Azərbaycan Qafqazda və Qafqaz ətrafında, Mərkəzi Asiyada yerləşən, İslam dininə mənsub olan xalqlar içərisində öz mədəniyyətini ümumbəşəri dəyərlərlə, Avropa mənəvi dəyərləri, Avropa mədəniyyəti ilə zənginləşdirmiş ən qabaqcıl ölkədir.

Azərbaycanda hələ XIX əsrdə dünyəvi teatrın yaranması, yaxud da Avropa mədəniyyətinin təsiri altında və Avropa mədəniyyətinin dəyərləri ilə Azərbaycanın milli dəyərlərini bir-birinə bağlayan ədəbiyyat, incəsənət əsərlərinin yaranması Azərbaycanda bu meylin böyük tarixinin olduğunu göstərir.

Hesab edirik ki, bu, ölkəmizin, Azərbaycan xalqının üstünlüyüdür. Biz Azərbaycanın milli-mənəvi dəyərlərini ümumbəşəri dəyərlərlə zənginləşdirən və onların vəhdətindən doğan elm, ədəbiyyat, incəsənət əsərlərini, bunları yaradanları həmişə yüksək qiymətləndirmişik. Azərbaycanın elm, mədəniyyət tarixində belə adamlar çox görkəmli yer tutur.

Biz Nizami, Füzuli, Nəsimi kimi böyük şəxsiyyətlərlə fəxr etdiyimiz kimi, eyni zamanda, Mirzə Fətəli Axundov kimi böyük şəxsiyyətlə də fəxr edirik. Mirzə Fətəli Axundov İslam dəyərlərini ən gözəl bilən şəxsiyyətlərdən biri olubdur. O, İslam dəyərlərinə çox sadiq bir insan olubdur. Amma, eyni zamanda, o, Azərbaycanın milli-mənəvi dəyərlərini, İslam dəyərlərini ümumbəşəri, Avropa dəyərləri ilə zənginləşdirərək dahiyanə və xalqımızın inkişafına çox böyük təsir göstərmiş əsərlər yaratmışdır.

Dahi bəstəkarımız Üzeyir Hacıbəyov nə qədər milli olubsa, o qədər də ümumbəşəri olubdur. Biz bunu qiymətləndiririk. Biz heç vaxt yalnız milli, dini dəyərlərə qapılaraq, onun çərçivəsindən kənara çıxmayan, yaxud ondan kənarda heç bir şeyi





görməyən insanları, alimləri xalqın inkişafına xeyir verən adam hesab etmirik. Ancaq milli xüsusiyyətlərini qoruyub saxlayan, milli-mənəvi dəyərlərinə sadiq olan, milli-mənəvi dəyərlərini yüksək qiymətləndirən, onlarla fəxr edən, eyni zamanda, ümumbəşəri dəyərlərin xalqımız üçün faydalı hissələrini götürüb Azərbaycan ictimai, elmi, mədəni fikrini inkişaf etdirən şəxsiyyətlər Azərbaycanın mədəniyyətini, elmini bax, bu səviyyəyə gətirən insanlardır. Bu baxımdan, Azərbaycanın XIX-XX əsrlərdəki böyük şəxsiyyətlərinin yaratdığı əsərlər, gördüyü işlər, eyni zamanda, İslam sivilizasiyasının – təkcə Azərbaycanda yox, bütün Qafqazda, o cümlədən Mərkəzi Asiyada – müasir tələblərə uyğun inkişaf etməsinə böyük töhfələr vermişdir.

Mən çox məmnun oldum ki, İran İslam Respublikasının nümayəndəsi də öz çıxışında İslam dəyərləri və milli dəyərlərlə yanaşı, ümumbəşəri dəyərlərin əhəmiyyəti haqqında da çox əhəmiyyətli fikirlər ifadə etdi. Bunlar hamısı onu göstərir ki, bu mütərəqqi proses indi bütün ölkələrin aparıcı prosesidir. Azərbaycan bu tərəqqi yolu ilə keçmişdə də gedibdir, bu gün də gedir və gələcəkdə də gedəcəkdir. Biz İslam mədəniyyətinin Azərbaycan xalqı üçün əvəzsiz olduğunu qeyd edərək, eyni zamanda, dini, yaxud milli məhdudiyyət yaradan fikirləri, meyilləri və ya təklifləri qəbul etmirik. Millilik, İslamilik, ümumbəşəri dəyərlərin sintezi ilə xalqı inkişaf etdirə bilər. İndi dünyadakı bəzi mərkəzlərdə "İslam fundamentalizmi, İslam ekstremizmi, fanatizmi" haqqında da fikirlər söylənilir.

Hesab edirəm ki, bizim müqəddəs kitabımız Qurani-Şərif heç vaxt fundamentalizmin əsasını qoymayıbdır. Kimsə bu fundamentalizm, ekstremizm meyillərini İslam dinindən istifadə edərək yaradır və inkişaf etdirirsə, hesab edirəm ki, onlar İslamın əsas prinsiplərindən müəyyən qədər uzaqlaşırlar. Biz İslam mədəniyyətini, İslam mənəvi dəyərlərini müqəddəs kitabımız Qurani-Kərimdə olduğu kimi qəbul edirik. Onların təhrif olunması, əgər dini dildə desək, günahdır. Biz istəmirik ki, kimsə günaha batsın.

Mən bu fürsətdən istifadə edib bir neçə fikrimi sizə çatdırmaq istədim. Yəqin ki, siz alimlər, bu işlərin mütəxəssisləri bu barədə bu simpozium zamanı daha dəyərli fikirlər irəli sürəcəksiniz. Ancaq mənim fikirlərim də əgər sizə bu barədə müəyyən qədər əhəmiyyətli olsa, mən bundan məmnun olaram.

Bugünkü simpoziumun gedişini dinləyərək mən belə fikrə gəlirəm ki, Azərbaycan Qafqazda İslam sivilizasiyası araşdırmalarının mərkəzi ola bilər. Azərbaycanın buna haqqı da vardır. Mən nitqimin əvvəlində İslamın Qafqazda yayılmasında Azərbaycanın rolu haqqında danışdım. Tarixi faktlar onu göstərir ki, Azərbaycandan bir az şimalda olan xalqlar İslamı yalnız XVI əsrdə qəbul edibdir. Ancaq Azərbaycan xalqı, yəni bizim indi yaşadığımız bu Azərbaycan İslamı hələ VII əsrdə qəbul edibdir. Görürsünüz, qısa bir məsafədə İslamın şimala doğru yayılması üçün nə qədər vaxt lazım olubdur. Bunu araşdırmalar daha dəqiq göstərə bilər. Ancaq şübhəsiz, bunların hamısının yolu Azərbaycandan keçibdir. Əgər İslamın sərhədi bir neçə əsrdə Qafqazda Dərbəndlə məhdudlaşıbsa və İslam Dərbənddən şimala yalnız sonralar, yəni XV-XVI əsrlərdə keçibsə, bu onu göstərir ki, İslam dini Azərbaycanda nə qədər güclü olubdur. Eyni zamanda, İslam dininin şimala yayılması da o qədər asan olmayıbdır. Bu, vaxt tələb edibdir.

Bütün bunlara görə hesab edirəm ki, Azərbaycan bu sahədə Qafqazda araşdırma mərkəzi ola bilər. Əgər siz hamınız belə bir qərara gələ bilsəniz, Azərbaycanda bir mərkəz yaratmaq olar. Azərbaycan dövləti də buna himayəçilik edə, kömək göstərə bilər. Mən hər halda Azərbaycanın timsalında demək istəyirəm – bu sahədə çox böyük işlər görülməlidir. Elmi tədqiqat üçün burada geniş imkanlar vardır.

Mən bir xüsusiyyəti də qeyd etmək istəyirəm. Sovet hakimiyyəti illərində Azərbaycanın özündə demək olar ki, islamşünaslar çox az idi, bəlkə də yox idi. Bunun da səbəbini sizə deyim. Məsələn, keçmiş Sovetlər İttifaqında islamşünaslar əsasən Moskvada idilər. Çünki İslama mən dediyim həmin kommunist ideologiyası tərəfindən o qədər mənfi münasibət var idi ki, İslama mənsub olan alimlərin özləri İslamşünaslıqla məşğul olmaqdan çəkinirdilər, qorxurdular. Digər tərəfdən də hesab edirdilər ki, bu, dünya elmi üçün o qədər də əhəmiyyətli bir sahə deyildir, yaxşı olar ki, başqa bir sahə ilə məşğul olsunlar.





Məsələn, Quranın Azərbaycan dilinə çevrilməsi respublikamız müstəqillik əldə edəndən sonra, yaxud həmin ərəfədə mümkün oldu. Mən sizə açıq deyim ki, sovet hakimiyyəti vaxtı əgər Quran Azərbaycan dilinə çevrilsəydi, şübhəsiz ki, buna nəinki irad tutacaqdılar, bəlkə bundan ötrü kimisə cəzalandıracaqdılar. Amma, eyni zamanda, Quran rus dilinə tərcümə olunmuşdu. Ərəb dilini bilməyən azərbaycanlıların çoxu Quranı həmin o rus tərcüməsindən, nəşrindən götürüb oxuyurdular.

Nə üçün belə hadisə var idi, nə üçün Quran rus dilinə tərcümə olunmuşdu, ancaq Azərbaycan dilinə tərcümə edilməmişdi? Çünki Qurandan istifadə etməyi azərbaycanlılara qadağan edirdilər. Hesab edirdilər ki, Quran rus dilinə tərcümə olunubdur və guya xristianlar tərəfindən İslam dinini öyrənmək üçün lazımdır. Amma Quran Azərbaycan dilinə tərcümə olunsa, bu, azərbaycanlıların İslam dininə meylini artıracaqdır. İş burasında idi.

Amma, eyni zamanda, Xristian dininə məxsus kitabların rus dilində nəşr olunması qadağan deyildi. Elə bunun özü də Sovetlər İttifaqı zamanı müxtəlif xalqlara müxtəlif münasibət olduğunu göstərirdi. Bu səbəbdən də Azərbaycan alimləri çox az, nadir halda İslamşünaslıqla, İslam dinini öyrənməklə məşğul olurdular, bu barədə kitablar yazırdılar. Çünki hesab edirdilər ki, bu kitablar, tədqiqatlar onlar üçün qiymətli deyildir. Yenə də deyirəm, bəziləri də qorxurdular, çəkinirdilər.

Ekmələddin İnsanoğlu indi mənə deyirdi ki, rəhmətlik Ziya Bünyadov və rəhmətlik Cahangir Qəhrəmanov bu mərkəzlə neçə illər idi əməkdaşlıq edirdilər. Bu həqiqətdir. Mən bilirəm ki, onların ikisi də böyük alim kimi, İslam tədqiqatları ilə məşğul olurdular. Ancaq bunlar Azərbaycanda çox azlıq təşkil edirdilər. Onlar da böyük alim olduqlarına, başqa tədqiqatlar da apardıq-

larına görə bu tədqiqatı da aparmaqdan çəkinmirdilər, qorxmurdular. Bax, buna görə də mən hesab edirəm ki, Azərbaycanda İslamşünaslıq sahəsində XX əsr demək olar, tamam itirilibdir.

Bu işləri görmək üçün Azərbaycanda İslamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Azərbaycanın Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və elmi tədqiqat institutları bəlkə də bu sahə üçün xüsusi təşkilatlar, orqanlar, elmi mərkəzlər yaratmalıdırlar. Hər halda, mən indi qəti deyə bilmərəm. Belə təşəbbüslər olsa, mən onları dəstəkləyəcəyəm, bunlar üçün şərait də yaradacağam. Buna arxayın olun.

Yenə də deyirəm, Azərbaycan elmində böyük bir dövr ərzində biz bu işlərlə ciddi məşğul olmamışıq. Ancaq bu, təkcə Azərbaycan alimlərinin işi deyil və çətindir. İndi bizim üçün çox mötəbər mərkəz olan, İstanbulda yerləşən İslam Konfransı Təşkilatının Elmi Tədqiqat Mərkəzi, yaxud da ki, Rusiyanın Moskvada olan elmi tədqiqat təşkilatları, Avropadakı elmi tədqiqat təşkilatları ilə əməkdaşlıq edilməlidir.

Cənab Medvedkonun burada olmasından istifadə edərək demək istəyirəm ki, gərək Rusiyanın özü də bu işlərə ciddi fikir versin. Çünki Rusiyada 30 milyon müsəlman yaşayır. Bu, Rusiyanın 150 milyonluq əhalisinin böyük bir hissəsini təşkil edir. Demək, əhalinin bu hissəsini nəzərə almaq lazımdır.

Keçmişdə, sovet hakimiyyəti dövründə din qadağan edildiyinə görə kim müsəlmandır, kim xristiandır – hamısı bir idi, hamısı da sovet xalqı hesab olunurdu. Hətta xalqların adını da xırda-xırda aradan götürmək meyilləri inkişaf edirdi. "Vahid sovet xalqı", "insanların yeni tarixi birliyi" kimi terminlər var idi. Amma indi gərək Rusiya Federasiyası da düşünsün ki, bu ölkədə 30 milyon müsəlman yaşayır. Onların əksəriyyəti də yığcam şəkildə öz ərazilərində – Şimali Qafqazda, Tatarıstanda, Başqırdıstanda, başqa yerlərdə yaşayırlar.

Demək, Rusiyada da bu elmi tədqiqat işləri çox gücləndirilməlidir. Biz son iki əsrdə Rusiya ilə çox sıx bağlı olduğumuza görə, bu elmi tədqiqat sahəsində müştərək işlər də görmək olar.





Hesab edirəm ki, bu da faydalı olacaqdır. Xüsusən ona görə ki, - mən burada artıq bəyan etdim – əgər Qafqazda İslam sivilizasiyası problemlərinin tədqiqi işlərini öz üzərimizə götürsək, yəni burada bu işlərin mərkəzini təşkil etsək, demək, biz Rusiyanın elmi tədqiqat orqanları ilə sıx əməkdaşlıq etməliyik.

Hörmətli alimlər, dostlar!

Mən sizin konfransın işinə çox böyük əhəmiyyət verirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bu gün və qarşıdakı günlərdə Azərbaycanda səmərəli işlər görəcəksiniz. Şübhə etmirəm ki, Azərbaycanda yüksək qonaqpərvərlik görəcəksiniz. İnanıram ki, siz Azərbaycanın bugünkü gerçəkliyi ilə də tanış olacaqsınız. Bizim ağır, çətin problemlərimizlə yanaşı, dövlət müstəqilliyimizin dəyərli uğurları da vardır. Biz fəxr edirik ki, bütün ağır problemlərə, sosial-iqtisadi çətinliklərə, ərazimizin 20 faizinin işğal altında olmasına baxmayaraq, işğal edilmiş torpaqlardan bir milyondan artıq azərbaycanlıların zorla çıxarılmasına və onların əksəriyyətinin indi çadırlarda yaşamasına baxmayaraq, biz tariximizin gözəl bir mərhələsini yaşayırıq. Çünki dövlət müstəqilliyimizin yeddinci ili tamam olur. Ötən bu yeddi ildə Azərbaycan üçün çox hamar dövr olmayıbdır. Bu sahədə də bizim qarşımızda çoxlu çətinliklər olubdur. Biz çox böyük bəlalarla rastlaşmışıq. Ancaq əsas nəticə ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi qorunub, saxlanılıb və Azərbaycan müstəqil dövlət kimi yaşayır və bundan sonra da yaşayacaqdır.

Siz burada Azərbaycanın Avropa ilə Asiya, Qərblə Şərq arasında bir körpü olduğunu da qeyd etdiniz. Bu, həqiqətən belədir. Bu, təkcə coğrafi məna daşımır. Bu, sosial-iqtisadi və siyasi məna daşıyır. Siz bilirsiniz ki, bu il sentyabrın 7-8-də Azərbaycanda ilk dəfə qədim tarixi İpək yolunun bərpası ilə əlaqədar beynəlxalq konfrans keçirilmişdir. Bu konfransda 32 dövlətin yüksək səviyyəli nümayəndə heyətləri, o cümlədən bir çox ölkələrdən dövlət, hökumət başçıları iştirak etmişlər. 13 beynəlxalq təşkilatın nümayəndə heyəti burada iştirak etmişdir. Biz hələ orta əsrlərdə itirilmiş böyük tarixi İpək yolunun bərpası ilə əlaqədar ilk dəfə

olaraq beynəlxalq sənədlər, bəyannamələr imzalamışıq. Bu proqram artıq həyata keçirilir və biz onun nəticələrini görürük.

Ona görə də Azərbaycan öz coğrafi vəziyyətinə əsasən Qərb sivilizasiyası ilə Şərq sivilizasiyasını – həm coğrafi, həm də məzmun, mənəvi nöqteyi-nəzərdən – birləşdirən bir ölkədir. Biz bu tarixi missiyamızı da çox yüksək qiymətləndiririk. Şərqlə Qərbi, Avropa ilə Asiyanı, Xristian aləmi ilə İslam aləmini birləşdirən Azərbaycan müstəqil dövlətdir və bundan sonra da müstəqil dövlət kimi yaşayacaqdır.

Mən sizin hamınıza cansağlığı, səadət arzulayıram. Simpoziumun işinə uğurlar arzulayıram.





## "İSLAM SİVİLİZASİYASI QAFQAZDA" MÖVZUSUNDA BEYNƏLXALQ SİMPOZİUMUN İŞTİRAKÇILARININ BÖYÜK BİR QRUPU İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident sarayı, 11 dekabr 1998-ci il*

Mən böyük bir elmi toplantının, simpoziumun keçirilməsi və uğurla başa çatması münasibətilə sizi bir daha təbrik edirəm. Hesab edirəm ki, siz hamınız birlikdə çox dəyərli iş görmüsünüz. Ancaq bir daha bunu qeyd etmək istəyirəm ki, bu işin əsasını mənim İstanbulda, İslam Konfransı Təşkilatının Elmi Araşdırmalar Mərkəzində görüşüm qoyubdur. Mən o vaxt orada görülən işlər haqqında müəyyən məlumat alandan sonra və bizim hörmətli dostumuz Ekmələddin İhsanoğlu ilə ətraflı danışıqlar aparandan sonra bu təklifi, yəni mənə verilən təklifi – bu təşəbbüs bizdən deyil, bunu da etiraf etməliyəm – qəbul etdim. Məmnunam ki, bu, artıq reallaşdı və simpozium keçirildi.

Mən hesab edirəm ki, bununla böyük bir işin əsası qoyulubdur. İslam sivilizasiyası dünyanın böyük bir hissəsini əhatə edir. Onlardan bir qismi İslamın yarandığı ərazi və demək olar ki, İslamın mərkəzidir. Digər hissəsi ərəb ölkələri və Yaxın, Orta Şərq ölkələridir ki, burada İslam dini həmişə yaşayıb, həmişə inkişaf edibdir. Hətta bir çox ölkələrdə İslam dini hakimiyyətin də əsasını təşkil edir, dövlətlər İslam dövləti adını daşıyırlar və dövlət quruluşunda İslam prinsipləri əsas götürülür.

İslamın mövcud olduğu başqa ölkələr isə keçmişdə Sovetlər İttifaqına mənsub olmuş ölkələrdir. Bu ölkələr daha əvvəl Rusiyanın, yəni Çar imperiyasının tərkibində olublar. Çar Rusiyası dağılandan sonra isə inqilab nəticəsində sovet hakimiyyəti yarandıqdan sonra bu ölkələr Sovetlər İttifaqının tərkibində olublar. Sovetlər İttifaqı dağılandan sonra bu ölkələr öz dövlət

müstəqilliyini əldə ediblər və öz dinlərini bərpa etməyə başlayıblar. Bu ölkələrin bir qismi, o cümlədən Azərbaycan, Mərkəzi Asiyada yerləşən ölkələr, məsələn, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan müstəqil dövlətlərdir. Bir qismi isə Rusiya Federasiyasının tərkibindədir. Bunlar Şimali Qafqaz respublikaları, Rusiya ərazisinin başqa yerlərində yerləşən Tatarıstan, Başqırdıstan və İslam dininə itaət edən insanların yaşadıqları başqa respublikalar, yaxud da vilayətlərdir.

İslama itaət edənlərin başqa bir qismi isə Avropa ölkələrində mövcud olan dövlətlərdədir – Türkiyə Cümhuriyyəti, Albaniya, Bosniya-Herseqovina və başqa yerlər də İslam dininə mənsub olan əhalinin ölkələri, dövlətləridir.

Bunları deməklə mən onu bildirmək istəyirəm ki, İslam dünyanın bir çox ölkələrində mövcud olduğu halda, hər bir bölgənin özünəməxsus xüsusiyyəti var. Əgər biz, ümumiyyətlə, İslamşünaslıqla dərindən məşğul olmaq istəyiriksə və İslam sivilizasiyasının bəşər mədəniyyətinə verdiyi töhfələri dünyaya daha da nümayiş etdirmək istəyiriksə və İslamın müasir həyatda rolunu daha düzgün müəyyən etmək istəyiriksə, dünyanın hər bir bölgəsinin xüsusiyyətini nəzərə almalıyıq.

Şübhəsiz ki, mən bütün dünyadakı İslam ölkələri haqqında söz demək istəmirəm. Ancaq biz artıq üç gündür ki, Qafqaz haqqında müzakirə aparırıq. Bu barədə mən öz fikirlərimi simpoziumun açılışında bildirdim. Onlara əlavə olaraq bu gün demək istəyirəm ki, Azərbaycan həm əhalisinin sayına görə, həm ərazisinin sahəsinə görə, həm də İslamı qəbul etmək tarixinə görə Qafqazda ən böyük ölkədir. Mən artıq dedim ki, bizim fikrimizcə, Qafqazda İslam – İslamın mərkəzindən, Azərbaycan ərazisindən keçərək Şimala yayılıbdır. Ona görə də mən istərdim ki, iki gün bundan öncə deyilən fikir reallaşsın ki, Azərbaycanı Qafqazda İslam sivilizasiyasının tarixi, keçmişi və bu günü ilə əlaqədar bir tədqiqat, araşdırma mərkəzi etmək olar.

Türkiyədə – İstanbulda görülən işlər qlobal xarakter daşıyır. Azərbaycan isə Qafqazda bunun bir hissəsi ola bilər. Məsələn,





Qafqazı götürsək, Qafqaza bağlı olan, İslam dininə itaət edən böyük ölkələr bir tərəfdən Türkiyədir, digər tərəfdən İran. Azərbaycan qədimdən İslamı qəbul edərək həm İranla, həm Türkiyə ilə çox sıx əlaqədə olubdur. Şübhəsiz ki, İslamın mərkəzi ilə – Məkkə və Mədinə ilə, Bağdadla, Kərbəla ilə, İslam dininin başqa mərkəzləri ilə də tarixən əlaqədar olubdur.

Ancaq həm coğrafi nöqteyi-nəzərdən, həm də o dediyim amilləri nəzərə alaraq, mən hesab edirəm ki, Azərbaycan burada mühüm rol oynaya bilər. Mən sizin qərarınızı dəstəkləyirəm ki, bu simpozium Azərbaycanda davam etsin. Güman edirəm, müəyyən müddətdən sonra ikinci Bakı simpoziumunu hazırlayıb keçirmək olar. Ancaq bu simpoziuma gərək Qafqazda olan digər ölkələrdən də nümayəndələr gəlsin. Biz İslam sivilizasiyasının Qafqazda yayılmasına dair simpozium keçirdik. Ancaq Şimali Qafqaz ölkələrindən bilavasitə bizim bu simpoziumda nümayəndə yoxdur. Doğrudur, Rusiyanın nümayəndələri var, Şimali Qafqaz da Rusiya Federasiyasına daxildir. Ancaq Şimali Qafqazda olan respublikalarda – Dağıstan, Çeçenistan, İnquşetiya, Kabarda-Balkar, Qaraçay-Çərkəz, Adıgey, Osetiya – İslam dini çox inkişaf edibdir. Bunlar hamısı Qafqaza məxsusdur, Qafqaz ərazisindədir. Ona görə də gələcəkdə bizim araşdırmalarımızın daha da hərtərəfli olması üçün və bütün Qafqazı əhatə etməsi üçün bu respublikaları da buraya cəlb etmək lazımdır.

Qafqazda üç müstəqil dövlət var. Rusiya Federasiyası Şimali Qafqazı əhatə edir. Amma Cənubi Qafqazda üç müstəqil dövlət var – Azərbaycan, Gürcüstan, Ermənistan. Azərbaycan tam İslam dininə itaət edən əhalidən ibarətdir. Gürcüstanda 500 mindən artıq azərbaycanlı yaşayır, bunlar müsəlmanlardır. Bilirsiniz ki, Gürcüstanın bir hissəsində – Acarıstanda müsəlman olan gürcülər də var. Onlar İslam dininə çox yüksək əhəmiyyət verirlər. Bu da Qafqazdır.

İndi Ermənistan adlanan ərazidən İslamın bütün izləri təəssüflər olsun ki, silinibdir. Yəni o ərazidə qədim zamanlardan müsəlmanlar, azərbaycanlılar yaşamışlar. Mən bildiyimə görə –

bunu siz daha da dəqiq deyə bilərsiniz – Azərbaycanda İslam qəbul edilən zaman, demək olar ki, Azərbaycanın bütün ərazisində qəbul olunubdur. İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Əgər Qafqazda İslam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır.

Mən güman etmirəm ki, o torpaqlardan İslam əbədi olaraq silinibdir – mən belə hesab etmirəm. İslam harada olubsa, ora bir də gələcəkdir. Mən buna inanıram. İnanıram ki, o yerlərin sahibləri – müsəlmanlar, azərbaycanlılar oraya qayıdacaqlar. Ona görə o yerləri İslamın xəritəsindən heç vaxt silmək olmaz.

Azərbaycana gəldikdə isə hesab edirəm, Azərbaycan Qafqazda bütün dinlərin bir-biri ilə mehriban əlaqələrdə yaşadığı bir ölkədir. Biz bununla fəxr edirik. Məsələn, Qafqazda olan Ermənistandan əgər bütün başqa millətlər, dinlər qovulub çıxarılıbsa – təkcə müsəlmanlar yox, artıq orada yəhudilər də yoxdur erməni millətindən başqa və xristianlığın erməniyə mənsub olan qolundan savayı başqa bir millət, din yoxdur – erməni şovinizmi, erməni ekstremizmi buna illər, əsrlər boyu nail olmağa çalışıbdır. Onlar öz ölkəsini monomilli ölkə etməklə fəxr edirlər.

Biz belə siyasətin əleyhinəyik. Biz nəinki belə siyasəti qəbul edə bilmərik, buna tərəfdar çıxa bilmərik, buna tam ziddik, bunun əleyhinəyik. Allah-Təala insanları harada yaradıbsa, onlar orada da yaşamalıdırlar. İnsanlar öz iradələri, öz arzuları ilə hansı dini qəbul edirlərsə, o dinə itaət etməlidirlər. Demək, onlar məskunlaşdıqları yerdə yaşamalı, öz dinlərini də qoruyub saxlamalıdırlar.

Azərbaycanda yəhudilər 2500 ildir yaşayırlar, indi də yaşayırlar. Xristian dini Azərbaycanda əsrlər boyu olub, bu gün də var.





Azərbaycanda müsəlman məscidləri ilə yanaşı, pravoslav xristian kilsələri də, yəhudi sinaqoqları da var. İnsanlar hərə öz iradəsi ilə öz mənəviyyatını istədiyi kimi ifadə edir. Hesab edirəm ki, bu, Azərbaycanın Qafqazda və xüsusən Cənubi Qafqazda üstünlüyüdür. Mən hesab edirəm ki, bütün bunlara görə Azərbaycan Qafqazda İslam sivilizasiyası problemi ilə əlaqədar elmi tədqiqatlar, araşdırmalar mərkəzinə çevrilə bilər.

Bir amili, bir məsələni də qeyd etmək istəyirəm. O da ondan ibarətdir ki – bunu simpoziumda da hamınız dediniz, mən də bu fikirləri söylədim ki – biz heç vaxt İslamı donmuş vəziyyətdə saxlamaq istəmirik. Dünya inkişafdadır, insan cəmiyyəti inkişafdadır, bəşəriyyət inkişafdadır. Belə olan halda İslam donub əvvəlki vəziyyətində qala bilməz. Bu heç də hansısa bir dinin köklərinə, yaxud onun qoyduğu yola, ənənələrinə müxalifət deyildir. Əksinə, dünyaya gələn hər yeni nəsil öz köklərini daha da gücləndirməlidir. Elə etməlidir ki, o köklər daim qidalansın, inkişaf etsin, şaxələnsin, donmuş vəziyyətdə qalmasın və çürüməsin. Biz hər şeyə belə münasibət göstərməliyik və güman edirəm ki, İslama da belə münasibət göstərməliyik.

Siz Azərbaycanda olduğunuz günlərdə hiss etdiniz – Azərbaycan İslam mədəniyyətinin, İslam milli-mənəvi ənənələrinin ümumbəşəri mənəvi dəyərlərlə vəhdətindən doğulan bugünkü Azərbaycandır. Bunu siz gördünüz. Azərbaycan gələcəyə də bu yolla gedəcəkdir. Biz dünyanın tərəqqisindən kənarda qala bilmərik. Dünya xalqlarının tərəqqi yolu ilə müsəlmanlar da getməlidirlər, o cümlədən azərbaycanlılar da getməlidirlər. Kim bir balaca ləngiyirsə, o, sıradan çıxır. Azərbaycan bu siyasəti aparır, bu yolla gedir. Biz Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quraraq, öz milli-mənəvi, dini dəyərlərimizlə birləşdirərək Azərbaycanı inkişaf etdirdik. Güman edirəm, bunlar hamısı əsas verir ki, Azərbaycan bir mərkəz statusu alsın. Elədir, ya yox?

Siz bu günlərdə yəqin ki, Bakı ilə tanış oldunuz, gördünüz. Azərbaycanda tarixə, keçmişə böyük hörmət var. Bunun əlamət-

lərindən biri də Azərbaycanda, o cümlədən onun paytaxtı Bakıda tarixi şəxsiyyətlərə qoyulan, onları əbədiləşdirən heykəllər, abidələrdir. Simpoziumun başlanğıc günü biz danışırdıq ki, Azərbaycanın dahi şəxsiyyətləri İslam mədəniyyətinin, sivilizasiyanın inkişafında böyük xidmətlər göstəriblər. Nizaminin, Füzulinin, Nəsiminin adları çəkildi. Siz Nizaminin abidəsini də, Füzulinin abidəsini də, Nəsiminin abidəsini də gördünüz. İslam aləminin, Azərbaycan mədəniyyətinin bu üç dahi insanı Azərbaycan xalqının qəlbindədir. Baxmayaraq ki, onların yaşadıqları dövrdən indiyə qədər çox əsrlər keçibdir, Azərbaycanda Nizami adı daşıyan nə qədər insanlar var, nə qədər Füzuli adı daşıyanlar var, nə qədər Nəsimi adı daşıyanlar var. Biz hesab etmirik ki, Nizami, Füzuli, Nəsimi yalnız azərbaycanlılara məxsusdur. Onlar Azərbaycan çərçivəsindən elə yaşadıqları zaman çıxıblar. Sonrakı dövrlərdə isə onların əsərləri o qədər geniş yayılıbdır ki, onlar ümumbəşəri olublar və xüsusən bütün İslam aləminə mənsub insanlardır. Onların xidmətlərinə verilən böyük qiymət və XX əsrin ikinci yarısında – mən bunu xüsusi qeyd edirəm, - bu şəxsiyyətlərin xidmətlərinə verilən böyük qiymət və onların adlarının, xidmətlərinin əbədiləşdirilməsi, əsərlərinin nəşr edilib geniş yayılması və təbliğ olunması, Bakının ən gözəl meydanlarında onların abidələrinin, heykəllərinin ucaldılması bizim həm tariximizə, həm şerimizə, həm mədəniyyətimizə, həm də İslam sivilizasiyasına olan sədaqətimizin əlamətidir.

Bəlkə də dünyada Azərbaycan kimi belə bir ölkə tapmaq çətindir. Bəziləri hətta gəlib Bakını, Azərbaycanı görəndən sonra təəccüb edirlər ki, burada nə qədər çox şair, yazıçı olub ki, bu qədər heykəl var. Həqiqətən Azərbaycan bu barədə zəngin bir ölkədir, Azərbaycan xalqı zəngin xalqdır. Ancaq onu da qeyd etmək lazımdır ki, Azərbaycanın bugünkü nəsilləri, yəni XX əsrdə yaşayan nəsilləri öz tarixinə, keçmişinə, milli-mənəvi ənənələrinə çox böyük hörmət göstəriblər və göstərirlər. Bu heykəllər, abidələr məhz belə bir münasibətin nəticəsidir.





Təkcə Nizami, Füzuli, Nəsimi deyil, başqa böyük şəxsiyyətlər də İslam sivilizasiyasını inkişaf etdirməkdə xidmət göstərmişlər. Bunlar hamısı kiçik bir ərazidə olan Azərbaycana məxsusdur. Azərbaycan özündə bu qədər böyük, zəngin sərvətləri qoruyub saxlayıbdır. Mən çox arzu edirdim ki, siz elmi müzakirələrlə yanaşı, Azərbaycanla, Bakı ilə tanış olasınız. Bilmirəm, Elçin Əfəndiyev bunu təmin edə bilib, ya bilməyibdir.

Mən sizə əlavə olaraq bu fikirləri çatdırmaq istəyirdim. Əgər mənim bu fikirlərim gələcəkdə bizim ümumi işimizi irəliyə apara biləcəksə, mən bundan çox məmnun olacağam. Sizi bir daha təbrik edirəm. Gələcək işlərinizdə uğurlar, hər birinizə cansağlığı, səadət arzulayıram. Ölkələrinizə, xalqlarınıza tərəqqi arzulayıram. Sağ olun.

## AZƏRBAYCANIN RUS İCMASI QURULTAYININ NÜMAYƏNDƏLƏRİNƏ

Hörmətli nümayəndələr!

Azərbaycanın rus icmasının birinci qurultayının iştirakçılarını səmimi salamlayaraq, sizin hamınıza xoşbəxtlik, cansağlığı, firavanlıq və qurultayın işində uğurlar arzulayıram. Qurultayınızın BMT-nin Ümumi İnsan Hüquqları Bəyannaməsinin 50 illiyində keçirilməsi bunu bir daha təsdiq edir ki, bizim dövlətimizdə insan, onun maraq və hüquqları diqqət mərkəzindədir.

1995-ci ildə ümumxalq referendumunda qəbul edilmiş Azərbaycan Konstitusiyası cəmiyyətimizin ideyasiyasi və dünyagörüşü əsasını yaratmışdır. Konstitusiya respublikada həyata keçirilən bütün təşəbbüslərə sosial və siyasi istiqamət vermişdir.

Azərbaycan hələ qədimdən bununla məşhurdur ki, müxtəlif millətlərə və dinlərə mənsub olan insanlar bu torpaqda özlərinə ikinci vətən tapmışlar. Tarixi taleyin hökmü ilə Şimali Azərbaycan təxminən iki əsr siyasi, iqtisadi və mənəvi cəhətdən Rusiya ilə bağlı olmuşdur. Rusiyada Azərbaycan icmasının və Azərbaycanda rus icmasının formalaşması məhz həmin dövrdə baş vermişdir. Müxtəlif etnoslara mənsub vətəndaşların konkret sosial və mənəvi problemlərinin cəmiyyətdə necə həll edilməli olması barədə suala cavabların axtarışları tariximizin indiki mərhələsində kütləvi şüur üçün xüsusi əhəmiyyət kəsb edir.

Şübhəsiz ki, sizin qurultayınız insan və vətəndaş hüquqlarına tam əməl olunmasını dövlətlə birlikdə təmin etməli olan vətəndaş cəmiyyəti təsisatlarının inkişaf etmiş şəbəkəsinin formalaşmasında son dərəcə mühüm mərhələlərdən biridir.

Azərbaycan istər öz coğrafisiyasi mövqeyinə görə, istərsə də burada Qərb və Şərq sivilizasiyalarının ən yaxşı nailiyyətlərini özündə təcəssüm etdirmiş bənzərsiz mədəni ənənələrin formalaşmasına görə postsovet məkanında nadir bir yer tutur. Bir çox





onilliklər ərzində rus icması xalqımızın milli mənəvi dəyərlərinin inkişafı üçün xeyli səy göstərmişdir. Keçmişdə Azərbaycanda rus alimlərinin, yazıçıları və maarifçilərinin əməyini son dərəcə yüksək qiymətləndirərək, bu gün həmin tarixi ənənələrin qorunub saxlanması və artırılması üçün görülən işləri də qeyd etmək lazımdır.

İndi, müstəqil, azad Azərbaycan haqqında çoxəsrlik arzularımızın gerçəkləşdiyi bir vaxtda biz ümummilli mənafelər naminə, vətənimizin ərazi bütövlüyünün bərpa olunması naminə daha böyük məqsədyönlülüklə fəaliyyət göstərməliyik. Bu müstəqillik uğrunda, suverenlik uğrunda mübarizədə, Ermənistanın dövlətimizə qarşı törətdiyi müharibədə Azərbaycanın, o cümlədən də rus millətindən olan bir çox qızları və oğulları şəhid olmuşlar. Biz şəhid olanların xatirəsini ehtiramla yad edərək, onlar üçün müqəddəs olan ideallar naminə Azərbaycanda sülhə, bütün Qafqazda sülhə, bütün Azərbaycan xalqı üçün layiqli firavan həyata nail olmalıyıq.

Respublikanın hər bir vətəndaşının milli ənənələrini müqəddəs tutaraq hifz edən, öz qədim və zəngin mədəniyyətini qoruyub saxlayan və artıran azad, müstəqil, demokratik, dinamik inkişaf edən Azərbaycan XXI əsrə inamla qədəm qoyur.

Üçüncü minillik ərəfəsində toplaşan qurultayınıza dövlətçiliyimizin inkişafı və möhkəmlənməsi, vətəndaş cəmiyyətinin formalaşması, Azərbaycanın dünya birliyində layiqli yer tutan müasir ölkəyə çevrilməsi üçün möhkəm bünövrə yaratmağa qabil olan qərarlar qəbul etməyi arzulayıram.

Sizə uğurlar olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 17 dekabr 1998-ci il*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Əziz bacı və qardaşlar!

Sizi dünya müsəlmanlarının əziz bayramı – Ramazan bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Ramazan ayı müqəddəs kitabımız Qurani-Kərimin insanlar üçün nazil edildiyi mübarək aydır. Allah-Təalanın insanlara bəxş etdiyi bu misilsiz sərvətin hikmətlərindən daha da faydalanmaq üçün Ramazan ayının böyük əhəmiyyəti vardır. Bu ay, eyni zamanda, hər bir müsəlmana öz iradəsini sınamaq, dözüm və əzmkarlığını nümayiş etdirmək üçün gözəl fürsətdir.

Ramazan ayının sınaq günlərində öz borcunu ləyaqətlə yerinə yetirən müsəlmanlarımız bu gün böyük sevinc və qürur hissi ilə bayram edir, bir-birlərinə ehtiram və məhəbbət bildirərək sıx həmrəylik nümayiş etdirir, həyatdan getmiş yaxınlarını yad edirlər.

Builki Ramazan bayramı 1990-cı ilin qanlı yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda öz canlarından keçərək şəhidlik zirvəsinə ucalmış Vətən övladlarının xatirə gününə təsadüf edir. Onlar Vətənə sədaqəti özlərinin fədakarlığı, şəhidliyi ilə göstərərək xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazmışlar. Biz fəxr edirik ki, Azərbaycan xalqının milli mənliyini qorumaq üçün öz canından keçməyə hazır olan övladları vardır. Bu bayram günündə Azərbaycanın azadlığı, müstəqilliyi uğrunda şəhid olanların hamısına rəhmət, onların yaxınlarına, bütün xalqımıza səbir diləyirəm.

Respublikamızın müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin olunması, demokratik cəmiyyət quruculuğu, öz torpaqlarından didərgin düşmüş bacı-qardaşlarımızın ev-eşiklərinə qaytarılması hər birimizdən daha böyük qətiyyət





və əzmkarlıq tələb edir. Bu amalların gerçəkləşməsi naminə əziz bayram günündə hamınızı daha sıx əməkdaşlığa və həmrəyliyə çağırıram.

Mübarək Ramazan bayramında ulu tanrıdan sizə cansağlığı, xoş əhval-ruhiyyə, doğma Azərbaycanımızın tərəqqisi yolundakı fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 17 yanvar 1999-cu il*

# QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Ankara, Gülhanə Tibb Akademiyası*
*23 yanvar 1999-cu il*



**Allahşükür Paşazadə:** Cənab Prezident, Sizi səmimi-qəlbdən salamlayıram. Səhhətinizin yaxşı olmasından məmnun qaldığımı bildirir, Sizə Allah-Təaladan cansağlığı arzulayıram.

**Heydər Əliyev:** Çox sağ ol, sağlamlığım yaxşıdır, burada da işləyirəm, Bakıdakı işlərə rəhbərlik edirəm. Qripdən sonra bir az ağırlaşma olmuşdu, ona görə məni ətraflı müayinə edirlər. Bu da çox lazımdır, çünki Moskvadan gələndən sonra doqquz ildir həkimsiz yaşamışam. Allaha şükürlər olsun, müayinələr də göstərir ki, hər şey yaxşıdır.

**Allahşükür Paşazadə:** Azərbaycanda milliyyətindən asılı olmayaraq bütün insanlar Prezident Heydər Əliyevin tezliklə tam sağalıb Vətənə qayıtmasını arzulayırlar. Ramazan bayramı günlərində camaat Sizə dua edirdi, məscidlərdə qurbanlar kəsirdi.





Hamı, o cümlədən 20 Yanvar şəhidlərinin ailə üzvləri Sizə salam-dua göndərmişlər. Allah-Təala Sizi istəyir və xalqımızın, millətimizin Sizə böyük ehtiyacı var. Biz inanırıq, inşallah, sağlam olacaqsınız və ölkəmizə yenə rəhbərlik edəcəksiniz. Mingəçevirdəki Heydər məscidində çox böyük ehsan verildi, qurbanlar kəsildi. Mən həqiqəti deyirəm, xalq Sizi istəyir. Xalq istəyəni isə Allah da istəyir.

Sizin səhhətiniz barədə həkimlərin sonuncu rəyini eşidəndə çox sevindim. Xüsusilə Türkiyə Prezidenti cənab Süleyman Dəmirəlin Azərbaycan rəhbərinə münasibətindən olduqca şadıq. Qardaş dövlətlərin və onların rəhbərlərinin bir-birinə belə münasibəti xalqımıza çox xoşdur.

**Heydər Əliyev:** Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl hər gün Gülhanə Tibb Akademiyasına gəlib məni yoluxur, burada bir saat söhbət edirik.

**Allahşükür Paşazadə:** Sizə məlumat verim ki, Səudiyyə Ərəbistanının kralı məmləkətin yaranmasının 100 illiyinə həsr olunmuş şənliklərdə iştirak etmək üçün mənə dəvətnamə göndərib və oraya gedəcəyəm.

Onu da bildirim ki, Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi dövlətimizin rəhbərinin xəstələnməsini eşidərək mənə zəng etmiş, xoş arzularını Prezidentə yetirməyi rica etmişlər. Patriarx Azərbaycandakı pravoslav kilsələrinin başçısına yepiskop rütbəsi vermişdir və indən belə o, Bakı və Xəzəryanı regionun yepiskopu vəzifəsini daşıyır.

**Heydər Əliyev:** Bu xəbəri müsbət qiymətləndirirəm, habelə Azərbaycandakı müxtəlif dinlərin rəhbərlərinin Ankaraya, mənə göndərdikləri məktubu almışam və təşəkkürümü bildirirəm.

**Allahşükür Paşazadə:** Cənab Prezident, Sizin xəstələnməyiniz başqa ölkələrin din xadimlərini də narahat etmişdir. Dağıstanın, Çeçenistanın və digər müsəlman respublikalarının nümayəndələri dövlətimizin başçısına salam göndərir, onun tezliklə tam sağalmasını arzu edirlər.

**Heydər Əliyev:** Narahat olmağa əsas yoxdur. Ola bilər, Ankaraya heç gəlməyəydim. Bir həftə idi ki, mən qripi ayaq üstə

keçirirdim. Cümə günü saat doqquzda – onun yarısında işdən qayıdanda gördüm ki, üşüyürəm. Həftənin ikinci günü də belə olmuşdu. Amma mən bunları heç vaxt nəzərə almıram. Altıncı gün temperaturum daha çox qalxdı, ona görə işə çıxmadım. Yəqin ki, mənim özümün günahımdır – vaxtında müalicə etsəydim, dərman atsaydım, bir-iki gün evdə qalsaydım, bunlar olmazdı. Amma məndə öskürmə əmələ gəldi, bu da bir-iki saatdan sonra keçdi. Məndə gərginlik əmələ gələndə Süleyman Dəmirəl ilə əlaqə saxlamışdılar. O, telefonla zəng etdi və gecə iki təyyarə ilə həkimlər göndərdi. Mən artıq özümü yaxşı hiss edirdim, buraya gəlmək istəmirdim. Ancaq Süleyman Dəmirəl bir-iki dəfə mənə telefon etdi, dedi ki, mütləq gəl. Həm görüşək, söhbət eləyək, bəzi məsələlər var, həm də müayinə olun. Ona görə də altıncı gün bizim Təhlükəsizlik Şurasının üzvlərini yığdım, tapşırıqlarımı verdim, sonra da buraya gəldim. Ancaq bir gün ərzində xəstəliyim haqqında məlumat, sonra isə cürbəcür fikirlər, mülahizələr yayıldı.

**Allahşükür Paşazadə:** Azərbaycan Prezidentinin xəstələnməsi ilə əlaqədar Küveytdə də narahat olublar.

**Heydər Əliyev:** Bəli, bütün dünya qəzetləri yazırlar – Türkiyəyə gəlir – səhhətim haqqında hər gün xəbər verirlər. Türkiyənin Prezidenti hörmətli Süleyman Dəmirəl hər gün buraya gəlir, sonra mətbuat nümayəndələrinə məlumat verir. Fikrimcə, mənim Ankaraya gəlməyim faydalı olmuşdur.

**Allahşükür Paşazadə:** Cənab Prezident, Siz həqiqətən çox işləyirsiniz. Mən də müəyyən ölkələri gəzirəm, görürəm. Dövlət rəhbərləri saat yeddidə çıxıb gedirlər. Amma mən indiyə qədər görməmişəm ki, Siz işdən tez gedəsiniz, bazar günləri də işləyirsiniz.

**Heydər Əliyev:** Mən 1993-cü ildə Bakıya gələndən bəri – ondan əvvəl Naxçıvanda da – elə vaxt olmayıb ki, bazar günü işləməyim. Həftənin bütün günlərini işləyirəm. Prezident Süleyman Dəmirəl məni hər il buraya istirahətə dəvət edir. Burada istirahət etməli çox yaxşı yerlər var. Bir çox ölkələrin, məsələn,





Orta Asiya respublikalarının, Qazaxıstanın prezidentləri gəlir, on-on beş gün istirahət edirlər, eyni zamanda, görüşürlər, danışırlar. Amma mən hər dəfə deyirdim ki, vaxt tapa bilmirəm.

**Allahşükür Paşazadə:** Siz gərək özünüzə baxasınız, çünki Sizin sağlamlığınız xalqımızın sağlamlığıdır. Ona görə də Sizin sağlam olmağınız bizim üçün çox əhəmiyyətlidir.

**Heydər Əliyev:** Mənə xəbərlər çatır, camaat çox narahat olubdur. Amma mən burada həm Azərbaycan televiziyasına, həm ANS-ə, həm də "Nərgiz-TV"-yə, Rusiyanın NTV televiziyasına müsahibələr verdim. Bunları da gəldiyim ilk günlərdə etdim. İndi hamı görür ki, yaxşıyam. Bilirəm ki, insanlar çox həyəcanlıdır, mənə dua edirlər. Siz də deyirsiniz, mənə də hər gün məlumat verirlər, – insanlar arzulayırlar ki, tezliklə gəlim. Hesab edirəm ki, bu, mənim xalqla olan münasibətimin nəticəsi və xalqın mənə etimadı və məhəbbətidir. Mən həmişə yalnız bunun əsasında işləmişəm.

Mənə göstərilən qayğı və diqqətə görə bütün məscidlərə, kilsələrə salamımı və minnətdarlığımı çatdırın. Buraya hər gün çox adam gəlmək istəyir, ancaq həkimlər də qoymur, mənim özümün də imkanım yoxdur. Siz Azərbaycandan gələn yeganə adamsınız. Çoxları da telefon edib danışırlar. Bir azdan sonra mənim yanıma general İsmayıl Haqqı Qaradayı gələcəkdir. Beş-altı ay öncə o, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi idi.

**Allahşükür Paşazadə:** Türkiyədə sizi istəyənlər çoxdur. Azərbaycanda isə şeyx kimi mən gəlmişəm ki, xalqımızın məhəbbətini, salam-duasını çatdırım. Səudiyyə Ərəbistanındakı yubiley şənliklərində dövlət başçıları da olacaq, mən də çıxış edəcəyəm və Sizin salamlarınızı yetirəcəyəm.

**Heydər Əliyev:** Səudiyyə Ərəbistanının kralına, digər dövlət rəhbərlərinə mənim salamlarımı çatdırın.

**Allahşükür Paşazadə:** Sizə bir daha uzun ömür, cansağlığı diləyirəm, tezliklə tam sağalıb Vətənə qayıtmağınızı arzulayıram.

# RUS PRAVOSLAV KİLSƏSİ BAKI-XƏZƏRYANI YEPARXİYASININ BAŞÇISI YEPİSKOP ALEKSANDR İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı, 15 fevral 1999-cu il*



**Yepiskop Aleksandr:** Zati-aliləri, çox hörmətli cənab Prezident! İcazə verin, özümü yeni vəzifədə – Rus Pravoslav Kilsəsinin müstəqil Bakı – Xəzəryanı yeparxiyasının başçısı, yepiskopu vəzifəsində təqdim edim.

**Heydər Əliyev:** Mən sizi, görkəmli din xadimini bu yüksək təyinat münasibətilə təbrik edirəm. Sizə bu mühüm vəzifədəki fəaliyyətinizdə uğurlar arzulayıram. Ümidvaram ki, sizin bu vəzifəyə təyin edilməyiniz və burada müstəqil yeparxiyanın təşkil olunması rus və Azərbaycan xalqları arasında münasibətlərin daha da inkişaf tapmasına xidmət edəcəkdir.





Mən Bakı və Xəzəryanı xüsusi yeparxiyasının təşkili haqqında müqəddəs II Aleksinin qəbul etdiyi qərarı alqışlayıram. Bu, çox düzgün qərardır və hazırda bölgəmizdə yaranmış vəziyyətdən irəli gəlir. Belə düşünürəm ki, bu qərar pravoslavlarla müsəlmanlar arasında, xalqlarımız arasında əlaqələrin möhkəmlənməsi sahəsində bütün işimizə kömək edəcəkdir. Bu, həmçinin o deməkdir ki, Rusiya Pravoslav Kilsəsi tərəfindən bölgəmizə lazımi əhəmiyyət verilir. Bir sözlə, biz bunu alqışlayırıq. Öz tərəfimizdən isə biz hər şey edəcəyik ki, hörmətli yepiskop Aleksandr, bu vəzifədə fəaliyyətiniz müasir mərhələdə bizim hamımızın qarşımızda duran vəzifələrin həyata keçirilməsi naminə uğurlu olsun. Şadam ki, siz Azərbaycanda işləyərək Rus Pravoslav Kilsəsi tərəfindən belə böyük etimada layiq görülmüsünüz. Sizə böyük uğurlar arzulayıram.

**Yepiskop Aleksandr:** Zati-aliləri çox hörmətli cənab Prezident, səmimi arzularınıza görə, xoş sözlərinizə görə Sizə təşəkkür edirəm.

Həqiqətən, öz çoxmillətli ümmətinə qayğı göstərən Rus Pravoslav Kilsəsi İsanın mövludunun iki minilliyi ərəfəsində köhnə Bakı-Xəzəryanı Yeparxiyanı dirçəltməyi qərara almışdır. Bu yeparxiya burada 1934-cü ilə qədər mövcud olmuşdur. Onun dirçəldilməsi bu regionda pravoslav xristianların mənəvi dirçəlişinə də kömək edəcəkdir. Bu, həm də Azərbaycan hökumətinin xristian dinindən olan öz vətəndaşlarına qayğısına da sübutdur.

Heydər Əliyeviç, Siz Azərbaycanın müdrik və xeyirxah lideri kimi Qafqazın bütün rus əhalisi arasında böyük şöhrət qazanmısınız. Təlatümlü hadisələr Azərbaycanı sarsıdan vaxtlarda nəinki yerli millətdən, həm də rus millətindən olan bütün adamların, bütün Azərbaycan vətəndaşlarının arzusu, əlbəttə, belə olmuşdur ki, bu çətin dövrdə dövlətə, dövlət hakimiyyətinə məhz Siz başçılıq edəsiniz. İndi görürük ki, ümidlər doğrulmuşdur. Dövlətin çox mürəkkəb xarici və daxili vəziyyətdə olmasına baxmayaraq, Azərbaycan torpağına əmin-amanlıq və sülh Sizin rəhbərliyinizlə qayıtmışdır. İqtisadi həyatda, siyasi həyatda sabitlik

– bunların hamısı Azərbaycana qayıtmışdır. Bakının küçələrində dinc həyatın hökm sürdüyünü yəqin etmək üçün şəhərimizi gəzib-dolaşmaq kifayətdir.

Mən bunu Rusiyada da, Şimali Qafqazda da dəfələrlə demişəm. Məndən bizim burada, Azərbaycanda necə yaşadığımızı, burada nə baş verdiyini soruşduqda həmişə demişəm ki, Azərbaycana əmin-amanlıq qayıtmışdır, Azərbaycan öz praktiki həyatının sürətini yenidən artırmağa başlayır.

Bakı-Xəzəryanı Yeparxiyasının tərkibinə Azərbaycan ərazisindəki pravoslav kilsələri ilə yanaşı, Dağıstan Respublikasının və Çeçenistan Respublikasının ərazilərindəki pravoslav kilsələrinin də daxil edilməsi onu göstərir ki, Azərbaycanda nələr əldə olunmuşdursa, onlar bizi əhatə edən bir çox ölkələr üçün örnəyə çevrilmişdir. Görünür, Dağıstanda da, Çeçenistanda da çalışırlar ki, Azərbaycandakı kimi, onlarda da sülh və sabitlik olsun. Əlbəttə, Sizin Qafqazda yüksək nüfuzunuz var – bütün Qafqaz respublikaları, Qafqaz dövlətləri başçılarının iştirak etdikləri 75 illik yubileyiniz də buna sübutdur. Azərbaycan Respublikasının yenidən Prezidenti seçilməyiniz, andiçmə mərasimində bir çox görkəmli siyasi xadimlərin iştirak etməsi göstərdi ki, bu regionda Sizin nüfuzunuz və Sizin nümunəniz çox yüksəkdir. Biz ümid edirik ki, Sizin köməyinizlə Şimali Qafqazda da xristianlarla müsəlmanlar arasında qarşılıqlı anlaşma və həmrəyliyə nail ola biləcəyik.

Belə düşünürəm ki, pravoslav xristianlarla müsəlmanların arasında bölüşdürülməli bir şey yoxdur. Çünki min illər ərzində Şərqdə İslamla Xristianlıq həmişə qonşu olublar, öz aralarında bütün münasibətləri aydınlaşdırmağa müvəffəq olublar və həm müsəlman xalqların, həm də xristian xalqların xeyrinə dinc həyata, dinc yanaşı yaşamağa gəlib çıxmışlar. Azərbaycan da məhz buna misaldır ki, dünya dinlərinin – İslamın, Xristianlığın və Yəhudiliyin nümayəndələri arasında münasibətlər mehriban qonşuluq münasibətləri, habelə işgüzar münasibətlər ola bilər. Şübhəsiz ki, bu baxımdan Azərbaycan istər MDB-nin, istərsə də dünyanın bir çox ölkələrinə nümunə göstərir. Biz bilirik ki, hətta bir çox inkişaf etmiş dövlətlərdə, təəssüflər olsun, dini əsasda münaqişələr var. Bizdə isə Allah-Təalanın mərhəməti ilə heç bir münaqişə yoxdur və ola da bilməz.





Mən, hətta belə düşünürəm ki, müstəqil Bakı-Xəzəryanı Yeparxiyasının təsis edilməsi Azərbaycan dövlətinin suverenliyinin tanınmasına daha bir sübutdur. Belə ki, suveren dövlətdə onun bütün daha çox yayılmış konfessiyaları üçün müstəqil dini idarə də olmalıdır. Buna görə də Bakı-Xəzəryanı Yeparxiyasının təsis olunması təsdiq edir ki, Azərbaycan suveren dövlətdir.

Mən artıq qeyd etdim ki, bizdə üç dünya dininin – İslamın, Xristianlığın və Yəhudi dininin nümayəndələri arasında həqiqətən xoş münasibətlər yaranmışdır. Bu, əsasən həm Azərbaycan dövlətinin başçısı kimi, Sizin müdrik siyasətiniz sayəsində, həm də Azərbaycanda konfessiyalara başçılıq edən liderlərin – Şeyxülislam Hacı Allahşükür Paşazadənin də, Azərbaycandakı dağ yəhudiləri icmasının başçısı Semyon Borisoviç İxiilovun sayəsində mümkün olmuşdur. Həqiqətən, bir çox problemləri biz birlikdə həll etməyə, Azərbaycanda keçirilən bir çox dövlət tədbirlərində iştirak etməyə çalışırıq və şübhəsiz ki, Azərbaycandakı bu üç dünya dininin nümayəndələri arasında qarşılıqlı anlaşma olması üçün hər şey etməyə səy göstəririk.

Buna görə də ümid edirəm ki, gələcəkdə burada, Azərbaycanda fəaliyyətimiz Sizin yüksək himayədarlığınızla uğurlu olacaqdır. Zənnimcə, burada, Azərbaycanda əldə etdiyimiz nailiyyətləri yurisdiksiyamıza daxil olan ərazilərdə – Dağıstan və Çeçenistanın ərazilərində də yaya biləcəyik ki, bizim gözəl nümunəmiz onlara xidmət etsin, orada sülh və firavanlıq zəfər çalsın.

Çox hörmətli Heydər Əliyeviç, müqəddəs patriarx Aleksi məni buraya, Azərbaycana xidmətə, yeni vəzifəyə yola salarkən öz məktubunu Sizə verməyi xahiş etdi.

Mən Azərbaycan xristianlarına qayğıkeş münasibətinizə görə də Sizə təşəkkür etmək istəyirəm. Çünki Siz hər il Pasxa bayramında da, İsanın mövludu bayramında da Azərbaycanın pravoslav xristianlarına çox səmimi, çox müdrik, çox faydalı təbriklərlə

müraciət edirsiniz və bu, Azərbaycanda yaşayan pravoslav xristianların qəlbində hərarətli əks-səda doğurur. Bu, qarşılıqlı anlaşmanın və Sizin siyasətinizə rəğbətin Azərbaycan xristianlarının qəlbində özünə yer tapmasına da çox kömək edir.

**Heydər Əliyev:** Sizə, ən əvvəl ölkəmizin ünvanına, Azərbaycanda son illərdə yaranmış şərait barəsində söylədiyiniz xoş sözlərə görə təşəkkür edirəm. Həqiqətən, biz sizinlə bundan tamamilə məmnun qala bilərik ki, biz Azərbaycanda əmin-amanlıq yaratmağa, ölkəmizin hərbi münaqişədə olduğu Ermənistanla atəşkəs əldə etməyə müvəffəq olmuşuq. Biz ictimai-siyasi vəziyyəti sabitləşdirməyə, sosial-iqtisadi sahədəki çox ağır vəziyyəti aradan qaldırmağa müvəffəq olmuşuq – son üç ildə Azərbaycan iqtisadiyyatı inkişaf mərhələsindədir. Biz bir sıra iqtisadi islahatlar aparmağa müvəffəq olmuşuq. Bu islahatlar iqtisadiyyatın daha da inkişaf etməsi üçün və təbii olaraq, Azərbaycan vətəndaşlarının rifahının yüksəlməsi üçün daha əlverişli şərait yaradır.

Sizli-bizli hamımızın çox mühüm nailiyyətidir ki, Azərbaycanda bütün dini konfessiyalar – müsəlman dini də, pravoslav-xristian dini də, yəhudi dini də, əvvəla, öz vəzifələrini sərbəst surətdə həyata keçirir, ikincisi, sizin doğru dediyiniz kimi, bir-biri ilə xoş münasibətdədir, qarşılıqlı fəaliyyət göstərir və bununla bütün Azərbaycan vətəndaşlarının həmrəyliyinin möhkəmlənməsinə kömək edirlər.

Bildiyiniz kimi, mən bütün çıxışlarımda deyirəm ki, milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları Azərbaycanın tam hüquqlu vətəndaşlarıdır. Siz bilirsiniz ki, bu, sadəcə olaraq, sözlər, sadəcə olaraq, bəyannamə deyildir, bugünkü Azərbaycanın reallığıdır. Biz bu vəziyyəti, bu reallığı qoruyub saxlayacaq, möhkəmlədəcək və inkişaf etdirəcəyik. Bu baxımdan dini konfessiyaların səyləri çox böyük əhəmiyyətə malikdir və bizim üçün, dövlət üçün böyük köməkdir.

Siz bilirsiniz ki, Azərbaycan xalqı tarixən digər dinlərə həmişə dözümlü olmuş və onlara hörmətlə yanaşmışdır. Bu, Azərbaycan







xalqının milli xüsusiyyətidir. Bununla yanaşı, bu, bəzən müxtəlif ictimai-siyasi və digər şəraitdə korroziyaya, dəyişikliklərə məruz qalır. Bilirsiniz ki, 80-ci illərin axırlarında – 90-cı illərin əvvəllərində Azərbaycanda çox mürəkkəb ictimai-siyasi hadisələr baş vermiş və bunlar millətlərarası münasibətlərə müəyyən dərəcədə mənfi təsir göstərmişdi. Amma Allaha şükür, biz bunu ləğv etdik, aradan qaldırdıq.

Yəni Azərbaycan xalqına xas olmayan bir dövr olmuşdur. Bununla yanaşı, başlıcası budur ki, biz bu halları aradan qaldıra bildik, elə bir vəziyyət yarada bildik ki, milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları tam hüquqlara malikdirlər, sakit, normal şəraitdə yaşayırlar, bir-biri ilə qarşılıqlı əlaqə saxlayırlar. Məsələn, siz bilirsiniz ki, gah bir, gah da digər ölkədə rusdilli əhalinin maraqlarını qorumağın zəruriliyi barədə Moskvada, Rusiya Federasiyasının rəhbərliyində tez-tez səslər eşidilir. Azərbaycanda belə problem yoxdur və heç kim Azərbaycanda rusdilli əhalinin müdafiəsi uğrunda çıxış etmək üçün narahat olmur.

Çünki biz rusdilli əhalinin mənafeyini qoruyuruq, müdafiə edirik. Bu gün də bəyan edirəm ki, Azərbaycandakı rusdilli əhalinin milli mənafeyi sarıdan Rusiyada kiminsə narahat olması üçün bu gün də heç bir ehtiyac yoxdur, gələcəkdə də olmayacaqdır. Bu mənafe bizim öz mənafeyimizdir və heç vaxt yol verməmərik ki, digər millətdən, digər dini etiqaddan olan adamlar – İslam dinindən və Azərbaycan millətindən olmayan adamlar hər hansı sıxışdırmaya məruz qalsınlar.

Azərbaycanın hər bir vətəndaşına öz imkanlarını daha dolğun həyata keçirmək üçün getdikcə daha böyük şərait yaradılacaqdır. Mən buna inanıram, çünki gördüyümüz işlər, xüsusən apardığımız və yaxın illərdə aparacağımız islahatlar Azərbaycanda bütün vətəndaşlar üçün daha yaxşı həyat şəraiti yaradacaqdır. İqtisadiyyat dirçələcək, həyat şəraiti yüksələcəkdir, insanlar firavan yaşayacaqlar və buna görə də hər hansı millətdən olan hər bir vətəndaş öz imkanlarını həyata keçirə biləcəkdir. Yeri gəlmişkən, bu da bəzi digər ölkələrlə müqayisədə Azərbaycanın fərqləndirici xüsusiyyətidir. Biz bunu Azərbaycan üçün səciyyəvi hesab edirik, xüsusən ona görə ki, bu fəaliyyətimizi – mən dövlət tərəfindən fəaliyyəti nəzərdə tuturam – çox mühüm hesab edirik, ona böyük əhəmiyyət veririk.

Siz doğru qeyd etdiniz, mən bununla razıyam ki, Azərbaycanda müstəqil yeparxiya – Xəzəryanı ölkələri, o cümlədən Dağıstanı və Çeçenistanı əhatə edən yeparxiyanın yaradılması həm də bunun göstəricisidir ki, Azərbaycanın suverenliyi bütün istiqamətlərdə, o cümlədən Rus Pravoslav Kilsəsi tərəfindən tanınır və təsdiq edilir. Biz bunu qiymətləndiririk və bir daha demək istəyirəm ki, bu qərardan məmnunam. Bir də ki, 1934-cü ilədək belə olmuşdur. Yəni biz tarixi ədalətin bərpa edildiyinin şahidiyik.

Biz də kömək edəcəyik ki, müstəqil yepiskopluğun fəaliyyəti uğurlu olsun. Özümüzdən asılı olan hər şeyi edəcəyik ki, yeparxiyaya daxil olan Xəzəryanı ölkələrdə də sizin fəaliyyətiniz uğurlu olsun.





Əlbəttə, biz istəyirik ki, bütün regionumuzda, xüsusən Şimali Qafqazda sülh və sakitlik olsun. Çünki Azərbaycan Şimali Qafqazla çox bağlıdır – mən Rusiya Federasiyasının bu hissəsini nəzərdə tutaram. Biz bütün Şimali Qafqazda əmin-amanlığın bərqərar olmasına kömək etmək üçün öz tərəfimizdən səy göstəririk. Ümidvaram ki, əmin-amanlıq olacaqdır. Hesab edirəm ki, bu baxımdan sizin fəaliyyətinizin də böyük əhəmiyyəti olacaqdır.

Sizi bir daha təbrik edirəm. Mən müqəddəs II Aleksinin məktubunu diqqətlə oxuyacağam və şübhəsiz ki, ona cavab verəcəyəm. Bilirsiniz ki, biz II Aleksinin özü üçün münasib vaxtda Azərbaycana gəlməsini gözləyirik. Biz onu hər zaman qəbul etməyə şad olacağıq. Ümidvaram ki, siz bu fikri ona çatdıracaqsınız.

**Yepiskop Aleksandr:** Heydər Əliyeviç, səmimi sözlərə, diqqət və dəstəyə görə, müqəddəs patriarx Aleksini dəvət etməyinizə görə Sizə təşəkkür edirəm. Həqiqətən də müqəddəs patriarxın səfər problemi müzakirə olunur, onun uğurlu keçməsi üçün hazırlıq görülür. Həm də ki, onun dini yurisdiksiyası Azərbaycan ərazisinə də yayılır. Bu səbəbdən müqəddəs patriarx həm Bakıya, həm də Azərbaycana səfər edib bizim dini həyatımızla yaxından tanış olmaq arzusunda olduğunu bildirmişdir. Bir də ki, fevralın 18-də müqəddəs patriarxın 70 illiyi qeyd ediləcəkdir. Görünür, bu, böyük kilsə təntənəsi olacaq, Moskvada olduqca ciddi hazırlıq işi aparılır. Mənim bildiyimə görə, Azərbaycandan, şeyx başda olmaqla, bütöv bir nümayəndə heyəti gedəcəkdir. Mən özüm bu tədbirə hazırlaşmaq üçün sabah Moskvaya yola düşürəm. Fevralın 19-da Böyük Teatrda bu əlamətdar yubileylə bağlı təntənəli tədbir keçiriləcəkdir. Mən Sizin dəvətinizi müqəddəs partriarxa hökmən çatdıracaq və Sizin səmimi qəbulunuzdan, Azərbaycan ərazisindəki Rus Pravoslav Kilsəsinin fəaliyyəti barədə dediyiniz hərarətli sözlərinizdən danışacağam.

**Heydər Əliyev:** Mən bütün Rusiyanın patriarxı II Aleksini ad günü münasibətilə təbrik edirəm, ona xüsusi təbrik göndərəcəyəm. Xahiş edirəm mənim səmimi təbrikimi və ən yaxşı arzularımı ona sözlə də çatdırasınız.

# HƏCC ZİYARƏTİNƏ GEDƏN BİR QRUP ZƏVVARLARLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı, 20 mart 1999-cu il*

**Heydər Əliyev:** Hörmətli qonaqlar, dostlar!

Əvvəlcə sizi Novruz bayramı münasibətilə təbrik edirəm. Sizin hamınıza cansağlığı, səadət və bütün işlərinizdə uğurlar arzulayıram.

Bu gün bizim xalqımızın əziz günüdür, Novruz bayramı axşamıdır. Adətən bu gün insanlar istirahət edir, bayram edirlər. Ancaq biz sizinlə gözəl bir məqamda, bayram axşamında görüşürük. Güman edirəm, bu bayram axşamındakı görüş və danışıqlar hər birimizə fayda gətirəcəkdir.

Siz Həccə getməyə hazırlaşmısınız. Çox gözəl təşəbbüsdür, gözəl işdir. Məlumdur ki, sizin Həccə getməyiniz Səudiyyə Ərəbistanının kralı, İki müqəddəs şəhərin xadimi, bizim əziz dostumuz Fəthin mərhəməti ilə, onun Azərbaycana yardımı ilə əlaqədardır. Siz yola düşməzdən əvvəl mənimlə görüşmək istəmisiniz. Mən də sizinlə görüşmək istəmişəm. Ona görə də bizim bu görüşümüz artıq başlayıbdır. Sizin mənə deyəsi sözünüz varsa, buyurun. Cənab şeyx, siz danışmaq istəyirsinizsə, buyurun.

**Allahşükür Paşazadə:** Hörmətli Prezident həzrətləri! Bu gün bizim üçün iki bayramdır. Bunun biri Novruz bayramıdır, ikincisi isə Novruz bayramı axşamında, müqəddəs gündə Prezident həzrətlərimizin xeyir-duasını almaq, onunla birlikdə olmaq bizim üçün böyük şərəfdir. Deyərdim ki, bu, bütün müsəlmanlar üçün böyük bayramdır. Bu gün vaxt tapıb bizi qəbul etdiyinizə görə bütün Qafqaz müsəlmanları adından, hacılar adından Sizə öz təşəkkürümü bildirirəm.

Hörmətli Prezident həzrətləri! Bilirsiniz ki, Sizi Azərbaycan torpaqlarından kənarda da müsəlman qardaşlarınız həmişə yad





edirlər və Sizə böyük hörmət bəsləyirlər. İki müqəddəs şəhərin rəhbəri, Sizin qardaşınız Fəth ibn Əbdül Əziz həzrətləri Sizin xatirinizə öz hesabına Azərbaycandan 250 nəfər hacının ziyarəti barədə qərar qəbul etmişdir. Bu, Sizin Yaxın Şərqdə və müsəlman aləmində, müsəlman dövlətləri arasında hörmətinizin yüksək olmasını bir daha göstərir. Bu ziyarətimizin təşkili Səudiyyə Ərəbistanı Krallığının Din İşləri və Vəqflər Nazirliyinin rəhbərinə tapşırılmışdır.

Hörmətli Prezident, nazirliyin nümayəndələri buradadır, onları Sizə təqdim edirəm. Biz neçə gündür Bakıda bir yerdə işləyirik. Qardaşlarımız tərəfindən bizə olan tövsiyələri tam yerinə yetirmişik. Onlar və həccə gedənlər çox istədilər ki, Sizinlə görüşsünlər və bu, bizə nəsib oldu. Məlumat verim ki, ziyarətə gedənlərin 25 nəfərdən çoxu Qarabağ müharibəsi əlilləri və iştirakçılarıdır, şəhid ailələri üzvlərinin sayı 90-dan yuxarıdır. Onlardan 4 nəfəri Milli Qəhrəman valideynləridir. Qaçqın və məcburi köçkün, əsgər ailələrindən olanların sayı 30-dan çoxdur. Qalanları isə pensiyaçılar, dindarlar və cənab Prezidentə şəxsən müraciət edən insanlardır.

Cənab Prezident, mən hər yerdə, xüsusən Səudiyyə Ərəbistanında Sizə daim hörmət bəslənilməsinin şahidi olmuşam. Biz söz veririk ki, Sizin həccə göndərdiyiniz adamlar – şəhid anaları, ataları, qaçqınlar və məcburi köçkünlər Kəbə evində şəhidlərimizi yada salaraq dua edəcəyik ki, inşallah, tezliklə torpaqlarımız düşmən tapdağından azad olunsun. Mən bir daha bütün müsəlmanlar adından, hacılar adından Sizi təbrik edirəm və bizi qəbul etdiyinizə görə təşəkkürümü bildirirəm.

**Əfras Qasımov** *(Şirvan Şəhər Ağsaqqallar Şurasının sədri)*: Sizi Novruz bayramı və qarşıdan gələn Qurban bayramı münasibətilə təbrik edirəm. Cənab Prezident, Sizə uzun ömür, cansağlığı arzulayırıq. Bizə bu şəraiti yaratdığınıza görə Sizə minnətdarlığımızı bildiririk. Biz müqəddəs Məkkədə, Kəbədə torpaqlarımızın azad olunması, qaçqın və məcburi köçkünlərimizin öz yurdlarına qayıtması üçün dualar edəcəyik ki, Siz bütün bu işləri başa çatdırasınız. Ümidvarıq ki, qan tökülmədən torpaqlarımız qay-

tarılacaqdır. Biz Sizə inanırıq. Biz Sizə həmişə duaçıyıq. Biz Sizin daxili və xarici siyasətinizi müdafiə edirik və həmişə sizinləyik.

**Əli Məmmədyarov** *(Qarabağ müharibəsi veteranı)*: Cənab Prezident, özümü çox xoşbəxt sayıram ki, Həcc ziyarəti ərəfəsində Sizinlə görüşürəm. Siz dünyanın böyük şəxsiyyətlərindən birisiniz. Sizinlə həmişə fəxr etmişəm. Vaxtilə Siz Siyasi Büronun üzvü seçiləndə, inanın ki, sevincimdən oynamışam. Həmişə Sizi televizorda görəndə fəxr etmişəm, öyünmüşəm. Öyünmüşəm ki, böyük bir fövqəldövlətin başçıları arasında mənim də xalqımın öz şəxsiyyətinə, mahir nitqinə, bacarığına görə seçilən oğlu vardır. Sevinirəm ki, həmin oğul bu gün öz xalqının rəhbəridir, müstəqil dövlətini qurmuş ölkəmizin əvəzsiz Prezidentidir. Ona görə Sizinlə fəxr edirəm.

Əziz Prezidentimiz, Siz respublikamızda əmin-amanlıq yaratmısınız. Müstəqillik qazanmış ölkələrdə nə cür hadisələrin baş verdiyini mütəmadi olaraq eşidirik. Amma bizdə bunlar yoxdur. Bayırda, hər yerdə hamı rahat gəzir. Siz xüsusən Qarabağ müharibəsi iştirakçılarına, əlillərə, şəhid ailələrinə, qaçqınlara böyük qayğı göstərirsiniz. Biz dünən televizora baxanda gördük ki, Siz Biləsuvar rayonundakı qaçqın şəhərciyində qaçqınların toy məclisində doğma övladlarınızın toyundakı, şadlığındakı kimi oynadınız. Bu, doğrudan da, xalqa, onlara göstərdiyiniz böyük qayğının təzahürüdür. Mən həm qaçqınam, həm veteranam, həm də pensiyada olan bir şəxsəm. Onların adından Sizə minnətdarlığımı bildirirəm.

Mən böyük ailə sahibiyəm. Dörd uşağım Tibb Universitetində oxuyur. Biz həmişə haqq-ədalət görmüşük. Uşaqlarımın hamısı əlaçıdır. Bunu Sizin gücünüz hesab edirəm. Çünki Sizin siyasətiniz, gənclərə göstərdiyiniz diqqət onların öz dərslərini yaxşı oxumalarına kömək edir. Qiymətli vaxtınızı bizə sərf etdiyinizə görə təşəkkürümü bildirirəm.

Yazdığım bu kitabı Sizə təqdim edirəm.

**Zərifə Piriyeva** *(şəhid anası)*: Hörmətli Prezident, bu görüşümdən şərəf duyduğumu bildirirəm.





Sizi ziyarət etməyimə və həccə getməyimə qəlbən sevinirəm. O qədər həyəcan keçirirəm ki, danışmağa söz tapa bilmirəm. Mən şəhid Ceyhun Piriyevin anasıyam. Bizə göstərdiyiniz etimadı yazdığım "Pənahımız Heydərə" şeirimlə demək istəyirəm. Mən bunu xalqımın ən əziyyətli günündə bir ilahi kimi onun dadına çatan, gecəsini gündüzə, gündüzünü gecəyə qatan, baldan şirin yuxusunu xəyalda yatan elimizin atası Heydər Əliyevə həsr etmişəm.

*Yalvarıram sənə, ey gözəl Allah,*
*Dəymə bizim pənahımız Heydərə.*
*Dualar yetişsin ulu dərgaha,*
*Dəymə bizim pənahımız Heydərə.*
*Sızlayan körpənin gülüşüdür o,*
*Buludlu havanın günəşidir o,*
*Sönmüş ürəklərin atəşidir o,*
*Dəymə bizim pənahımız Heydərə.*
*Heydər babam, adın uca ay kimi,*
*Heç vaxt qışın olmasın, ol yay kimi,*
*Parla günəş kimi, parla ay kimi,*
*Dəymə, Allah, pənahımız Heydərə.*
*El əlin qaldırıb ulu dərgaha,*
*Namaz üstə yalvarıram Allaha,*
*Otuz il də bir saf ömür bir daha,*
*Allah, pay ver sən bizim Heydərə.*
*Əlçatmaz babama əlim yetəydi,*
*Allah, bir gün müharibə bitəydi,*
*Acı günlər bir-bir gəlib ötəydi,*
*Bütün dünya baş əyəydi Heydərə.*

İcazə verin şeri Sizə təqdim edim.

**Bəkir Nəbiyev** *(Elmlər Akademiyasının Ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi)*: Möhtərəm Prezident, Sizi Novruz bayramı münasibətilə təbrik edirəm. Vaxtın az olmasına görə istəyirəm bir mətləbi çatdırım.

Siz 1994-cü ildə Səudiyyə Ərəbistanına yüksək səviyyəli görüşə gedərkən nümayəndə heyətinin tərkibində məni də özünüzlə aparmışdınız. Orada etdiyimiz ziyarət, ibadət – hamısı sizinlə bağlı olmuşdu. Mən orada müşahidə etmişdim ki, Azərbaycanın rəhbəri özünün dini ənənəsinə necə sadiqdir və o, dinin tələblərinə əsasən müqəddəs məkanı – Kəbəni necə böyük ürəklə, sidqi-məhəbbətlə ziyarət etdi. Cənab Prezident, biz onda Sizin arxa tərəfinizdə namaz qıldıq. Bu gün ikinci dəfə Səudiyyə Ərəbistanı kralının dəvəti ilə, bilavasitə şəxsən Sizin göstərdiyiniz hörmət sayəsində həccə yola düşəcəyəm. Cənab Prezident, "Atalar üçdən deyib" məsəlinə uyğun olaraq bir arzumu bildirmək istəyirəm. Mən o günü arzulayıram ki, Siz torpaqları azad edilmiş, öz haqq işi uğrunda qələbə çalmış bir ölkənin rəhbəri kimi, o müqəddəs yerləri üçüncü dəfə ziyarətə gedəndə məni də heyətinizin tərkibinə alaydınız və mən yenə Sizinlə bir sırada namaz qılıb Allahın dərgahına öz dualarımı, minnətdarlığımı bildirəydim. Sizə uzun ömür, cansağlığı və arzuladığım o böyük niyyətə çatmağı diləyirəm.

**Səd əs-Səəd** *(Səudiyyə Ərəbistanı Krallığının Din İşləri və Vəqflər Nazirliyinin nümayəndəsi, doktor):* Mərhəmətli, rəhmli Allahın adı ilə, Allahın xeyir-duası Məhəmmədə, onun ailəsinə və onun silahdaşlarına olsun.

Zati-aliləri cənab Prezident!

Hörmətli dostlar, qardaşlar və bacılar!

Mən bizim nümayəndə heyətinin üzvləri adından zati-aliləri cənab Prezidentə bu görüş üçün vaxt ayırdığına və bizi qəbul etdiyinə görə dərin minnətdarlığımı bildirirəm. Cənab Prezident Heydər Əliyev iman sahibi olan bir insandır və o, iman sahibi olan bir xalqa başçılıq edir. Bu, öz əksini ölkənin bayrağında və bu yaxınlarda bizim də gördüyümüz Azərbaycan Respublikasının yeni pasportlarında da tapmışdır. Bu fürsətdən istifadə edərək, zati-aliləri cənab Prezidentə və hörmətli qardaş və bacılarımıza iki müqəddəs ocağın xadiminin səmimi salamlarını yetirirəm və eyni zamanda, ölkəmizin, dövlətimizin, hökumətimizin digər üzvlərinin salamlarını, xeyirli, gözəl ziyarət arzularını yetirirəm.





Mən də burada çıxış edən şəhid anası kimi şair olmaq istərdim ki, öz hisslərimi və buradakı ab-havanı şair qələmi ilə təsvir edəm. Lakin sözün çoxluğundansa ürəklərdəki hisslərin səmimiliyi, çoxluğu daha mühümdür. Ona görə də çox danışmaq istəmirəm. Sözümün sonunda Sizə bildirmək istəyirəm ki, iki müqəddəs ocağın xadimi Sizin ölkəmizə çatandan sonra hər cür qayğı ilə əhatə olunmağınız barədə müvafiq göstərişlərini vermişdir və biz onu yerinə yetirəcəyik.

Bu ölkənin, Azərbaycanın torpaqlarının işğal olunması Sizin kimi, bizim də ürəyimizdə bir yaradır. Arzu edirəm ki, gələn il belə bir münasibətə qədər torpaqlarınız azad edilmiş olsun və biz bunu qeyd edək.

Mən Sizin hamınıza uğurlar, xoşbəxtlik, səadət arzulayıram. Sağ olun.

**Heydər Əliyev:** Mən çıxış edənlərə və Səudiyyə Ərəbistanı Krallığından gəlmiş qonağa təşəkkürümü bildirirəm.

Hörmətli dostlar, bacılar, qardaşlar!

Mən sizi bu müqəddəs yolda bir də təbrik edirəm. Hər birinizin Məkkəni, Mədinəni, Kəbəni ziyarət etmək istəyiniz, arzunuz özlüyündə sizin daxili mənəviyyatınızı nümayiş etdirir, o müqəddəs yerləri ziyarət etmək istəyən hər bir şəxs yüksək mənəviyyat yoluna düşməlidir və ümidvaram ki, siz məhz bunu dərk edərək Məkkə, Mədinə, Kəbə ziyarətinə getmək üçün can atmısınız və bu istəyiniz, arzunuz da artıq yerinə yetirilir. Siz yol üstəsiniz, gedirsiniz. Siz də, biz də – hamımız Səudiyyə Ərəbistanının kralı, İki müqəddəs ocağın xadimi, bizim dostumuz və qardaşımıza Azərbaycana göstərdiyi bu qayğıya, diqqətə görə təşəkkür edirik. Bu, artıq ənənəyə çevrilibdir. Hər il Həcc ziyarəti zamanı Azərbaycana belə qayğı göstərilir və Səudiyyə Ərəbistanı kralının qonağı kimi 250 nəfər Həcc ziyarətinə gedir. Həcc ziyarətinin özü insan üçün böyük nemətdir. Ancaq bu ziyarəti iki müqəddəs ocağın xadiminin qayğısı altında, onun himayəsi altında həyata keçirmək buna daha da xüsusi əhəmiyyət verir.

İndi Azərbaycanda xalqlar bütün azadlıqları əldə ediblər. O cümlədən vicdan azadlığı, din azadlığı tamamilə bərqərar olunubdur. Bizim millətimiz öz İslam dininə, İslam mənəviyyatına olan bağlılığını, sevgisini, məhəbbətini indi keçmişdə olduğu kimi gizli, yaxud da xəlvət yox, açıq-aşkar nümayiş etdirir.

Bu gün məmnuniyyətlə qeyd etmək olar ki, Azərbaycanda insanlar vicdan azadlığı əldə edəndən sonra respublikamızda müqəddəs yerlər – məscidlər, məbədlər xalqımıza, onun mənəvi dəyərləri mənimsəməsinə çox yardım edir. Bütün bunların içərisində İslam dininə mənsub olan insanların, azərbaycanlıların ən böyük arzusu Həcc ziyarəti etməkdir. Kim buna nail olursa, o, şübhəsiz ki, dünyanın ən xoşbəxt adamı olur. Siz buna nail olmusunuz, yəni bu hüququ almısınız və artıq yola düşürsünüz. Mən inanıram ki, siz sağ-salamat gedəcəksiniz, ziyarəti edəcəksiniz, sağ-salamat öz vətəninizə, evinizə qayıdacaqsınız və bu ziyarətdən aldığınız mənəvi yardım sizin gələcək həyatınızda, əmək fəaliyyətinizdə çox şeylər verəcəkdir.

Çox şadam ki, illər boyu qəlbimdə yaşayan arzumu 1994-cü ildə həyata keçirə bildim, müqəddəs yerləri – Məkkəni, Mədinəni, Kəbəni ziyarət etdim. Bu, mənim həyatımda ən dəyərli tarixi bir hadisə olubdur.

Deyə bilərəm ki, belə bir ziyarətdən sonra insan nə qədər yüksəlir, nə qədər yüksək hisslərə qovuşur. Buna görə də mən deyirəm ki, siz artıq xoşbəxt bir insansınız. Təbiidir, hər bir insanın həyatında müxtəlif qayğılar, çətinliklər, problemlər vardır. Ancaq bunların içərisində Həcc ziyarəti etmək insanlarda müəyyən qədər rahatlıq yaradır və başqa çətinliklərin öhdəsindən gəlmək üçün insanları daha da cəsarətli edir, daha da məğrur edir.

Mən şübhə etmirəm ki, siz bu Həcc ziyarətini uğurla başa çatdıracaqsınız. Sizdən başqa, Azərbaycanda çoxları da bu Həcc ziyarətinə gedir. 250 nəfər bizim dostumuz, Səudiyyə Ərəbistanı kralının himayəsi altında, 450 nəfər də özləri öz imkanları hesabına ziyarətə gedir. Beləliklə, bu il 700 nəfər Azərbaycan vətəndaşı, azərbaycanlı Həcc ziyarətini həyata keçirəcəkdir. Bu, Həcc





ziyarətini edən hər bir insan üçün də əhəmiyyətlidir, amma bizim cəmiyyətimiz, xalqımız üçün də əhəmiyyətlidir. Çünki Həcc ziyarətini edən hər bir şəxs nəinki özü mənəviyyatca zənginləşir, o, aldığı mənəvi zənginlikdən bəhrələnərək öz ətrafına, ailəsinə, öz dostlarına da təsir edir, kömək edir, onları daha da düz yola, Allah yoluna dəvət edir.

Mən sizin hamınıza yaxşı yol, uğurlu yol arzulayıram. Əvvəlcədən arzulayıram ki, Həcc ziyarətinizi Allah qəbul etsin və siz sağ-salamat Vətənimizə qayıdasınız.

Bir daha sizinlə bu bayram axşamı, bu əziz, müqəddəs gündə görüşdüyümə görə çox sevinirəm. Çünki belə gündə hər bir görüş insan üçün xüsusi əhəmiyyətlidir. Mən sizinlə görüşürəm, yəni Allah yolunda Həccə gedən adamlarla görüşürəm.

Məndən Məkkəyə, Mədinəyə, Kəbəyə salam çatdırın və Azərbaycan xalqının İslam dininin bütün yüksək mənəvi dəyərlərinə nə qədər sadiq olduğunu öz hissiyyatlarınızla oraya çatdırın. Sizə yaxşı yol! Bir daha bayramınızı təbrik edirəm. Hamınıza cansağlığı, bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

# BAKININ BİBİHEYBƏT ZİYARƏTGAHINDA QURBAN BAYRAMI MƏRASİMİNDƏ ÇIXIŞ

*28 mart 1999-cu il*

**Hikmət Əlizadə** *(Bibiheybət məscidinin axundu):* Cənab Prezident, 1994-cü il mayın 21-də, Peyğəmbər əleyhissəlam Həzrət Məhəmmədin mövlud günü Siz ilk dəfə buraya gələndə indi gördüyünüz ikinci minarənin ucaldığı yerdə çıxış edib bizə söz verdiniz ki, inşallah, Bibiheybət məscidi tikiləcəkdir. Bu xeyirxah əməlinizə görə Sizə cansağlığı diləyirik. Allah Sizi bizə, xalqımıza çox görməsin.

Sizin sözünüz də, əməliniz də bütövdür və hər işi başa çatdırırsınız. Bayramınız mübarək olsun!

**Heydər Əliyev:** İş onda deyil ki, mən söz vermişəm və sözümü yerinə yetirmişəm. Təbiidir ki, mən söz verəndə həmişə onu yerinə yetirməyə çalışıram və çox vaxt da nail oluram. Amma bu, təkcə sizin arzunuz, istəyiniz olmamışdı. Bu, mənim qəlbimdən gələn bir hiss idi. Keçmişdə biz Azərbaycanda saraylar, böyük-böyük binalar yaratmışıq. Amma bu müqəddəs yerdə məscidin yaranması sizin də, bizim də – bütün müsəlmanların arzusu olubdur. Mən xoşbəxtəm ki, biz belə bir gözəl məscid yaratdıq. Gözəl də minarələri var, çox gözəldir. Özü də ancaq Azərbaycan memarlığı üslubunda tikilibdir, başqa cür ola bilməz. Çox gözəl məsciddir və o, burada olmalı idi. Bura müqəddəs yer, pirdir. İnsanlar buna inanır, buraya böyük ümidlərlə gəlirlər. Ona görə də burada belə bir məscid binası olmalı idi ki, insanlar gəlib həm öz arzu-istəklərini bildirsinlər, eyni zamanda, ibadət eləyə bilsinlər. Mən çox xoşbəxtəm, çox gözəldir.

**Allahşükür Paşazadə:** Bismillahir-rəhmanir-rəhim.

Həmd və səna olsun Allaha ki, bizi yaradıb və içərimizdən bizə elə şəxslər göndərib ki, onlar dünyaya gələndən sonra saleh işlər görürlər, insanlara yaxşı yollar göstərir, yaxşı əməllər sahibi olurlar.





Sovet rejimi, ateizm rejimi zamanı Bibiheybət məscidi, müqəddəs yerimiz – imam Rza əleyhissəlamın bacısı Hökumə xanımın dəfn olunduğu məscid yerlə yeksan edildi, şəhidliyə məruz qaldı. Hətta üstündən yol çəkildi ki, bir daha tikilməsin. Bəli, onu sökənlər, dağıdanlar, üstündən yol çəkənlər də təəssüf ki, xalqımızın nümayəndələri, azərbaycanlılar idi. Amma bu gün biz Heydər minarəsindən birinci dəfə olaraq, hörmətli Prezidentimizin iştirakı ilə, onunla bərabər gəlmiş qonaqların iştirakı ilə "Allahu-Əkbər" səsini eşidirik, yəni dirilik səsini eşidirik. Allah-Təala bir tərəfdən bizi ümidsiz eləyirdisə, bu gün bizə ümid, gələcəyə inam bəxş eləyibdir. Allah-Təala Azərbaycan torpağına xalqımızı birlikdə görmək əzmində olan bir rəhbər göndərdi və biz bugünkü gündə onun nemətini görürük.

Biz bu məscidə cansız daş kimi baxmamalıyıq. Yox, bu məscid diridir, şahiddir, xalqımızın tarixidir. Xalqımızı əyə bilərlər, torpaqlarını əlindən müvəqqəti ala bilərlər. Amma heç vaxt imanımızı, inamımızı əlimizdən ala bilməzlər. Çünki bu xalqın belə oğulları varsa, inşallah, o xalq həmişə yaşayacaq və yaşamaqdadır.

Bu tikintidə zəhmət çəkənlər çoxdur. Bibiheybət məscidinin tikilməsində onun ətrafında yaşayan adi camaat, xalq kömək göstərib, işçilər də yaxşı çalışıblar. Elə adamlar var ki, daxilən, Allaha məhəbbət üçün, xalqına və rəhbərə məhəbbət üçün iş görürlər. Mən istərdim ki, Şeyxülislam kimi, bu bayram günündə şəhərimizin meri Rəfael Allahverdiyevə bütün müsəlmanlarımız adından təşəkkürümü bildirim. Onun gördüyü işlər, köməyi sayəsində tikinti bu ərsəyə çatmışdır.

Bəziləri deyirlər ki, indi məscid tikmək vaxtıdırmı, başqa şeylər də tikmək olar. Bəli, zavod tikməklə bərabər, gərək bizim mənəviyyatımızın da qülləsi ucaldılsın. Xüsusən, Bibiheybət məscidinin ikinci dəfə həyat qazanmasına, bu məbədin, belə müqəddəs yerin olmasına böyük ehtiyacımız var.

Ürəyimdə çox söz var. Elə bilirəm ki, bu arzular təkcə mənim deyil, bütün xalqımızın arzularıdır. Mən bayaq dedim ki, bu məscidi yıxanlar, dağıdanlar da bizim xalqımızın nümayəndələ-



ri olub, qıraqdan gəlib külüng vuranlar olmayıbdır. Amma indi tikənlər Prezident həzrətlərinin rəhbərliyi ilə onu ucaldıblar.

Bu gün Heydər minarəsindən birinci dəfə olaraq Allahu-Əkbər azanı deyildi. "Allahu-Əkbər" azanının mənası çox böyükdür. Yəni bu gün biz bu azanla birlik yaradırıq. "Allahu-Əkbər" deməklə bildiririk ki, biz bir xalq, Azərbaycan xalqıyıq, bizi ayrı-ayrı millətlərə, məzhəblərə ayırmaq olmaz. Bu addımı atan, buna rəhbərlik edən, öz vəsaiti ilə bu minarəni tikdirən Prezidentimizə dua edirik. Bütün xalqımızın adından, dili və dinindən asılı olmayaraq hamımızın adından ona, ailəsinə, apardığı işlərinə müvəffəqiyyətlər arzu edirik.

Dünən mən Məkkə ziyarətində olan bizim hacılarla danışdım. Bu gün onların hamısı Ərəfatda əllərini göyə qaldırıb dua edirlər, qurban kəsirlər. Prezident həzrətləri, mən istərdim onların da salam-dualarını Sizə, işçilərinizin hamısına çatdırım.

Mən bir daha minnətdarlığımı bildirirəm. Əlbəttə, Sizin gördüyünüz bu işlərə qiymət vermək mənim üçün çətindir. Mən dua edirdim ki, Allah-Təala özü əcrini versin. Bilirik ki, Allah-Təala







bir şeyin əcrini verərsə, inşallah, o daimidir, heç vaxt yıxılmayacaq, büdrəməyəcəkdir. Kim də istəsə ki, ona qarşı getsin, özü həmişə məhv olacaqdır. Allah-Təala Prezidentimizə cansağlığı versin! Biz onun bugünkü gününə mübarək deyir, bayramını təbrik edirik.

Bütün Azərbaycan xalqını həmişə bayramlarda, toylarda, şənliklərdə görmək istərdik. Prezidentimizin siyasəti sayəsində torpaqlarımızın azad olunmasını istərdik. Mən bunu neçə dəfə demişəm və bir daha təkrar edirəm ki, biz ruhanilər, din xadimləri Sizin ruhani əsgərinizik. Biz həmişə Sizinləyik. Çünki Siz haqqın tərəfdarısınız, biz də həmişə haqla bərabərik və Sizinləyik. Allah Sizə cansağlığı versin!

**Heydər Əliyev:** Əziz həmvətənlər!

Sizi, bütün Azərbaycan xalqını, bütün müsəlmanları müqəddəs bayramımız – Qurban bayramı münasibətilə təbrik edir, hamınıza cansağlığı, ölkəmizə sülh, əmin-amanlıq, rifah arzulayıram.

Qurban bayramı dostluq bayramı, məhəbbət, birlik, mehribanlıq bayramıdır. Bu gün kəsilən qurbanlarla hər bir şəxs, hər bir

xalq, millət arzularının, niyyətlərinin yerinə yetməsi üçün Allahdan rəhm, kömək istəyirlər. Arzu edirəm ki, Azərbaycan torpağında müsəlmanların bu gün bayram münasibətilə kəsdikləri qurbanlar hamısı qəbul olunsun. Hər kəsin qəlbində olan arzular, niyyətlər yerinə yetsin. Hər kəs xoşbəxt, sağlam olsun. Bütün ölkəmizə, xalqımıza səadət arzulayıram.

Bu gün xalqımız bəlkə də hər şeydən çox dostluq, mehribanlıq, birlik ehtiyacındadır. Son illər Azərbaycanda, cəmiyyətimizdə bu arzular günü-gündən möhkəmlənir. Xalqımızın, cəmiyyətimizin məhz birliyi, həmrəyliyi nəticəsində biz Azərbaycanda sülhə və əmin-amanlığa nail olmuşuq. Azərbaycan dövlətinin apardığı siyasət, həyata keçirdiyi tədbirlər xalqın əksəriyyəti tərəfindən minnətdarlıqla qəbul olunur. Xalqın, vətəndaşlarımızın hamısının səyləri nəticəsində biz ölkəmizdə sabitliyə nail olmuşuq, ictimai-siyasi sabitlik əldə etmişik.

1994-cü ildə Ermənistan-Azərbaycan müharibəsində atəşi dayandırmışıq, atəşkəs rejimi əldə etmişik. İnsanlarımıza rahat, sülh şəraitində yaşamaq, yaratmaq, qurmaq imkanları təmin etmişik. Biz müharibədən tamamilə xilas olmaq istəyirik, işğal edilmiş torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün çalışırıq.

Ölkəmizin suverenliyi, müstəqilliyi, torpaqlarımızın müdafiəsi yolunda böyük qurbanlar vermişik. Qan tökülübdür, şəhidlər vermişik. Bu Qurban bayramı günündə bütün şəhidlərə Allahdan rəhmət diləyirəm, xalqımıza səbir diləyirəm. İnanıram ki, biz Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyik, işğal olunmuş torpaqlar azad olunacaq, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz elinə-obasına qayıdacaqlar. Bütün xalqımızın rahat, firavan həyat sürməsi üçün imkanlar yaradılacaqdır.

Son illərdə bütün sahələrdə əldə etdiyimiz nailiyyətlər xalqımızın, vətəndaşlarımızın Azərbaycan dövlətinə, iqtidarına göstərdiyi etimadın, dəstəyin nəticəsidir, cəmiyyətimizin əksəriyyətinin həmrəy olmasının, birliyə, mehribanlığa səylər göstərməsinin nəticəsidir. Bütün bunlara görə bu gün mən Azərbaycanın vətəndaşlarına, xalqımıza təşəkkür edirəm. Bayram günü sizi əmin edirəm ki, Azərbaycanın dövləti bundan sonra da ölkəmizin müstəqilliyinin möhkəmlənməsi uğrunda əzmlə çalışacaq, vətəndaşlarımızın rifah halının yaxşılaşması üçün ardıcıl tədbirlər həyata keçirəcək və respublikamızın inkişafını təmin edəcəkdir. Buna əmin ola bilərsiniz.





Amma bunlara nail olmaq üçün yenə də və yenə də ölkəmizə sülh, əmin-amanlıq, sabitlik lazımdır, qarşılıqlı anlaşma, həmrəylik, birlik lazımdır. Mən bu gün sizləri, Azərbaycanın bütün vətəndaşlarını bu yolda əməkdaşlığa dəvət edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, biz istədiyimizə nail olacağıq.

Bu gün biz Qurban bayramı münasibətilə İslam aləminin müqəddəs yeri Bibiheybət pirinə, Həzrət Hökumənin qəbri olan yerə toplaşmışıq. Hamımızı sevindirən odur ki, keçmişdə, bir neçə il öncə burada olan xarabazarlıq ləğv edilibdir, 1933-cü ildə nadanlar tərəfindən dağıdılmış Bibiheybət məscidinin yerində yeni, ondan da gözəl, yaraşıqlı, əzəmətli məscid tikilib və bu gün biz bu məsciddəyik. Bu, bizim tariximizə, dinimizə, imanımıza, milli-mənəvi ənənələrimizə sədaqətin rəmzidir. Biz heç vaxt öz dinimizi, tariximizi, milli-mənəvi dəyərlərimizi unutmamalıyıq. Onları yaşatmaq, onlardan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir.

Mən məmnunam ki, qısa bir zamanda Bibiheybət məscidini yenidən yaratdıq. Xatirimdədir, 1994-cü ildə mən buraya gələrkən xırda bərpa işləri başlanmışdı. Hamımız birlikdə belə qərar qəbul etdik ki, Həzrət Hökumənin ruhuna, İslam dinimizin ənənələrinə layiq, milli ənənələrimizə layiq məscid tikməliyik.

Xoşbəxtəm ki, buna nail olduq. Bu məscid bütün ziyarətə gələnlər üçün böyük bir töhfədir. Böyük xoşbəxtlikdir ki, biz bu töhfəni hər bir müsəlmana bəxş edə bilirik. Keçmiş illərdə biz Azərbaycanda çox zavodlar, fabriklər, saraylar, məktəblər, xəstəxanalar, elmi tədqiqat institutları, teatrlar, kinoteatrlar tikmiş, yaratmış, ölkəmizi inkişaf etdirmişik. Ancaq o illərdə bi-

zim dinimiz qadağan edilmişdi, millətimizin, xalqımızın ən əziz dəyərlərinə itaət etməkdən məhrum olmuşdur, Azərbaycanda məscidlərin əksəriyyəti dağıdılmışdı.

Ona görə də indi bu boşluğu mütləq doldurmalıyıq və bunu da edirik. Azərbaycan vətəndaşları, insanlar öz imkanlarından istifadə edərək ölkəmizin hər yerində dini ocaqlar, məscidlər yaradırlar. Bu təqdirəlayiqdir. Bu sahədə bizim də işlərimiz göz qabağındadır. Gördüyümüz işlərin ən gözəl nümunəsi də bu gün toplaşdığımız Bibiheybət məscididir. Biz bunu yaratmışıq ki, azərbaycanlılar, müsəlmanlar bundan istifadə edib öz istəklərini, arzularını yerinə yetirsinlər. Biz bunu gələcək nəsillər üçün bir abidə kimi yaratmışıq. İnanıram ki, xalqımız bu müqəddəs yeri, Bibiheybət məscidini daim yaşadacaqdır.

İndi Azərbaycan müstəqil dövlətdir, öz taleyini özü həll edir. Bundan sonra biz heç vaxt imkan verməyəcəyik ki, yadellilər, dinimizə, imanımıza, mənəviyyatımıza zidd olan hansısa qüvvələr gəlib bizə hakim olsunlar və mənəvi dəyərlərimizə yenidən xəsarət gətirsinlər. Bundan sonra heç vaxt buna yol verilməyəcəkdir. İnanıram ki, Bibiheybət məscidi bu gündən sonra daha da zənginləşəcək və gələcək üçün yaşayacaq, gələcək nəsillərə bizdən töhfə olacaqdır.

Mən bu gün bütün Azərbaycan xalqına, müsəlmanlara ən xoş arzularımı bildirirəm. Əziz dostlar, bu gün bu müqəddəs məscidə toplaşdığınıza görə sizə təşəkkür edirəm. Hər birinizə cansağlığı və səadət arzulayıram. Bayramınız mübarək olsun! Sağ olun.

* * *

**Allahşükür Paşazadə:** Əziz Prezidentimiz və Sizinlə gələn dövlət işçiləri! Bu, bizim üçün yeni addımdır. Bilirsiniz ki, vaxtilə nəinki Qurban bayramını qeyd etmək, hətta qurban kəsmək bizim üçün çox çətin idi. Bir vaxt vardı qurbanı gizli kəsirdik, qorxurduq. Amma indi müstəqil Azərbaycan dövlətinin rəhbəri kimi, Siz Qurban bayramı gününü elan etdiniz və o günü istirahət günü elədiniz. Bugünkü gündə də Qurban bayramını





bizimlə bir yerdə keçirirsiniz. Allah-Təala Sizi bəladan qoruyub saxlasın. Allah-Təala Sizin rəhbərliyinizlə bütün Azərbaycanın, xalqımızın gələcəyini xoşbəxt eləsin. Bir arzum da var: Allah-Təala xoş niyyətlərinizə çatmağınıza kömək eləsin və biz də həmişə Sizə duaçıyıq.

Sizə bir daha minnətdarlığımı bildirirəm, çox sağ olun. Sizin gəlişiniz bizim üçün xeyirdir, xoşbəxtlikdir. Bütün müsəlmanlara, Azərbaycan müsəlmanlarına, mənəviyyatımıza verdiyiniz qiymətdir ki, bu qədər işiniz olduğu halda, gəlib bizimlə görüşürsünüz. Biz bunu çox qiymətləndirir və bir daha minnətdarıq. Çox sağ olun.

## PASXA BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi xristianlığın müqəddəs bayramlarından biri olan Pasxa münasibətilə ürəkdən təbrik edir, hamınıza həyatda xoşbəxtlik və səadət arzulayıram.

Azərbaycan tarixən müxtəlif xalqların mehriban bir ailə kimi dinc yanaşı yaşadığı, milli adətlərin, dini-mənəvi dəyərlərin qorunub saxlandığı bir ölkə olmuşdur. Müstəqillik qazandıqdan sonra bu şərəfli ənənə davam etdirilmiş, hər kəsin vətəndaş hüquqları, vicdan azadlığı və dini etiqad sərbəstliyi təmin olunmuşdur. Təsadüfi deyildir ki, 1934-cü ildə sovet rejiminin dini etiqad azadlığına müdaxiləsi nəticəsində ləğv edilmiş Bakı və Xəzəryanı Yeparxiya da müstəqil dövlətçilik şəraitində öz fəaliyyətini yenidən bərpa etmişdir.

Respublikamızın müasir həyatında dinindən və milliyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları fəal iştirak edir. Onlar dövlətimizin müvəffəqiyyətləri ilə birgə sevinir, qayğıları ilə yaşayır və problemlərini birgə həll edirlər. İnanıram ki, öz sıralarında vətəndaşlarımızı birləşdirən bütün milli-mədəni təşkilatlar, vətəndaş təsisatları, dini qurumlar və konfessiyalar, o cümlədən Rus Pravoslav Kilsəsi bundan sonra da cəmiyyətin mənəvi-əxlaqi saflaşması, insanlar arasında mehribanlıq, xeyirxahlıq, dostluq və qardaşlıq hisslərinin yaranması, bir-birinə qayğı ilə yanaşması yolunda öz layiqli töhfələrini verəcəkdir.

Pasxa bayramı pravoslav xristianların həyatında ən əlamətdar və əziz günlərdən biridir. Qoy builki bayram hər bir vətəndaşımıza, onların ailələrinə, bütün insanlara sevinc, əmin-amanlıq və xeyir-bərəkət gətirsin.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 10 aprel 1999-cu il*





## YƏHUDİ XALQININ MÜSİBƏTİ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN YƏHUDİ İCMASINA MÜRACİƏT

Hörmətli həmvətənlər!

Bütün mütərəqqi bəşəriyyət hər il yəhudi xalqının müsibəti gününü - İkinci Dünya müharibəsində yəhudi xalqına qarşı həyata keçirilmiş soyqırımı siyasətinin günahsız qurbanlarının xatirəsini ürək ağrısı ilə yad edir.

1943-cü ilin aprelində Varşava gettosunda saxlanan yəhudi məhbusları öz insani ləyaqətlərini qorumaq naminə üsyan etmiş, lakin onların haqlı etirazı faşistlər tərəfindən ağlasığmaz qəddarlıqla yatırılmışdır.

Acınacaqlı faktdır ki, İkinci Dünya müharibəsində altı milyon mülki əhali yalnız yəhudi xalqına mənsub olması səbəbi ilə müxtəlif faciələrə düçar edilmişdir. O günahsız qurbanların xatirəsini bir daha yad edir və təəssüflə bildirirəm ki, bu gün də dünyada bəzi millətçi – separatçı qüvvələrin təhriki ilə insanlar milli mənsubiyyətinə görə məhv edilir, öz tarixi torpaqlarından didərgin salınır və qeyri-insani məhrumiyyətlərə məruz qalır. XIX–XX əsrlərdə Qafqazda böyük dövlətlərin məkrli ermənilərin əli ilə Azərbaycan xalqına qarşı dəfələrlə həyata keçirdikləri soyqırımı siyasəti son on ildə özünün növbəti mərhələsinə qədəm qoymuş, yüz minlərlə dinc əhalimiz milli mənsubiyyətinə görə təqib olunmuş, öz ata-baba yurdundan qovulmuş, qanlı faciələrə sürüklənmişdir.

Yəhudilərin müsibəti günündə öz ağrılarımızın da yada salınması təbiidir. Çünki milli mənsubiyyətinə görə soyqırımı siyasətinə, kütləvi qanlı faciələrə məruz qalan xalqlardan biri də Azərbaycan xalqıdır. İnanıram ki, faşizmin törətdiyi cinayətlər bütün dünyada öz qiymətini aldığı kimi, ermənilərin xalqımıza qarşı həyata keçirdikləri təcavüzkar, qanlı və mənfur hərəkətlər də öz

siyasi və hüquqi qiymətini alacaqdır. Yaşadıqları oxşar tale və düçar edildikləri faciəli müsibətlər yəhudi və Azərbaycan xalqlarını bir-birinə daha da yaxınlaşdırır. Bu hüznlü gündə yəhudi xalqının kədərinə şərik olduğumu bildirir və dünyanın bütün mütərəqqi qüvvələrini insanlığa zidd olan hər cür zorakılığa, milli, dini və irqi ayrı-seçkiliyə qarşı mübarizəyə səsləyirəm.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 12 aprel 1999-cu il*





## YƏHUDİ XALQININ SOYQIRIM TARİXİNİ ƏKS ETDİRƏN “HOLOKOST” XATİRƏ MUZEYİNDƏ ÇIXIŞ

*Vaşinqton, 22 aprel 1999-cu il*

Hörmətli xanımlar və cənablar!

“Holokost” muzeyini ziyarət etmək çox əhəmiyyətlidir. Ancaq, eyni zamanda, bu ziyarət ağır hissiyyat doğurur. Alman faşistlərinin yəhudilərə qarşı həyata keçirdiyi soyqırım bəşər tarixində ən dəhşətli, ən faciəli hadisələrdən biridir. Biz Azərbaycanda soyqırımın nə olduğunu bilirik. XX əsrdə bizim də xalqımıza qarşı bir neçə dəfə soyqırım siyasəti həyata keçirilmiş və azərbaycanlılar dəhşətli faciələrə düçar olmuş, məhv olmuşlar. Bunları görərək, xalqımız bu faciələrin şahidi olaraq, biz yəhudilərin dünyada nə qədər faciələrlə rastlaşdığını da bilirik və bunu öz faciəmiz kimi qəbul edirik.

Alman faşistlərinin yəhudilərə qarşı həyata keçirdiyi soyqırım siyasəti dünyada misli görünməmiş, dəhşətli şəkildə olubdur. “Holokost” muzeyi bunu əyani şəkildə göstərir. Doğrusu, bu faciələri bilməyimizə, ayrı-ayrı kinofilmlərdə bunları gördüyümüzə baxmayaraq, bu gün “Holokost” muzeyindəki eksponatları görmək, müşahidə etmək çox ağır və çətindir. Bəzən təsəvvür etmək mümkün deyil ki, insan insana qarşı bu qədər vəhşilik edərmi? Ancaq bu həqiqətdir. Yəhudilərə qarşı belə vəhşiliklər edilmişdir, bunu alman faşistləri etmişlər.

Yəhudi xalqı tarix boyu çox böyük sınaqlara çəkilmiş və çox böyük çətinliklərlə üzləşmişdir. Ancaq bunlara baxmayaraq, yəhudi xalqı bütün bu sınaqlardan keçərək öz qədim, zəngin mədəniyyətini, öz mənliyini qoruyub saxlamışdır. Yəhudi xalqını tamamilə məhv etməyə çalışmışlar. Ancaq heç kəs buna nail ola bilməmişdir. Ona görə nail ola bilməmişdir ki, yəhudi xalqı bəşər mədəniyyətini zənginləşdirmiş və bəşər tarixində böyük

izlər qoymuş bir xalqdır. Tarix sübut etmişdir ki, bu xalqı məhv etmək mümkün deyildir.

"Holokost" muzeyi yəhudilərin başına gəlmiş bəlaları, müsibəti, faciəni çox əyani şəkildə göstərir. Bu muzeyi yaradanlar, eksponatları buraya toplayanlar, bəşəriyyətə yüksək səviyyədə təqdim edənlər tarixi missiyanı həyata keçirirlər. Alman faşizminin, nasizmin bəşəriyyətə qarşı etdiyi vəhşiliyi dünyaya – bugünkü və gələcək nəsillərə göstərmək lazımdır. Bəşəriyyət bir daha belə hallara yol verməməlidir. Ona görə də "Holokost" muzeyi çox böyük əhəmiyyət kəsb edir. Muzey həm bu faciəni əks etdirir, eyni zamanda, insanları daha da sayıq olmağa dəvət edir, insanları belə faciələrə qarşı mütəşəkkil olmağa dəvət edir.

Muzeyin yaradıcıları və bu eksponatları buraya toplayanlar böyük xeyirxah iş görmüşlər. Mən bu gün burada, muzeydə yanan əbədi məşəl önündə, həlak olmuşların xatirəsi qarşısında baş əydim. Bu muzeyi yaradanların və onu dünyaya nümayiş etdirənlərin xidmətləri qarşısında da baş əyirəm.

Bu muzey təkcə yəhudilər üçün yox, dünyanın bütün xalqları üçün lazımlıdır. Hər bir insan bu muzeylə tanış olarkən, eksponatları seyr edərkən özü üçün nəticə çıxarmalıdır. Yeganə nəticə ondan ibarətdir ki, bəşəriyyət bundan sonra heç yerdə, heç bir xalqa qarşı soyqırıma yol verməməlidir. Dünya Birliyi müharibə alovlarını söndürməli, münaqişələri ləğv etməli, dünyada sülhün, əmin-amanlığın yaranması üçün daha çox səylər göstərməlidir. Bunlar muzeyə baxarkən çıxarılan nəticədir.

Mən sizə təşəkkür edirəm. Çox sağ olun, bizə çox geniş məlumatlar verdiniz.

Azərbaycanda yəhudilər qədim zamanlardan yaşayıblar. Onlara Azərbaycan xalqı tərəfindən heç vaxt ayrı-seçkilik edilməyibdir. Yəhudilər Azərbaycanda həmişə bərabər hüquqa malik olublar. İkinci Dünya müharibəsi zamanı alman faşizminin Sovetlər İttifaqına hücum etməsi nəticəsində işğal olunmuş torpaqlardan 60 minə yaxın yəhudi Azərbaycan ərazisinə köçürülmüşdü. Müharibə illərində Azərbaycanın daxilində olan çətinliklərə baxmayaraq, yəhudilərə böyük qayğı göstərilib, onlar yerləşdirilib və yaşamaları üçün lazımi şərait yaradılıbdır.





Yəhudilər əvvəllər də – 20-ci illərdə Ukraynadan, Rusiyadan Azərbaycana köçürülüblər, Azərbaycanda özlərinə vətən tapıblar, doğma vətənləri kimi Azərbaycanda yaşayıb, qurub, çalışıblar. İndi müstəqil Azərbaycanda yəhudilər tam bərabərhüquqlu insanlar, vətəndaşlar kimi yaşayır, işləyir, ölkəmizin ictimai-siyasi həyatında iştirak edirlər. Azərbaycanda müsəlman, İslam konfessiyası ilə yanaşı, xristian və yəhudi konfessiyaları da fəaliyyət göstərir. Bunlar müstəqil Azərbaycanın bugünkü reallığıdır. Biz yəhudi xalqına öz həyatını qurmaqda və öz arzularına çatmaqda uğurlar arzulayırıq.

Mən sizin muzeyə 20-ci illərdə Azərbaycana köçürülmüş yəhudilər haqqında da bəzi arxiv materialları təqdim etmək istəyirəm. Bu materiallarla tanış olarkən görəcəksiniz ki, Azərbaycana köçürülmüş yəhudilərə o vaxt nə qədər böyük qayğı göstərilibdir. Güman edirəm ki, bu materiallar sizin üçün əhəmiyyətli olar. Sizə bir daha təşəkkür edirəm.

Bu arxiv materiallarını təqdim edərkən onu da bildirim ki, vaxtilə Azərbaycanın böyük heykəltəraşı, rəssamı Sabsay çox gözəl fikirlər söyləyibdir. Bu materiallar arasında onun yazısı da var. Bunlar sizin üçün əhəmiyyətli olar.

Mən muzeyə kitablar və İsrailin Baş naziri Benyamin Netanyahunun Bakıya səfəri barədə albom da bağışlayıram.

**Muzeyin nümayəndəsi:** Cənab Prezident, çox gərgin səfər cədvəlinizdən vaxt ayırıb muzeyimizi ziyarət etdiyinizə görə Sizə təşəkkürümüzü bildiririk. Yəhudilərə qarşı törədilmiş soyqırımın yad edilməsi üçün ictimaiyyət qarşısında verdiyiniz bəyanata görə Sizə təşəkkür edirik. Salonları gəzib muzeyimizlə tanış olarkən keçirdiyiniz kədər hisslərini anlayır və hesab edirik ki, muzeyimiz insanlarda məhz bu cür hisslər doğurmaq üçün yaradılmışdır. Muzeyimizə verdiyiniz hədiyyəyə görə də Sizə təşəkkürümüzü bildiririk. Bu sənədlər yəhudilərin başına gəlmiş hadisələrin ictimaiyyətə daha ətraflı şəkildə çatdırılması üçün bizə yardımçı olacaqdır.

Hesab edirik ki, yəhudilərin aqibəti təkcə Avropanı deyil, dünyanın bir çox ölkələrini əhatə edibdir. Biz Sizinlə tamamilə razıyıq ki, "Holokost"u – yəhudi soyqırımını dərk etmək demokratik dəyərlərin, azadlıq amallarının inkişafı, çiçəklənməsi işinə yardımçı olmaq üçün hər birimizə lazımdır və gərəklidir. İcazənizlə, bu kitabı Sizə təqdim edim. "Dünya gərək unutmasın" adlanan bu kitabda, muzeydə gördüyünüz kimi, "Holokost"un tarixindən bəhs olunur. Ümidvarıq ki, kitab tarixin bu mühüm anını yad etməkdə Sizə həmişə yardımçı olacaqdır.

Sizə bir daha təşəkkürümüzü bildirir və xahiş edirik ki, Azərbaycan xalqına bizim salamlarımızı yetirəsiniz.

**Heydər Əliyev:** Təşəkkür edirəm.

***Muzeyin xatirə kitabına ürək sözləri:***

"Holokost" muzeyini ziyarət edərkən yəhudi xalqının keçirdiyi faciəni, iztirabları ürəkdən təsəvvür etdim.

Yəhudi xalqı ilə iki əsrdən artıq soyqırım siyasətinə məruz qalmış Azərbaycan xalqının həyatında oxşarlıq çoxdur. Özlərinin keçmişini unutmayan xalqlarımız həm tarixi həqiqəti bərpa etmək, həm də üzləşdikləri iztirabların hazırda və gələcəkdə baş verməməsi üçün birgə səylər göstərməlidirlər.

Öz adımdan, eləcə də Azərbaycan xalqı adından dərin kədər hissimi bildirərək bütün tərəqqipərvər bəşəriyyəti "Holokost" faciəsini unutmamağa və hər hansı bir zorakılığa qarşı mübarizə aparmağa çağırıram".





## BAKININ SURAXANI RAYONUNDA "HEYDƏR MƏSCİDİ"NİN AÇILIŞI MƏRASİMİNDƏ SÖHBƏT

*Yeni Suraxanı qəsəbəsi, 10 iyul 1999-cu il*



**Heydər Əliyev:** Bu yeni dini ocaqla yaxından tanış oldum. Bura toplaşan dindarları səmimi-qəlbdən təbrik edirəm. Bu, yeni bir Allah evidir və böyük hadisədir. Bizim həyatımızın belə ağır, çətin bir dövründə zəhmət çəkib bu cür binalar tikmək böyük bir şücaət tələb edir. Bunu yaratmısınız, tikmisiniz.

Mən də bunu himayə etmişəm. Allah bu məscidə çox uzun ömür versin və bizim dindarlara da bu məsciddə Allaha, dinə, Qurana itaət etmək üçün daha da güc versin, daha da iradə versin.

**Hacıbala Abutalıbov** *(Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı)*: Cənab prezident, 3500 il bundan qabaq burada Atəşgah mə-



bədgahı olub. Makedoniyalı İsgəndərin yürüşü zamanı o Atəşgah məbədgahı sökülüb dağıdılıbdır. Ondan sonra Suraxanı qəsəbəsinin yerli camaatı həmin atəşgahı bir də bərpa edibdir. Ərəb xəlifələrinin yürüşü zamanı bu atəşgah bir də dağıdılıb. Sonra Suraxanı qəsəbəsinin əhalisi bu məbədgahı yenə də bərpa edib. O vaxtdan bu qəsəbədə məscid olmayıbdır. Bu ilk məsciddir. Bu, Suraxanı qəsəbəsi sakinlərinin təşəbbüsü ilə, cənab prezident, Sizə olan sevgini və məhəbbəti göstərmək xatirinə tikilən böyük bir Allah evidir.

**Arif Babayev** *(Suraxanı maşınqayırma zavodunun direktoru)*: Cənab prezident, mən fərəh hissi ilə deyə bilərəm ki, Allah-Təala elə qismət edib ki, bu gün bizim prezidentimizin adına məscidimiz vardır. Biz bununla fəxr edirik və fərəh hissi keçiririk.







# ABŞ-ın YƏHUDİ TƏŞKİLATLARININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏT

*Prezident sarayı, 14 iyul 1999-cu il*



**Heydər Əliyev:** Mən sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Amerika Birləşmiş Ştatlarında yaşayan yəhudilərin təşkilatları ilə biz artıq yaxşı dostluq əlaqələri yaratmışıq. Şübhəsiz ki, bu dostluq əlaqələri hər iki tərəfin arzusu və istəyi ilə olubdur.

Mən Amerika Birləşmiş Ştatlarında 1997-ci ildə rəsmi səfərdə olarkən yəhudi təşkilatları konfranslarının prezidentləri ilə Nyu-Yorkda çox əhəmiyyətli bir görüş keçirdim. Mən bu ilin aprel ayında Vaşinqtonda olarkən "Holokost" muzeyini ziyarət etdim, orada da görüşlər keçirdim. Yəhudi təşkilatlarının nümayəndələri də vaxtaşırı olaraq Azərbaycana gəlirlər. Mən bunu birinci növbədə Azərbaycan-Amerika Birləşmiş Ştatları əlaqələrini, Azərbaycan-İsrail əlaqələrini daha da genişləndirmək və bununla bərabər, yəhudi təşkilatları ilə daha sıx əməkdaşlıq etmək üçün çox əhəmiyyətli hesab edirəm.







Eşitdiyimə görə, sizin bu səfəriniz də çox səmərəli keçir. Mən bundan çox məmnunam.

**Barri Geykobs** *(Amerika Yəhudi Komitəsinin hökumət və beynəlxalq məsələlər üzrə müdir müavini):* Cənab Prezident, səmimi sözlərə görə Sizə minnətdarlığımı bildirirəm, çox sağ olun.

Azərbaycanda bizə göstərilən qayğıya və hərarətli görüşlərə görə hər birimizin adından, o cümlədən şəxsən öz adımdan Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Əlbəttə ki, bizim Azərbaycana səfərimiz bir növ rəmzi xarakter daşıyır. Bu səfər Amerika Birləşmiş Ştatlarındakı Yəhudi Komitəsi ilə Azərbaycan arasında dostluğun nə qədər möhkəm olduğunu göstərir. Bu, eyni zamanda, Azərbaycan ilə İsrail arasında sağlam, isti münasibətlər olduğunu göstərir. Səfərimizin digər məqsədi isə Azərbaycanda yaşayan həmmillətlərimizi – yəhudiləri görməkdir.

Biz eşitmişik ki, Azərbaycanda yaşayan yəhudi icmasına çox geniş azadlıqlar verilibdir. Onlar respublikanın digər vətəndaşları ilə bərabər vəziyyətdə yaşayırlar. Biz indi bunun hamısını öz gözlərimizlə gördük.

Cənab Prezident, bir neçə ay bundan əvvəlki xəstəlikdən sonra belə tez sağalmağınız münasibətilə Sizə təbriklərimizi yetir-

mək istəyirik. Çox şadıq ki, Sizi bu cür çox sağlam və qüvvətli görürük. Cənab Prezident, çox sağ olun.

**Heydər Əliyev:** Təbrikə görə təşəkkür edirəm. Həqiqətən də özümü yaxşı hiss edirəm. Amerika Birləşmiş Ştatlarında məni çox yaxşı müalicə ediblər.

Siz Azərbaycanın vəziyyəti ilə tanış olmusunuz. Bu barədə geniş söhbət açmağa ehtiyac yoxdur. Mən çox məmnunam ki, siz Azərbaycanda yəhudilərin vəziyyəti ilə tanış ola bilmisiniz. Yəqin gördünüz, Azərbaycanda milliyyətindən, dinindən asılı olmayaraq, hər bir vətəndaş bərabər hüquqa malikdir. Bir çox dövrlərdə, bir çox yerlərdə yəhudilərə müxtəlif məhdudiyyətlər qoyulduğuna, onlar sıxıntılar keçirdiklərinə görə biz Azərbaycanda yəhudilərə daim xüsusi münasibət göstərmişik və bu gün də göstəririk.

Güman edirəm ki, bizim əsas problemimizlə, yəni Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində ölkəmizin torpaqlarının 20 faizinin işğal edilməsi, bir milyondan artıq azərbaycanlının yerindən-yurdundan didərgin düşməsi, köçkün, qaçqın vəziyyətində yaşaması ilə də tanış olmusunuz.

Şübhəsiz ki, dünyanın müxtəlif yerlərində ayrı-ayrı insanlara, qruplara, millətlərə cürbəcür işgəncələr verilir, onlara müxtəlif təzyiqlər göstərilir. Amma güman edirəm, öz ölkəsində bir milyondan artıq qaçqının, köçkünün çadırlarda yaşadığı Azərbaycan kimi bir ölkə dünyanın heç bir yerində yoxdur. Bu, Azərbaycanın bugünkü reallığıdır. Biz həmişə arzu edirik ki, Azərbaycanın bu reallığı da dünyada, hər yerdə yayılsın. Bilsinlər ki, Azərbaycan nə qədər ağır vəziyyətdədir.

Sizə məlumdur ki, biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik və bu istiqamətdə öz işimizi aparırıq. Bilirsiniz ki, yeddi il bundan əvvəl Amerika Birləşmiş Ştatlarının Konqresində Azərbaycana qarşı 907-ci maddə deyilən bir məhdudiyyət qoyulubdur. Biz son illər nə qədər çalışırıq, amma həmin məhdudiyyəti aradan götürə bilmirik. Təbii ki, bu, Amerika Konqresinin ədalətsiz bir qərarıdır.





Biz çox çətin bir vəziyyətdəyik və böyük problemlərlə rastlaşaraq münaqişənin sülh yolu ilə həll olunmasına çalışırıq. Mən Amerikada da, Azərbaycanda da keçirdiyim görüşlərdə yəhudi təşkilatlarının nümayəndələrinə üz tutaraq demişəm ki, Amerikada sizin imkanlarınız çoxdur, ədalətin bərpa olunması üçün Azərbaycana yardım edin. Bu sözləri sizə də deyirəm.

Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında çox gözəl tərəfdaşlıq, dostluq əlaqələri yaranıbdır. Biz bunu yüksək qiymətləndiririk və bütün sahələrdə əməkdaşlığımızı genişləndiririk. Ancaq lazımdır ki, bizim də problemlərimiz həll olunsun. Amerika Birləşmiş Ştatlarında yəhudi təşkilatlarının təsiri böyükdür. Biz çox arzu edərdik ki, siz öz təsirinizdən bu istiqamətdə də istifadə edəsiniz.

**Barri Geykobs:** Cənab Prezident, Sizə məlum olduğu kimi, bütün yəhudi təşkilatları, xüsusilə nümayəndələri bugünkü görüşdə iştirak edən yəhudi təşkilatları – Amerika Yəhudi Komitəsi və sovet yəhudiləri ilə iş üzrə Milli Konfrans Təşkilatı Vaşinqtonda çox möhkəm çalışırıq ki, Azərbaycanı dəstəkləyək. Əlbəttə, biz ölkənizin düşdüyü vəziyyəti və bir milyon qaçqının vəziyyətini çox yaxşı anlayırıq. Biz bu dəfə Azərbaycanda olarkən onları da görə bilmişik.

Yəhudilər özləri tarix boyu bir çox hallarda qaçqın olmuşlar. Ona görə də onlar bu vəziyyəti hamıdan yaxşı dərk edirlər və əhalinin bu təbəqəsinə böyük rəğbətlə yanaşırlar. Bütün bunların hamısından əlavə, biz Sizin göstərdiyiniz səylərə öz töhfəmizi verməyə çalışırıq. Biz çalışırıq ki, Ermənistan ilə Azərbaycan arasında sülh olsun.

Hazırda biz Cənubi Qafqazın hər üç ölkəsinə səfərimizi başa çatdırmaq üzrəyik. Biz müşahidələr aparmışıq, vəziyyətlə müəyyən qədər tanış olmuşuq. Aydındır ki, bu regionda inkişaf yalnız sülh bərqərar ediləndən sonra mümkündür. Bizim Azərbaycandan başqa, digər iki ölkədə də apardığımız müşahidələr haqqında fikirlərimiz vardır.

## ŞEYXÜLİSLAM ALLAHŞÜKÜR PAŞAZADƏYƏ

Hörmətli Şeyxülislam!

Sizi – Qafqaz müsəlmanlarının dini rəhbərini, Azərbaycanın tanınmış ictimai xadimini 50 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Müqəddəs dinimiz olan İslamın gözəl ənənələrinin ölkəmizdə, eləcə də bütün Qafqaz bölgəsində qorunub saxlanılması və möhkəmləndirilməsində sizin xüsusi xidmətləriniz vardır. Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etdiyiniz iyirmi il ərzində bu dini qurum İslam dəyərlərinin geniş təbliğ olunması, müsəlmanların dini-mənəvi birliyinin möhkəmləndirilməsi, onların cəmiyyətin həyatında fəallığının artırılması işində böyük rol oynayan mühüm mərkəzlərdən birinə çevrilmişdir.

Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsində tutduğunuz əsl vətəndaş mövqeyi ölkədə cərəyan edən mürəkkəb ictimai-siyasi prosesləri obyektiv qiymətləndirmək, yaranmış problemlərin həllində dini amilin gücündən düzgün istifadə etmək bacarığınızı nümayiş etdirdi.

Respublikamızda müxtəlif konfessiyalar arasında dini dözümlülük, dostluq və əməkdaşlıq ab-havasının hökm sürməsində də sizin əməyiniz vardır. Bu sahədə gördüyünüz işlər, digər konfessiyaların rəhbərləri ilə birgə fəaliyyətiniz Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar olmasına xidmət edir.

Siz dini-ictimai xadim kimi, beynəlxalq aləmdə də böyük nüfuza maliksiniz. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Qafqazda sülhün və əmin-amanlığın möhkəmləndirilməsi ilə bağlı fəaliyyətiniz təqdirəlayiqdir. Qurani-Kərimin təbliğ etdiyi haqq, ədalət və humanizm ideyaları İslam aləminin taleyüklü problemlərinin həlli yolunda atdığınız addımlarda öz əksini tapmışdır.





Əminəm ki, müstəqil Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsi üçün ölkə dindarlarının səfərbər olunması və cəmiyyətin dini-mənəvi birliyinin möhkəmləndirilməsi yolunda bundan sonra da əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizə cansağlığı və xoşbəxtlik, bütün işlərinizdə yeni uğurlar arzulayıram.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 26 avqust 1999-cu il*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Sizi dünya yəhudilərinin ən qədim bayramlarından olan Roş-Ha-Şana – Yeni il münasibətilə ürəkdən təbrik edir, bu əziz gündə hamınıza xoşbəxtlik, cansağlığı arzularımı yetirirəm.

Tarixən müxtəlif xalqların, milli azlıqların mehriban ailə kimi yaşadıqları Azərbaycan bu gün hüquqi demokratik dövlət quruculuğu və milli müstəqillik yolu ilə inamla addımlamaqdadır. Hər bir xalqın dil və mədəniyyətini, milli adət-ənənələrini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının təminatı üçün əsl demokratik hüquqi baza yaradılmışdır. Respublikamızın bütün xalqları kimi, yəhudi əhalisi də ölkəmizdə gedən bu tarixi proseslərin fəal iştirakçısıdır.

Əminəm ki, müstəqil Azərbaycanın ictimai-siyasi və mədəni həyatında, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində bundan sonra da yaxından iştirak edəcək, doğulub yaşadığınız vətənə övladlıq borcunu layiqincə yerinə yetirəcəksiniz.

Mənəvi paklıq, tövbə günü və həyatın başlanğıcı kimi bayram etdiyiniz Roş-Ha-Şana qoy hər birinizin həyatında əmin-amanlıq, xoş müjdələr ili olsun.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 9 sentyabr 1999-cu il*





## "İSLAM MEMARLIĞI MİNİLLİKLƏR AYRICINDA" BEYNƏLXALQ SEMİNARININ İŞTİRAKÇILARINA

Hörmətli seminar iştirakçıları!

Sizi – "İslam memarlığı minilliklər ayrıcında" mövzusunda paytaxtımız Bakı şəhərində keçirilən beynəlxalq seminarın iştirakçılarını müstəqil Azərbaycan torpağında səmimi-qəlbdən salamlayıram.

Dünya sivilizasiyasının formalaşıb inkişaf etməsində İslam elminin və mədəniyyətinin böyük rolu danılmazdır. Müxtəlif müsəlman xalqlarının birgə səyləri ilə təşəkkül tapmış İslam mədəniyyətinin ən mühüm tərkib hissələrindən biri isə memarlıqdır. Xalqlarımızın uzun əsrlər boyu yaratdıqları nadir memarlıq abidələri öz əzəmətli, orijinal üslubu və yüksək sənətkarlıq keyfiyyətləri ilə mütəxəssisləri bu gün də heyran edir. İslam memarlıq məktəbinin bəşəriyyətə bəxş etdiyi misilsiz sənət inciləri dinimizin humanist fəlsəfi dəyərlərinin parlaq ifadəsi, müsəlmanların daim qurub-yaratmaq eşqinin əyani maddi təcəssümüdür.

Bu mötəbər beynəlxalq forumun erkən İslam mədəniyyəti mərkəzlərindən biri sayılan Bakı şəhərində keçirilməsini ölkəmizin dünya memarlığında tutduğu yerə verilən yüksək qiymət kimi dəyərləndirir və onu müstəqil Azərbaycan Respublikasının mədəni həyatında əlamətdar hadisə hesab edirəm. Avropa və Asiyanın qovşağında yerləşən ölkəmizdə dünya və İslam memarlığının ən yaxşı ənənələri ilə milli xüsusiyyətlərin sintezini özündə əks etdirən güclü memarlıq məktəbi təşəkkül tapmışdır. Zənn edirəm ki, seminarın keçirildiyi günlərdə Azərbaycan memarlarının yaratdıqları bəzi sənət nümunələri ilə əyani şəkildə tanış olmağa imkan tapıb buna əmin olacaqsınız.

XXI əsrin astanasında öz müstəqilliyini bərpa etmiş Azərbaycanın qarşısında geniş inkişaf perspektivləri açılmışdır. Həyatın bütün sahələrində mühüm dəyişikliklər baş verir. Azərbaycan bütün

postsovet məkanına xas olan mürəkkəb sosial-iqtisadi problemlərin həlli ilə yanaşı, cəmiyyətdə milli-mənəvi dəyərlərin bərpa və bərqərar edilməsi sahəsində ciddi iş aparır. İnanıram ki, İslam memarlığının inkişafı məsələlərinə həsr olunmuş seminarınız da bu yolda atılmış mühüm addımlardan biri olacaq, xalqlarımızın mədəni və intellektual inkişafına yardım edəcəkdir.

Seminarınızın işinə böyük uğurlar arzulayır, hər birinizə cansağlığı, xoşbəxtlik və yeni nailiyyətlər diləyirəm.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 21 sentyabr 1999-cu il*





## NAXÇIVAN ŞƏHƏRİNİN SARVANLAR MƏHƏLLƏSİNDƏ İRAN İSLAM RESPUBLİKASININ "BONYADƏ MOSTEZƏFİN" FONDU TƏRƏFİNDƏN TİKİLMİŞ "HƏZRƏTİ ZƏHRA (S.Ə)" MƏSCİDİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*10 oktyabr 1999-cu il*



Əziz naxçıvanlılar!
Əziz müsəlmanlar!
Əziz qonaqlar!

Bu gün Naxçıvan Muxtar Respublikasının, Azərbaycan Respublikasının həyatında çox böyük hadisə baş verir. Biz Naxçıvanda yeni bir məscidin, Allah evinin açılışına toplaşmışıq. Bu, bizim üçün böyük bayramdır. Xüsusən onu qeyd etmək istəyirəm ki, bu günlər Naxçıvan Muxtar Respublikasının yaran-

masının 75 illiyi keçirilir. Məscidin məhz bu günlərdə açılması 75 il ərzində Naxçıvan Muxtar Respublikası vətəndaşlarının, insanlarının, müsəlmanlarının – naxçıvanlıların öz İslam dininə nə qədər bağlı olduğunu və İslam dininin ənənələrini yaşatdığını göstərir.

Mən bu əlamətdar hadisə münasibətilə sizin hamınızı, Naxçıvan Muxtar Respublikasının əhalisini, İran İslam Cümhuriyyətindən bizə təşrif gətirmiş hörmətli qonaqlarımızı ürəkdən təbrik edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, bu məscid yüz illərlə yaşayacaq, Naxçıvan Azərbaycan xalqının öz İslam dini ilə daim birlikdə olmasına xidmət göstərəcək və xalqımızın mənəvi dəyərlərini inkişaf etdirəcəkdir.

Məscidin yaranması, tarixi haqqında burada məlumatlar verildi. Ancaq mən də bu barədə demək istəyirəm. Çünki mən bu gün böyük sevinc, iftixar hissi keçirirəm. Ona görə ki, bu məscidin burada, Naxçıvanda tikilməsinin, yaranmasının təşəbbüskarıyam. Mən bu məscidin memarıyam, mən bunun təməlini qoyanam.

O illərdə və xüsusən 1992-ci ildə, Allah-Təalanın əmri ilə mən Naxçıvan Muxtar Respublikasında yaşadığım və bu muxtar respublikaya rəhbərlik etdiyim zaman Naxçıvan məscidini daim ziyarət edirdim, dindarlarla görüşürdüm. Mən o məscidi yaxşı tanıyıram. Çünki uşaq ikən atam, anam məni həmin məscidə aparırdı. Doğrudur, o vaxt biz sovet hakimiyyəti dövründə, kommunist ideologiyasını həyata keçirən bir ölkədə yaşayırdıq. O vaxt din qadağan edilmişdi, ardıcıl surətdə din əleyhinə, yəni ateist təbliğatı aparılırdı, insanları dindən ayırmağa çalışırdılar. O vaxtkı dövlət buna zahirən müəyyən qədər nail ola bilirdisə də, daxilən heç bir şey əldə edə bilmirdi.

Mənim atam da, anam da namaz qılırdılar. Onlar daim məscidə gedirdilər, uşaq ikən məni də məscidə aparırdılar. Mənim o uşaqlıq dövrümdə məktəbdə aldığım təhsil, tərbiyə ilə bərabər, məscidə getməyim paklıq, sədaqət formalaşmasında da öz əksini tapıbdır.







Xatirimdədir, o məscidin həyəti var idi. Onun bir tərəfini məktəb etmişdilər. Çünki o vaxt Naxçıvanda məktəblər yaranırdı, bina isə yox idi. Məscid binasının indi görünən tərəfinin arxasında böyük bir həyət var idi, həyətin yan tərəfində binalar var idi – yəqin onlar da məscidin binaları imiş. Ancaq mən görən zaman orada məktəb var idi. Uşaqlar məktəbdən çıxıb məscidin həyətinə, oradan da məscidə girirdilər. O məscidin həyətində Aşura günlərinin keçirilməsi mənim xatirimdədir. Mən onların hamısını görmüşdüm.

Mən imanımı heç vaxt itirməmişəm, mənsub olduğum millətin İslam dini ilə həmişə fəxr etmişəm. Şübhə etmirdim ki, vaxt gələcək, bizim ölkədə də insanlar tam azad olacaqlar, o cümlədən insanlara vicdan azadlığı veriləcək və onda onlar öz arzu və istəklərini daha da açıq bildirə biləcəklər.

Mən gənc vaxtlarımdan uzun müddət idi ki, Naxçıvandan ayrılmışdım. Bakıda işləyirdim, Azərbaycana rəhbərlik edirdim. Ondan sonra Moskvada işləyirdim, Sovetlər İttifaqının, o böyük superdövlətin rəhbərlərindən biri idim. O dövlətə 10-12

nəfərdən ibarət Siyasi Büro rəhbərlik edirdi. Sovetlər İttifaqının tarixində həmin o Siyasi Büroya daxil olmaq heç bir müsəlmana nəsib olmamışdı. Mən yeganə müsəlman idim ki, Sovetlər İttifaqının rəhbərliyində Siyasi Büronun üzvü idim. Ancaq mən öz milli ruhumu, ənənələrimi, hissiyyatlarımı, dinimizə məxsus olan ənənələri həmişə qəlbimdə yaşadırdım.

Mənim dostum, hörmətli Şeyxülislam Hacı Allahşükür Paşazadə həyatımda faciəvi bir hadisəni xatırlatdı. 1985-ci ildə mən Moskvada həmin dövlətin rəhbərlərindən biri olduğum zaman həyat yoldaşım Zərifə xanım vəfat etdi. Onu Moskvanın, Rusiyanın ən mötəbər qəbiristanında dəfn etdik. Çünki mən də, ailəm də Moskvada yaşayırdıq. Sonra mən o qəbiristanı dəfələrlə gəzirdim və orada bir dənə də müsəlman qəbri görmədim. Ancaq dəfn zamanı Şeyxülislam Allahşükür Paşazadə mənim yanımda idi. Bəli, bu həqiqətdir. O bunu mənim yadıma saldı. Bir tərəfdən böyük bir dövlətin rəhbərləri dəfn mərasimində iştirak edirdilər, o birisi tərəfdən Qafqaz müsəlmanlarının Şeyxülislamı Quran oxuyur və bu dəfn mərasimini bütün adət-ənənələrə görə həyata keçirməyə çalışırdı.

Mən Moskvadan ayrılıb gəlib Naxçıvanda yaşayarkən çox sıxılırdım. Ona görə ki, mənim həyat yoldaşım yad bir yerdə idi. Amma o vaxt onu Vətən torpağına gətirməyə mənim imkanım yox idi. Burada bilənlər var ki, o vaxt Moskvada mənim əleyhimə çox böyük işlər görülürdü, böhtanlar atılırdı. Mən istefa vermişdim. Çoxları demişdi ki, müsəlman artıq bu yüksək vəzifədə ola bilməz. Təəssüflər olsun ki, o illər Azərbaycanda da vəziyyət çox gərgin idi. Ancaq mən 1993-cü ildə Azərbaycanın rəhbərliyinə dəvət olunandan sonra həyat yoldaşımın cənazəsini dərhal, yenə də hörmətli Allahşükür Paşazadə ilə bərabər gətirib öz vətənimizdə torpağa verdik.

Mən bunu birinci dəfədir danışıram. Ona görə danışıram ki, mən öz doğulduğum torpaqdayam, öz dostlarımın arasındayam. Ona görə danışıram ki, onun bugünkü gün ilə də müəyyən münasibəti vardır.








Mən 1990-1993-cü illərdə burada işləyəndə məscidə gedirdim, dindarlarla görüşürdüm, öz duyğularımı, hissiyyatlarımı orada həyata keçirirdim. Ancaq düşünürdüm ki, indi artıq milli azadlığımızı, vicdan azadlığımızı əldə edəndən sonra Naxçıvan üçün daha da böyük bina, müasir tələblərə daha da uyğun bir məscid lazımdır.

Mən bu barədə çox fikirləşirdim, ancaq əlimdə bir imkan yox idi. Bilirsiniz ki, 1992-ci ilin avqust ayında Azərbaycan ağır bir dövr yaşadığı zaman Ermənistan silahlı qüvvələri Azərbaycanın doğma torpağı olan Dağlıq Qarabağı ələ keçirmək məqsədi ilə 1988-ci ildən Azərbaycanla müharibəyə başlamışdı.

Bu müharibə Azərbaycan üçün çox böyük zərərlər gətirmiş, qanlar tökülmüşdür. Azərbaycanlılar, müsəlmanlar ermənilərlə vuruşarkən şəhid olmuşlar. Bunun nəticəsində də Dağlıq Qarabağ uğrunda müharibə getdiyi zaman Naxçıvan Azərbaycanın əsas torpağından Ermənistan ərazisi vasitəsilə ayrı düşdüyünə

görə Azərbaycanın paytaxtı Bakı və başqa şəhərlər ilə Naxçıvanın əlaqələri tamamilə kəsilmişdi.

Burada bizim elektrik enerjimiz, qazımız yox idi. Su çox az olurdu. İnsanların yaşayışı çətin, ağır idi. O zaman İran İslam Cümhuriyyətinin hörmətli Prezidenti Haşimi Rəfsəncani və İranın xarici işlər naziri hörmətli Əli Əkbər Vilayəti məni Tehrana dəvət etdilər. Biz Naxçıvana yardım məsələlərini orada müzakirə etdik. Bizim imzaladığımız protokollara əsasən ondan sonra Naxçıvana İrandan müəyyən qədər elektrik enerjisi verilməyə başlandı. Naxçıvana müəyyən ərzaq yardımı göstərildi. Naxçıvan ilə İran arasındakı körpüdən gediş-gəliş məsələləri müəyyən qədər yüngülləşdirildi. Naxçıvanlıların İrana getməsi və iranlıların Naxçıvana gəlməsi və beləliklə də insanların ticarət etməsi məsələləri yüngülləşdirildi. Bir çox başqa işlər də görüldü.

Ancaq mən oraya Ermənistanın mühasirəsində qalmış Naxçıvanı xilas etmək üçün, İran İslam Cümhuriyyətindən yardım almaq üçün getmişdim. Mən bu yardımları müəyyən qədər aldım. Bütün bu çətin işlərlə bərabər, mən Naxçıvanda məscid tikilməsi məsələsini də bir nömrəli məsələ kimi müzakirəyə qoydum. Bu barədə Prezident Ağayi Haşimi Rəfsəncani ilə danışdım, Məşhədə getdim, İmam Rzanın qəbrini ziyarət etdim, o vaxt orada olan zati-aliləri Ayətullah Xamnei ilə görüşdüm və bu fikirlərimi, arzularımı bildirdim. İranın ali rəhbəri zati-aliləri Ayətullah Xamneinin xeyir-duası ilə mənim əziz dostum, möhtərəm Ağayi Rəfiqdust və onun başçılıq etdiyi təşkilat Naxçıvanda məscid tikilməsi haqqında qərar qəbul etdilər, biz protokol imzaladıq.

Bir daha deyirəm, o vaxt Naxçıvan çox böyük sıxıntılar içərisində yaşayırdı, qışda insanlar donurdu, yemək yox idi. Amma bunlara baxmayaraq biz məscid məsələsini unutmurduq. Bir müddətdən sonra Ağayi Rəfiqdust Naxçıvana gəldi. Biz onunla görüşdük. Mən ona dedim ki, gərək biz məscidin təməlini ataq, külüngü vuraq. Dedi ki, harada vuraq? Bildirdim ki, yer seçmişəm. Bax, bu yeri seçmişdim.





Nə üçün bu yeri seçmişdim? Çünki birincisi, bu yer Naxçıvan şəhərinin gözəl bir guşəsidir. İkincisi də, naxçıvanlılar bilir, bu yerdə böyük bir seyidlər ailəsi yaşamışdır. Mircəfər Seyidov mənim müəllimim olubdur, onun qardaşı Əqil Seyidov müəllimlik edibdir, Mirhəsən Seyidov Naxçıvan teatrının aktyoru olubdur. Mən bu ailədən olanlara Seyidov dedim, çünki onlar seyid idilər. Amma əslində onlar Mircəfər Mirişli, Əqil Mirişli, Mirhəsən Mirişli və bu gün Azərbaycanın böyük bir bəstəkarı olan Ramiz Mirişlidir.

Mən o illərdə bax, burada onların evlərini görmüşdüm. Sonra isə buraya gələndə gördüm ki, onların evlərinin bir qismi söküIüb, bir qismi qalıbdır, bu yerdə başqa – yararsız binalar da var. Mən buranı seçdim ki, məscid tikilsin. Biz Ağayi Rəfiqdust ilə birlikdə gəldik – bilmirəm, buradır, yaxud oradır, haradırsa külüngü vurduq. Onların şəkli qalıb, yoxsa yox?

**Vasif Talıbov:** Qalıbdır.

**Heydər Əliyev:** Biz külüngü vurduq. Mən külüngü vurdum, o, külüngü vurdu və biz bu məscidin təməlini qoyduq. Bu, hadisə 1992-ci ildə olubdur. Düzdür, bu işə başlanması bir az uzandı. Ağayi Rəfiqdust mənə söz vermişdi ki, bunu tez edəcəkdir. Amma sonra Azərbaycanda ara qarışdı. Ondan bir ildən az, təxminən 8-9 ay sonra mən buradan Bakıya getdim, Azərbaycana rəhbər seçildim. Orada başım çox qarışdı. Amma mən Vasif Talibovdan daim soruşurdum ki, məscidin tikintisi nə yerdədir. Bəzən deyirdi ki, işlər gedir, bəzən də deyirdi ki, işlər dayanıb. Soruşurdum ki, niyə dayanıb? Cavab verirdi ki, İranın Qərbi Azərbaycanından, Şərqi Azərbaycanından nəsə gətirirlər, kimsə gəlir, kimsə gəlmir.

Mən Ağayi Rəfiqdusta telefonla zəng etdim ki, qardaş, belə olmaz, protokolu yerinə yetirmək lazımdır. Bu, uzun bir söhbətdir. Nəhayət, Ağayi Rəfiqdustu Bakıya dəvət etdim. Onda mən Azərbaycanın Prezidenti idim. Biz Bakıda çox gözəl söhbət etdik. O, mənim əziz qonağım oldu. Ona dedim ki, sənə dörd ay vaxt verirəm, bu vaxt ərzində məscidin tikintisini qurtarmalısan. Bu

gün minnətdaram ki, o, mənim xahişimi və mənə verdiyi sözü yerinə yetiribdir. Məscidin binası çoxdan hazırdır. Ancaq bunun açılışı mərasiminin keçirilməsinə görə həm İran üçün, həm də Azərbaycan üçün, yəni mənim üçün bir münasib vaxt tapılması lazım idi. Bu münasib vaxtı tapdıq, buraya gəldik, indi bax, bir yerdəyik.

Mən bunları ona görə geniş danışıram ki, bir də deyim – bu gün özümü çox xoşbəxt hesab edirəm. Mən çox şadam, çox sevinirəm ki, Azərbaycanda, o cümlədən Naxçıvanda yaratdığım böyük memarlıq əsərləri ilə yanaşı, İran İslam Cümhuriyyəti ilə bərabər, bilavasitə onların köməyi ilə Naxçıvanda yeni məscid, eyni zamanda, Şərq aləminin memarlıq nümunəsi olan böyük bir bina yarada bilmişik.

Naxçıvanda indiki məscidin, səhv etmirəmsə, 100-dən çox yaşı vardır. Amma bu yeni bina yüz illər yaşayacaqdır. Bizdən sonra gələn nəsillər bizə rəhmət oxuyacaqlar. Mənim üçün isə bundan böyük mükafat ola bilməz.

Mən bu məscidin tikilməsindən çox məmnunam. Çox məmnunam ki, məscidin açılışı mərasiminə İran İslam Cümhuriyyətindən böyük, çox mötəbər, möhtərəm qonaqlarımız, dostlarımız gəliblər. Mən bu görüşdən də çox məmnunam.

Bu məscid böyük məna daşıyır. Bu da ondan ibarətdir ki, o, İran-Azərbaycan dostluğunun, qardaşlığının, əməkdaşlığının gözəl bir nümunəsidir. Biz Azərbaycanda müstəqil bir dövlət kimi, qonşumuz, dostumuz, qardaşımız İran İslam Cümhuriyyəti ilə əlaqələrimizi daim inkişaf etdirmək, genişləndirmək istəyirik. Hesab edirəm ki, bunun üçün böyük imkanlar vardır və biz onlardan istifadə etməliyik. Hər halda mən Naxçıvanda olarkən biz bu əməkdaşlıq sahəsində qısa bir zamanda çox işlər görə bildik. Mən artıq söylədim ki, İrandan elektrik enerjisi gəldi. İrandan 40 meqovat elektrik enerjisi gəlir, buna görə çox sağ olun. Doğrudur, biz onun pulunu veririk, bu enerji müftə gəlmir. Ancaq elə onun özü də böyük şeydir.





Məni sevindirən odur ki, İran ilə Naxçıvan arasındakı yollar çox sərbəstləşdirilibdir. Hesab edirəm, İran hökuməti bu sahədə çox səxavət göstəribdir, gözəl bir siyasət aparır ki, insanlar 24 saat müddətində Naxçıvandan İrana gedib, İrandan Naxçıvana gələ bilirlər, adamlar sərbəst ticarət edirlər. Bu, bizim arzumuz olubdur.

Bilirsiniz, biz istəyirik ki, müstəqil Azərbaycandan hər bir ölkəyə – əlbəttə, dost ölkəyə – gediş-gəlişimiz çox olsun. Amma İran axı burada xüsusi yer tutur. Azərbaycan üçün başqa bir dövlət yoxdur ki, ölkəmizdə yaşayan azərbaycanlıların, müsəlmanların orada İrandakı qədər qohumları olsun. Mən hesab edirəm, – sonra İrandan Qərb ölkələrinə, Avropa ölkələrinə köçənləri demirəm, keçmiş vaxtları nəzərdə tuturam, – elə İranın özündə də, xüsusən onun Şimal hissəsində ailə tapmazsan ki, onun Azərbaycanda qohumu, qardaşı olmasın. Biz 70 il idi ki, bundan məhrum idik. Mən bunların hamısını öz gözümlə görmüşəm. İnsanlar göstərməyə qorxurdular ki, bir yerdə bilsinlər ki, onun İranda qohumu vardır. Onda onu işdən çıxarırdılar, cəzalandırırdılar. Ona görə də hamı İranda qohumları olduğunu gizlədirdi. Elə ki sərhəd açıldı, o qədər qohumlar meydana çıxdı ki! Bu insanlara azadlıq verilməli idi. Bu azadlıq verilibdir.

İndi Naxçıvan ilə İran arasında olan əlaqələr ən gözəl, nümunəvi əlaqələrdir. Mən arzu edirəm ki, bu əlaqələr bundan sonra daha da inkişaf etsin. Bu gün İran-Azərbaycan dostluğu haqqında danışarkən o vaxt Azərbaycana, Naxçıvana göstərilən xidmətə görə İranın rəhbərlərinə – Zati-aliləri Ayətullah Xamneiyə, Prezident Haşimi Rəfsəncaniyə, xarici işlər naziri Ağayi Vilayətiyə və başqa rəhbərlərə təşəkkür edirəm.

Mən Şərqi Azərbaycanın o vaxtkı ostandarı, indi isə İran hökumətinin naziri olan Əli Əbdüləlizadəyə təşəkkür edirəm. Çünki Naxçıvan Şərqi Azərbaycanla da çox yaxındır. Əli Əbdüləlizadə o vaxt Naxçıvana qardaşlıq diqqəti göstərirdi. Mən məmnunam ki, indi o, İran hökumətinin naziridir.

Mən o vaxt Naxçıvana çox gedib-gəlmiş və uzun müddət Azərbaycan-İran müştərək komissiyasının sədri olmuş Ağayi Şafeyiyə, o zaman Naxçıvana yardım göstərmiş bir çox dostlarımıza təşəkkür edirəm.

Ağayi Rəfiqdust təkcə məscid tikmək üçün yox, ticarət üçün də burada yaxşı bir dükan, mağaza açdı, gətirib mal da satdı. Mən də ona yer verirdim. Ona görə də deyirdim ki, mən onu Bakıya, Azərbaycana ticarət naziri vəzifəsinə aparacağam.

Bilirsiniz, mən o günlər haqqında bir tərəfdən, kədərlə danışıram, çünki biz çox çətin bir dövr keçirdik. İkinci tərəfdən, iftixar hissi ilə danışıram, çünki o çətin, ağır dövrdə biz yaşadıq, sınmadıq, əyilmədik, öz torpağımızı müdafiə etdik və respublikamızı inkişaf etdirdik.

Xatirimdədir, Ağayi Əbdüləlizadə bir dəfə böyük bir nümayəndə heyəti ilə Naxçıvana gəlmişdi. O vaxt qış idi. Naxçıvanlılar bilir ki, buranın qışı çox sərt olur. Mən onu qonaq çağırmışdım. Biz Naxçıvandakı qonaq otağında oturmuşduq, üşüyə-üşüyə yemək yeyirdik, əlimizi cibimizdən çıxara bilmirdik. Paltomuz əynimizdə idi. Dostum, bunlar yadındadır? Əli Əbdüləlizadə baxıb soruşdu ki, burada necə yaşayırsınız?

Dedim ki, gör indi biz burada necə yaşayırıq. Belə səhifələr olubdur.

Biz indi, bu gün tamamilə başqa şəraitdəyik. Doğrudur, Azərbaycanın hələ çox böyük çətinlikləri vardır. O cümlədən Naxçıvanın ən böyük çətinliyi odur ki, Ermənistan-Azərbaycan münaqişəsinə görə Naxçıvan bu gün də Azərbaycanla, yəni Bakı ilə ancaq təyyarə vasitəsilə əlaqə saxlaya bilir. Başqa bir əlaqə yoxdur. Mən burada yenə də İranın Azərbaycana, Naxçıvana yardımını qeyd edirəm və təşəkkürümü bildirirəm. Yollar bağlananda İran hökuməti Naxçıvandan Bakıya avtomobillərin gedib-gəlməsi üçün yol verdi və biz həmin yoldan indiyə qədər istifadə edirik. Görürsünüz, nə qədər faktlar, misallar vardır. Mən bundan da çoxunu deyə bilərəm.







Beləliklə, bizim bugünkü günümüz İran-Azərbaycan dostluğunun bayramıdır, iftixarıdır. İran böyük, güclü bir dövlət, İslam dinini qoruyub inkişaf etdirən bir dövlətdir. İslam inqilabı bu ölkənin həyatını kökündən dəyişmiş, onun inkişaf etməsi, xalqın daha da yaxşı yaşaması üçün böyük imkanlar yaratmış və İranı şahlıq istibdadından xilas etmişdir.

İran, İslam Cümhuriyyətidir. Biz bunu bir dövlət, ölkə, qonşu, dost kimi, necə varsa o cür qəbul edirik.

Ümumiyyətlə, Azərbaycanın siyasəti ondan ibarətdir ki, heç bir dövlət başqa bir dövlətin daxili işinə qarışmamalıdır. Hər bir müstəqil dövlət öz həyatını öz xalqının istədiyi kimi qurmalıdır, xaricdən müdaxilə olmamalıdır.

Mən bu sözləri ona görə deyirəm ki, Azərbaycanda bəzi adamlar, o cümlədən bizə müxalif olan adamlar var. Onlar belə söhbətlər aparırlar ki, İranda azadlıq, filan yoxdur. Mən bu fikirləri tamamilə rədd edirəm. Hesab edirəm ki, Azərbaycandan heç kəs İranın daxili işlərinə qarışmamalıdır. Mən bu gün bunu bəyan edirəm ki, hamı bilsin.

Ancaq indi mətbuat azadlığıdır. İnsanlar qəzetlərdə nə istəyirlər – onu yazırlar. O cümlədən Azərbaycan Prezidenti Heydər Əliyev haqqında da, demək olar ki, hər gün müxalifət qəzetlərində yalan, böhtan məlumatlar yazırlar. Bəzən İranın da bir sıra qəzetlərində Heydər Əliyev haqqında yalanlar, böhtanlar yazırlar. Amma mən nə ona, nə də buna fikir verirəm. Bu, əsas deyil. Mən bilirəm ki, o da yalandır, bu da yalandır, o da böhtandır, bu da böhtandır.

Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir. Biz müstəqilliyimizi əldə edəndən sonra bu yolu tutmuşuq, bu yolla gedirik və bu yolla da gedəcəyik. Çünki son iki əsrdə Azərbaycanın həyatında yaranmış proseslər Azərbaycanı məhz demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişaf etdirməyin əsasını qoymuşdur. Bu, bizim yolumuzdur. Biz bu yolla gedirik. Dünyəvi dövlət, eyni zamanda, vicdan azadlığı; dünyəvi dövlət, eyni zamanda, İslam dininin bütün mənəvi dəyərlərinin hamısından istifadə etmək – bundan kim necə istəyirsə, o cür istifadə etsin – bu yol ilə gedirik. Görürsünüz, nə qədər maraqlı, gözəl bir siyasətdir. Biz bu siyasəti aparırıq və bu siyasəti də aparacağıq.

Hesab edirəm ki, hər bir ölkə başqa ölkənin dövlət quruluşuna, siyasətinə, daxili vəziyyətinə hörmətlə yanaşmalıdır. Biz İranın daxili quruluşuna və daxili siyasətinə böyük hörmətlə yanaşırıq. İran da Azərbaycanın daxili vəziyyətinə, dövlət quruluşu prosesinə, dünyəvi dövlət olmasına hörmətlə yanaşır. Bu, bizim dostluğumuzun, qardaşlığımızın əsas prinsiplərindən biridir.

Bizi daha da yaxınlaşdıran odur ki, xalqlarımızın qədim tarixi köklərinin hamısı birdir. Bizim tarixi köklərimiz birdir. Biz bir kökə, bir tarixə malik insanlarıq. Ulu babalarımız İranda da, Azərbaycanda da bu gün bizim üçün dəyərli olan ənənələri yaradıblar. İran ilə Azərbaycan kimi bir-birinə bu qədər bənzər olan digər ölkə yoxdur. Əvvəllər, sovet hakimiyyəti vaxtında Araz çayı maneə idi, indi bu maneə də aradan götürülüb. İndi bu çayın üzərində körpülər tikilir. Hesab edirəm, yeniləri də tikiləcək və bizim əlaqələrimiz daha çox inkişaf edəcəkdir.





Mən bu gün İran xalqına sülh, əmin-amanlıq arzulayıram. Mən bu gün İran xalqına rifah arzulayıram. İran xalqı demokratik seçkilər əsasında öz dövlətinin başçısını, zati-aliləri Xatəmini ölkənin prezidenti seçibdir. Mən bu seçki başa çatan kimi Qərbin bir neçə ölkəsini təmsil edən mətbuat nümayəndələri qarşısında bildirdim: Siz deyirsiniz ki, İranda demokratiya yoxdur. Bundan artıq nə cür demokratiya ola bilər? Həmin seçkilərin özü İranda demokratiyanın çox yüksək səviyyədə olduğunu göstərir.

Ancaq təbiidir ki, hər ölkənin özünəməxsus xüsusiyyəti var. Mən heç razı ola bilmərəm ki, Azərbaycanda hər bir şey Fransadakı, İngiltərədəki, Amerikadakı kimi olsun. Mən buna razı ola bilmərəm. Mən Azərbaycanda demokratik dövlət yaradıram. Amma Azərbaycanın öz milli-mənəvi ənənələri vardır. İranın da özünün milli-mənəvi ənənələri vardır. İran İslam dövlətidir. Belə bir şəraitdə demokratik seçkilər keçirmək, bir neçə namizədin içərisindən xalqın iradəsi ilə Prezident seçmək İran İslam İnqilabının ən gözəl nəticələrindən biridir.

Hesab edirəm ki, İran xalqı tərəfindən seçilmiş Prezident, zati-aliləri Xatəmi İran ilə Azərbaycan arasındakı əlaqələrin inkişaf etməsinə çox böyük diqqət göstərir. Mən onunla Tehranda görüşüb ətraflı söhbət edərkən bunu hiss etdim. Ondan sonra bir sıra məktublar vasitəsilə əlaqələrimizdən də və xüsusən son dəfə Azərbaycanda səfərdə olmuş Ağayi Əbdüləlizadə ilə söhbətimdən də bunu hiss etdim.

Mən bu gün bir daha bəyan edirəm ki, əziz dostlar, siz də bilin və İran Prezidenti zati-aliləri Xatəmi də bilsin ki, Azərbaycanın Prezidenti kimi, mən İran-Azərbaycan əlaqələrinin sağlam olması yolunda, onun daim inkişaf etməsi üçün çalışıram və bundan sonra da çalışacağam. Bu, bizim xalqlarımız, dövlətlərimiz üçün lazımdır. Mənim bu siyasətimi heç kəs dəyişdirə bilməz.

Bu gün biz İslam dininin mənəvi dəyərlərinin təzahürünü bir daha görürük. İslam dininin mənəvi dəyərləri ən yüksək qiymətə malikdir. Hər bir xalq həmişə özünün mənsub olduğu dini təbliğ edir, tərifləyir. Amma eyni zamanda, müqayisə etməyə

imkan vardır. Şübhəsiz ki, müqayisə edəndə görürsən ki, Həzrət Məhəmməd peyğəmbərin yaratdığı İslam dini və onun yaratdığı Qurani-Şərif əsrlər boyu bizim xalqlarımıza mənəvi qida olmuşdur və bundan sonra da olacaqdır. Azərbaycan müsəlmanları həmişə belə olacaqlar.

Mən İrandan gəlmiş qonaqlarımızı bir daha salamlayıram. Təbrizin imam cüməsi Ayətullah Mücrəndi Şəbüstərinin buradakı çox dəyərli çıxışını məmnuniyyətlə dinlədim. Güman edirəm ki, biz bu cür çıxışlarla, danışıqlarla, təmaslarla öz dostluğumuzu, qardaşlığımızı daha da irəliyə aparacağıq.

İrandan gəlmiş bütün qonaqlara təşəkkür edirəm. Sizinlə görüşümdən çox məmnunam və sizi, bütün naxçıvanlıları bugünkü əlamətdar hadisə münasibətilə bir daha təbrik edirəm. Sağ olun.





## NAXÇIVANDA "KAZIM QARABƏKİR PAŞA MƏSCİDİ"NİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*13 oktyabr 1999-cu il*



Möhtərəm xanımlar və cənablar!

Əziz bacılar, qardaşlar, dostlar!

Türkiyə Cümhuriyyətindən Azərbaycana, Naxçıvana gəlmiş çox hörmətli qonaqlarımız, dostlarımız, qardaşlarımız!

Bu günlər biz Naxçıvan Muxtar Respublikasının yaranmasının 75-ci ildönümünü bayram edirik. Bu, bütün Azərbaycan xalqının bayramıdır. Çünki Azərbaycanın gözəl bir diyarı, eyni zamanda, Azərbaycana düşmən olan bəzi qüvvələr tərəfindən 20-ci illərdə Ermənistan ərazisi vasitəsilə Azərbaycan torpağından ərazi nöqteyi-nəzərindən ayrı salınmış Naxçıvanın muxtariyyət alması və 75 il müddətində muxtar dövlət kimi yaşaması böyük hadisədir. Ona görə bu bayram bütün Azərbaycan xalqının bayramıdır.




Bu bayram bizim dostlarımızın, qardaşlarımızın da bayramıdır. O cümlədən bizim dost, qardaş Türkiyə Cümhuriyyətinin, türk xalqının bayramıdır. Təsadüfi deyil ki, bu təntənələrdə Türkiyə Cümhuriyyətinin ən yüksək səviyyəli nümayəndə heyəti iştirak edir. Onlar bizimlə bərabərdir, bu bayram günlərini bizimlə birlikdə keçirirlər.

Bu bayrama Türkiyənin çox yüksək səviyyəli nümayəndə heyətinin gəlməsi ilə bərabər, bu bayramı Türkiyə Cümhuriyyətinin Prezidenti, Azərbaycan xalqının əziz dostu, mənim qardaşım Süleyman Dəmirəl göndərdiyi çox nəzakətli mesaj ilə təbrik etmişdir. Onun təbriki dünən bayram təntənəsinə toplaşmış salonda elan edilərkən xalq, insanlar tərəfindən böyük sevinc və məhəbbət hissi ilə qarşılandı.

Dünən bizim təntənəli mərasim keçirilən zaman əziz dostumuz, qardaşımız, zati-aliləri Süleyman Dəmirəl Naxçıvana telefon etdi, bizi bu bayram münasibətilə bir daha təbrik etdi, mənimlə telefonla danışdı, Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovla danışdı və özünün bayram təbriklərini bir daha, bu xalqa çatdırmağı xahiş etdi.

Mən dünən dedim və bu gün bir də bildirmək istəyirəm ki, bu bayram günlərini keçirmək haqqında bir neçə ay bundan öncə







hörmətli Süleyman Dəmirəllə danışarkən biz razılaşdıq ki, bayrama bərabər gələcəyik və o, Naxçıvanı bir daha ziyarət edəcəkdir. Bu arzularla naxçıvanlılar da yaşayırdı və mən də yaşayırdım. Ancaq Türkiyədə baş vermiş zəlzələ və onun nəticəsində olan faciə, böyük insan itkiləri indi Türkiyə dövlətinin, Türkiyə hökumətinin bütün qayğılarını cəlb edibdir. Türkiyənin Prezidenti bütün xarici səfərlərini ləğv edibdir. Ona görə buraya gəlməsi mümkün olmadı.

Bu gün bu fürsətdən istifadə edərək, Türkiyə Cümhuriyyətinin, Türkiyə xalqının üzləşdiyi ağır fəlakət, zəlzələ, faciə ilə əlaqədar Azərbaycan xalqının kədərini, qüssəsini və başsağlığını bir daha bəyan edirəm.

Dünən biz təntənəli mərasimdə böyük Atatürkün hörmətli Süleyman Dəmirəlin məktubunda yazılmış sözlərini dərin minnətdarlıq hissi ilə qarşıladıq. O sözlər daim bizim xatirimizdədir. Böyük Atatürk demişdir: "Azərbaycanın ələmi bizim ələmimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir". Biz də, Azərbaycan Prezidenti olaraq mən də Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra demişəm: "Türkiyənin ələmi, dərdi, kədəri bizim dərdimizdir, bizim kədərimizdir, Türkiyənin sevinci bizim sevincimizdir".

Ona görə o faciəli günləri biz bir yerdə keçirdik, bərabər olduq. O günlərdə türk və Azərbaycan xalqlarının birliyi bir daha nümayiş etdirildi. Biz dərhal yardım əlimizi uzatdıq və zəlzələnin vurduğu zərərləri aradan qaldırmaq üçün imkanımız dairəsində yardım göstərdik. Bunlar hamısı, o cümlədən bu gün burada Türkiyənin Diyanət İşləri Başkanlığı tərəfindən inşa edilmiş və Naxçıvana, Azərbaycana hədiyyə olunmuş gözəl məscidin, camenin açılması da Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının gözəl nümunəsidir.

Bəli, biz dəfələrlə deyirik: "Biz bir millət, iki dövlətik". Bu, bizim dostluğumuzun, qardaşlığımızın mənasını, məzmununu təşkil edir. Bu dostluq, qardaşlıq türk xalqı, Anadolu türkləri ilə Azərbaycan xalqı, Azərbaycan türkləri arasında əsrlərdən əsrlərə gələn dostluq, qardaşlıqdır. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra biz 70 il bir-birimizdən ayrı düşmüşdük. Amma bu 70 il bizi bir-birimizdən qəlbən ayırmamışdır. Azərbaycan öz dövlət müstəqilliyini elan edən kimi, müstəqil dövlət olaraq dünyaya bəyanat verən kimi, sərhədlər açılan kimi Türkiyə və Azərbaycan bir daha bir-birinə qovuşdu və əbədiyyətə qədər qovuşdu.

Azərbaycan xalqı ağır dövrlərdə Türkiyənin və türk xalqının yardımını görüb və daim buna minnətdardır. Xüsusən 1918-19-cu illərdə böyük Atatürkün sərkərdəliyi və başçılığı ilə istiqlal savaşı apararkən, öz torpağını ermənilərdən və başqa düşmənlərdən təmizləyərkən türk xalqı, Türkiyə Azərbaycana, Naxçıvana da öz xidmətini göstərdi.





Bəli, Türkiyə ordusu – Ənvər paşanın, Nuru paşanın başçılıq etdikləri Türkiyə ordusu Azərbaycana gəldi – Gəncəyə, Naxçıvana, Bakıya gəldi və Azərbaycanı o vaxtkı fəlakətlərdən qurtarmağa yardım etdi, şəhidlər verdi. Ən gərgin vəziyyət burada yaranmışdı. Çünki erməni daşnakları hücum edib buranı işğal edirdilər. Yenə də türk qardaşlarımız, türk ordusu, Mustafa Kamal Atatürkün ordusu buranı erməni daşnaklarından, bizim düşmənlərimizdən xilas etdi.

Burada mənim gənc vaxtımda, 13-16 yaşlarımda, orta məktəbi bitirdiyim illərdə mənə dərs verən, ana dili, türk dili, Azərbaycan dili dərsi verən müəllimim oturubdur – Lətif Hüseynzadə. Dünən təntənəli mərasimdə öz müəllimlərimi yada salırdım. 60 il, bəlkə də 65 il bundan öncə mənə dərs deyən müəllimlərdən birinci – əziz müəllimim Lətif Hüseynzadənin adını çəkdim. O, dünən mərasimdə yox idi.

Amma onu yad etdiyimi televiziya ilə eşidib bu gün buraya gəlmişdir. Mən burada onunla görüşdüm. Çox məmnunam, çox sevinirəm ki, indiyə qədər yaşayır, öz fəaliyyətini davam etdirir və böyük işlər görür. Xatirimdədir, mən Moskvada Sovetlər İttifaqı kimi superdövlətin başçılarından biri olduğum zaman istefaya getdim və məni Moskvada təqib etdilər. Orada məni çox incitdilər, hətta böyük təhlükələr qarşısında qalmışdım. Türk xalqı onu da bilməlidir ki, mən rus imperiyası tarixində, sovet imperiyası tarixində, sovet superdövlətinin tarixində Kremldə, o dövlətin başında duran ilk azərbaycanlı, ilk türk, ilk müsəlman olmuşam.

Xatirimdədir, 1982-ci ildə – o vaxt Azərbaycanın başçısı idim – məni Moskvaya dəvət edib Siyasi Büronun üzvü və Baş nazirin birinci müavini vəzifəsinə təyin edən zaman Türkiyə qəzetləri böyük sevinclə mənim fotoşəkillərimi vermiş və yazmışdılar ki, Kreml sarayının başında bir türk oğlu yüksəldi. Bəli, bu, bizi – azərbaycanlıları, türkləri, müsəlmanları çox sevindirdi. Ancaq

düşmənlərimizi kədərləndirdi. Mən beş il orada çalışandan sonra məcburi istefaya getdim. Mənim əleyhimə, o cümlədən erməni düşmənlərimiz tərəfindən müxtəlif təxribatlar, fitnələr və yalanlar, böhtanlar edilirdi. Moskvada üç il ağır bir şəraitdə yaşayandan sonra öz vətən torpağıma, Azərbaycana dönməyi qərara aldım. Gəldim Bakıya. Təəssüflər olsun ki, orada da namərdlər, nadürüst insanlar mənim yaşamağıma imkan vermədilər. Buraya, Naxçıvana gəldim. Burada məni qucaqladılar, qoyunlarına aldılar, burada məni yaşatdılar.

Bu hekayəti ona görə deyirəm ki, mən o ağır dövrdə Naxçıvana gəldim. Burada bacım yaşayırdı, onun kiçik komasında yerləşdim. Məni sayan adamlar gəlib görüşür, kiçik bir həyətdə, demək olar ki, səhərdən axşama kimi məni ziyarət edirdilər. Mənim müəllimim Lətif Hüseynzadə gəldi. O qədər sevindim ki! Çünki ondan 39-cu ildə ayrılmışdım, bu isə 90-cı il idi. Oturduq, çox söhbət etdik. Mən onun o vaxt dediyi sözləri sizə bildirmək istəyirəm. Dedi ki, əzizim Heydər, sən çalış ki, erməni düşmənlərimizin burada qarşısını al, Naxçıvana təcavüzə imkan vermə. Çünki 18-ci ildə onlar Naxçıvana hücum etdilər, əgər türk ordusu buraya gəlməsəydi, Kazım Qarabəkir paşanın ordusu Naxçıvana gəlməsəydi hamımızı qıracaqdılar. Bu, mənim gözümün qabağında hadisədir.

Yəni 1990-cı ildə Lətif müəllim, Lətif Hüseynzadə 1918-ci ili yadına saldı və o illərin şahidi olaraq mənə bir ağsaqqal, müəllim kimi öz tövsiyələrini verdi. Mən ona dedim: Əziz müəllimim, mən böyük həyat yolu keçmişəm. Bu gün Naxçıvana məcburiyyətdən gəlmişəm, amma eyni zamanda gəlmişəm ki, sizinlə bir yerdə olum, bərabər olum, öz həmvətənlərimlə bir yerdə olum və vətənimi qoruyum. Əgər qoruya bilərəmsə - qoruyacağıq, qoruya bilməyəcəmsə - hamımız bir yerdə şəhid olacağıq.

Türk ordusunun, xüsusən Kazım Qarabəkir paşanın adı Azərbaycanda, əlxüsus bu bölgədə məşhurdur və həmişə böyük hörmət-ehtiramla yad edilir. 1921-ci ildə yenə də Naxçıvan ətrafında mübarizə gedirdi. Ermənilər buranı öz əllərinə keçirmək





istəyirdilər. Ancaq Naxçıvan xalqı öz iradəsini göstərirdi. 1921-ci ildə Qarsda Azərbaycan xalqı üçün çox əhəmiyyətli olan Qars anlaşması, müqaviləsi imzalandı. Onu Türkiyə imzaladı, Rusiya imzaladı, Azərbaycan imzaladı, Ermənistan imzaladı.

Bu imzalarla Naxçıvanın Azərbaycanın tərkibində olması təsdiq edildi. Burada da əsas rolu Türkiyə oynadı. Həmin o Qars müqaviləsinin altında bizim hörmətli paşamız Kazım Qarabəkir paşanın imzası var.

1988-ci ildə Ermənistan Azərbaycana təcavüz edən zamandan, – Azərbaycan hələ Sovetlər İttifaqının daxilində idi,- Türkiyə Azərbaycanla bir yerdə oldu, Azərbaycana dayaq durdu, erməni təcavüzkarlarını pislədi, qınadı. Türkiyə Ermənistan kimi dövləti indiyə qədər tanımır, Ermənistanla öz sərhədlərini açmayıb və Azərbaycanla bir yerdədir.

90-93-cü illərdə, mən burada yaşayarkən, Ermənistanla Azərbaycan arasında müharibə gedərkən, Naxçıvan ağır blokada şəraitində olarkən Naxçıvanın başçısı kimi mən yenə də əlimi Türkiyəyə uzatdım. Əziz dostum Süleyman Dəmirələ müraciət etdim, ona telefon etdim. O, dərhal köməyə gəldi. Biz bərabər, bir yerdə körpü tikdik – "Ümid körpüsü", "Həsrət körpüsü" tikdik. O körpü Türkiyə ilə Azərbaycanı birləşdirdi. İndi o körpü vasitəsilə siz, əziz qonaqlarımız, buraya keçib gəlmisiniz, biz Türkiyəyə gedib-gəlirik. 1992-ci il may ayının 28-də bu körpünün təntənəli açılışını da biz – başda Süleyman Dəmirəl olmaqla Türkiyə hökuməti və Naxçıvan hökuməti, mən - bir yerdə bayram etdik. Əziz dostum Süleyman Dəmirəllə mənim çox söhbətlərim olub. Xüsusən bu bölgə haqqında, Kazım Qarabəkir paşa haqqında. O, bir dəfə mənə dedi ki, bir kitab var – "Suyu arayan adam", onu sənə göndərərəm, oxu. Mənim məlumatlarım var idi, amma o istəyirdi daha da çox olsun. Aldım, oxudum, çox gözəl bir kitabdır, çox gözəl! Buradakı hadisələr, o cümlədən Kazım Qarabəkir paşanın fəaliyyəti, o dövr çox gözəl əks olunubdur. Yəni, hörmətli Süleyman Dəmirəllə mənim aramda olan dostluq əlaqələri çərçivəsində biz bu tarixi bir yerdə təhlil etmiş, bir yerdə düşünmüşük.

İndi xoşbəxtlikdir, bəxtiyarlıqdır ki, biz bu günlərə gəlib çatmışıq. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı möhkəm olub, sarsılmazdır və əbədi olacaqdır!

Hörmətli Diyanət İşləri başkanı dedi ki, bu, Heydər Əliyevin əsəridir. Mən buna çox məmnunam, amma eyni zamanda, həqiqət də budur ki, mən burada işləyərkən körpünü açdıq, yollar açıldı, getdik-gəldik. Mən rica etdim ki, Türkiyə buraya hər türlü yardımlar edir, amma burada bir məscid, came də yaransın. Çünki xalqımız 70 il dindən ayrı düşüb. Yəni qəlbində dini saxlayıb, amma din yasaq, qadağan olunubdur, Naxçıvanda Allah evi azdır, bunu etmək lazımdır. Mənim bu ricam da qəbul edildi. Diyanət İşləri Bakanlığının qərarı ilə bu camenin tikilməsi üçün yer axtarıldı. Biz birlikdə bu yeri tapdıq. Sonra camenin layihəsini gətirdilər, baxdıq və onun əsası qoyuldu.

Sonra mən Bakıya getdim, Azərbaycana rəhbərliyə başladım. Amma daim maraqlanırdım ki, burada inşaat, tikinti necə gedir, nə vaxt qurtaracaq. Çünki tələsirdim ki, gəlib bu cameni görüm və onun açılışında iştirak edim. Allah bu qisməti mənə verdi. Ona görə mən böyük iftixar hissi ilə bu təntənəli, hörmətli məclisdə iştirak edirəm və bu hadisə münasibətilə sizin hamınızı ürəkdən təbrik edirəm.

Türkiyədən gələn qonaqlarımızın hamısı bizim üçün əzizdir. Ancaq buraya gələnə və Türkiyənin böyük elçisi mənə məlumat verənə qədər heç bilmirdim ki, hamımız üçün çox qiymətli bir insanın – Kazım Qarabəkir paşanın qızı da buradadır, o da buraya gəlibdir. Əziz bacım, siz bizim üçün çox qiymətlisiniz, Azərbaycan xalqı üçün qiymətlisiniz, naxçıvanlılar üçün qiymətlisiniz. Çünki sizin qəhrəman atanız Azərbaycan xalqı üçün, Naxçıvan üçün böyük xidmətlər göstərib və böyük irs qoyub gedibdir. Ona görə də mən təşəkkür edirəm ki, siz buradasınız. Sizi xüsusi salamlayır və öz təşəkkürümü bildirirəm.

Əziz dostlar, sizi bir daha təbrik edirəm. Güman edirəm ki, artıq biz lenti bərabər kəsməliyik. Sağ olun.





## AZƏRBAYCANDAKI DİNİ KONFESSİYALARIN BAŞÇILARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı, 16 noyabr 1999-cu il*

**Heydər Əliyev:** Siz bilirsiniz ki, Birləşmiş Millətlər Təşkilatının UNESCO təşkilatı 1995-ci ildə özünün qərarı ilə noyabrın 16-nı dünyada dözümlülük günü, səbirlilik, tolerantlıq günü elan etmişdir. XX əsrin sonunda demokratikləşmə prosesinin Yer kürəsinin bir çox ölkələrini əhatə etdiyini və insan hüquqlarının mühüm amil kimi ön plana çəkildiyini nəzərə alsaq, bu, çox vacib qərardır. Bu münasibətlə də mən istədim sizinlə görüşəm, ölkəmizdə bu məsələnin nə vəziyyətdə olduğunu, qısaca da olsa, birlikdə təhlil edək, mən sizi dinləyim və öz fikirlərimi deyim.

Bildiyiniz kimi, tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir.

Bilirəm ki, siz – hörmətli Şeyx Allahşükür Paşazadə, bizim Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycanın Xristian Pravoslav konfessiyası, Azərbaycanın Yəhudi konfessiyası və bütün başqaları – öz işinizi məhz bu istiqamətdə aparırsınız, buna böyük əhəmiyyət verirsiniz. Bununla belə, görünür, bayaq dediyim kimi, UNESCO-nun 1995-ci il iyun ayının 16-da qəbul etdiyi qərara hörmət edərək, zəmanəmizin bu vacib tələbinin həyata keçirilməsinə hamımız daha böyük diqqət yetirməliyik.

Mən məmnunam ki, ölkəmizdə, müstəqil Azərbaycanda müxtəlif millətlərə mənsub olan insanlar Azərbaycanın vətəndaşları olaraq sülh və əmin-amanlıq şəraitində yaşayır, bir-birinə hörmət bəsləyirlər. Bir dinin nümayəndələrinin digərinə, bir konfessiyanın başçısına hörmətsiz münasibət bəsləməsinə dair heç bir fakt yoxdur. Cəmiyyətimizdə çox mürəkkəb proseslərin

getdiyi bir şəraitdə, Azərbaycanın Ermənistanla artıq 12 il müharibə vəziyyətində olduğu, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyi, bir milyondan çox azərbaycanlının öz yurd-yuvalarından qovulduğu bir şəraitdə, 1988-ci ildə Dağlıq Qarabağ üstündə başlanmış münaqişənin respublikada sosial, siyasi vəziyyəti, o cümlədən dini vəziyyəti son dərəcə mürəkkəbləşdirdiyi bir şəraitdə bunu ölkəmizin çox mühüm nailiyyəti hesab edirəm. Bəzi insanlar ermənilər tərəfindən olan təcavüzə etiraz edərək ekstremizm, terrorizm həddinə çatmışdılar və təbii ki, tolerantlıq, dözümlülük prinsiplərinə zidd faktlar çox idi.

Amma 1993-cü ildən başlayaraq Azərbaycanda ictimai-siyasi sabitliyə nail olduğumuz və bu sabitliyi pozan, özlərinin cinayətkar, antihumanist hərəkətləri ilə Azərbaycanın və Azərbaycan xalqının nüfuzuna zərər vuran qüvvələri cəmiyyətdən ardıcıl surətdə təcrid etməyə müvəffəq olduğumuz dövrdən etibarən, hesab edirəm, respublikamızda çox əlverişli şərait yaranmışdır. Azərbaycanda müxtəlif millətlərə, müxtəlif dinlərə, müxtəlif mədəniyyətlərə mənsub olan insanların yaşaması buna sübutdur. Onlar sülh və həmrəylik şəraitində yaşayırlar, bu və ya başqa dinə, bu və ya digər mədəniyyətə, Azərbaycanda məskunlaşmış xalqların adət-ənənələrinə, mənəviyyatına dözümsüzlük göstərilməsi barədə heç bir fakt yoxdur. Bu, çox böyük nailiyyətdir.

Azərbaycanın Prezidenti olaraq mən məmnunam ki, bayaq dediyim kimi, Ermənistanın təcavüzü nəticəsində mürəkkəb şəraitdə olmasına, digər tərəfdən müxtəlif xarici qüvvələrin təzyiqinə məruz qalmasına baxmayaraq, ölkəmiz ictimai-siyasi sabitliyi qoruyub saxlayır, müxtəlif millətlərdən, müxtəlif dinlərdən olan, müxtəlif adətlərə, müxtəlif mədəniyyətə mənsub olan insanlar arasında dostluq münasibətlərini təmin edir. Elə bunun özü tolerantlıqdır, baxmayaraq ki, tolerantlıq çox geniş anlayışdır, özündə çox mənaları birləşdirir. İndi burada başqa sahələr haqqında danışmaq istəmirəm. Tolerantlıq münaqişələrin, terrorizmin, ekstremizmin, separatizmin olmamasını tələb edir. Bunlar hamısı tolerantlıq anlayışına daxildir.





Ancaq təəssüf ki, Azərbaycanda 1988-ci ildə Respublikamız Ermənistan tərəfindən təcavüzə məruz qaldığı vaxtdan, 1990-cı ildə Sovetlər İttifaqının kommunist rəhbərliyi öz xalqına qarşı daxili təcavüz etdiyi vaxtdan başlayaraq, insanların əhval-ruhiyyəsində ciddi dəyişikliklər baş verdi. Açığını deyim ki, məsələn, Azərbaycanda bəzi insanlar indiyədək belə fikirləşirlər və əhaliyə də belə təlqin etməyə çalışırlar ki, görürsünüz, 1990-cı ilin yanvarındakı hadisələr Rusiya tərəfindən Azərbaycana qarşı edilmiş təcavüzdür, çünki rus əsgəri tanklarla və sairə ilə Azərbaycana daxil olmuş, bir gecədə çoxlu insan həlak olmuş, Bakının küçələrində qan tökülmüşdür. Halbuki bu, belə deyildir. Bu, o zaman idi ki, biz hamımız bir dövlətin – Sovetlər İttifaqının tərkibində idik, xalqlar dostluğu, beynəlmiləlçilik prinsipi mövcud idi. Bir ordu – sovet ordusu vardı, Sovetlər İttifaqında yaşayan bütün xalqların nümayəndələri, o cümlədən də azərbaycanlılar onda xidmət edirdilər. Buna görə də Azərbaycana qarşı təcavüzü bu sovet ordusu, bu kommunist rejimi həyata keçirmişdir.

Bir də deyirəm, bəzi insanlar ya bunu başa düşməyərək, yaxud da qəsdən, millətlərarası münasibətləri qızışdırmaq üçün həm o vaxt, həm də indiyədək bunu Rusiyanın, az qala rus xalqının Azərbaycana təcavüzü kimi qələmə verməyə çalışırlar. Mən həmişə bunun qəti əleyhinə olmuşam. Bu hadisə baş verəndə mən Moskvada yaşayırdım, öz mövqeyimi orada açıq şəkildə bildirmişdim. Azərbaycana qayıdandan sonra da bu barədə həmişə çox obyektiv danışmışam. Prezident olaraq bu gün də deyirəm ki, o vaxt heç bir millətlərarası münaqişələr olmamışdır.

Bununla belə, həmin hadisə bəzi insanlarda, ola bilsin, əhalinin bəzi təbəqələrində iz buraxmışdır. Bu şəraitdə də, hətta millətlərarası münasibətlər baxımından bu hadisəyə düzgün qiymət verilməsinin olduğu şəraitdə Azərbaycanda azərbaycanlılarla ruslar arasında ən ideal, çox gözəl münasibətlər mövcuddur. Azərbaycanlılarla yəhudilər arasında münasibətlər çox gözəl-

dir. Azərbaycanlılarla ukraynalılar, osetinlər, digər xalqların nümayəndələri arasında da münasibətlər beləcə gözəldir. Yəni məsələn, mən hesab edirəm ki, Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var.

Doğrudur, son vaxtlar dünyanın müxtəlif regionlarında müsəlmanları ekstremist, təməlçi, tolerantlıq prinsiplərini tapdalayan insanlar kimi göstərməyə cəhdlər edilir. Bunu bəzi xristian ölkələrində edirlər. Amma bu ədalətsizlikdir.

Şübhəsiz ki, hər bir xalqın içərisində, hər bir ölkədə quldurlar, terrorçular, cinayətkarlar, ekstremistlər var. Ancaq bunun xalqların dini kökləri, yaxud onların dini prinsipləri ilə heç bir əlaqəsi yoxdur.

Mən bu barədə danışarkən – bu mövzuda lap çox danışa bilərəm, bu, bizim müasir həyatımız üçün çox mühüm və maraqlıdır – hesab edirəm ki, bizim xalqımızın, dövlətimizin son illərdəki ən mühüm nailiyyətlərindən biri odur ki, nəinki hansısa münaqişəyə, hətta azərbaycanlılar tərəfindən digər xalqlara və ya müsəlman dini tərəfindən xristianlığa və əksinə, Xristian dini, Yəhudi dini tərəfindən müsəlman dininə pis yanaşılması hallarını tamamilə aradan qaldıra bilmişik.

Bu, Azərbaycanın reallığıdır. Bu baxımdan, hesab edirəm, biz cəsarətlə deyə bilərik ki, Birləşmiş Millətlər Təşkilatının, UNESCO-nun tolerantlığa nail olmaq barədə çağırışını uğurla həyata keçiririk. Bununla belə, mən məhz bu gün sizinlə görüşmək qərarına gəldim, deyim ki, yaxşı – onsuz da yaxşıdır, ancaq həmişə yaxşı olması üçün, sabah bugünkündən daha yaxşı olması üçün biz nə etməliyik.

Əlbəttə, Azərbaycanda mövcud olan millətlərarası, dinlərarası, etnik vəziyyət yüksək qiymətə layiqdir. Bu, hamının – həm azərbaycanlıların, həm rusların, həm ukraynalıların, həm yəhudilərin digər millətlərdən olan insanların, o cümlədən bizim dini konfessiyaların – Azərbaycanda başlıca dinimiz olan İslam dininin, Xristian-pravoslav – Yəhudi dinlərinin səyləri ilə əldə edilmişdir. Hesab edirəm ki, bizim nəinki əldə olunmuş nailiyyətləri möhkəmləndirməyə, həm də daha çox iş görməyə və bütün dünyaya nümayiş etdirməyə imkanımız var ki, əhalisinin əksəriyyəti baxımından müsəlman ölkəsi olan Azərbaycanda həqiqətən demokratik, hüquqi, dünyəvi dövlət qurulur, burada dünyəvi cəmiyyət artıq formalaşmışdır, tolerantlıq prinsipi nəinki mövcuddur, həm də hakim mövqe tutur.





Siz bilirsiniz, son vaxtlar müəyyən hallar olub ki, bizim inzibati orqanlar bəzi dinlərin, o cümlədən lüteran, apostol məzhəblərinin nümayəndələrinə qarşı bəzi inzibati tədbirlər görüblər. Yəni bəziləri hesab edib ki, baptistlərin, daha hansısa sektanın ayrı-ayrı nümayəndələri azərbaycanlıları bu dinə döndərməyə, başqa sözlə, müsəlmanı xristian, baptist, katolik, nə bilim, daha nə etməyə cəhd göstərirlər. Açıq deyirəm, bu işdə ciddi səhvlərə yol verilmişdir.

Mən bunu eşidəndə, xüsusən də Amerika Birləşmiş Ştatlarının bəzi konqresmenlərindən, Azərbaycanın böyük dostu, ABŞ senatoru Braunbekdən mənə bu hallarla əlaqədar narahatlıq bildirən məktublar gələndə Təhlükəsizlik Şurasının xüsusi iclasını çağırdım. Müvafiq rəhbər işçiləri dinlədim, vəziyyətlə tanış oldum, lazımi göstərişlər verdim. Göstərişlər isə ondan ibarətdir ki, insan azaddır, insan azadlığı bütün sahələrdə azadlığın olmasını nəzərdə tutur. Biz şəxsiyyət azadlığını Azərbaycanda demokratik cəmiyyətin başlıca amili elan etmişik. Demokratikləşdirmə və demokratik dövlət quruculuğu, demokratik cəmiyyətin formalaşdırılması hər şeydən öncə şəxsiyyət azadlığını, insan azadlığını, söz azadlığını, mətbuat azadlığını, bir sözlə, bütün insan azadlıqlarını, dini etiqad azadlığını, vicdan azadlığını nəzərdə tutur. İnsan azaddır. Hansı Allaha sitayiş etmək istəyirsə, qoy ona da sitayiş etsin. İnsanı bir dindən başqa bir dinə keçməyə məcbur etmək olmaz. Əgər insan özü daxilən bunu istəyirsə, onda bunu heç kim ona qadağan edə bilməz. Mən doğru deyirəm, ya yox? Siz mənimlə razısınızmı?

**Cavab**: Razıyıq.

**Heydər Əliyev:** Ona görə də mən tədbirlər gördüm və göstəriş verdim. Hesab edirəm ki, belə səhvlərə yol verilməyəcəkdir.

Amma bunun özü Azərbaycandakı iri konfessiyalar arasında baş vermir – siz, onların liderləri buradasınız. Həmin hallar hansısa xırda sektalar, yaxud onlara bənzər qruplarla bağlıdır, ancaq bu, nədənsə, kimisə narahat edir. Doğrudur, bəziləri mənə deyirdilər ki, həmin sektalardan tək-tək gəncləri təkcə bu məqsəd üçün deyil, sonradan onları hansısa pis işlər görməyə göndərmək üçün cəlb edirlər ki, müəyyən cinayətlər törətsinlər, yaxud terrorçu olsunlar və sair. Hesab edirəm ki, əvvəla, din çətin ki, bu işlə məşğul ola bilsin, ikincisi isə, əgər hətta bu baş versə də, onda biz vicdan azadlığına qarşı deyil, məhz ona qarşı mübarizə aparacağıq. Vicdan azadlığı toxunulmazdır.

Bu fakt barədə ona görə deyirəm ki, siz yəqin ki, bilirsiniz, xüsusən də ona görə ki, bu, bir qədər yayılmışdır, əks-sədası Birləşmiş Ştatlardan mənə gəlib çatmışdı. Həm də ona görə deyirəm ki, siz biləsiniz, mən sizə şərh etdiyim mövqelərdə, prezident seçildikdən sonra and içdiyim mövqelərdə dururam və bundan sonra da duracağam. Həmin faktlar Azərbaycanda azadlıq – şəxsiyyət azadlığı, vicdan azadlığı haqqında ümumi vəziyyəti, tolerantlığın vəziyyətini xarakterizə edə bilməz.

Bir daha demək istəyirəm ki, tolerantlıq geniş anlayışdır. O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir. Mədəniyyətlərə dözümlülüyə gəldikdə isə, burada, ümumiyyətlə, dözümlülükdən söhbət gedə bilməz. Deyək ki, azərbaycanlıların rus mədəniyyətinə, Qərb mədəniyyətinə, yəhudi mədəniyyətinə məhəbbətindən və ya əksinə söhbət gedə bilər. Mən bilirəm ki, vaxtilə İsrailə köçüb getmiş bakılılar, Azərbaycan vətəndaşları orada "Bakılı" adlanan böyük cəmiyyət yaradıblar. Onlar bir yerə yığışır, Azərbaycan mahnıları oxuyurlar, Azərbaycan müsiqisi, muğamları səslənir. Yaxud da bilirəm ki, bizim muğamımızı, musiqimizi Gürcüstanda olduqca çox sevirlər. Təəssüf ki, biz Ermənistanla münaqişə vəziyyətindəyik. Hesab edirəm ki, nə vaxtsa biz bu münaqişəni də aradan qaldıracağıq. Ermənistanda Azərbaycan musiqisinin erməni musiqisindən daha çox sevildiyi vaxtlar yadımdadır. Toylarda, adətən, Azərbaycan musiqisi, Azərbaycan rəqsləri ifa olunardı. Ümumiyyətlə, bütün bunlar dözümlülük çərçivəsindən çox kənara çıxır, bu, artıq mədəniyyətlərin dostluğu, mədəniyyətlərin qarşılıqlı təsiri, qarşılıqlı əlaqəsidir.





Yenə deyirəm, bunlar hamısı Azərbaycanda müxtəlif millətlərdən olan insanların uzun illər ərzində yaşamasının müsbət nəticəsidir. Bu, təkcə XX əsrdə deyil, həm də XIX əsrdə, keçmiş dövrlərdə də olmuşdur. Ancaq indi, Azərbaycanın 8 ildən artıq bir müddətdə müstəqil dövlət olduğu vaxtda bunun xüsusi əhəmiyyəti var. Çünki şübhəsiz, hər bir müstəqil dövlət milli mədəniyyətinin, milli dilinin, milli adətlərinin və s. prinsiplərini inkişaf etdirir və təkmilləşdirir. Bu, təbiidir. Amma bu, heç də başqa dillərə, başqa dinlərə, əqidələrə, başqa mənəviyyata, adətlərə, necə deyərlər, müqavimət göstərməməlidir.

Mən şadam ki, Azərbaycanda belə əlverişli vəziyyət var. Təkrar edirəm, buna hamımız birlikdə, birgə səylərlə nail olmuşuq. Bu gün, dözümlülük günündə mən sizi salamlayıram. Demək istəyirəm ki, biz bundan sonra da bu şəraiti inkişaf etdirəcək və dərinləşdirəcəyik. Dözümlülük günü münasibətilə sizi təbrik edirəm.

**Allahşükür Paşazadə** *(Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam)*: Bismillahir-rəhmanir-rəhim!

Cənab Prezident! Bu gün bizim buraya bu tərkibdə gəlməyimizin elə özü müstəqil Azərbaycanımızda dini qarşıdurmanın yox, aramızda çox yaxşı münasibətlərin olduğunu göstərir. Bu dostluq münasibətləri gündən-günə genişlənir. Bizim bir-birimizə çox köməyimiz dəyir. Hətta elə məsələlər var ki, biz birlikdə yığışıb bunları aradan qaldıra bilirik. Məsələn, bu məsələlər xristianlığa və ya yəhudiliyə aid olanda da biz yığışıb onları həll edirik.

Mən deyərdim ki, indi dünyada elə ölkə yoxdur ki, bayramlarda, moizə olanda orada bir məsciddə həm müsəlman, həm xristian, həm də yəhudi bir yerə toplaşsın. Yaxud şeyxülislam gedib kilsədə çıxış etsin, bir yerdə dualar oxunsun. Bunu bizim Azərbaycanımızda görmək olar. Mən tam qətiyyətlə deyirəm ki, bunu başqa yerdə görmək çətindir. Ərəb ölkələrində nə qədər müsəlman dövləti olsa da, bugünkü gündə onlarda bunu görmək çox çətindir.

Azərbaycanda hətta xırda dini icmalar da diqqətdən kənarda qalmır. Məsələn, elə bu gün də hər üç yəhudi icmasının – dağ yəhudilərinin, Avropa yəhudilərinin və gürcü yəhudilərinin nümayəndələri burada iştirak edirlər. Dini icmanın böyük-kiçikliyindən asılı olmayaraq, hamı vicdan azadlığı hüquqlarından tam istifadə edir. Bu sahədə bizim hüquqlarımız tam təmin olunur.

İndi daxildə qarşıdurma yaratmaq istəyən, Azərbaycanda vicdan azadlığı olmadığı barədə xaricdə yalan məlumatlar yaymağa çalışan bəzi şər qüvvələr var. Onlar ölkəmizdə demokratiyanı, hətta bugünkü həyatımızı görmək istəmirlər.

Mən Sizə açıq deyim ki, hazırda Azərbaycanda sünni-şiə məsələsi yoxdur. Halbuki dünyanın başqa yerlərində bununla bağlı çox çətinliklər yaranır, qarşıdurmalar var. Ümumiyyətlə, ölkəmizdə məhzəblər arasında çəkişmələr yoxdur. Bütün bunlar isə Sizin rəhbərliyiniz, siyasətiniz, göstərdiyiniz yol, habelə Azərbaycan xalqının özünün mentaliteti sayəsində mümkün olmuşdur.

Bəzi sektaların Azərbaycana gəlməsindən və bəzilərinin onlara olan münasibətindən danışsaq, kimisə məcburən müsəlman – şiə və ya sünni etmək olmaz, buna heç bir qanunda icazə verilmir.

**Heydər Əliyev:** Məcburən ola bilməz axı!

**Allahşükür Paşazadə:** Ona görə buraya gələn bəzi adamlar hansılar ki, Avropadan müdafiə olunurlar – ayrı-ayrı ailələrin çətinliklərindən istifadə edərək onları xristianlığa, yaxud başqa dinə keçməyə məcbur edirlər. Belə hallar olubdur. Mən onların dediklərinin hamısı ilə razı deyiləm. Baxın, hansı müstəqil dövlətdə son vaxtlar yeni bir yeparxiya yaranıb? Gürcüstandamı, Özbəkistandamı, Qazaxıstandamı, Türkmənistandamı, Ermənistandamı yaranıb? Azərbaycanda xristian kilsəsinin yeni bir yeparxiyası yaranmasının özü sübut deyilmi ki, burada xristian-müsəlman, rus-azərbaycanlı söhbəti yoxdur?!





20 Yanvar hadisələri zamanı Qorbaçov bu damğanı bizə vurmuşdu, ona lazım idi desin ki, guya burada İslam ekstremizmi vardır. Şəhidlər xiyabanında uyuyanların arasında azərbaycanlılarla yanaşı, yəhudi də, rus da, tatar da var. Biz onları rus kilsəsi ilə birlikdə dəfn etdik. Kilsənin nümayəndəsi orada çıxış edəndə azərbaycanlılardan bir nəfər də ağır söz demədi. Sovet rejimi, onun başında duran Qorbaçov isə bizi bütün dünyaya ekstremist kimi göstərmək istəyirdi.

Bizi bu gün belə qələmə vermək istəyənlər var. İslama qarşı belə münasibət indi də var. Qoy bütün dünya bilsin və mən Prezidentim kimi Sizə də deyirəm: bizim Allahımız və Quranımız var. Biz hər hansı dövlətin siyasətini qəbul etməyəcəyik. Bizim Azərbaycan dövlətimiz var, öz mədəniyyətimiz, İslam əqidəmiz var. Biz öz milli adətlərimiz, ənənələrimizlə İslam qayələrinə çatacağıq. Başqa dövlətlərin o şəkildə İslami havadarlığı da bizə lazım deyil, bunu istəmirik.

Xristian və Yəhudi dinlərindən olanlar bizim qardaşlarımızdır. Çünki Quran bunu bizdən tələb edir. Orada deyilir ki, Allaha iman gətirən bütün adamlar qardaşdırlar. Əgər biz Adəm-Həvva ailəsindəniksə və Musaya, İsaya, Məhəmməd əleyhissəlama iman gətiririksə, hamımız qardaşıq.

Cənab Prezident, mən Sizi başa düşürəm və çox minnətdarlığımı bildirirəm ki, bizi qəbul edib bu qardaşlığı daha da möhkəmləndirməyi tapşırırsınız. İnanın ki, inşallah, bu qardaşlıq davam edəcəkdir. Siz çox yaxşı dediniz ki, bəzən xırda şeylər olur. Əsas odur ki, bizim birliyimiz, inamımız və imanımız var, müqəddəs kitablarımız – Quran, Tövrat, İncil var. Bunlara əsaslanaraq İslamın və başqa dinlərin bizə buyurduqlarını, inşallah, yerinə yetirəcəyik. Çünki Allah-Təala bizə əmr edib ki, hamınız

birlikdə Allahın nurundan yapışın və ondan ayrılmayın. Söz veririk ki, bundan sonra da belə olacaqdır.

**Heydər Əliyev:** Sağ olun, Şeyx.

**Aleksandr Ata** *(Rus Pravoslav Kilsəsi Bakı və Xəzəryanı Yeparxiyasının yepiskopu)*: Zati-aliləri, çox hörmətli cənab Prezident!

İcazə verin, bu görüşə imkan yaratdığınıza görə Sizə dərin minnətdarlığımı bildirim və hazırda Azərbaycanda mövcud olan müasir dini həyatın problemləri barəsində fikrimi söyləyim.

Azərbaycan xalqı həqiqətən çox tolerantlı xalqdır. Bu ilin yanvarında Moskvada mənə Bakı və Xəzəryanı yepiskopu rütbəsi verilərkən söylədiyim xüsusi nitqdə bunu vurğulamışam. Bu gün burada eşitdiklərimizə əsasən inamla demək olar ki, BMT-nin, UNESCO-nun elan etdiyi bu bayram – tolerantlıq günü həm də Azərbaycanın milli bayramıdır. Çünki tolerantlıq Azərbaycan xalqının özünəməxsus, xarakterik xüsusiyyətidir.

Bizim Azərbaycanda dini həyatın problemlərinə Sizin belə dərindən diqqət yetirməyiniz məni çox sevindirdi. Başqa cür ola bilməzdi. Sizin kimi müdrik bir siyasətçi Azərbaycan Respublikası xalqının həyatının bu sahəsinə də diqqət yetirməyə bilməz.

Son vaxtlar ərzində baş vermiş hadisələr ilk növbədə onu göstərir ki, Azərbaycan hökuməti vicdan azadlığına, dini etiqad azadlığına əməl olunması prinsipləri üzərində həqiqətən möhkəm dayanır. Bir çox din xadimlərinin onilliklər ərzində mübarizə apardığı məsələlər Azərbaycanda təkcə kağız üzərində bəyan edilmir, həm də həyatda yerinə yetirilir, Azərbaycan Respublikasının ictimai həyatının əsl qanunudur. Azərbaycanda pravoslav kilsəsinin nümayəndəsi kimi, mən buna şahidlik edə bilərəm.

Təəssüf ki, mövcud qanunun çərçivəsindən kənara çıxan bəzi hadisələr son vaxtlar bizim dini həyatımızda xoşagəlməz ovqat yaratmışdır. Lakin zənnimcə, baş vermiş və dini həyatımıza müəyyən uyğunsuzluq gətirmiş həmin hadisələrin Azərbaycan ərazisində yayılmış ənənəvi dinlərə heç bir dəxli yoxdur. Çünki Azərbaycanda ənənəvi dünya dinləri liderlərinin qarşılıqlı ünsiyyəti, həm də təkcə onların deyil, sıravi dindarların ünsiyyəti





göstərir ki, Azərbaycanda dini dözümlülüyə və dini həyatımızın bu sahəsindəki qanunvericiliyin əsas normalarına əməl olunur.

Amma kütləvi informasiya vasitələri həmin hadisələrə, o cümlədən lüteran icmasında və daha haradasa baş vermiş hadisələrə ayrı cür don geyindirməyə çalışmışlar. Bəzən bizə də müraciət edir və buna bənzər hadisələri şərh etməyimizə cəhd göstərirdilər. Mən cavab verməli olurdum ki, kütləvi informasiya vasitələrinin siyasi şərhçisi deyiləm, cənab Prezidentin hərəkətlərinin şərhçisi deyiləm - bundan ötrü Prezidentin mətbuat katibi var. Həmin məsələlər barəsində bu gün Sizin dedikləriniz də sübut edir ki, Siz bu problemlərin ədalətli həllinə çox böyük maraq göstərmisiniz.

Mən Sizə həm öz şəxsi minnətdarlığımı, həm də dindar pravoslav xristianların – təkcə pravoslavların deyil, bizdə xristian məzhəbləri çoxdur, molokanlar, baptistlər, adventistlər də var – digərlərinin də dərin minnətdarlığını bildirmək istəyirəm. Bizim Azərbaycan Respublikasında onların hamısı eyni hüquqlardan istifadə edirlər və Azərbaycan Respublikasının dini etiqad azadlığı haqqında qanunvericiliyi müxtəlif dinlərin nümayəndələrinə eyni dərəcədə şamil olunur.

Cənab Prezident, biz bilirik ki, İstanbula zirvə görüşünə gedirsiniz, orada həm Avropa, həm də Asiya dövlətlərinin müasir siyasi həyatının bir çox problemləri həll ediləcəkdir. Sizin zəhmətinizə Allahdan kömək diləyir və arzu edirəm ki, zirvə görüşündə bu problemləri uğurla və Azərbaycan Respublikası üçün faydalı şəkildə həll etməyinizə Tanrı özü yardımçı olsun.

Siz burada əmin-amanlığın bərqərar olması, xalqın rifahının yüksəlməsi, insan hüquqlarına dair əsas beynəlxalq normaların Azərbaycan Konstitusiyasında öz ifadəsini tapması üçün çox iş görmüsünüz. Arzu edirəm ki, Siz bu dəfə də, İstanbul zirvə görüşündə Azərbaycan xalqının nümayəndəsi və Azərbaycan Respublikasının başçısı missiyanızı uğurla yerinə yetirəsiniz və Azərbaycan həmin toplantıda əldə olunacaq xeyirxah bəhrələrdən istifadə edə bilsin. Sizə təşəkkür edirəm.

**Heydər Əliyev:** Çox sağ olun.

**Semyon İxiilov** *(Dağ Yəhudiləri Dini İcmasının başçısı):* Çox hörmətli cənab Prezident, Zati-aliləri!

Biz çox mütəəssir olduq ki, Siz məhz belə bir gündə, belə ciddi konfransa – zirvə görüşünə getmək ərəfəsində, UNESCO-nun elan etdiyi dözümlülük günündə bizi dəvət etməyə və tolerantlıq mövzusunda söhbətə vaxt tapmısınız. Tolerantlıq ciddi məsələdir.

Azərbaycanda yaşayan yəhudilərin hüquqları heç vaxt nə rəhbərlik tərəfindən, nə də sadə insanlar tərəfindən pozulmamışdır, biz həyatımızda antisemitizmin nə olduğunu heç zaman bilməmişik.

Bizim işimizə gəldikdə isə, əsas konfessiyalar dostluq şəraitində fəaliyyət göstərirlər. Onlar İslama etiqad edən Şeyxülislam Allahşükür Paşazadə həzrətlərinin, pravoslavlığa etiqad edən möhtərəm Aleksandr ata həzrətlərinin və bizim – iudaizmə etiqad edən yəhudilərin şəxsində təmsil olunmuşlar. Həqiqətən də şeyximiz başda olmaqla, bizim fəaliyyətimizdə hər şey elə əlaqələndirilmişdir ki, heç yerdə və dünyanın heç bir şəhərində belə dostluq, həmrəylik yoxdur. Buraya kim gəlirsə gəlsin – istər ATƏT-dən, istərsə də digər nümayəndə heyətləri, hətta Amerikadan, İsraildən, başqa ölkələrdən gələn yəhudi nümayəndə heyətləri, sadəcə, heyrətlənirlər, bəziləri isə heyran qalırlar. Zənnimcə, bunun arxasında hansısa həsəd də var. Tamamilə mümkündür.

Başqa bir cəhəti də vurğulamaq istəyirəm. Əgər hansısa bir məsələ qalxırsa, hansısa icmanın daxilində kiçik münaqişə yaranırsa, biz, şeyx başda olmaqla, yığışır və bunları dərhal həll edirik. Siz bir dəfə belə bir fikir demişdiniz: Mən Azərbaycanda din sarıdan məsələsi və ya hansısa münaqişə olursa, üçü bir yerə yığışır, müzakirə edirlər və hər şey qaydasına düşür. Siz bunu demisiniz və həqiqətən də belədir. Allaha şükürlər olsun ki, bizdə hər şey belə yaxşıdır.





Hesab edirəm ki, heç bir ölkədə, hətta keçmiş SSRİ ərazisində heç bir Prezident vaxt tapmaz, xatırlamaz ki, tolerantlıq nədir, xüsusən belə ciddi səfər ərəfəsində din xadimlərini dəvət etməz, bu mövzuda danışmaz. Zənnimcə, bu, bizim həmişə və indi də inandığımız cənab Prezidentimizin böyük üstünlüyüdür. Biz yəhudilər bir nəfər kimi Sizə səs vermişik. Nə üçün? Ona görə ki, Sizin siyasi xəttinizi başa düşürük, belə xətt zəruridir. Əslində biz də elə bununla yaşayırıq.

Biz inanırıq ki, Siz Türkiyəyə zirvə görüşünə gedərkən Lissabon sammitindən olduğu kimi, oradan da sevinclə qayıdacaqsınız. Xatirimdədir, o zaman çox böyük sevinc vardı, Siz bu barədə çox danışmısınız. Ancaq istərdik ki, bu sevinc indi Lissabon sammitindəkindən daha yaxşı olsun. İstəyirik ki, hər şey Azərbaycanın xeyrinə qurtarsın, torpaqlarımız geri qayıtsın.

Bilirik ki, Qarabağ məsələsi Sizin üçün ən ağrılı məsələdir. O, çox mürəkkəbdir. Aydındır ki, onu belə asanlıqla həll etmək olmaz, bundan ötrü illər lazımdır. Bəlkə də həmin il gəlib çatıb, ola bilsin, insanlar, nəhayət, başa düşəcəklər ki, bir milyondan artıq adam qeyri-insani şəraitdə, çadırlarda yaşaya bilməz. Ola bilsin tolerantlıq sözünü onlar da yaxşı mənada başa düşəcəklər. Çox istəyirik ki, bu məsələ, nəhayət, həll edilsin. Mən çox istəyirəm ki, Azərbaycanda yaşayan bütün xalqlar biz yəhudilər kimi inansınlar ki, Qarabağ məsələsi yaxın gələcəkdə həll olunacaq və qaçqınlarımız öz evlərinə, doğma ocaqlarına qayıdacaqlar. Zənnimcə, onda hər şey şəhərdə də, kənddə də qaydasına düşəcəkdir.

Ən başlıcası odur ki, Siz heç vaxt hiss etməmisiniz və eşitməmisiniz ki, dini zəmində bizim hansısa münaqişəmiz olsun. Bu, heç vaxt olmayıb və zənnimcə, heç zaman da olmayacaqdır. Çünki bizə Sizin kimi Prezident və Şeyxülislam Allahşükür Paşazadə həzrətləri kimi insan başçılıq edir.

Cənab Prezident, mən Sizə çox minnətdaram. İlk növbədə ona görə ki, Siz bizim hamımıza eyni gözlə baxırsınız. İstər yəhudilərin, istərsə də hər hansı başqa millətin bayramı olsun, Siz

bunlardan heç birini unutmur, bizi həmişə təbrik edirsiniz. Elə bir hal olmayıb ki, hansısa bir tədbirdə Siz bizimlə salamlaşıb görüşməyəsiniz, soruşmayasınız ki, işləriniz necədir, nə kimi yeniliklər var? Allaha şükür, hər şey yaxşıdır və biz həmişə vəziyyətimizə görə fəxr edirik. Camaatın gözü qarşısında, o cümlədən səfirlərin də iştirak etdikləri tədbirlərdə hər dəfə bizə müraciət etməyiniz bizdə fərəh hissi doğurur.

Çox sağ olun. Sizə yaxşı yol arzulayırıq. Allahın köməyi ilə xoş xəbərlərlə qayıdın, biz Sizi qarşılayacağıq.

**Mixail Bekker** *(Avropa Yəhudiləri Dini İcmasının başçısı):* Zati-aliləri, əziz Heydər Əlirzaoğlu!

Avropa yəhudiləri icması Sizə Mustafa Kamal Atatürk adına Beynəlxalq Sülh Mükafatının təqdim olunması münasibətilə Sizi təbrik edir. Bu, siyasi lider kimi Sizin görkəmli xidmətlərinizin şəksiz etirafı və bizim dövlətimizin beynəlxalq nüfuzunun şəksiz etirafı deməkdir.

Müdrik və düşünülmüş milli siyasətinizə görə Sizə minnətdarıq. Siz bilirsiniz ki, Avropa yəhudiləri uzun müddət müxtəlif ölkələrdə təqiblərə və zülmə məruz qalıblar. Biz yalnız Azərbaycanda, yəhudilərə həmişə səmimi münasibət göstərilən ölkədə özümüzə əsl Vətən tapmışıq.

Azərbaycan həmişə çoxmillətli dövlət olub və olacaqdır. Azərbaycanda həmişə müxtəlif millətlərin nümayəndələri yaşayıb və yaşayacaqdır. Bizim tolerantlığı öyrənməyə ehtiyacımız yoxdur, bilirik ki, Azərbaycan xalqı digər xalqlara qarşı həmişə tolerantlı olmuşdur. Biz, sadəcə, müxtəlif xalqlar, müxtəlif konfessiyalar və mədəniyyətlər arasındakı bu dostluq, əməkdaşlıq ənənələrini inkişaf etdirməliyik.

Siz "Bakılı" Cəmiyyəti haqqında danışdınız. Bəli, bizim belə bir dairəmiz, bakılı deyilən camaatımız yaranmışdır. Zənnimcə, belə şey heç yerdə yoxdur. Keçmiş Sovet İttifaqı ərazisində bəlkə də yalnız odessalı və mən dediyim kimi, bakılı ola bilər. Bu iki "millətə" dünyanın bütün ölkələrində xüsusi hörmət bəsləyirlər. Yəhudilər "Bakılı" Cəmiyyətini ona görə yaradıblar ki, onlar həqiqətən Bakını xatırlayırlar, Azərbaycana doğrudan da kömək etmək istəyirlər və bütün qüvvə və imkanlardan istifadə edərək kömək göstərirlər.





Mən "Bakılı" Cəmiyyətinin qəzetini oxumuşam, Nyu-Yorkda çıxan, Birləşmiş Ştatların digər yerlərində çıxan qəzetləri oxumuşam. Hazırda Azərbaycandakı yəhudilər haqqında kitab yazıram, material toplayıram, həmin qəzetlər evimdədir. Hamı Azərbaycan xalqına çox səmimi və çox dostcasına yanaşır, çünki Azərbaycan xalqı özü hamıya belə münasibət bəsləyir. Azərbaycan xalqı digər xalqlara daim belə yanaşmış, başqa xalqın ağrı-acısını həmişə başa düşmüşdür. Bu, bizim üçün, yəhudilər üçün çox qiymətli, çox vacibdir. Çünki biz tez-tez əzab çəkmişik, ona görə də başqalarının əzablarının nə demək olduğunu bilirik.

Biz inanırıq ki, regionumuzda sülh olacaqdır. Sülhün bərqərar olması ilə təkcə Azərbaycanın deyil, həm də bizimlə qonşu olan bütün dövlətlərin tərəqqisi başlanacaq, Azərbaycan ərazisində yerləşən bütün cəmiyyətlərin, icmaların tərəqqisi başlayacaqdır. Biz Azərbaycanın həmişə məşhur olan mədəniyyəti, elmi və incəsənətinin yenidən yüksəlişini görəcəyik. Ümid edirik ki, bu, baş verəcəkdir.

Biz İstanbul səfərində Sizə yaxşı yol arzulayır, böyük uğurlar diləyirik. Arzu edirik ki, regionumuzda, nəhayət, sülh olsun. Hər şeyə görə çox sağ olun.

**Mark Palaqaşvili** *(Gürcü Yəhudiləri Dini İcmasının başçısı):* Hörmətli Heydər Əlirza oğlu, həmişə olduğu kimi, söz demək üçün mənə çox az vaxt qalır. Biz, o cümlədən də mən burada, Sizin görüşünüzdə olduğumuza, təbriklərinizi eşitdiyimizə görə Sizə minnətdarıq. Biz özümüz də çox şey demək istəyirik. Hər halda, mən istəyirəm ki, belə görüşlər digər dövlətlər üçün etalon, nümunə olsun. Qoy hamı bizə baxsın, bizə həsəd aparsın və heç olmasa, nəyisə təkrar edə bilsinlər. Bu, bizim fəxarətlərimizdən biri olardı.

Mən Bakıda doğulmuşam və 65 illik həyatımda heç bir pozuntu, ekstremizm, antisemitizm və s. hiss etməmişəm. Ona görə də Azərbaycanda yaşayan gürcü yəhudiləri adından Sizə bir daha dərin minnətdarlığımı bildirirəm. Habelə ümid edirəm ki, biz əldə etdiklərimizlə kifayətlənməyəcək, daim irəliləyəcəyik.

Sizə yaxşı yol olsun, respublikamız üçün zəruri bütün təşəbbüsləriniz və yaxud arzularınız yerinə yetsin. Çox sağ olun.

**Heydər Əliyev:** Hörmətli dostlar, əvvəla, ümumən və o cümlədən Azərbaycanda dinin vəziyyəti, ölkəmizdə ictimai-siyasi şərait haqqında çox qiymətli sözlərinizə, çox qiymətli fikirlərinizə görə sağ olun.

Bilirəm ki, siz həmişə bizim xəttimizi dəstəkləyirsiniz, həmişə obyektiv və ədalətli mövqe tutursunuz. Yəni Siz bizim xəttimizi kor-koranə dəstəkləmirsiniz, məhz obyektivlik, ədalətlilik mövqeyindən dəstəkləyirsiniz. Əminəm ki, biz sizinlə bundan sonra da belə əməkdaşlıq edəcəyik.

Mən məmnunam ki, biz bu gün görüşə bildik. Siz doğru dediniz, mən sabah İstanbula uçuram. Məsələlər olduqca çoxdur. Bu gün mənim bir dəqiqə də vaxtım yoxdur, elə əvvəlki günlərdə də olmamışdır. Ancaq dünən dedim ki, din xadimlərini toplamağa çalışsınlar. Mənə dedilər ki, Şeyxülislam xaricə gedir. Dedim ki, əgər mümkündürsə, qoy bir gün gözləsin, biz görüşək. Çünki məhz bu gün görüşmək, danışmaq, bugünkü sözlərimizi demək lazım idi.

Mən Azərbaycanın dövlət təhlükəsizliyini möhkəmləndirmək üçün hər şey edirəm. Bu sülhdür. Mən hər şey edirəm ki, Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə aradan qaldıraq, işğal olunmuş torpaqları sülh yolu ilə azad edək, vətəndaşlarımızı – azərbaycanlıları öz doğma yerlərinə qaytaraq. Sülh isə tolerantlığın ən başlıca amilidir. Mən bunu edirəm və edəcəyəm, ümidvaram ki, biz qarşıya qoyduğumuz məqsədə nail ola biləcəyik. Biz həmişə sizin də dəstəyinizdən, sizin dualarınızdan istifadə etmişik. Hesab edirəm ki, sizin bugünkü, İstanbula ATƏT-in Zirvə görüşünə yola düşməyim ərəfəsindəki dualarınız bu və bir





çox başqa məsələləri həll etməkdə mənə kömək olacaqdır.

Hamınıza təşəkkür edirəm. Hamınıza cansağlığı arzu edirəm. Siz öz dini icmalarınıza – həm müsəlmanlara, həm xristianlara, həm yəhudilərə və başqa icmaların hamısına mənim bugünkü sözlərimi çatdırın, mənim hörmət-ehtiramımı, səmimi salamlarımı çatdırın. Sağ olun.

## AZƏRBAYCAN XRİSTİANLARINA

Hörmətli həmvətənlər!

Xristianların müqəddəs Milad bayramı – İsa peyğəmbərin mövludu münasibətilə sizi ürəkdən təbrik edir, bu əziz gündə hamınıza ən xoş arzularımı bildirirəm.

Bu mübarək bayram 2000-ci ildə bütün dünyada olduğu kimi, Azərbaycanda da xüsusi təntənə ilə qeyd edilir. Xristianlığın ölkəmizdə qədim tarixi vardır. Qafqazda xristianlığın ilk məbədləri məhz Azərbaycan torpağında yaradılmışdır. Əsrlər boyu Azərbaycanda İslam, Yəhudi və Xristian dinləri yanaşı mövcud olaraq insanlar arasında sülh və əmin-amanlıq, mehriban dostluq və qardaşlıq münasibətlərinin yaranmasında əvəzsiz rol oynamışdır. Azərbaycan xalqına xas olan insanpərvərlik və tolerantlıq kimi yüksək mənəvi keyfiyyətlər tarixən Azərbaycanda milli-irqi ayrı-seçkilik, dini dözümsüzlük zəminində humanizmə zidd halların baş verməsini istisna etmişdir.

XX əsrin sonunda dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası bu gün də öz tarixi ənənələrinə sadiqdir. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları beynəlxalq prinsiplərə əsaslanan hüquq və azadlıqlara, o cümlədən vicdan və dini etiqad azadlığına malikdir. Vətəndaş cəmiyyətinin əsas prinsiplərinin bərqərar olduğu bir dövrdə ölkəmizdə yaşayan hər bir insana öz dini dəyərlərini, milli adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik hüquqi siyasi şərait yaradılmışdır.

Müstəqilliyimizə aparan yollarda bir daha əmin olduq ki, Azərbaycanda bütün konfessiyaların nümayəndələri həm fərəhli, həm də çətin anlarda həmişə bir yerdə olmuşlar. Müstəqil Azərbaycan Respublikasının tam və bərabərhüquqlu vətəndaşları olan xristian icması bu gün də cəmiyyətimizin ayrılmaz





hissəsidir və onlar əsl vətəndaşlıq əzmi ilə həyatımızın bütün sahələrində yaxından iştirak edir, Azərbaycanın tərəqqisi və inkişafı üçün əllərindən gələni əsirgəmirlər.

Əziz bayramınız – İsa peyğəmbərin mövludu münasibətilə hamınızı bir daha təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik, ailələrinizə firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 6 yanvar 2000-ci il*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Əziz bacı və qardaşlar!

Sizi dünya müsəlmanlarının müqəddəs Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

On dörd əsrə yaxındır ki, ilahi hikmətlər xəzinəsi Qurani-Kərimin insanlara nazil edildiyi Ramazan ayında bu əvəzsiz nemətə görə minnətdarlıq İslam aləminin ayrılmaz hissəsi olan Azərbaycanda da oruc tutmaq, namaz qılmaq, dualar etməklə bildirilir. Ramazan ayı günlərində müsəlmanlarımız müqəddəs amallar uğrunda fədakarlıq göstərməyə, öz borc və vəzifələrini yerinə yetirməyə hazır olduqlarını nümayiş etdirirlər. İslamın bu mübarək ayı həm də cəmiyyətimizdə həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən gözəl bir fürsətdir.

Ramazan ayının başa çatması ilə onun sınağından ləyaqətlə çıxmış hər bir müsəlmanın bu gün bayram etməyə, öz müqəddəs borcunu yerinə yetirməkdən doğan sevinc və fərəh hisslərini bildirməyə tam haqqı vardır. Respublikamızın müsəlmanları bu bayram günlərində Allaha inam, vətənə və xalqa sədaqətlərini bir daha nümayiş etdirir, cəmiyyətdə mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi üçün daha böyük əzmkarlıq göstərirlər.

Həyatdan getmiş yaxınların, xalqımızın qəhrəman oğul və qızlarının – Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyünün müdafiəsi uğrunda öz canlarını vermiş şəhidlərin xatirələrini bu əziz bayram günlərində yad etmək gözəl bir ənənəyə çevrilmişdir. Öz adlarını xalqımızın qəhrəmanlıq salnaməsinə həmişəlik yazmış şəhidlərimizin hamısına rəhmət, onların ailələrinə və qohum-əqrəbalarına səbir diləyirəm. Əminəm ki, şəhidlərimizin həyatı bahasına əldə edilmiş müstəqilliyimiz daha da möhkəmlənəcək və dönməz olacaq, respublikamız





həqiqi demokratik dövlət quruculuğu, sosial-iqtisadi inkişaf yollarında yeni böyük uğurlar qazanacaq, xalqımız xoşbəxt, firavan həyata qovuşacaqdır.

İnanıram ki, ölkəmizdə sülhün və əmin-amanlığın tam bərqərar olacağı, işğal edilmiş torpaqlarımızın azad ediləcəyi, qaçqın və köçkün düşmüş soydaşlarımızın öz ev-eşiklərinə qayıdacaqları gün uzaqda deyildir.

Xalqımızın bu amallarının gerçəkləşməsi naminə hamınızı daha böyük əzmkarlıq, qətiyyət və həmrəylik nümayiş etdirməyə çağırıram.

Ulu Tanrıdan sizə möhkəm cansağlığı, xoş bayram əhval-ruhiyyəsi, doğma Azərbaycanımızın tərəqqisi yolundakı işlərinizdə böyük uğurlar arzulayıram.

Qoy bu əziz günlərdə etdiyiniz bütün pak niyyətlər gerçəkləşsin!

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 7 yanvar 2000-ci il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının həmrəylik və qardaşlıq günü olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, xalqımıza ən səmimi arzularımı yetirirəm.

Azərbaycan xalqı uzun illər yad ideologiya və rejimlərin qadağaları şəraitində yaşamalı olsa da, tarixi köklərindən ayrı düşməmiş, milli-mənəvi dəyərlərini, adət-ənənələrini, dini bayram və mərasimlərini qoruyub saxlamışdır. Uca Tanrının İslamı bir din kimi tamamlayıb insanlar üçün hidayət yolu seçdiyi əziz gün – mübarək Qurban bayramının keçirilməsi də daim yaşatdığımız belə milli-dini adətlərimizdəndir.

Demokratik prinsiplərin, dini etiqad və vicdan azadlığının bərqərar edildiyi müstəqil Azərbaycan Respublikasında qurban mərasimləri hər il dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunur.

Əziz bacı və qardaşlar!

Bu müqəddəs bayram günlərində xalqımızın rifahı və əmin-amanlığı üçün etdiyiniz dua və niyyətlərə, arzu və diləklərə şərik olduğumu bildirir və sizi əmin etmək istəyirəm ki, torpaqlarımızın düşmən tapdağından azad olunacağı, qaçqınlarımızın doğma yurdlarına qayıdacağı, xalqımızın ədalətli sülhə və layiq olduğu əsl firavan həyata qovuşacağı gün uzaqda deyildir.

Ulu Tanrıdan hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, evlərinizə xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 14 mart 2000-ci il*





## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

Hörmətli həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət və bayram əhval-ruhiyyəsi arzulayıram.

Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların mehriban dostluq və qardaşlıq şəraitində yaşadığı müstəqil Azərbaycan Respublikasında hökm sürən tolerantlıq, konfessiyaların azad fəaliyyəti, dini bayram və mərasimlərini sərbəst şəkildə qeyd etməsi günümüzün gerçəkliyidir. Hər il ölkəmizdə geniş qeyd olunan Pasxa bayramı da belə dini mərasimlərdəndir.

Pasxa sülh, əmin-amanlıq, həmrəylik və mərhəmət bayramıdır. Ölkəmizin pravoslav vətəndaşları digər dini konfessiyaların nümayəndələri ilə birlikdə bu amalların gerçəkləşməsi uğrunda həmişə var qüvvələrini sərf etmişlər. Onlar bu gün də doğma Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun ərazi bütövlüyünün təmin olunması, ölkəmizdə hüquqi demokratik dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi işində böyük əzmkarlıq, əsl vətəndaşlıq mövqeyi nümayiş etdirirlər.

Ümidvaram ki, xristian həmvətənlərimiz müstəqil Azərbaycan Respublikasının qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsi, cəmiyyətdə vətəndaş həmrəyliyinin, ictimai-siyasi sabitliyin bərqərar olunması yolunda bundan sonra da əllərindən gələni əsirgəməyəcək, xalqımızın xoşbəxt gələcəyi naminə öz səylərini daha da artıracaqlar.

Builki Pasxanın bəşər tarixində əlamətdar bir hadisəyə – İsa peyğəmbərin mövludunun 2000-ci ildönümünə təsadüf etməsi bayram şənliklərinə xüsusi rövnəq verir, arzu və istəklərin gerçəkləşməsinə olan inamı daha da gücləndirir.

Qoy bu bahar bayramı günlərində etdiyiniz bütün xoş diləklər, xeyir-dualar yerinə yetsin, ailələrinizə firavan və xoşbəxt həyat nəsib olsun!

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 29 aprel 2000-ci il*





## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Hər il yəhudi xalqının ümummilli matəm günü kimi qeyd olunan "Holokost" günü münasibətilə günahsız qurbanların xatirəsini ehtiramla yad edərək sizə və bütün dünya yəhudilərinə dərin kədər və hüzn hisslərimi ifadə edirəm.

Faşistlərin Almaniyada hakimiyyətə gəlməsi ilə başlanmış və İkinci Dünya müharibəsinin sonuna qədər davam etmiş "Holokost" siyasəti nəticəsində altı milyon insan yalnız yəhudi olduqlarına görə qətlə yetirilmişdir. Həmin illərdə yəhudilərin kütləvi şəkildə təqib olunması və məhv edilməsi siyasəti bəşər tarixinin ən müdhiş səhifələrindən birini təşkil edir.

Belə müsibətlər təkcə soyqırım siyasətinə məruz qalmış xalqın milli faciəsi hesab edilə bilməz və bütün bəşəriyyətə qarşı ağır cinayət kimi qiymətləndirilməlidir. Zorakılıq, irqçilik, soyqırım kimi antihumanist siyasətin bütün təzahürlərinə qarşı birmənalı mövqe bildirmək, onların qarşısının alınması yolunda qətiyyət və həmrəylik nümayiş etdirmək yüksək bəşəri ideallara sadiq olan hər bir insanın ali vəzifəsi və borcudur.

Azərbaycanda tolerantlıq, dözümlülük və qarşılıqlı hörmət şəraitində yaşayan bütün xalqlar bir-birinin sevincinə də, dərdinə də həmişə şərik olmuşlar. Yəhudi həmvətənlərimiz də Azərbaycanın müxtəlif konfessiyalara mənsub olan digər vətəndaşları kimi, ölkəmizdə bütün hüquqlara və azadlıqlara tam malikdirlər. Onlar müstəqil respublikamızda gedən siyasi, sosial-iqtisadi və mədəni proseslərdə yaxından iştirak edirlər. Yəhudi icması Azərbaycan xalqına qarşı mərhələ-mərhələ həyata keçirilmiş soyqırım və deportasiya siyasətini, zəbt edilmiş ərazilərimizdə baş alıb gedən erməni vandalizmini, azərbaycanlıların tarixi torpaqlarından didərgin salınmasını, qətl və qırğınları, misli görünməmiş vəhşilikləri və talanları həmişə pisləmiş,

buna qarşı etiraz səslərini həm ölkəmizin daxilində, həm də beynəlxalq aləmdə ucaltmışdır.

Əziz həmvətənlər!

Yəhudi xalqının müsibəti günündə – bu hüznlü anlarda Azərbaycan xalqı adından kədərinizə bir daha şərik olduğumu bildirirəm. Qoy belə müsibətlər heç bir xalqın həyatında bir də təkrar olunmasın.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 1 may 2000-ci il*





## VATİKAN DÖVLƏTİNİN BAŞÇISI PAPA II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ

Əlahəzrət!

80 illik yubileyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz yer üzündə sülhün və əmin-amanlığın, insanlar arasında dostluq və qardaşlıq münasibətlərinin bərqərar olunması məqsədlərinə fədakarcasına xidmət edirsiniz.

Sizə möhkəm cansağlığı, uzun ömür, nəcib amallar uğrunda yorulmaz fəaliyyətinizdə uğurlar diləyirəm.

Hörmətlə,

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 18 may 2000-ci il*

# ƏRƏB ÖLKƏLƏRİ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı, 7 iyul 2000-ci il*



**Heydər Əliyev:** Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz!

Hörmətli Şeyxülislam sizinlə yaxın əlaqədədir və mən bilirəm ki, burada görüşlər keçirmisiniz. Mədəniyyət, ədəbiyyat sahəsində bəzi görüşləriniz olubdur.

Mənə verilən məlumata görə, siz çox işlərlə məşğulsunuz, xeyriyyəçilik işləri görürsünüz. Bu çox gözəldir. Azərbaycana gəlməyinizdən də mən çox məmnunam. Bilirsiniz ki, mən ölkədə yox idim, Avstriyaya getmişdim, dünən axşam dönmüşəm. Mən ölkədə olmayanda da işlər çox tökülür qalır. Hörmətli Şeyxülislam xahiş etdi ki, sizinlə görüşüm. Proqramın çox çətin olmasına baxmayaraq, mən də sizinlə görüşməyə vaxt tapmışam. Buyurun, sizi dinləyirəm.







**Əbd əl-Əziz Səd əl-Babteyn** *(Küveytdən gəlmiş məşhur xeyriyyəçi və iş adamı, şeyx):* Qiymətli vaxtınızdan bizə ayırdığınız üçün mən öz adımdan və həmkarlarım, qardaşlarım, dostlarım adından Sizə təşəkkürümü bildirirəm. Sizinlə birlikdə olmaqdan özümüzü xoşbəxt sayırıq. Mənim üçün şərəfdir ki, ölkəmizin başçısı, əlahəzrət şeyx Cabir əl-Əhmədin salamını sizə yetirim. Ümumiyyətlə isə, bütövlükdə ərəb xalqının salamlarını sizə yetirirəm.

Eyni zamanda, xüsusi olaraq Küveyt xalqının salamlarını sizə yetirirəm. Azərbaycan xalqının Ermənistan tərəfindən təcavüzə məruz qaldığı dövrdə keçirdiyi hissləri Küveyt xalqı da təcavüzlə qarşılaşarkən keçirmişdir. Biz hər dəfə Azərbaycana səfər edərkən qəlbimizdəki məhəbbətiniz daha da artır. Xüsusilə, ölkənizdə bu cür irəliləyişi hər dəfə görəndə özümüzü daha xoşbəxt hesab edirik.

Şəxsən mən bir neçə dəfə sizin ölkənizə gəlmişəm və burada sərmayə qoymaq fikrim olubdur. Körfəz ölkələrində də belə fikirdə olanlar az deyildir. Təbii ki, sərmayə qoymaq üçün sərmayədarlar ölkədə sabitlik olmasını istəyirlər. Biz bunun şahi-

diyik ki, ölkənizdə sabitlik vardır və buraya sərmayə qoymaq fikrimizi sizə bildiririk.

Eyni zamanda, biz əl-Əzhər Universitetində təhsil alan tələbələrə yardım fondu yaratmışıq. Həmin universitetdə azərbaycanlı tələbələrin böyük bir qrupu da təhsil alır. Arzu edirik ki, həmin tələbələr buraya qayıdandan sonra öz ölkələrinə xidmət göstərmək üçün, ölkələrinin tərəqqisi üçün əllərindən gələni etsinlər.

Biz Sizin müdrik rəhbərliyiniz sayəsində Azərbaycana daim inkişaf və tərəqqi arzulayırıq. İcazə verin, fürsətdən istifadə edərək, möhtərəm Şeyx həzrətlərinə təşəkkürümü bildirim. O bizim rahatlığımız, səfərimizin yaxşı keçməsi üçün əlindən gələni edir. Buna görə də biz qəlbən onu Küveytin və yaxud ərəblərin Azərbaycandakı səfiri kimi qəbul edirik.

İndi isə icazə verin, həmkarlarımı Sizə təqdim edim.

Biz Sizi Küveytdə böyük səbirsizliklə gözləyirik. Bir il-il yarım bundan əvvəl Siz vəd etmişdiniz. Ona görə də biz bu səfərin həyata keçirilməsini böyük səbirsizliklə gözləyirik. Təşəkkür edirəm.

**Heydər Əliyev:** Sağ olun. Sizə təşəkkür edirəm ki, nümayəndə heyətinizin üzvlərini mənə təqdim etdiniz. Çox mötəbər nümayəndə heyətiniz var. Mən çox məmnunam ki, siz hamınız Azərbaycana gəlmisiniz, ölkəmizlə tanış olursunuz. Hiss etdim ki, Azərbaycanda ilk dəfə deyilsiniz. Qeyd etdiniz ki, Azərbaycandakı bu inkişafı, sabitliyi görürsünüz və buna görə də Azərbaycana sərmayə qoymaq fikrindəsiniz.

Mən bunu dəstəkləyirəm. Sizi əmin edə bilərəm ki, indi Azərbaycanda xarici sərmayəçilərin fəaliyyət göstərməsi üçün həqiqətən, çox gözəl imkanlar yaranıbdır. Birincisi, sizin qeyd etdiyiniz kimi, ölkədə sabitlik var və artıq dönməzdir. Yəni bu sabitlik həmişə olacaqdır. Hər bir sərmayəçi üçün sabitlik xüsusi rol oynayır.

İkincisi, xarici sərmayəçilərin işini təmin etmək üçün bizim çox əlverişli qanunlarımız var. Bunlar həm xarici sərmayəçilərə





sərmayə qoymaq imkanları yaradır, həm də sərmayəçilərin hüquqlarını qoruyur. Yol sizin üçün açıqdır. İndi hər şey sizdən asılıdır. Buyurun, gəlin, sərmayə qoyun və öz sərmayənizdən faydanızı götürün.

Təbiidir ki, gördüyünüz işlər yaşayacaqdır. Mən bilirəm, siz çox yerlərdə məktəblər, xəstəxanalar, universitetlər tikmisiniz. Bunlar da çox əhəmiyyətlidir.

Qeyd etdiniz ki, Ermənistanın Azərbaycana təcavüzünü siz daha da yaxşı hiss edə bilirsiniz, çünki vaxtilə özünüz belə bir təcavüzə məruz qalmışdınız. Mən o günləri xatırlayıram. Doğrudan da, İraq tərəfindən sizin ölkəyə qarşı hərbi təcavüz edilmişdi və bu, ölkənizə çox zərərlər gətirmişdi. Amma tezliklə sizə yardım etdilər və bunun nəticəsində də təcavüzdən tezliklə xilas oldunuz. Təcavüzkarı da cəzalandırdılar, indi də öz cəzasını çəkir.

Ancaq Azərbaycana edilən təcavüzün qarşısını heç kəs almayıbdır. Bəzi ölkələr isə təcavüzkara – Ermənistana kömək göstəriblər və indi də kömək edirlər. Bilirsiniz ki, Azərbaycanın torpaqlarının 20 faizi işğal olunubdur. Bir milyondan artıq azərbaycanlı – müsəlman öz yerindən-yurdundan çıxarılıb və çox illərdir ki, çadırlarda yaşayırlar.

Bizim yardıma ehtiyacımız var. Əgər siz xeyriyyəçilik işinizdə yerindən-yurdundan didərgin düşmüş həmin qaçqınları nəzərə alsanız, çox xeyirxah iş görmüş olarsınız. Bu, Allaha da çox xoş gedər. Rica edirəm, bu barədə bir az düşünün.

Qahirədə oxuyan azərbaycanlı tələbələrə yardımınıza, qayğınıza görə sizə təşəkkür edirəm. Güman edirəm ki, sizin Azərbaycana daha çox yardım etməyə imkanlarınız vardır.

Ölkənizin əmirinin, dostumun mənə göndərdiyi salamlara görə təşəkkür edirəm. Hörmətli dostum əmir Cabir əs-Sabahın dəvətini mən çoxdan almışam, ürəyim çox istəyir ki, Küveytə gedim. Birincisi, sizin ölkəni görməmişəm, ikincisi də, qardaşlarımla görüşmək istərdim. Bu dəvəti mütləq həyata keçirəcəyəm. Amma indi yəqin ki, sizdə havalar bizdə olduğundan da istidir.

**Əbd əl-Əziz Səd əl-Babteyn:** Bizdə havanın istiliyi 50 dərəcədən yuxarıdır.

**Heydər Əliyev:** Ola bilər ki, indi əmir də ölkədə yoxdur, sərin yerlərə gedibdir.

**Əbd əl-Əziz Səd əl-Babteyn:** O ölkədədir. Çoxları gedib, təkcə əmir ölkədədir.

**Heydər Əliyev:** Görürsünüzmü, mən sizin xasiyyətinizi bilirəm. Mən bu dəvəti mütləq həyata keçirəcəyəm. Xahiş edirəm mənim salamlarımı, hörmət və ehtiramımı əziz dostum əmir Cabir əs-Sabaha çatdırasınız. Mən sizin ölkənizlə dostluğu Azərbaycan üçün çox əhəmiyyətli hesab edirəm.

Oktyabr ayında Qətərdə İslam Konfransı Təşkilatının zirvə görüşü olacaqdır. Əgər sizin əmir orada olsa, onunla görüşərik və mənim səfərim üçün yaxşı bir vaxt müəyyən edərik. Mən sizə uğurlar arzulayıram.

**Əbd əl-Əziz Səd əl-Babteyn:** İcazə versəydiniz bir söz deyərdim. Keçən il Sizə vəd etmişdik ki, qaçqın düşərgəsində məktəb tikib istifadəyə verəcəyik. Biz o vədimizə əməl etmişik. Bu gün Sizinlə görüşdüyüm üçün başqa bir iş görməyi, yerinə yetirməyi vəd edirəm. Biz bilirik ki, Siz dünən Avstriyadan Vətəninizə gec qayıtmısınız və vaxtınız məhduddur. Mənim Sizdən bir xahişim var. Təbiidir ki, biz Sizin vaxtınızın az olduğunu bilirik və bunu qiymətləndiririk. Təşəkkür edirik ki, bu gün bizim üçün vaxt tapdınız. Bizim bu axşam bir ziyafətimiz vardır. Əgər imkanınız olarsa, vaxt tapıb gəlsəniz biz Sizin iştirakınızdan şad olarıq.

**Heydər Əliyev:** Çox sağ olun. Təşəkkür edirəm.

**Adil Abdulla əl-Fələh** *(Beynəlxalq Asiya Müsəlmanları Komitəsi İdarə Heyətinin sədri):* Zati-aliləri cənab Prezidentin vaxtının az olmasına baxmayaraq bizim üçün bu şəraiti yaratdığına və bizə bu şərəfi göstərdiyinə görə bir daha minnətdarlığımızı bildiririk. Bu gün şeyx Əbd əl-Əziz əl-Babteynə göstərilən diqqət və qayğı, onun mükafatlandırılması, ona elmi dərəcə verilməsi eyni zamanda, bütün Küveyt xalqına olan hörmətin, diqqətin bir təzahürüdür, ölkələrimiz arasında dostluğun, qarşılıqlı ehtiramın





daha da möhkəmləndirilməsinə həm bu gün, həm də gələcək üçün möhkəm zəmindir.

Mən sizinlə bu görüşümüzdən istifadə edərək, Asiya Müsəlmanları Komitəsi haqqında çox müxtəsər, qısa bir şey demək istəyirəm. Asiya Müsəlmanları Komitəsi Azərbaycanda 1992-ci ildən fəaliyyət göstərir. Bu komitə, hesab edin ki, həm də sizin komitənizdir. Onun fəaliyyəti bir çox sahələri – xeyriyyə, mədəni, din və bir sıra başqa sahələri əhatə edir. Azərbaycan onun fəaliyyətində, məcazi mənada desək, "şir payı" – çox böyük bir pay götürübdir. Bu vaxta qədər də mən çox düşünürəm – bunun səbəbi nədir ki, komitənin fəaliyyətinin böyük bir hissəsi Azərbaycana verilibdir?

Mən elə düşünürəm ki, bu, Azərbaycana olan sevgi-məhəbbətdir. Mən hesab edirəm ki, cənab Şeyxülislam Hacı Allahşükür Paşazadənin səyinin nəticəsidir ki, komitənin burada xeyriyyə işləri uğurla həyata keçirilir.

Gördüyümüz işlərdən biri 1993-cü ildə Sizin həyatınıza və fəaliyyətinizə həsr edilmiş kitabın ərəb dilinə tərcümə olunub ərəb ailələri arasında yaymağımız oldu. Azərbaycanın Qahirədəki səfiri İsrafil Vəkilovun köməyi ilə, onunla əməkdaşlıq şəraitində biz bunu həyata keçirə bildik. Bu gün də biz Küveyt dövlətinin əmiri Şeyx Cabir əs-Sabahın həyat və fəaliyyətinə həsr edilmiş kitabın Azərbaycan dilinə tərcüməsinin yayılmasına nail olduq.

Zati-aliləri, biz Azərbaycanda gördüyümüz nailiyyətlərə görə Sizi təbrik edirik. İcazə verin, Sizin müdrikliyiniz, rəhbərliyiniz sayəsində Azərbaycanın ən gərgin, ən çətin mərhələlərini keçə bildiyinizə görə Sizə öz heyranlığımı bildirim. Mən Sizin çıxışlarınızı, nitqlərinizi izləyirəm və İslam hüququnun, İslam əxlaqının bu ölkədə geniş yayılması üçün Sizin göstərdiyiniz səyləri yüksək qiymətləndirirəm. Asiya Müsəlmanları Komitəsinin 1993-cü ildən başlanmış fəaliyyəti xüsusilə qaçqınlara həsr olunmuş konfransdan sonra daha geniş inkişaf etmişdir. Yəni o konfransdan sonra bizim ölkələrdə qaçqınların məsələləri ilə məşğul olan bütün təşkilatların fəaliyyətinin məqsədyönlü şəkildə istiqamətləndirilmə-

sinə nail ola bilmişik. Biz qaçqınların problemləri ilə, demək olar ki, gündəlik məşğul oluruq. Mən hər gün komitənin nümayəndəlikləri ilə əlaqə saxlayıram və onlardan kifayət qədər məlumat alıram. Öyrənirəm ki, qaçqınlara hansı yardımlar göstərilib, vəziyyət necədir.

Qaçqınlarla bağlı bizim bəzi təkliflərimiz, fikirlərimiz vardır. Bu təklifləri Baş nazirin müavini, Dövlət qaçqınkomun sədri Əli Həsənova təqdim etmişik. Biz Sizdən icazə istəyirik ki, qaçqınların işləri ilə, onların problemləri ilə daha məqsədyönlü, daha faydalı, səmərəli məşğul olmaq üçün xüsusi bir komissiya yaradılmasına razılıq verəsiniz.

Asiya Müsəlmanları Komitəsi öz xeyriyyəçilik fəaliyyətini daha da artıraraq digər sahələrə də keçməyə başlamışdır. Bu komitə Azərbaycanla Küveyt arasında bir vasitəçi, bağlayıcı təşkilat rolunu oynayır. Biz Azərbaycana etdiyimiz hər səfər zamanı ən önəmli adamlarımızı, şəxsiyyətlərimizi buraya gətiririk ki, bu işlərdə bizə yardımçı olsunlar. Biz istərdik elə bir müəssisə yaradaq ki, orada iki yüz, üç yüz, bəlkə də min nəfər işləyə bilsin. Bu, min nəfərin vəziyyətinin yüngülləşdirilməsinə kömək edər. Mən onu demək istəyirəm ki, bizim tacirlərimizin, iş adamlarımızın Azərbaycanda işləmək üçün olduqca böyük istəkləri vardır. İnşallah, Sizin diqqətiniz və qayğınız sayəsində onlar burada əllərindən gələni etməyə hazır olduqlarını bildirirlər. Tacirlərdən, iş adamlarından başqa, burada yazıçılar, ədiblər vardır ki, onların Azərbaycan haqqında yazıları ilə minlərlə, on minlərlə oxucu tanış olur.

Zati-aliləri cənab Prezident, eyni zamanda, Sizə məlumat verirəm ki, biz Azərbaycan-Küveyt Dostluq Cəmiyyətinin yaradılmasını bitirmək üzrəyik. Küveyt tərəfindən bu cəmiyyətə tanınmış xeyriyyəçi, iş adamı Şeyx Əbd əl-Əziz Səud əl-Babteyn başçılıq edir.

Bu fürsəti bizə verdiyinizə, öz fikirlərimizi Sizə çatdırmağa imkan yaratdığınıza görə Sizə bir daha minnətdarlığımızı bildiririk.





Mən öz adımdan və dostlarım adından Sizə təşəkkürümü yetirirəm.

**Heydər Əliyev:** Asiya Komitəsinin Azərbaycanla əlaqədar gördüyü işlərə görə sizə təşəkkür edirəm.

Asiya Komitəsinin Bakıda keçirdiyi konfrans mənim xatirimdədir. Yəqin siz də xatırlayırsınız ki, mən o konfransda iştirak etmişəm və nitq söyləmişəm. Ona görə də sizin verdiyiniz məlumatlar məni sevindirir ki, o konfransdan sonra iş güclənibdir. Küveyt-Azərbaycan Dostluq və Əməkdaşlıq Cəmiyyətinin yaradılması təklifini də mən dəstəkləyirəm və cənab Əbd əl-Əziz Səud əl-Babteynin bu işə rəhbərlik etməsi, təbiidir ki, bu cəmiyyətin fəaliyyətinin çox güclü olmasını təmin edəcəkdir. Azərbaycan tərəfdən bu cəmiyyətə rəhbərlik edəcək şəxsi biz təyin edərik.

Hamınızı Azərbaycanda qaçqın vəziyyətində yaşayan insanlara yardımınızı əsirgəməməyə bir daha çağırıram. Yardımınızı əsirgəməyin, hətta artırmağa çalışın.

Təşəkkür edirəm. Mənim salamlarımı Küveyt xalqına, Küveyt əmiri Şeyx Cabir əl-Əhmədə çatdırın. Sağ olun.

# ÜMUMRUSİYA "RİFAH" İCTİMAİ-SİYASİ HƏRƏKATININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı, 21 iyul 2000-ci il*



**Heydər Əliyev:** Hörmətli dostlar, hörmətli qonaqlar, mən sizi salamlayıram. Məmnunam ki, təşəbbüs göstərmiş və Azərbaycana gəlmisiniz. Mən sizin fəaliyyətinizlə bir qədər tanış olmuşam və görürəm ki, faydalı iş aparırsınız. Azərbaycanda olmağınız, təbii ki, sizə ölkəmizin, həyatımızın, xalqımızın bugünkü reallığına baxmaq imkanı verəcəkdir. Təbii ki, bu da sizə gələcək praktiki fəaliyyətinizdə kömək edəcəkdir.

**Əbdülvahid Niyazov** *(Ümumrusiya "Rifah" İctimai-Siyasi hərəkatının sədri, Dövlət Dumasının Parlament və İşin Təşkili Komitəsi sədrinin müavini):* Hörmətli cənab Prezident! Səmimi qəbula görə Sizə təşəkkür edirik.





Şübhəsiz ki, dünya siyasətinin patriarxlarından biri, təkcə keçmiş postsovet məkanının, müasir birlik ölkələrinin deyil, həm də ümumən bütün türk, müsəlman dünyasının şəksiz liderlərindən biri tərəfindən qəbul olunmağımız bizim üçün böyük şərəfdir. Əlbəttə, hesab edirəm ki, bugünkü gün çoxlarımız üçün tarixi bir gün olacaq, biz uşaqlarımıza böyük siyasətçi Heydər Əliyeviç Əliyevlə necə görüşdüyümüz barədə danışacağıq.

Şübhəsiz, mən və həmkarlarım başa düşürük ki, bu görüş bizə bir növ avans olaraq göstərilən, əlbəttə, Rusiya Federasiyasında yaşayan 20 milyon müsəlmanın hamısına, ümumiyyətlə, Azərbaycan Respublikasına, Azərbaycan xalqına qardaş olan ölkəmizə, xalqımıza hörmət əlaməti olaraq göstərilən böyük şərəfdir. Ölkəmizə və xalqımıza sizin necə səmimi hisslər bəslədiyinizi bilirik. Siz görkəmli həyatınızın praktiki olaraq çox hissəsini vahid ölkədə yaşamısınız və şübhəsiz ki, biz bu görüşü məhz belə qiymətləndiririk.

Siz yəqin bilirsiniz, bizim hərəkat çox gəncdir, iki ildən də az bir müddətdir ki, qeydiyyatdan keçmişik, bir ilə yaxındır real siyasi fəallıq rejimində çalışırıq. Ancaq biz Qorbaçovun yenidənqurmasından sonrakı on illik təcrübəyə – müsəlman ictimai fəaliyyətinin mümkün olduğu dövrün təcrübəsinə əsaslanırıq. Hazırda biz həqiqətən ən böyük müsəlman ictimai-siyasi hərəkatıyıq. Bundan əlavə, biz – Rusiyanın yerli türkdilli xalqları da digər xalqlar arasında iş aparılmasına böyük diqqət yetiririk. Çünki həmin 25 milyon həmvətənimiz də Rusiya Federasiyasının 20 milyonluq müsəlmanlarının qarşılaşdıqları problemlərlə üzləşmişdir, onların qarşısında da eyni vəzifələr durur.

Bizim təşəbbüs göstərərək Azərbaycana gəlməyimiz müsəlman ölkəsinə rəsmi, yüksək səviyyədə ilk səfərimizdir. Bununla biz istər hərəkatımızın, istərsə də Rusiya müsəlmanlarının Azərbaycana böyük əhəmiyyət verməsini vurğulayır və ümid edirik ki, yeni Prezident Vladimir Vladimiroviç Putin başda olmaqla,

Rusiya dövləti də belə addımlar atacaqdır. Biz görürük ki, Xəzər regionu barəsində xarici siyasətə öncül yer verilməsi nəzərə çarpır. Bizim böyük dostumuz, xarici işlər nazirinin müavini Viktor İvanoviç Kalyujnı prezidentin xüsusi nümayəndəsi təyin edilib və o bu yaxınlarda burada olmuşdur. Biz bilirik ki, siz onunla görüşmüsünüz.

Şübhəsiz ki, bu gün Azərbaycan həm Xəzər regionunun, həm böyük Qafqaz regionunun istər siyasi, istərsə də iqtisadi baxımdan lideridir. Ona görə də ölkələrimizin sabitliyi, iqtisadi və siyasi tərəqqisi də xeyli dərəcədə Rusiyadan və Azərbaycandan asılı olacaqdır. Bizim ölkələrimiz çox ciddi separatizm problemi ilə qarşılaşmışdır və yəqin ki, biz bu ümumi problemdən məhz birlikdə, bəlkə də regionun Gürcüstan kimi digər ölkələri ilə birlikdə çıxmalıyıq.

Təəssüf ki, son vaxtlar istər Rusiya Federasiyasının, istərsə də Azərbaycanın bədxahları Çeçenistandakı, Şimali Qafqazdakı hadisələrlə əlaqədar, ölkəmizin keçirdiyi çətin vəziyyətdən istifadə edərək, ərazisinin xeyli hissəsinin işğal edilməsi və bir milyondan çox qaçqının olması – biz bu gün onların bəziləri ilə görüşdük – nəticəsində Azərbaycanın keçirdiyi çətinliklərdən istifadə edərək, ölkələrimiz arasındakı qarşılıqlı münasibətləri zəiflətməyə cəhd göstərirlər. Mətbuatda vaxtaşırı fitnəkar xarakterli yazılar verilir. Ancaq biz əminik ki, rus xalqı da, Heydər Əliyeviç Əliyev kimi lider başda olmaqla, Azərbaycan Respublikası və Azərbaycan xalqı da bir-birini tərəfdaş kimi görür. Biz yeni Prezidentimiz Vladimir Vladimiroviç Putinə çox inanırıq, ilk günlərdən, hələ keçən ilin avqustunda "Yedinstvo" hərəkatı yaradaraq onu birincilər sırasında dəstəklədik.

Əminik ki, mehriban qonşuluq, qardaşlıq münasibətlərinin davam etməsi və möhkəmlənməsi, çox vaxt süni şəkildə yaradılan narahatlıqların aradan qaldırılması üçün iki lider mümkün olan hər şeyi edəcəkdir. Biz – Rusiya müsəlmanları Rusiya-Azərbaycan tandeminin region ölkələrinin rifahı naminə, Müstəqil Dövlətlər Birliyi naminə, böyük Qafqaz regionunda, Xəzər dənizi regionunda yaşayan bütün xalqların rifahı naminə möhkəmlənməsi üçün əlimizdən gələni etməyə hazırıq.





Cənab Prezident, icazə verin, Bakıda olduğumuz iki gün ərzində burada hansı hissləri keçirdiyimizi bəri başdan bildirək.

Axırıncı dəfə biz Bakıda, zənnimcə, 1992-ci ildə olmuşuq. O vaxtkı Bakı və bugünkü Bakı bambaşqa şəhərlərdir. Bugünkü Bakı sürətlə inkişaf edən perspektivli ölkənin gündən-günə dəyişən paytaxtıdır. Adamların üzü gülür, yeni binalar tikilir, başqa sözlə, ölkə hər cəhətdən gələcəyə doğru istiqamətlənmişdir. Əlbəttə, bütün bunlar xeyli dərəcədə Sizin sayənizdə mümkün olmuşdur. Siz 1993-cü ildə yenidən hakimiyyətə gələndə özünüzdə güc tapdınız və ölkəni məhv olmaq, gələcəyini, bütövlüyünü itirmək təhlükəsindən həqiqətən xilas etdiniz. Bu 7 il ərində görülmüş işlər bizi heyran edir, təəccübləndirir. Hətta bəzən yaxşı mənada qibtə ilə baxırıq və ümid edirik ki, yeni Prezidentimiz Vladimir Vladimiroviç Putin də Sizin kimi ağsaqqalların sayəsində, Sizin təcrübənizdən istifadə edərək ölkəmizi ona irs qalmış çətinlikdən çıxara biləcəkdir. Biz bunu çox istəyirik, çünki biz də ölkəmizi güclü, vahid, çox dinamik inkişaf edən, iqtisadi və siyasi cəhətdən sabit ölkə kimi görmək istəyirik. Bizim üçün çox xoşdur ki, hazırda Azərbaycan həqiqətən tanınmış, sabit, demokratik dövlətdir.

Parlament seçkilərinə hazırlıqla əlaqədar biz dünən parlamentin rəhbərliyi – spiker cənab Ələsgərovla və onun müavinləri ilə görüşdük. Hadisələrin necə maraqlı cərəyan etdiyini bilirik. Bu göstərir ki, Azərbaycan həqiqətən demok-ratik dövlətdir. Onu da qeyd etmək bizə xoşdur ki, bunların hamısında, şübhəsiz, Sizin xidmətiniz var. O da xoşdur ki, Siz bizə, bizim gənc hərəkatımızı, Rusiya müsəlmanlarını, Rusiyada yaşayan türkləri şərəfləndirdiniz və Rusiya dövlətinə bəslədiyiniz xoş münasibəti bir

daha nümayiş etdirdiniz. Heydər Əliyeviç, buna görə Sizə çox minnətdarıq.

İcazə verin, nümayəndə heyətini Sizə təqdim edim. Nümayəndə heyətimizdə müxtəlif regionlar, təşkilatımızda birləşən bütün qüvvələr təmsil olunmuşdur. Biz ictimai-siyasi hərəkat olsaq da, mənəviyyat və əxlaqa böyük diqqət yetiririk. İndiki prezident Putinin hələ prezident vəzifəsini icra edərkən "ölkəni bərpa etməyə, dirçəltməyə yeni qanundan və ya vergi məcəlləsindən deyil, mənəviyyatı yüksəltməkdən başlamaq lazımdır", – deməsi bizim üçün çox vacib idi. Bizim dini hamilər şuramız var. Ona görkəmli müsəlman dini liderləri, o cümlədən ölkənizin çoxdankı dostu, Qafqaz Müsəlmanları İdarəsində Şeyxülislam Paşazadənin müavini, Şimali Qafqaz Müsəlmanlarının Əlaqələndirmə Mərkəzinin əlaqələndiricisi və rəhbəri, Rusiya Muftiləri Şurasının həmsədri, İnquşetiyanın muftisi Şeyx Məhəmməd Alboqaçiyev daxildir.

Məndən sağda "Yedinstvo"nun siyahısı üzrə uzaq Xantı-Mansi mahalından seçilmiş Qurban Əmiroviç Əmirov əyləşibdir. Mahalın inkişafı həmyerliniz Salmanovun sayəsində mümkün olmuşdur. Bu gün biz Elmlər Akademiyasında onu xatırladıq. Qurban Əmirov Büdcə Komitəsinin üzvü, hərəkatımızın İcraiyyə Komitəsinin sədridir.

Hərəkatımızın həmsədri, prezident seçkilərində Vladimir Vladimiroviç Putinin vəkili, Rusiyanın Türk Xalqları Assambleyasının prezidenti Brontoy Yanqoviç Bedyurov da burada bizimlədir. O əvvəllər Altay Respublikası Baş nazirinin müavini olmuşdur. Ora bizim ümumi vətənimizdir, üç il əvvəl İslamı qəbul etmişdir.

Bundan sonra Altayın bir çox ziyalıları, gəncləri, ictimaiyyətin liderləri də İslamı qəbul etmişlər. Mən Dolores Xaliulini də təqdim etmək istərdim. O, hərəkatımızın beynəlxalq departamentinin rəhbəridir. Onun səfir dərəcəsi var, Rusiya Federasiyasının





Ciddədə baş konsuludur. Siz müqəddəs yerlərdə olmusunuz, səfərinizin yekunlarına dair müsahibənizə baxmışıq.

Azərbaycan diasporu ilə yaxından iş aparmağımız bizim üçün çox xoşdur. Yəqin ki, onu icma adlandırmaq daha düzgün olardı, bu, 2 milyonluq icmadır. Onların bir milyona yaxını Rusiya vətəndaşıdır, daha bir milyona qədəri isə orada müvəqqəti yaşayır. Lakin onlar da getdikcə Rusiyada daha dərin köklər salırlar və odur ki, Azərbaycan icması hazırda Rusiya Federasiyasının ən iri müsəlman icmalarından biridir. Biz onu ölkəmizin tərkib hissəsi sayırıq və ona görə də Azərbaycan icmasının, Rusiyada yaşayan azərbaycanlıların mənafelərini öz mənafeyimiz bilir, onları elektoratımızın tərkib hissəsi hesab edirik. Bu gün, təəssüf ki, Dövlət Dumasında azərbaycanlı deputat yoxdur, amma siz tam əmin ola bilərsiniz ki, "Rifah"ın Dövlət Dumasındakı 12 deputatı Azərbaycan icmasının, Rusiya Federasiyasında yaşayan 2 milyon azərbaycanlının da mənafelərini layiqincə təmsil edəcəkdir.

Azərbaycan ictimaiyyəti Azərbaycanlıların Ümumrusiya Konqresini yaradanda biz bunu çox yüksək qiymətləndirdik və ruh yüksəkliyi ilə qarşıladıq. Konqresin üzvləri onun yaradılmasında, liderləri ilə ilk görüşdə Sizin şəxsən iştirak etməyinizdən çox ruhlanmışdılar. Bu gün burada Azərbaycanlıların Ümumrusiya Konqresi rəhbərliyinin nümayəndələri – İcraiyyə Komitəsinin sədri Məmməd Bağırov, konqresin vitse-prezidenti hörmətli Oqtay Hüseynov iştirak edirlər. Bizim fəallarımız da buradadırlar, onlar eyni zamanda, Azərbaycan icmasının fəalları, onun liderləridir. Burada Dağıstan azərbaycanlılarının lideri, Dərbənddən olan hörmətli Seyran Rəhimov da var. Türkdilli ölkələrlə əlaqələr üzrə müşavirimiz Malik Kərimov və "Azərbaycan tayms" qəzetinin redaktoru, bizim fəal tərəfdarlarımızdan biri Məmməd Nəsibov da buradadır.

Yəni biz Rusiya Federasiyasında yaşayan Azərbaycan icması ilə həqiqətən çox fəal işləyirik, səfirliklə, Ramiz Həsənoviç Rizayevlə

çox sıx ünsiyyət saxlayırıq. Bir də təkrar edirəm, hərəkatımız cavan olsa da, Siz ona bütünlüklə etibar edə bilərsiniz, biz isə həm Sizin etimadınızı həqiqətən doğrultmağa çalışır, həm də həmvətənlərimizin – Rusiyada yaşayan azərbaycanlıların mənafelərini layiqincə təmsil etməyə söz veririk.

Hörmətli cənab Prezident, biz bu gün Sizinlə görüşü səbirsizliklə gözləyirdik və nümayəndə heyətinin bəzi üzvləri də Sizə cəmi bir neçə kəlmə demək istərdilər.

**Heydər Əliyev:** Sağ olun. Sizin buraya gəlməyinizlə əlaqədar mən bir daha məmnun olduğumu bildirmək istəyirəm. Mənim xəbərim vardı, ancaq bu gün sizin "Rifah" ictimai təşkilatınız haqqında bəzi məlumatlarla tanış oldum. Hesab edirəm ki, siz düz yoldasınız, düzgün iş görürsünüz, çünki keçmiş Sovetlər İttifaqına daxil olan indiki bütün müstəqil dövlətlərdə dəyişikliklər baş verir, onlar demokratiyanı inkişaf etdirmək, demokratikləşmə, azadlıq yolu, hər bir millətdən olan insana bərabər hüquqlar vermək yolu ilə gedirlər. Siz tamamilə düzgün edirsiniz ki, əvvəla, Rusiyanın ictimai-siyasi həyatında fəal iştirak etmək, ikincisi, Rusiyanın müvafiq seçkili orqanlarında, həm də təkcə seçkili yox, ola bilsin, icra orqanlarında təmsil olunmaq üçün Rusiya müsəlmanları olaraq səylərinizi bu ictimai təşkilatda birləşdirirsiniz. Digər tərəfdən isə, bunu öz milli ənənələrinizi, milli adətlərinizi inkişaf etdirmək üçün edirsiniz.

Biz hamımız bir ölkədə, Sovetlər İttifaqında yaşamışıq, Sovetlər İttifaqı çoxmillətli ölkə idi. Hamımız deyirdik ki, Sovetlər İttifaqında 100-dən çox millət və xalq yaşayır. Mən Sovetlər İttifaqının, Kommunist Partiyasının xadimlərindən biri idim. 14 il Azərbaycan Kommunist Partiyasına rəhbərlik etmiş, 5 ildən çox Moskvada Sov. İKP MK Siyasi Bürosunun tərkibində olmuş, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləmişəm. Yəni mən də bu siyasəti həyata keçirənlərdən biri idim, özümü kənara çəkmirəm. Amma həyat göstərdi ki, bu siyasət düzgün olmamış-





dır. Çünki hər bir xalqın öz tarixi, öz kökləri, öz etnik tərkibi var, hər bir xalq öz əcdadlarının dininə mənsubdur.

Odur ki, bunların hamısını bir yerə cəmləmək, hamısını eyni şəklə salmaq olmazdı. Təbliğ etdiyimiz belə bir nəzəriyyə var idi ki, Sovetlər İttifaqında insanların yeni birliyi – sovet xalqı yaranır. Hələ vaxtilə Stalinin belə bir nəzəriyyəsi var idi ki, bütün millətlər yaxınlaşmalıdırlar, nə vaxtsa fərqlər olmayacaq, vahid millət və vahid dil olacaqdır. O zaman çoxları buna inanırdı, çünki biz hamımız doğulduğumuz və boya-başa çatdığımız ölkədə təbliğ olunan bu ideologiyaya böyük inam bəsləyirdik. Özü də ölkə qapalı idi və biz başqa bir şey bilmirdik.

Bunların hamısının əsassızlığı və tarixi proseslərə uyğun olmadığı aşkara çıxdı. Yer kürəsi böyükdür, burada, dünyada müxtəlif millətlərə, müxtəlif dinlərə mənsub olan, müxtəlif mənəvi, əxlaqi və milli dəyərlərə malik adamlar yaşayır. Bütün bunları getdikcə itirmək, sıxışdırmaq və hansısa vahid əxlaqi, milli dəyərlər modeli yaratmaq, sadəcə olaraq, mümkün deyildir. Məsələn, xristianlar var, özü də onların arasında da pravoslavlar, katoliklər, protestantlar və b. var. Müsəlmanlar, buddistlər və digərləri vardır. Sovetlər İttifaqında nə qədər dinlər təmsil olunurdu.

Din nə deməkdir? Din – xalqların müxtəlif dövrlərdə qəbul etdikləri əsas yaşayış qaydaları və mənəviyyatının başlıca qaynaqlarıdır. Odur ki, ateist təbliğatı, ateizm o zaman heç bir nəticə vermədi. Doğrudur ki, din rəsmən qadağan edilmişdi, lakin adamların böyük əksəriyyəti qəlbən özünün dinə, milli dəyərlərə mənsub olduğunu yaddan çıxarmır, dilini unutmurdu. Halbuki Sovetlər İttifaqında hamının ancaq rus dilində, millətlərarası ünsiyyət dilində danışmalı olması, digər dillərin isə getdikcə ölməli olması fikri təlqin edilirdi. Bəli, bunu çoxmillətli ölkədə qəbul etmək olardı, lakin bir şərtlə ki, hər bir xalq öz dilini də inkişaf etdirsin. Çünki dil insanın milli mənsubiyyətini, milli köklərini müəyyənləşdirən mühüm amillərdən biridir.

Bu haqda çox danışmaq olar. Siz yaxşı bilirsiniz ki, bütün bunları mən də görmüşəm və hesab edirəm ki, bu fikirlərin hamısı səhv və hətta zərərli idi. Fikir verin, kommunist ideologiyası səhnədən gedən kimi, Sovetlər İttifaqı dağılan kimi, əvvəla, müttəfiq respublikalar öz dövlət müstəqilliyini, öz azadlıqlarını elan etdilər, ikincisi isə, hər bir insan öz köklərinə, tarixi, milli köklərinə qayıtmağa başladı.

Odur ki, məsələn, əgər sovet hakimiyyətinin ilk dövrlərində insanları xalqların əsrlər boyu topladığı dəyərlərdən zorla məhrum etməyə çalışırdılarsa, indi bütün bunların bərpası prosesi gedir. Özü də tətbiq edilən zorakılıq tədbirləri, əlbəttə ki, sərt repressiyalarla müşayiət olunurdu və bu, dövlət siyasəti idi. Buna baxmayaraq, həmin siyasət uğur qazanmadı. Xalqlar azadlıq qazandıqdan sonra isə heç kim, heç bir dövlət heç bir siyasət yeritmir. Hər bir xalq özü öz tarixi köklərinə, milli köklərinə, milli dəyərlərinə, milli adət-ənənələrinə qayıtmağa başladı və bu çox qısa müddətdə baş verdi.

Yəni bütün bunları qadağan etmək mümkün deyildi, bu eksperiment çox zərərli oldu. Lakin bəlkə də insan cəmiyyətinin böyük tarixi baxımından, görünür bəşəriyyət bununla da üzləşməli idi ki, belə bir ideologiyanın bir daha yaşamaq hüququ olmadığını yəqin etsin.

İndi, Sovetlər İttifaqı dağılandan sonra Rusiya özünü suveren federativ dövlət elan etmişdir. Biz hamımız – vaxtilə Sovet İttifaqının tərkibinə daxil olan müttəfiq respublikalar öz dövlət müstəqilliyimizi elan etmişik, öz suverenliyimizi elan etmişik və hər birimizdə milli dövlətçilik quruculuğu prosesi gedir. Mən bilirəm ki, keçmiş Sovetlər İttifaqına daxil olan bütün ölkələrdə demokratikləşmə prosesi, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi gedir, iqtisadiyyatda böyük dəyişikliklər baş verir. Dövlət mülkiyyəti öz gücünü itirir, özəl sektor özünə layiq olan yeri tutur. Bu proseslər çətin, mürəkkəbdir. Ona görə





də Rusiyada da, Azərbaycanda da, digər ölkələrdə də olduqca çox çətinliklər – iqtisadi xarakterli çətinliklər, əhalinin yaşayış səviyyəsi ilə bağlı çətinliklər, sosial, siyasi xarakterli çətinliklər mövcuddur. Mən deyə bilərəm ki, bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan bu yolla qətiyyətlə irəliləyir. Azərbaycan görünməmiş dərəcədə fəxr edir ki, biz azad millətik, azad xalqıq, öz torpağımızda müstəqil dövlətimiz var, Dünya Birliyinə daxilik və öz taleyimizin sahibiyik, öz təbii sərvətlərimizin, hər şeyin sahibiyik.

Rusiya yenə də çoxmillətli dövlət olaraq qalmışdır.

Demokratikləşmənin ən vacib prinsiplərindən biri milli mənsubiyyətindən, dilindən, dərisinin rəngindən, dini etiqadından asılı olmayaraq, hamının hüquq bərabərliyi prinsipidir. Azərbaycanda bu azadlıqların hamısı verilmişdir. Azərbaycan da çoxmillətli dövlətdir, hansı millətə mənsub olmasından asılı olmayaraq, bizdə insanların hamısı bərabər hüquqlardan istifadə edir, onlar vətəndaşlardır. Azərbaycanda üç konfessiya – müsəlman, xristian və yəhudi konfessiyaları var. Onlar tamamilə sərbəst şəkildə, müstəqil fəaliyyət göstərirlər və çox xoşdur ki, müsəlman, xristian və yəhudi konfessiyaları arasında sıx qarşılıqlı əlaqə var.

Rusiya bu baxımdan daha rəngarəngdir, Rusiyada xalqlar daha çoxdur. Rusiya genişdir, ərazisi böyükdür, proseslər daha çətin gedir. Bu mənada sizin "Rifah" ictimai təşkilatını yaratmaq təşəbbüsünüz – mən belə başa düşürəm ki, o, dövlətlə də fəal əməkdaşlıq edir, yeni prezident Vladimir Vladimiroviç Putinin xəttini dəstəkləyir və siz Dövlət Dumasında "Yedinstvo" birliyinə daxilsiniz – çox yaxşıdır. Biz hesab edirik ki, müsbət amildir.

Bax, siz öz mənəvi dəyərlərinizi, öz milli dəyərlərinizi dirçəldirsiniz. Rusiya müsəlmanlarının da dini birdir, ancaq müxtəlif adətlər, mərasimlər, müxtəlif fərqlər var. Amma bunlar onları bir-birindən çox fərqləndirmir. Çünki, hər halda, xalqlarımız İslamı qəbul edəndən bəri bu din onların mənəvi həyatında mühüm rol oyna-

mışdır. Davranış normaları da, milli dəyərlər də, adətlər də, mərasimlər də dini prinsiplər əsasında, Quranda yazılmış müddəalar əsasında yaranmışdır. Ona görə də birləşmək Rusiyanın müsəlman mənşəli xalqlarını daha da zənginləşdirir. Hesab edirəm ki, siz böyük uğurlara nail ola bilərsiniz. Mən bilmirəm, Rusiyada nə qədər müsəlman yaşayır...

**Əbdülvahid Niyazov:** Təxminən 20 milyon.

**Heydər Əliyev:** Kimsə bir nəfər deyirdi ki, çoxdur. Bu az deyildir, həm də milli respublikaları götürsək, Rusiya Federasiyasına daxil olan milli respublikaların əksəriyyəti müsəlman dininə malik respublikalardır. Ona görə də sizin hərəkatın böyük perspektivi, böyük gələcəyi vardır. Əvvəla, mən sizin gördüyünüz işi dəstəkləyirəm və hesab edirəm ki, düz yoldasınız. Ancaq eyni zamanda, əlbəttə, Rusiya ilə müsəlman dövlətləri arasında münasibətlərin inkişafı və möhkəmlənməsi bizim üçün çox vacibdir. Bilirsiniz, hər halda, keçmiş vaxtlarda Rusiyada şovinizm olub, sovet dövründə də daha çox yerli millətçilik haqqında danışırdılar. Yeri gəlmişkən, deyim ki, bilmirəm Leninə kim necə yanaşır, amma bu baxımdan Leninin çox düzgün fikirləri var idi. O deyirdi ki, bu da, o birisi də – şovinizm də, millətçilik də təhlükəlidir. Mən bunu bu gün də düzgün hesab edirəm. Amma onun başqa sözləri də var idi. O deyirdi ki, qeyri millətin ruslaşmış nümayəndəsi rus pəzəvəngindən pisdir. Yadınızdadırmı? Bilirsiniz, bu çox dəqiq ifadədir. Rusiyada bəzən başqa millətin nümayəndəsi – hələ çarizm vaxtında, Lenin bunu əsrin əvvəlində demişdi – digər millətdən olan insanlar ruslaşıb daha çox rus olurdular, necə deyərlər, "Roma Papasının özündən də qatı katolik olmaq istəyirdilər". Bu da var. Bizdə hələ elə adamlar var ki, assimilyasiyaya uğrayır, öz milli köklərini, dilini itirirlər.

Biz, milli respublikalar Sovetlər İttifaqının tərkibində heç nə itirmədik. Biz azad deyildik, yəni müstəqilliyimiz, dövlətçiliyimiz yox idi. Amma öz dilimiz vardı, onu qoruyub saxladıq, nəinki saxladıq, həm də zənginləşdirdik. Məsələn, əgər əsrin əvvəlindəki Azərbaycan dilini və bugünkü Azərbaycan dilini müqayisə etsək – bugünkü çox zəngin dildir. Yəni biz öz dilimizi zənginləşdirmişik, dilimiz tədricən inkişaf etmişdir. Biz milli məktəblərimizi, milli mətbuatımızı, milli elmimizi qoruyub saxlamışıq, bütün milli kadrları – hər şeyi qoruyub saxlamışıq. Ona görə də müstəqillik qazananda heç bir problemimiz olmadı. Amma bir üstünlük var, rus dilini yaxşı bilən adamlar vardır – bu da çox lazımdır, o, dünya səviyyəli dillərdən biridir – onlar öz dillərini də yaxşı bilirlər. Doğrudur, elələri var ki, rus dilini öz dilindən yaxşı bilir. Bu da var. Amma bu da müvəqqəti haldır. Hesab edirəm ki, onlar da rus dilini yaxşı bilməklə yanaşı, öz milli dilində danışmağı, ondan yaxşı istifadə etməyi öyrənəcəklər.

Ona görə sizin hərəkatın bir əhəmiyyəti də ondadır ki, ümumi dövlətin tərkibində olan, Rusiya Federasiyasının normaları, Konstitusiyası çərçivəsində yaşayan hər bir milli respublikada hər bir xalq Rusiya Federasiyası dövlətinin siyasətinə uyğun olaraq fəaliyyət göstərə bilsin, eyni zamanda, öz milli dəyərlərini – dilini, adətlərini, ənənələrini inkişaf etdirsin.

Məsələn, müxtəlif bayramlar var – xristianların bir cür, müsəlmanların başqa cür. Hər ikisinə hörmətlə yanaşmaq lazımdır. Başqa sözlə, bizə qarşılıqlı hörmət lazımdır. Din baxımından sayca böyük xalqlardır, sayca kiçik xalqlardır – heç bir ayrı-seçkilik olmamalıdır. Mənə elə gəlir ki, Vladimir Vladimiroviç Putin prezident seçildikdən sonra Rusiyada məhz bu istiqamətdə çox düzgün siyasət aparılır. Sizin qeyd etdiyiniz kimi, ilk dəfə məhz o, vergi məcəlləsi deyil, əxlaq məcəlləsi yaratmaq lazımdır demişsə, bu çox doğrudur. Hər bir xalqın əxlaqı isə onun mənəvi dəyərlərindən başlayır. Mənəvi dəyərlər isə dinlə, milli köklərlə sıx bağlıdır. Hər bir millətin öz xüsusiyyətləri, öz mərasimləri var. Onları heç vaxt əldən almaq olmaz. Bizi Novruz bayramından məhrum etməyə cəhd göstərirdilər, halbuki o, 3000 ildir mövcuddur və heç bir dini məna-

sı yoxdur. Bu bayramı rəsmən keçirmirdilər, lakin hər bir azərbaycanlı ailəsi onu bayram edirdi. İndi isə Novruz bayramı ümumxalq bayramıdır, hamıya sevinc bəxş edir. Burada pis nə var ki?

Rusiya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərə gəldikdə isə, biz həmişə çalışmışıq və çalışırıq ki, münasibətlərimiz dostcasına, lakin bərabər hüquq əsasında olsun. Biz müstəqil dövlətik və Rusiya da müstəqil dövlətdir. Heç bir ölkə, respublika barəsində keçmişdəki kimi diktə olmamalıdır. Hər şey bərabər hüquq və qarşılıqlı surətdə faydalı əsasda olmalıdır. Hesab edirəm ki, bu barədə Rusiya hökuməti də, Azərbaycan hökuməti də eyni mövqedədirlər, aramızda heç bir fikir ayrılığı yoxdur.

Azərbaycanda rus dili çox işləkdir. Çoxlu rus məktəbləri var. Hətta azərbaycanlıların bir çoxu da rus məktəblərində oxuyur. Məsələn, bəlkə də Rusiyanın daha yaxın müttəfiqi sayılan Ermənistanda rus dilində tədris tamamilə qadağan edilmişdir, rus məktəbləri yoxdur. Bizdə isə var. Azərbaycanda təxminən 150 min rus əhali də yaşayır, heç bir problem yoxdur. Onlar öz həyatlarından, öz vəziyyətlərindən razıdırlar. Heç bir şəkildə sıxışdırılmırlar. Yeri gəlmişkən, rusdilli əhaliyə münasibət baxımından Moskvada Azərbaycanı tez-tez nümunə gətirirlər.

İndi münasibətlərimizi genişləndirmək və inkişaf etdirmək üçün yaxşı imkanlarımız var. Tez-tez nümayəndə heyətləri mübadiləsi edirik. Məsələn, bu yaxınlarda Azərbaycanda Rusiya Federasiyası mədəniyyəti günləri, Moskva mədəniyyəti günləri keçirildi. Bütün xalqımız bir neçə gün böyük ruh yüksəkliyi ilə bu tədbirlərdə iştirak etdi. Eyni tədbirlər Moskvada da keçirilir.

Sizin hərəkatınız bu yöndə bizə kömək edə bilər. Mən bu yaxınlarda Moskvada olanda orada Rusiya azərbaycanlılarının birinci konqresi keçirildi. Mən orada çıxış etdim. Mən onlara çoxlu arzularımı bildirdim. Bu haqda hər şey yazılıbdır. Orada Rusiya Federasiyasında Azərbaycan icmasının olduğu 50 vilayətin nümayəndələri iştirak edirdi. Mən onlara dedim ki, siz Rusiya





vətəndaşlarısınız, bir hissəniz Rusiya vətəndaşıdır, bir hissəniz isə orada müvəqqəti yaşayır.

Rusiya vətəndaşları Rusiyanın tam hüquqlu vətəndaşları olmalıdırlar. Başqa sözlə, necə deyərlər, tamamilə Rusiya qanunlarına müvafiq hərəkət etməli və Rusiya vətəndaşlarının bütün hüquqlarından istifadə etməlidirlər. Orada müvəqqəti yaşayan azərbaycanlılar Rusiya qanunlarına hörmət etməli, bütün qaydalara tabe olmalı və əlbəttə, Azərbaycan ilə Rusiya arasında münasibətlərin möhkəmlənməsinə kömək göstərməlidirlər. Ümumilikdə, bizim arzumuz budur və mən bu vəzifəni Azərbaycan Konqresi qarşısında qoydum.

Siz deyirsiniz ki, Rusiyada 2 milyon azərbaycanlı yaşayır. Belə məlumat bizdə də var. Onların vəzifəsi normal yaşamaq, öz bacarıqlarını gerçəkləşdirmək, uşaqlarına təhsil vermək, Rusiya vətəndaşlarının hüquqlarından və digər hüquqlardan istifadə etmək, Rusiya ilə Azərbaycan arasında münasibətləri möhkəmləndirməkdən, bir də Azərbaycan haqqında həqiqəti yaymaqdan ibarətdir. Bilirsiniz, təəssüf ki, Azərbaycan haqqında heç də hər yerdə düzgün təsəvvür yoxdur. Xüsusilə də Ermənistanla Azərbaycan arasında münaqişə yarandıqdan sonra.

Axı bu münaqişə hələ 1988-ci ildə, Sovetlər İttifaqı mövcud olduğu dövrdə yaranmışdır. Sovet hökuməti Azərbaycana qarşı olduqca ədalətsizlik etdi. Əgər sovet hökuməti həqiqətən də istəsəydi, bu münaqişənin qarşısını ala bilərdi və o bu qədər insanın ölümünə və qan tökülməsinə səbəb olan müharibəyə çevrilməzdi. Lakin onlar bunu etmədilər və bunda hökumət və dövlət, Siyasi Büro və şəxsən Qorbaçov günahkardır.

Sonra bu münaqişə müharibəyə çevrildi. Bu müharibədə Azərbaycan daha pis vəziyyətə düşdü. Çünki Ermənistana Rusiya qoşunları tərəfindən də – o zaman hələ sovet qoşunları idi – digər qüvvələr, xaricdəki erməni diasporu tərəfindən də yardım olunurdu. Azərbaycana isə heç kim yardım göstərmirdi. Digər

tərəfdən isə, təəssüf ki, Azərbaycanın daxilində sabitlik, ölkədə etibarlı rəhbərlik yox idi. Burada böyük mübarizə gedirdi. Bir tərəfdən, Ermənistan Azərbaycan ərazisini işğal edirdi, digər tərəfdən isə, daxildə müxtəlif qruplar, özü də silahlı qruplar hakimiyyət uğrunda mübarizə aparırdılar. Odur ki, 1988-ci ildən 1993-cü ilə qədər burada hakimiyyət beş-altı dəfə dəyişmişdi. 1993-cü ildə Azərbaycan vətəndaş müharibəsi həddinə gəlib çıxmışdı. Onda məni buraya çağırdılar. O vaxtdan biz qayda-qanun yaradırıq.

Ermənistan silahlı qüvvələri əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağa, 170 min adamın – bunların 70 faizi ermənilər, 30 faizi azərbaycanlılar idi – yaşadığı kiçik torpağa iddia edərək, ərazimizin 20 faizini işğal etdilər. Dağlıq Qarabağ Azərbaycan ərazisinin mərkəzində yerləşir. Ermənilər oranı Ermənistana birləşdirməyə cəhd göstərərək, bu münaqişəyə başladılar. Onlar əvvəlcə Dağlıq Qarabağı işğal etməyə, oradan azərbaycanlıları qovmağa nail oldular. Sonra isə təcavüzü daha da genişləndirdilər. Dağlıq Qarabağın ətrafında olan, yalnız azərbaycanlı əhali yaşayan 7 rayonu işğal etdilər və oradan bir milyon adamı qovdular. İndi bu adamlar Azərbaycan ərazisinin müxtəlif yerlərində, çadırlarda yaşayırlar. Təsəvvür edirsinizmi? Bir baxın, hava necə istidir, bu istidə onlar çadırlarda yaşayırlar.

Birləşmiş Millətlər Təşkilatı Ermənistan silahlı qüvvələrinin çıxarılması barədə qərar qəbul edir – Ermənistan tabe olmur. ATƏT qərar qəbul edir, onlar tabe olmurlar. Rusiya, Amerika və Fransa başda olmaqla, ATƏT-in Minsk qrupu var. Onlar da heç nə edə bilmirlər.

Baxın, biz belə vəziyyətdəyik. Belə vəziyyətdə ikən, yəni təcavüzə, bu cür itkilərə məruz qalarkən, torpaqlarımızın 20 faizi işğal altında olarkən, erməni diasporu – o, Rusiyada da, Amerikada da, Fransada da və bir çox digər ölkələrdə də çox güclüdür – vəziyyət haqqında yalan informasiya verir. Nəticədə dünyanın





bir çox ölkələrində belə təsəvvür yaranır ki, bu işdə təqsirkar ermənilər deyil, azərbaycanlılardır. Başa düşürsünüzmü, məsələ nə yerdədir? Erməni diasporu Rusiyada da çox böyükdür, özü də o daha sıx birləşmiş, daha güclüdür, dövlətdə və digər orqanlarda bir çox mühüm mövqeləri tutur.

Məsələn, Amerikada bir milyon erməni yaşayır, Amerikanın əhalisi təxminən 280 milyondur, ancaq ermənilərin böyük kapitalı var və Amerika hökumətinə təsir göstərirlər. Eləcə də, Fransada.

Biz deyəndə isə, axı belə olmaz, deyirlər ki, sizin dünyada təbliğatınız yoxdur. Bizim Amerikada, Fransada, demək olar ki, diasporumuz olmadığı bir halda, dünyada necə təbliğat aparaq, necə? Dünya Birliyində isə ədalət yoxdur. Ona görə də biz Rusiyadakı Azərbaycan icması qarşısında vəzifə qoyuruq ki, özlərinin bütün ümumi işlərindən əlavə, Azərbaycan haqqında həqiqəti də yaysınlar. Biz həqiqətdən savayı heç nə istəmirik. Əlbəttə, bununla əlaqədar sizin də köməyinizə müraciət edirik. Sizin böyük imkanlarınız var. Xahiş edirik, adamları göndərin, qoy gəlib qaçqınların necə çətin şəraitdə yaşadıqlarını görsünlər. Sizi hətta çadır düşərgələrinə deyil, şəhərdə qaçqınların yanına apara bilərlər.

**Əbdülvahid Niyazov:** Biz görmüşük, sabah da Gəncəyə gedəcəyik.

**Heydər Əliyev:** Gəncəyə? Çox yaxşı. Ancaq bizim Baş nazirin müavini Əli Həsənova demək lazımdır ki, təşkil etsin, bu işlərlə o məşğul olur. Mən sizdən çox xahiş edirəm, gedib baxın.

Mən sizi salamlayıram, sizə uğurlar arzulamaq istəyirəm və çox şadam ki, bizim aramızda əlaqə yarandı və bu, davam edəcəkdir. Mən sizinlə söhbəti davam etdirərdim, amma bir az sonra mənim başqa, çox böyük görüşüm olacaq, ona görə də təəssüf ki, söhbəti bitirməliyəm.

**Əbdülvahid Niyazov görüşün sonunda dedi:**

Siz bizim hamımız üçün çox yaxın insansınız, çünki biz Sizi hələ o vaxtdan, Sovet İttifaqının lideri olan vaxtdan tanıyırıq.

Buradakı qardaşlarımızın çoxu çıxış etmək istəyirdi, ancaq çox inamla irəliləyən, çox vacib regionda – bugünkü Qafqazda, Xəzər regonunda çox şeyi müəyyənləşdirən dövlətin başçısı kimi, Sizin vaxtınızın olmadığını başa düşürük. Bizi qəbul etməyə vaxt tapdığınıza görə qardaşlarımızın hamısının adından Sizə minnətdarlıq etmək istəyirik. Yeri gəlmişkən, nümayəndə heyətimizin üzvlərindən biri oğluna Sizin adınızı vermişdir. Ümid edirik ki, balaca Heydər böyüyəndə Kəlbəcər, Laçın və Qubadlının ərazisinə sakitcə gedə biləcək, o yerlər azad olunacaq və bərpa ediləcəkdir. Əgər biz bu işdə kömək göstərə bilsək, xoşbəxt olacağıq.

Bu gün biz qaçqınlarla görüşdük. Bir qadın dedi ki, əgər Heydər Əliyevlə görüşsəniz ona deyin ki, bizə heç bir yardım lazım deyil, qoy mümkün olan hər şeyi etsin ki, doğma ocağımıza qayıdaq.

**Heydər Əliyev:** Onların hamısı bunu istəyir.

**Əbdülvahid Niyazov:** Dünən biz parlamentdə görüşərkən dedik ki, Rusiyada erməni diasporunun necə güclü, hazırlıqlı olmasına əminik. Biz orada da tədbirlər görməliyik ki, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı anlaşmanı və mehriban qonşuluğu sarsıdan hansısa qərar və ya müraciət qəbul edilməsin.





## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Yəhudi təqvimi ilə Yeni il – Roş-Ha-Şana bayramı münasibətilə sizi ürəkdən təbrik edir, respublikamızın bütün yəhudi vətəndaşlarına xoşbəxtlik və səadət arzulayıram.

Azərbaycanda yaşayan bütün xalqların nümayəndələrinin iştirakı ilə keçirilən milli bayramların və mərasimlərin əsl el şənlikləri kimi geniş qeyd edilməsi respublikamızda xoş bir ənənə halını almışdır. Belə bayramlar insanları bir-birinə daha da yaxınlaşdırır və doğmalaşdırır. Bu, müstəqil Azərbaycan Respublikasında demokratik cəmiyyətin, vətəndaş həmrəyliyinin, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının sərbəst və azad şəraitdə yaşamasının göstəricisidir.

Çoxmillətli cəmiyyətimizin tam və bərabərhüquqlu üzvləri olan yəhudilər öz milli adət və ənənələrini qoruyub saxlamaqla, tarixən olduğu kimi, bu gün də Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatında yaxından iştirak edir, respublikamızın tərəqqisi və inkişafı üçün vətəndaşlıq borclarını yerinə yetirirlər.

Yeniləşmə, paklaşma, xeyirxahlıq və şəfqət bayramı olan Roş-Ha-Şana günlərində sevincinizə şərik olur, ailələrinizə əmin-amanlıq və firavanlıq arzularımı yetirirəm.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 3 oktyabr 2000-ci il*

## VATİKAN DÖVLƏTİNİN BAŞÇISI PAPA II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ

Möhtərəm Papa həzrətləri!

Vatikan dövlətinin milli bayramı – Müqəddəs taxta əyləşmə günü münasibətilə Sizi və bütün katolikləri ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Vatikan arasında əlaqələrin inkişafı beynəlxalq münasibətlərdə mənəvi dəyərlərin daha möhkəm bərqərar olmasına, insanlar arasında qarşılıqlı anlaşmanın yaxşılaşmasına xidmət edəcəkdir.

Fürsətdən istifadə edib Sizə uzun ömür, möhkəm cansağlığı və müvəffəqiyyətlər arzulayıram.

Hörmət və ehtiramla,

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 5 oktyabr 2000-ci il*





## MİRMÖVSÜM AĞANIN ZİYARƏTGAHINDA NİTQ

*Bakı, Əzizbəyov rayonu, Şüvəlan qəsəbəsi*
*19 dekabr 2000-ci il*

Əziz bacılar və qardaşlar!

Hörmətli dindarlar!

Bu gün toplaşdığımız ziyarətgahda görülən işlər xeyirxah işlərdir. Bu, millətimiz üçün, xalqımız üçün, müsəlmanlar üçün çox gərəkli işlərdir. Mirmövsüm ağa burada 1950-ci ildə dəfn olunubdur. Bunun üstündən 50 il keçibdir. İndi, 50 il keçəndən sonra burada belə abadlıq işləri və onun xatirəsinə layiq, təkcə onun yox, bizim İslam dininin bütün adət-ənələrinə layiq bir abidə yaradırsınız.

Mən keçən dəfə buraya gələndə ancaq onun qəbrini və ətrafındakı tikilini gördüm. Amma indi burada geniş bir kompleks yaranıbdır. O vaxt bunu mənə demişdilər. Amma mən bu dərəcədə təsəvvür edə bilməzdim. Çox gözəldir, mən bəyənirəm. Burada zəhmət çəkənlərin hamısına təşəkkür edirəm və bütün işlərin görülməsi üçün öz arzuları ilə nəzir, yaxud başqa kömək verən adamların da hamısına təşəkkür edirəm. Çünki bu bizim ümumxalq işimizdir. Bu bizim öz dərin, qədim milli-mənəvi köklərimizə sadiqliyimizi nümayiş etdirir və gələcək nəsillər üçün örnək olur. Bu bizim müqəddəs İslam dininə olan bağlılığımızı bir daha sübut edir. Bunların hamısı olduqca təqdirəlayiqdir və burada zəhmət çəkən, əziyyət çəkən, qəlbən bu işi görən adamların hamısının əməyini bir daha, bir daha yüksək qiymətləndirirəm.

İndi bizim ölkəmizdə də, hər yerdə də böyük-böyük tikinti işləri gedir. Tikinti belədir ki, bu kiməsə lazımdır, kimsə ona vəsaitini qoyur, kimsə də o tikintini aparır, oradan pul qazanır.

Amma burada isə belə deyildir. Bura bütün xalqa, millətə lazımdır, getdiyimiz Allah yolunda lazımdır və bunu da xalq özü edir. Heç kəs bunun sifarişini də vermir, müstəqil olaraq vəsaitini də vermir. Heç kəs bunun inşaatını da aparmır. Hamısını xalq özü aparır. Nə üçün? Ancaq qəlbinin hökmü ilə! Yəni özünün mənəvi dəyərlərə bağlılığı ilə, İslam dininə bağlılığı ilə, Qurani-Kərimə bağlılığı ilə bu işləri görür. Ona görə də mən burada gördüklərimdən çox məmnunam. Əgər indi iş belə gedirsə, bir müddətdən sonra yəqin ki, hamımız burada daha çox şeyləri görəcəyik.

**Yerdən səslər:** Cənab Prezident, hamısı Sizin uğurunuzun nəticəsidir.

**Heydər Əliyev:** Mən sizi Ramazan bayramı münasibətilə təbrik edirəm. Allah hamınızın orucunu qəbul etsin. Bizim hər bir dini ibadətlərimiz insanlara sağlamlıq gətirməlidir, insanların arzusunun yerinə yetirilməsini təmin etməlidir, insanlara xoşbəxtlik gətirməlidir. Ramazan ayı ölkəmizdə geniş qeyd olunur. Arzu edirəm ki, bütün oruc tutanlar, ibadət edənlər, namaz qılanlar – bu Ramazan ayında öz dini borclarını yerinə yetirənlər hamısı xoşbəxt olsunlar, öz arzularına çatsınlar. Sizin hamınıza cansağlığı arzulayıram.

**Yerdən səslər:** Cənab Prezident, Sizinlə birlikdə. Allah Sizə uzun ömür versin!

**Heydər Əliyev:** İndi bizim həyatımız bir neçə çətinliklərlə rastlaşır. Bunu bilirsiniz. Bir vaxtlar həyatda bu qədər çətinlik yox idi. Ancaq biz dinimizdən, milli-mənəvi dəyərlərimizdən məhrum idik. Hamımız sovet hakimiyyətinin, sovet ideologiyasının qanun-qaydaları ilə yaşayırdıq. Bir az kobud dildə desək, onda qarnımız daha dolu idi. Ancaq qəlbimiz dolu deyildi, boş idi. İnsan isə təkcə qarnı üçün yaşamır. Azərbaycan xalqı əsrlər boyu, İslam dinini qəbul edəndən sonra dini adət-ənənələri, dini mənəvi dəyərlərimizi hər şeydən üstün tutubdur.

İndi, həyatımızın bu keçid dövründə maddi cəhətdən çətinliklər vardır. Bunu siz də bilirsiniz, biz də bilirik. Onlar var. Ona







görə yox ki, biz bu maddi çətinliklərin aradan qaldırılması ilə məşğul deyilik, yaxud da bunlara biganəyik. Yox. Ona görə ki, müstəqil olduq, milli azadlığa çıxdıq. Azərbaycanın müstəqil dövləti vardır. Ölkəmiz azaddır, heç kəsdən asılı deyildir.

Bu da təbiidir ki, keçmiş iqtisadi sistemin dağılması, dəyişdirilməsi və yeni müstəqil dövlətimizə, tarixi milli ənənələrimizə uyğun olan və dünya iqtisadiyyatına uyğun olan bir iqtisadi quruluşa keçid prosesi gedir. Ona görə də bu çətinliklər vardır. Ancaq əmin ola bilərsiniz ki, bunlar hamısı müvəqqəti xarakter daşıyır, keçib gedəndir. Amma daim yaşayan bizim mənəviyyatımızdır, xalqımızın özünəqayıdışıdır. Bizim dinimizin, İslam dininin hər bir insan üçün azad istifadə edilməsi imkanının yaradılmasıdır. Ona görə bunları tərəziyə qoyanda, ağıllı adam seçə bilər – bizə hansı lazımdır. İndi ya gərək bəzi çətinliklərə dözək ki, sonra cahillərin əlinə düşməyək və millətimiz öz dini, adət-ənənələri, mənəvi dəyərləri ilə bundan sonra əsrlər boyu yaşasın. Yaxud da bunların hamısından kənara çəkilək və kim nə cür istəyir, o cür də həyatımızı quraq ki, bu gün, sabah işlərimiz yaxşı olacaq, maddi vəziyyətimiz yaxşı olacaqdır. Mən özüm bunu tərəziyə qoyanda, əlbəttə ki, mənəviy-

yat tərəfi, yəni bizim müstəqilliyimiz həmişə ağır gəlir, o biri yuxarıya qalxır. Mən istəyirəm ki, hamı bunu başa düşsün, hamı bunu bilsin. Elə bu abidənin özü mən dediyim sözlərə sübutdur.

Mən Mirmövsüm ağanı görmüşəm. 1944-cü ildə onun evində olmuşam. Onda mənim bir problemim var idi, nəzir demişdim. Getdim həm nəzirimi verdim, həm də ziyarət etdim. Müharibə illəri idi. Çox çətin illər idi. Ancaq o vaxt heç kəs təsəvvür edə bilməzdi ki, əgər o sistem qalsaydı, Mirmövsüm ağanın bu cür qəbri, bu cür abidəsi olacaq, bura böyük bir ziyarətgaha çevriləcək, bizim dini bir məbədimiz olacaqdır. Son illər, biz müstəqilliyi əldə edəndən sonra, keçmiş quruluşdan imtina edəndən sonra əldə etdiyimiz nailiyyətlər, bax, bundan ibarətdir.

Mən bilirəm ki, sizin hamınız dindar adamlarsınız, bu sözləri sizə deməyim bəlkə də artıqdır.

**Yerdən səslər:** Möhtərəm Prezident, çox xoşdur. Hamısını qəbul edirik.

**Heydər Əliyev:** Siz bu işləri məndən yaxşı bilirsiniz. Ancaq bir halda ki, görüşmüşük, öz fikirlərimi sizə çatdırmaq istəyirəm. Hər halda, Prezidentin də fikrini bilmək sizin üçün artıq olmaz.

**Yerdən səslər:** Allah Sizə cansağlığı versin, kölgənizi bizim üstümüzdən əskik eləməsin!

**Arif Niftullayev** *(Buzovnadakı "Həzrət Əli" ocağının şeyxi)*: Cənab Prezident, Siz bu ocağa bu qədər böyük qiymət vermisiniz. Azərbaycanda dinə, İslama böyük qiymət vermisiniz. Allah Sizdən razı olsun. Bunun xatirinə Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri Nizami Xudiyevə göstəriş verin ki, həftənin dördüncü günlərində "Haqqın dərgahı" verilişini bərpa etsin. Onun aparıcısı professor Vasim Məmmədəliyev Azərbaycanın gülü-çiçəyidir. O həmin verilişdə cəmi 20 dəqiqə danışırdı. İndi o verilişi aradan götürüblər. Mirmövsüm ağanın xatirinə, xahiş edirik, həmin verilişi bərpa etdirəsiniz.

**Heydər Əliyev:** Niyə götürübdür?





**Arif Niftullayev:** Biz bunu bilmirik. Bir prezident kimi, Siz ki, bu ocağa böyük qiymət verirsiniz, Allah-Təala Sizə cansağlığı versin. Mirmövsüm ağanın xatirinə, buradakı insanların adından xahiş edirəm, həmin verilişi bərpa etdirin.

**Heydər Əliyev:** Arxayın ol, darıxma, onu bərpa etdirmək mənim üçün çətin bir şey deyildir. Onu mən bu gün bərpa etdirəcəyəm.

**Arif Niftullayev:** Çox sağ olun, çox razıyıq.

**Heydər Əliyev:** Narahat olmayın.

**Bahadur Allahverdiyev** *(Şəhid atası, zəngilanlı məcburi köçkün)*: Möhtərəm Prezident, mən çox xoşbəxtəm ki, Sizinlə beşinci dəfə görüşürəm, Sizi bağrıma basıram. Allah-Təala Sizi bizim xalqımızın üstündən əskik eləməsin. Bütün qaçqınlar və məcburi köçkünlər, yerli camaat adından Sizə dərin minnətdarlığımızı bildirirəm.

Cənab Prezident, Əzizbəyov Rayon İcra Hakimiyyətinin başçısı Hacı Gülağa İslamov bizə – məcburi köçkünlərə daim kömək göstərir. Buraya gələndən o bizə arxa, kömək olubdur. Hər birimizə əl tutub, imkanı daxilində kömək edibdir.

Şəhid atası kimi Sizdən xahiş edirəm, mənim bu məktubumu qəbul edəsiniz.

**Kərşivəz Quliyev:** Möhtərəm Prezident, Sizə müraciət edən Azərbaycan Dövlət Neft Akademiyasının professorudur.

**Heydər Əliyev:** Mən səni yaxşı tanıyıram.

**Kərşivəz Quliyev:** Hörmətli Heydər Əlirza oğlu, xoşbəxtik ki, Sizinlə yenidən görüşürük. Bu gün axırıncı əhyə axşamıdır. Mübarək Ramazan ayının bu gözəl günündə Siz harayasa təməl qoymağa gedirsiniz. Allah-Təala taleyinizə elə bəxş edibdir ki, demək olar, Azərbaycanda qurulanların 85 faizini Siz yaratmısınız, təməlini qoymusunuz.

Sizin bura gəlməyinizdən camaatımız çox sevinir. Bayaq Sizin dediyiniz kimi, biz qarın camaatı deyilik. Müsəlman qarın müsəlmanı ola bilməz. Biz Sizə baxırıq, Sizin işlərinizə dəstək veririk. Müsəlman kimi hamımız Sizi dəstəkləyirik.

Allah-Təala Mirmövsüm ağanın xatirinə Sizə cansağlığı versin. İnşallah, Azərbaycanı bundan sonra da inkişaf etdirəsiniz. Qoy xalq özü görsün ki, Siz həqiqətən bu işlər uğrunda, bu amal uğrunda həyatınızı fəda edirsiniz. Sizə, ailənizə, bütün Əliyevlər ailəsinə cansağlığı arzu edirik.

Başda Gülağa İslamov olmaqla, Hacı Nizamın və başqalarının Mirmövsüm ağanın ziyarətgahının ərsəyə gəlməsində zəhmətləri çox böyükdür. Bütün Əzizbəyov rayonunun möminləri, ziyalıları, camaatı adından Sizə təşəkkür edirəm. Sizə cansağlığı arzulayıram.

İnşallah, biz bu yaxınlarda Buzovnada məscidin tikintisini başa çatdıracağıq. Oranın açılışını bir yerdə edəcəyik.

**Heydər Əliyev:** İnşallah, oraya gələcəyəm.

**Zərifə Manafova** *(Əzizbəyov Rayon Ağsaqqallar Şurası sədrinin müavini):* Cənab Prezident, icazə verin, bütün ağbirçəklər adından Sizə xeyir-dua verim, cansağlığı arzu edim. Balaca Heydərə də cansağlığı arzulayıram. O gün olsun ki, torpaqlarımız azad edilsin. Siz özünüzün əməkhaqqınızdan 12 qurban alıb, gətirib burada kəsəsiniz. Mənim arzum budur. Allah, İmam Hüseyn köməyiniz olsun.

**Heydər Əliyev:** İnşallah.

Bilirsiniz, burada məşhur, çoxdankı elektrik stansiyası var, oraya gedirəm. Onu tamamilə yenidən tikmək haqqında qərar qəbul etmişəm. Bilirsiniz ki, indi bizim vəsaitimiz yoxdur. Oradan, buradan vəsait axtarmışam. 1998-ci ildə Yaponiyaya getdim. Oranın hökuməti ilə, imperatoru ilə, başqaları ilə danışıqlar apardım. Yaxşı əlaqələr qurmuşuq. Onlar bizə 360 milyon dollar uzunmüddətli – 40 ilə kredit veriblər və onunla mən bu stansiyanı yenidən qurmaq istəyirəm.

Bilirsiniz ki, onun əsası 1942-ci ildə qoyulubdur, amma tikintisi 60-cı ildə qurtarıbdır və o öz xidmətini göstəribdir. Daha tələbatı ödəmir. İndi bizim elektrik enerjisi sarıdan çətinliyimiz vardır. Bəzən görürsən ki, bir yerdə işıq söndü, qaz çatmadı – bədxah adamlar oradan qalxırlar, buradan qalxırlar, nə bilim, televiziyada göstərirlər, filan edirlər, camaatı qıcıqlandırırlar.





**Yerdən səslər:** Biz elələrinə nifrət edirik.

**Heydər Əliyev:** Başa düşürsünüz, bu həyatdır. Ola bilər, bir gün sənin işığın olsun, bir gün olmasın. Bu, vacib bir şey deyildir. Əlbəttə, mən istəyirəm ki, hamının evində gecə-gündüz işıq yansın. Amma hələlik imkan yoxdur, bu imkanları axtarırıq.

Məsələn, mən Avropa şirkətlərindən kredit aldım. Xətai rayonunda qədim bir istilik-elektrik mərkəzi var idi. 50 milyon dollara onun birinci növbəsini yenidən tikdirdik. İndi onun ikinci növbəsinin tikilməsi üçün 50 milyon dollar da almışıq. O, elektrik enerjisi verəcəkdir. Hətta evləri qızdırmaq üçün buxar da verir. Bu gün təməli qoyulan blok isə 400 meqavat elektrik enerjisi verəcəkdir. Biz bununla Bakının çox hissəsini təmin edəcəyik.

İndi Bakıya elektrik enerjisi Mingəçevirdən, Əli Bayramlıdan gəlir. Buraya gələnə qədər itkilər olur, ikinci tərəfdən isə, nə bilim, orada məftil qırıldı, filan oldu, peşməkan oldu – qəzalar baş verir. Bunu aradan qaldırmaq üçün 6-7 saat vaxt lazım gəlir. Bədxah adamlar da qalxırlar ki, niyə elektrik enerjisi yoxdur? Doğrudur, biz onlara fikir vermirik. Onlar hamısı Azərbaycana düşmən olan adamlardır.

Mən bununla demək istəyirəm ki, bizim müstəqil dövlətimiz əhalinin həyatını yaxşılaşdırmaq üçün ardıcıl surətdə lazımi işlər görür və bundan sonra da görəcəkdir. Onların bir nümunəsi bax, budur.

O ki qaldı işğal olunmuş torpaqların azad edilməsinə, əmin olun, azad ediləcəkdir. Ancaq mən bunu sülh yolu ilə etmək istəyirəm. Bilin, yenidən müharibəyə başlamaq istəmirəm. Çünki bilirsiniz, müharibə həm böyük qanlara gətirib çıxarır, həm də nəticəsi nə olacaq – bilmək mümkün deyildir. Axı biz müharibə edəndə, o biri tərəf də müharibə edir. Onun da gücü var, bizim də gücümüz vardır. Bəzən o tərəfin gücü, özünün gücü yox, dünyadan ona göstərilən yardımlar bizimkindən üstündür. Ona görə də biz bunu gecə-gündüz ölçürük, biçirik. Bunun yolu sülh yoludur. Amma bu sülh yolunu həyata keçirmək üçün çətinliklərimiz vardır. O da ondan ibarətdir ki, erməni silahlı qüv-

vələri torpaqlarımızın 20 faizini işğal edibdir. Deməli, hərbi nöqteyi-nəzərdən üstünlük əldə edibdir. Ona görə də deyir ki, mən sənin ərazini işğal etmişəm. Sən mənim bu şərtimi yerinə yetir, mən işğal olunmuş torpaqları azad edim. Dünya ictimaiyyəti də buna bir söz demir. Ona görə də biz çox mürəkkəb, çətin danışıqlar aparırıq. Amma bu danışıqları aparan adam kimi, bu işlə gecə-gündüz məşğul olan adam kimi mən sizə deyirəm ki, biz buna nail olacağıq. İndiyə qədər dözmüşük, bir az da dözmək lazımdır. Mütləq buna nail olacağıq.

**Kərşivəz Quliyev:** İnşallah, istəyinizə nail olacaqsınız.

Cənab Prezident, gələn ilin bugünkü günü indi getdiyiniz obyektin açılışı münasibətilə burada bir də görüşək. Bu, gələn əsrə düşür. Sizə Allahdan uzun ömür diləyirəm.

**Heydər Əliyev:** Orucluq bayramı münasibətilə sizi bir daha təbrik edirəm, sizə cansağlığı arzulayıram.

Sağ olun.





## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlərim!

Sizi dünya müsəlmanlarının müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm. İlahi hikmətlər xəzinəsi olan Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı əxlaqi saflıq, kamillik, xeyirxah niyyətlər, mənəvi zənginlik ayıdır. Ramazan bayramı qəlbində inam və vətən sevgisi daşıyan insanların əzm və iradəsini, xeyirin şər, mənəvi ucalığın nəfs üzərində qələbəsini nümayiş etdirir.

Allah və din yolunda müqəddəs borcunu ləyaqətlə yerinə yetirən müsəlmanlarımız ürəkləri həmrəylik, mərhəmət və şəfqət duyğuları ilə döyündürən Ramazan günlərini böyük məmnunluqla başa vurur, bayram sevinclərini bölüşürlər. Milli müstəqilliyimiz, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhuna dualar oxunur, xalqımızın və dövlətimizin əmin-amanlığı üçün diləklər edir.

Bu niyyət və diləklərə, bayram sevincinizə qoşularaq Sizi əmin etmək istəyirəm ki, bu gün ovqatımıza sıxıntı gətirən mövcud çətinliklər tezliklə arxada qalacaq, torpaqlarımız düşmən tapdağından azad ediləcək, xalqımız layiq olduğu firavan həyata və rifaha qovuşacaqdır. Bunun üçün ölkənin hər bir vətəndaşından əsl vətənpərvərlik, sarsılmaz birlik, milli-mənəvi dəyərlərə və müstəqillik ideallarına daim sədaqətli olmaq tələb edilir.

Əziz bacı və qardaşlar!

Yola salmaqda olduğumuz iyirminci yüz illiyin son Ramazan bayramında hər birimizə xoşbəxtlik, ailələrinizə sevinc, evlərinizə xeyir-bərəkət arzulayıram.

Etdiyiniz dua və niyyətlər çin olsun!

Allah orucunuzu qəbul etsin!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*26 dekabr 2000-ci il*

# RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN BAKIDAKI DİPLOMATLARI İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı, 27 dekabr 2000-ci il*

**Heydər Əliyev:** Mən bu bayram günü sizi narahat etmək istəmirdim. Amma mənə məlumat verildi ki, bu bayramı keçirən müsəlman ölkələrinin səfirləri mənimlə görüşmək, məni təbrik etmək istəyirlər. Mən buna çox şad oldum. Çünki bu bayramla əlaqədar sizinlə birinci dəfə görüşürük. Azərbaycanda böyük İslam dininə etiqad göstərən xalqların, ölkələrin səfirləri vardır. Azərbaycan da uzun illərin dini məhrumiyyətindən qurtarıbdır. Xalqımız indi sərbəstdir, azaddır və dini bayramları da keçirir. Mən şübhə etmirəm ki, sizin hər biriniz, yəni səfirlər Ramazan ayında oruc tutublar, ac qalıblar, dini adətlərə riayət ediblər və bu gün bayram edirlər.

Mən sizin ölkələrin, dövlətlərin başçılarına Ramazan bayramı münasibətilə təbriklərimi göndərmişəm, amma bu fürsətdən istifadə edərək, sizin hər birinizi Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm. Eyni zamanda, ölkələrinizi, xalqlarınızı bu bayram münasibətilə ürəkdən təbrik edirəm.

Mənə verilən məlumatlara görə, indi Azərbaycanda Ramazan ayının adətlərinə riayət edənlər, yəni oruc tutanlar bəlkə də bir çox ölkələrdə olduğundan çoxdur. Bu da müsbət haldır. Demək Azərbaycanda biz tarixi, mənəvi, dini ənənələrimizi bərpa edirik.

Burada səfirlər var ki, onların ölkələrində kommunist ideologiyası olmayıbdır. Amma elə səfirlər də vardır ki, onlar bizimlə birlikdə Sovetlər İttifaqının tərkibində yaşayıblar. O illər bu ölkələrdə dinin əleyhinə təbliğat gedirdi. O vaxt belə bir söz vardı ki, din xalq üçün tiryəkdir. Bu, Marksın sözləridir. Ona görə də 70 il təbliğ ediblər ki, əgər dinlə məşğul olsanız, demək, tiryək çəkəcəksiniz. Yəqin bunu o mənada deyiblər ki, insanları qorxut-





sunlar. Necə ki, insanlar narkotik maddələrdən, tiryəkdən bihuş olur, sonra xəstələnir, dindən də belə xəstələnə bilər. Ancaq din insanların əksəriyyətinin qəlbində yaşayıbdır. Əlbəttə ki, Azərbaycanda gənc nəslin çox hissəsi dindən uzaq olubdur, amma dinə etiqad nəsildən-nəslə keçibdir.

İndi isə biz müstəqil dövlət olandan sonra dini adət və ənənələrimizin hamısı bərpa olunur. O cümlədən Ramazan bayramımız da bərpa olunmuşdur. Biz də Azərbaycanda həm Ramazan ayını keçiririk, həm də bu gün bayram edirik. Doğrudur, biz bir gün bayram edirik, amma bəzi ölkələrdə 3-4 gün bayram edirlər. Mən çox məmnunam ki, sizinlə görüşürəm və bayramı qeyd edirik.

Mən Ramazan ayının müsəlmanlar üçün nə qədər əhəmiyyətli olması barədə danışmaq istəmirəm. Bunu siz məndən yaxşı bilirsiniz. Bir də qeyd etmək istəyirəm ki, Azərbaycanda bu bayram öz yerini tutubdur. Sizi Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm. Mənim sizə deyəcəklərim budur.

**Qədri Ecvet Tezcan** *(Türkiyənin Azərbaycandakı səfiri):* Cənab Prezident, mən bizim dinimizin ən qiymətli bayramı olan Ramazan bayramı münasibətilə müsəlman ölkələrinin – Liviya, Özbəkistan, Pakistan, Misir, Səudiyyə Ərəbistanı, İran, İraq, Türkmənistan, Qazaxıstan və Türkiyənin səfirləri adından Sizi təbrik edir və bizi qəbul etdiyinizə görə öz minnətdarlığımızı bildirirəm.

Cənab Prezident, bu bayram başqa əlamətdar günə təsadüf etmişdir. Dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi günüdür. Eyni zamanda, qarşıdan Yeni il gəlir. İcazə versəydiniz, mən bütün bunlarla bağlı Sizi və bizim üçün çox dəyərli olan Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Siz çox dərin və mənalı fikirlər söylədiniz. Həqiqətən, bizim dinimizdə Ramazan ayının, bu bayramın xüsusi yeri vardır. Əgər kimin imkanı varsa, səhhəti buna yol verirsə, Ramazan ayında oruc tutmaq insana iki mənada çox böyük fayda verir. Bunun birincisi, insanın dünyada ən çətin olan hallardan biri ilə, öz nəfsi ilə mübarizə aparmasıdır. İkincisi isə, dünyada kasıb insanların nə vəziyyətdə olduqlarını başa düşməkdir.

Amma bizim dinimiz, sadəcə, mərasimlərdən ibarət deyildir. Bizim dinimiz ürəkdədir. Düşünürəm ki, təkcə bizim dinimizdə Allahla bəndə arasında heç bir elçiyə ehtiyac yoxdur. Dinimiz insanlara o qədər sevgi, məhəbbət, hörmət bəsləyən bir dindir ki, bütün ömrümüzü etiqad etmədən keçirsək belə, son nəfəsimizdə kəlmeyi-şəhadətimizi deməklə, bütün digər müsəlmanların sahib olduqları savablardan yararlanmaq imkanı əldə etmiş oluruq. Cənab Prezident, bir olan Allah dünyada bütün insanların birliyini, onların yaşaması üçün bütün nemətləri istər.

İslam dininin gözəl bir tərəfi də budur ki, həmişə insan sevgisindən, rifahından, dinlərin dözümlülüyündən – tolerantlığından danışır. Biz hamımız bilirik və Siz də öz nitqlərinizdə dəfələrlə demisiniz ki, Azərbaycan gənc dövlətdir. Amma Azərbaycan xalqında, azərbaycanlılarda qədim olan bir xüsusiyyət vardır. Bu da insanların bütün dinlərə dözümlülüyü, tolerantlığı, insanlara xoş arzularıdır.

Bu gün hamımız bilirik ki, Azərbaycanda yaşayanlar təkcə müsəlmanlar deyildir. Burada yəhudilər də, xristianlar da yaşamaqdadırlar. Amma onların hamısı eyni şəraitdə, bir-birinə hörmət etməklə, Sizin başçılıq etdiyiniz məmləkətdə əmin-amanlıq və sakitlik içərisində yaşamaqdadırlar.

Cənab Prezident, Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, digər müsəlman ölkələri də dünyəvi dövlətlərdir. Yəni bizdə din və siyasət bir-birindən ayrıdır. Amma insanlar dinsiz yaşaya bilməzlər. Din insanları birləşdirən, böyüyün kiçiyə, kiçiyin böyüyə hörmətlə, ehtiramla yanaşmasını öyrədən ən önəmli amildir.

Cənab Prezident, Siz qeyd etdiniz ki, sovetlər dövründə din tiryək hesab edilmiş, belə təbliğ olunmuşdur. Əgər dinin insanlara nə səbəbə göndərildiyini daxilən, həqiqi mənada başa düşməsək, ondan kənara çıxmağa, yəni fanatikliyə, radikallığa yol versək, cəhd etsək, bu, doğrudan da, insanları yolundan azdırar, mədəniyyətdən, tərəqqidən, xoşbəxtliklərdən – bütün nemətlərdən təcrid edər. Bu mənada dindən danışmaq istəyən bəlkə də ilahiyyatçı olmalıdır. Hər kəsin bu barədə danışması ilə din





düzgün yolla gedə bilməz. Heç bir din insanlara əzab vermək üçün yaradılmamışdır. Bu dinlərin də ən gözəli mənim, Sizin və burada əyləşən insanların dinidir. Burada 8 milyon azərbaycanlı, dünyada isə bir milyard müsəlman bu dinə etiqad edir.

Cənab Prezident, mən dünyanın çox yerində olmuşam. Amma Sizin qədər gözəl nitqə malik bir prezidentin yanında danışmaq mənim üçün çətindir.

Cənab Prezident, sözümün sonunda arzum budur ki, ev-eşiklərindən didərgin düşmüş Azərbaycan vətəndaşları gələcəkdə bu bayramı öz doğma yurdlarında, el-obasında keçirsinlər. Allah onlara bu günü nəsib etsin.

Cənab Prezident, qarşıdakı minillikdə insanlara uğurlar, sülh, rifah, əmin-amanlıq şəraitində yaşamağı arzulayıram. Bizi qəbul etdiyinizə görə zati-alinizə bir daha təşəkkür edir, Azərbaycan xalqına layiq olduğu xoş günlər, rifah və əmin-amanlıq diləyirəm. Sağ olun.

**Heydər Əliyev:** Hörmətli səfir, təşəkkür edirəm. Siz bu bayramın fəlsəfəsini çox dərindən izah etdiniz. İslam dininin dəyərləri haqqında mühüm fikirlər söylədiniz. Mən bunların hamısı ilə tam razıyam. Güman edirəm ki, hamımız razıyıq. Azərbaycan xalqına arzularınıza görə sizə təşəkkür edirəm. Sağ olun.

**Əhəd Qəzai** *(İran İslam Respublikasının səfiri)*: Cənab Prezident, mən də Azərbaycan xalqının Ramazan bayramını təbrik edirəm. Bizi qəbul etdiyinizə görə Sizə öz təşəkkürümü bildirirəm. Səfir həmkarlarıma da bu görüşə göstərdikləri marağa görə öz razılığımı bildirirəm. Bu gün İslam ölkələrinin səfirlərini qəbul etməyinizi bu ölkələrə, onlarla əməkdaşlığa göstərdiyiniz diqqət və qayğı kimi dəyərləndiririk. Dünya Azərbaycana müsəlman ölkəsi kimi baxır və dəstəkləyir. İslam Konfransı Təşkilatı iclaslarının qərarları göstərdi ki, bu təşkilata üzv olan ölkələr Azərbaycanla bir yerdədirlər. Qətərdə keçirilmiş sonuncu iclasın qəbul etdiyi qərarın üç bəndi Azərbaycan haqqında idi. Bu bəndlərin birincisində konfrans Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini dəstəklədi və ona tərəfdar olduğunu bildirdi. İkinci bənd Azərbaycanın

Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının azad olunması, üçüncüsü isə, Dağlıq Qarabağda və işğal edilmiş digər ərazilərdə tarixi və mədəni abidələrin qorunması barədə idi. Hər halda, Azərbaycanın müstəqil ölkə kimi İslam aləminə daxil olmasının əhəmiyyəti böyükdür.

Dünən Ramazan bayramı münasibətilə müsəlmanlara, Azərbaycan xalqına Sizin çox ətraflı, dərin mənalı müraciətiniz oldu. Bu müraciətdə əsas müddəalar odur ki, Azərbaycan xalqında vətənpərvərlik, vətənə sədaqət hissləri yüksəlsin, İslam dininə etiqad artsın, dini dəyərlər qorunsun, müstəqillik əbədi olsun. Bunların hamısı İslam əqidəsinə uyğundur. İslam bu dəyərlərə, belə nəsihət və təlim-tərbiyəyə istinad edir, əsaslanır. Siz də öz müraciətinizdə bunları vurğuladınız, Azərbaycan xalqından bunu tələb etdiniz.

Türkiyə səfiri də burada İslam dəyərləri barədə geniş və mənalı söhbət etdi.

Cənab Prezident, bizi qəbul etdiyinizə görə yenə də Sizə təşəkkür edirəm. Sizə cansağlığı, Azərbaycan xalqına firavanlıq, asayiş və səadət, işğal olunmuş ərazilərin azad edilməsini, qaçqın və köçkünlərin doğma yurdlarına qayıtmasını, bu bayramı gələcəkdə öz ev-eşiklərində keçirmələrini arzulayıram.

**Heydər Əliyev:** Hörmətli səfir, təbriklərinizə, dostluq münasibətinizə və xoş sözlərinizə görə sizə təşəkkür edirəm. Eyni zamanda, İslam Konfransı Təşkilatının bir müddət bundan öncə Tehranda keçirdiyi konfransda, yenə də bu yaxınlarda Qətərdə keçirdiyi konfransda Azərbaycanı dəstəkləməsi haqqında dediyiniz fikirlər tamamilə doğrudur və bizim üçün böyük mənəvi dayaqdır.

Sizə onu çatdırmaq istəyirəm ki, Ermənistanın Azərbaycana etdiyi təcavüz bütün günü mənim gözümün qarşısındadır. Çünki Ermənistan Azərbaycana hərbi təcavüz edib, respublikamızın torpaqlarının 20 faizini işğal edibdir. Bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan didərgin düşübdür. Ancaq biz bir çox beynəlxalq təşkilatlarda, o cümlədən ATƏT-də toplaşarkən belə qərarların çıxarılmasına nail ola bilmirik. Doğrudur, 1992–1993-cü illərdə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Azərbaycan torpaqlarını işğal etmiş Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz, təcili bu torpaqlardan çıxarılması haqqında qətnamələr qəbul edibdir. Ancaq təəssüflər olsun ki, bu qətnamələr indiyə qədər yerinə yetirilməyibdir, Ermənistan bunlara məhəl qoymur və Birləşmiş Millətlər Təşkilatı da həmin qərarların həyata keçirilməsində acizlik göstərir.

Bütün müsəlman dövlətlərinin daxil olduğu İslam Konfransı Təşkilatı mənim iştirak etdiyim toplantılarda – həm Mərakeşdə, həm də İranda, habelə Qətərdə daim bizi dəstəkləmiş, Azərbaycanın vəziyyəti ilə əlaqədar ardıcıl mövqe tutmuş və yekdillik göstərmiş, Ermənistanın təcavüzkar olması, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi barədə qərarlar çıxarmışdır.

İslam ölkələrinin birliyini nümayiş etdirən bir mühüm faktı da qeyd etmək istəyirəm. Birləşmiş Millətlər Təşkilatının son sessiyasında Birləşmiş Millətlər Təşkilatı ilə ATƏT arasında əməkdaşlıq barədə qətnamənin layihəsində Dağlıq Qarabağın Azərbaycana məxsus olması barəsindəki sözlər yox idi.

Biz bundan çox narahat olduq. Ona görə də bizim həm ABŞ-dakı səfirimiz, həm də BMT-dəki nümayəndəmiz mənim göstərişimlə bu işlərlə ciddi məşğul oldular. Məlumat verdilər ki, ATƏT-in Minsk qrupunun həmsədrləri guya Ermənistan-Azərbaycan prezidentlərinin bilavasitə görüşlər keçirdiyi zaman bu cümlənin oraya salınmasını münasib bilməyiblər. Mən buna etiraz etdim. Minsk qrupunun həmsədrləri bu otaqda mənimlə görüşə gəlmişdilər, mən onlara etirazımı çox ciddi şəkildə bildirdim. Onlar öz mövqelərini dəyişdilər və həmin sənəddə Dağlıq Qarabağın Azərbaycana məxsus olması barədə fikir əvvəlki illərdə olduğu kimi saxlandı. Onlar bu sənədin qəbul olunmasına səs verdilər. Ancaq bu düzəlişin qəbul olunmasının həllini müsəlman dövlətlərinin nümayəndələrinin hamısının verdiyi səslə hesablayırlar. Eyni zamanda, qeyd etməliyəm ki, az da olsa, bir neçə İslam dövləti, keçən ildən fərqli olaraq, nədənsə bu düzəlişə Azərbaycanın xeyrinə səs verməkdən imtina etmişlər. Halbuki

keçən illərdə onlar bizim xeyrimizə səs vermişdilər. Təbiidir ki, biz bunu araşdıracağıq, səbəblərini öyrənəcəyik.

Yenə də deyirəm, müsəlman dövlətlərinin əksəriyyəti həmrəylik, birlik göstərmiş, Azərbaycanın bu problemi haqqındakı vacib fikirlərin sənəddə bərpa olunmasını özlərinin birliyi ilə təmin etmişlər.

Bütün bunları xatırlayaraq, bir daha onu demək istəyirəm ki, bizim İslam dininə məxsus olan xalqlarımız, dövlətlərimiz bir çox hallarda birlik, həmrəylik nümayiş etdirirlər və bu da hər bir İslam ölkəsinin sabit nailiyyətlərə çatmasına kömək edir.

Mən arzu edərdim ki, bu birlik, həmrəylik daimi, əbədi olsun. Bu da İslam dövlətlərinin, xalqlarının gələcək inkişafı üçün əsas şərtlərdən biridir.

Mən bu fürsətdən istifadə edib sizin hamınızı qarşıdan gələn Yeni il münasibətilə təbrik edirəm. Dekabr ayının 31-i Dünya Azərbaycanlılarının Həmrəylik günüdür. Bu bizim üçün çox əziz gündür. Siz də bizim dostlarımızsınız. Yəqin bu günü də unutmayacaqsınız. Bizim hər birimiz, yəni hər bir müsəlman dövləti, xalqı XXI əsrə, üçüncü minilliyə müstəqil, azad bir dövlət kimi, xalq kimi daxil oluruq. Arzu edirəm ki, müstəqilliyimiz, milli azadlığımız daimi və əbədi olsun.

Hər birinizə və sizin şəxsinizdə ölkələrinizin vətəndaşlarına, dövlətlərinizə Yeni il salamlarımı çatdırıram. Yeni ildə hər birinizə cansağlığı, səadət və xalqlarınıza, ölkələrinizə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram. Sağ olun.

*Görüşdə Türkiyə səfiri Qədri Ecvet Tezcan, İran səfiri Əhəd Qəzai, Pakistan səfiri xanım Əsma Anican, Misir səfiri xanım Cahan Əmin Məhəmməd Əli, İraq səfiri Qalib əbdü Hüseyn ət-Təmimi, Özbəkistan səfiri Əbdülqafur Əbdülrəhmanov, Türkmənistan səfiri Murad Çarıyev, Liviya səfiri Nasir Məhəmməd Əbdüssəmin, Qazaxıstanın müvəqqəti işlər vəkili Oyrat Bayrari, Səudiyyə Ərəbistanının müvəqqəti işlər vəkili Züheyr əl-Süleyhi iştirak etmişlər.*





## AZƏRBAYCANIN XRİSTİAN İCMASINA

Əziz həmvətənlər!

Sizi – respublikanın bütün xristianlarını İsa peyğəmbərin mübarək doğum günü – Müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanda Xristianlığın qədim tarixi vardır. Pravoslav xristian icmasının respublikamızda məskunlaşması da iki əsrə yaxın bir dövrü əhatə edir. Ölkəmizdə yaşayan bütün dini icmaların nümayəndələri, o cümlədən müsəlmanlarla xristianlar həmişə mehriban ailə kimi yaşamış, bir-birinin sevincinə, kədərinə yaxından şərik olmuşlar.

Xristianlar Azərbaycanda tarixən mövcud olan milli-dini dözümlülük şəraitində adət və ənənələrini, dilini, dinini, mədəniyyətini qoruyub saxlamış, cəmiyyətimizin tam və bərabərhüquqlu vətəndaşları kimi yaşayıb-yaratmışlar. Bu gün onlar müstəqil Azərbaycanda bərqərar edilmiş demokratik hüquqi prinsiplərdən, insan və vətəndaş haqlarından tam yararlanaraq, respublikamızın ictimai-siyasi, elmi-mədəni həyatında və müstəqil dövlət quruculuğu prosesində fəal iştirak edirlər.

İyirminci əsrin son ilində İsa peyğəmbərin mövludunun iki minilliyini geniş qeyd etdik. Qlobal tarixi hadisələrlə, kəşməkəşlərlə dolu iyirminci yüzillik artıq arxada qalmış, dünya xalqları böyük ümidlərlə yeni əsrə, yeni minilliyə qədəm qoymuşdur. İnanıram ki, xristianlığın iki minilliyini təntənə ilə bayram edəcəyimiz iyirmi birinci yüzillik bəşəriyyətin həyatında sülh, əmin-amanlıq və tərəqqi əsri, müstəqil ölkələrimiz üçün yeni inkişaf və çiçəklənmə dövrü olacaqdır.

Əziz dostlar!

Müqəddəs Milad bayramını qeyd etdiyiniz bu nurlu gündə hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram. Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 6 yanvar 2001-ci il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlərim!

Sizi dünya müsəlmanlarının həmrəylik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, bütün xalqımıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Uca Tanrının İslamı bir din kimi tamamlayıb insanlar üçün hidayət yolu seçdiyi bu mübarək gün Xaliqin bəxş etdiyi nemətlərə görə minnətdarlıq duyğularını, insanlar arasında mehribanlıq, şəfqət, dostluq və qardaşlıq münasibətlərinin təntənəsini təcəssüm etdirir.

Müstəqil Azərbaycanda hər il dövlət səviyyəsində qeyd olunan Qurban bayramı xalqla dövlətin yekdil birliyini, dərin köklərə bağlılığımızı, adət-ənənələrə, milli-dini dəyərlərə sadiqliyimizi nümayiş etdirir.

Bu əziz gündə torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin müqəddəs ruhuna dualar oxunur, ölkəmizin əmin-amanlığı, xalqımızın xoşbəxt gələcəyi naminə diləklər edilir. Bu xeyirxah dua və niyyətlərə, bayram sevincinizə qoşularaq, əmin olduğumu bildirirəm ki, biz bu gün üzləşdiyimiz bütün çətinliklərin öhdəsindən milli həmrəyliyimizlə, xalqımızın mətin, əzm və iradəsi ilə uğurla gələcək, vətənimizin yüksək tərəqqisinə, dövlət müstəqilliyimizin əbədiliyinə nail olacağıq.

Əziz bacı və qardaşlarım!

Ulu Tanrıdan hər birinizə xoşbəxtlik, ailələrinizə firavanlıq, ocaqlarınıza xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 2 mart 2001-ci il*





## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

Əziz həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzularımı yetirirəm.

Cəmiyyətdə əxlaqi dəyərlərin, əmin-amanlığın, dostluq və humanizm prinsiplərinin bərqərar olunmasında dinin rolu danılmazdır. Bu xeyirxah niyyətin gerçəkləşməsi işində Azərbaycanda tarixən mövcud olmuş başqa konfessiyalarla yanaşı, Rus Pravoslav Kilsəsi də yaxından iştirak edir, insanların ilahi kəlama tapınması və mənən saflaşması yolunda layiqli xidmətlər göstərir.

Vicdan və dini etiqad azadlığı cəmiyyətimizin mənəvi sərvətidir. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları bu əzəli haqdan yararlanaraq öz milli adət-ənənələrini, dini bayram və mərasimlərini sərbəst şəkildə icra edirlər. Belə mərasimlərdən biri də hər il Azərbaycanda təntənə ilə keçirilən, insanlara mənəvi rahatlıq, həmrəylik, şəfqət duyğuları bəxş edən Pasxa bayramıdır.

Bu əziz gündə hər birinizə xoşbəxtlik, ailələrinizə əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 14 aprel 2001-ci il*

## "QAFQAZIN DAĞ YƏHUDİLƏRİ" BEYNƏLXALQ ELMİ SİMPOZİUMUNA

Hörmətli simpozium iştirakçıları!

Sizi Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində ürəkdən salamlayır, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qafqaz öz füsunkar təbiəti, qədim və zəngin tarixi, etnik-milli rəngarəngliyi, maddi və mədəni sərvətləri ilə dünyanın nadir regionlarından biridir. Bu qədim diyarın ən qiymətli tarixi sərvəti isə onun məğrur insanları, burada minilliklər boyu vahid ailə kimi yaşayan çoxsaylı xalqlarıdır. Zaman-zaman Qafqazın irili-xırdalı bütün xalqları etnik mənşəyindən və dini etiqadından asılı olmayaraq, vahid Ümumqafqaz mədəniyyətinin formalaşmasında iştirak etmiş, bu bənzərsiz regionun etno-mədəni dəyərlər xəzinəsini zənginləşdirmişlər. Qafqaz bu xalqların ümumi evidir və onlar haqlı olaraq bununla fəxr edirlər.

Bu gün milli-mənəvi dəyərlərinin işığına yığışdığınız dağ yəhudiləri də bölgəmizin tarixi-mədəni həyatında mühüm rol oynayan xalqlardan biridir.

Qədim və keşməkeşli tarixi keçmişə malik dağ yəhudiləri yüz illərdir ki, Azərbaycanın digər xalqları ilə birgə çiyin-çiyinə, dostluq, mehribanlıq və əmin-amanlıq şəraitində yaşayırlar. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, yüksək tolerantlıq, milli dözümlülük və humanizm ilə səciyyələnən azərbaycanlı mentalitetinə yad olan irqi, milli, dini ayrı-seçkilik, o cümlədən antisemitizm halları tarixən Azərbaycanda mövcud olmamış, burada məskunlaşan hər bir xalq etnik özünəməxsusluğunu, milli adət-ənənələrini qoruyub saxlamışdır.

İndi Azərbaycanın dağ yəhudiləri müstəqil respublikamızın tam və bərabərhüquqlu vətəndaşlarıdır. Onların şəxsiyyət azadlığı, milli və insan hüquqları Azərbaycan Respublikasının Konstitusiyası və dövlət qanunları ilə qorunur. Ölkəmizdə yaşayan bütün milli azlıqların, o cümlədən dağ yəhudilərinin dil və mədəniyyətinin inkişafı, etnik-dini adət-ənənələrinin qorunub saxlanılması üçün hərtərəfli hüquqi-siyasi şərait təmin edilmişdir. Dağ yəhudiləri Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatında, müstəqil dövlət quruculuğu prosesində yaxından iştirak edir, Vətən qarşısında layiqli övladlıq borcunu yerinə yetirirlər.





Əziz dostlar!

Qafqaz fenomeninin nadir xüsusiyyəti onun etnik baxımdan rəngarəngliyi ilə yanaşı, həm də pozulmaz bütövlüyündədir. Buna görə də bölgədə yaşayan xalqların tarixi, mədəniyyəti, dili, etnik özünəməxsusluğu, adət-ənənələri Ümumqafqaz dəyərlərinin tərkib hissəsi kimi öyrənilməli və bu sahədə atılan hər bir addım Ümumqafqaz evinin qorunub saxlanılmasına, regionda sülhə, xalqlar arasında əmin-amanlığa xidmət etməlidir. Bu baxımdan Bakıda dağ yəhudilərinə həsr olunmuş beynəlxalq elmi toplantını Qafqazın, eləcə də Azərbaycanın elmi-ictimai həyatında mühüm hadisə kimi qiymətləndirirəm. Əminəm ki, keçirəcəyiniz elmi müzakirə və diskussiyalar xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə layiqli töhfəsini verəcək və belə xoşməramlı tədbirlər bir ənənə halını alacaqdır.

Bu yolda sizə cansağlığı, xoşbəxtlik, gərəkli fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 22 aprel 2001-ci il*

# MOSKVANIN VƏ BÜTÜN RUSİYANIN PATRİARXI II ALEKSİ VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

*28 may 2001-ci il*



**Heydər Əliyev:** Moskvanın və bütün Rusiyanın müqəddəs patriarxı, hörmətli qonaqlar, mən sizi Azərbaycanda ürəkdən salamlayır və təşəkkür edirəm ki, Müqəddəs Patriarx, Siz tarixdə ilk dəfə olaraq Azərbaycana səfər etdiniz. Mən bu səfəri ölkəmiz üçün, xalqımız üçün, Azərbaycanda yaşayan pravoslavlar üçün son dərəcə mühüm hadisə kimi, eləcə də Rusiya-Azərbaycan münasibətlərində mühüm hadisə kimi qiymətləndirirəm.

Ona görə də mən sizi bir daha salamlayır və sizə təşəkkür edirəm ki, belə zəhmətə qatlaşaraq Azərbaycana gəlmisiniz.





Mənə məlum olduğuna görə, siz iki-üç gündür ki, buradasınız və ölkəmizlə, xalqımızla və əlbəttə, Azərbaycanda yaşayan pravoslavlarla tanış ola bilmisiniz.

Biz Rusiya ilə uzun müddət – keçmişdə, Rusiya imperiyasında da, müttəfiq respublika kimi hamımız Sovet İttifaqına daxil olduğumuz dövrdə də birlikdə olmuşuq. Ona görə də əlaqələrimizin çox böyük tarixi və Rusiya ilə Azərbaycan arasında, rus və Azərbaycan xalqları arasında dostluğu səciyyələndirən çox parlaq səhifələri var.

Azərbaycanda, xüsusən XIX-XX əsrlərdə rusların, özü də təkcə rusların deyil, bütün pravoslavların sayı getdikcə artırdı. Ona görə də burada Pravoslav kilsəsi fəxri yer tuturdu. Bir vaxtlar, Azərbaycan Rusiya imperiyasının tərkibində olarkən, azərbaycanlıların bir çoxu imperator sarayı ilə də, kilsə ilə də sıx əlaqə saxlayırdı. O vaxtlar bizim bir çox görkəmli adamlarımız Rusiyanın müxtəlif universitetlərində, ali məktəblərində təhsil almışlar. Zəngin ailələrdən olan neçə-neçə azərbaycanlı çar ordusunda zabit kimi də xidmət edirdi, azərbaycanlı generallar da çox idi. Onlar Rusiya uğrunda savaşlarda döyüşmüşlər. Məsələn, məşhur general Əliağa Şıxlinski XX əsrin əvvəllərində Rusiya-Yaponiya müharibəsi zamanı Port-Arturda igidliklə döyüşmüşdür və bütün Rusiyada onu "Rus artilleriyasının allahı" adlandırırdılar. Bu sözləri general Səməd bəy Mehmandarov və ya bir neçə naxçıvanlı general haqqında da demək olar. Şübhəsiz, bütün bunlar Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin səhifələridir, özü də çox gözəl səhifələridir.

Xalqlarımız müxtəlif dinlərə mənsubdurlar və burada təəccüblü bir şey yoxdur. Çünki dünyada vahid din yoxdur, bir Allah var. Xalqlar müxtəlif dinlərə etiqad edirlər, amma bununla belə, dini mənsubiyyətdəki fərq bədxah münasibətləri, ədavət və düşmənçiliyi, yaxud xoşagəlməz daha nəyisə heç zaman şərtləndirmir.

Ona görə də Azərbaycanda rus əhali və ümumiyyətlə, pravoslavlığa etiqad etmiş olanların və etiqad edənlərin hamısı hüquq

bərabərliyi şəraitində yaşamışlar. Bu, keçmiş vaxtlarda da olmuşdur, bu, Sovet İttifaqı illərində – dinin yasaq edildiyi, lakin bununla belə, mövcud olduğu illərdə də olmuşdur. Əks halda, sizin gördüyünüz bu məbədlər, sadəcə, olmazdı, axı onlar heç də indi tikilməyibdir. Bu sözləri məscidlər haqqında da demək olar. Yasaq vardı, din elədir ki, o, bütün əsrlərdə həm sıxıntılara, həm də təqiblərə məruz qalmışdır. Bunu istənilən dinin tarixinə aid etmək olar. Lakin bununla belə, din həmişə həyata yol açmış, mövcud olmuşdur və indiyədək mövcuddur.

Sovetlərin dövründə burada insanlar tam hüquq bərabərliyi şəraitində yaşayırdılar, hərçənd indi, adətən, belə hesab edirlər ki, sovetlərin dövründə insanların hüquq bərabərliyi ümumən olmamışdır. İndi mən bu mübahisələrə qoşulmaq istəmirəm, çünki dini mənsubiyyət baxımından hüquq bərabərliyi Azərbaycanda kiminsə rus, ukraynalı, azərbaycanlı, belarus olmasından asılı olmayaraq, tam şəkildə vardı. İndi isə biz bir-birimizdən ayrılmışıq. Rusiya öz dövlət suverenliyini Sovet İttifaqının bütün müttəfiq respublikalarından əvvəl elan edərək, Sovet İttifaqının dağılması prosesinin bünövrəsini qoydu. Digər respublikalar da, görünür, birlikdə olsalar da, müstəqillik, azadlıq haqqında daha çox düşünürdülər. Odur ki, 1991-ci ildə Azərbaycan da özünün dövlət suverenliyini, müstəqilliyini elan etdi. Biz bu ilin axırlarında dövlət müstəqilliyinin bərpa olunmasının 10-cu ildönümünü qeyd edəcəyik. 1918-ci ildə məhz bu gün – mayın 28-də Azərbaycan ilk dəfə öz dövlət müstəqilliyini bəyan etmiş və demokratiya prinsipləri əsasında Xalq Cümhuriyyəti yaranmışdı. Lakin o çox yox, 23 ay yaşadı, sonra isə sosialist inqilabı, bolşevizm dalğası Qafqaza da gəlib çıxdı. Ona görə də bu suveren dövlət, təbii ki, daha mövcud ola bilmədi, sovet hakimiyyəti quruldu. Sonrakı tarix isə sizə yaxşı məlumdur.

Yeri gəlmişkən, çox maraqlı və bəlkə də hətta rəmzi haldır ki, bu gün mən sizinlə milli bayramımız günü – Azərbaycanın Müstəqilliyi günü, Respublika günü görüşürəm. Biz bu günü təntənə ilə qeyd edirik, ayın 26-da böyük təntənəli yığıncaq keçirdik. İnsanlar bu bayram gününü dünən də qeyd etmişlər, bu gün də qeyd edirlər.





1991-ci ildə Sovet İttifaqı dağılarkən Azərbaycan öz müstəqilliyini bəyan etdi və 1920-ci ildə itirilmiş dövlət müstəqilliyini bərpa etdi. Bu on ildə Azərbaycanda mürəkkəb proseslər baş vermişdir. Lakin ölkədə vəziyyəti ən çox mürəkkəbləşdirmiş və bu gün də qalmaqda olan hadisə budur ki, hələ 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə, yəni əzəli Azərbaycan torpağını – Dağlıq Qarabağ vilayətini özünə birləşdirmək arzusu, niyyəti ilə əlaqədar Ermənistanla Azərbaycan arasında münaqişə başlanmışdır.

Ona görə də 1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdə o, Ermənistanla, əslində, müharibə vəziyyətində idi. Bundan başqa, Azərbaycanda daxili xarakterli olduqca çox çətinliklər, mürəkkəb hallar var idi. Əlbəttə, sizə çox yaxşı məlumdur, mən bunu bütün insan əxlaqı prinsiplərinə və mənəvi prinsiplərə zidd olan çox kədərli, ağır bir fakt hesab edirəm ki, 1990-cı ilin yanvarında sovet hökuməti Azərbaycanda ancaq bir şeyi – Ermənistanla münaqişədə Azərbaycana ədalətli münasibət göstərilməsini tələb edən xalqın çıxışını yatırmaq üçün sovet qoşunlarının iri bir kontingentini göndərdi. Halbuki bundan ötrü buraya bu qədər qoşun yeritmək lazım deyildi, o mənada ki, Azərbaycanda sovet qoşunları kifayət qədər idi. Sizin ziyarət etdiyiniz qəbiristanlıq – Şəhidlər xiyabanı da əslində, elə onda yaranmışdır. Bu, şübhəsiz, adamların əhval-ruhiyyəsinə müəyyən təsir göstərdi, çünki o vaxt insanların çoxu sovet rəhbərliyini Rusiya ilə, yaxud da, məsələn, Sovet İttifaqındakı bütün xalqların nümayəndələrinin, o cümlədən də azərbaycanlıların xidmət etdikləri sovet qoşunlarını Rusiya qoşunları ilə eyniləşdirirdi. Açığını deyəcəyəm, ona görə də o vaxt antirus, antirusiya əhval-ruhiyyəsi burada geniş yayıldı. Doğrudur, o vaxt mən burada yaşamırdım, buna baxmayaraq, bütün o illər, o günlər mənə yaxşı məlumdur. Odur ki, o vaxt rus əhalisinin müəyyən hissəsi buradan köçüb getdi. Sonra daxili proseslər başlandı, ölkəmizdə sabitlik pozuldu və əlbəttə,

bəzi adamlar belə qeyri-sabit şəraitdə qalmaq istəməyərək, özlərinə, sadəcə olaraq, başqa yaşayış yeri axtarırdılar. Ona görə də, məsələn. 1990-cı ildə baş vermiş hadisələrdən əvvəlki dövrlə müqayisədə, burada rusdilli əhalinin sayı azaldı.

Lakin biz bu məsələni sabitləşdirdik və siz yəqin bunu bilirsiniz. 1993-cü ildən, burada vətəndaş müharibəsinin qarşısını almağa və Azərbaycanda vəziyyəti ardıcıl surətdə sabitləşdirməyə müvəffəq olduğumuz vaxtdan başlayaraq, bütün millətlərdən olan adamlar, o cümlədən və ilk öncə ruslar Azərbaycanda rahat yaşamağa imkan tapdılar.

Şübhə yoxdur ki, rus xalqı Azərbaycan xalqının həyatında olduqca böyük rol oynamışdır – mən elmin, təhsilin, mədəniyyətin inkişafını, iri sənaye komplekslərі tikilməsini nəzərdə tuturam.

İlk universitet Azərbaycanın müstəqilliyini elan etmiş həmin hökumətin qərarı ilə 1919-cu ildə yaradılmışdır. Lakin bizim öz kadrlarımız yox idi, professor-müəllim heyəti əsasən yerli ruslardan və ya rusdilli millətlərin nümayəndələrindən ibarət idi, yaxud bu kadrlar Rusiyadan dəvət edilmişdilər. Ona görə də biz XX əsrdə ölkəmizdə elmin, təhsilin, mədəniyyətin, ümumən iqtisadiyyatın bütün sahələrinin inkişafında Rusiyanın rolunu, rus xalqının rolunu çox yüksək qiymətləndiririk.

Bunların hamısı öz izini qoymuşdur və gərək ki, sizin bunu şəxsən yəqin etməyə imkanınız olmuşdur. Mənə dedilər ki, burada çoxlu kilsə var. Mən bunu bilirdim, ancaq sizin gəlişinizlə əlaqədar dedim ki, mənə daha dəqiq rəqəmlər verin. Siz bir neçə il əvvəl burada Bakı və Xəzəryanı bölgə yeparxiyası yaratdınız. Bu, əvvəllər var idi, lakin sonralar ləğv edilmişdi, indi siz onu yenidən yaratdınız. Yeri gəlmişkən, sizin burada çox layiqli nümayəndəniz var, onunla görüşmək, söhbət etmək həmişə xoşdur, çox ağıllı adamdır. Bir sözlə, din yaşayır, mövcuddur, bütün dini adətlər – müsəlman adətləri də, pravoslav adətləri də, başqa dinlərin adətləri də bərpa olunmuşdur. Biz ümidvarıq ki, bu, hər bir ölkənin, hər bir xalqın inkişafına kömək edəcəkdir. Çünki biz onu əsas tuturuq ki, din həmişə müsbət rol oynamalıdır, xüsusən də insanın mənəvi inkişafında, insanların mənəvi tərbiyəsində və onların yüksək mənəviyyat, yüksək əxlaq prinsipləri əsasında sıx birləşməsində. Ümidvaram ki, siz bu günlər ərzində müəyyən təəssürat toplaya bildiniz. Mən bu görüşdən istifadə edərək, özüm də bəzi şeylər söyləməyi qərara aldım. İndi sözü sizə verirəm.





**II Aleksi:** Mən çıxışımın birinci hissəsini ayaq üstündə söyləmək istərdim, çünki bu gün Azərbaycan Respublikası üçün əlamətdar gündür və belə əlamətdar gündə, Respublika günündə Siz bizi qəbul edirsiniz. Ona görə də, icazə verin, zati-aliləri, çox hörmətli Heydər Əliyeviç, Sizi nümayəndə heyətimizin adından, şəxsən öz adımdan Azərbaycanın bizim də iştirakçısı olduğumuz bu milli bayramı münasibətilə ürəkdən təbrik edim və Sizin müdrik rəhbərliyiniz altında Azərbaycan Respublikasına xeyir-dualı uğurlar və tərəqqi arzulayım. Biz də ümidvarıq ki, Azərbaycan həqiqətən inkişaf edəcəkdir. Sizin müdrik siyasətçi olmağınız, danılmaz nüfuza malik olmağınız, Azərbaycanda vəziyyəti sabitləşdirməyiniz bunun böyük rəhnidir. Əlbəttə, çətinliklər də var, lakin hər halda, XXI əsrə başlayaraq, biz həmişə təzə əsrə ümidlə baxırıq ki, o, Sovet İttifaqının yeni yol – suverenlik və müstəqillik yolu tutmuş keçmiş respublikalarından hər birinə tərəqqi və uğur gətirəcəkdir. Sizi bugünkü bayram – Respublika günü münasibətilə ürəkdən təbrik edirəm və bu gün Sizinlə görüşməyimizi əlamətdar hadisə bilirik.

**Nikolay Ryabov** *(Rusiyanın Azərbaycandakı səfiri):* Heydər Əliyeviç, icazə verin mən də ayağa qalxım. Milli bayram münasibətilə Rusiya prezidentinin Sizə təbrikini oxumaq istəyirəm *(Sonra səfir təbrik teleqramını oxuyur).* Müsaidənizlə, bu teleqramı Sizə verim.

**Heydər Əliyev:** Çox sağ olun.

**Nikolay Ryabov:** Mən də bu təbriklərə qoşulmaq və xalqımız arasında hamının sevdiyi, hörmət və ehtiram bəslədiyi bütün Rusiya patriarxının səfərinə göstərdiyiniz çox böyük qayğı və diqqətə görə Sizə səmimi-qəlbdən təşəkkür etmək istəyirəm.

**II Aleksi:** Zati-aliləri, indi icazə verin, sözümə davam edim. Bu gün bizi qəbul etdiyinizə görə ürəkdən təşəkkürümü bildirirəm, xalqlarımız arasında qarşılıqlı münasibətlərin tarixinə toxunduğunuza görə çox sağ olun. Buraya səfərimiz, ünsiyyətdə olmağımız bizim üçün son dərəcə faydalı oldu. Bir var eşidəsən, bir də var ki, görəsən. Bunlar başqa-başqa şeylərdir.

Bakı öz gözəlliyi, səliqə-sahmanı, təmizliyi ilə bizə həqiqətən çox xoş təsir bağışladı, insanlar bugünkü dövlət bayramını qeyd edir və bu bayrama sevinirlər. Əlbəttə, rus və Azərbaycan xalqları arasında keçmişdə olmuş və bu gün də inkişaf edən birgə əməkdaşlıq əvəzsizdir. Faciəli səhifələr olmuşdur və buraya gəldiyimiz elə ilk gün Şəhidlər xiyabanını ziyarət etdik və o faciəli günlərdə şəhid olanlara ehtiramımızı bildirdik.

Biz orada azərbaycanlıların da, rusların da familiyalarını gördük, onların ruhuna dua oxuduq.

Biz dövlət xadimləri, şəhərin rəhbərləri ilə də görüşdük, İçərişəhərlə tanış ola bildik və daim münasibətlərimizin inkişaf tarixini xatırladıq. Bu gün təsdiqləmək olar ki, rusdilli əhali burada həqiqətən bütün hüquqlara, bərabər hüquqlara malikdir. Onlar özlərini ikinci dərəcəli adamlar kimi hiss etmirlər və pravoslavlar öz dininə, öz imanına heç bir maneə olmadan etiqad edirlər, təəssüf ki, bu hətta bəzi pravoslav ölkələrində də yoxdur.

Möhtərəm Şeyxlə bizim aramızda artıq neçə illərdir ən xoş qarşılıqlı münasibətlər mövcuddur, onunla tanışlığımız və əməkdaşlığımız 1988-ci ildən başlamışdır. Bu illər ərzində biz bəzən ən faciəli anlarda, Dağlıq Qarabağda qan axıdıldığı günlərdə, qan tökülməsini dayandırmaq lazım olduğu vaxtlarda Rus Pravoslav Kilsəsinin təşəbbüsü ilə Azərbaycan, Ermənistan və Rusiya ruhani liderlərinin dörd dəfə üçtərəfli görüşünü keçirmişik. Din xadimləri vəziyyətdən çıxış yolunu görür və böhrandan çıxmaq üçün öz yollarını təklif edirdilər.

Elə dünən biz səfərimizə yekun vuraraq, bəyannamə imzaladıq. Biz bu bəyannamədə mövcud problemin həll edilməsinə tərəfdar olduğumuzu və Azərbaycanın, Ermənistanın dövlət





rəhbərlərinə indi bu iki ölkə qarşısında duran problemin siyasi yolla aradan qaldırılmasını arzuladığımızı bildiririk. Bizə gəlincə, daha bir üçtərəfli görüş keçirmək və bu problemin həllini necə təsəvvür etdiyimizi bildirmək niyyətindəyik.

Ev-eşiklərindən məhrum olmuş, yurd-yuvasından məhrum olmuş və bu gün burada yaşayaraq, dövlət üçün müəyyən iqtisadi çətinliklər törədən qaçqınlarla görüşmək, zənnimcə, bizim üçün çox vacib idi, çünki 8 milyon əhalinin 1 milyonunun qaçqın olması müəyyən dərəcədə böyük iqtisadi problem yaradır. İnsanların öz müsibətlərindən necə danışdıqlarını eşitmək və bu müsibətləri görmək din xadimləri üçün də – biz onlarla görüşə qardaşımız Şeyx Paşazadə ilə birlikdə getmişdik – olduqca ağır idi. Odur ki, kilsə də, dinlər də həmişə öz diqqətini əzab-əziyyət çəkənlərə, müsibətlərə məruz qalanlara, ev-eşiyindən məhrum olanlara yönəldir. Ona görə də qeyd etmək istərdim ki, qaçqınlarla görüşlər zamanı səslənmiş bütün çıxışlarda Ermənistandan və Dağlıq Qarabağdan, digər rayonlardan didərgin salınmış bir çox ruslar Şeyx qardaşımızla bizdən xahiş edirdilər ki, bu problemin həllinə kömək göstərək. Onlar bunu ancaq sülh yolu ilə aradan qaldırmaqda görürlər, çünki bu müharibədə hərbi əməliyyatlar zamanı tökülən qanları, xalqların verdikləri qurbanları, itkiləri xatırlayırlar.

Hələ inqilabdan əvvəl dövlətlərimizin inkişafına rusların da, azərbaycanlıların da necə qarşılıqlı surətdə töhfə verdiklərini bizə Siz də xatırlatdınız. Biz elə sovet dövründə də milli mənsubiyyətlərə ayrılmadan bir ailə kimi yaşayırdıq. Vaxtilə mövcud olmuş ənənəvi əlaqələr, əlbəttə, Sovet İttifaqı dağıldıqdan sonra pozuldu, canlı əlaqə itirildi, lakin mənə elə gəlir ki, bu əlaqə tədricən bərpa edilir və burada təhsil almış, neft sənayesinin təşkilində təcrübə toplamış bir çox sahibkarlar indi Rusiyada işləyir və məsul vəzifələr tuturlar.

Xüsusi qeyd etmək istərdim ki, burada rus dilində çoxsaylı məktəb var, bu məktəblərdə təkcə rusdillilər deyil, azərbaycanlılar da oxuyurlar. Biz Slavyan Universitetinə getdik. Orada slav-

yan xalqlarının mədəniyyəti, dilləri öyrədilir. Bütün bunlar yad laşmanın xalqlarımız arasında kök atmaması üçün edilir. Zən nimcə, bu baxımdan Azərbaycan ərazisində ənənəvi dinlərimi: çox mühüm rol oynayırlar. Biz məscidləri də, fəaliyyətdə olaı üç pravoslav məbədini də, səfirliyin ərazisində tikilmiş kiçil kilsəni də ziyarət etdik. İbadət etməyə gələn çoxsaylı pravosla dindarlar gördük. Məhəmməd peyğəmbərin nəvəsinin uyudu ğu yerdə Sizin zəhmət və qayğılarınızla bərpa olunmuş məscid ziyarət etdik. Gözəl məsciddir. İndi o, müsəlmanların ziyarətga hına çevrilmişdir. Biz görürük ki, dini həyat, həqiqətən dirçəliı Düşünürəm ki, bu dirçəliş insanların öz əməyinə, vəzifələrin münasibətində müsbət rol oynayacaqdır. Onlar öz borcuna və ö vəzifələrinə vicdanla yanaşacaqlar.

Elə bu gün mən müsahibə verərkən bildirdim ki, bəzən ölkələ rimizdə deyirlər ki, bu məsələləri məhz Prezident, hökumət hə etməlidir. Mən isə deyirəm ki, ölkənin gələcəyi, xalqın gələcə hər bir kəsin töhfəsindən asılıdır və buna görə də hər bir vətə daşın üzərinə məsuliyyət düşür.

Pravoslavlar din xadimlərinin ağsaqqalı kimi, müxtəlif millə lərin və müxtəlif dinlərin nümayəndələrinin necə birgə yaşama sına, əməkdaşlıq etməsinə gözəl nümunə olduğuna görə, Şey qardaşımız Paşazadəyə çox minnətdardılar. Zənnimcə, Azərba can yeganə dövlətdir ki, burada müsəlmanların dini başçısı həı sünnilərin, həm də şiələrin başçısıdır. Odur ki, bu nümunə İsl mın iki qolu arasında bəzən qarşıdurmaların baş verdiyi bir ço ölkələr üçün örnək olmağa layiqdir. Elə qardaşım da mənə de i ki, İrana gedir, çünki orada məhz bu təcrübəyə ehtiyac duyulu

Bu gün biz Haqq-Təalanın xeyir-dua verdiyi qonaqpərv r Azərbaycan torpağına səfərimizi başa çatdırırıq, özümüzlə ən xoş və nurlu təəssüratlar aparırıq. Mənə elə gəlir ki, XXI əsr və üçüncü minillik dövlətlərimiz arasında inkişaf etməkdə olan intensiv əlaqələrlə başlanır. Vladimir Vladimiroviç Putinin səfəri də, parlamentin sədri başda olmaqla, parlamentin böyük bir nümayəndə heyətinin Rusiya Federasiyasına səfəri də belə əlaqələr-





dəndir. Əgər bizim səfərimiz də buna öz töhfəsini verərsə, çox şad olarıq. Bizi ənənəvi Qafqaz mehribanlığı və qonaqpərvərliyi ilə hər yerdə həqiqətən çox səmimiyyətlə, gülərüzlə qarşılayırdılar. Aldığımız təəssüratlar olduqca zəngindir. Budur, indi biz zati-alilərinizin qəbulundayıq, bizdə belə bir məsəl var ki, işin sonu onun bəzəyidir. Ona görə düşünürəm ki, zati-alilərinizlə bugünkü görüş də bizim səfərimizin bəzəyidir. Öz xalqınız üçün və Azərbaycan torpağında yaşayan xalqlar üçün gördüyünüz bütün işlərə görə Sizə səmimi təşəkkürümüzü bildirmək istərdik. Siz qan tökülməsini dayandırdınız, Siz bu torpaqda yaşayan insanlara bərabər hüquqlar verilməsinə, dindarların öz dininə, öz imanına etiqad etməsinə, hamının çiyin-çiyinə işləməsinə və bir-birinə qarşı durmamasına nail oldunuz, onlara bu hüquqları verdiniz.

Ənənəvi dinlərin fəaliyyətinə eyni dərəcədə diqqət yetirdiyinizə və qiymət verdiyinizə görə Rus Pravoslav Kilsəsi adından Sizə təşəkkürümüzü bildirmək istərdik. Eyni zamanda, müxtəlif təriqətlərin, başabəla missionerlərin Azərbaycan ərazisində, habelə bütün keçmiş Sovet İttifaqı respublikalarının ərazilərində həyata keçirməyə çalışdıqları dini ekspansiyalarla əlaqədar dövlət səviyyəsində də narahatlıq ifadə edilir, bu narahatlıq ənənəvi dinlərin başçıları səviyyəsində də bildirilir. Mən qəti əminəm ki, belə missionerlərin fəaliyyəti adamları maarifləndirməyə yox, adamların arasına həm də dini etiqad əlamətinə görə rəxnə salmağa yönəldilmişdir. Təhlükə də, bax, bundadır.

Çünki tamamilə yad olan, heç bir kökü, ənənələri olmayan təriqətlər, missionerlər torpağımıza gəlir və 70 illik ateizm tərbiyəsindən və dini dəyərlərin inkarından sonra yaranmış mənəvi boşluğu doldurmağa can atırlar. Onlar Rusiyanı və keçmiş Sovet İttifaqının digər ölkələrini mənəvi boşluq adlandırır və ona görə də buraya gəldiklərini bildirirlər. Biz bununla razı deyilik. Biz bu təhlükəni dünən qəbul etdiyimiz bəyannamədə də xatırlatmışıq. Çünki bu, xalqları bir-birindən ayırır.

Qüvvələrin birləşdirilməsi prinsipi isə, zənnimcə, hər bir ölkədə olmalıdır. Ona görə ki, hər bir ölkənin gələcəyi birlikdədir. Odur ki, çox hörmətli Heydər Əliyeviç, birlikdə çalışan və birlikdə işləyən bu vahid cəmiyyətin yaradılmasında Sizin xidmətiniz bu baxımdan olduqca böyükdür.

Siz din xadimləri üçün, dini başçılar üçün çox işlər görürsünüz və möhtərəm Şeyxin də, Sizin də Yepiskop Aleksandra yüksək qiymət verməyiniz bu qəbildəndir. Biz, həqiqətən, bir neçə il əvvəl burada Yeparxiya yaratdıq və onun statusuna xüsusi əhəmiyyət vermişik, çünki o, suveren dövlətin ərazisindədir. Üstəlik, biz hansısa bir yeni adamı təyin etmədik, əksinə, elə bir adamı təyin etdik ki, o, artıq burada xidmət etmiş, hörmət-nüfuz qazanmışdır, onu tanıyırlar və Siz onu özünüzünkü, burada böyüyüb başa çatmış adamınız kimi qəbul etmisiniz. Biz ağsaqqal Şeyx Paşazadənin rəhbərliyi ilə ənənəvi dinlər – İslam, Pravoslavlıq və İudaizm arasında həyata keçirilən əməkdaşlığa çox şadıq. O bəlkə də yaşca hamıdan böyük deyildir, amma zəngin həyat və mənəvi təcrübəsinə görə qalan bütün ənənəvi dinlərin rəhbərləri üçün, həqiqətən, ağsaqqaldır.

Azərbaycanda yaşayan pravoslavlar ibadət etmək imkanına malikdirlər. İndidən belə Bakının üç kilsəsində pravoslav dindarlar – təkcə ruslar deyil, ukraynalılar da, belaruslar da ibadət edəcək, mənən kamilləşəcəklər. Biz zati-alilərinizin böyük diqqətini bunda da görürük.

Xalqların barışması işinə, Azərbaycanın və onun xalqının rifahı naminə fəaliyyət göstərən ənənəvi dinlərin dəstəklənməsinə verdiyiniz çox böyük töhfəyə dərin ehtiram əlaməti olaraq mən Rus Pravoslav Kilsəsinin ordenini Sizə təqdim etmək istərdim. Bizim verdiyimiz qiymətin əlaməti olaraq, birinci dərəcəli müqəddəs mömin Moskva knyazı Daniil ordenini qəbul etməyinizi xahiş edirəm.

Bu ordeni bizdən nəinki Azərbaycanın inkişafına və möhkəmlənməsinə, həm də mənəvi, əxlaqi dəyərlərin, inam, haqq-ədalət dəyərlərinin Azərbaycan xalqının həyatına qaytarılmasına verdiyiniz çox böyük töhfənin qiymətləndirilməsi kimi qəbul edin.





**Heydər Əliyev:** Sağ olun.

**II Aleksi:** "Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı bölgə yeparxiyasına göstərdiyi diqqətə, köməyə və dəstəyə görə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyeviç Əliyev Rus Pravoslav Kilsəsinin birinci dərəcəli müqəddəs mömin Moskva knyazı Daniil ordeni ilə təltif edilir".

Yepiskop Aleksandrın simasında Bakı və Xəzəryanı bölgə Yeparxiyası mənim səfərimlə əlaqədar medal buraxmışdır. Mənə icazə verin, görüşümüz münasibətilə bu medalı Sizə təqdim edim.

**Heydər Əliyev:** Necə gözəl ordendir. Şübhəsiz ki, bu, ilk kilsə ordenidir. Keçmişdə aldığım ordenlərdən qat-qat gözəldir. Çox sağ olun, mən sizə çox təşəkkür edirəm.

**II Aleksi:** Moskva knyazı Daniil Moskvanı yaratmış və birləşdirmiş knyazdır.

Bu orden Azərbaycanın yaradıcısı, Azərbaycan xalqlarının vəhdət halında birləşdiricisi kimi, Sizə təqdim olunur.

Bu ordeni qəbul etməyinizi xahiş edirəm.

**Heydər Əliyev:** Hörmətli müqəddəs Patriarx, söylədiyiniz bütün sözlərə görə, bölüşdüyünüz təəssüratlara görə, insanlar arasında etimadın möhkəmlənməsi və dinin inkişaf etməsi, hər bir adamın Konstitusiyamıza müvafiq surətdə vicdan azadlığı hüququndan istifadə edə bilməsi üçün şərait yaradılması sahəsində ölkəmizin, xalqımızın, dövlətimizin işinə verdiyiniz qiymətə görə çox sağ olun. Bu, Konstitusiyamızın ən mühüm müddəalarından biridir. Mənə çox xoşdur ki, Azərbaycanda olduğunuz müddətdə sizdə yaxşı təəssürat yarandı və siz doğru dediniz ki, bir var eşidəsən, bir də var ki, görəsən. Zənnimcə, sizin eşitdikləriniz prinsipcə görmək istədikləriniz üçün əsas olmuşdur.

Biz Sizi çoxdan, dəfələrlə dəvət etmişdik. Mən də dəvət edirdim, şeyx həzrətləri də dəvət edirdi. Əlbəttə, biz inanırdıq ki, dəvətimiz qəbul ediləcək və siz Azərbaycana gələcəksiniz. İndi isə bunların hamısı gerçəkliyə çevrilmişdir. Siz Azərbaycana gəl-

diniz, bir neçə gün burada oldunuz və bu gün səfəriniz başa çatır və siz evinizə, Moskvaya qayıdırsınız.

Mən sizin bütün fikirlərinizlə razıyam və əlbəttə, barışıq, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması sahəsində fəaliyyətinizi çox yüksək qiymətləndirirəm. Mənə məlumdur ki, mən hələ Azərbaycan Prezidenti seçilməzdən əvvəl məhz sizin təşəbbüsünüzlə siz, bütün Qafqaz müsəlmanlarının Şeyxülislamı və Ermənistan katolikosu – əvvəlki katolikos və indiki katolikos – görüşlər keçirmisiniz. Bu səylərinizə görə sağ olun. Bu, yüksək qiymətə layiqdir, çünki mən belə bir mövqe tutmuşam ki, bir daha qan tökülməməlidir. Biz münaqişəni sülh yolu ilə nizama salmalıyıq və bu məqsəd üçün bütün imkanlardan istifadə edilməlidir. Xalq arasında isə ruhanilərin, din xadimlərinin nüfuzu çox vaxt daha yüksək olur və dövlət rəhbərlərinin fəaliyyətinə nisbətən daha güclü təsir göstərir. Odur ki, indiyədək gördüyünüz işlərə görə sağ olun. Lakin Sizin bu fəaliyyətinizin davam etdirilməsinə hələ bizim ehtiyacımız var.

Biz 1994-cü ilin mayında hərbi əməliyyatları dayandırdıq, atəşkəs haqqında razılığa gəldik. Artıq yeddi ildir hərbi əməliyyatlar aparılmır və diqqətəlayiq haldır ki, hər hansı xarici sülhyaratma qüvvələrinin müdaxiləsi olmadan Ermənistan tərəfi də, Azərbaycan tərəfi də atəşkəs rejiminə əməl edir. Bu onu göstərir ki, Azərbaycanda da, Ermənistanda da məsələnin dinclıklə həll olunmasını istəyirlər.

Bu yeddi ildə biz bir çox danışıqlar aparmışıq. Bilirsiniz ki, hələ 1992-ci ildə ATƏT xüsusi qrup, Minsk qrupu yaratmışdır. Münaqişənin dinclıklə nizama salınmasına kömək göstərilməsi üçün indi bu qrupa Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa başçılıq edirlər. Ötən bütün illər ərzində bu qrup daim fəaliyyət göstərmiş, həmin məsələ ilə məşğul olmuşdur. Doğrudur, bəzən fəal, bəzən də fasilələrlə. Şadam ki, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin, Birləşmiş Ştatların Prezidenti Corc Buşun, Fransa Prezidenti Jak Şirakın simasında Minsk qrupunun həmsədrləri münaqişənin nizama salınması





üçün son vaxtlar öz aralarında daha fəal əməkdaşlıq edirlər. Deməliyəm ki, biz əvvəllər belə fəallıq, belə sıx əməkdaşlıq müşahidə etmirdik və münaqişənin dinclıklə həll olunmamasının səbəblərindən biri bəlkə də budur.

Biz şadıq ki, indi qarşılıqlı anlaşma var, Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa arasında əməkdaşlıq arzusu var. Biz buna böyük ümid bəsləyirik. Bilirsiniz ki, 1999-cu ildən bəri biz Azərbaycan və Ermənistan Prezidentlərinin vaxtaşırı görüşlərini keçiririk. Böyük ölkələrin – Rusiyanın, Amerika Birləşmiş Ştatlarının və Fransanın rəhbərləri bizə tez-tez deyirlər ki, razılığa gəlmək imkanını ən əvvəl siz özünüz tapmalısınız. Bu bəlkə də doğrudur, amma burada biz bərabər vəziyyətdə deyilik. Əvvəla, Ermənistan müxtəlif səbəblərə görə Dağlıq Qarabağı işğal edə, bütün azərbaycanlıları oradan qova bilmişdir. Lakin Ermənistan bununla kifayətlənməyərək, Azərbaycanda daxili sabitsizliklə əlaqədar özü üçün yaranmış əlverişli imkandan istifadə edərək, döyüş əməliyyatları zonasını genişləndirdi və ancaq azərbaycanlıların yaşadıqları daha yeddi rayonu işğal etdi. Ermənistandan da bütün azərbaycanlılar qovuldular, orada bir nəfər də azərbaycanlı qalmayıbdır. Ona görə bizdə bir milyon qaçqın var.

Qaçqınların məskunlaşdıqları yerlərdən birinə getdiyinizə görə Sizə təşəkkür edirəm. Söz düşmüşkən, bu, qaçqınların qaldıqları yerlər arasında ən yaxşısıdır. Çünki onlar, hər halda, Bakı şəhərində digər, hansısa bir binadadırlar, hərçənd bu bina tam tikilib qurtarmamışdır.

**II Aleksi**: Binanın damı varmı?

**Heydər Əliyev:** Bəli, dam var. Əgər iki-üç saatlıq məsafədə yerləşən yaxın rayonlara – mən bütün düşərgələrdə oluram – getsəniz, görərsiniz ki, orada insanlar artıq yeddi, səkkiz, hətta doqquz ildir çadırlarda yaşayırlar. Çadırlarda uşaqlar doğulur. Biz çadırlarda şərait yaratmışıq ki, onlar oxuya bilsinlər. Çadırlarda yeni-yeni ailələr qurulur. Çadırlarda insanlar dünyalarını dəyişirlər, bəs onları harada dəfn etməli? Hər kəs istəyir ki, öz doğma torpağında dəfn olunsun. Bu hər bir insan üçün təşəkkül

tapmış ənənədir. Lakin o, çadırda ölür və çadırların yaxınlığında yeni qəbiristanlıqlar salmaq lazım gəlir, onun cənazəsini öz doğma torpağına aparmağa isə imkan yoxdur, çünki orada hər şey dağıdılmış, yağmalanmışdır. Mən hələ onu demirəm ki, bu işğal edilmiş torpaqlarda bütün qəbiristanlıqlar, müqəddəs yerlər dağıdılmışdır.

Öz fikirlərimi belə faciəli notlarla davam etdirmək istəmirəm. Bu baxımdan Ermənistanla vəziyyətimiz bərabər deyildir. Onlar bu baxımdan üstünlüyə malik olduqlarına görə təkid edirlər ki, şərtləri qəbul edilsin. Onların şərtləri isə Dağlıq Qarabağa müstəqillik statusu verilməsindən ibarətdir. Azərbaycan ərazisində ikinci bir erməni dövləti ola bilməz, ola bilməz! Eləcə də Dağlıq Qarabağ Ermənistana birləşdirilə bilməz! Beynəlxalq hüququn, Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in əsas prinsipləri hər bir dövlətin ərazi bütövlüyündən, mövcud sərhədlərin toxunulmazlığından ibarətdir. Ermənilər isə tələb edirlər ki, ərazimizin bir hissəsini onlara verək, bunun əvəzində onlar Dağlıq Qarabağın ətrafında yerləşən, işğal etdikləri rayonları azad etsinlər. Yəqin ki, bu rayonlar azad edildikdən hələ 50 il sonra da insanlar öz ev-eşiklərini qurmaqla məşğul olmalıdırlar, çünki orada hər şey dağıdılmış, hər şey talan edilmişdir.

Minsk qrupu həmsədrlərinin – Amerika Birləşmiş Ştatlarının, Rusiya və Fransanın nümayəndələri bu yaxınlarda burada oldular. Onlar Ağdam rayonunda atəş xəttini keçdilər, Dağlıq Qarabağa getdilər. Bizim belə bir iri rayonumuz var, orada 160-170 min adam yaşayırdı. Özü də o, qədim mədəniyyət mərkəzlərindən biri, öz gözəlliyi, öz xüsusiyyətləri olan şəhərdir. Ən başlıcası isə budur ki, orada bu qədər adam yaşayırdı. Həmsədrlərin nümayəndələri əvvəllər də orada olmuşlar, indi isə təsdiqləmişlər ki, orada hər şey dağıdılmış, hər şey qarət edilmişdir. Ona görə də biz sülh istəyirik, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Lakin eyni zamanda, erməni tərəfi də daha konstruktiv mövqe tutmalıdır. Təəssüf ki, biz bunu hələlik görmürük. Əgər vəziyyət belə qalsa, onda bunun çox ağır nəticələri ola bilər.





Çünki xalqımızda, əhalimizdə belə bir əhval-ruhiyyə getdikcə güclənir ki, axı torpaqlarımızın işğalına nə qədər dözmək olar, biz vuruşmalıyıq, torpaqlarımızı öz qanımızla, nəyin bahasına olursa olsun, azad etməliyik.

Son vaxtlar Rusiya münaqişənin dincliklə nizama salınmasına fəal kömək göstərir. İyunun 1-də Minskdə Müstəqil Dövlətlər Birliyi ölkələri dövlət başçılarının görüşü keçiriləcəkdir. Yəqin ki, orada prezident Vladimir Vladimiroviç Putinin, Azərbaycan və Ermənistan prezidentlərinin üçtərəfli görüşü olacaqdır. Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin Azərbaycana rəsmi səfər etməsi, özü də yeni əsrin əvvəlində, yeni minilliyin əvvəlində səfər etməsi çox mühüm rol, müstəsna rol oynamışdır. O, yanvarın 9-da buraya gəldi. Xalqımız bunu çox yüksək qiymətləndirdi. Mən inciklik hissi ilə deməliyəm ki, biz neçə illərdi Rusiya prezidentini də, Baş nazirini də dəvət edirdik, amma müsbət bir cavab almırdıq. Lakin mənim dəvətimdən sonra qısa müddətdə Vladimir Vladimiroviç Putin onu qəbul etdi və buraya gəldi. Siz gördüyünüz kimi, o da vəziyyəti özü gördü.

Fəxri doktor adına layiq görüldüyünüz elə həmin Slavyan Universitetində o da fəxri doktor adı aldı. Yeri gəlmişkən, universitetin tarixində iki nəfər onun fəxri doktoru olmuşdur – Rusiya prezidenti Vladimir Vladimiroviç Putin və Moskvanın və bütün Rusiyanın müqəddəs patriarxı. Əlbəttə, bütün bunlar onun üçün müəyyən dərəcədə gözlənilməz idi, eləcə də sizin üçün. Yəni Azərbaycanla Rusiya arasında münasibətlərin gərginləşməsi üçün müxtəlif qüvvələrin yaratdıqları əhval-ruhiyyə bu gün də var. Lakin bununla belə, prezidentin hər şeyi öz gözü ilə görməsinin və hər hansı informasiyadan istifadə etmədən vəziyyəti artıq özünün qiymətləndirməsinin və bütün Rusiya patriarxının hər şeyi öz gözü ilə görməsinin, özünün qiymətləndirmək imkanına malik olmasının böyük əhəmiyyəti var. Biz buna ehtiyac duyuruq. Təkrar edirəm, ehtiyac duyuruq.

Çünki respublikamızda bir milyon qaçqın var, hər şey bir yana, onlar faciəli, qeyri-insani şəraitdə yaşayırlar. Bu isə bizim üçün

maliyyə çətinlikləri, maddi çətinliklər də yaradır. Çünki onlar işləmirlər, öz torpaqlarında işləsəydilər, əvvəllər nə əkib-becərirdilərsə. onu da əkib-becərərdilər. Bu torpaqlar çox bərəkətlidir. Onlar məhsul istehsal edərdilər və ya özlərinin başqa işləri ilə məşğul olardılar.

Respublikamız belə bir mürəkkəb vəziyyətdə inkişaf edir, Qərblə Şərq arasında, Qafqazda yerləşdiyinə görə son dərəcə böyük coğrafi-strateji əhəmiyyəti var. Respublika böyük təbii ehtiyatlara malikdir və öz xalqımıza daha yaxşı həyat şəraiti təmin etmək üçün də, əlbəttə, qonşularımızla, Rusiya ilə ticarət münasibətlərini və digər münasibətləri daha fəal genişləndirmək üçün də bütün bunlardan daha səmərəli istifadə etmək imkanımız var. Bizim bəzi layihələrimiz var, məsələn, Rusiyanın "LUKoyl" şirkəti burada fəal işləyir və təbii ki, fayda götürür və bu birgə işdən Azərbaycan da faydalanır.

**II Aleksi:** Hər halda, iş yerləri də açılır.

**Heydər Əliyev:** Əlbəttə, indi bizdə 32 Qərb şirkəti işləyir. Təəssüf ki, Rusiyanın təkcə bir şirkəti var, halbuki mən Rusiyanın bir çox şirkətlərini dəvət etmişəm. Görünür, onların Rusiyada hələ çox nefti var, ona görə də bir yana getmək istəmirlər.

Bütün bunlar nəzərə alınaraq, sizin sülhyaratma missiyanız böyük əhəmiyyətə malikdir. Odur ki, sizdən öz fəaliyyətinizi davam etdirməyinizi xahiş edirəm. Bizim Şeyxülislam bu baxımdan fəaldır. O sizinlə görüşləri barədə, əlaqələr barədə, köməyinizə bəslədiyi ümid barədə mənə tez-tez məlumat verir. İstərdim ki, bütün bunlar səmərəli nəticələnsin. Sülh hər yerdə lazımdır. Minskdə Qafqaz dördlüyünün görüşü olacaqdır. Çünki indi dünyada, xüsusən, postsovet məkanında hamı beynəlxalq terrorizm, ekstremizm sarıdan narahatdır. Şimali Qafqazda nələr baş verdiyini siz çox yaxşı bilirsiniz, Gürcüstanda münaqişə var, Ermənistanla Azərbaycan arasında münaqişə var.

Dünyanın Qafqaz kimi nadir diyarı hazırda elə bir vəziyyətdədir ki, burada terrorçular üçün də, hər cür ekstremistlər üçün də şərait mövcuddur.





Bizi narahat edən daha bir məsələ var. Bu, dini ekstremizmin yayılmasıdır. Din cəmiyyətdə insan fəaliyyətinin həmişə ən nəcib sahəsi hesab olunmuşdur və hesab edilir. Ayrı-ayrı dini cərəyanların qarşılarına terrorizm, ekstremizm vəzifələri qoyması, yaxud din pərdəsi altında tamam əks əməllərlə məşğul olması və xalqlara, ölkələrə, ayrı-ayrı insanlara ziyan vurması, əlbəttə, qətiyyən dözülməz haldır. Yeri gəlmişkən, biz təkcə Azərbaycanı deyil, bütün Qafqazı bundan qorumalıyıq. Siz Şimali Qafqazdakı, Mərkəzi Asiyadakı vəziyyəti bilirsiniz. Biz bundan da qorunmalıyıq.

Əlbəttə, mən hər şeydən çox istərdim ki, siz Ermənistanla Azərbaycan arasında sülh yaradılmasına, işğal olunmuş torpaqların azad edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə və qaçqınların öz yaşayış yerlərinə qayıtmasına daha fəal kömək göstərəsiniz. Lakin bununla yanaşı, mən bu işə eqoistcəsinə, ancaq Azərbaycanın məhdud mövqelərindən yanaşmıram. Mən sizinlə bu söhbəti apararkən onu nəzərdə tuturam ki, bir siyasi xadim kimi, məni bütün bəşəriyyətin, hər halda, regionumuzun, Yer kürəsinin bu guşəsinin taleyi narahat edir, bütün bu təhlükələrin daha da inkişaf etməməsi üçün siz müvafiq qüvvələri onlara qarşı qaldıra biləsiniz.

Başa düşürəm, sizin imkanlarınız elədir ki, sizdən xahiş etdiyim məsələlərin həllinə ancaq bu imkanlar daxilində kömək edə bilərsiniz. Bu gün vəziyyətin necə olduğunu, gələcəkdə daha nə kimi çətinliklərin yarana biləcəyini və xalqlar, ölkələr, dövlətlər arasında sülhün və dinc qarşılıqlı münasibətlərin təmin edilməsi üçün bizim nə kimi işlər görməli olduğumuzu xatırlatmaq məqsədi ilə öz fikirlərimi sizinlə bölüşürəm. Yeri gəlmişkən, dinin həmişə ən birinci məqsədi sülh olmuşdur.

Mən təbliğat aparmıram və bu məlum həqiqətləri sizə söyləmək istəmirəm. Siz onları gözəl bilirsiniz. Mən, sadəcə olaraq, öz baxışlarımı, öz fikirlərimi bildirirəm. Mən Sizə bir daha və yenidən təşəkkür edirəm. Məni təltif etdiyiniz ordenin isə mənim üçün müstəsna əhəmiyyəti var. Təbii ki, bu hadisə bioqrafiyamda öz layiqli yerini tapacaqdır. Sağ olun.



**II Aleksi:** Sağ olun. Çox hörmətli Heydər Əliyeviç, sağ olun ki, öz fikirlərinizi bölüşdünüz. Çünki Qafqazda baş verən hadisələr bizi narahat etməyə bilməz. Çünki Qafqaz xüsusi, bərəkətli, xeyir-dualı torpaqdır, burada isti Cənub günəşi altında torpaq bəhrələr verir. Bu torpaqlar viran edildikdə və insanlar bir-biri ilə qarşı-qarşıya durduqda qan tökülür. Əlbəttə, bu bizi narahat etməyə bilməz. O ki qaldı bizim üçtərəfli qarşılıqlı münasibətlərlə bağlı problemlərə, qardaşım Şeyx həzrətləri mənə dedi ki, belə görüşün keçirilməsinin zəruriliyi barədə fikir yeni katolikos tərəfindən də səslənmişdir. Zənnimcə, burada din xadimləri belə bir yekdil fikirdədirlər ki, görüşmək, məsələnin dincliklə həlli yollarını axtarmaq lazımdır.

Çeçenistanda baş vermiş faciə zamanı biz də həmişə bu faciəyə cəlb edilmişik. Törədilən terror aktları, hətta Qafqazın hüdudlarından kənarda da yayılırdı. Moskvada, Buynakskda evlərin partladılması dinc sakinlərin həlak olmasına gətirib çıxartdı. Orada insanların girov götürülməsi kimi mənəviyyata çox zidd olan biznes həyata keçirilir. Biz də üç keşiş itirdik. Onlar Qroznıda xidmət edirdilər və girov götürülərək, çeçen əsirliyində həlak





oldular. Bu da başımıza gələn faciədir. Dolanacaq imkanlarından məhrum olmuş və indi müxtəlif ətraf rayonlarda yaşayan qaçqınların məsələləri də bu qəbildəndir.

Lakin burada, Azərbaycan torpağında olarkən ilk əvvəl kömək etmək lazımdır ki – bu məsələdə qardaşımız Şeyxülislamla tamamilə həmrəyik – münaqişənin həlli üçün mümkün olan hər bir iş görülsün.

Biz siyasi qərar qəbul edə bilmərik, lakin mənəviyyat, insanlıq baxımından dövlət xadimlərinə üz tutacağıq ki, bu problem həll olunsun. Çünki bu problemin arxasında milyonlarla insanın taleyi durur.

Sizin çox obrazlı dediyiniz kimi, onlar çadırlarda, başları üstündə dam olmadığı bir şəraitdə doğulur, yeni ailələr qurur, həyatdan gedirlər. Bax, bu, həmin məsələnin həllinə çağırmaq üçün bizi mümkün olan bütün tədbirləri, bizdən asılı olan tədbirləri görməyə bir daha sövq etməlidir.

Azərbaycana dəfələrlə dəvət etdiyinizə görə Sizə səmimi təşəkkürümü bildirmək istərdim. Düşünürəm ki, hər şey zamanın xeyrinə edilir. Məsələn, Vladimir Vladimiroviç də XXI əsrdə, üçüncü minillikdə xaricə ilk səfərini Azərbaycana etmişdir.

Bu, XXI əsrdə, üçüncü minillikdə mənim Moskvadan kənara ilk səfərimdir. Bu, yaxşı başlanğıcdır və o, davam etdiriləcəkdir. Burada gördüyümüz qonaqpərvərlik də çox səmimi oldu, qəlbimizi riqqətə gətirdi. Biz onu heç vaxt unutmayacağıq. Qardaşımız Şeyxülislam Paşazadə ilə, Sizin tapşırığınızla bizi müşayiət etmiş dövlət müşavirinizlə bu günlər ərzində həmişə birlikdə olduğumuza görə minnətdarıq. Biz Azərbaycanın bir çox dövlət xadimləri ilə görüşdük, onların sülhə sadiqliyinin və Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın çiçəklənməsini istədiklərinin şahidi olduq.

**Heydər Əliyev:** Sağ olun.

# AZƏRBAYCAN RESPUBLİKASININ DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN YARADILMASI HAQQINDA FƏRMAN

Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dini İşlər İdarəsinin əsasında Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılsın.
2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əsas vəzifələri Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılmasından, dini etiqad azadlığı ilə bağlı olan qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsindən və dini qurumların dövlət qeydiyyatına alınmasından ibarətdir.
3. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının din etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarının tələblərinə riayət olunmasını təmin etmək məqsədi ilə qanunla nəzərdə tutulmuş formalarda dini qurumların fəaliyyətinə müdaxilə edə bilər.
4. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası vətəndaşlarının dini etiqad məsələlərinə və onların birləşdiyi dini qurumların işinə əsassız müdaxilə etmir, dini qurumlara heç bir maddi yardım göstərmir.
5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:





6. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Əsasnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim olunmaq üçün təqdim etsin; bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.
7. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 21 iyun 2001-ci il*

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR VƏ ƏNƏNƏLƏR

*Azərbaycan Pezidenti Heydər Əliyevin bəyanatı*
*14 avqust 2001-ci il*

Hörmətli vətəndaşlar!

Ölkəmizin ictimaiyyətini və məni narahat edən bir hadisə ilə əlaqədar öz münasibətimi bildirmək istəyirəm. Bir neçə gün bundan öncə "Etimad" qəzetində Azərbaycanın dini rəhbəri, Qafqaz Müsəlmanlarının Şeyxülislamı Allahşükür Paşazadənin ünvanına təhqirli yazılar yazılıbdır. Biz bu yazılarla əlaqədar ölkəmizin ictimaiyyətinin müxtəlif təbəqələrinə mənsub olan şəxslərdən yüzlərlə məktublar almışıq. Bütün məktublarda insanlar belə bir hadisə ilə əlaqədar öz hiddətlərini bildirirlər və mənə, Azərbaycan Prezidentinə müraciət edirlər ki, Azərbaycanın dini rəhbəri Şeyxülislamı təhqir edən qəzet cəzalansın. Mən bütün bu fikirlərlə razıyam.

Azərbaycanda söz azadlığı, mətbuat azadlığı demokratiyanın əsas prinsiplərindən biri olaraq, tam bərqərar olunubdur. Ancaq təəssüflər olsun ki, bəzi qəzetlər, ayrı-ayrı şəxslərə mənsub olan qəzetlər, yaxud müstəqil qəzetlər, müxtəlif partiyalara mənsub olan qəzetlər Azərbaycanın Konstitusiyasının, Azərbaycanın qanunlarının mətbuat azadlığı, söz azadlığı haqqında yaratdığı şəraitdən sui-istifadə edirlər. Biz qəzetlərdə cox tez-tez ayrı-ayrı insanların təhqir olunması, onların haqqında böhtanlar, yalanlar yazılmasının şahidiyik. Mənim özümü də, Azərbaycan Prezidentini də bəzi hallarda təhqir edirlər, mənə böhtanlar atırlar. Mənim haqqımda müxtəlif uydurmalar yayırlar. Ancaq mən bunlara dözürəm. Dözürəm ona görə yox ki, mən bunlara qarşı qanun çərçivəsində tədbir görə bilmərəm. Ona görə ki, mən belə yazıların müəlliflərinin hərəkətlərini Azərbaycanın mənəviyyatına, Azərbaycanın dövlətçiliyinə zidd hərəkətlər kimi qəbul edirəm.





Azərbaycan Prezidenti Azərbaycan dövlətinin simvoludur. Azərbaycanın dini rəhbəri bizim müsəlman dinimizi nəinki Azərbaycanda, bütün Qafqazda təmsil edən ən yüksək vəzifəli şəxsdir. Əgər Azərbaycanın dini rəhbəri bütün Qafqaz müsəlmanlarının Şeyxülislamı adını alıbsa, demək, bu bizim üçün böyük iftixar hissidir. Məlumdur ki, cənab Allahşükür Paşazadə tutduğu bu vəzifədə 20 ildən artıqdır xalqa sədaqətlə xidmət edir, Azərbaycanın xarici siyasətində özünəməxsus imkanlardan istifadə edərək iştirak edir və Azərbaycanın dövlətçiliyinə xidmət edir. Onun haqqında bu cür əxlaqsız, mənəviyyatsız sözlərin yazılması bunun müəlliflərinin və o qəzetin nə qədər düşgün vəziyyətdə olduğunu nümayiş etdirir.

Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, yaxud onları qəsdən təhrif edirsə, əgər vəziyyət o dərəcəyə çatırsa ki, hətta Azərbaycanın dini rəhbəri təhqir olunur, onda, təbiidir ki, bu bizi narahat etməlidir. Mən bunu nə üçün deyirəm? Çünki bu, indi Şeyxülislama yönəldilmiş bir təhqirdir. Amma ümumiyyətlə, təhqir, yalan, böhtan bizim bir çox mətbuat orqanlarında adi hala çevrilibdir. Nə məqsəd daşıyırlar? Ölkədə, insanlarda müxtəlif fikir formalaşdırmaq. Buna nail ola bilməyəcəklər!

Azərbaycan artıq bu il öz müstəqilliyinin onuncu ilini qeyd edəcəkdir. Son 8 ildə Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik, xalqın rifah halının günü-gündən yaxşılaşması, iqtisadiyyatın inkişaf etməsi, şəhərlərimizin, kəndlərimizin, yaşayış yerlərimizin abadlaşması və inkişaf etməsi tam təsdiq edir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır və yaşayacaqdır. Hər bir vətəndaşın borcu bu istiqamətdə xalqına xidmət etməkdən ibarət olmalıdır.

Ancaq bəziləri, təəssüflər olsun – indi mən belə fikrə gəlməyə məcburam – nə xalq, nə millət, nə də mənəviyyat haqqında düşünürlər. Yəqin ki, onlar bu yollarla hansısa qazanc əldə etmək məqsədi daşıyırlar. Belə qazanılan vəsait də, təbii ki, halal olmaz, bizim millətin gözəl sözü var – haram olar. Yaxud da, sadəcə, ya özləri, onların arxasında duran qüvvələr, ya da xaricdən hansısa qüvvələr Azərbaycanda təxribat etmək və Azərbaycanda millətimizin milli-mənəvi dəyərlərini ləkələməyə çalışırlar.

Ona görə də mən bu hadisəyə kəskin etirazımı bildirirəm, hiddətlənmişəm və cəmiyyətimizdə bu məsələ ilə əlaqədar yaranmış hiddətə tam təbii qiymət verirəm. Düşünürəm ki, bu barədə qanun çərçivəsində ölçülər götürülməlidir.

Mən Şeyxülislam Hacı Allahşükür Paşazadə ilə telefonla danışmışam. O mənə bildirib ki, məhkəməyə veribdir. Güman edirəm ki, məhkəmə də ədalətli qərar çıxaracaqdır.

Bu fürsətdən istifadə edərək, bir-iki məsələyə də toxunmaq istəyirəm. O da ondan ibarətdir ki, biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik.

Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhvali-ruhiyyədə tərbiyələndirməliyik. Amma bunun əvəzinə, bizim cəmiyyətimizdə bəzi qüvvələr buraxdıqları ayrı-ayrı qəzetlərlə, jurnallarla xalqımızın içərisində, xüsusən gənclərin içərisində pozuculuq işləri ilə məşğuldurlar.





Yəqin ki, ictimaiyyətə məlumdur. Bir neçə belə qəzetlər, bir neçə belə jurnallar harada çıxır, kim çıxarır, nə məqsəd daşıyır. Nə məqsəd daşımağı məlumdur. Amma başqa şeylər, mən bu gün soruşurdum, bizim dövlət orqanlarına məlum deyildir. Bu, bir tərəfdən, bizim Azərbaycanda azadlığın nə qədər yüksək dərəcədə olduğunu göstərir, eyni zamanda, onu göstərir ki, ölkəmizin ictimaiyyətinin müxtəlif təbəqələrinə mənsub olan şəxslər, bəzi adamlar verilmiş bu azadlıqdan öz şəxsi mənafeləri, şəxsi məqsədləri üçün sui-istifadə edirlər. Ya anlamırlar, ya da anlayaraq bizim xalqımızın mənəviyyatını, əxlaqını və xüsusən gənclərin əxlaqını pozmağa cəhd göstərirlər. Vaxtilə, bir neçə il bundan öncə mən bu barədə fikrimi bildirmişdim.

Bakıda fəaliyyət göstərən bəzi gecə klublarında səhərə qədər müxtəlif oyunlar, əyləncələr təşkil edilir və çox vaxt da bu əyləncələr ifrat dərəcəyə gəlib çatır. Bütün Azərbaycan xalqının əxlaqına, mənəviyyatına zidd forma alır və beləliklə də, bizim gənclərimizin bir hissəsinin əxlaqı pozulur. Bu, dəhşətli bir şeydir.

Ölkəmizin dərdi var, bu, ümumi dərddir. O da Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi və xüsusən bu torpaqlardan didərgin düşmüş, çadırlarda yaşayan insanların öz yerlərinə-yurdlarına qaytarılması dərdidir. Hələ ki, bunun mümkün olmadığı halda onların o çadırlarda minimum yaşayışını təmin etmək – bunlar bizim ümumi dərdimizdir. Amma bir qütbdə həddindən artıq zənginləşmiş, bəzi hallarda qanunsuz zənginləşmiş, öz vəzifələrindən sui-istifadə edərək zənginləşmiş, harınlaşmış insanlar və onların övladları eyş-işrət içərisindədir, o biri tərəfdən, çadırlarda yaşayan insanlar inildəyirlər, nə qədər əziyyətlər çəkirlər.

Hər bir vətənpərvər insan düşünməlidir ki, əgər mənim xalqımın bir hissəsi belə ağır vəziyyətdədirsə, mən bu qədər harınlaşmamalıyam. Amma harınlayanlar, bəzi zənginləşmiş adamlar var.

Biz insanların bəzilərinin bizneslə məşğul olaraq zənginləşməsinin əleyhinə deyilik. Ancaq bizə o da məlumdur ki, Avropanın, Amerikanın ən zəngin insanları birinci növbədə mənəviyyatı qo-

ruyurlar. Onlar nə qədər zəngin olsalar da, milyardlarla dolların, böyük işlərin sahibi olsalar da heç vaxt mənəviyyatsız yola getməzlər. İnsanlar varlandıqdan, zənginləşdikdən sonra, xalqına, dövlətinə daha yaxşı xidmət etmək barədə düşünməli, daha çox iş görməlidir. Əldə etdiyi vəsaitlə yeni işlər görüb Azərbaycanın iqtisadiyyatını inkişaf etdirməlidir. Amma təəssüf ki, bəziləri özləri də, övladları da əxlaqsızlığa, mənəviyyatsızlığa yol verirlər. Bəziləri bizim gənc qızlarımızı yoldan çıxarırlar, onları əxlaqsızlığa sövq edirlər. Bunların hamısı bizim yeni bəlalarımızdır. Bu bəlalarla mübarizə aparmaq lazımdır.

Mən bu gün şəhər icra hakimiyyətinin başçısı Abutalıbova və daxili işlər naziri Usubova bu barədə lazımi göstərişlər vermişəm. Lazım olan ölçülər götürülməli və bütün bunların hamısına son qoyulmalıdır. Bizim məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir.

Ayrı-ayrı jurnallarda, qəzetlərdə pornoqrafiya səviyyəsində fotoşəkillər nümayiş etdirənlər nə düşünürlər? İndi ən inkişaf etmiş Avropa ölkələrində, Amerikada, başqa ölkələrdə belə şeylər yoxdur. Vaxtilə, nə vaxtsa olubdur. Amma indi belə şeylər yoxdur. Orada mənəviyyat çox yüksək səviyyədədir. Amma biz, bu barədə tamamilə başqa mentalitetə malik olan xalqımız indi bir neçə il içərisində bəzi adamların pozğun hərəkətlərinə məruz qalmışıq. Biz buna dözə bilmərik. Biz bunların hamısının qarşısını alacağıq. Ona görə də mən bu fikirlərimi cəmiyyətə bildirmək üçün bu gün televiziya və radio qarşısında çıxış edirəm. Güman edirəm ki, cəmiyyət mənim bu fikirlərimin tərəfdarı olacaqdır və hərə öz yerində bu cür mənəviyyatsız hərəkətlərin qarşısını almağa çalışmalıdır.

Bizim millətimizdə, xalqımızda, azərbaycanlılarda namus, qeyrət həmişə ən yüksək keyfiyyət hesab olunubdur. Amma namusunu, qeyrətini, şərəfini alçaldan insanlar özləri-özlərini bu uçuruma salırlarsa, artıq başqalarının da mənəviyyatını pozurlar. Biz bunlara dözə bilmərik və xalqımız da dözməməlidir. Təəssüflər olsun ki, bizim cəmiyyətimizdə çoxları bunu görür,





amma buna münasibətini bildirmir. Yaxud da ki, üzünü o tərəfə döndərir: "Mənə nə dəxli var". Bu desə ki, "mənə nə dəxli var", o desə ki, "mənə nə dəxli var", o birisi desə ki, "mənə nə dəxli var", onda bizim millətimiz ayrı-ayrı təxribatçıların əli ilə get-gedə, əlbəttə ki, çox böyük çətinliklərlə rastlaşacaqdır.

Azərbaycanın Prezidenti kimi, mən bu barədə qəti fikrimi bildirirəm. Bir də bəyan edirəm ki, biz Azərbaycanda demokratiyanın bütün tələblərini tətbiq etmişik və edəcəyik. Ancaq Azərbaycanın milli-mənəvi dəyərlərinə qarşı, Azərbaycanın milli mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin hamısının qarşısı alınacaqdır və qanun çərçivəsində lazımi ölçülər götürüləcəkdir. Bu sözləri deyərək mən bir daha Azərbaycan xalqına, Azərbaycanın vətəndaşlarına müraciət edirəm ki, hər bir insan vətəndaşlıq borcunu ən yüksək borc hesab etsin.

Hər bir insan özü öz mənəviyyatını qorusun. Əgər görəndə ki, haradasa mənəviyyat pozulur, onun qarşısını alsın. Onun axarında getməsin. Pornoqrafiya halına düşmüş bəzi qəzetlər, jurnallar burada nəşr olunur və ayrı-ayrı adamlar tərəfindən alınır. Amma əgər onu nəşr edənlər bilsələr ki, bunlar alınmır, onlar nəşr etməzlər. Çünki onlar zərərə düşəcəklər, pul itirəcəklər və onda da belə şeylər olmazdı. Ona görə də mən həmin o şəxslərə də müraciət edirəm ki, düşünsünlər: onlar Azərbaycan xalqına məxsusdurlar. Azərbaycan xalqının milli-mənəvi dəyərləri onları bugünkü günə gətirib çıxarıbdır. Bunlara xəyanət etmək olmaz. Bu sözləri deyərək mən xalqımıza müraciət edirəm, Azərbaycan xalqını çağırıram ki, bizi narahat edən bu nalayiq və cəmiyyətimiz üçün təhlükəli olan halların qarşısının alınması üçün hərə öz səyini göstərsin. Sağ olun.

## AZƏRBAYCAN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi təqvimi ilə yeni il – Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, respublikamızın bütün yəhudi vətəndaşlarına ən səmimi arzu və diləklərimi yetirirəm. Azərbaycan yəhudiləri, respublikamızın digər milli və dini azlıqları kimi, öz bayram və mərasimlərini azad və sərbəst şəkildə, böyük təntənə ilə qeyd edirlər. Bu, Azərbaycanda tarixən formalaşmış tolerantlığın, xoşməramlı milli-dini münasibətlərin, mehriban dostluq və qardaşlıq mühitinin göstəricisidir. Müstəqil Azərbaycan Respublikasında yaşayan milli azlıqlara öz tarixi köklərini, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün beynəlxalq normalara uyğun demokratik hüquqi-siyasi şərait bərqərar edilmişdir. Bu gün hər bir Azərbaycan vətəndaşı milli mənsubiyyətindən, dini etiqadından asılı olmayaraq, milli dövlətçiliyimizin və demokratiyanın bu əvəzsiz bəhrələrindən yararlanmaqdadır.

Əsrlərdən bəri ölkəmizdə məskunlaşıb yaşayan yəhudilər Azərbaycanda heç zaman təqiblərə, ayrı-seçkiliyə məruz qalmamış, milli-mədəni adət və ənənələrini qoruyub saxlamışlar. Hazırda yəhudi vətəndaşlarımız respublikamızın elmi-mədəni, ictimai-siyasi həyatında yaxından iştirak edir, müstəqil dövlət quruculuğu prosesində vətəndaşlıq borclarını sədaqətlə yerinə yetirirlər.

Əziz həmvətənlər!

Roş-Ha-Şana xoş diləklər, mənəvi saflıq bayramıdır. Qoy bu bayram hər birinizin həyatına xoşbəxtlik və sevinc gətirsin, həmvətənlərimizin dostluq və həmrəyliyinin təntənəsinə çevrilsin.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 15 sentyabr 2001-ci il*





## VATİKAN DÖVLƏTİNİN BAŞÇISI PAPA II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ

Möhtərəm Papa həzrətləri!

Vatikan dövlətinin milli bayramı – Müqəddəs taxta əyləşmə günü münasibətilə Sizi və bütün katolikləri ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Vatikan dövləti arasında təşəkkül tapmaqda olan dostluq münasibətləri daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə uzun ömür, möhkəm cansağlığı, humanizm idealları naminə fədakar fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətlə,

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 16 oktyabr 2001-ci il*

# RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz bacı və qardaşlar!

Sizi dünya müsəlmanlarının əziz bayramı – Ramazan bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

İslamın Allah-Təala tərəfindən bəşəriyyət üçün din olaraq seçildiyi və onun müqəddəs kitabı Qurani-Kərimin nazil edildiyi Ramazan ayı dünya xalqlarının mənəviyyatı tarixinə böyük təsir göstərmiş mübarək aylardan biridir. Sülhün, əmin-amanlığın, qardaşlığın bərqərar edilməsinə dəvət edən İslam dininin həmin müqəddəs ayında müsəlmanlar bu humanist prinsiplərin təntənəsi naminə hər cür sınaqlara, məhrumiyyətlərə sinə gərmək qabiliyyətlərini nümayiş etdirirlər. Qəlblərindəki imanın gücü ilə ağır sınaqlardan ləyaqətlə çıxmış bacı və qardaşlarımızın fərəh və qürur hissini bir-biri ilə bölüşdürmək üçün böyük bayram büsatı qurmağa tam haqları vardır.

Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsi ilə xalqımız öz zəngin milli və dini dəyərlərindən lazımınca faydalanmaq imkanını əldə etmişdir. Artıq on ildir ki, Azərbaycan xalqı Ramazan ayının mübarək günlərində öz dini ayinlərini azad və sərbəst şəkildə keçirir, bu müqəddəs bayramı təntənə ilə qeyd edir. Ramazan ayının sınaq günlərində öz borcunu yerinə yetirmiş müsəlmanlarımız bu gün şadlıq edir, bir-birlərinə ehtiram və məhəbbət bildirərək sıx həmrəylik nümayiş etdirir, həyatdan getmiş yaxınlarını yad edirlər.

Bu müqəddəs gündə Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarına rəhmət, şəhidlərimizin ailələrinə və yaxınlarına səbir diləyirəm.

Azərbaycan Respublikasından kənarda yaşayan bütün soydaşlarımıza təbriklərimi və ən xoş arzularımı yetirirəm. Doğma Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün tam bərpa edilməsi, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması naminə hamınızı sıx əməkdaşlığa və həmrəyliyə çağırıram.





Yeni minilliyin və yeni əsrin bu ilk Ramazan bayramı münasibətilə ulu Tanrıdan sizə cansağlığı, xoş əhval-ruhiyyə, ölkəmizin tərəqqisi yolunda fəaliyyətinizdə böyük uğurlar arzulayıram!

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 15 dekabr 2001-ci il*

# MÜQƏDDƏS RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN DÖVLƏTLƏRİNİN – İRAN, TÜRKİYƏ, SƏUDİYYƏ ƏRƏBİSTANI, PAKİSTAN, LİVİYA, MİSİR, İRAQ VƏ ÖZBƏKİSTANIN BAKIDAKI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı, 17 dekabr 2001-ci il*



**Heydər Əliyev:** Hörmətli səfirlər!

Mən sizin hamınızı və sizin vasitənizlə təmsil etdiyiniz ölkələrin xalqlarını, dövlətlərini müsəlmanların müqəddəs bayramlarından biri olan Ramazan bayramı münasibətilə təbrik edirəm və sizin hamınıza, xalqlarınıza, millətlərinizə sülh, əmin-amanlıq və rifah arzulayıram.

Müsəlmanlar bu bayramı böyük ruh yüksəkliyi ilə qeyd edirlər. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən, öz milli adət-ənənələrini, milli dəyərlərini, dini dəyərlərini bərpa edəndən







sonra azərbaycanlılar bütün müsəlmanlara xas olan bayramları, o cümlədən Ramazan bayramını geniş qeyd edirlər. Siz burada bunu görürsünüz. Hesab edirəm ki, bu da bizim dövlət müstəqilliyimiz nəticəsində əldə etdiyimiz nailiyyətlərdən biridir.

Mən sizin ölkələrin dövlət başçılarına təbrik məktubları göndərmişəm. Eyni zamanda, bu gün sizinlə bilavasitə görüşüb həm sizi təbrik etmək, həm də sizin vasitənizlə bir daha sizin ölkələrinizi, xalqlarınızı, dövlətlərinizi təbrik etmək istəyirəm. Hesab edirəm ki, belə bayramlar gərək müsəlman dininə itaət edən xalqların inkişafına, tərəqqisinə yardım etsin və xalqların bir-birinə daha da dost olmasına, mehriban əlaqələr saxlamasına yardım etsin, ümumi birliyimizə yardım etsin.

Mən sizə bir daha cansağlığı, səadət arzu edirəm. Bayramınız mübarək olsun! Orucunuz qəbul olunsun.

**Naser Məhəmməd Abdu Sami:** Mərhəmətli, rəhimli Allahın adı ilə!

Zati-aliləri cənab Prezident Heydər Əliyev!

Mən bu mübarək bayram münasibətilə öz adımdan və həmkarlarım – müsəlman ölkələrinin Azərbaycan Respublikasında akkreditə olunmuş səfirləri adından Sizi salamlamaqdan və təbrik etməkdən məmnunluq duyuram. İslam dininin ən gözəl

təbrik və salamını, yəni "Sülh, Allahın xeyri və bərəkəti olsun!" sözlərini deyirəm.

Mən bu münasibətlə burada şəxsən Sizdən eşitdiyim bəzi sözləri xatırlayıram. Siz o zaman bizimlə olan söhbətdə Azərbaycan xalqının İslam dininə mənsub olması haqqında danışdınız. Uzun illər müxtəlif cəhdlərdən, mənsub olduğu dinindən təcrid etmək cəhdlərindən sonra Azərbaycan xalqının yenidən öz milli-dini dəyərlərinə qayıtması və öz dini mənsubiyyətini bərpa etməsi onun böyük qələbəsidir, böyük qətiyyətidir. Biz indiki gündə Azərbaycan xalqının öz dininə, dini dəyərlərinə bağlılığını, sədaqətini müşahidə edirik.

Burada iştirak edən bütün həmkarlarım bu gün Sizin rəhbərliyiniz altında qurulan yeni Azərbaycan haqqında danışırlar. Burada olanların hamısının müşahidə etdiyi əsas bir səciyyəvi cəhət var ki, bunu həm qonşu dövlətlər, həm də başqa dövlətlər müşahidə edirlər. O da burada hökm sürən, burada tam əmin-amanlıq, sabitlik şəraitinin hökm sürməsidir. O əmin-amanlıq ki, az-az ölkələrdə müşahidə olunur. Bütün bunlar isə Sizin müdrik rəhbərliyiniz altında və xalqınızın bu ideallara bağlılığı şəraitində mümkün olmuşdur. Biz bunların hamısını, yəni ölkədəki bu əmin-amanlığı, sabitliyi hər gün, hər yerdə müşahidə edirik, görürük.

Biz Sizə möhkəm cansağlığı, uzun ömür arzulayırıq. Arzu edirik ki, Siz, Azərbaycan xalqı işğal edilmiş Qarabağ torpağının qarış-qarış hamısının azad olunmasını tez bir vaxtda görəsiniz. Digər beynəlxalq təşkilatlar kimi, İslam Konfransı Təşkilatı da Birləşmiş Millətlər Təşkilatının Azərbaycanla bağlı, Azərbaycanın öz torpaqlarını azad etməsi ilə bağlı bütün qərarlarını tamamilə dəstəkləyir və Azərbaycanın öz torpaqlarını tam azad etməsini arzulayır.

Eyni zamanda, mən həmkarlarım adından arzu edirəm ki, belə görüşlər gələcəkdə də təkrar olunsun və onlar da, biz də iştirak edərək Sizi tam sağlam vəziyyətdə görək və Azərbaycanın öz amallarını həyata keçirməsinin şahidi olaq.





Zati-aliləri cənab Prezident, bu bayram münasibətilə Sizə bir daha təbriklərimizi yetiririk. Bayramınız mübarək olsun! Üzərinizə Allahın salamı, xeyir və bərəkəti olsun!

**Heydər Əliyev:** Cənab səfir, sizə təşəkkür edirəm.

Bu bayram münasibətilə Azərbaycan haqqında, Azərbaycanın bugünkü vəziyyəti haqqında öz həmkarlarınız adından, öz adınızdan dediyiniz xoş sözlərə görə məmnunam.

Mən çox məmnunam ki, siz öz ölkələrinizi Azərbaycanda təmsil edərək, burada sülh, əmin-amanlıq və ictimai-siyasi sabitlik şəraitində yaşayan bir ölkəni görürsünüz. Mən sülh deyəndə, bizim ölkəmizdə xalqın arasındakı sülhü nəzərdə tuturam. Ancaq təəssüflər olsun ki, Ermənistan-Azərbaycan münaqişəsində hələ tam sülh əldə olunmayıbdır. Biz, sadəcə, müharibəni dayandırmışıq. 1994-cü ildən atəşkəs rejimi hökm sürür. Bu vasitə ilə biz, bir tərəfdən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına çalışırıq, ikinci tərəfdən ölkəmizin sosial-iqtisadi inkişafını təmin edirik.

Mən sizin dediyiniz sözləri məmnuniyyətlə qəbul edirəm ki, İslam Konfransı Təşkilatı hər dəfə dövlət başçılarının toplantılarında, xarici işlər nazirlərinin toplantılarında və başqa toplantılarda Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması haqqında qətnamələr qəbul edir və Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar hər dəfə öz etirazını bildirir, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edir. Mən buna görə də İslam Konfransı Təşkilatına və ona daxil olan dövlətlərin hamısına bir daha təşəkkürümü bildirirəm.

Mən sizi bir daha əmin edirəm ki, biz Azərbaycanda bundan sonra da ictimai-siyasi sabitliyi təmin edəcəyik və siz gələcəkdə də Azərbaycanda indi gördüyünüz sabitlik, əmin-amanlıq şəraitində məhsuldar işləyəcəksiniz. Burada Azərbaycan ilə öz ölkələriniz arasında əlaqələrin inkişaf etdirilməsində xidmətlərinizə görə mən sizə səmimi-qəlbdən təşəkkür edirəm.

Sizi Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm.

## "İSLAM VƏ MÜASİR DÖVRÜN AKTUAL PROBLEMLƏRİ" BEYNƏLXALQ ELMİ KONFRANSINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – paytaxtımız Bakı şəhərində təşkil olunmuş Beynəlxalq Konfransın iştirakçılarını Azərbaycan torpağında səmimi-qəlbdən salamlayıram.

Konfrans son vaxtlarda baş qaldırmış terror, təcavüzkarlıq, zorakılıq kimi mənfi təzahürlərə qarşı mübarizədə İslam dininin tutduğu yeri və mövqeyi obyektiv şəkildə araşdırıb aydınlaşdırmaq, bəzi qüvvələrin öz qərəzli siyasi məqsədlərini həyata keçirmək üçün dindən bir vasitə kimi istifadə etmək cəhdlərinin əsl mahiyyətini açıb göstərmək məsələlərinə həsr olunmuşdur. Həmişə sülh, əmin-amanlıq, qardaşlıq kimi humanist prinsiplərin carçısı olmuş İslam dini ona etiqad edən insanlarda yüksək mənəvi keyfiyyətlərin formalaşmasına xüsusi diqqət yetirmişdir. Bu baxımdan tam qətiyyətlə demək olar ki, öz cinayətkar əməllərini dini şüarlarla pərdələməyə çalışan bəzi terrorçu qrupların, ayrı-ayrı adamların fəaliyyətinin İslam dini ilə heç bir əlaqəsi yoxdur, onların əməlləri dinimizin humanist prinsiplərinə tamamilə ziddir.

Bu forumun ölkəmizin paytaxtı Bakı şəhərində keçirilməsini Azərbaycanın artmaqda olan beynəlxalq nüfuzuna verilən yüksək qiymətin ifadəsi kimi qəbul edirik. Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycanda müxtəlif dinlərə, ayrı-ayrı mədəniyyətlərə mənsub olan insanlar əsrlər boyu dinc, mehriban şəraitdə yaşayıb yaratmışdır. Ölkəmiz dini və ya milli zəmində hansı bir problemlə isə heç vaxt üzləşməmişdir. Uzun illərdir ki, qonşu Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzündən və terrorçuluq əməllərindən əziyyət çəkən Azərbaycan xalqı terrorizmin bəşəriyyət üçün necə təhlükəli olduğunu yaxşı dərk





edir, onunla mübarizə aparılması zərurətini mühüm vəzifələrdən hesab edir və bu yolda dünyanın digər xalqları ilə hər cür əməkdaşlığa hazır olduğunu bəyan edir.

Ümidvaram ki, forumunuz dini-mənəvi dəyərlərə münasibətdə obyektiv, dəqiq və aydın bir mövqe işləyib hazırlayaraq dünyada sülhün və təhlükəsizliyin bərqərar edilməsi işinə öz töhfəsini verəcəkdir.

Konfransınızın işinə uğurlar arzulayıram, hər birinizə möhkəm cansağlığı və xoşbəxtlik diləyirəm.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 19 dekabr 2001-ci il*

## AZƏRBAYCANIN PRAVOSLAV İCMASINA

Əziz həmvətənlər!

Sizi – ölkəmizin bütün pravoslav xristianlarını İsa peyğəmbərin mübarək mövludu günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Avropa ilə Asiyanın qovuşuğunda, Böyük İpək Yolunun üzərində xüsusi coğrafi-siyasi məkanda yerləşən Azərbaycan dünyanın bütün səmavi dinlərinin yüksək mənəvi dəyərlərini özündə əks etdirən zəngin mədəni irsə malikdir. Məhz buna görə də dinlər və mədəniyyətlər arasında dialoqa səsləyən çağırışlar dini və etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir azərbaycanlı tərəfindən tam dəstəklənir və Azərbaycan bu nəcib işin gerçəkləşməsi naminə əlindən gələni etməyə hazır olduğunu bütün münasibətlərdə bəyan edir, əməli işində nümayiş etdirir. Müxtəlif konfessiyalar arasında dostluq və əməkdaşlıq ab-havasının həmişə hökm sürdüyü ölkəmizdə dini dözümlülük və tolerantlıq artıq xalqımızın mənəvi mənliyini səciyyələndirən tarixi ənənəyə, bir həyat tərzinə çevrilmişdir.

XX əsrin sonlarında öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasının bütün vətəndaşları ölkə Konstitusiyasının onlara verdiyi bərabər hüquqlardan bəhrələnərək dini bayram və mərasimlərini sərbəst şəkildə qeyd edir, ölkəmizdə gedən hüquqi, demokratik dövlət quruculuğu prosesində yaxından iştirak edirlər. Cəmiyyətimizin ayrılmaz hissəsi olan xristian icmasının nümayəndələri də Vətənə olan övladlıq borclarını tam məsuliyyətlə dərk edərək, müstəqil Azərbaycanın tərəqqisi və inkişafı, vətəndaş cəmiyyətinin bərqərar edilməsi naminə aparılan böyük işlərin həyata keçirilməsi üçün var qüvvələrini sərf edirlər.

İsa peyğəmbərin mövludu günündə hər birinizə cansağlığı və xoşbəxtlik, ailələrinizə əmin-amanlıq və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 5 yanvar 2002-ci il*





## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz bacı və qardaşlar!

Sizi dünya müsəlmanlarının mübarək Qurban bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Bəşər tarixinin ən parlaq səhifələrindən birini təşkil edən bu gün İslamın bir din kimi tamamlanması və insanlara mükəmməl həyat məramnaməsi olaraq təqdim edilməsi ilə əlamətdardır. İslam aləmi xalqlarının neçə-neçə nəsli bu ilahi hikmətin işığında yaşayıb-yaratmış, onun yüksək mənəvi dəyərlərindən faydalanaraq dünya sivilizasiyasına layiqli töhfələr vermişdir. Bütün müsəlmanların böyük təntənə ilə qeyd etdikləri Qurban bayramı həm də insanın ən çətin məqamlarda düzgün mövqe seçmək, ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini təcəssüm etdirir.

İslamın humanizm, bərabərlik və qardaşlıq prinsiplərinə sədaqətini həmişə nümayiş etdirmiş Azərbaycan xalqı əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə Qurban bayramını özünün əziz günlərindən biri kimi qeyd etmişdir. Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə bu mübarək günün müsəlmanlarımız tərəfindən layiqincə bayram edilməsi üçün də əlverişli şərait yaranmışdır. Bu gün müsəlmanlarımız öz müqəddəs borc və vəzifələrini yerinə yetirməkdən doğan sevinci sərbəst şəkildə bölüşür, yaxınlarını yad edir, əzizlərinin ruhlarına dualar oxuyurlar.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçərək şəhid olmuş övladlarımıza bu bayram günlərində Allahdan rəhmət diləyir, onların yaxınlarına və bütün xalqımıza səbir arzulayıram. İnanıram ki, erməni təcavüzü nəticəsində işğal olunmuş torpaqlarımızın azad edilməsi, didərgin düşmüş soydaşlarımızın öz doğma yurdlarına qayıtması, ölkəmizdə sülhün və əmin-amanlığın tam bərqərar edilməsi, xalqlarımızın

layiq olduğu firavan həyata qovuşması üçün Qurban bayramı günlərində edilən ən ümdə arzu və diləklərimiz gerçəkləşəcəkdir. Qoy bu mübarək bayram müstəqil Azərbaycan Respublikasının tərəqqisi naminə xalqımızın qəhrəmanlıq və fədakarlıq qüdrətini daha da artırsın, cəmiyyətdə milli həmrəyliyin möhkəmləndirilməsi işinə öz töhfəsini versin!

Bu əziz bayram günündə hər birinizə möhkəm cansağlığı, ailə səadəti və işlərinizdə uğurlar diləyirəm.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*21 fevral 2002-ci il*





## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Hər il bütün mütərəqqi bəşəriyyət tərəfindən yəhudi xalqının müsibəti və qəhrəmanlıq günü qeyd olunur, faşizmin yəhudilərə qarşı həyata keçirdiyi soyqırımı siyasətinin günahsız qurbanlarının xatirəsi ürək ağrısı ilə yad edilir.

İkinci Dünya müharibəsi zamanı altı milyon mülki əhali yəhudi xalqına mənsub olduğu üçün dəhşətli ayrı-seçkilik siyasətinə məruz qalmış, qəddarlıqla kütləvi surətdə məhv edilmişdir.

1943-cü ilin aprelində Varşava gettosu məhbuslarının faşizmə, milli-dini ayrı-seçkiliyə qarşı ölüm-dirim mübarizəsinə qalxması yəhudilərin öz milli və insani ləyaqəti uğrunda tarixi etiraz aksiyası idi.

Faşizmin bu qanlı cinayətinə zamanında hüquqi-siyasi qiymət verilsə də, faciənin dəhşətləri hələ də tarixin yaddaşında qara ləkə kimi yaşamaqdadır. Təəssüf ki, bütövlükdə bəşər sivilizasiyasını hədəf götürmüş belə anti insani aksiyalar bu gün də təkrar olunur. Son on dörd ildə Ermənistanın Azərbaycana hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən deportasiya və soyqırımı siyasəti, misli görünməmiş Xocalı müsibəti XX əsrdə dünyanın ən böyük milli fəlakətlərindəndir.

Bütün bunlar yalnız bir xalqın milli faciəsi hesab edilə bilməz. Bu, bütövlükdə insanlığa qarşı cinayət kimi qiymətləndirilməli, bəşəriyyət faşizmin, nasizmin hər cür təzahüründən birdəfəlik xilas edilməlidir. Azərbaycan Respublikası dünyamızın əmin-amanlığı uğrunda bütün mütərəqqi qüvvələrlə əməkdaşlığa hazırdır və bu yolda əlindən gələni əsirgəməyəcəkdir.

Əziz həmvətənlər!

Azərbaycanda dilindən, dinindən asılı olmayaraq bütün xalqlar tarixən mehriban ailə kimi yaşamış, bir-birinin dərdinə,

sevincinə ortaq olmuşlar. Yəhudi xalqının müsibəti günündə Azərbaycan xalqı adından kədərinizə şərik olduğumu bildirir, irticanın günahsız qurbanlarına Allahdan rəhmət diləyirəm.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 8 aprel 2002-ci il*





## VATİKAN DÖVLƏTİNİN AZƏRBAYCANDA APOSTOL NUNSİSİ KLAUDİO QUCEROTTİNİN ETİMADNAMƏSİNİN TƏQDİM OLUNMASI MƏRASİMİ

*Prezident sarayı, 12 aprel 2002-ci il*



Öz etimadnaməsini Heydər Əliyevə təqdim etməkdən şərəf duyduğunu bildirən Klaudio Qucerotti dedi ki, Müqəddəs Ata Azərbaycana qarşıdakı səfərini həyata keçirməyi ürəkdən arzulayır və bu səfərə çox həvəslə hazırlaşır, Sizin gözəl xalqınızın və ölkənizin tarixini öyrənir. Vatikan dövlətinin başçısı II İohann Pavelin Azərbaycan xalqına sülh və əmin-amanlıq arzuladığını söyləyən cənab Klaudio Qucerotti bu səfərin baş tutması üçün göstərdiyi köməyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Apostol nunsi hələ tələbəlik illərində, institutun Şərq elmləri fakültəsində oxuyarkən Azərbaycanın dahi şairi Nizami Gəncəvinin əsərlərini tərcümə etdiyini bildirərək dedi ki, güman etməzdim ki, mən nə vaxtsa Azərbaycanı görəcəyəm. Cənab Klaudio Qucerotti Prezident Heydər Əliyevi əmin etdi ki, Vatikan dövləti ilə Azərbaycan arasında münasibətlərin və qarşılıqlı anlaşmanın inkişaf etdirilməsi üçün çalışacaqdır.

Prezident Heydər Əliyev cənab Qucerottini Vatikan dövlətinin Azərbaycanda səfiri təyin olunması münasibətilə təbrik etdi və gələcək işlərində ona uğurlar arzuladı. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, səfirin Azərbaycanda fəaliyyəti müqəddəs taxt-tac ilə ölkəmiz arasında əlaqələrin inkişafını təmin edəcəkdir.

Müqəddəs Atanın Azərbaycana səfərinin ölkəmizdə səbirsizliklə gözlənildiyini vurğulayan dövlətimizin başçısı Heydər Əliyev bildirdi ki, bu, xalqımız və dövlətimiz üçün tarixi bir hadisə olacaqdır. Müqəddəs Atanın Azərbaycana qarşıdakı səfərə hazırlaşmasından, ölkəmiz haqqında əlavə məlumat toplamasından məmnun qaldığını bildirən prezident Heydər Əliyev dedi ki, bu səfər Vatikan dövlətinin başçısına respublikamızla tanış olmaq imkanı verəcəkdir. Bu da ölkələrimiz arasında əlaqələrin inkişafına kömək edəcəkdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev apostol nunsi Klaudio Qucerotti ilə xatirə şəkli çəkdirdi.

Sonra dövlətimizin başçısı ilə apostol nunsi arasında səmimi söhbət oldu.

Apostol nunsi bildirdi ki, o, ilk dəfə 1976-cı ildə Azərbaycanda qısamüddətli səfərdə olmuşdur.

Prezident Heydər Əliyev dedi ki, o vaxt Azərbaycan müstəqil dövlət deyildi. Azərbaycanın artıq on ildir müstəqil dövlət olduğunu, 1994-cü ildə Vatikanla diplomatik əlaqələr qurduğunu və bunu inkişaf etdirdiyini bildirən dövlətimizin başçısı 1998-ci ildə





İtaliyaya rəsmi səfəri zamanı müqəddəs taxt-tacı ziyarət etdiyini, Müqəddəs Ata ilə görüşdüyünü, səmimi söhbət etdiyini və onu Azərbaycana dəvət etdiyini xatırlatdı. Azərbaycan Prezidenti bu dəvətin qəbul edilməsindən məmnun olduğunu vurğuladı.

Azərbaycan Prezidentinin Vatikana səfərini Müqəddəs Atanın yaxşı xatırladığını bildirən apostol nunsi dedi ki, o, Azərbaycana səfər etmək və Sizinlə yenidən görüşmək arzusundadır.

Cənab Klaudio Qucerotti vurğuladı ki, Vatikan dövlətinin başçısı bəzi ölkələrdə xristianlar və müsəlmanlar arasında baş verən münaqişələrdə və müharibələrdə heç bir dini əsas görmür. Roma Papası müxtəlif dinlərə mənsub olan insanların sülh şəraitində yaşamasını arzulayır.

Azərbaycanın həm Şərqə, həm də Qərbə açılan qapı olduğunu söyləyən cənab Qucerotti dedi ki, bu ölkə müxtəlif dinlərə mənsub insanların birlikdə sakit yaşamasının rəmzidir.

## ROMA PAPASI II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ

Əlahəzrət!

Ad gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Siz bütün ömrünüz boyu humanizm ideallarına sədaqətlə xidmət edərək, insanlar arasında qarşılıqlı anlaşma, mərhəmət, şəfqət hisslərini, dostluq və əməkdaşlığı tərənnüm edirsiniz.

Sizə möhkəm cansağlığı, uzun ömür, müqəddəs işinizdə uğurlar diləyirəm.

Tezliklə Sizi Bakıda gözləyirəm.

Hörmətlə,

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*18 may 2002-ci il*





## HEYDƏR ƏLİYEVİN DƏVƏTİ İLƏ VATİKAN DÖVLƏTİNİN BAŞÇISI, ROMA PAPASI II İOHANN PAVELİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*22 may 2002-ci il*

Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavel Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin dəvəti ilə ölkəmizə rəsmi səfərə gəlmişdir.

Binə beynəlxalq hava limanı Vatikanın və Azərbaycanın dövlət bayraqları ilə bəzədilmişdi, binanın önündən Roma Papasının iri portreti və "Zati-Müqəddəsləri, Azərbaycana xoş gəlmisiniz" sözləri yazılmış transparant asılmışdı.

Ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ali qonağı qarşılamaq üçün hava limanına gəldi.

Dövlətimizin başçısı Heydər Əliyev Vatikan dövlətinin başçısını təyyarənin pilləkəninin yanında səmimiyyətlə, mehribanlıqla salamladı.

Milli geyimli uşaqlar pontifikə gül-çiçək və sinidə Azərbaycan torpağı təqdim etdilər. Roma Papası dodaqları ilə bu torpağa ehtiramla toxundu.

Prezident Heydər Əliyev və Roma Papası II İohann Pavel uçuş meydanında qoyulmuş xüsusi tribunada əyləşdilər.

Vatikanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Fəxri qarovul dəstəsinin rəisi dövlət başçılarına raport verdi.

## VATİKAN DÖVLƏTİNİN BAŞÇISI, ROMA PAPASI II İOHANN PAVELİN RƏSMİ QARŞILANMA MƏRASİMİNDƏ NİTQ

*22 may 2002-ci il*

Zati-Müqəddəsləri!

Sizi Azərbaycanda salamlamaqdan böyük məmnunluq duyuram. Dəvətimi qəbul edib Azərbaycana gəldiyinizə görə Sizə öz minnətdarlığımı bildirirəm.

Siz ölkəmizə çox əlamətdar bir vaxtda gəlmisiniz.

Bilirəm ki, mayın 18-də doğum gününüzü qeyd etmisiniz. Bu münasibətlə Zati-Müqəddəslərinizi ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı, uzun ömür, dünyada sülh, qarşılıqlı anlaşma sahəsində gördüyünüz böyük işlərdə uğurlar arzulayıram.

Sabah, yəni mayın 23-də müstəqil Azərbaycan Respublikasının Vatikan dövləti tərəfindən rəsmən tanınmasının 10 ili tamam olur. Məhz belə bir gündə Sizin Azərbaycanda olmağınız tarixi hadisədir.

Mən 1997-ci ilin sentyabrında İtaliyaya rəsmi səfərim zamanı Vatikanı ziyarət etməyimi və orada Sizinlə görüşməyimi, ətraflı fikir mübadiləsi aparmağımızı məmnunluqla xatırlayıram. Çox şadam ki, aradan beş il keçəndən sonra Sizi yenidən, bu dəfə Azərbaycanda əziz qonağım kimi qarşılayıram.

Zati-Müqəddəsləri!

Vatikan dövlətinin başçısı və Roma Papası kimi, Siz əsrlər boyu mövcud olan ənənələrin hüdudlarını cəsarətlə aşmısınız. Siz dini, irqi, milli mənsubiyyətindən asılı olmayaraq, bütün insanların və xalqların dostu kimi tanınmış, bütün dünyanın vətəndaşına çevrilmisiniz.

Həmişə öz dini dözümlülüyü, tolerantlığı ilə seçilən Azərbaycan xalqı Sizin fəaliyyətinizin bu nəcibliyini və insanpərvərliyini yaxşı başa düşür və yüksək qiymətləndirir.





Azərbaycan da daxil olmaqla, İslam dininin geniş yayıldığı ölkələrə Sizin səfərləriniz iki böyük dünya dini arasında sülhə və qarşılıqlı etimada xidmət edir.

Siz insanlar arasında şəfqət və rəhmdillik ideyaları təbliğ edir, ağır fəlakətə düşənlərə səbir və təsəlli diləyirsiniz. Azərbaycanda da belə fəlakət qurbanları var. Onlar qonşu Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində öz yurd-yuvalarını itirmiş bir milyondan çox azərbaycanlı qaçqınlardır. Bu insanlar Sizin xeyirxah sözünüzə, təsəllinizə ehtiyac duyurlar. Onlar haqqın öz yerini tutmasında Sizdən də kömək umurlar.

Zati-Müqəddəsləri!

Siz katolik kilsəsinin mövcud olduğu iki min ilə yaxın bir müddət ərzində Azərbaycana səfər edən ilk Roma Papasısınız.

Bu səfəri həyata keçirdiyiniz üçün Sizə minnətdarlığımı bildirir və "Azərbaycana xoş gəlmisiniz!" deyirəm.

## ROMA PAPASI II İOHANN PAVEL İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı, 22 may 2002-ci il*

Ali qonağı səmimiyyətlə, hörmət və ehtiramla salamlayan Prezident Heydər Əliyev onun dəvətini qəbul edib Azərbaycana rəsmi səfərə gəldiyinə görə Zati-Müqəddəsləri II İohann Pavelə minnətdarlığını bildirdi.

Azərbaycan Respublikasının müstəqilliyinin Vatikan dövləti tərəfindən rəsmən tanınmasının 10-cu ildönümü günü ərəfəsində Zati-Müqəddəslərinin ölkəmizə rəsmi səfərini tarixi hadisə kimi qiymətləndirən Prezident Heydər Əliyev II İohann Paveli dinindən, irqindən, milli mənsubiyyətindən asılı olmayaraq, bütün insanların və xalqların dostu kimi tanıdığını vurğuladı.

1997-ci ilin sentyabrında İtaliyaya rəsmi səfəri zamanı Müqəddəs Vatikanı ziyarət etdiyini, orada Zati-Müqəddəsləri ilə görüşdüyünü və ətraflı fikir mübadiləsi apardığını xatırlayan Prezident Heydər Əliyev II İohann Pavelin Azərbaycana gəlməsindən məmnunluq duyduğunu bildirdi.

Səmimi sözlərə, Azərbaycana rəsmi dəvətə və ona göstərilən qonaqpərvərliyə görə Prezident Heydər Əliyevə minnətdarlıq edən II İohann Pavel bu gözəl ölkəyə gəlməyindən böyük sevinc duyduğunu nəzərə çatdırdı.

II İohann Pavel həzrətləri respublikamıza rəsmi səfərinin Azərbaycan ilə müqəddəs Vatikan arasında diplomatik münasibətlər yaradılmasının 10-cu ildönümünə təsadüf etdiyindən çox məmnun qaldığını vurğuladı.

Vatikan dövlətinin başçısı II İohann Pavel Azərbaycan ilə Vatikan arasında qurulmuş əlaqələrdən razılıqla söhbət açdı, Prezident Heydər Əliyev ilə 1997-ci ildə Vatikanda keçirdiyi görüşləri, apardığı danışıqları həmişə xatırladığını söylədi.





Prezident Heydər Əliyev müstəqillik qazandıqdan sonra Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərdən, aparılan islahatlardan ətraflı söhbət açdı.

Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən dövlətimizin başçısı Heydər Əliyev Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal olunduğunu, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda ağır şəraitdə yaşadığını nəzərə çatdırdı. Prezident Heydər Əliyev bu münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə aradan qaldırılması sahəsində görülən işlərdən, danışıqlar prosesindən söhbət açaraq bildirdi ki, dünyanın nüfuzlu beynəlxalq təşkilatları və dövlətləri münaqişənin tezliklə həll edilməsi sahəsində səylərini artırmalıdırlar.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə hər iki tərəfi maraqlandıran bir sıra məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.

# ROMA PAPASI II İOHANN PAVELİN AZƏRBAYCANIN DİN, ELM VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞÜNDƏ NİTQ

*Prezident sarayı, 22 may 2002-ci il*



Zati-Müqəddəsləri!

Sizi Azərbaycan dövləti adından səmimiyyətlə salamlayıram. Sizə xalqımızın ən xoş hisslərini çatdırıram.

Sizin səfəriniz tarixi hadisədir, Azərbaycan dövlətinə olan hörmətinizin, bizim isə Avropa ilə bütünləşməyimizin təsdiqidir.

Siz Azərbaycana çox əlamətdar bir vaxtda gəlmisiniz. Sabah Vatikanın Azərbaycanın dövlət müstəqilliyini tanımasının 10 ili tamam olur. Belə bir günü məhz Azərbaycanda keçirmək niyyətiniz həqiqətən də nəcib diqqətlilik nümunəsidir.

Mən 1997-ci ilin sentyabrında İtaliya Respublikasına rəsmi səfərim çərçivəsində Vatikanı ziyarətimi və Sizinlə görüşümü böyük məmnunluq hissi ilə xatırlayıram. O zaman Sizinlə görüşüm və söhbətlərim mənə çox böyük təsir bağışlamışdı. Çox şadam ki, həmin görüşdə etdiyim dəvəti qəbul etmisiniz və Azərbaycana gəlmisiniz.





Siz müasir dünya tarixində mühüm rol oynayan şəxsiyyətsiniz, dini, irqi, milli sosial və siyasi fərqlərindən asılı olmayaraq, bütün insanlara xidməti özünün həyat idealına çevirmiş böyük humanistsiniz. Məhz buna görə Sizin yolunuz yalnız xristian katoliklərin yaşadığı ölkələrdən deyil, digər dinlərin, mədəniyyətlərin mövcud olduğu, insanların yaşadığı hər yerdən keçir. Bu gün həmin yol Sizi Azərbaycan torpağına gətirmişdir.

Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur.

Azərbaycanlılar artıq 1300 ildən çoxdur ki, İslam dininə etiqad edirlər. Onlar eyni zamanda, dini dözümlülükləri ilə seçilir, başqa xalqların dinlərinə və mədəniyyətlərinə ehtiramla yanaşırlar.

Digər dini icmalar kimi, katoliklər də Azərbaycanda hər zaman hörmət və etimad görmüşlər. Tarixçilərin verdiyi məlumatlara görə, Azərbaycanda ilk katolik icması XIX əsrin 30-cu illərində formalaşmağa başlamışdır.

XIX əsrin sonu - XX əsrin əvvəllərində katolik icmasının nümayəndələri Bakının mədəni-ictimai həyatında mühüm rol oynamış, xüsusən də səhiyyə, mədəniyyət və memarlıq sahələrində bu gün də minnətdarlıqla xatırlanan izlər qoymuşlar. 1912-ci ildə yerli katolik icmasının təşəbbüsü və əhalinin ianəsi ilə Bakının mərkəzi hissəsində "Müqəddəs Məryəm" kilsəsi ucaldılmışdı. Təəssüf ki, stalinizm dövründə İslam, Xristianlıq və Yəhudiliklə bağlı bir çox din ocaqları kimi, bu katolik məbədi də dağıdılmışdı. Din və etiqad sərbəstliyinin hökm sürdüyü Azərbaycanda indi digər dini icmalar kimi, katoliklər də bütün hüquq və azadlıqlara malikdirlər.

Zati-Müqəddəsləri!

Azərbaycan xalqı özünəməxsus və nadir bir mədəniyyət yaratmışdır. Bu mədəniyyətin əsasında müsəlman və xristian sivi-

lizasiyalarının sintezi dayanır. Orta əsrlərdən etibarən Azərbaycan mədəniyyəti Şərq ilə Qərb, müsəlman və xristian dünyaları arasında bir körpü olmuşdur. Zəngin müsəlman sivilizasiyasının nailiyyətləri bir sıra hallarda Azərbaycan alimlərinin, fikir adamlarının səyi nəticəsində Qərbin və bütün insanlığın mənəvi sərvətinə çevrilmiş, Qərb dəyərləri isə İslam dünyasında yayılmışdır.

Azərbaycan xalqı kökü Avropadan gələn yenilikçi ideyalara yiyələnmək baxımından həmişə öncül yerlərdən birini tutmuşdur. Bu özünü elm, təhsil, mədəniyyət sahəsində xüsusilə aydın göstərmişdir. Biz bu gün haqlı olaraq fəxr edirik ki, müsəlman Şərqində yeni tipli məktəblər, demokratik mətbuat, qadın təhsili, seçmək və seçilmək hüququ ilk dəfə Azərbaycanda reallığa çevrilmiş, 1918-ci ildə bütün İslam dünyasında Avropa tipli ilk dövlət – Azərbaycan Xalq Cümhuriyyəti bizim ölkəmizdə qurulmuşdur.

Artıq 10 ildən çoxdur ki, biz müstəqil dövlətimizdə yaşayırıq. Bu on il ərzində ciddi dəyişikliklərə nail olmuşuq. Mühüm iqtisadi islahatlar həyata keçiririk. Keçmiş irsdən imtina edərək, demokratik islahatlar yolunu tutmuşuq. Yoxsulluğa qarşı mübarizə aparırıq.

Mənəvi dəyərlərimizi dirçəldirik. İnsan haqlarının qorunmasına, əsas hüquq və azadlıqların təmin edilməsinə çalışırıq.

Biz tarixi seçimimizi etmişik, yəni öz ənənələrimizdən qopmadan, milli simamızı itirmədən Qərb dünyasına, onun humanist və çağdaş dəyərlərinə üz tutmuşuq.

Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra biz böyük layihələr həyata keçiririk. Bu layihələr təkcə ticarət və iqtisadi mənfəət gətirmir, onlar həm də xalqları və mədəniyyətləri bir-birinə yaxınlaşdırır, inam və etimad mühiti yaradır, sivilizasiyalararası dialoqa xidmət edir.

Əlbəttə, regionumuzda ciddi problemlər, həllini tapmamış münaqişələr olmasaydı, uğurlarımız daha çox olardı. Bunu deyərkən, mən ilk növbədə Ermənistanla Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsini nəzərdə tuturam. Bu region





ən qədim zamanlardan bəri Azərbaycan torpağı kimi tanınmışdır. Burada yerli azərbaycanlılarla ermənilər sülh və dostluq şəraitində yaşamışlar. Ermənistanın bu bölgəyə haqsız iddiası və ölkəmizə hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilib, 20 min nəfərdən çox azərbaycanlı həlak olub, 50 min nəfər yaralanmışdır. Çoxsaylı tarix və mədəniyyət abidələri həmişəlik yer üzündən silinmişdir. İbadət yerləri və qəbiristanlıqlar dağıdılmışdır. Ən dəhşətlisi isə budur ki, artıq on ilə yaxın bir müddət ərzində bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın vəziyyətində yaşayır. Onların məskunlaşdıqları çadır şəhərcikləri erməni işğalı nəticəsində Azərbaycanın necə bir humanitar fəlakətlə üzləşdiyi haqqında aydın təsəvvür yaradır. Biz bütün dünyanın, ilk növbədə isə şəfqət və rəhmliliyi öz başlıca prinsipi hesab edən Vatikanın bu insanların vəziyyəti ilə daha yaxından maraqlanmalarını istərdik.

1994-cü ildə atəşkəs elan olunmuşdur. Artıq 8 ildir ki, ağır və çətin sülh danışıqları aparırıq. Biz münaqişənin dinc yolla nizamlanmasının tərəfdarıyıq. Regionda yenidən hərbi əməliyyatların başlanmasını, qan tökülməsini istəmirik. Lakin dinc yolla nizamlama beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalı, ədalətli və daimi sülhə zəmin yaratmalıdır. Yalnız belə olduqda qədim Qafqaz torpağında asayiş və tərəqqiyə qovuşmaq, nifaq və qarşıdurmanı aradan qaldırmaq olar. Yalnız belə olduqda minlərlə insana fəlakət gətirən terrorçuluğun, aqressiv separatçılığın, milli və dini ədavətlərin ağır nəticələrini dəf etmək mümkündür.

Zati-Müqəddəsləri!

Sizin Azərbaycana qısamüddətli, lakin zəngin səfər proqramınızda din, elm və incəsənət xadimləri ilə görüşə xüsusi yer ayırmağınız əlamətdar hadisədir. Bəşəriyyətin qədim kitablarından biri olan Bibliyada deyilir ki, insanı yaşadan təkcə çörək deyil, həm də ilahi dərgahdan gələn Sözdür. Din, elm, mədəniyyət və incəsənət xadimləri həmin ilahi Sözün insanlara çatdırılmasını təmin edirlər, onların əxlaqını gözəlləşdirir, mənəvi cəhətdən saf-

laşmalarına, təmizlənmələrinə yardım göstərirlər. Düşünürəm ki, bütün bu nəcib işləri görmək, böyük və müdrik Sözü demək Sizin də səfərinizin başlıca məqsədlərindən biridir. İki gün ərzində Sizinlə təmasda olan, ibrətli kəlamlarınızı dinləyən hər bir azərbaycanlı Sizin timsalınızda yer üzündə insan ömrünün necə yaşanmalı olduğu haqqında daha dərindən fikirləşəcəkdir.

Bu mühüm və məsuliyyətli anları minlərlə Azərbaycan vətəndaşına yaşatdığınız üçün Sizə minnətdarlığımı bildirirəm. Təşəkkür edirəm.

* * *

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev ölkəmizin tanınmış elm, mədəniyyət, incəsənət, idman xadimlərini pontifikə təqdim etdi, II İohann Pavel onlara xatirə hədiyyələri təqdim etdi və ən yaxşı nemətlər dilədi.





## VATİKAN DÖVLƏTİNİN BAŞÇISI, ROMA PAPASI II İOHANN PAVELİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ BAŞA ÇATDIQDAN SONRA TƏNTƏNƏLİ YOLASALMA MƏRASİMİ

*23 may 2002-ci il*



Vatikan dövlətinin başçısı II İohann Pavel və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Binə beynəlxalq hava limanına gəldilər.

Azərbaycanın və Vatikanın dövlət bayraqları ilə bəzədilmiş Binə hava limanının binasında Roma Papasının iri portreti asılmışdı.

Ali qonağın şərəfinə hava limanının uçuş meydanında fəxri qarovul dəstəsi düzülmüşdü.

Fəxri qarovul dəstəsinin rəisi Vatikan dövlətinin başçısı II İohann Pavelə və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə raport verdi.







Prezident Heydər Əliyev və Roma Papası II İohann Pavel üçüş meydançasında qurulmuş xüsusi tribunada əyləşdilər.

Hərbi orkestrin ifasında Vatikanın və Azərbaycanın dövlət himnləri səsləndi.

Yolasalma mərasimində iştirak edən Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, nazirlər, dini konfessiyaların başçıları, Azərbaycanda akkreditə olunmuş bir sıra xarici ölkələrin səfirləri və beynəlxalq təşkilatların nümayəndələri Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavellə, ali qonağı səfərdə müşayiət edən şəxslər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə mehribancasına sağollaşdılar.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Roma Papasına onun ölkəmizə rəsmi səfərini əks etdirən fotoalbom təqdim etdi.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Milli geyimli uşaqlar II İohann Pavelə gül-çiçək dəstəsi təqdim etdilər.

**Heydər Əliyev:** Sizə çox təşəkkür edirəm. Azərbaycana səfər etdiyiniz üçün Sizə minnətdarlıq edirəm, səfəriniz çox yaxşı keçdi. Mən çox məmnunam. Sizin səfəriniz Azərbaycanda çox yaxşı qarşılanmışdır. Siz gördünüz, bu gün Sizinlə görüşməyə nə qədər adam gəlmişdi. Sizin səfərinizə çox böyük maraq var. Bir daha Sizə təşəkkür edirəm, işlərinizdə uğurlar, cansağlığı və yaxşı yol arzulayıram.

**II İohann Pavel:** Bakıya səfərimin yüksək səviyyədə təşkil olunmasından məmnun qaldığımı bildirirəm. Mənə göstərilən qonaqpərvərliyə görə Prezident Heydər Əliyevə və Azərbaycan xalqına dərin minnətdarlığımı bildirirəm.

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Vatikan dövlətinin başçısı, Roma Papası II İohann Pavel ilə təyyarənin pilləkəni yanında səmimiyyətlə sağollaşdı.*

*Roma Papası Azərbaycan Dövlət Hava Yolları Şirkətinə məxsus xüsusi təyyarə ilə Bolqarıstana yola düşdü.*

* * *

**Klaudio Qucerotti** *(Vatikan dövlətinin Azərbaycandakı apostol nunsisi):* Cənab Prezident, Sizin tərəfinizdən edilən bu xeyirxahlıq Müqəddəs Ataya böyük təsir bağışladı. Siz onun da şahidi oldunuz ki, müəyyən çətinliklərə baxmayaraq, Müqəddəs Atanın özü istəyirdi ki, bu səfər baş tutsun. Biz böyük sevinc hissi ilə demək istəyirik ki, O, buraya gələndə hətta Sizin gözlərinizdən sevinc hissi duyulduğunun şahidi olduq.

Cənab Prezident, Bakıda katolik kilsəsinin tikilməsi üçün yer ayırdığınızı eşidəndə çox şad olduq. Hesab edirik ki, bu kilsə belə bir gözəl ölkədə belə gözəl xalq üçün öz töhfəsini verəcəkdir.

**Heydər Əliyev:** Sağ olun, təşəkkür edirəm. Mən də çox şadam ki, nəhayət, Roma Papası, Zati-müqəddəsləri II İohann Pavelin Azərbaycana səfəri baş tutdu. O, Azərbaycanda çox böyük sevinc hissi ilə qarşılanıbdır. Siz gördünüz ki, onu nə qədər məhəbbətlə, nə qədər hərarətlə qarşılayırdılar.

Dünən Azərbaycanın elm, mədəniyyət, incəsənət xadimləri ilə görüşümüz də çox yüksək səviyyədə keçdi və insanlar bunu çox müsbət qiymətləndirirlər. Bu gün İdman sarayında keçirdiyiniz tədbir də camaatda çox böyük maraq doğurmuşdur.

Roma Papasının Azərbaycana bu səfəri tarixi hadisədir. Bu bizim xalqımızın tarixinə yazılıbdır. Mən bütün bunlara görə çox təşəkkür edirəm.

**Klaudio Qucerotti:** Cənab Prezident, çox sağ olun. Bircə onu demək istəyirəm ki, dünənki görüşümüzdə gördük ki, Azərbaycanın həqiqətən çox yaxşı uşaqları vardır. Onların oxuduğu mahnıları eşitdik. Bunlar həmişəlik bizim qəlbimizdə qaldı. Cənab Prezident, mən sevinirəm ki, Siz öz xalqınızla fəxr edirsiniz.

**İosif Daniil Pravda** *(Bakıdakı katolik kilsəsinin rəhbəri):* Cənab Prezident, Müqəddəs Atanı Azərbaycana dəvət etdiyinizə, səfərin yüksək səviyyədə təşkil olunmasına və bu ziyarətin uğurla başa çatmasına görə Sizə və Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm.





## "QAFQAZDA SÜLH NAMİNƏ ƏMƏKDAŞLIQ" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSA

Hörmətli konfrans iştirakçıları!

Sizi – qardaş Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilən beynəlxalq konfransın iştirakçılarını səmimi salamlayır, hamınıza sülh, cansağlığı, səadət və xoşbəxtlik arzulayıram.

Gürcü Pravoslav Kilsəsi, Qafqaz Müsəlmanları İdarəsi və Gürcüstanın Etnik və Konfessional Əlaqələr Mərkəzi tərəfindən Tbilisi Dövlət Universiteti ilə birlikdə belə bir konfransın keçirilməsi faktı öz-özlüyündə çox yüksək qiymətə layiqdir. Din və elm xadimlərinin, müxtəlif konfessiya və xalqların nümayəndələrinin belə səmərəli əməkdaşlığı, şübhəsiz ki, dinlərin və mədəniyyətlərin dialoqunda yeni uğurların qazanılmasına xidmət edəcəkdir.

Məlumdur ki, Qafqaz öz coğrafi-siyasi mövqeyinə, dini, etnik və dil mənzərəsinin rəngarəngliyinə görə dünyanın nadir guşələrindən biridir. Məhz burada, Avropa ilə Asiyanın qovuşuğunda uzun əsrlər boyu təşəkkül tapmış dialoq və qarşılıqlı anlaşma mühiti dini və mənəvi dəyərlərin nadir sisteminin yaranmasına gətirib çıxarmış, tarixə Qafqaz mədəniyyəti kimi daxil olmuş belə nadir bir fenomeni formalaşdırmışdır. Bu fenomeni səciyyələndirən yüksək etnik və dini tolerantlıq, qarşılıqlı ehtiram və mehriban qonşuluq ənənələri, milli və ümumbəşəri dəyərlərin ahəngdar birləşməsi, sözsüz ki, konfransınızın uğurlu işini şərtləndirən amillərdəndir.

Bu gün dövlətlərimiz keçid dövründə bütün postsovet respublikalarına xas olan bir çox siyasi, sosial, iqtisadi və mədəni problemlərlə üzləşirlər. Təəssüflə qeyd etmək lazımdır ki, bu problemlərin həll olunması burada mürəkkəb münaqişələrin mövcud olması ilə daha da çətinləşir. Bölgədə sülhün və əmin-amanlığın bərqərar olmasında maraqlı olmayan müxtəlif dağı-

dıcı qüvvələr milli və dini ədavət toxumları səpir, qarşıdurma ocaqlarının saxlanılması üçün hər cür çirkin vasitələrə əl atırlar. Qafqazda sülhə və əmin-amanlığa təhlükə törədən bütün əməllərin qarşısının alınması hamımızdan sülh naminə daha sıx əməkdaşlıq tələb edir. İnanıram ki, konfransınız Ümumqafqaz evimizdə sülhün, sabitliyin və inkişafın əldə edilməsi yolunda mühüm bir addım olacaqdır.

Qoy Ulu Tanrı bölgəmizdə sülhün və əmin-amanlığın bərqərar olmasına, bütün Qafqaz xalqları üçün layiqli həyatın təmin olunmasına yönəldilmiş nəcib fəaliyyətinizdə sizə kömək etsin.

Sizə uğurlar diləyirəm.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 17 iyul 2002-ci il*





## TÜRKİYƏNİN DİNİ İŞLƏR İDARƏSİNİN RƏİSİ MEHMET NURİ YILMAZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDƏRKƏN SÖHBƏTİNDƏN

*Prezident sarayı, 22 iyul 2002-ci il*



**Mehmet Nuri Yılmaz:** Hörmətli cumhur başqanım, hər dəfə Azərbaycana gəldikdə ölkənizin daha da inkişaf etdiyini görürük. Bu dəfə də Bakını gəzdik, həqiqətən, ölkənizdə böyük inkişaf olduğunu müşahidə etdik. Təbiidir ki, zati-alinizin rəhbərliyi sayəsində Azərbaycan daha da irəli gedəcək, inkişaf edəcəkdir. Allahdan Sizə cansağlığı diləyir, gələcəkdə də uğurlar əldə etməyinizi arzulayırıq. Azərbaycanın indi qarşılaşdığı ən böyük çətinlik torpaqlarınızın bir hissəsinin işğal edilməsi və bir milyo-

na qədər insanın qaçqın durumunda olmasıdır. Dağlıq Qarabağ problemi həll edildikdən sonra qaçqınlığın aradan qaldırılması nəticəsində Azərbaycanın inkişafına mane olan əngəl aradan qaldırılacaqdır.

Bizim buraya gəlməyimiz Tbilisidəki beynəlxalq toplantı keçirilməsi ilə bağlıdır. Bu toplantı çox yararlı oldu və Şeyxin dəvəti ilə Azərbaycanı ziyarət etməyi qərara aldıq. Əslində, Azərbaycan türkdilli cümhuriyyətlər içərisində ən çox dəyər verdiyimiz ölkədir. Həm ölkənizi ziyarət etmək, həm də dini məsələlərlə bağlı Şeyxülislamla və cənab Rafiq Əliyevlə görüşlər keçirmək məqsədilə gəlmişik. Onlarla görüşlərimiz çox yararlı oldu. Burada bizim din xadimlərimiz xidmət etməkdədirlər. Yeni qəbul etdiyiniz qanuna uyğun olaraq, bunları bir əsasa bağlamaq lazımdır. Bununla bağlı bir anlaşma hazırladıq. İnşaallah, yaxın vaxtlarda, Türkiyədə imzalayıb həyata keçirəcəyik.

Biz hər cür fanatizmin əleyhinəyik. Azərbaycanda xidmət göstərən din xadimlərinin də buna mühüm diqqət və həssaslıq göstərmələrini istəyirik. İlahiyyat fakültəsində həm Türkiyədən, həm də Azərbaycandan dərs deyən müəllimlər, məscidlərdə xidmət edən din xadimləri çox diqqətlə seçilməlidir. Din insanlara düzgün anladıldıqda ölkələr inkişaf edər. Lakin din xurafata bürünmüş halda insanlara anladılarsa, o vaxt hər bir ölkə geri qala bilər. Biz Türkiyədə və Azərbaycanda din anlayışları arasında fərq olmadığını görürük və bundan da məmnunluq duyuruq.

**Heydər Əliyev:** Türkiyə ilə bizim aramızda dostluq, qardaşlıq əlaqələri çox yüksək səviyyədədir. Biz bunu qiymətləndiririk. "Biz bir millət, iki dövlətik" demişik və işlərimizi bu prinsiplər əsasında qururuq və bundan sonra da quracağıq.

Cəmiyyətdə dinin rolu haqqında söylədiyiniz fikirlər tamamilə doğrudur. Türkiyə ilə Azərbaycan arasındakı fərq ondan ibarətdir ki, Türkiyədə din heç vaxt yasaq olmayıbdır. İnsanlar həmişə dinə inamlarını, etiqadlarını həyata keçiriblər və dindən ayrılmayıblar. Amma sovet hakimiyyəti qurulandan sonra, təkcə Azərbaycanda deyil, Sovetlər İttifaqının bütün ərazisində din yasaq edildi, onunla mübarizə aparıldı. Ona görə də dini idarələrin hamısı ya dağıdıldı, ya da məhv oldu. Amma din insanların qəlbində yaşadı, nəsildən-nəslə keçməklə yaşadı.





Sovet İttifaqı dağılandan, Azərbaycan müstəqilliyini əldə edəndən sonra insanlara vicdan azadlığı, yəni din azadlığı verildi. Ötən on il ərzində Azərbaycanda bu siyasət həyata keçirilir. Doğrudur, bundan mənfi hallar üçün istifadə etmək istəyən qüvvələr də var. Yaxud da ki, ayrı-ayrı ölkələrdən Azərbaycana dini fanatizmi, dini ekstremizmi yaymaq istəyənlər də var.

Məlumdur ki, dünyada dindən istifadə edərək terrorizmlə məşğul olan qüvvələr də var. Buna görə də dini ekstremizm, eyni zamanda, terrorizmlə də bağlanıbdır. Bu da müxtəlif ölkələrdə həm insanlara, xalqlara, həm də dövlətlərə çox zərər verir. Biz çalışmalıyıq ki, ölkələrimizdə xalqlarımızın vicdan azadlığını təmin edərək, eyni zamanda, xaricdən, yaxud da daxildən ayrı-ayrı qüvvələr tərəfindən dini fanatizmin, ekstremizmin və bunun altında terrorizmin həyata keçirilməsi hallarına yol verməyək.

Bu işi biz Azərbaycanda aparırıq və aparacağıq. Bu, bizim üçün əsas məsələlərdən biridir. Ancaq məlumdur ki, sizin də bəzi din xadimləriniz ayrı-ayrı dairələrlə əlaqədə olaraq öz planlarını həyata keçirmək istəyirlər. Lakin Türkiyədə bunun qarşısı çox ciddi alınır. Biz bunu bilirik.

Bizim müstəqil dövlətdə din dövlətdən ayrıdır. Din dövlətin işinə qarışa bilməz. Dövlət də dinin işinə qarışa bilməz. Ancaq təəssüflər olsun, bəziləri istəyir ki, Azərbaycanda idarəetmə işləri din qaydasında olsun, yaxud da burada İslam dövləti yaransın. Bunlar xəyaldır, kim belə düşünürsə, bu yollara getmək istəyirsə, o, böyük risk edir. Çünki bunların qarşısını biz kəskin şəkildə alacağıq. Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət yaradırıq. Biz heç vaxt imkan vermərik ki, yaratdığımız bu gənc dövlətin xarakteri hansısa qüvvələr tərəfindən dəyişdirilə bilsin. Bu məsələlərdə Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq,

bir-birinə yardım etmək zəruridir. Sizin imzalayacağınız sənəd bu məqsədləri həyata keçirməyə yönəlibsə, mən bunu dəstəkləyirəm. Biz xalqımızın mənəvi dəyərlərinin inkişafı üçün dindən də istifadə etməyə çalışmalıyıq. İndi bu da çox vacibdir, aktualdır.

Biz dünyəvi dövlət quraraq, eyni zamanda, imkan verə bilmərik ki, milli-mənəvi dəyərlərimiz tapdalansın və millətimizə, milli-mənəvi dəyərlərimizə yabançı olan hansısa dəyərlər tətbiq olunsun. Təəssüf olsun ki, gənclər arasında belə işlər görməyə çalışan qüvvələr də vardır. Ona görə də gənclərin tərbiyəsinə diqqət yetirmək lazımdır. Gənclərimiz həm fiziki cəhətdən, həm də mənəvi cəhətdən sağlam olmalıdırlar. Bu da həm sizin, həm də bizim vəzifəmizdir.





## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Sizi yəhudilərin qədim dövrlərdən bəri bayram etdikləri Roş-Ha-Şana – Yeni il münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı və xoşbəxtlik arzularımı yetirirəm.

Müstəqilliyimizin bərpasından ötən illərdə Azərbaycanda yaşayan bütün xalqların milli-mədəni özünəməxsusluğunu, adət-ənənələrinin qorunub saxlanılması, dil və mədəniyyətlərinin inkişafı üçün hərtərəfli hüquqi-demokratik şərait bərqərar edilmişdir. Digər milli azlıqlar kimi, yəhudilər də Azərbaycanda heç zaman ayrı-seçkiliyə məruz qalmamış, öz dilini, mədəniyyətini, milli tarixi irsini qoruyub saxlayaraq respublikamızın ictimai-siyasi və elmi-mədəni həyatında yaxından iştirak etmişlər. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, yəhudi vətəndaşlarımız bu gün də müstəqil, demokratik dövlət quruculuğu prosesində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirir, Azərbaycanın tərəqqisi və daha da çiçəklənməsi üçün qüvvə və bacarıqlarını əsirgəmirlər.

Əziz dostlar!

Roş-Ha-Şana – yenilik, mənəvi saflıq, xoş müjdələr bayramıdır. Qoy bu əziz gün hamınızın həyatına sevinc, ailələrinizə səadət gətirsin.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 5 sentyabr 2002-ci il*

# "DEMOKRATİK CƏMİYYƏTDƏ DİNİN VƏ ƏQİDƏNİN ROLU: TERRORİZMƏ VƏ EKSTREMİZMƏ QARŞI MÜBARİZƏ YOLLARININ ARAŞDIRILMASI" MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA NİTQ

*Gülüstan sarayı, 10 oktyabr 2002-ci il*



ATƏT, Azərbaycan hökuməti və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu tərəfindən təşkil olunmuş iki günlük konfransda ATƏT-in üzvü olan ölkələrin, bu təşkilatın təsisat və missiyalarının nümayəndələri, beynəlxalq təşkilatların, qeyri-hökumət və hüquq müdafiəsi təşkilatlarının ekspertləri, dini konfessiyaların başçıları, Milli Məclisin deputatları, Prezidentin İcra Aparatının şöbə müdirləri, xarici ölkələrin Azərbaycandakı səfirləri, nazirliklərin rəhbərləri iştirak edirlər.

Konfrans müasir demokratik cəmiyyətdə, habelə münaqişələrin qarşısının alınmasında və aradan qaldırılmasında, terrorizmə və ekstremizmə qarşı mübarizədə dinin və əqidənin rolu haqqında məsələlərin müzakirəsinə, habelə Böyük İpək Yolu məkanında dinlərarası və mədəniyyətlərarası dialoqun əhəmiyyətinə həsr olunmuşdur. Konfransın gedişində iştirakçılar ATƏT-in din və əqidə azadlığı haqqında qərarlarının yerlərdə daha səmərəli həyata keçirilməsinin üsulları barədə öz təkliflərini verəcək, münaqişələrin həllində və terrorizmə, ekstremizmə və dözümsüzlüyə qarşı mübarizədə dinlər və mədəniyyətlər arasında dialoqun rolunu müzakirə edəcəklər.

**Heydər Əliyev:** Hörmətli konfrans iştirakçıları!

Xanımlar və cənablar!

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Azərbaycan hökumətinin dəstəyi və yardımı ilə bu gün Bakıda keçirdiyi beynəlxalq konfrans əlamətdar hadisədir. Müasir dövrdə olduqca böyük məna kəsb edən bu konfransın iştirakçılarını Azərbaycan dövləti adından salamlayıram, konfransın işinə uğurlar arzulayıram.

11 sentyabr hadisələri dünyanın siyasi mühitində və geostrateji proseslərdə əsaslı dəyişikliklər edərək hər bir ölkə üçün böyük təhlükə olan terrorizmin dəhşətli simasını bizə bir daha nümayiş etdirdi. Tarixdə terrorizmin güclənməsi ilə bağlı bir çox dövrlər olub, hətta bəzi hallarda terrorizm dövlət səviyyəsinə qaldırılaraq bütöv xalqların varlığına düşmən kəsilib.

11 sentyabr hadisələri isə bəşər tarixinə misli görünməmiş bir faciə kimi əbədi daxil olacaq. Bu dəhşətli terror aktının qurbanlarının xatirəsini bu gün bir daha yad etməyi özümə borc bilirəm.

Qloballaşan dünyada hamımız bir-birimizə daha yaxın olmuşuq. Xalqlararası, mədəniyyətlərarası, dinlərarası dialoqun bu gün dərin məna kəsb etməsi də məhz bununla bağlıdır. Bu dialoqu inkişaf etdirərək, bu dialoqa dəstək verərək biz müəyyən mənada terrorizmin formalaşmasına xidmət edən bütün qaynaqları araşdırıb onu kökündən məhv etməyə can atmalıyıq.

Bu gün terrorizm bir çox hallarda din pərdəsi altında, dini libasda özünü büruzə verir. Bu bizi onun əsl mahiyyətindən yayındırmamalıdır.

Vaxtilə terrorizm Böyük fransız inqilabının bəşəriyyətə bəxş etdiyi gözəl şüarlar altında öz həqiqi niyyətlərini ört-basdır etmək istəyirdi. "Qırmızı terror"u gerçəkləşdirən komissarlar kommunist ideologiyası bayrağı altında bunu həyata keçirirdilər.

Bu gün isə terrorçu qüvvələr qərəzli siyasi məqsədlərə nail olmaq naminə bəzi hallarda hamımız üçün müqəddəs olan ümumbəşəri dəyərlərə müraciət edərək bu və ya digər qrupun mənafeyini müdafiə etmək üçün terrora haqq qazandırmağa çalışırlar. Bu gün terrorizm müxtəlif dini pərdələr arxasında gizlənərək diqqəti öz pozucu və dağıdıcı məqsədlərindən daha mahir bir şəkildə yayındırmağa cəhd göstərir. Bu pərdə, bu libas, bu xarici görkəm bizi çaşdırmamalıdır. Bütün bu libaslar altında terrorizmin əsl vəhşi sifəti görünür.

Terrorizmə "yox" deyən bəşəriyyət bütün səylərini səfərbər edərək onun mənəvi, iqtisadi, siyasi köklərini məhv etməyə can atmalıdır. Əminəm ki, sizin konfransınız bu istiqamətdə atılan ciddi addımlardan biri olacaq və demokratik cəmiyyətdə terrorizmə və ekstremizmə qarşı mübarizə yollarının araşdırılmasında uğurlar əldə edəcəkdir.

Hörmətli konfrans iştirakçılarının nəzərinə bir daha çatdırmaq istərdim ki, Azərbaycan 11 sentyabr hadisələrindən sonra antiterror koalisiyasına qoşuldu və beynəlxalq terrorizmlə ciddi mübarizə aparan bir ölkə kimi, bir sıra inzibati və təşkilati tədbirlərin bilavasitə iştirakçısı oldu.

Bizim son illər ərzində beynəlxalq konvensiyalara qoşulmağımız və mühüm hüquqi sənədlər qəbul etməyimiz göstərir ki, ölkəmizdə terrorizmlə mübarizə üçün artıq müvafiq qanunvericilik bazası tam formalaşdırılıb. Azərbaycanın Cinayət Məcəlləsində bir sıra dəyişikliklər edilib, o cümlədən terrorizmi maliyyələşdirdiyinə görə məsuliyyət haqqında xüsusi maddə əlavə edilib. 2002-ci ilin may ayında mən xüsusi bir sərəncamla terrorizmə qarşı mübarizəyə yönəlmiş və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qərarlarına uyğun olan tədbirlər planını təsdiq etmişəm.





Əlbəttə, Azərbaycan hökumətinin terrorizmlə və ekstremizmlə bağlı əməli fəaliyyəti yuxarıda qeyd etdiyim konkret faktlarla məhdudlaşmır. Ölkədə sərhəd rejiminin gücləndirilməsi, qeyri-qanuni miqrasiya kanallarının aşkar edilib qarşısının alınması, terror fəaliyyətinin maliyyələşdirilməsinə yönəldilməsi ehtimal olunan maliyyə vəsaitinin, müxtəlif iqtisadi mənbələrin aşkar edilməsi və digər istiqamətlərdə bir çox işlər görülmüşdür.

Azərbaycan xalqının və ümumən bizim bölgəmizin həyatında böyük əhəmiyyət kəsb edən bir sıra layihələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin təhlükəsizliyinin təminatı terrorizmə qarşı apardığımız mübarizəmizin ayrılmaz bir tərkib hissəsidir.

Beynəlxalq terrorizmlə mübarizəyə yönəlmiş bir sıra layihələrdə Azərbaycan fəal iştirak edir və mən ATƏT-in üzvü olan ölkələrin nümayəndələrini bu konfrans vasitəsilə bir daha əmin etmək istərdim ki, terrorizmin bütün formalarına qarşı mübarizədə Azərbaycan dövləti sizin etibarlı müttəfiqinizdir. Biz hesab edirik ki, terrorizm bəşəriyyətə qarşı yönəldilmiş qəddar əməllərin və niyyətlərin gerçəkləşməsinə xidmət etdiyi üçün onunla aparılan mübarizə də ardıcıl, mütəşəkkil və amansız olmalıdır.

Bununla yanaşı, xüsusi qeyd etmək istərdim ki, Dünya Birliyinin terrorizmə qarşı apardığı mübarizədə fəal iştirak edən Azərbaycan xalqı 15 ildən artıqdır ki, terrorizmə və ayrı-ayrı terrorist təşkilatlarının qanlı aksiyalarına məruz qalır. 1987-ci ildən başlayaraq Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafında cərəyan edən hadisələr zamanı minlərlə insan qətlə yetirildi, uşaq, qadın və qocalar məhv edildi, məcburi köçkünə və qaçqına çevrildi. Onların yeganə günahı azərbaycanlı olduqlarından ibarət idi.

Həmin dövrdə SSRİ rəhbərliyi Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün mərkəzin yeritdiyi məqsədyönlü siyasətə qarşı çıxmağa cəsarət edən Azərbaycan xalqına açıq-aşkar divan tutmaq yolunu seçdi. Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların 1990-cı il yanva-

rın 20-də fövqəladə vəziyyət elan olunmadan Bakını işğal etməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklərlə müşayiət edildi. 137 nəfər günahsız insan qətlə yetirildi, 611 nəfər müxtəlif dərəcədə xəsarət aldı.

Azərbaycan xalqının inamını və iradəsini qırmaq, sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədi ilə törədilən 20 Yanvar faciəsi totalitar kommunist rejiminin xalqımıza qarşı dəhşətli cinayəti idi.

XX əsr tarixində totalitarizmin həyata keçirdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsi mahiyyət etibarı ilə həm də bəşəriyyətə, humanizmə, insanlığa qarşı yönəldilmişdir. Təəssüf ki, bu dəhşətli cinayətin təşkilatçıları da, icraçıları da indiyədək cəzasız qalmışlar.

20 Yanvar hadisələrindən sonra Azərbaycan ərazisinə Ermənistandan terrorçu dəstələr göndərilməsi prosesi gücləndi, Azərbaycana qarşı silahlı təcavüzü həyata keçirmək üçün əməliyyat meydanı yaradıldı.

Erməni yaraqlılarının Qazax rayonunun bir sıra kəndlərində dinc əhalini qırması, Azərbaycanın Naxçıvan bölgəsinin kəndlərinə hücumları artıq sübut edirdi ki, əslində terrorçu dəstələr bütün sərhəd boyu Azərbaycanın dinc əhalisinə divan tutur.

Azərbaycanı Naxçıvan ilə birləşdirən dəmir yolunun 130 kilometrlik sahəsində Dağlıq Qarabağ münaqişəsinin ilk çağlarından fasiləsiz terror aktları başlandı və bunun nəticəsində dəmir yol əlaqəsi kəsildi. Naxçıvan əslində tam təcrid olundu, blokada vəziyyətinə düşdü.

BMT-nin Təhlükəsizlik Şurası öz qətnamələrində Azərbaycanın suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmətini, ərazilərin ilhaq edilməsi üçün zor işlədilməsinin yolverilməz olduğunu təsdiq etdi, bütün işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb etdi.

BMT-nin Təhlükəsizlik Şurasının bütün tələblərinə baxmayaraq, Ermənistan Azərbaycan ərazisinin 20 faizini hələ də işğal





altında saxlayır və orada özünün hərbi qüvvəsini artırır. Bizim bir milyondan artıq vətəndaşımız məcburi köçkün və qaçqın vəziyyətindədir. Onlardan hər biri əslində terrorizmin qurbanıdır.

Mən bu gün konfrans iştirakçılarının qarşısında xüsusi vurğulamaq istəyirəm ki, əgər Dağlıq Qarabağda yaranmış bu terrorçu dəstələrin əməllərinin qarşısı vaxtında alınsaydı, iki qonşu xalq böyük bir faciənin nəticələrinin aradan qaldırılması problemləri ilə üzləşməzdi.

Təəssüf ki, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağda və onun ətrafında terrorçu birləşmələr bu gün də fəaliyyət göstərir. İşğal olunmuş və nəzarətdən çıxmış ərazilərin mövcud olması terrorçu və cinayətkar qrupların fəaliyyəti üçün münbit zəmin yaradır.

Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin 2001-ci il üçün məruzəsində qeyd olunduğu kimi, bu gün də Azərbaycanın işğal olunmuş ərazisində silah və narkotik tranziti, çirkin pulların yuyulması ilə məşğul olan müxtəlif beynəlxalq terrorçu təşkilatların üzvləri sığınacaq tapırlar. Buna son qoymaq bizim borcumuzdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında ATƏT-in Minsk qrupunun, digər qurumların və qüvvələrin bütün səylərinə baxmayaraq, məsələ öz həllini hələ də tapmayıb.

Bu konfransda mən bir daha bəyan etmək istərdim ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin əsasında dini və etnik problemlər durmur.

Azərbaycan öz geosiyasi mövqeyinə, etnik və dini mənzərəsinin rəngarəngliyinə görə Qafqazın, bəlkə də dünyanın unikal guşələrindən biridir. Məhz burada – Avropa ilə Asiyanın qovuşuğunda, Böyük İpək Yolunun üstündə yerləşən Azərbaycanda zərdüştlük, atəşpərəstlik kimi qədim dini inanclar öz izlərini qoymuş, İslam, xristian və yəhudi dinləri əsrlər boyu dialoq və qarşılıqlı anlaşma mühitində dinc yanaşı yaşamış və gördüyümüz kimi, indi də yaşamaqdadır.

Azərbaycan çoxkonfessiyalı bir ölkədir. Bu baxımdan o, dünyada dinlərarası, mədəniyyətlərarası əlaqələrin genişlənməsi və möhkəmləndirilməsi işinə öz layiqli töhfəsini verəcəkdir. Əminəm ki, bugünkü konfrans da belə töhfələrdən biri olacaq. Bununla bağlı mən konfransın keçirilməsi haqqında qərarın tarixçəsini qısaca yadınıza salmaq istəyirəm.

2001-ci ilin dekabrında Buxarestdə keçirilmiş görüşün yekunları terrorizmlə mübarizəni gücləndirmək baxımından xüsusilə səmərəli olmuşdur.

Yadımdadır, cənab Jerar Ştudmanla 2002-ci ilin əvvəlində biz Bakıda görüşərkən "Dinin demokratik cəmiyyətdə rolu" mövzusunda beynəlxalq seminarın keçirilməsi ətrafında fikir mübadiləsi apardıq və qərara gəldik ki, belə bir forumun öz etnik və dini dözümlülüyü ilə seçilən Bakı şəhərində çağırılması bir çox cəhətdən məqsədəuyğundur.

Sonra isə bu tədbirin əhəmiyyətini və orada ATƏT-in üzvü olan, onunla əməkdaşlıq edən ölkələrin yüksək səviyyəli nümayəndələrinin iştirak edəcəyini nəzərə alaraq onu seminar yox, "ATƏT-in Bakı konfransı" adlandırmaq qərara alındı.

Zənnimcə, bu mühüm konfransın Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsi haqqında qərarımız tamamilə düzgün bir qərar idi.

Azərbaycan əhalisinin mütləq əksəriyyəti İslam dininə etiqad etdiyinə görə, müsəlman ölkəsidir. Biz qürur hissi ilə qeyd edirik ki, Azərbaycan, onun alim və mütəfəkkirləri tarixdə böyük iz qoyan möhtəşəm İslam sivilizasiyasına öz layiqli töhfələrini vermişdir. 1998-ci ildə Bakı şəhərində "İslam sivilizasiyası Qafqazda" mövzusunda keçirilmiş geniş tərkibli beyəlxalq simpoziumda müxtəlif ölkələrin nümayəndələri tərəfindən bu barədə ətraflı söhbət aparılmışdır.

Azərbaycan öz Konstitusiyasına görə, həm də dünyəvi bir dövlətdir. Dövlət ilə dini qurumlar arasındakı münasibətlər Azərbaycan Respublikası Konstitusiyasının müvafiq müddəaları ilə, "Dini etiqad azadlığı haqqında" Qanunla və digər qanun-





vericilik aktları ilə tənzimlənir. Biz dini ilk növbədə mədəniyyətin, tarixi irsin, milli mentalitetimizin bir fenomeni və ayrılmaz bir hissəsi kimi qəbul edirik.

Məlumdur ki, yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür. İnsanlarda belə bir mədəniyyətin formalaşdırılmasını uşaqlıq illərindən başlamaq lazımdır. Ölkəmizdə yetişməkdə olan nəslin təhsillənməsində müasir elmi-pedaqoji konsepsiyalar daxilində biz ünsiyyət mədəniyyətini, dini dözümlülük və əməkdaşlıq mədəniyyətini formalaşdırmağa cəhd göstəririk və ümumən desək, buna nail oluruq. Bunu demək çox asandır, lakin gerçəkləşdirmək kifayət qədər mürəkkəb bir prosesdir.

Tarixdə elə dövrlər olmuşdur ki, cəmiyyətin həyatında dinin oynadığı rol düzgün qiymətləndirilməmişdir. Totalitar rejimlərin və ideologiyaların süquta uğradığı indiki dövrdə dinlərin cəmiyyətin həyatında oynadığı rol dinamik şəkildə dəyişir. Müsbət proseslərlə yanaşı, bəzi qüvvələrin dinlərdən terrorizmə və ekstremizmə təhrik vasitəsi kimi istifadə etmək halları da artır. Bax, belə halların baş verməsinin qarşısının qətiyyətlə alınması üçün cəmiyyətin bütün təbəqələrinin, xüsusilə siyasətçilərin, alimlərin, dindarların və din xadimlərinin səfərbər edilməsi zəruridir. Dialoqa və əməkdaşlığa hazır olan bütün insanlar üçün sizin konfrans gözəl imkan yaradır.

Hörmətli konfrans iştirakçıları!

Bu gün bəşəriyyət bir sıra qlobal problemlərlə üzləşir. Əfsuslar olsun ki, bu problemlər olduqca çoxdur: düzgün iqtisadi inkişaf strategiyalarının müəyyən edilməsindən tutmuş, ta müxtəlif ekoloji məsələlərin həllinə qədər. Bu problemləri araşdırarkən hər birimiz nəzərə almalıyıq ki, dünyada gedən mürəkkəb proseslərdə bizim üçün ən böyük zinət və nemət insanın özüdür.

İnsanın daxili dünyası, onun dünyagörüşü, onun təhsili, elmi, mədəniyyəti, onun varlığı və daxili aləmini müəyyən edən bir çox amillər, o cümlədən onun hüquqları cəmiyyət tərəfindən daim qorunmalıdır. İlk növbədə isə biz hər bir insanın həyatına cavabdehik: əgər terrorizm insan həyatını təhlükəyə məruz edirsə, deməli, bizim sivilizasiya təhlükə altındadır.

Məhz bütün insanların gələcəyi naminə, bəşər sivilizasiyasının gələcəyi naminə biz hamımız mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoqunda ümumi dil taparaq ekstremizmə, terrorizmə, təcavüzkar separatçılığa dəstək verən qara, şər, pozucu qüvvələrin niyyətlərini puça çıxara bilərik. Bu çətin, lakin şərəfli yolda sizin hamınıza uğurlar diləyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.





## VATİKAN DÖVLƏTİNİN BAŞÇISI PAPA II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ

Möhtərəm Papa həzrətləri!

Vatikan dövlətinin milli bayramı – Müqəddəs taxta əyləşmə günü münasibətilə Sizi və bütün katolikləri səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası və Vatikan dövləti arasındakı dostluq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, uzun ömür, müqəddəs amallar naminə fədakar işinizdə uğurlar arzulayıram.

Hörmətlə,

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 12 oktyabr 2002-ci il*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz bacı və qardaşlar!

Sizi dünya müsəlmanlarının mübarək Ramazan bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Müqəddəs kitabımız Qurani-Kərimin nazil edildiyi Ramazan ayı İslam dininin mənəviyyatı möhkəmləndirmək, müsəlmanlar arasında dini-mənəvi birlik duyğusunu gücləndirmək, ilahi hikmətlərdən daha da faydalanmaq işinə xidmət edən ən mübarək aylarından biridir. Ramazan ayının sınaqlarından ləyaqətlə çıxmış hər bir müsəlman bu gün böyük qürur və fərəh hissi ilə bayram edir.

Öz milli və dini dəyərlərinə, tarixi ənənələrinə həmişə sadiq qalmış Azərbaycan xalqı da bütün dünya müsəlmanları ilə həmrəylik göstərərək müqəddəs Ramazan bayramını böyük təntənə ilə qeyd edir. İnanıram ki, müsəlman bacı və qardaşlarımız sülh, əmin-amanlıq, bərabərlik rəmzi olan Ramazan bayramı günlərində cəmiyyətdə mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi yolunda daha böyük əzmkarlıq nümayiş etdirəcəklər.

Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyünün müdafiəsi uğrunda şəhid olmuş qəhrəman oğul və qızlarımızın xatirəsini bu əziz bayram günündə yad edərək, hamısına rəhmət, onların yaxınlarına, bütün xalqımıza səbir diləyirəm.

Ölkəmizdən kənarda yaşayan bütün soydaşlarımıza salamlarımı və bayram təbriklərimi yetirirəm. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, demokratik cəmiyyət quruculuğu və xalqımızın firavan həyata qovuşması yolunda apardığınız işlərdə hamınıza uğurlar arzulayıram!

Bu əziz bayram günündə hər birinizə cansağlığı və xoşbəxtlik diləyirəm.

Ramazan bayramınız mübarək olsun.

Hörmətlə,

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 4 dekabr 2002-ci il*





## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ MÜSƏLMAN ÖLKƏLƏRİNİN ÖLKƏMİZDƏKİ SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı, 4 dekabr 2002-ci il*



**Heydər Əliyev:** Hörmətli səfirlər!

Mən sizi müsəlmanların müqəddəs bayramı – Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə, təmsil etdiyiniz ölkələrin hökumətinə və xalqlarına sülh, əmin-amanlıq, rifah arzu edirəm.

Ramazan bayramı müsəlmanların müqəddəs bayramlarından biridir. Bu bayram həmişə müsəlmanlara xeyir-bərəkət gətirib, sülh, əmin-amanlıq gətirib, dostluq-mehribanlıq gətiribdir. Təəssüflər olsun ki, biz Azərbaycanda bu bayramı yalnız son illər ümummilli bayram, xalq bayramı kimi qeyd edirik. Yəni son illərə qədər belə bayram etməmişik, indi edirik. Keçmiş illərdə Sovet İttifaqının hər yerində olduğu kimi, Azərbaycanda da dini

bayramlar yasaq edildiyinə görə, bu bayramlar qadağan olunduğuna görə insanlar bunları öz ailəsində, evində, qəlbində bayram ediblər.

Xatirimdədir, mən uşaq idim, valideynlərim oruc tuturdular, bu bayramı da qeyd edirdilər. Biz uşaq kimi, bu bayramdan öz bəhrəmizi götürürdük. İndi isə müstəqil Azərbaycanda, müsəlman ölkəsində bu bizim milli bayramımızdır, dövlət bayramımızdır, xalqın bayramıdır. Biz bunu geniş qeyd edirik.

Biz Azərbaycanda bu bayramı qeyd edərkən, bütün dünyada yaşayan müsəlmanların hamısını təbrik edirik. Bu bayram münasibətilə dünya müsəlmanlarına yaxşı-yaxşı günlər arzulayırıq. Sizi bir daha təbrik edirəm, hər birinizə cansağlığı arzu edirəm.

**Əbdüqafur Əbdürrəhmanov** *(Özbəkistanın Bakıdakı səfiri)*: Möhtərəm cənab Prezident!

Əvvəla, artıq dərəcədə məşğul olmağınıza baxmayaraq, bu gün bizi qəbul etməyə imkan tapdığınıza görə Sizə böyük minnətdarlığımı bildirirəm.

Bu gün mənim üzərimə böyük və şərəfli missiya düşübdür. Müsəlman ölkələrinin səfirləri adından zati-alinizi və Sizin simanızda Azərbaycan xalqını müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirəm.

Bu bayram bütün müsəlman aləmi ilə birlikdə Azərbaycanda da geniş qeyd olunur. Bu günlər hər bir müsəlmanın müqəddəs borcu öz yaxınlarına, yaşlı nəslə və ətrafındakı insanlara dərin hörmətlə yanaşmaqdır. Bu bayram zamanı dünyasını dəyişənlərə, yaxın qohumlara və dostlara ehtiram və hörmət bildirilir, məzarlar ziyarət olunur, xeyriyyə tədbirləri keçirilir və hər bir müsəlman kasıblara, kimsəsizlərə və yetim uşaqlara yardım edir.

Qətl və zorakılığı tam inkar edən, xeyirxahlığı və səbri təbliğ edən İslam dininin insansevərliyi, demokratikliyi bu bayramda özünü tam mahiyyəti ilə göstərir. Təəssüf ki, yüz minlərlə günahsız insanların ölümünə bais olan ayrı-ayrı qüvvələr öz cinayətlərini ört-basdır etmək üçün İslam dinindən istifadə edirlər.

Keçən ilin 11 sentyabrında Amerika Birləşmiş Ştatlarında,





habelə başqa ölkələrdə baş vermiş dəhşətli terror aktları ekstremistlər tərəfindən guya İslam bayrağı adı altında törədilmişdir. Əslində isə bu əməllər dünya ictimaiyyətinin gözündə İslam dininə zərbə vurmuşdur. Məhz buna görə, indi İslam dininin heç vaxt olmayan ciddi müdafiəyə ehtiyacı var. Birinci növbədə, öz siyasi ambisiyalarını həyata keçirmək məqsədi güdən terrorçulardan müdafiəyə ehtiyacı var. Digər tərəfdən, dinimizin haqsız iddialardan da qorunmağa, siyasətdən və ekstremizmdən uzaq olan Qurani-Kərimin qanunlarının da düzgün təhlil edilməsinə ehtiyacı var.

Burada iştirak edən həmkarlarımın fikirlərini ifadə edərək, bildirmək istəyirəm ki, biz Azərbaycanda siyasi və iqtisadi islahatların həyata keçirilməsində böyük nailiyyətlərlə yanaşı, dini sahədə də müsbət meyilləri müşahidə edirik. Sizin ölkədə müxtəlif konfessiyaların nümayəndələri üçün tolerantlıq mühiti və qanuni vicdan azadlığı yaradılmışdır. Bütün bu nailiyyətlər Sizin böyük həyat təcrübəniz, beynəlxalq aləmdəki nüfuzunuz, öz vətəninizə və xalqınıza böyük məhəbbətiniz nəticəsində mümkün olmuşdur.

Hörmətli cənab Prezident!

İcazə verin, bu görüşdə iştirak edən həmkarlarım adından Sizi Ramazan bayramı münasibətilə bir daha təbrik edim. Sizə cansağlığı, uzun ömür, ölkənizdə inkişaf və əmin-amanlıq yolunda apardığınız fəaliyyətdə böyük uğurlar diləyirəm. Sizin simanızda bütün Azərbaycan xalqına xoşbəxtlik, sülh və firavanlıq arzu edirəm.

**Heydər Əliyev:** Cənab səfir, çox dəyərli sözlərinizə, fikirlərinizə görə sağ olun, mən sizə təşəkkür edirəm. Bayram etmək lazımdır. Düzdür, mən burada sizə bayram süfrəsi açmamışam. Mən sizi sözlə təbrik edirəm. Amma bilirəm ki, hər biriniz böyük bayram süfrəsi açmısınız, açacaqsınız, həm özünüz, həm də yaxınlarınızla birlikdə bu bayramı keçirəcəksiniz. Mən də belə edəcəyəm. Sağ olun.

* * *

*Azərbaycan Prezidenti Heydər Əliyev səfirlərlə xatirə şəkli çəkdirdi, onların hər biri ilə səmimi görüşdü, bir daha təbrik etdi, təmsil etdikləri ölkələrin dövlət başçılarına onun salamını çatdırmağı xahiş etdi.*

*Müsəlman ölkələrin səfirləri Prezident Heydər Əliyevi Ramazan bayramı münasibətilə ayrı-ayrılıqda səmimi-qəlbdən təbrik etdilər, öz ölkələrinin dövlət və hökumət rəhbərlərinin təbriklərini və məktublarını yetirdilər.*





## AZƏRBAYCANIN PRAVOSLAV İCMASINA

Əziz həmvətənlər!

Sizi – ölkəmizin bütün pravoslav xristianlarını müqəddəs Milad bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

İsa peyğəmbərin mövludu ilə əlamətdar olan Milad bayramı bütün dünyada xristianların əsas bayramlarından biri kimi həmişə təntənə ilə qeyd olunur. Xristianlığın yayıldığı ilk ölkələrdən olan Azərbaycan torpağında da Milad bayramı sülh, əmin-amanlıq, nikbinlik rəmzi kimi geniş şəkildə keçirilir. Xüsusi geosiyasi məkanda yerləşən ölkəmizdə dinlər və mədəniyyətlər arasında əsrlər boyu yaranmış dialoq və qarşılıqlı əlaqə xalqımızda dini dözümlülük və tolerantlıq kimi yüksək mənəvi keyfiyyətlər formalaşdırmışdır. Məhz bunun sayəsində də müxtəlif dinlərin nümayəndələri Azərbaycanda mehribanlıq, əmin-amanlıq, qarşılıqlı ehtiram şəraitində yaşayaraq milli-irqi ayrı-seçkilik, dini dözümsüzlük zəminində hər hansı qarşıdurma halları ilə üzləşməmişlər.

Öz tarixi ənənələrinə sadiq qalan müstəqil Azərbaycan Respublikasında vətəndaşların vicdan və dini etiqad azadlığı qanunvericiliklə təsbit edilərək təmin olunmuş, hər bir insanın öz dini ayin, mərasim və bayramlarını sərbəst keçirməsi üçün münasib şərait yaradılmışdır. Azərbaycanın digər dini icmalarının nümayəndələri kimi, pravoslav xristianları da Konstitusiyanın onlara verdiyi hüquqlardan geniş istifadə edərək ölkəmizin siyasi, ictimai, iqtisadi və mədəni həyatında fəal iştirak edir, Azərbaycanın inkişafı naminə böyük quruculuq işlərinin uğurla həyata keçirilməsində öz qüvvələrini əsirgəmirlər. Cəmiyyətimizin ayrılmaz hissəsini təşkil edən xristian icmasının Azərbaycan Respublikasında gedən siyasi-ictimai proseslərin qiymətləndirilməsində, ölkəmizin taleyüklü məsələlərinin həlli yolunda nümayiş etdirdiyi əsl vətəndaşlıq mövqeyi təqdirəlayiqdir.

Əziz bayramınız – İsa peyğəmbərin mövludu münasibətilə hamınızı bir daha təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik, doğma Azərbaycanımızın çiçəklənməsi naminə gördüyünüz işlərdə böyük uğurlar, ailələrinizə əmin-amanlıq və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 4 yanvar 2003-cü il*





## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz bacı və qardaşlar!

Sizi bütün dünya müsəlmanlarının müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir. İnsanları bir-birinə daha da doğmalaşdıran bu bayram günündə ürəklərdən kin-küdurət silinir, fədakarlıq və şəfqət hissləri güclənir, doğma və yaxın adamlar yad olunur, əzizlərin ruhlarına dualar oxunur.

Azərbaycanın müstəqilliyi və torpaqlarımızın toxunulmazlığı uğrunda canlarından keçmiş övladlarımıza bu mübarək bayramda Allahdan rəhmət diləyir, onların ailələrinə və yaxınlarına səbir arzulayıram. Ümidvar olduğumu bildirirəm ki, doğma ocaqlarından didərgin düşmüş həmvətənlərimizin öz yurd-yuvalarına qayıtmaları üçün bu müqəddəs bayram günlərində edilən arzu və niyyətlər gerçək olacaqdır. Qoy bütün böyük milli və dini bayramlarımız kimi, mübarək Qurban bayramı da xalqımızın yüksək ideallar ətrafında daha sıx birləşməsini təmin etsin, azad, müstəqil və demokratik Azərbaycan dövlətinin gələcək inkişafı naminə bütün azərbaycanlılar arasında ümummilli həmrəyliyi möhkəmləndirsin!

Sizi Ulu Tanrının İslamı bir din kimi tamamlayıb insanlara bəxş etdiyi bu əziz bayram günündə bir daha ürəkdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 10 fevral 2003-cü il*

# BAKIDA RUS PRAVOSLAV KİLSƏSİNİN YENİDƏN TİKİLMİŞ BAŞ KAFEDRAL KİLSƏSİNİN AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*24 mart 2003-cü il*



*Azərbaycan Prezidenti Heydər Əliyevi məbədin qarşısında ölkənin dini konfessiyalarının rəhbərləri səmimiyyətlə qarşıladılar. Azərbaycan Prezidentinə duz-çörək təqdim olundu.*

Ölkə Prezidentinə ehtiram əlaməti olaraq kilsə zəngi çalındı.

*Dövlətimizin başçısı kilsəyə daxil olarkən onu dini nəğmələrlə salamladılar.*

*Mərasimi Moskvanın və bütün Rusiyanın müqəddəs Patriarx II Aleksinin nümayəndəsi Gedeon Ata açaraq Rus Pravoslav Kilsəsi başçısının Azərbaycan Prezidenti Heydər Əliyevə, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Hacı Allahşükür Paşazadəyə təbrik məktubunu oxudu.*





**Heydər Əliyev:** Bakı və Xəzəryanı bölgənin hörmətli yepiskopu!

Rus ruhanilərinin hörmətli nümayəndələri!

Hörmətli xanımlar və cənablar!

Azərbaycanın pravoslav xristianlarının həyatında, bütün Azərbaycanın həyatında belə böyük hadisə – Bakıda Baş Kafedral kilsənin açılışı münasibətilə sizin hamınızı təbrik edirəm.

XX əsrdə, ümumən, Xristian dini, İslam dini kimi, bu məbəd də çox mürəkkəb dövrlər keçirmişdir, böyük sınağa məruz qalmışdır. Bir çox onilliklər boyu rus pravoslav əhalinin dini ayinlər icra etdiyi yer olan bu məbəd 1920-ci ildə bağlanmış, yepiskop isə öldürülmüşdür. Azərbaycan ziyalılarının, Azərbaycanın din xadimlərinin də aqibəti belə olmuşdur. Ötən əsrin 20-30-cu illərində onların bir çoxu günahsızcasına repressiya olunmuş, hər şeydən məhrum edilmişdir.

Ancaq tale elə gətirdi ki, keçən əsrin 90-cı illərinin əvvəllərində Sovetlər İttifaqı dağıldı, Azərbaycan öz dövlət müstəqilliyinə qovuşdu. Təbii ki, Azərbaycan xalqı, Azərbaycan hökuməti azadlıqdan, müstəqillikdən istifadə edərək öz həyatını lazım bildiyi kimi qurmağa başladı. Əlbəttə, bununla əlaqədar Azərbaycanda yaşayan bütün xalqlar üçün keçmişdə əziz olmuş, xidmət etmiş çox şey, o cümlədən də bu Baş Kafedral kilsə bərpa edilməyə başladı.

Doğrudur, bu işə birdən-birə girişmək mümkün olmadı, ona görə ki, ötən əsrin 90-cı illərində Azərbaycanda baş verən məlum hadisələr üzündən rus pravoslav əhalinin bir hissəsi ölkəmizdən köçüb getdi, qalanları isə, Azərbaycan xalqının özü kimi, həyatlarının çətin dövrünü yaşadılar. Lakin sizə məlum olduğu kimi, 1993-cü ildən etibarən biz ölkəmizdə qayda-qanun yaratmağa başladıq və tədricən ictimai-siyasi sabitliyin bərqərar edilməsinə nail olduq.

Müstəqil Azərbaycan dövləti qarşısında duran vəzifələri həyata keçirərək, hüquqi demokratik cəmiyyət quraraq, ötən illər ərzində çox şeyə nail olmuşuq. Sovet hakimiyyəti illərində Azərbaycan xalqı üçün qadağan edilənlərin çoxu bərpa olundu,

xalqın, insanların istifadəsinə verildi, o cümlədən yepiskopluq yaradıldı, səhv etmirəmsə, 1998-ci ildə o, Bakı və Xəzəryanı bölgə yepiskopluğu statusu aldı. Yeri gəlmişkən, bu, yəni Bakı və Xəzəryanı bölgə yepiskopluğu Sovet hakimiyyətindən əvvəl də mövcud idi. 1934-cü ilədək bir çox onilliklər ərzində mövcud olmuş, amma sonralar bunların hamısı ləğv edilmişdir. Şükür ki, bunların hamısını bərpa etmək, pravoslav xristianlara və bütün xristianlara bu dini təşkilatın imkanlarından bəhrələnməyə şərait yaratmaq mümkün oldu. Budur, həmin fəaliyyətin nəticəsi göz qabağındadır və bu qədim məbəd bərpa edilmişdir.

Bu baxımdan böyük iş görülmüşdür. Yepiskop həzrətləri, bu məbədin bərpası üçün göstərdiyiniz səylərə görə Sizə təşəkkür edirəm. Əlbəttə, bu məbədin bərpası üçün çox iş görmüş Rusiya biznesmeni, azərbaycanlı Aydın Qurbanovun fəaliyyəti də yüksək qiymətə layiqdir.

Bu gün o öz xidmətlərinə görə Rus Pravoslav Kilsəsinin təbrik məktubunu və yüksək mükafatını aldı.

Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir. Mən şadam ki, burada hamı bunu qeyd etdi və bu, həqiqətən, belədir. Azərbaycanda heç vaxt dini zəmində heç bir münaqişə, heç bir toqquşma olmamışdır. Hətta ötən əsrin 80-ci illərinin axırı, 90-cı illərinin əvvəllərindəki ağır dövrdə belə, heç bir mənfi fakt qeydə alınmamışdır. Bu gün də, müstəqil Azərbaycanda biz hər bir insanın azadlığı üçün, o cümlədən dini mənsubiyyət azadlığı, vicdan azadlığı üçün hər cür şərait yaratmışıq. Hər kəs hansı dinə mənsubdursa, həmin dinə ibadət edir. Lakin bu, Azərbaycanda insanların mehriban, qarşılıqlı anlaşma şəraitində yaşamasına mane olmur, burada milli və dini mənsubiyyətlə əlaqədar heç bir ayrı-seçkilik yoxdur.

Yeri gəlmişkən, bununla əlaqədar mən Azərbaycan ruhaniləri, o cümlədən şeyx həzrətləri Allahşükür Paşazadənin, yepiskop həzrətləri Aleksandrın və yəhudi icması başçısının birgə fəaliyyətini, onların öz aralarında çox mehriban dostluq münasibətləri, tam qarşılıqlı anlaşma yaratdıqlarını xüsusi qeyd etmək istəyirəm.

Azərbaycanda dini konfessiyalar arasındakı belə qarşılıqlı münasibətlər, hesab edirəm ki, bir çox ölkələr üçün nümunə ola bilər. Mən bu xeyirxah işə görə dini rəhbərlərimizə təşəkkürümü bildirirəm və inanıram ki, onlar bu əməkdaşlığı daha da inkişaf etdirəcək və genişləndirəcəklər.

Bir sözlə, rus pravoslav əhali Azərbaycanda özünü normal hiss edir və Prezident kimi bu gün bəyan edirəm ki, bundan sonra da Azərbaycanda azad yaşaya, işləyə, sevimli işi ilə məşğul ola, ölkəmizin ictimai həyatında fəal iştirak edə bilər və mən bunun üçün yalnız minnətdar olaram. Zənnimcə, bu Baş Kafedral kilsənin açılması pravoslav xristianların və bütün xristianların birləşməsinə kömək edəcək və eyni zamanda, Azərbaycanda xalqlar arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə və inkişafına xidmət edəcəkdir.

Bununla əlaqədar mən Rusiya ilə bizim mehriban münasibətlərimizdən danışmaq istərdim. Rusiya ilə Azərbaycan arasında dostluq, tərəfdaşlıq münasibətləri mövcuddur. Biz bu münasibətləri yüksək qiymətləndiririk, onların inkişafına və möhkəmlənməsinə çalışırıq, bütün imkanlardan, xüsusilə də iqtisadi əməkdaşlıqdan istifadə edirik. Rusiya Prezidenti cənab Putinin Azərbaycana səfəri, Azərbaycan Prezidentinin Rusiyaya cavab səfəri, digər çoxsaylı görüşlərimiz hər bir mərhələdə münasibətlərimizi təhlil etməyə və onların inkişafı üçün tədbirlər görməyə imkan yaradır. Bu gün də bu Baş Kafedral kilsənin açılışı Rusiya ilə Azərbaycan arasında dövlətlərarası münasibətlərin daha da inkişaf etdirilməsi üçün bir addımdır, özü də böyük addımdır.

Mən bu böyük hadisə münasibətilə sizin hamınızı bir daha təbrik edirəm, hər bir pravoslav xristianına, Azərbaycanın hər bir sakininə cansağlığı, xoşbəxtlik, əmin-amanlıq, işində uğurlar arzulayıram.

Hörmətli dostlar!

Bakı və Xəzəryanı bölgənin yepiskopu Aleksandr həzrətləri!

Siz Azərbaycandakı pravoslav ruhanilərə başçılıq etməklə yanaşı, ölkəmizin ictimai həyatında fəal iştirak edir və xalqlarımız arasında münasibətlərin möhkəmləndirilməsi üçün çox işlər görürsünüz. Bununla əlaqədar, mən öz Fərmanımla Bakı və Xəzəryanı bölgənin yepiskopu Aleksandrı Azərbaycanın ali mükafatı – "Şöhrət" ordeni ilə təltif etmişəm.

Fürsətdən istifadə edərək, bu təntənəli gündə sizin hüzurunuzda həmin yüksək mükafatı Aleksandr həzrətlərinə təqdim etmək və ona cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və çox vacib işində böyük uğurlar arzulamaq istəyirəm.





# RUM PATRİARXI I VARFOLOMEY VƏ ONU MÜŞAYİƏT EDƏN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı, 17 aprel 2003-cü il*



**I Varfolomey:** Cənab Prezident, Sizinlə təkrar görüşməyimdən böyük şərəf duyduğumu vurğulayıram. İstanbulda NTV telekanalının bir tədbirində Sizinlə görüşmüşdük. Türkiyənin doqquzuncu cümhur başqanı hörmətli Süleyman Dəmirəl də orada idi. Sizə plaket təqdim olundu. Sonra Qocaeli Universitetində yeni dərs ilinin açılışında təkrarən görüşdük, hörmətli Süleyman Dəmirəlin doğum günü idi. Siz gözəl xeyir-dualar söylədiniz, ona Azərbaycandan hədiyyələr gətirmişdiniz. Mən də iştirakçılar arasında idim.



Zati-aliləri, məmləkətimizi Sizin nə qədər sevdiyinizi bilirik və oradan Sizə salamlar və xeyir-dualarımızı gətirmişik. Dünəndən bəri Azərbaycanda olmağımızdan son dərəcə məmnunuq. Bu ziyarətimiz, Azərbaycan ləhcəsi ilə desək, bu səfərimiz dinlərarası dialoqu daha irəliyə aparmaq üçündür.

Bizə göstərilən səmimi qəbul və qonaqpərvərlik çərçivəsində bu ziyarətimizin amalının gerçəkləşəcəyinə ümidvarıq. Sizin yüksək şəxsinizdə bütün Azərbaycan xalqını məhəbbətlə salamlayırıq, uca Allahdan məmləkətinizi, millətinizi və dəyərli şəxsinizi hər pislikdən, çətinlikdən qorumasını niyaz edirik.

Cənab Prezident, son aylarda Amerika Birləşmiş Ştatlarında əməliyyat keçirdiyinizdən xəbərimiz vardı və Sizə şəfalar diləyirik. Bu yaxında qeyd edəcəyiniz doğum gününüzü də indidən təbrik edirik. Allahdan Sizə uzun ömür, cansağlığı arzulayırıq.

**Heydər Əliyev:** Zati-müqəddəsləri, əvvəlcə, gözəl sözlərinizə, bizim keçmişdəki görüşlərimizi xatırladığınıza və çox dəyərli fikirlərinizə görə təşəkkür edirəm. İkincisi, Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz. Sizin Azərbaycana gəlməyiniz bizim xalqımız, ölkəmiz üçün bir hadisədir. Çünki rəhbərlik etdiyiniz iş dünyada yeganə bir işdir. Ona görə də belə bir şəxsiyyətin Azər-





baycana ziyarət etməsi, təbiidir ki, böyük maraq doğurur. Mən bilirdim ki, siz gələcəksiniz. Televiziya vasitəsilə gördüm, ancaq təyyarədən düşən kimi, orada danışmağınızdan heyran oldum. Mən sizi xatırlayıram, sizi tanıyıram, amma türk dilində bu qədər gözəl danışmağınız məni heyran etdi. Onu da deyim ki, siz Azərbaycan dilinə yaxın bir ləhcədə danışırsınız. Deyə bilərəm ki, Azərbaycan ləhcəsində danışırsınız.

**I Varfolomey:** Cənab Prezident, İstanbulda sizin televiziyanın verilişlərini izləyirəm və yüzdə doxsanını anlayıram.

**Heydər Əliyev:** Çünki türk dili ilə Azərbaycan dili keçmişdə çox yaxın olubdur. Son dövrdə, məsələn, 30-40 il içərisində türk dilində müəyyən dəyişikliklər olubdur. Ona görə də Azərbaycan dili ilə fərqi bir az artıbdır.

Süleyman Dəmirəl də sizin kimi danışır, əski türk dilində danışırsınız. Əski türk dili də Azərbaycan dilinə daha da yaxındır. Türk dilindən savayı, bir çox başqa dilləri də bilirsiniz. Çox nadir, istedadlı şəxsiyyətsiniz. Ancaq, əlbəttə, kim mənim dilimdə, mənim millətimin, xalqımın dilində danışırsa, o mənə daha çox xoş gəlir. Ona görə televiziya ilə gördüm, eşitdim, sizə heyran oldum.

Sizin bu səfəriniz qısadır, amma çox görüşlər keçirmisiniz, çox işlər görmüsünüz. Görürəm ki, burada istirahətə imkanınız olmayıbdır. Ancaq mən arzu edərdim ki, siz Azərbaycanda bir az da istirahət edəsiniz.

*I Varfolomey minnətdarlıq edərək dedi ki, cənab Prezident, biz istirahət üçün gəlməmişik. Bu təmaslarda olmaq üçün gəlmişik və bu qədər faydalı keçdiyi üçün səfərimizdən çox məmnunuq. İstirahət başqa vaxt edərəm.*

*Prezident Heydər Əliyev vurğuladı ki, sizin gördüyünüz işlər dünyada sülhün, əmin-amanlığın, millətlərin bir-birinə yaxınlığının, dostluğunun təmin olunmasına yönəldilibdir. Azərbaycanda tolerantlıq yüksək səviyyədədir. Burada fərqli dinlər var, amma onların arasında münasibətlər tamamilə səmimi, dostluq münasibətləridir, heç kəs fərq qoymur ki, bu, Xristian dininə mənsubdur, bu, Yəhudi dininə mənsubdur, bu, müsəlman dininə mənsubdur.*

**I Varfolomey:** Zati-aliniz keçən dəfə Rus Ortodoks kilsəsinin açılışına qatılmışdı. Xalqınıza ən gözəl xidmətləri Siz edirsiniz.

**Heydər Əliyev:** Bəli, getmişdim. Çünki o kilsə uzun müddət xarab vəziyyətdə idi. Sonra Rusiyada yaşayan bir azərbaycanlı biznesmen bu işi üzərinə götürdü, onu çox gözəl bərpa etdi. Mənə dedilər ki, açılış var, dəvət etdilər. Amma dəvət etməsəydilər də, gedəcəkdim. Çünki bu bizim üçün böyük hadisədir. Orada həddindən çox adam vardı, içəri adamla dolu idi. Yaxşı ki, ekranlar qoymuşdular, içəridəki mərasimi eşikdə görürdülər.

**I Varfolomey:** Cənab Prezident, dünən həmin kilsəyə gedib dua etdik. Bakıda Müqəddəs Varfolomeyin şəhid olduğu yerdə, Qız qalasının yanında yeni bir ortodoks kilsəsi inşa edəcəyik. Biz buna çox sevindik. İnşallah, ən qısa zamanda bu iş həqiqətə çevriləcəkdir. Mən Müqəddəs Varfolomeyin ismini daşıyıram.

**Heydər Əliyev:** Bir halda ki, onun ismini daşıyırsınız, onda o kilsəni açanda siz də gəlməlisiniz.

**I Varfolomey:** Təşəkkür edirəm. Biz zati-alinizi yormaq istəmirik. Nə qədər məşğul olduğunuzu bilirik. Son olaraq, növbəti prezident seçkilərində yenə uğurlar qazanmağınızı diləyir və bunu istəyirik.

**Heydər Əliyev:** Siz burada qısa bir zamanda çox məsələləri dediniz. Birincisi, bizim görüşlərimizi, ikincisi, bizim münasibətlərimizi, üçüncüsü, bizim ölkəmiz barədə, dördüncü, mənim 80 yaşımın tamam olmasını.

Sizinlə danışmaq çox şirindir. Əgər mən qəbul etdiyim adamlarla belə şirin danışıqlar aparsaydım, çox yaxşı olardı. Bəzən mübahisə edirsən, sual verirsən, sual alırsan. Amma indi burada ləzzətli söhbət edirik.

Mən bir daha təşəkkürümü bildirirəm, hər şeyin Azərbaycan xalqının ürəyincə olmasını, uca Allahdan ölkənizin sülh və əmin-amanlıq içində yaşamasını diləyirəm.





## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA

Hörmətli həmvətənlər!

Sizi xristianların müqəddəs Pasxa bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və bayram əhval-ruhiyyəsi arzulayıram.

İnsanları sülhə, əmin-amanlığa çağıran və mərhəmət duyğusu oyadan bütün dini bayramlar kimi, bu bayram da əsrlərlə xristian aləminə mənsub olan insanlar arasında səmimiyyət və mehribanlığı artırmış, dostluq, qardaşlıq və həmrəylik rəmzinə çevrilmişdir. Bütün xristianların böyük sevinclə qarşıladıqları Pasxa bayramı onlara yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanı verir.

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra bu dini mərasimin pravoslav vətəndaşlarımız tərəfindən geniş şəkildə qeyd edilməsi ölkəmizdə dilindən, dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq, uzun əsrlər boyu bir yerdə yaşayan xalqlar arasındakı dini dözümlülüyün parlaq təzahürüdür. Ölkəmizin pravoslav xristianlarının hazırda Pasxa bayramını təntənə ilə qeyd etmələri Azərbaycan Respublikasında bu gün də hökm sürən tolerantlıqdan və konfessiyaların azad fəaliyyəti üçün yaradılmış imkanlardan bəhrələnməyin gözəl ifadəsi sayıla bilər.

Builki Pasxa ərəfəsindəki Bakıda Baş Kafedral kilsənin bərpa edilib istifadəyə verilməsi Azərbaycan pravoslav xristianlarının həyatında əlamətdar hadisə olmuşdur. Pravoslav əhalinin dini ayinlərini icra etdiyi bu məbədin keçən əsrin əvvəlində azərbaycanlı xeyriyyəçinin vəsaiti ilə tikilməsi və təxminən bir əsr sonra digər azərbaycanlı xeyriyyəçinin hesabına bərpa edilməsi ölkəmizdə dinlərarası dostluq və əməkdaşlıq münasibətlərini səciyyələndirən əyani misaldır.

Ümidvar olduğumu bildirirəm ki, müstəqil Azərbaycanımızın daha güclü olması naminə ölkəmizin qarşısında dayanan ümdə vəzifələrin həllində, cəmiyyətimizdə vətəndaş həmrəyliyinin tam bərqərar olması işində siz – xristian həmvətənlərimiz bundan sonra da öz bacarıq və səylərinizi əsirgəməyəcəksiniz.

Bayramınız mübarək olsun!

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 26 aprel 2003-cü il*





## QAFQAZ MÜSƏLMANLARININ XI QURULTAYINA

Hörmətli qurultay nümayəndələri!

Sizi – Qafqaz Müsəlmanlarının Bakı şəhərində keçirilən XI qurultayının nümayəndələrini səmimi-qəlbdən salamlayır, qurultayınızın işinə uğurlar arzulayıram.

Qafqaz qədim zamanlardan burada məskunlaşmış insanların formalaşdırdığı adət-ənənələrin, mənəvi dəyərlərin zənginliyinə görə dünyanın nadir bölgələrindən biridir. Qafqaz xalqlarının tarix boyu bəşər mədəniyyətinə verdiyi töhfələr olduqca sanballı və qiymətli olmuşdur. İslamın Qafqazda yayılması ilə region xalqlarının tarixində yeni bir dövr başlamış, müqəddəs kitabımız Qurani-Kərimin ilahi hökmləri insanların həyat tərzinə, milli-mədəni dəyərlərinin əsasını təşkil etmişdir. Bu dövrdən başlayaraq İslam sivilizasiyası Qafqaz xalqlarının sosial-iqtisadi, ictimai, elmi və mədəni inkişafına güclü təkan vermiş və regionun dahi şəxsiyyətləri də həmin sivilizasiyanın zənginləşməsi yolunda böyük xidmətlər göstərmişlər.

İslam dini sülh, qardaşlıq və əməkdaşlıq dinidir. 2001-ci il sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında törədilmiş faciəli hadisələr bütün sülhsevər qüvvələr kimi, müsəlman din xadimləri tərəfindən də birmənalı şəkildə pislənildi, eyni zamanda, terrorizmə din donu geyindirmək cəhdləri qətiyyətlə rədd edildi. Həqiqətən də, mərhəmət və şəfqət prinsiplərinə əsaslanan İslam dini hər hansı zorakılıq və terror halları ilə əlaqəsi ola bilməz.

Başqa dinlərlə dözümlülük, dinc yanaşı və anlaşma şəraitində yaşamaq İslam dininin nəcib xüsusiyyətlərindən biridir. Bu, tarix boyu Qafqazda da, Azərbaycanda da həmişə öz əməli ifadəsini tapmışdır. Biz iftixar hissi ilə deyə bilərik ki, bölgəmizdə dini zəmində heç vaxtı qarşıdırma halları olmamışdır. Belə bir hal Qafqaz müsəlmanlarının həmişə sülh və əmin-amanlığa dəvət edən İslami dəyərlərə sadiq olduğunu əyani şəkildə nümayiş etdirir. Bölgəmizdə bəzi siyasi qüvvələrin qərəzli şəkildə törətdikləri münaqişələrin, o cümlədən Qarabağ münaqişəsinin heç

bir dini və ya etnik səbəbi yoxdur. Bu, ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qənim kəsilmiş qüvvələrin apardıqları separatçılıq siyasətinin nəticəsidir. Bölgədə dini dözümlülüyün bərqərar edilməsi, münaqişələrin aradan qaldırılması yolunda Qafqaz Müsəlmanları İdarəsinin, müsəlman din xadimlərinin göstərdikləri səylər sabitliyin və əmin-amanlığın bərqərar edilməsi baxımından təqdirəlayiqdir. Azərbaycan öz müstəqilliyinin bərpa etdikdən sonra demokratik, hüquqi, dünyəvi dövlət qurmaq yolunu tutmuşdur və bu yolla da irəliləyir. Azərbaycan dövləti öz vətəndaşları üçün Konstitusiyada təsbit olunmuş bütün azadlıqların, o cümlədən vicdan azadlığının təmin edilməsinin öz siyasətinin əsas tərkib hissəsi hesab edir. Azərbaycanda formalaşmış dövlətin münasibətləri beynəlxalq aləmdə bu sahədə səmərəli və əlverişli model kimi qəbul edilir. Azərbaycan vətəndaşlarına islamın gözəl mənəvi dəyərlərinin aşılanması, onların bu zəmində tərbiyələndirilməsi cəmiyyətdə sağlam mənəviyyatın hökm sürməsi işinə öz güclü müsbət təsirini göstərir. Azərbaycan dövləti müsəlman din xadimlərinin bu sahədə apardıqları işi yüksək qiymətləndirir.

Hörmətli qurultay nümayəndələri!

Qafqaz Müsəlmanlarının XI qurultayını üçüncü minillikdə keçirilən ilk qurultaydır. Yeni əsr cəmiyyətin bütün təbəqələri, o cümlədən din xadimləri qarşısında yeni vəzifələrə, yeni tələblər qoyur. Əminəm ki, siz bu qurultayda Qafqaz müsəlmanlarının gələcək fəaliyyətinin həmin vəzifələrə uyğun qurulması, Ümumqafqaz məsələlərinin həll edilməsi, İslam dini dəyərlərinin təbliğ olunması üçün daha siz əməkdaşlıq məsələlərinin müzakirə edəcək və müvafiq qərarlar qəbul edəcəksiniz.

Yüksək amallara xidmət edən nəcib fəaliyyətinizdə sizə böyük uğurlar diləyir, hər birinizə cansağlığı və səadət arzulayıram.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 29 iyul 2003-cü il*





## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Sizi – respublikamızın yəhudi əhalisini Yeni il bayramınız – Roş-Ha-Şana – münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı və səadət arzulayıram.

Əsrlərdən bəri ölkəmizdə məskunlaşıb yaşayan yəhudilər heç zaman Azərbaycanda təqiblərə və ayrı-seçkiliyə məruz qalmamış, milli-mədəni özünəməxsusluğunu qoruyub saxlayaraq, respublikamızın ictimai-siyası və elmi-mədəni həyatında yaxından iştirak etmişlər. Azərbaycan milli müstəqillik qazandıqdan sonra respublikamızda yaşayan digər xalqların nümayəndələri kimi, yəhudilər də demokratik dövlət quruculuğu prosesində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirir, ölkəmizin tərəqqisi və inkişafı üçün əllərindən gələni əsirgəmirlər.

Əziz həmvətənlər!

Hər il Azərbaycanda təntənə ilə qeyd olunan Roş-Ha-Şana yenilik, tövbə, mənəvi saflıq bayramıdır.

Qoy bu bayram hamınızın həyatına xoş ovqat, ailələrinizə xoşbəxtlik və sevinc gətirsin.

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 26 sentyabr 2003-cü il*

## VATİKAN DÖVLƏTİNİN BAŞÇISI PAPA II İOHANN PAVEL HƏZRƏTLƏRİNƏ

Möhtərəm Papa həzrətləri!

Vatikan dövlətinin milli bayramı – Müqəddəs taxta əyləşmə günü münasibətilə Sizi və bütün katolikləri səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri, səmimi dialoq xalqımızın iradəsinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, humanizm idealları naminə nəcib fəaliyyətinizdə uğurlar, dost Vatikan xalqına xoşbəxtlik və firavanlıq arzulayıram.

Hörmətlə,

**Heydər Əliyev,**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 21 oktyabr 2003-cü il*



**Kitab "AzərTAc"ın materialları əsasında hazırlanmışdır**

«Elm və təhsil» nəşriyyatının direktoru:
**professor Nadir MƏMMƏDLİ**

Kitabı çapa hazırlayanlar:
**Nahid MƏMMƏDOV**
**Cahandar ƏLİFZADƏ**

Texniki redaktor:
**Oqtay ORUCOV**

Yığılmağa verilmişdir: 19.02.2014
Çapa imzalanmışdır: 26.12.2014
Şərti çap vərəqi 31.5. Sifariş № 225
Kağız formatı 70x100 1/16. Tiraj 1000

Kitab «Turan Print» MMC-nin sifarişi ilə
«Elm və təhsil» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.